# İSLAM
## MƏZHƏBLƏRİ İLƏ TANIŞLIQ

بسم الله الرحمن الرحيم


نام کتاب:.................................. آشنایی با مذاهب اسلامی
مولف:.................................................گروهی ازمحققین
مترجم:................................................. آقابالا مهدی اف
ناشر:.............................................................. .شهریار
تاریخ چاپ:.........................................................١٣٨٤
نوبت چاپ:...........................................................اول
تیراژ:................................................................ ٣٠٠٠

Kitabın adı:....İslam məzhəbləri ilə tanışlıq
Müəllif:..................................................Tədqiqat qrupu
Tərcümə edən:..................................Ağabala Mehdiyev
Naşir:.............................................................Şəhriyar
Çap növbəsi:......................................................Birinci
Tiraj:....................................................................٣٠٠٠
Çap tarixi:...........................................................٢٠٠٦

٩٦٤-٥٩٣٤-٥٠-٨

# MÜQƏDDİMƏ

Peyğəmbər (s) və onun mə᾽sum Əhli-beyti (ə) Qur᾽anın elmi əsaslarını yaşadaraq, cəmiyyətdə müqəddəs İslam dininin inqilabi və parlaq mədəni təməlinin əsasını qoymuşlar. Yaşadıqları cəmiyyətdə şəriət qanunlarının əməli olaraq, öz yerini tapması üçün İslam maarifini geniş surətdə təbliğ etmiş və insanların tə᾽lim-tərbiyəsində əllərindən gələni əsirgəməmişlər.

Müasir dövrdə də istismarçı qüvvələrin ruhaniyyətə, dini-elmi mərkəz və məktəblərə qarşı qərəzli mövqe tutmalarına, həmçinin mübarizə və fəaliyyətlərin qarşısını amansızcasına almalarına baxmayaraq, o öz təkamül yolunu davam və inkişaf etdirir. Güclü elmi təməli olan bu ilahi din zühur etdiyi ilk gündən müxtəlif nəsillərin ehtiyacını ödəmiş, bəşər tarixində dost və düşmənlərin sual və şübhələrinin aradan qaldırılmasına nail olmuş və göstərilən müqavimətlər qarşısında özünün daimi irəliləyişini, bacarıq və mülayimliyini açıq-aşkar biruzə verə bilmişdir.

Böyük nailiyyətlər əldə etmiş dini-elmi məktəblər hal-hazırda aşağıdakı xüsusiyyətlərə malikdirlər:

١. İslam maarifinin bütün sahələrində ardıcıl olaraq elmi-tədqiqat və araşdırmaların aparılması;

٢. İslami irs olan dərin düşüncə və təfəkkür tərzini qoruyub saxlamaqla yanaşı, bir çox elmi məsələlərdə yeni-yeni axtarışların aparılması, şagirdlərə zaman və şəraitə uyğun olan mətləblərin tədris olunması və dərsliklərin müasir tələbləri ödəyəcək üsullarla nəşr edilməsi;

٣. Qur᾽anın elmi üslublarına və əqli dəlillərə istinad edərək qarşıya çıxan suallara məntiqi cavabların verilməsi, dövri təlabat və əlaqədar mövzularla tanışlıq.

Bu vaxta qədər bir çox ölkələrin elm və təhsil mərkəzləri görkəmli alim və tədqiqatçıların araşdırmalarından istifadə etməklə, təhsildə yeni-yeni tədris üslubu və proqramlar tərtib etmişlər. Müasir kitabların hazırlanması, nəşr və tədris üsullarının həyata keçirilməsində aşağıdakı qaydalara daha çox diqqət yetirmişlər:

a) Tə᾽yin olunmuş proqramlar əsasında hər bir dərsin tədris olunmasına riayət etmək;

b) Müxtəlif mərhələlərdə tədris olunan kitabların bir-biri ilə bağlılığı, ifrat və təfritə varmamaq;

v) Tədrisin bütün mərhələlərində şagird və tələbələrin elmi səviyyələrinin nəzərə alınması;

q) Tədris olunan kitabın yazı və tərtibat üslubuna diqqət yetirmək.

Qarşınızdakı bu kitab İslam məzhəbləri ilə tanışlıq məqsədilə hörmətli alim Seyyid Əhməd Mahmudi tərəfindən yazılmışdır. Müəllifə və ümumiyyətlə kitabın hazırlanmasında zəhmət çəkən bütün həmkarlara dərin minnətdarlığımızı bildiririk.

# BİRİNCİ FƏSİL

## *KÜLLİYYAT*

# BİRİNCİ DƏRS

## *DİNİ CƏMİYYƏTLƏRDƏ PARÇALANMANIN SƏBƏBLƏRİ*

*١. Nə üçün dinlər və ideoloji məktəblər müxtəlif firqə və dəstələrə bölünür?*
*٢. Din və məzhəbləri araşdıran hansı elmdir?*

Bütün dinlər, məktəblər və e᾽tiqadi ayinlər daim öz inkişaf yolunda bir neçə firqəyə, məzhəbə bölünmüşdür. Bir məktəbin və ya dinin yaranmasından nə qədər çox zaman fasiləsi keçirsə, onun firqə və məzhəblərinin sayı da bir o qədər çox olur. Aydınlaşdırmaq lazımdır ki, din və məktəblərdə parçalanmanın, onun ardıcıllarının neçə-neçə dəstələrə bölünməsinin əsas səbəbi nədir?

E᾽tiqad, din, məktəb və məzhəb ardıcıllarının müxtəlif dəstələrə bölünməsinin ən mühüm səbəbləri kimi aşağıdakı amilləri qeyd etmək olar:

**١. Bəşər əndişəsinin xüsusiyyəti:**

İdeologiya və məktəblərdə bir neçə dəstənin yaranmasının ilkin amili kimi, bəşər əndişəsinin özünəməxsus təbiətini qeyd etmək lazımdır. Yə᾽ni, insanlar hər bir fikri və nəzəri məsələ barədə dərindən düşündükdə, müxtəlif nəticələr əldə edirlər və bu zaman müxtəlif nəzəriyyə və fikirlər meydana çıxır. Bu qanunauyğunluq riyaziyyat kimi dəqiq elmlərdən başqa, nəzəri məsələlərin hamısında doğrudur. Çünki, adətən iki alim tapmaq olmaz ki, bir nəzəri məsələ barədə ayrı-ayrılıqda fikirləşib, dəqiq şəkildə vahid bir nəzəriyyə irəli sürsünlər.

Bu amil ilahi dinlər barəsində «fikri məktəblər» adı ilə daha qabarıq şəkildə biruzə gəlmişdir. Bildiyiniz kimi, dinlər nəzəriyyə, dünya görüşü və ideologiyadan ibarət olan prinsiplər məcmuəsidir ki, bunlar da dini alimlərin vasitəsi ilə təfsir və təhlil olunmuşdur. Dini-nəzəri prinsiplər nə qədər çox və rəngarəng olsalar, bir-birindən fərqli olan təhlillərin yaranması üçün meydan daha da genişlənir. Bundan əlavə, din insanlara kütləvi şəkildə müraciət edir və onların həyatının bütün yönləri ilə maraqlanır. Buna görə də insanların hamısı bir növ özlərinə haqq verir ki, dini əsaslar və prinsiplər barədə nəzəriyyə irəli sürüb onları təhlil etsinlər. Din və məktəblərdə müxtəlif nəzəriyyələri analiz edib dəyərləndirmək, nəticədə müştərək qərar çıxarmaq üçün sabit və hamının qəbul etdiyi bir mey᾽ar olmadığından, ardıcılların mövcud me᾽yarlar əsasında yiyələndikləri nəzəriyyələr bir-birindən fərqlənir. Buna görə də ixtilaf və çəkişmələrin, eləcə də qarşıdurma və cəbhələşmənin qarşısını almaq mümkün deyildir.

**٢. İctimai dəyişikliklər:**

Mə᾽lum olduğu kimi, cəmiyyət daim dəyişiklik və inkişafdadır; bəşər həyatında vaxtaşırı yeni ictimai şəraitlər meydana gəlir. İctimai dəyişikliklər də dini ayinlərə, e᾽tiqad və inanclara yenidən baxılmaq zərurətini yaradır. Belə bir prosesdə alimlər və ideoloqlar din barəsində yeni-yeni təhlil və təfsirlər çıxararaq, e᾽tiqadi ayinləri yeni ictimai şəraitlə uyğunlaşdırmağa çalışır, bununla da öz məktəblərinin ümumbəşəri tərəqqidən geri qalmamasını istəyirlər. Onlar öz əqidə üsullarının dövri tələbata cavab vermədiyini gördükdə, başqa sözlə desək, bu ayinlərin öz ardıcıllarının səadət və xoşbəxtliyini tə᾽min etmədiyini müşahidə etdikdə, öz din və məktəbləri barədə yeni-yeni təhlillər təqdim etməyə başlayırlar. Bu da adətən dində yeni nəzəriyyənin meydana gəlməsi və nəhayətdə yeni məzhəb və firqənin yaradılması ilə nəticələnir.

Cəmiyyətdə müşahidə olunan əsaslı yenilik və tərəqqi din aləmində yeni-yeni şübhə və suallar doğurur. Hətta, bə᾽zən e᾽tiqadi məsələlərlə bağlılığı olmayan texniki inkişaf da dini nöqteyi-nəzərdən təhlil olunmaq məcburiyyətində qalır. Məsələn, din alimlərindən yenicə kəşf olunmuş tibbi ləvazimat, metod və dərmanlar haqda soruşurlar, dinin bu məsələlərlə əlaqədar cavab və mövqeyini bilmək istəyirlər. Bu kimi hallarda da din alimləri və ideoloqların tutduqları mövqe, üslub və cavab din barədə müxtəlif fikir və nəzəriyyələrin büruz etməsinə səbəb olur.

**٣. Şəxsi mənafelər və məqsədlər:**

Tarix göstərir ki, xalqın dini e᾽tiqadları daimi olaraq, qüdrət və sərvət sahibləri tərəfindən sui-istifadələrə mə᾽ruz qalmış, qazanc axtaranların əlində bir alət kimi istifadə edilmişdir.

Dinin bünövrəsi qoyulan zaman qüdrət sahibləri peyğəmbərlərin də᾽vətinin qarşısını almaq üçün apardıqları mübarizənin müsbət nəticə vermədiyini gördükdə, öz həqiqi niyyətlərini dindarlıq pərdəsi altında gizlədərək, dini ayinləri daxildən təhrif edərək gözdən salmağa çalışmışlar. Onlar məkirli planlarla dini prinsipləri ürəkləri istəyən kimi təfsir və təhrif etmiş, səmavi əqidələri ləkələmək üçün sə᾽y göstərmişlər. İlahi peyğəmbərlər dünyadan getdikdən sonra da bə᾽zi şəxslər mütəmadi olaraq, dini öz nəfsani istəkləri, şəxsi və dünyəvi maraqları əsasında təhlil etməyə, camaata onun məhz təhrif olunmuş simasını göstərməyə çalışmışlar.

Şəxsi, qövmi, yaxud sinfi mənafelər xatirinə həqiqi dinləri dəyişdirib, onları öz bildiyi kimi izah edən şəxslərdən əlavə, həmin hədəflə din və məzhəb yaratmağa çalışan başqa qruplar da vardır. Bunlardan biri də dünya ağalığına can atan imperialist və istismarçı qüvvələrdir. Onlar tarix boyu insanları əsarət altına almaq, onların mal-dövlət və sərvətlərini qarət etmək üçün dəfələrlə camaatın

məʾlumatsızlığından və sadəlövhlüyündən istifadə edərək, onları özlərinin quraşdırdığı saxta eʾtiqadlara doğru sövq etdirmişlər.

**٤. Azğınlıqların yeni cilvəsi:**

Dinin təʾsis olunduğu vaxtdan uzun müddət keçdikdən, habelə din barəsində müxtəlif təfsir və nəzərlər irəli sürüldükdən sonra, ictimai dəyişikliklərin doğurduğu zərurət olaraq, dinə yenidən baxış üçün şərait yaranır. Din alimləri və dindarlar mövcud təfsirlərə şəkk-şübhə ilə yanaşaraq, dini məsələlərdə təhrif və azğınlıqların baş verməsi ehtimalını bəhanə gətirərək, onun barəsində yenidən nəzər verilməsini istəmişlər. Dində islahat aparmaq məqsədilə yenidən fikir irəli sürülməsinin özü də yeni-yeni firqə və məzhəblərin yaranmasına səbəb olur. Qeyd olunan amilin təʾsirinə misal olaraq, xristianlıqda meydana gələn provaslav məzhəbini göstərmək olar.

Din və məktəb ardıcılları yuxarıdakı şərait və amillərin mövcud olmasına diqqət yetirməklə, dində parçalanmanı bir növ real gerçəklik kimi qiymətləndirirlər. Amma onların hər biri sair firqə ardıcıllarının batil və səhv yolda olduğunu və yalnız öz məzhəblərinin haqq-həqiqət olduğunu hesab edirlər. Məhz bu məsələ müxtəlif firqələr arasında mübahisə və dialoqların yaranmasına, onlardan hər birinin qarşı tərəfə qələbə çalmaq üçün daha güclü sübutlar axtarmasına səbəb olmuşdur.

Bundan əlavə, bəʾzi tədqiqatçılar öz eʾtiqadi mövzularına diqqət yetirmədən din və məzhəblərdə parçalanmanın tarixi köklərini, eləcə də onun cəmiyyətşünaslıq nöqteyi-nəzərindən yaranma səbəblərini araşdırmaq istəyirlər. Bu iki növ səʾy və maraq (firqə ardıcıllarının özlərinin haqq olmasını isbat etmək cəhdi və tədqiqatçıların sırf elmi nöqteyi-nəzərdən təfriqə amillərini araşdırması) «Kəlam» və «Miləl-Nihəl» adlı iki müxtəlif elmin yaranmasına səbəb olmuşdur.

Kəlam elmi din və məzhəblərin əqidə əsasları haqda olan dəlil və sübutların araşdırılmasından bəhs edir. Hər bir din və məzhəbin kəlam alimləri (teoloqları) «**bürhan» və «cədəl» üslubundan** istifadə edərək, öz əqidələrinin haqq, başqa məzhəblərin isə batil olmasını sübut etməyə çalışırlar. «Miləl və Nihəl» elmi də əsasən din və məzhəblərin necə yaranıb formalaşmasının tarixini araşdırır, onlar arasında müqayisəli araşdırmalar aparır.

Siz «eʾtiqadlar» dərsində kəlam bəhslərinin aparılma üslubu ilə tanış oldunuz. Məzhəblərlə tanışlıq dərsində isə İslami firqə və məzhəblərin eʾtiqadi əsaslarını, onların necə yaranıb formalaşmasını araşdıracağıq. Bu bəhsləri əhatə edən dərslər mahiyyətcə «miləl və nihəl» elmi ilə mütənasibdir. Buna görə də əsil mövzulara başlamazdan əvvəl, həmin elmi xülasə şəkildə şərh edəcək və bu sahənin mühüm mənbələrindən bəʾzilərini sadalayacağıq.

## *MİLƏL VƏ NİHƏL ELMİ*

«Miləl» - ərəbcə «millət» sözünün cəm forması olub təriqət, şəriət və din məʾnasını ifadə edir. İstilahda isə, Allah-taalanın peyğəmbərlərin vasitəsi ilə Öz bəndələrini hidayət etmək üçün göndərdiyi şəriətlər, qayda-qanunlar və sünnələr məʾnasınadır ki, onların vasitəsi ilə İlahi hədəflərə nail olsunlar. Məhz buna əsasən, «millət» kəlməsi həmişə şəriət gətirən bir peyğəmbərin adına izafət şəklində qoşulur. Məsələn, «milləti İbrahim (ə)», «milləti Məhəmməd (s)». Qurʾani-kərimdə də **«Millətə əbikum İbrahimə»**[١] ifadəsi gəlmişdir.

«Millət» sözü birbaşa «Allah» kəlməsinə izafə olunmur; məsələn, «millətullah» (Allahın milləti) deyilmir. Sonralar bu ifadənin məʾnası ümumiləşdirilərək batil millətlərə də aid edilmişdir.

«Nihəl» sözü də «nihlət» kəlməsinin cəm forması olub dava, iddia məʾnasını daşıyır. (İstər haqq olsun, istərsə də batil.) Buna əsasən, miləl və nihəl elminin təʾrifini aşağıdakı kimi vermək olar:

«Haqq və ya batil olmasından asılı olmayaraq, eʾtiqadi şəriətləri və onun yollarını araşdıran elmə Miləl və Nihəl elmi deyilir.»

Yaxud belə demək olar:

«Haqq və ya batil olmasından asılı olmayaraq, xalqın bir qrupunun əqidəli olduğu dini və eʾtiqadi əsasları araşdıran elmə Miləl və Nihəl elmi deyilir.»

## *MİLƏL VƏ NİHƏL ELMİNİN MƏNBƏLƏRİNDƏN BƏʾZİLƏRİ*

Qədim miləl və nihəl elminin İslam alimləri tərəfindən qəbul olunan və istinad edilən mənbələrinin ən mühümləri aşağıdakılardan ibarətdir:

١.*«Əl-ədyanu vəl-firəq»; (Seyyid Əbdüllah ibni Musa ibni Əhməd ibni Məhəmməd ibni Musa Kazim (ə))

٢.*«Əvailul-məqalat fil-məzahibil muxtarat»; (Şeyx Müfid Məhəmməd ibni Məhəmməd ibni Nöʾman Əkbəri. h.q.٤١٣)

٣.*«Bəyanul-ədyan»; (Əbul Muali Məhəmməd ibni Əbid ibni Əli. h.q.٤٨٥)

٤.*«Təbsirətul-əvamm fiməʾrifəti məqalatil-imam»; (Seyyid Mürtəza ibni Dai əl-Həsəni ər-Razi.)

٥.*«Məqalatul-islamiyyin vəxtilaful-müsəllin»; (Əbul Həsən Əşʾəri. h.q.٣٢٤)

٦.*«Əl-fərqu beynəl-firəq və bəyanul-firqətin-naciyyəti minhum»; (Əbu Mənsur Əbdül Qahir Əşʾəri Bağdadi. H.Q.٤٢٩)

٧.*«Əl-miləlu vən-nihəl»; (İbni Furək Cəmaləddin Əhməd ibni Məhəmməd İsfəhani. H.Q.٤٥١)

٨.*«Əl-fəslu fil-miləli vəl-əhvai vən-nihəl»; (İbni Həzm Zahiri. H.Q.٤٥٦)

---

[١] Həcc–٧٨.

٩.*«Ət-təbsiru fid-dini və təmyizil-firqətin-naciyəti minəl halikin»; (Əbu Müzəffər Zahir ibni Məhəmməd İsfirayini. H.Q.٤٧١)
١٠.*«Firəquş-şiˋəti»; (Əbu Məhəmməd Həsən ibni Musa Novbəxti. H.Q.٣٠٠)
١١.*«Əl-miləli vən-nihəl»; (Qazi Əbu Bəkr Məhəmməd ibni Təyyib Baqilani.)
١٢.*«Əl-miləli vən-nihəl»; (Məhəmməd ibni Əbdülkərim Şəhristani. H.Q.٥٤٨)

Müasir dövrdə də bu barədə çoxlu kitablar qələmə alınmışdır ki, onların bəˋzilərini qeyd edirik:

١.*«Tarixul-məzahibil-islamiyyə»; (Məhəmməd Əhməd Əbu Zöhrə. «Əl-əzhər» universitetinin ustadı)
٢.*«Bühusun fil-miləli vən-nihəl»; (Cəˋfər Sübhani. Qum Elmiyyə Hövzəsinin ustadı)
٣.*«Məzahibul-islamiyyin»; (Əbdürrəhman Bədəvi)
٤.*«Əl-miləli vən-nihəl». (Rəşid Yasimi).

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Dinlərin firqə və məzhəblərə bölünməsində təˋsirli olan əsas amilləri xülasə şəkildə izah edin.
٢. Kəlam elminin mövzusu nədir?
٣. Miləl və Nihəl elminin təˋrifini deyin.
٤. Kəlam elmi ilə Miləl və Nihəl elmi arasındakı fərq nədir?
٥. Miləl və Nihəl elminin ən mühüm mənbələrindən bir neçəsini sadalayın.

## İKİNCİ DƏRS

### *İSLAM ÜMMƏTİNDƏ PARÇALANMANIN SƏBƏBLƏRİ (١)*

*١. İslam ümmətində parçalanma nə zamandan başlanıb?*
*٢. İslam ümmətində firqələrə bölünmənin əsas səbəbi nədir?*

İslam tarixində və İslam ümmətində ixtilafların kökünü araşdırmaqla, burada ümmətlərin və dinlərin parçalanmasının əsas səbəblərindən hansı birinin daha tə`sirli olmasını başa düşmək olar.

Bu və bundan sonrakı dərs İslam ümmətində firqə və məzhəblərin yaranmasının ən mühüm səbəblərini bəyan edir.

### *PEYĞƏMBƏRİN (S) DÖVRÜNDƏ İSLAM ÜMMƏTİ ARASINDA MÖVCUD OLAN İXTİLAF*

İslam ümməti arasında ilk ixtilaf, məhz Peyğəmbəri-Əkrəmin (s) zamanında yaranmışdır. Peyğəmbər (s) həyatı boyu, xüsusilə Mədinədə İslam cəmiyyəti təşkil etdikdən sonra bir çox çətinliklərlə rastlaşmışdı. Şəxsi mənafeyinə görə və ya əvvəlki mövqeyini qoruyub saxlamaqdan ötrü zahirdə İslam dinini qəbul edən münafiqlər, eləcə də təfəkkür tərzləri müqəddəs din qanunları ilə uyğun gəlməyən bə`zi səhabələr o Həzrətlə (s) açıq-aşkar müxalifətə başlayırdılar. Bu ixtilaflardan bir neçəsini qısa şəkildə izah edirik:

١. «Hüdeybiyyə» sülhü bağlanan zaman[١] Peyğəmbərin (s) çıxardığı qərarların həqiqi mahiyyətindən, bu müqavilənin gələcək tə`sirlərindən və İslamın genşlənib qələbə çalacağından xəbərsiz olan bə`zi səhabələr müxalifətə başladılar və hətta bu müqaviləni pozmaq üçün bir neçə dəfə qılınc da çəkdilər. Amma onlar o həzrətin ciddi reaksiyası ilə qarşılaşıb sakit oldular. Bu müqavilə imzalandıqdan sonra onların üzündə daxili gərginlik və narahatçılıq hissi aydınca sezilirdi. Onlar Peyğəmbərin (s) bu işinə şəkk-şübhə ilə yanaşırdılar.[٢]

---

[١] Bu sülhdə müşriklərin istəklərinə daha çox diqqət yetirilmişdi və onların tələbləri daha qabarıq şəkildə əks olunmuşdu.

[٢] İbni Hişam, «Əs-siyrətun-nəbəviyyə, ٣-cü cild.

٢. Taif müharibəsinin qənimətləri bölüşüdürülən zaman, Peyğəmbəri-Əkrəm (s) onun bir qismini Qüreyşin təzə müsəlman olmuş başçılarını İslama qarşı rəğbətləndirmək üçün onlara payladı. Bu məsələ Ənsar tərəfindən narazılıqla qarşılandı, hətta iş o yerə çatdı ki, Zulxuveysirə Təmimi tam həyasızlıqla o Həzrətə dedi: «Ədalətlə rəftar et, ey Məhəmməd! Sən ədalətli iş görmədin.»

Peyğəmbər (s) narahat halda buyurdu: «Əgər mən də ədalətlə rəftar etməsəm, onda daha kim adil olar?»

Bu hadisədə Peyğəmbəri-Əkrəmin (s) verdiyi izahların onları razı salmasına və tutduqları iradların aradan qalxmasına baxmayaraq, Zulxuveysirə Təmimi əvvəldə olduğu kimi, yenə də öz mövqeyindən əl çəkmirdi. Nəhayət, Rəsuli-Əkrəm (s) onun barəsində buyurdu: «Bu şəxsin çoxlu ardıcılları olacaq ki... Ox kamandan çıxdığı kimi, onlar da dindən çıxacaqlar».

Peyğəmbərin (s) əvvəlcədən xəbər verdiyi kimi o, Əlinin (ə) xilafəti dövründə xəvaric dəstəsinin başçısı oldu.

٣. Mədinə münafiqlərinin Peyğəmbəri-Əkrəmlə (s) olan müxalifətləri və onun işlərində törətdikləri maneələr o qədər çox idi ki, hətta onlar o Həzrəti (s) Mədinədən çıxarmaq üçün tədbir tökmüşdülər. «Münafiqun» surəsi münafiqlərin vəsfində və onların müxalifətləri ilə əlaqədar nazil olmuşdur.

Peyğəmbərin (s) qəbul etdiyi qərarlar, gördüyü tədbirlər və İslami göstərişlərə qarşı bə`zi müxalifətçiliklərin meydana gəlməsinə baxmayaraq, o həzrətin xalq arasındakı nüfuz, şəxsiyyət və məqamının əzəməti, həmçinin başqalarının hökumət və qüdrətə çatması üçün şəraitin olmaması elə bir səviyyədə idi ki, bu ixtilaflar İslam ümməti arasında təfriqə yaranmasına imkan vermirdi. Amma Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra məşhur səhabələr arasında ixtilafların genişlənməsi üçün şərait yarandı. Qeyd etmək lazımdır ki, ixtilafların büruz etməsinin ilkin zəminəsi Peyğəmbər (s) ölüm yatağında olduğu zaman sür`ətlə inkişaf etməyə başladı. Səhabələr arasında müxalifət və çəkişmələrin və o həzrətin fərmanından imtina etməyin əsas hissəsi də məhz həmin zamanla əlaqədardır. Tarixi mənbələrdə nəql olunan mə`lumatlara əsasən, ən ciddi qarşıdurma aşağıda qeyd olunan iki hadisə ilə bağlıdır:

A). Əbu Əbdüllah Məhəmməd ibni İsmail Buxari mö`təbər sənədlərə istinad etməklə, Əbdüllah ibni Abbasdan belə rəvayət edir:

Peyğəmbəri-Əkrəm (s) vəziyyətinin ağırlaşdığını görüb belə buyurdu:

«Mənə kağız-qələm gətirin, sizin üçün elə bir şey yazım ki, məndən sonra yolunuzu azmayasınız».

Bu zaman Ömər ibni Xəttab dedi:

«Şübhəsiz, Peyğəmbərin xəstəliyi şiddətlənmişdir, Allahın kitabı bizə kifayətdir!»

Bu sözdən sonra Peyğəmbərin (s) ətrafında toplanan səhabələr arasında mübahisə başlandı. İş o yerə çatdı ki, Peyğəmbər (s) narahat olub buyurdu:

«Qalxın ayağa, evdən çıxın! Mənim yanımda mübahisə etməyiniz yaraşmaz!»

İbni Abbas bu əhvalatı nəql edikdən sonra deyir:

«Bu işdən doğan ən böyük müsibət bu oldu ki, bizimlə Rəsuli-Əkrəmin (s) yazısı (vəsiyyəti) arasına ayrılıq salındı».[١]

B). Peyğəmbəri-Əkrəm (s) Təbuk müharibəsindən qayıdandan sonra romalıların hücum təhlükəsini ciddi hesab etdiyinə görə İslam qoşununu döyüş hazırlığı vəziyyətində qoruyub saxlayırdı. O həzrət (s) həyatının son anlarında ordunu yenidən təchiz etdi, onun sərkərdəliyini Üsamə ibni Zeydə tapşırdı, mühacir və ənsar da daxil olmaqla, bütün müsəlmanlara qoşunla birlikdə yola düşmək əmrini verdi. Həzrət (s) buyurdu:

«Üsamənin ordusunu lazım olan hər bir şeylə təchiz edin! Ondan imtina edənlərə Allah lə`nət etsin!» Səhabələrin böyük əksəriyyəti bu fərmanı qəbul edib Üsamə ilə birgə hərəkət etdilər. Amma onlardan bə`ziləri Peyğəmbərin (s) xəstəliyini bəhanə gətirib əmrdən imtina etdilər və dedilər ki, biz heç vaxt sizi bu vəziyyətdə tərk edib gedə bilmərik. Bununla da onlar Üsamənin başçılığı ilə hərəkət edən orduya qoşulmaqdan imtina etdilər.[٢]

Peyğəmbərin (s) vəfatından sonra ixtilaf və çəkişmələr şiddətləndi. Mühacir və ənsar arasında o həzrətin harada dəfn olunması məsələsilə bağlı mübahisə və qarşıdurma yarandı. Bundan əlavə, İslam ümməti içrə ən çox ixtilaf yaradan məsələ Peyğəmbərin canişinliyi və imamət məsələsi idi. Hətta deyilmişdir ki, «üsulidin məsələlərinin heç birində imamət qədər qan tökülməyib, yaxud qılınc çəkilməyib.»

Peyğəmbəri-Əkrəmin (s) vəfat xəbəri yayılanda Əmirəl-mö`minin Əli ibni Əbi Talib (ə) Bəni-haşim qəbiləsi və səhabələrdən bir neçə nəfərlə birlikdə o Həzrətin dəfn mərasimi üçün hazırlaşırdı. Bununla eyni vaxtda ənsar və mühacirlərdən bir qrupu «Bəni-Saidə» səqifəsi adlı bir yerdə toplaşıb Peyğəmbərin canişinlik və ümmətə rəhbərlik vəzifəsinin kimə verilməsi barədə mübahisə edirdilər. Ənsarın nəzəri bu idi ki, gərək ənsar və mühacirdən hər biri özü üçün bir əmir və rəhbər tə`yin etsin. Onlar özləri üçün Sə`d ibni Übadəni rəhbər tə`yin etmək istəyirdilər. Amma Əbu Bəkr və Ömərin oraya gəlişi və onların o yığıncaqdakı çıxışı vəziyyəti tamamilə dəyişdirdi. Ömər ibni Xəttabın ardınca Səqifədə olanların hamısı Əbu Bəkrə bey`ət etdilər və beləliklə də o, Rəsuli-Əkrəmin (s) ilk xəlifəsi e`lan olundu. Ömər ibni Xəttab bu seçkinin gözlənilmədən, heç bir araşdırma aparılmadan və düşünülmədən olması haqda deyirdi: «Həqiqətən Əbu Bəkrə edilən bey`ət

---

[١] «Səhihi Buxari, Elm kitabı»; «Səhihi Müslim, ٢-ci cild»; «Əhməd ibni Hənbəl, Müsnəd, ١-ci cild»; «İbni Sə`d, Təbəqatul-Kubra, ٢-ci cild»; «Şəhristani, Miləl və Nihəl, ١-ci cild».

[٢] «İbni Hişam, Əs-sirətun-nəbəviyyə, ٢-ci cild»; «Şəhristani, Miləl və Nihəl, ١-ci cild».

araşdırma aparılmadan və düşünülmədən baş verən bir iş idi ki, Allah müsəlmanları onun şərindən qorudu. Bundan sonra hər kim belə bir iş tutsa, onu öldürmək lazımdır. Ümumiyyətlə, müsəlmanlarla məşvərət etmədən başqasına bey᾽ət edən şəxs həm özünü və həm də qarşı tərəfi təhlükəyə salır, onların hər ikisi öldürülməlidir.»[١]

Amma Bəni-haşim qəbiləsi və səhabələrdən bə᾽ziləri imamət və rəhbərlik vəzifəsinin Allah tərəfindən tə᾽yin olunan bir məqam olduğunu, imamın yalnız Allahın əmri ilə seçildiyini dəlil gətirərək, Əbu Bəkrin belə bir şəkildə xəlifə seçilməsinə e᾽tiraz edirdilər. Onlar inanırdılar ki, Peyğəmbər (s) Allahın əmri ilə və aşkar buyuruqlarla Əlini (ə) özünə canişin və xəlifə tə᾽yin etmişdir.

Bu ixtilafdan sonra İslam ümmətində ən böyük təfriqə və parçalanma yarandı; müsəlmanlar iki yerə ayrıldılar, sünnü və şiə məzhəbi formalaşmağa başladı. İmamət və xilafət məsələsi ətrafında aparılan həmin bölgü bu vaxta qədər İslam xalqları arasında meydana gələn ən böyük qruplaşma hesab olunur. Birinci qrupun, yə᾽ni sünnülərin əqidəsinə görə, imamət məsələsi Peyğəmbərə (s) xəlifə olmaq mənsəbidir; yalnız İslam cəmiyyətinin idarə olunması, onun nizama salınması məqsədini güdür və şura yolu ilə tə᾽yin olunur.

İkinci qrupun, yə᾽ni şiələrin əqidəsinə görə isə, imamət məqamı peyğəmbərlik vəzifəsinin davamı olaraq, Allah tərəfindən müəyyənləşir; heç bir şəxs bu ilahi vəzifəyə vəhydən başqa bir yolla nail ola bilməz. Şiələr inanırlar ki, Peyğəmbərin (s) canişinləri olan bütün mə᾽sum imamlar Allah tərəfindən tə᾽yin olunmuşdur və o Həzrət hələ sağ ikən onların hər birinin adını aşkar şəkildə zikr etmişdir.

Əbu Bəkrin xəlifə və İslam ümmətinin rəhbəri seçilməsinin ardınca digər ixtilaflar da yarandı. Bu ixtilaflar get-gedə dərinləşdi və üçüncü xəlifə Osman ibni Əffanın dövründə elə bir həddə çatdı ki, xəlifə camaat tərəfindən öldürüldü.

Əmirəl-mö᾽minin Əlinin (ə) xilafəti dövründə İslam ümmətində yeni qruplaşmalar yaranmağa başladı. Gələn dərsdə bu haqda, eləcə də müsəlmanlar arasında yaranan təfriqələrin digər səbəbləri barədə araşdırma aparacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Peyğəmbəri-Əkrəmin (s) sağlığında müsəlmanların arasında ixtilaflar necə baş verirdi?

٢. Peyğəmbər (s) xəstələnən zaman səhabələr hansı mühüm məsələyə görə bir-birləri ilə mübahisə edirdilər?

٣. Müsəlmanların Peyğəmbərin (s) canişinliyi ilə əlaqədar iki mühüm nəzəriyyəsini bəyan edin.

---

[١] «Şəhristani, Miləl və Nihəl, ١-ci cild».

**ÜÇÜNCÜ DƏRS**

## *İSLAM ÜMMƏTİNDƏ PARÇALANMANIN SƏBƏBLƏRİ (٢)*

*١. Xəvaric firqəsinin yaranma səbəbləri nədən ibarətdir?*
*٢. Əqidəvi və kəlami məzhəblər hansı amil əsasında yaranmışdır?*
*٣. Fiqhi məzhəblər necə formalaşmışdır?*

## *İSLAM ÜMMƏTİNİN İXTİLAFLARI*

Osman ibni Əffan öldürüldükdən sonra müsəlmanlar Əli ibni Əbi Talibə (ə) üz tutdular və o Həzrəti xəlifə tə`yin etdilər. İmam Əmirəl-mö`minin Əli ibni Əbi Talibin (ə) xilafətinə qarşı çıxanlar, o Həzrətin əməl və rəftarını bəyənməyənlər «Cəməl» və «Siffeyn» müharibələrini törətdilər və nəticədə müsəlmanlardan bir qrupu qətlə yetirildi.

Peyğəmbərin (s) məşhur səhabələrinin və yaxın adamlarının hər iki cəbhədə iştirak etməsi, haqqı batildən ayırmağa qadir olmayan bə`zi müsəlmanların heyrət və çaşqınlığa düçar olmasına və nəticədə onların camaat məzhəbindən xaric olmasına şərait yaratdı. Onlar xəlifələrin barəsində mühakimə yürütməkdən imtina edərək, bu işi Allaha həvalə etdilər. Bu dəstə sonralar «mürciə» adı ilə məşhurlaşdı.

Siffeyn müharibəsindəki həkəmiyyət məsələsinin icrasından sonra onun nəticələrindən narazı qalan müsəlmanlardan bir qrupu Əlinin (ə) bey`ətindən xaric olub, Müaviyənin tərəfdarlarına da qoşulmadılar. Onlar, sonralar İslam tarixində xəvaric adı ilə məşhur olan digər bir dəstəni yaratdılar. Bu da İslam ümmətində ikinci ən böyük parçalanma sayılır.

Qeyd etmək lazımdır ki, həmişə dini cəmiyyətlərdə əqidə baxımından qarşıdurma yaranan zaman və ifratçı ideoloji qruplaşma əmələ gəldikdə, qarşı tərəfdə də başqa bir ifratçı cərəyan meydana gəlmişdir. Əli ibni Əbi Talib (ə)-ın imaməti müqabilində də ifratçı xəvaric cərəyanı formalaşmışdı. Belə ki, onlar Əmirəl-mö`minin əleyhissəlamın bütün dəyər və fəzilətlərini inkar edirdilər və hətta o həzrəti həmin firqənin üzvlərindən biri şəhadətə yetirmişdi. Onların da qarşısında başqa bir dəstə formalaşdı ki, Əli əleyhissəlama itaət etməkdə ifrata

vararaq, o həzrəti Allahlıq məqamına qədər yüksəltdilər. Bu firqə də İslam tarixində «ğulat» adı ilə məşhurdur.

Zaman keçdikcə İslam ümmətində təfriqələr daha da dərinləşdi və böyük məzhəblər də öz növbəsində kiçik firqələrə bölündü.

## *ƏQLİ BƏHSLƏRƏ VARİD OLMAQ*

Müxtəlif dəstə və firqələrin yaranmasının ikinci əsas səbəbi müsəlmanlar arasında əqli və ideoloji məsələlərin irəli sürülməsi idi. İslamın zühurundan və Peyğəmbər (s) əsrindən uzaqlaşdıqca, dini əsasların haqq olmasını isbat etmək üçün əqli dəlillərə üz gətirməyin zərurəti artırdı. Xüsusilə, İslamın sərhədləri genişləndikcə və cəmiyyət inkişaf edib böyüdükcə bu ehtiyac daha artıq hiss olunurdu. Müsəlmanlar müxtəlif millətlərlə üzləşdikləri zaman İslam daha güclü dəlillərlə təqdim olunmalı idi ki, onlar bu dinə cəzb edilsinlər. Bu zərurət Peyğəmbərin (s) dövründə o qədər də hiss olunmurdu, çünki o həzrət özü şəxsən e`tiqadi şübhələrə cavab vermək üçün ən mö`təbər müraciət yeri hesab olunurdu. Buna görə də müsəlmanlar nəzəri və fikri məsələlərə, eləcə də əqli dəlillər üzərində fikirləşməyə bir o qədər də ehtiyac duymurdular.

Müsəlmanların inkişaf etmiş mədəni xalqlarla ünsiyyətdə olması, İslami fəthlər nəticəsində yeni ölkələrin müsəlman ərazilərinə qatılması, xüsusilə onların yunan mədəniyyəti ilə tanış olmaları cəmiyyətdə yeni bir ab-hava yaratmışdı. Bundan əlavə, bə`zi xəlifələrin bu xalqlar arasında məşhur olan elmlərin müsəlmanlar üçün tərcümə və tədrisinə çalışmaları da əqli və fəlsəfi bəhslərə, həmçinin İslamın əqidə prinsiplərinin fəlsəfi yollarla araşdırılmasına kəskin bir təmayül yaratdı. Bu da İslamda əş`əri, mö`təzilə və bu kimi digər fikri-ideoloji məzhəblərin formalaşmasına səbəb oldu.

## *FÜRUİDİNDƏ İXTİLAF*

Müsəlmanlar arasında e`tiqad prinsipləri, xüsusilə imamət məsələsi ilə əlaqədar yaranan ixtilaflardan əlavə, şəriət hökmlərində, yə`ni füruidində də bir çox fikir müxtəlifliyi meydana gəldi. Bu da nəticə e`tibarilə Hənəfi, Hənbəli, Maliki, Şafei və Cə`fəri məktəbləri kimi mühüm fiqhi məzhəblərin formalaşmasına səbəb oldu.

## *İSLAM ÜMMƏTİNDƏ TƏFRİQƏNİN ƏSAS MEHVƏRİ*

Son iki dərsdə bəyan olunan mətləblərdən belə nəticə alırıq ki, İslam ümməti üç əsas mehvərdə parçalanma və təfriqəyə mə`ruz qalıb:

١. İmamət və canişinlik məsələsi, imamın şəxsi xüsusiyyətləri və onun necə tə`yin olunması;

٢. Əqli məsələlər və əqidə prinsipləri;

٣. Füruidin məsələləri.

Bu üç mehvər əsasında İslam cəmiyyəti müxtəlif firqə və məzhəblərə bölünmüşdür. Bu kitabda e`tiqadi məsələlər araşdırıldığından, burada birinci və ikinci amil əsasında yaranan firqə və məzhəblər söhbətimizin əsas mövzusu olacaq, fiqhi məsələlərin araşdırılmasına isə toxunulmayacaq. Fikri-e`tiqadi prinsipləri və İslamdakı firqə və məzhəbləri araşdırmazdan əvvəl, onların əsas məzhəblərinin adlarını təqdim edirik.

Qeyd etmək lazımdır ki, İslam dünyasında bir çox məzhəblərin yaranmasında bilavasitə rolu olan digər bir cərəyan da mövcuddur. Bu hələ də öz xüsusiyyətini davam etdirən ifratçı zahidlik cərəyanıdır ki, istisnasız olaraq, sufi məzhəblərinin hamısı bu məsləkdən doğmuşdur. Bunların formalaşmasında qeyri-islami cəmiyyətlərlə təmas və əqli bəhslərin rol oynamasına baxmayaraq, fikri-fəlsəfi cərəyanlarla olan fərqlərinə görə, onlar öz yerində ayrıca araşdırılacaq.

Buna əsasən, İslam ümməti aşağıdakı dörd cərəyanla qarşılaşır:

١. Sünnülük;

٢. Şiəlik;

٣. Xəvaric;

٤. Sufilik.

## *DÖRDLÜK TƏŞKİL EDƏN MƏZHƏBLƏRİN FİRQƏLƏRİ*

Yuxarıdakı dörd cərəyandan hər biri öz növbəsində müxtəlif firqələrə bölünür. Bu dərsin mövzusunu təşkil edən ən mühüm firqələr aşağıdakılardır:

**١. Sünnü firqələri:**

a) Əhli-hədis;

b) Əş`ərilik;

v) Mö`təzilə;

q) Matüridiyyə;

ğ) Sələfilik;

d) Vəhhabilik.

**٢. Xəvaric firqələri:**

a) Əzariqə;

b) Buxdat;

v) Beyhəsiyyə;

q) Ücaridə;

ğ) Əbaziyyə;

d) Səfəriyyə;

ə) Şəbihiyyə.

**٣. Şiə firqələri:**

a) Keysaniyyə;

b) Zeydiyyə;
v) İsmailiyyə;
q) Fətəhiyyə;
ğ) İmamiyyə;
d) Qadiyaniyyə;
ə) Babiyyə.
**٤. Sufi firqələri:**
a) Nurbəxşiyyə;
b) Nəqşbəndiyyə;
v) Ticaniyyə;
q) Sənusiyyə;
ğ) Bektaşiyyə;
d) Şazliyyə;
ə) Səfəviyyə;
i) Neʾmətullahiyyə.

**İzahlar:**

١. Sünnü, şiə və sufi firqələrinin ən məşhurlarının adlarını sadaladıq. Lakin bu məzhəblərdən ayrılan firqələrin sayı qeyd olunanlardan daha çoxdur.

٢. Xəvaric firqələrindən isə, hal-hazırda yalnız əbaziyyə firqəsinin ardıcılları vardır və onun başqa firqələrindən əsər-əlamət qalmamışdır.

٣. İslam firqələrini araşdırarkən bəʾzən elə firqələrlə rastlaşırıq ki, onlar özü aradan getmişdir, amma hal-hazırda mövcud olan məşhur firqələrin formalaşmasında mühüm rol oynamışdır. Məşhur firqələri araşdırarkən belə firqələrin haqqında da qısa şəkildə danışacağıq.

٤. Bəʾzi firqələr ikiyönlü xüsusiyyətə malikdirlər: Üsulidinin bəʾzi məsələlərində bir məzhəbə, bəʾzilərində isə digər məzhəbə yaxındırlar. Bunlar da sonradan araşdırılacaq.

٥. Son bir neçə əsrdə formalaşan və əksərən inhirafçı və azğın xüsusiyyətlərə malik olan bəʾzi firqələr haqda da yeri gəldikcə danışılacaq. Bu firqələr haqda belə bir ifadənin işlədilməsinin səbəbi budur ki, ana məzhəbin ardıcılları o firqələri rəsmi şəkildə qəbul etmir və onlar da öz əsas məzhəblərinin ardıcıllarını tanımaq istəmirlər. Misal üçün, dəqiq araşdırmalara əsasən, qadiyaniyyə, yaxud bəhai firqəsi imamiyyə məzhəbindən ayrılmışdır. Lakin, imamiyyə şiələri qadiyaniyyə və bəhai ardıcıllarını mürtəd kimi tanıyır və bu iki firqə ardıcılları da şiəliyi rəsmi şəkildə qəbul etmirlər. Burada biz, elmi nöqteyi-nəzərdən bu iki firqəni də şiə firqələri sırasında araşdırmaq məcburiyyətindəyik.

٦. Hər bir firqəni araşdırarkən onun banilərini və mühüm şəxsiyyətlərini də təqdim edəcəyik. Bundan əlavə, həmin firqələrin yaranma səbəblərinə və tarixçəsinə toxunmaqla, onların ən əsas əqidə prinsiplərini araşdıracağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əlinin (ə) xilafəti zamanında İslam ümməti arasında ixtilaf necə yarandı?

٢. Peyğəmbər (s) əsrindən sonra əqli bəhslərin meydana gəlməsi nə üçün İslam ümmətində ixtilafa bais oldu?

٣. Müsəlmanların arasında ixtilafların əsas mehvəri hansılardır?

# İKİNCİ FƏSİL

## *SÜNNÜ MƏZHƏBİNDƏN AYRILAN FİRQƏLƏR*

## *(ƏHLİ-SÜNNƏT)*

# DÖRDÜNCÜ DƏRS

## ƏHLİ-HƏDİS (١)

## YARANMA TARİXİ

*١. Əhli-hədis kimlərə deyilir?*
*٢. Əhli-hədis firqəsinin formalaşmasının ən mühüm səbəbi nədir?*

Hicri tarixi ilə birinci əsrin axırlarından e`tibarən, müsəlmanlar arasında yayılmış ən mühüm məsələlərdən biri də ilahi sifətlər barəsində olan bəhslər idi. Allahın sifətlərinin Onun zatı ilə eyniyyət təşkil etməsi, yoxsa bu sifətlərin sonradan onun Zatına artırılması, zati sifətlərlə fe`li sifətlərin arasında təfavütün olub-olmaması, eləcə də bə`zi ayə və rəvayətlərdə Allahın ərşin üstündə yerləşməsi, Onun göz, əl və bu kimi digər bədən üzvlərinə malik olmasının nə kimi məfhum daşıması barəsində bəhslər qarşıya çıxmışdı. (Bu sifətlər ayə və rəvayətlərdə qeyd olunduğu üçün onları xəbəriyyə sifətləri adlandırırlar).

Bu kimi məsələlərin izah edilməsində İslam alimləri müxtəlif dəstələrə bölünmüşdülər. Onlardan bir dəstəsi Allahın sifətlərinin Onun zatına artırılmasını inkar edirdilər. Bunları «mö`təzilə», onların müxaliflərini isə «müəttilə» adlandırırdılar. Digər bir dəstə isə Allahın sifətlərinin (xüsusilə, xəbəriyyə sifətlərinin) Onun zatına artırılmasını iddia edirdilər. Onlar bunu isbat etməkdə elə bir ifratçı həddə çatmışdılar ki, xəbəri sifətləri zahiri mə`nalara yozub, onları insani sifətlərə təşbih etmişdilər. Bunlara da «müşəbbihə» deyilirdi.

Sonra bu iki qrup arasında orta mövqe tutan əhli-hədis firqəsi yarandı. Onlar bir tərəfdən Allahın sifətlərinin Onun zatına artırılmasına və Allah-taalanın zatı barəsində xəbəriyyə sifətlərin isbat olunmasına inanır, digər tərəfdən isə xəbəri sifətlərin zahiri mə`nalara yozulmasını düzgün hesab etmirdilər.

Amma ayə və rəvayətlərdə bu sifətlər Allah haqqında işlədildiyindən, məsələn Qur`anda «Ər-rəhmanu ələl ərşistəva»[١] (Rəhman Allah ərş üzərində müstəqərr olmuşdur); «Xələqtu biyədəyyə»[٢] (İki əlimlə yaratdım); «Vəcaə rəbbukə»[٣] (Sənin

---

[١] «Taha»-٥.
[٢] «Sad»-٧٥.
[٣] «Fəcr»-٢٢.

Rəbbin gəldi) və s. ifadələr gətirildiyindən, Əhli-hədis bu qəbildən olan sifətləri Allah üçün qəbul etdiklərinə baxmayaraq, onların barəsində heç bir təfsir və yozumu rəva görmürdülər. Onların əqidəsinə görə, bu kimi ifadələrin təfsir və yozumu Allah-taalanın məxluqata oxşadılmasına səbəb ola bilər.

Maliki firqəsinin rəisi Malik ibni Ənəsdən «Rəhman Allah ərş üzərində müstəqərr olmuşdur» ayəsi barədə sual edilərkən demişdi:

«Allahın ərş üzərində qərar tapması mə᾽lum məsələdir, amma onun necəliyi bizə məchuldur. Ona iman gətirmək vacibdir, çünki bu, Qur᾽anın aşkar buyuruğudur. Lakin Onun orada necə yerləşməsi barədə sual etmək bid᾽ət sayılır.»

Malik ibni Ənəsin sözlərindən belə aydın olur ki, bu kimi ifadələrin mə᾽na və xüsusiyyəti barədə maraqlanmaq və onu təfsir etmək qadağan və haramdır; heç bir sual olunmadan onlara iman gətirmək lazımdır. Çünki bunlar Qur᾽an ayələrində və Peyğəmbər (s) hədislərində aşkar şəkildə qeyd olunmuşdur.

Əhli-hədisin xəbəri sifətlər barədə irəli sürdüyü nəzəriyyə sair e᾽tiqadi prinsiplərin araşdırılması üçün yeni bir üslub yaratdı. Ayə və rəvayətləri olduğu kimi əxz etmək, onların hər növ təfsir və yozumundan uzaq olmaq və bu barədə sual etməkdən çəkinmək bu firqənin e᾽tiqad prinsipinin əsası kimi tanındı və buna görə də onlar əhli-hədis adlandırıldı.

## ƏHLİ-HƏDİSİN MƏNBƏLƏRİ

Hicri tarixi ilə üçüncü əsrdən başlayaraq, Əhli-hədisin əqidə üsullarına aid olan bir çox kitablar yazılmışdır. Onlardan ən mühümləri aşağıdakılardır:

١. «Əs-sünnə»; (Əhməd ibni Hənbəl, ١٦١-٢٤١ H.Q.) Hənbəli məzhəbinin rəisidir.

Əhməd ibni Hənbəl əhli-hədis firqəsinin ən tanınmış şəxsiyyəti hesab olunur. Bu firqəyə «hənabilə» də deyilir. «Əs-sünnə» kitabı həcminin az olmasına baxmayaraq, bu firqənin ən mühüm mənbələrindən sayılır.

O, bu kitabda həmin firqənin e᾽tiqadi əsaslarını izah və şərh etmədən, dəlil-sübut gətirmədən bəyan etmişdir. Kitabın mühüm hissələrində belə oxuyuruq:

«Bu (yə᾽ni kitabda qeyd olunanlar) Peyğəmbərin (s) səhabələrindən olan sünnət əhlinin, elm və kitab sahiblərinin məzhəbidir. Mən Hicaz, Şam və s. yerlərin alimlərinin bu əqidədə olduğunu gördüm. Hər kəs bu əqidə ilə müxalifətçilik etsə, o üsullara və ya ona e᾽tiqad bəsləyənlərə irad tutsa, bid᾽ətçi hesab olunur. Belə bir şəxs müsəlman icmasından xaric olmuş, haqq və sünnət yolundan azmışdır.»

«Allah-taala Öz qəzavətini (hökmünü) bəndəsinə labüd etmişdir. Onlar ilahi qəza-qədərdən xaric olmazlar, Allahın onlar üçün müqəddər etdiyi təqdir əsasında seyr edərlər. Bu da Allah-taalanın ədalətidir.»

«Zina, oğurluq, şərab içmək, nahaq yerə adam öldürmək, haram mal yemək, Allaha şərik qoşmaq və ümumiyyətlə bütün günahlar bəndələrdən heç birinin Allaha qarşı höccəti olmadan, Onun qəza-qədərinə bağlıdır və bəndələrə olan yetərli höccət, yalnız Allaha məxsusdur.»

«Hər kəs oğurluq, şərab içmək, haram mal yemək və sairənin ilahi qəza-qədər əsasında olmasını güman etsə, insanın başqasının ruzisini yeməyə qadir olmasını güman etmiş olur və bu, məcusların əqidəsidir. halbuki, Allah-taala Özü belə müqəddər etmiş və onun bu yolla (haram yolla) ruzi qazanmasına hökm etmişdir.»

«Biz qiblə əhlindən olan heç bir kəsin əməlinin cəzasına görə, yaxud mürtəkib olduğu böyük günahlara görə cəhənnəm əhli olmasına şəhadət vermirik. Bu barədə yalnız hədisdə qeyd olunanlar istisna olunur və belə olan surətdə yalnız onların cəhənnəm əhli olmasına şəhadət verərik.»

«Qüreyş qəbiləsindən iki nəfər qalsa belə, xilafət onlara məxsusdur və heç kəsin bu barədə onlarla çəkişməyə, onların əleyhinə qiyam etməyə və ya xilafətə başqasını layiq bilməyə haqqı yoxdur.»

«Sədəqə, vergi, xərac və qənimətlərin əmirlərə və valilərə verilməsi vacibdir, istər onlar ədalətlə rəftar etsinlər, istərsə də zülmlə. Müsəlmanların rəhbərinə itaət etmək də belədir. Deməli, heç vaxt ona itaət etməkdən boyun qaçıra və ya onun əleyhinə qiyam edə bilməzsiniz. Sultanın əleyhinə qiyam etmək olmaz, əksinə ona müt`i olmalısınız. Əgər sultan sizi Allahın haram buyurduğu işlərə əmr etsə, ona itaət etməyin, lakin onun əleyhinə qiyam etmək düzgün deyildir və heç kəs onu öz haqqından məhrum edə bilməz.»

«Allah eşidəndir, heç vaxt tərəddüd etməz; görəndir, heç vaxt səhv etməz; alimdir, heç vaxt cahil olmaz; bəxşiş edəndir, heç vaxt paxıllıq etməz; helimlidir, heç vaxt tələsməz. O, rəhm edər, əfv edər, bağışlayar və hər gecə dünya asimanına nazil olar və özü də istədiyi kimi nazil olar:

«Leysə kəmislihi şəy`un və huvəs-səmiul bəsir.» (Ona bənzər bir şey yoxdur.O (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir. (Şura-١١).

«Bəndələrin qəlbləri Allahın iki barmağı arasındadır ki, onları istədiyi şəkildə tutar.»

٢. «Əl-əqaidut-təhaviyyə»; (Şeyx Əbu Cə`fər Təhavi Misri. H.Q.٣٢١.)

Bu kitabda əhli-hədisin ١٠٥ əqidəvi əsası qeyd olunmuşdur. O, iddia edir ki, bu əsaslar əhli-sünnətin və müsəlman icmasının ümumi əqidəsidir və Əbu Hənifə Nö`man ibni Sabit, Əbu Yusif Yə`qub ibni İbrahim Ənsari və Əbu Əbdillah Məhəmməd ibni Şeybani kimi fəqihlərin nəzərlərinin tam əksinədir.

٣. «Əl-ibanətu ən üsulid-diyanə»; (Şeyx Əbul Həsən Əli ibni İsmail Əş`əri. ٢٦٠-٣٢٤. H.Q. (yaxud ٣٣٠. H.Q.).

Əbul Həsən Əş᾽əri ٤٠ yaşında ikən mö᾽təzilə firqəsindən uzaqlaşıb əhli-hədis məzhəbinə üz gətirdikdən sonra bu kitabı yazmışdır. Həmin kitabda əhli-hədisin ٥١ əqidəvi əsası qeydə alınmışdır. Əş᾽ərinin nəzərlərindən bə᾽zisi aşağıda qeyd olunanlardan ibarətdir:

«Biz Allaha, mələklərə, səmavi kitablara, peyğəmbərlərə, Allah tərəfindən nazil olanlara və mö᾽təbər ravilərin Rəsuli-Əkrəmdən nəql etdiklərinə iman gətirmişik və bunlardan heç birini rədd etmirik.»

«Biz iqrar edirik ki, behişt və cəhənnəm haqdır, qiyamət günü gələcək və onda heç bir şəkk-şübhə yoxdur.»

«İnanırıq ki, Allah Öz ərşində qərar tapmışdır. Bu barədə «Taha» surəsinin ٥-ci ayəsinə əsaslanırıq.

«Allahın üzü vardır, lakin onun xüsusiyyəti mə᾽lum deyildir. Bu barədə «Ərrəhman» surəsinin ٢٧-ci ayəsinə əsaslanırıq.

«Allahın iki əli vardır, lakin onun xüsusiyyəti mə᾽lum deyildir. Bu barədə «Maidə» surəsinin ٦٤-cü ayəsinə əsaslanırıq.

«Allahın gözü vardır, lakin onun xüsusiyyəti mə᾽lum deyildir. Bu barədə «Qəmər» surəsinin ١٤-cü ayəsinə əsaslanırıq.

«İqrar edirik ki, xeyir və şər ilahi qəzavü-qədər ilədir və biz Allahın qəza-qədərinə inanırıq, istər xeyir olsun, istərsə şər, istər şirin olsun, istərsə acı. Bunu da bilirik ki, (xeyirdən, yaxud şərdən) bizə çatmayanlar (bizə) müqəddər olmamışdır, bizə çatanların isə dəf edilməsi mümkün deyildir. Bəndələr özlərinə qarşı, Allahın istədiyindən başqa, heç bir fayda və ziyana malik deyillər, lakin onun xüsusiyyəti mə᾽lum deyildir. Bu barədə «Ə᾽raf» surəsinin ١١٨-ci ayəsinə əsaslanırıq.

«Biz bütün işlərdə Allaha pənah aparır və bütün vəziyyətlərdə öz ehtiyac və fəqirliyimizi bəyan edirik.»

٤. «Məqalatul-islamiyyin vəxtilaful müsəllin»; (Əbul Həsən Əş᾽əri)

O bu kitabda İslami firqələrin əqidə və rə᾽ylərini bir yerə toplamışdır.

Bu kitabın bir hissəsində əhli-hədisin əqidələri nəql olunmuşdur, lakin onların «İbanə» kitabındakı mətləblərlə çox da fərqi yoxdur.

٥. «Ət-tənbihu vər-rəddu». (Əbul Hüseyn Məhəmməd ibni Məlti Şafei. ٣٧٧. H.Q.)

Bu kitabda əhli-hədisin ١٥ e᾽tiqadi əsası qeyd olunmuşdur.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Müsəlmanların arasında ilahi sifətlər barəsində nə kimi ixtilaflar vardır?

٢. Nə üçün onlar əhli-hədis adı ilə məşhurlaşmışdır?

٣. Əhli-hədisin ən mühüm mənbələri və onların müəlliflərinin adlarını deyin.

٤. «Əs-sünnə» kitabının əsas bölmələri hansılardır?

# BEŞİNCİ DƏRS

## *ƏHLİ-HƏDİS (٢)*

## *E᾽TİQADİ ÜSULLARI (١)*

**Qəza və qədər barəsində əhli-hədisin əqidəsi nədir?**

*١. Əhli-hədislə digər İslami firqələr arasında olan fərqlər nədən ibarətdir?*

*٢. Əhli-hədis qəza-qədər məsələsində cəbrə inanırlar, yoxsa ixtiyara?*

Keçən dərsdə əhli-hədis firqəsi, eləcə də onların mühüm əqidə mənbələri ilə qısa şəkildə tanış olduq. Bu və gələn dərsdə onlarla digər firqələr arasında müşahidə olunmayan xüsusi prinsiplər araşdırılacaq. Əhli-hədisin qeyd olunan əqidələrindən bə᾽ziləri aşağıdakılardan ibarətdir:

١. Qəza və qədər;

٢. Xəbəri sifətlər;

٣. Səhabələrin ədaləti;

٤. Xəlifələrin xilafətinə iman;

٥. Hakimə itaət.

## *١. ƏHLİ-HƏDİS NÖQTEYİ-NƏZƏRİNDƏN QƏZA VƏ QƏDƏR MƏSƏLƏSİ*

Qəza və qədər məsələsi kəlam alimləri arasında həmişə münaqişə və mübahisəyə səbəb olan mühüm və həssas bəhslərdəndir ki, bu barədə müxtəlif nəzərlər irəli sürülmüşdür.

İlahi qəza və qədər məsələsi əhli-hədis tərəfindən (sonralar da əş᾽arilər tərəfindən) mütləq məcburiyyət şəklində bəyan və tə᾽rif edilmişdir.

Əhməd ibni Hənbəl «Əs-sünnə» kitabında belə deyir:

Qədər barəsində - onun xeyir və şər olması, azlığı və çoxluğu, aşkarlığı və gizlin olması, şirinliyi və acılığı, sevilməsi və xoşagəlməz olması, yaxşısı və pisi, əvvəli və axırı - olan mülahizələrin hamısı Allah tərəfindəndir. Öz qəzasını bəndələrinə hökm edən məhz Allah-taaladır və onlar ilahi təqdirdən kənara çıxa bilməzlər; onlar müəyyən olunmuş yolla hərəkət edir və müqəddər olunmuş əsasda qərar tuturlar. Bu da Allahın ədalətidir. Zina və oğurluq, şərabxorluq,

başqalarını (nahaq yerə) öldürmək, haram mal yemək, Allaha şərik qoşmaq, bütün günah və üsyankarlıqlar ilahi qəza və qədər əsasındadır. Bu barədə bəndələrin Allaha qarşı heç bir höccəti də yoxdur, əksinə bəndələrinə yetərli höccəti olan məhz Allahdır. «Allah gördüyü işlər barədə sorğu-sual olunmaz; onlar (bütün bəndələr) isə (tutduqları əməllərə görə) sorğu-sual ediləcəklər.[١]

Allahın elmi Onun istək və iradəsi əsasında olub, Öz bəndələrinə hakimdir. Allah-taala İblisin günahına və həmçinin onun zamanından qiyamətədək yaşayacaq hər bir şəxsin etdiyi mə`siyətə agahdır və onları bu iş üçün yaratmışdır. Həmçinin itaət əhlinin itaətinə də agahdır və bunları da itaət üçün xəlq etmişdir. Deməli, hər bir varlıq (əvvəldə) nə üçün xəlq edilmişsə, məhz həmin əsasda da yaşayıb, Allahın onlar üçün iradə etdiyi yolla hərəkət edəcəklər və heç bir kəs ilahi təqdiri dəf edə bilməz.

Hər kəs Allahın günahkar bəndələr üçün xeyir arzuladığını, lakin onların özlərini pisliyə və günaha batıraraq nəfsani istəklərinə əməl etdiyini güman etsə, bəndələrin iradəsinin Allah-taalanın iradəsinə qalib gəldiyini təsəvvür edirlər. Allaha qarşı bundan da böyük iftira ola bilərmi?!

Hər kəs zinanın ilahi təqdir əsasında olmadığını güman etsə, ona demək lazımdır ki: «Görmürsən ki, bu qadın zinadan hamilə olub və uşaq doğmuşdur? Məgər bu uşağın doğulması Allahın istəyi ilə olmayıb və görəsən o, Allahın elmindən kənarda baş verib?» Əgər cavab mənfi olarsa, onda həmin şəxs Allahdan başqa bir yaradanın olmasını güman etmiş olar ki, bu da öz növbəsində aşkar şirkdir.

Oğurluq, şərab içmək, haram mal yemək və bu kimi digər işlərin ilahi qəza əsasında olmadığını güman edən şəxslər, başqasının ruzisini yeməyə qadir olduğunu güman etmiş olur və bu da məcusların əqidəsidir. Əksinə, ona ruzi verən məhz Allahdır və ilahi qəza belə olmuşdur ki, bu şəxs ruzisini həmin yolla əldə etsin.

Hər kəs qətli-nəfsin, yə`ni başqasını nahaq yerə öldürməyin ilahi təqdir əsasında olmadığını güman etsə, öldürülən şəxsin öz əcəli ilə ölmədiyini güman etmiş olur. Bundan da aşkar bir küfr ola bilərmi? Əlbəttə bu, ilahi qəza və qədər əsasındadır, bütün işlər Allahın təqdiri və iradəsi ilədir, Allahın elmi bunların hər birinin arxasındadır. Bu da ədalət və haqdır, çünki O, iradə etdiyi hər bir şeyə qadirdir. Hər kəs Allahın elmini qəbul etsə, Onun iradə və qüdrətini də hökmən iqrar etməlidir.»

Əbul Həsən Əş`əri də İbanə kitabının ١٥-١٩-cu bəndlərində belə deyir:

١٥. Biz inanırıq ki, yer üzündə olan hər bir xeyir və şəri Allah istəmişdir, hər bir şey Onun iradəsi ilədir, Allah iradə etməzdən öncə, heç bir şəxsin heç bir işə qüdrəti yoxdur.

---

١ Ənbiya-٢٣.

١٦. Biz Allahdan ehtiyacsız deyilik və Onun elmindən xaric ola bilmərik.

١٧. Biz inanırıq ki, Allahdan başqa heç bir yaradan yoxdur, bəndələrin əməlləri də Allahın məxluqudur və Onun təqdiri əsasındadır. Belə ki, Allah-taala buyurur: «Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!»[١] Allahın bəndələrindən heç biri heç vaxt bir şey xəlq etməyə qadir deyildir və onun özü də Allahın məxluqudur. Həmçinin buyurur: «Müşriklərin Allahdan qeyri ibadət etdikləri (bütlər) heç bir şey yarada bilməzlər, əksinə, onlar özləri ( daşdan, ağacdan və s.-dən) yaradılmışlar.[٢] Başqa yerdə buyurur: «Heç yaradan (Allah) yaratmayana (bütlərə) bənzəyərmi?![٣] Həmçinin digər bir yerdə buyurur: «Yoxsa onlar heç bir şeydən yarandılar?![٤] Bu mə᾽na Allahın kitabında daha çox nəzərə çarpır.

١٨. Allah-taala mö᾽minlərə, Ona itaət etməkdə müvəffəqiyyət vermiş, onlara lütf və mərhəmət əta etmiş, onları islah və hidayət etmişdir. Kafirləri yoldan azdırmış, onlara hidayət olunmaq və iman gətirmək ne᾽məti qismət etməmişdir. (Halbuki, bə᾽ziləri azğınlıq üzündən bunun əksini güman etmişlər.) Əgər onlara lütf və mərhəmət etsəydi, onlar da saleh insanlar olardılar, əgər hidayət etsəydi, düz yolda olardılar. Necə ki, buyurur: «Allahın doğru yola yönəltdiyi şəxs doğru yolda olan, (haqq yoldan) azdırdığı şəxslər isə ziyana uğrayanlardır![٥]

Allah kafirləri islah etməyə, mö᾽min olsunlar deyə, onlara mərhəmət etməyə qadirdir, lakin Öz elmi əsasında bunların kafir olmasını iradə etmişdir. Buna görə də onları xar edərək qəlblərinə möhür vurmuşdur.

١٩. Xeyir və şər ilahi qəza və qədərdir, biz də qəza və qədərə iman gətirmişik, istər xeyir olsun, istərsə şər, istər şirin olsun, istərsə acı. Bunu da bilirik ki, bizə çatmayan şeylər müqəddər olunmamışdır. Bizə çatan şeylərin də bizdən dəf olunması qeyri-mümkündür. Bəndələr, Allah istəməyincə, özləri üçün heç bir fayda və ziyana malik deyillər. Necə ki, buyurur: «De ki: Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm.»[٦] Biz bütün işlərdə Allaha pənah aparırıq. Hər bir halda öz ehtiyac və fəqirliyimizi Ona təqdim edirik.

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Əhməd ibni Hənbəl və Əbul Həsən Əş᾽ərinin nəzərindən belə nəticə alınır ki:

---

[١] Saffat-٩٦.

[٢] Nəhl-٢٠.

[٣] Nəhl-١٧.

[٤] Tur-٣٥.

[٥] Ə᾽raf-١٧٨.

[٦] Ə᾽raf-١٨٨.

١. Əhli-hədis qəza və qədər barəsində istinad etdikləri ayələrin zahiri mə᾽naları ilə kifayətlənmiş, onların tə᾽vil, yozum və təfsirindən imtina etmişlər.

٢. İlahi qəza və qədərə e᾽tiqad bəsləməyi cəbrə e᾽tiqad bəsləməklə bərabər bilmiş, qəza və qədər barəsində hər növ başqa təfsir və tə᾽rifi inkar etmişdir.

٣. İlahi qəza və qədərə e᾽tiqadı özlərinin şəxsi fikirləri və tə᾽rifləri əsasında götürərək, bunu tövhid e᾽tiqadının nəticəsi, onu inkar etməyi isə küfr hesab etmişlər.

٤. İnsan üçün ixtiyari işləri qəbul etməyi Allahın iradəsinə dəxalət, xilqət və yaranışda şəriklik kimi cilvələndirmişlər.

٥. Allahın elmini ilahi qəza və qədərin mənşəyi hesab etmişlər. Buna görə də insanın ixtiyari fe᾽llərinin mümkünlüyünü Allahın elmi ilə təzadlı hesab edib, onu rədd etmişlər.

Əhli-hədisin nəzərlərinə tutulan irad və tənqidlər aşağıdakılardır:

١. Əgər ayə və rəvayətlərin zahiri mə᾽nasına əməl olunmalıdırsa, onda gərək insanın xeyir və şər əməllərini onların özlərinə nisbət verən ayələrə də iman gətirmək lazımdır. Belə ki, Allah-taala buyurur: «Biz ona haqq yolu göstərdik. İstər (ne᾽mətlərimizə) minnətdar olsun, istər nankor.»[١] Başqa bir yerdə buyurur: «(Ya Məhəmməd!) De ki: Ey insanlar! Artıq Rəbbininzdən sizə haqq (Qur᾽an və peyğəmbər) gəlmişdir. Doğru yolu tutan özünə savab, doğru yoldan azan isə günah qazanar. Mən sizə zamin deyiləm!»[٢] Digər bir ayədə buyurur: «Kim yaxşı bir iş görsə, xeyri özünə, kim də bir pislik etsə, zərəri özünə olar![٣] Yaxud belə buyurur:«Rəbbinizdən sizə aşkar dəlillər gəlmişdir. Kim (onları) görsə, lehinə, kim görməsə, əleyhinədir.Mən sizə nəzarətçi deyiləm.»[٤] Həmçinin buyurur:«Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də!»[٥]

٢. Əgər mö᾽minlərin imanı, kafirlərin küfrü ilahi qəza və qədər əsasında olsaydı, peyğəmbərlərin göndərilməsi və asimani kitabların nazil edilməsi əbəs və yersiz bir iş olardı. Halbuki, Qur᾽an bunların camaatın hidayəti, tə᾽limi və ruhlarının paklanması üçün göndərildiyini aşkar şəkildə qeyd edir.

٣. Əgər zina, oğurluq, haram yemək və bir sözlə, bütün yaramaz işlərə mürtəkib olmaq ilahi qəza və qədər əsasındadırsa, onda çirkin işlərin Allaha nisbət verilməsi mütəal Allahın zatına yaxılan iftira olacaqdır. Halbuki, Allah-taala özü pis işlərə əmr etməyi qadağan edərək buyurur: «De ki: Allah ədəbsizliyə (yaramaz işlərə) əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi danışırsınız![٦]

---

[١] İnsan-٣.
[٢] Yunus-١٠٨.
[٣] Casiyə-١٥.
[٤] Ən᾽am-١٠٤.
[٥] İsra-٧.
[٦] Ə᾽raf-٢٨.

٤. İlahi elm qəza və qədərin mənşəyidir. Amma insanın ixtiyarı ilahi elmlə zidd deyildir. Çünki insanın ixtiyarı da ilahi təqdir və istək əsasındadır və ilahi elm bir şeyə aid olanda onun müqəddimə və şərtlərinə də aid olur. Buna əsasən, ilahi elmin insanın ixtiyari fe`llərinə aid olması onun ixtiyari sifəti ilə yanaşı olur. «Allah filan xeyir işin, ya şər işin filankəs tərəfindən baş verəcəyini bilir» deməyimizin mə`nası budur ki, Allah o şəxsin həmin işi öz istək və iradəsi ilə yerinə yetirəcəyini bilir.

٥. Əgər Allah-taalanın Öz iradə və istəyi ilə insana ixtiyar verməsinə inansaq, onda insanın ixtiyari işlərinə e`tiqad bəsləmək nə tövhidlə, nə də ilahi iradə ilə zidd olmaz.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əhməd ibni Hənbəlin qəza və qədər haqqındakı nəzərini bəyan edin?

٢. Əbul Həsən Əş`əri qəza və qədər haqda nə deyir?

٣. Əhli-hədisin qəza və qədər barəsindəki nəzəriyyəsinə tutulan iradlar nədən ibarətdir?

٤. Dərsdə istifadə olunan ayələrin tərcüməsini bir yerə toplayıb əzbərləyin və onların əsasında Qur`anın qəza və qədər barəsindəki nəzərini bəyan edin.

٥. Əqaid dərslərində öyrəndiyiniz ixtiyar və cəbr bəhslərinə istinad etməklə, əhli-hədisin nəzərini araşdırın.

# ALTINCI DƏRS

## *ƏHLİ-HƏDİS (٣)*

## *ƏQİDƏLƏR (٢)*

*١. Xəbəri sifətlər nədir?*
*٢. Xəbəri sifətlər barəsindəki nəzərlər hansılardır?*
*٣. Əhli-hədisin xəbəri sifətlər barəsindəki nəzəri nədən ibarətdir?*

## ٢. *ƏHLİ-HƏDİSİN İNANCLARINDA XƏBƏRİ SİFƏTLƏR*

Dördüncü dərsdə qısa şəkildə qeyd etdik ki, kəlam alimlərinin arasında ilahi sifətlər barədə çox güclü fikir ayrılığı yaranmışdı.

Onlar ümumi halda sifətləri iki qismə bölmüşlər:

١. Zati sifətlər;

٢. Xəbəri sifətlər.

Zati sifətlər dedikdə, Allah-taalanın elm, qüdrət, həyat, eşitmək, görmək və s. kamal sifətləri nəzərdə tutulur. Xəbəri sifətlər dedikdə isə, Qur᾽an ayələri və rəvayətlərin zahirinin dəlalət etdiyi üz, əl, ayaq, qərar tutmaq və s. sifətlər haqda danışılır. Qeyd etmişdik ki, bu kimi sifətlər Qur᾽anda və rəvayətlərdə gətirildiyindən, onlara xəbəri sifətlər deyilir.

Bu bölgüdən sonra Allahın sifətlərinin zata necə bağlı olması, sifətlərin zata artırılması, yoxsa onunla eyniyyət təşkil etməsi ilə əlaqədar ixtilaf yaranmışdı. Daha çox münaqişə və mübahisələrə səbəb olan digər bir ixtilaf isə, xəbəri sifətlərin necə cilvələndirilməsi ilə əlaqədardır. Bu barədə dörd müxtəlif təfsir və izah yaranmışdır ki, onlardan biri əhli-hədisə və əş᾽arilərə məxsusdur.

Bu dərsdə həmin üç məzhəbi tanıtdırmaqla yanaşı, əhli-hədisin də bu barədə qəbul etdiyi mövqeyi aydınlaşdıracağıq.

## *XƏBƏRİ SİFƏTLƏRLƏ ƏLAQƏDAR DÖRD MƏZHƏBİN MÖVQEYİ*

١. Müşəbbihə məzhəbi: Bu məzhəb xəbəri sifətləri Allahın zatı üçün qəbul etmiş və onlar üçün müəyyən xüsusiyyətin olduğuna da inanmışlar. Bu məzhəbdə xəbəri sifətlər insani sifətlərə təşbih edilmiş və belə təsəvvür yaradılmışdır ki, Allah-taala da insan kimi iki gözə, iki ələ, iki ayağa malikdir. Şəhristaninin nəql etdiyinə görə, bunlar hətta Allahla əl verib görüşməyin mümkünlüyünü də qəbul etmişlər. Onların fikrincə, xalis müsəlmanlar əgər ruhi məşğələlər vasitəsilə imanın yüksək dərəcələrinə nail olsalar, həm dünyada, həm də axirətdə Allah-taala ilə qol-boyun olub görüşə bilərlər. Onlar təkcə axirətdə deyil, Hətta dünyada da Allahın görünməsini mümkün hesab etmişlər.[١]

Bu məzhəbin ardıcılları Qur՚anda Allah haqqında işlənən tə՚birlərin hamısını, o cümlədən istiva, üz, əl, gəlmək, üstünlük və sairəni heç bir təfsir və yozum olmadan zahiri mə՚nalarda izah etmiş və onlara e՚tiqad bəsləmişlər.

Onların iddiasına görə, Peyğəmbəri-Əkrəmdən (s) rəvayət olunan çoxlu hədislərdə də Allah üçün zahiri və batini bədən üzvləri nəzərdə tutulmuşdur

٢. Mö՚təzilə məzhəbi: Bu məzhəbin ardıcılları xəbəri sifətlər barəsində tə՚vil və yozuma inanaraq deyirlər ki, xəbəri sifətlərin hər birini, ondan əldə olunan mə՚nalarla təfsir etmək lazımdır və bu kəlmələrin təkcə zahiri mə՚naları ilə kifayətlənmək olmaz. Misal üçün, «Allah-taalanın ərşdə qərar tutması» ifadəsini qüdrətin aşkar edilməsi və hakim kəsilmə mə՚nasına, yaxud «Allahın əlləri» ifadəsini qüdrət və ne՚mət mə՚nasına yozmaq lazımdır.

٣. Əş՚ərilərin bir qrupu inanırlar ki, ayə və rəvayətlərdə Allahın vəsf edildiyi bütün ifadə və sifətlərə, onların mə՚nasında təfəkkür etmədən, təfsirə yol vermədən inanıb qəbul etməli və bunların həqiqi mə՚nalarını Allahın özünə həvalə etməliyik. Buna görə də bu qrupa «müfəvvizə» (həvalə edən) deyilir.

٤. Əhli-hədis və əş՚əri məzhəbinin ardıcılları Allah-taala barəsində xəbəri sifətlərə inanır, o sifətlər üçün heç bir xüsusiyyət olmadığını deyir və Allahı insani sifətlərə təşbih etmirlər. Onlar həmin sifətləri zahiri mə՚nalara yozur və başqa mə՚nalar haqda düşünməkdən çəkinirlər.

Əhməd inbi Hənbəl «Əs-sünnə» kitabında deyir: «Allah eşidəndir və şəkk etmir; görəndir, tərəddüd etmir; alimdir, cahil deyil; bağışlayandır, paxıl deyil; helimlidir, tələsməz; hifz edəndir, unutmaz; ayıqdır, xəta etməz; yaxındır, qafil olmaz; danışar, eşidər, görər, baxar, gülər, şad olar, sevər, ikrah və nifrət edər, razı olar, qəzəb edər, rəhm edər, bağışlayar, əta edər, məhrum edər, hər gecə istədiyi şəkildə dünya asimanına nazil olar. Bəndələrin qəlbləri Allahın iki

[١] Şəhristani, Əl-miləl vən-nihəl, ١-ci cild.

barmağının arasındadır ki, hər şəkildə istəsə, onları tutar, hər nəyi istəsə onda (qəlblərdə) yerləşdirər.

Allah-taala Adəmi Öz əli ilə xəlq etdi. Asimanlar və yer qiyamətdə Allahın əlinin içində olacaqdır. O, qiyamət günü bir dəstəni Öz əli ilə cəhənnəmdən çıxaracaq, öz gözü ilə behişt əhlinə baxacaq, onlar da Allahı görəcəkdir. Allah mərhəmət əlaməti olaraq, onlarda təcəlli edəcək (cilvələnəcək). Öz ne`mətlərindən onlara verəcək. Cəza günü olan qiyamətdə bəndələr Allaha təqdim olunacaq, Allah onların hesabı ilə şəxsən özü maraqlanacaq və onu heç bir şəxsə həvalə etməyəcəkdir.»

İbni Hənbəl daha sonra bir neçə rəvayəti nəql edir ki, onlarda Allah-taala üçün zahiri bədən üzvləri, o cümlədən əl, bilək, sinə, ayaq, barmaq, göz və s. üzvlər, eləcə də müəyyən fe`llər, o cümlədən səs, kəlam, gülüş və s. qeyd edilmişdir.[١]

Əbul Həsən Əş`əri də həmin sifətlərin Allaha aid olduğunu deyir, onların başqa mə`nalara yozulmasından çəkinir və inanır ki, Allah-taala bu sifətlərə, heç bir xüsusiyyət və təşbih olmadan malikdir. O, xəbəri sifətlərin xüsusiyyətsiz olduğuna tə`kid edir. Halbuki, ibni Hənbəl yalnız «Leysə kəmislihi şəy`un» ayəsini misal çəkməklə kifayətlənir. Əş`əri «Əl-İbanə» kitabında belə deyir:

«Həqiqətən Allah-taala Öz ərşində qərar tutmuşdur. Necə ki, Qur`an özü buyurmuşdur: «Ərrəhmanu ələl ərşistəva»; Həqiqətən Allahın üzü vardır, amma xüsusiyyətsizdir. Necə ki, Qur`an özü buyurmuşdur: «Və yəbqa vəchu rəbbikə zülcəlali vəl ikram»; Həmçinin iki əli də vardır, amma xüsusiyyətsizdir. Necə ki Qur`an özü buyurmuşdur: «Xələqtu biyədəyyə»; Həmçinin buyurmuşdur: «Bəl yədahu məbsutətani»; Allahın xüsusiyyətə malik olmayan gözləri vardır. Necə ki, Qur`an özü buyurmuşdur: «Təcri bi ə`yunina».

O, həmin kitabın başqa bir yerində belə deyir:

Əgər «istiva barəsində fikriniz nədir?» - deyə soruşsalar, Özünün buyurduğu kimi, «Allah-taala Öz ərşində qərar tutmuşdur» deyərəm. Bu yerləşmə və «qərar tutma» Ona layiq olan tərzdədir və adi şəkildə başa düşülən istivadan tam fərqlənir - deyə cavab verərik.»

O, başqa bir yerdə deyir: «Allah-taala buyurmuşdur: «Kullu şəy`in halikun illa vəchəh». Həmçinin buyurmuşdur «Və yəbqa vəchu rəbbikə zülcəlali vəl ikram». Bu iki ayədə Allah-taala öz üzündən xəbər verir. Belə ki, Onun üzü fani, zavala uğrayan deyil, həlak olmazdır. «Təcri bi ə`yunina», «vəsnəil-fulkə» kimi ayələrdə Öz üzündən və gözündən xəbər verir. Belə ki, o, müəyyən xüsusiyyətə və həddə malik deyildir.»[٢]

---

[١] İbni Hənbəl, «Əs-sünnə» kitabı.

[٢] Əş`əri, «Əl-İbanə» kitabı.

## *TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR*

Aydındır ki, əhli-hədis və əş᾽ərilər təcəssüm (Allahı cism bilmək) və təşbih (Allahı cismə oxşatmaq) kimi yanlış fikirlərə düşməmək üçün, eləcə də Allah-taalanı məxluqatın sifətlərindən pak və münəzzəh bilmək üçün bu yolu tutmuşlar. Onlar Allahın sifətləri haqda mövcud olan ayə və rəvayətlərin hər birinə imanlı olmaq, tə᾽vil və təfvizə düçar olmamaq üçün belə bir mövqe seçiblər.

Şübhəsiz, hər bir mö᾽min şəxs Allahın Özünü vəsf etdiyi şeylərə imanlı olmalıdır. Bundan əlavə, Allah kəlamını onun zahirindən başa düşülən başqa bir mə᾽naya yozmaq və aşkar nəssin (Qur᾽an və ya rəvayətin) əsasında olmayan yozumlara əl atmaq olmaz.

Bu zaman bir tərəfdən təşbih və təcsimdən pəhriz etmək, digər tərəfdən isə əsaslı olmayan bir yozumdan qaçmaq üçün mö᾽tədil və orta bir mövqe seçmək lazımdır. Amma əhli-hədis və əş᾽ərilərin tutduğu yol bu hədəfi tə᾽min etmir. Çünki, «xüsusiyyətsiz» sözünün ümumi bir söz olmasından və ondan aydın bir mə᾽na başa düşülməməsindən əlavə, əsas e᾽tibarilə xüsusiyyət və necə olmaq əl, göz və s. sözlərin mə᾽na təzahürdür. Belə ki, bu sözlərdən xüsusiyyət götürüldükdə, onların həqiqəti aradan gedir. Misal üçün, «Allah-taala hər gecə dünya asimanına nazil olur, amma bu nazilolma xüsusiyyətsizdir» - deyilsə, nazilolmanın mə᾽nasını zehinlərə çatdırmaq olmaz. Çünki nazilolma məsələsində əsas ünsür hərəkətdir. Xüsusilə, dünya səması maddi bir varlıqdır və ondakı nazilolma və hərəkət də maddi olmalıdır.

Digər irad isə xəbəri sifətlərin varid olduğu rəvayətlərlə əlaqədardır.

Tədqiqatçıların e᾽tiqadına görə, bu rəvayətlərin əksəriyyəti sənəd baxımından mö᾽təbər deyildir. Buna görə də yalnız Qur᾽an ayələrində və səhih hədislərdə gələn sifətlərlə kifayətlənməli, onların izah və yozumunda da digər səhih hədislərə istinad edilməlidir.

Bu mövzu ilə əlaqədar digər bir irad da bundan ibarətdir ki, kəlmənin zahiri mə᾽nasını əxz etmək iki cür ola bilər:

Hərfi zahir və cümlə ilə əlaqədar olan zahir. Yə᾽ni, hər hansı bir sözə cümlə tərkibində deyil, təklikdə diqqət yetirildikdə, onun leksik və xüsusi mə᾽nası nəzərdə tutulur. Həmin sözə cümlə tərkibində baxıldıqda, mümkündür ki, o, öz həqiqi mə᾽nasında deyil, məcazi mə᾽nada işlədilmiş olsun. Məsələn, «əl» kəlməsi təklikdə işlənəndə, onun bədən üzvü olması başa düşülür, amma cümlə tərkibində işləndikdə, onun məcazi mə᾽nalarından biri olan güc və qüdrət mə᾽nasını çatdırması da mümkündür. Belə ki, «Sad» surəsinin ١٧-ci ayəsində bu söz məhz həmin mə᾽nada işlənmişdir. Aydındır ki, bu ayə «Bizim bəndəmiz olan Davudun əlləri vardır», yə᾽ni «onun bədənində «əl» adlı xüsusi bir üzv vardır»

mə᾽nasını çatdırmaq istəmir. Çünki ələ malik olmaq təkcə Davud əleyhissəlama məxsus deyildir.

Omonim sözlər haqda verilən izahlara diqqət yetirməklə, deyilişi və yazılışı eyni olub, müxtəlif mə᾽nalar verən sözlərin işlənmə qaydalarını xatırlamaq bu mübahisələrin həll olunmasında kifayət edər.

Bu fikir həqiqətdə xəbəri sifətlər barədə söylənən beşinci nəzərdir ki, onun əsasında sifətlərin zahiri mə᾽nalarını götürüb, onları tə᾽vil etməkdən çəkinirlər. Amma burada sifətin «hərfi zahir» (leksik mə᾽nası) mə᾽nasına deyil, cümlənin zahiri mə᾽nasına diqqət yetirilir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Xəbəri sifətlərin tə᾽rifini deyin.

٢. Müşəbbihə məzhəbinin xəbəri sifətlər barəsindəki nəzəri nədir?

٣. Mö᾽təzilə firqəsinin xəbəri sifətlərlə əlaqədar nəzərləri nədən ibartdir?

٤. Kimlərə müfəvvizə deyilir? Nə üçün?

٥. Əhli-hədisin xəbəri sifətlər barəsindəki nəzərləri nədir?

٦. Əhli-hədisin xəbəri sifətlər barədə irəli sürdükləri nəzəriyyəyə tutulan iradları izah edin.

## YEDDİNCİ DƏRS

### *ƏHLİ-HƏDİS (٤)*

### *ƏQİDƏLƏR (٣)*

*١. Peyğəmbərin (s) bütün səhabələri ləyaqətli və saleh şəxslər idimi?*
*٢. Əhli-hədisin Peyğəmbər (s) səhabələri barəsindəki nəzəri necədir?*

### *٣. ƏHLİ-HƏDİSİN SƏHABƏLƏRİN ƏDALƏTİ BARƏSİNDƏKİ NƏZƏRİ*

Əhli-hədisin tə᾽kid etdikləri fikri əsaslardan biri də, onların istisnasız olaraq, Peyğəmbərin (s) bütün səhabələrini ədalətli sanmalarıdır. Bu firqənin nəzərində Peyğəmbər (s) səhabələrinə irad tutmaq bid᾽ət və dindən xaric olmaq sayılır. Bunun əksinə olaraq, onlara məhəbbət bəsləmək sünnət sayılır və onların haqqında dua etmək Allah dərgahına yaxınlaşmaq üçün bir vasitədir.

Əhməd ibni Hənbəl «Əs-sünnə» kitabında deyir: Sünnətlərdən biri Peyğəmbər (s) səhabələrinin yaxşılıqlarını yad etmək, onların arasında baş verən çəkişmələri nəzərə almamaq və onlara göz yummaqdır. Buna əsasən, hər kim Peyğəmbər (s) səhabələrinin hamısını, yaxud onlardan təkcə birini söyüb nifrət etsə, bid᾽ətçi və rafizidir (yə᾽ni dindən çıxmışdır). Peyğəmbər (s) səhabələrinə məhəbbət bəsləmək sünnət, onların barəsində dua etmək Allah dərgahına yaxınlaşmaq üçün bir vasitə, onlara tabe olmaq qurtuluş səbəbi, əsərlərinə tabe olmaq isə fəzilətdir. Peyğəmbər-Əkrəmdən (s) sonra ümmətin ən yaxşısı Əbu Bəkr, ondan sonra Ömər, ondan sonra Osman və daha sonra Əlidir ki, bunlar raşid və hidayətedici xəlifələrdir. Bunlardan sonra Peyğəmbərin (s) sair səhabələrinin pisliklərini nəql etmək, yaxud səhabələrdən hər hansı birinə tə᾽nə ilə yanaşmaq heç kəsə caiz deyildir. Əgər bir kəs belə edərsə, müsəlmanların rəhbərinə onu cəzalandırmaq vacibdir və onu bağışlamaq haqqı yoxdur; o, tövbə edənə qədər cəzalandırılmalıdır. Əgər tövbə edərsə, qəbul olunar, əks halda cəza tədbirləri yenidən təkrarlanar, başqalarının hüzurunda tövbə edib öz əməlindən qayıdana kimi şallaq vurular.»

Əbul Həsən Əşʾəri də «İbanə» kitabında belə deyir: «Biz sələflərə (səhabələrə) məhəbbət bəsləməyə iman gətirmişik. Elə şəxslər ki, Allah onları Peyğəmbərlə yoldaşlığa layiq bilmişdir. Allah-taala onları təʾriflədiyinə görə, biz onların hamısını sevirik.»

## *TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR*

Bu nəzəriyyənin araşdırılıb tənqid edilməsində bir neçə məsələyə diqqət yetirilir:

**١. Səhabə kimə deyilir?**

Səhabənin izah və təʾrifində alimlər arasında fikir ayrılığı vardır. Vaqidi deyir: «Hər kəs Peyğəmbəri (s) görübsə, İslamı qəbul edib ona razı olubsa, Peyğəmbər (s) səhabəsi kimi tanınır, hətta o həzrəti bir saat görmüş olsa belə. Əlbəttə, səhabələr İslamı nə zaman qəbul etmək baxımından rütbə və dərəcələrə bölünürlər.»

Əhməd ibni Hənbəl deyir: «Peyğəmbər (s) səhabələrinin hamısı o həzrətlə oturub-duran şəxslər idi. Hətta bir ay, bir gün, yaxud bir saat olsa və yaxud onu bir anlığa görsə belə.»

Buxari deyir: «Müsəlmanlardan Peyğəmbərlə (s) oturub-duran, yaxud onu görən hər bir şəxs onun səhabəsi kimi tanınır.» Amma Səid ibni Musəyyib yalnız o kəsi Peyğəmbər (s) səhabəsi hesab edir ki, heç olmazsa bir-iki il o həzrətlə birlikdə olsun, yaxud bir-iki müharibədə onunla iştirak etmiş olsun.

٢. Biz (səhabə üçün deyilən təʾrifin dairəsinin genişliyi ilə belə) Peyğəmbər (s) səhabələrinin tarixi reallıq və həqiqət baxımından necə olmalarını, Peyğəmbərin (s) dininə vəfalı qalmaq baxımından o həzrətlə oturub-duran, yaxud onu ziyarət edən bütün şəxsləri (səhabə kimi) qəbul etməyin mümkünlüyünü araşdırmalıyıq.

Peyğəmbəri-Əkrəmin (s) köməkçiləri və səhabələrinin vəsfində gələn çoxlu Qurʾan ayələrinə, eləcə də tarixə nəzər salmaqla bu sualın cavabını vermək olar.

Əgər səhabələrin təʾrifində həmin genişliyi götürsək, (yəʾni Peyğəmbərlə (s) oturub-duran, yaxud yalnız onu hətta bir gün və ya bir saat olsa belə, ziyarət edən şəxslərin hamısını səhabə hesab etsək,) Peyğəmbər (s) səhabələrini Qurʾanın vəsfinə əsasən, bir neçə dəstəyə bölmək olar:

**١. İmanda öndə gedənlər;**

Qurʾani-kərim mühacir, ənsar və onların ardıcılları içərisində imanda öndə gedənləri «Allahın onlardan və onların da Allahdan razı olduğu» şəxslər və Allah tərəfindən onlara behişt vəʾdəsi verilən şəxslər kimi. Belə ki, buyurulur: **«(İslamı) ilk əvvəl qəbul edib (başqalarını bu işdə) qabaqlayan mühacirlərə və ənsara,**

**həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar...»**[١]

**٢. Bey`ət edənlər;**

Allah-taala, ağacın altında Peyğəmbərlə (s) bey`ət edən şəxslərə xatircəmlik nazil etməsini və onların qələbə çalacaqlarını və`də vermiş və onlardan razı olduğunu bildirmişdir. Bu barədə buyurur: **«(Ya Peyğəmbər!) And olsun ki, (Hüdeybiyyədə) ağac altında sənə bey`ət etdikləri zaman Allah mö`minlərdən razı oldu. Allah onların ürəklərində olanı bildi, onlara Öz dərgahından xatircəmlik, rahatlıq göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə ilə mükafatlandırdı.»**[٢]

**٣. Mühacirlər;**

Qur`anda mühacirlər Allahın mərhəmət və razılığını əldə etmək üçün çalışan, eləcə də Allaha və Onun rəsuluna kömək etmək niyyətində olan şəxslər kimi yad edilir, onlar sadiq şəxslər adlandırılaraq buyurulur: «**Bu qənimət yurdlarından qovulub çıxardılmış, mal-dövləti əlindən çıxmış Allahdan mərhəmət və riza diləyən, Allaha və Onun peyğəmbərinə kömək edən yoxsul mühacirlərə məxsusdur. Onlar (imanlarında, sözlərində və işlərində) doğru olan kimsələrdir.»**[٣]

**٤. Fəth səhabələri;**

Allah-taala bu dəstəni əzəmət və hörmətlə yad edərək, onların barəsində buyurur: «Düşmən müqabilində şücaətli və soyuqqanlı, öz aralarında isə dost və mehribandırlar. Həmişə Allaha ibadət edərək, Onun razılığını əldə etmək məqsədi güdürlər.»[٤]

Bu ayələrin məzmunundan aydın olduğu kimi, Allah-taala bu dörd dəstəni əzəmətlə yad edir, onların vəziyyəti ilə əlaqədar Öz razılığını izhar edir. Amma bə`zi Qur`an ayələrinə müraciət etdikdə görürük ki, Peyğəmbər (s) səhabələrinin (yə`ni o həzrəti görüb, onunla oturub-duranlar) arasında elə şəxslər də tapmaq olar ki, Qur`an onları məzəmmət edir, onlara nifrət hissi ilə yanaşır, yaxud Peyğəmbərə (s) və sair mö`minlərə onlardan uzaq gəzmələri barədə xəbərdarlıq edir. Bu izaha əsasən, aşağıda bir neçə səhabə qrupunun adını çəkmək olar:

**٥. Tanınmış münafiqlər;**

Onlar Peyğəmbəri-Əkrəmin (s) səhabələri arasına nüfuz edərək, o həzrətə tabe olmalarını iddia edirdilər. Halbuki, onların nifaqı və ikiüzlülüyü aşkar idi. «Münafiqun» surəsi onların barəsində nazil olmuşdur. Allah-taala belə buyurur: «(Ya Peyğəmbər!) Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz sənin doğrudan

---

[١] Tövbə-١٠٠.

[٢] Fəth-١٨.

[٣] Həşr-٨.

[٤] Fəth-٢٩.

da, Allahın peyğəmbəri olduğuna şəhadət veririk!" – deyirlər. Allah sənin Onun həqiqi peyğəmbəri olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir.»[١]

Surənin davamında isə belə oxuyuruq: «Sən onların bağışlanmasını diləsən də, diləməsən də, fərqi yoxdur. Onsuz da Allah onları bağışlamayacaqdır. Şübhəsiz ki, Allah fasiq qövmü doğru yola yönəltməz!»[٢]

**٦. Tanınmayan münafiqlər;**

Münafiqlərin bir qrupu da vardır ki, Allah-taala onların barəsində Peyğəmbərə xəbərdarlıq edir və buyurur:

«Sən də onları tanımırsan, yalnız Biz onları tanıyırıq.»[٣]

**٧. Qəlblərində kin-küdurət və qərəz olanlar;**

Allah-taala onları, Allaha və Peyğəmbərə yalan və῾də verən münafiqlər cərgəsində qeyd edir:

**«O zaman münafiqlər və qəlblərində mərəz olanlar: "Allah və Onun peyğəmbəri bizə yalan və`d etmişdir. (Biz zəfər çala bilməyəcəyik" – deyirdilər.»[٤]**

**٨. Fitnə-fəsad törədənlər.**

Allah-taala Qur῾ani-kərimdə bu qrupu «səmmaun» adlandırır ki, Allaha, qiyamət gününə iman məsələsində vəfalı qalmadıqlarına görə, cihadda iştirak etmək məsələsində şəkkə düşmüşdülər. Əgər iştirak etsəydilər də, yalnız fitnə-fəsada və xəyanətə əl atırdılar. Belə ki, Qur῾ani-kərimdə buyurulur:

**«Səndən (cihada çıxmamaq üçün) izn istəyənlər ancaq Allaha və axirət gününə iman gətirməyənlər və ürəkləri şəkk-şübhəyə düşənlərdir. Onlar öz şübhələrində tərəddüd edib durarlar»**

«Əgər onlar (münafiqlər) cihada çıxmaq istəsəydilər, ona hazırlıq görərdilər. Lakin onların davranışı Allaha xoş gəlmədi, buna görə də (cihada çıxmaqlarına) mane oldu. Onlara: "(Evdə) oturanlarla (qocalar, zəiflər, qadınlar və uşaqlarla) bərabər siz də oturun!" – deyildi»

«Əgər münafiqlər sizinlə birlikdə (cihada) çıxsaydılar, yalnız içinizdə pozuntunu, fəsadı artırar və sizi fitnəyə uğratmaq üçün aranıza soxulardılar. İçinizdə onlara qulaq asanlar da vardır. Allah zalimləri tanıyandır!»[٥]

Yuxarıda qeyd olunanlardan əlavə, digər qruplar da var idi ki, Qur῾an onları fasiq[١], yaxşı əməllə pis əməli bir-birinə qatanlar[٢], cihad meydanından qaçanlar[٣], imansız müsəlmanlar[٤] və s. kimi adlarla xatırlamışdır.

---

[١] Munafiqun-١.
[٢] Munafiqun-٦.
[٣] Tövbə-١٠١.
[٤] Əhzab-١٢.
[٥] Tövbə ٤٥-٤٧.

Qeyd olunanlardan məʾlum olur ki, Qurʾanın aşkar buyurduğuna əsasən, Peyğəmbər (s) səhabələrinin hamısı Allahın nəzərində eyni səviyyədə deyildir və onların hamısı Allahın razılığına nail olmamışdır. Bundan əlavə, İslamın əvvəllərinə nəzər saldıqda görürük ki, hətta əvvəldə qeyd olunan dörd qrupdan birində olan şəxslər də, Peyğəmbərin (s) vəfatından sonra şiddətli çəkişmələrə başladılar. Bunlara misal olaraq, üçüncü xəlifə Osman ibni Əffanın qətlə yetirilməsi, Əmirəl-möʾminin Əlinin (ə) xilafəti dövründə baş verən «Siffeyn» və «Cəməl» müharibələrini qeyd etmək olar.

Burada belə bir sual yaranır: Yuxarıdakı qrupların hamısını Peyğəmbər (s) səhabəsi hesab etmək və onların hamısına məhəbbət və ehtiramla yanaşmaq necə mümkün olar?! Onların hamısının ədalətli olduğunu idia etmək olarmı?! Qeyd olunduğu kimi, müharibə edib bir-birinin qanını axıdan tərəflərin hər ikisinə haqq qazandırmaq olarmı?! Və yaxud onların heç birinin ədalətində şəkk etmək olmazmı?!

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Səhabələr üçün hansı izah və təʾrifləri qeyd etmişlər?

٢. Əhməd ibni Hənbəlin Peyğəmbər (s) səhabələri barədə nəzəri nədir?

٣. Qurʾani-kərimdə Peyğəmbər (s) səhabələri hansı dəstələrə bölünür? Onların adlarını sadalayın.

٤. Əhli-hədisin səhabənin ədaləti barəsindəki nəzərini bəyan edin.

---

[١] Hücurat-٦.

[٢] Tövbə-١٠٢.

[٣] Ənfal ١٥-١٦.

[٤] Hücurat-١٤.

# SƏKKİZİNCİ DƏRS

## *ƏHLİ-HƏDİS (٥)*

## *ƏQİDƏLƏR (٤)*

*١. Əhli-hədisin xəlifələrin xilafəti barədə nəzəri necədir?*
*٢. Əhli-hədisin hakimlərin barəsində nəzəri nədən ibarətdir?*

### *٤. XƏLİFƏLƏRİN XİLAFƏTİNƏ İMAN*

Əhli-hədisin əqidəsində qabarıq şəkildə göstərilən dördüncü məsələ xəlifələrin xilafətinə iman məsələsidir. Əvvəlki dərsdə qeyd olunduğu kimi, Əhməd ibni Hənbəl özünün «Əs-sünnə» kitabında demişdir ki, Peyğəmbərdən sonra ümmətin ən yaxşı şəxsləri Əbu Bəkr, ondan sonra Ömər, sonra Osman və ondan sonra Əlidir ki, bunlar hidayət edən raşid xəlifələrdir. Əbul Həsən Əş`əri də «Əl-İbanə» kitabında demişdir: Biz inanırıq ki, Peyğəmbərdən (s) sonra ən yaxşı rəhbər Əbu Bəkrdir. Həqiqətən Allah onun vasitəsilə Öz dininə izzət əta etdi və onu ümmət üçün imam seçdi. Rəsuli-Əkrəm onu namaz üçün imam seçmişdi, camaat da onu Peyğəmbərin xəlifəsi kimi qəbul etmişdi. Ondan sonra ən fəzilətli şəxs Ömər ibni Xəttab, ondan sonra Osman ibni Əffandır. Onu zülmlə öldürmüşlər. Osmandan sonra isə Əli ibni Əbi Talibdir. Bu dörd nəfər Rəsuli-Əkrəmdən (s) sonra ümmətin rəhbərləridir və onların xilafəti nübüvvət və peyğəmbərliyin canişi hesab olunur.

### *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Bu sözlərdən belə nəticə alınır ki, əhli-hədis və onların ardıcılları olan əş`ərilərin e`tiqadı aşağıdakılardır:

١. Dörd xəlifənin xilafətini (haqq olmasını) iqrar etmək imanın bir hissəsi sayılır.

٢. İmamət və xilafət nübüvvət və peyğəmbərlik səviyyəsindədir.

٣. Raşidi xəlifələrin fəziləti onların xilafətlərinin tərtibi ilədir.

Bu nəzəri araşdırıb dəyərləndirməklə bir neçə sual yaranır:

١. Aşağıdakı məsələlərə diqqət yetirməklə, necə ola bilər ki, dörd xəlifənin xilafətinə e`tiqad bəsləmək imanın bir hissəsi sayılsın? Əvvəla, sünnü alimləri,

mühəddis və tarixçilər bilirlər ki, nə vəhy kəlamında, nə də Rəsuli-Əkrəmin (s) bəyanında xəlifələrin xilafətinə dair aşkar bir göstəriş yoxdur. Mə᾽lum məsələdir ki, camaatın özü Peyğəmbərin (s) vəfatından sonra ümmətin icması (rə᾽y birliyi) ilə Əbu Bəkrə bey᾽ət etdilər, ikinci xəlifə də Əbu Bəkr tərəfindən seçildi, üçüncü xəlifə şuranın rə᾽yi ilə, dördüncü xəlifə isə camaatın rə᾽y və bey᾽əti ilə xilafətə çatdı. Buna görə də xəlifələrin xilafətinə aşkar bir dəlil (nəss) yoxdur. Belə bir halda, din və şəriət qanunlarının tə᾽sis edildiyi zamanda üsulidinin bir hissəsi olmayan və yalnız camaat tərəfindən tə᾽yin olunan ümmətə rəhbərlik vəzifəsinin sonradan dininin bir hissəsi olması necə mümkün ola bilər?! İkincisi, sünnü alimlərinin əksəriyyəti imaməti üsulidindən deyil, füruidindən sayırlar. O cümlədən, imam Ğəzzali deyir: «Bilmək lazımdır ki, imamət məsələsi dinin mühüm və ya əqli əsasları deyil, fiqhi məsələlər sırasındadır».[١] Seyfuddin Amədi də belə deyir: «Bilmək lazımdır ki, imamət barəsində olan bəhslər üsulidindən deyildir. Bu məsələ gündəlik qarşıya çıxan işlərdən də deyil ki, mükəlləflər ondan üz döndərə bilməsinlər...»[٢] Buna əsasən, fiqhi məsələlərin qollarından sayılan bir məsələ necə ola bilər ki, Peyğəmbər (s) şəriətinə iman gətirməyin ayrılmaz bir hissəsi hesab olsun və onun inkar edilməsi dindən xaric olmağa səbəb olsun?! Üçüncüsü, əgər xəlifələrin xilafətinə iman gətirməyi dinin bir hissəsi hesab etsək, onda Peyğəmbər (s) səhabələrinin və müsəlmanlardan bir çoxunun dindən çıxmasını qəbul etməliyik. Çünki, Əbu Bəkr xilafətə seçildiyi zaman bir dəstə müsəlman müxalifətçilik etdilər, həmçinin ikinci, üçüncü və dördüncü xəlifə seçilən zaman digər bir qrup kəskin mübarizəyə başladılar. Halbuki, əvvəldə qeyd etdik ki, əhli-hədis bütün səhabələrin ədalətli olmasına inanır və onların fəzilətinin inkar olunmasını dindən çıxmaq kimi qələmə verir.

٢. Əhli-hədis bir tərəfdən xilafət və imaməti nübüvvət və peyğəmbərliyin canişini kimi qələmə verir, digər tərəfdən də xəlifələrin yalnız dörd nəfərdən ibarət olduqlarını bildirirlər. Burada belə bir sual yaranır ki, əgər imamət də nübüvvət və onun canişini məqamındadırsa, necə olur ki, Peyğəmbərin (s) vəfatından sonra yalnız dörd nəfər xilafətə çatır və Əmirəl-mö᾽minin Əli ibni Əbi Talibin (ə) şəhid olması ilə sona yetir?! Görəsən xilafət və imamət Peyğəmbərdən (s) sonra yalnız ٣٠ il lazım idimi və ondan sonra camaatın imama ehtiyacı yoxdurmu?!

٣. Raşidi xəlifələrinin fəziləti ilə onların sıra və tərtiblə xilafətə seçilməsi arasında nə kimi əlaqə və bağlılıq vardır? Əgər fəzilət və üstünlük me᾽yarı İslamı daha tez qəbul etmək olsaydı, onda tarixi gerçəkliklər digər bir tərtibatın təşkilini üzə çıxarardı. Əgər Peyğəmbəri-Əkrəmin (s) xəlifələrin fəzilətinə və daha üstün olmasına dair şəhadət verməsi, onları hörmət və tə᾽riflə yad etməsi me᾽yar

---

[١] «Əl-iqtisadu fil- e᾽tiqad».

[٢] «Ğayətul-məram fi elmil-kəlam».

olsaydı, onda o həzrətin hədislərinə müraciət etməklə anlamaq olar ki, həqiqət tam ayrı bir şeydir; onlar haqda buyurulan sifətlər, imtiyazlar və işlər tamamilə fərqlidir. Bu dəfə də tamamilə başqa bir cədvəl tərtib etmək lazımdır. Buna əsasən, əgər «raşidi xəlifələrinin əfzəl olması, onların xilafətə tə`yin olunma tərtibi əsasındandır» - sözünün me`yarı səhabələrin şəhadət və rə`yi olsaydı, belə bir hadisəni də tarixdən əldə etmək mümkün olmazdı.

Çünki əvvəla, ikinci və üçüncü xəlifə bütün səhabələrin rə`y və şəhadəti ilə seçilməmişdir. İkinci xəlifə birinci xəlifə tərəfindən seçilib, üçüncü xəlifə isə altı nəfərlik şura tərəfindən müəyyən olunmuşdur. İkincisi, birinci və dördüncü xəlifənin seçilməsi zamanı da müsəlmanlardan və səhabələrdən bir dəstəsi həm seçki zamanı, həm də ondan sonra müxalifətçilik etmişdilər. Ümumiyyətlə, camaatın xüsusi bir şəxsə üz gətirib onu xilafət məqamına seçmələri, əmir olmaq və s. şeylər labüd olaraq, onun üstün olmasına dəlil ola bilməz. İslam alimlərindən bir çoxu müxtəlif dövrlərdə yuxarıda qeyd olunan tərtibi onların əfzəl olmasını isbat etmək üçün dəlil hesab etməmişlər.[١]

## ٥. SULTANLARA VƏ PADŞAHLARA İTAƏT ETMƏK

Əhli-hədisin beşinci əqidəsi heç bir qeyd və şərt olmadan sultan və hakimlərə itaət etməyin vacibliyidir, istər həmin sultan ədalətlə rəftar etsin, istərsə də zülmlə. Hər bir halda sultanın əleyhinə qiyam etmək qadağan və haramdır. Hər kəs bundan başqa e`tiqada malik olsa bid`ətçi və haqq yolundan çıxmış hesab olunur. Belə ki, Əhməd ibni Hənbəl «Əs-sünnə» risaləsində belə deyir: Sədəqə, vergi, xərac və qənimətlərin əmirlərə verilməsi (vacibdir), istər ondan ədalət yolunda istifadə etsin, istərsə də zülm yolunda. Həmçinin, Allah-taalanın sizin işlərinizə rəhbər tə`yin etdiyi hər bir şəxsin qarşısında təslim olmağınız vacibdir. Ona itaət etməkdən imtina etməməlisiniz, onun əleyhinə silahlı mübarizə aparmamalısınız. Allah sizə firavanlıq versin. Sultanın əleyhinə qiyam etməyin, əksinə onun əmrlərinə müt`i olun. Əgər sultan sizi Allaha qarşı mə`siyət və günah sayılan bir şeyə əmr etsə, ona itaət etməyin; belə bir halda da onun əleyhinə qiyam etməyə vəzifəli deyilsiniz və onu öz haqqından çəkindirə bilməzsiniz. Heç bir fitnədə əlinlə və dilinlə kömək etmə, əksinə əlinə, dilinə və şəxsi meyllərinə nəzarət etməlisən; Allah sənin köməyindir.»

## TƏNQİD VƏ ARAŞDIRMALAR

Bu mövzunu araşdırarkən qarşıya çıxan ən mühüm məsələ bundan ibarətdir ki, bu əqidənin dəlili nədir və onu isbat etmək üçün hansı əsaslardan istifadə olunur?

---

[١] İbni Əbil Hədidin «Nəhcül-bəlağə»nin şərhindəki müqəddiməsinə müraciət edin.

Əhli-hədis bu əqidəni doğrultmaq üçün Peyğəmbəri-Əkrəmə (s) istinad edilən hədislərə əsaslanırlar. Belə ki, həmin hədislərdə müsəlmanların rəhbərinin və sultanların əleyhinə qiyam etmək qadağan olunmuşdur.

O cümlədən, həzrət Peyğəmbər buyurmuşdur: «Hər kəs öz rəhbərindən batil bir iş baş verdiyini görsə, səbr etməlidir, çünki hər kəs hətta bir qarış qədər olsa belə, sultanın əleyhinə qiyam etsə və həmin halda ölsə, cahiliyyətdə ölmüş kimidir.»

Amma əvvəla, qeyd etmək lazımdır ki, görəsən bu kimi hədisləri, Allah bəndələrini zalımlara arxalanmaq və onlara itaət etməkdən çəkindirən çoxlu Qur῾an ayələri ilə necə izah etmək olar? Bu barədə Qur῾ani-kərimin Şuəra-١٥١, Qələm-٨, Qələm-١٠, Kəhf-٢٨, Hud-١١٣ və Əhzab surəsinin ٦٦-٦٧-ci ayələrinə müraciət edə bilərsiniz.

İkincisi, Peyğəmbərdən (s) zalım sultanlara itaət etməyin qadağan olunması barədə çoxlu rəvayətlər nəql olunmuşdur və bunlar da əhli-hədisin istinad etdikləri hədislərlə ziddiyyət təşkil edir.

O cümlədən, həzrət Peyğəmbər buyurub:

«Qulaq asın! Məndən sonra bə῾zi əmirlər gələcəkdir ki, hər kəs onlara varid olsa, onların yalanını təsdiq etsə, yaxud onların zülmündə yardımçı olsa, məndən deyil, mən də onlardan deyiləm. Onlar «Kövsər» hovuzunun kənarında mənim yanıma gələ bilməzlər.»[١]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əhli-hədisin xəlifələrin xilafətinə iman barəsindəki nəzərini bəyan edin.

٢. Əhli-hədisin xəlifələrin xilafətinə iman gətirmək barəsindəki nəzərlərinə tutulan iradları ixtisarla bəyan edin.

٣. Əhli-hədisin raşidi xəlifələrinin fəzilət və üstünlüyünün, onların xilafət tərtibatı əsasında olması əqidəsi düzgündürmü? Nə üçün?

٤. Əhli-hədisin rəhbərə itaət etmək barəsindəki nəzəri nədən ibarətdir?

٥. Əhli-hədisin rəhbər və sultana itaət etmək barəsindəki nəzərini araşdırın.

---

[١] «Camiul-üsul», ٤-cü cild.

# DOQQUZUNCU DƏRS

## *MÖ`TƏZİLƏ (١)*

## *YARANMA TARİXİ*

*١. Mö`təzilə firqəsi necə yaranmışdır?*
*٢. Mö`təzilə məzhəbinin ideoloji əsasları hansılardır?*

Mö`təzilə məzhəbi Hicri tarixi ilə ikinci əsrin əvvəllərində Vasil ibni Ətanın (٨٠-١٣١ H.q.) vasitəsilə tə`sis olunmuşdur. Bu məzhəbin özündən əvvəlki əqidəvi məktəblərlə müqayisidə ən səciyyəvi xüsusiyyəti budur ki, onlar əqlə, əqli dəlillərə və əqli yolla nəticə almağa üstünlük verir, xəbər və rəvayətlərin məfhum və məzmunlarının qəbul olunmasını əqlin qəbul olunması ilə şərtləndirirlər.

Vasil ibni Əta, Həsən Bəsrinin şagirdi idi. Onun barəsində nəql edirlər ki, bir gün ustadlardan birinin hüzurunda bir şagird ayağa qalxdı və ustada xitab edərək dedi: Bizim dövrümüzdə bir dəstə yaranıb ki, böyük günahlara mürtəkib olanları kafir və İslam dinindən çıxmış hesab edirlər (onun məqsədi xəvaric idi). Başqa bir dəstə də belə şəxslərin qurtuluşuna ümid bəsləyir və inanırlar ki, həqiqi imanın kəbirə günahla ziddiyyəti yoxdur. Bu dəstə (onun məqsədi mürciə firqəsi idi) əməli, imanın bir hissəsi hesab etmir və inanırlar ki, ibadətin kafirə heç bir faydası olmadığı kimi, günahın da mö`minə heç bir ziyanı yoxdur. Sizin nəzəriniz nədir?

Həsən Bəsri azacıq fikirləşdi; cavab vermək istədikdə Vasil ibni Əta ayağa qalxıb dedi: Mənim əqidəmə görə, böyük günah edən bir şəxs nə mütləq şəkildə kafir və nə də mütləq şəkildə mö`mindir. O, imanla küfr arasında yerləşən bir məqamdadır. «Mənzilətun beynəl-mənziləteyn»də (iki mənzilin arasında olan bir mənzildə) qərar tutur.

Vasil bu sözü deyib məscidin bir küncünə çəkildi (onun ustadı da orada idi) və ustadın ətrafına yığışan bir dəstə şagird üçün öz əqidəsini bəyan etdi. Əvvəllər qəza-qədərə inanan, ilahi sifətləri inkar etməkdə Vasil ilə eyni fikirdə olan Əmr ibni Ubeyd də ona qoşuldu. Bu zaman Həsən Bəsri Vasilə nəzər salıb dedi: «Kənara çəkil və bizdən uzaqlaş.» Bundan sonra Vasil ibni Əta və onun ardıcılları mö`təzilə (yəni kənara çəkilənlər) adlandırıldı.

## MÖʾTƏZİLƏ DÜŞÜNCƏSİNİN BÜNÖVRƏ VƏ ƏSASLARI

Həsən Bəsrinin dərsində baş verən hadisə möʾtəzilə firqəsinin yaranmasına və genişlənməsinə səbəb oldu. Amma bu cərəyanın yaranması o deмək deyildi ki, möʾtəzilə təfəkkürünün əsası «mənzilətun beynəl-mənziləteyn»dir. Çünki möʾtəziləçilərin ondan əvvəlki sair İslami firqələrin əqidələri ilə fərqlənən başqa eʾtiqadları da var ili. Bu ixtilafların ən ümdəsi əqidəvi bəhslərdən və araşdırmalardan yaranırdı. İslam aləmində fəlsəfi, əqli bəhslərin yayılması nəticəsində möʾtəzilə mütəfəkkirləri arasında yeni təfəkkür tərzi meydana gəlmişdir. Möʾtəzilə firqəsi yaranmazdan əvvəl, rəsmi məzhəblərin eʾtiqad və təfəkkürünün əsasını rəvayətlər və xəbərlər təşkil edirdi. Bu dövrdə təkcə Peyğəmbərdən (s) nəql olunan səhih hədislərə istinad edilmirdi; hədis sahəsində heç bir səriştəsi olmayan şəxslər vasitəsilə İslam cəmiyyətində minlərlə hədis yayılmışdı və onlar fikri-eʾtiqadi, fiqhi fətvaların mənşəyi sayılırdı.

Buna əsasən, möʾtəziləçilər inanırdılar ki, hər hansı bir xəbər və rəvayətin doğruluğu və ona əməl edilməsinin məqbul sayılması onun əqli yolla isbatının mümkünlüyündən asılıdır. Əks təqdirdə, onların heç bir əhəmiyyəti olmayacaqdır.

Möʾtəziləçilər həmin üslubdan Qurʾan təfsirində də istifadə etdilər. Belə ki, hər yerdə Qurʾan ayələri əqli dəlillər vasitəsi ilə araşdırılıb isbat oluna bilirdisə, onların zahirinə əməl edirdilər, belə olmadıqda isə həmin ayələri təʾvil edirdilər.

## MÖʾTƏZİLƏ FİRQƏSİNİN TANINMIŞ ŞƏXSİYYƏTLƏRİ

١. Vasil ibni Əta;

Qeyd olunduğu kimi, möʾtəzilə firqəsinin banisi Vasil ibni Əta idi. O, Mədinədə doğulmuş, Bəsrə şəhərində böyüyüb boya-başa çatmışdır.

Deyilənlərə görə o, çox gözəl söz ustası idi. Onun sözləri hamının qəlbinə nüfuz edirdi. Vasil, Həsən Bəsridən əlavə, Əbu Haşim Əbdüllah ibni Məhəmməd ibni Hənəfiyyənin də şagirdi idi. (Məhəmməd Hənəfiyyə Əli ibni Əbi Talib (ə)-ın oğludur.)O, imamət məsələsində onunla müxalifətçilik edirdi.

Vasil ibni Əta aşağıdakı üç kitabı yazaraq öz eʾtiqadını bəyan etmişdi: (Bu kitabları Həsən Bəsridən ayrıldıqdan sonra yazmışdır.)

١. «Əl-mənzilətun beynəl-mənziləteyn»;

٢. «Əl-fütya»;

٣. »Ət-tohid».

Şəhristani «Əl-miləl vən-nihəl» kitabında Vasil ibni Ətanın düşüncələrinin aşağıdakılardan ibarət olduğunu deyir:

١. Allah-taalanın sifətlərinin inkar edilməsi;

٢. İnsanın yaxşı və ya pis işləri seçməkdə ixtiyar sahibi olması;

٣. Böyük günahları görən şəxslər üçün «mənzilətun beynəl-mənziləteyn» e᾽tiqadına malik olmaq;

٤. «Cəməl» və «Siffeyn» müharibələrində iştirak edən iki dəstədən, eləcə də üçüncü xəlifə ilə onun qatilləri arasında çarpışan iki düşmən tərəfdən qeyri-müəyyən olaraq birinin hökmən xətakar və fasiq olmasına e᾽tiqadlı olmaq.

٢. Əmr ibni Əbid;

O, Vasil ibni Ətanın köməkçilərindən idi və ١٤٤-cü ildə vəfat etmişdir. Əslən iranlı idi və Həsən Bəsrinin dərslərində iştirak edirdi. O, öz dövründə mö᾽təziləçilərin başçısı və əmriyyə firqəsinin rəhbəri olmuşdur. Onun tərcümeyi-halında qeyd olunur ki, o, çox abid və zahid bir şəxs idi; həmişə vaxtını ibadət, zikr və dua etməklə keçirərdi.

Əmr ibni Əbid təfvizə və qədərin inkar olunmasına inanırdı. O, mö᾽təzilənin beş məşhur əqidəsini, yə᾽ni tövhid, ədl, və᾽d və vəid, əl-mənzilətun beynəl-mənziləteyn və əmr be mə᾽ruf və nəhy əz münkəri tə᾽sis və bəyan etmişdir.

٣. Əbul Hüzeyl Əllaf;

O, mö᾽təzilə firqəsinin məşhur kəlam alimlərindən biridir ki, ٢٢٦-cı Hicri ilində vəfat etmişdir. O, xitabə və münazirə fənlərində çox məharətli idi. Deyirlər o, münazirə yolu ilə üç min nəfəri müsəlman etmişdi. Əbul Hüzeyl ilahi sifətləri Allahın zatından ayrı deyil, Onun zatı ilə eyniyyət təşkil etdiyinə əqidə bəsləyirdi. Onun nəzərincə, Allah-taala zatla eyniyyət təşkil edən elm ilə alim, qüdrətlə qadir, diriliklə diridir və s. Onun digər bir nəzəri də ilahi iradə barəsindədir. O, belə deyir: İlahi iradə məhəlli olmayan bir iradədir. Əbul Hüzeylin ardıcıllarına hüzeyliyyə deyirlər.

٤. Əbu İshaq İbrahim ibni Səyyar; (Nəzzam adı ilə məşhurdur).

O, mö᾽təzilə firqəsinin digər böyük şəxsiyyətlərindən, Əbul Hüzeyl Əllafın şagirdi və nəzzamiyyə firqəsinin başçısıdır ki, ٢٣١-ci Hicri ilində vəfat edib. Əbu İshaq yunan fəlsəfəsində mühüm araşdırmalar apararaq, ondan tə᾽sirlənmiş və bu fəlsəfənin İslami düşüncələrlə qarışmasında mühüm rol oynamışdır. Nəzzamın əqidəsinə görə, Allahın günah və şər iş görməyə heç bir qüdrəti yoxdur. Nəzzamın bu nəzəriyyədə sair mö᾽təzilə alimləri ilə ixtilafı var idi. Çünki, sairləri Allahın şər işlər görməyə qüdrətini inkar etmir, sadəcə olaraq, Allahın bu qüdrəti şər işdə işlətmədiyinə inanırdılar.

٥. Bişr ibni Mö᾽təmir;

O, Əbu İshaq Nəzzamın məşhur tələbələrindən idi və Hicri tarixi ilə ٢١٠-cu ildə vəfat etmişdi. Bişr ibni Mö᾽təmir mö᾽təzilə məzhəbində «tovlid» nəzəriyyəsini irəli sürən ilk şəxs idi. Mö᾽təzilə firqəsi insanın ixtiyari işlərinə inandığından, insanın özünü ixtiyari işlərin xaliqi hesab edir və deyirdilər ki, bunların bə᾽zisi birbaşa insan tərəfindən icad olunur. Yə᾽ni insanın birbaşa istək və iradəsinə bağlıdır. Bə᾽zi işlər isə onun ixtiyari fe᾽llərinin zəruri və qaçılmaz

nəticəsidir. Misal üçün, insanın daşı suya atması birbaşa fe`l və suyun üzərində dalğa yaranması isə həmin ixtiyari fe`lin zərurətidir. Çünki, həmin şəxs suyun üzərində dalğa yaranmasını iradə etməməsinə baxmayaraq, bu dalğalar zəruri olaraq icad olunur. O, ikinci qismdən olan fe`lləri «tovlid» adlandırmışdır.

٦. Müəmmər ibni Əbbad Əsləmi;

O, Məhəmmədiyyə firqəsinin rəisi, həmçinin mö`təzilə firqəsinin böyük şəxsiyyətlərindən idi və ٢٢٨-ci ildə vəfat etmişdir. Onun iki əqidədə sair mö`təzilə alimləri ilə nəzərəçarpacaq dərəcədə ixtilafı var idi:

١. İlahi sifətlər barəsində bəhs;

٢. İlahi iradənin inkar edilməsi.

Onun əqidəsinə görə, ilahi sifətlərə e`tiqad və onların isbat olunması ilahi zatın çoxluğu mə`nasınadır. Buna görə də o, bütün sifətləri inkar edirdi. İradə barədə də inanırdı ki, insanın öz iradəsindən başqa heç bir işi yoxdur.

٧. Səmamət ibni Əşrəs Numeyri;

O, səmamiyyə firqəsinin rəhbəri və mö`təzilə alimlərindən biridir və ٢١٣-cü ildə vəfat edib. İbni Əşrəsin əqidəsinə görə, Allahı tanımaq əqli nəzərdən vacibdir, hətta əgər peyğəmbərlər bizi bu işə də`vət etməsəydilər belə, əql onu bizə vacib edərdi. Çünki Allah xeyirdir və xeyirlə şər zəruri olaraq əql vasitəsilə bizə mə`lum olur.

Səmamət həm də inanırdı ki, aləm Allahın icad etməsi ilə yarandığından, Allah kimi əzəli və əbədidir. O, Bişr ibni Mö`təmərin tovlid nəzəriyyəsini qəbul etmir və deyirdi ki, əgər hər hansı bir əməlin insanın vəfatından sonra yaranmasını fərz etsək, onda ölü insanı bu əməlin faili hesab etməliyik. Digər tərəfdən də Allahı bu fe`llərin faili hesab etmək olmaz. Çünki, fe`llərdən bə`ziləri şərdir və şər Allaha aid edilməz.

٨. Əmr ibni Bəhr; (Cahiz adı ilə məşhurdur).

O, Müəmmərin müasirlərindən və Nəzzamın şagirdlərindən idi; ٢٥٥-ci Hicri ilində vəfat etmişdir. Əmr ibni Bəhr mö`təzilənin məşhur rəhbərlərindən idi və cahiziyyə firqəsinin rəisi sayılırdı. Cahiz də Nəzzam kimi yunan fəlsəfəsindən çox istifadə etmişdi. Belə ki, yunan fəlsəfsi onun təfəkkürünün formalaşmasında əsas rol ifa etmişdir.

Cahiz inanırdı ki, günahkarlar cəhənnəmdə əbədi qalmayacaq, təbii olaraq atəşə döndəriləcəklər. Həmçinin inanırdı ki, Allah heç kəsi Cəhənnəmə göndərməyəcək; öz təbiəti ilə günahkarları özünə tərəf çəkən məhz cəhənnəmdir.

٩. Əbu Əli Cəbai.

O, məşhur mö`təzilə alimlərindəndir və ٢٣٥-ci Hicri ilində vəfat etmişdir,. Əbu Əli, Əbul Həsən Əş`ərinin ustadı idi. Əş`əri uzun illər Əbu Əlinin hüzurunda elm öyrənmişdi. Amma onunla ustadı arasında baş verən mübahisə nəticəsində ustadı

cavab verməkdən aciz qalmış və bu zaman Əşˈəri ondan uzaqlaşaraq əşairə məzhəbini yaratmışdır.

Adları qeyd olunanlar möˈtəzilə firqəsinin ən məşhur və tanınmış alimlərindəndir ki, onların hər biri möˈtəzilə məzhəbində müstəqil bir firqə yaratmışdır. Bu məzhəblər ümumi şəkildə Bəsrə və Bağdad məktəbi kimi iki yerə bölünür. Bu iki məktəb ümumi prinsiplərdə və fikri üslublarda müştərəkdir, amma eˈtiqadi məsələlərin bəˈzilərində bir-biri ilə ixtilafları var. Belə ki, Bağdad məktəbi imamiyyə məktəbinə uyğundur, bəˈzən də onunla tam müvafiqdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Möˈtəzilə sözünün leksik məˈnası nədir?

٢. Vasil ibni Ətanın böyük günahlara mürtəkib olanlar haqqındakı nəzəri necədir?

٣. Möˈtəziləçilərin fikrini və ideoloji üslubunu bəyan edin.

٤. Tovlid nəzəriyyəsini bəyan edin.

# ONUNCU DƏRS

## *MÖʿTƏZİLƏ (٢)*

## *ƏQİDƏLƏR (١)*

*١. Möʿtəzilə məzhəbinin əqidə üsulları hansılardır?*
*٢. Onların tövhid barədə nəzərləri nədən ibarətdir?*

Keçən dərsdə xülasə şəkildə qeyd olundu ki, eʿtiqadi məsələlərdə möʿtəzilə məzhəbinə bağlı olan müxtəlif firqələr arasında fikir ayrılığı olduğu halda, onların nisbətən müttəfiq olduqları məsələlər də mövcuddur. Bunlar möʿtəzilə məzhəbinin əsas üsulları adı ilə tanınan beş məşhur eʿtiqadi əsasdan ibarətdir: Tövhid, ədl, vəʿd və vəid, əl-mənzilətu beynəl-mənziləteyn, əmr be məʿruf və nəhy əz münkər. Bu dərsdə həmin beş eʿtiqadi əsası şərh edəcəyik.

**١. Tövhid;**

Kəlam alimləri tövhid haqda əsasən altı mehvərdə söhbət edirlər:

١. Allah-taalanın varlığının isbat olunması;
٢. Allah-taalanın vahid və əhəd olmasının isbatı;
٣. İlahi sifətlər haqda istər zat, istərsə də feʿllə əlaqədar olan lazımi agahlıqlar;
٤. Sifətlərin ilahi zatla necə əlaqələndirilməsi;
٥. Allah-taalanı səlbi (mənfi) sifətlərdən uzaq bilmək;.
٦. Allahın gözlə görünməsinin mümkün olub-olmaması.

Möʿtəzilə məzhəbinin özünəməxsus baxışları əsas eʿtibarı ilə dördüncü və altıncı bəndlərə aiddir, yerdə qalan dörd mehvərdə isə onlar İslam alimlərinin ümumi nəzərini qəbul etmişlər.

Bu məsələnin əsas səbəbi eʿtiqadi cəhətdən onlarla əhli-hədis və əşʿərilər arasında olan qarşıdurmalar və kəskin fikir ayrılıqlarıdır. Həqiqətdə onların bir-birlərindən ayrılmasının ən əsas səbəbi də məhz budur. Bu mehvər aşağıdakılardır:

a) Sifətlərin ilahi zatla necə əlaqələndirilməsi;

Bu barədə möʿtəzilə məzhəbinin nəzəri budur ki, ilahi sifətlər Allahın zatına artırılmamışdır. Əhli-hədis və əşʿərilərin inancına görə isə, kamal sifətlərinin hamısı qədim olduğu halda, Onun zatına artırılmışdır.

Möʾtəzilə məzhəbinin ardıcılları bu nəzəriyyəyə irad tutaraq bildirirlər ki, əgər ilahi sifətlərin hamısını qədim və eyni halda ilahi zata artırılmış hesab etsək, onda «qədimlər çoxluğu» lazım gələr və bu da açıq-aşkar şirk hesab olunur. Buna görə də onlar ilahi sifətlərin Allahın zatı ilə eyni olmasına və ona artırılmamasına eʾtiqadlıdırlar.

b) Allahı gözlə görməyin mümkün olub-olmaması və ya bu işin qeyri-mümkünlüyü.

Əhli-hədisin əqidələrini araşdırarkən qeyd olundu ki, onlar Allahı gözlə görməyin mümkünlüyünə inanırlar, əşʾərilər də onlara tabe olaraq, bu işi mümkün hesab edirlər. Lakin bu iki firqənin «Allahı görmək» məsələsinin necəliyində fərqi vardır ki, ikinci dəstə bu işin heç bir xüsusiyyətə malik olmamasına əqidə bəsləyir. Amma möʾtəzilə ardıcılları əşʾəri və əhli-hədis firqələrinin ziddinə çıxaraq, Allahı gözlə görməyi qeyri-mümkün hesab edirlər.

Bu bəhsin mənşəyi xəbəri sifətlərlə əlaqədardır. Belə ki, əhli-hədis və əşʾəri məzhəbi xəbəriyyə sifətlərinə inanır və Allahın gözlə görünməsini mümkün hesab edirlər. Amma möʾtəzilə ardıcılları zahiri üzvlərlə hiss olunan sifətləri Allah-taalanın zatından uzaq bildiklərinə görə, onun gözlə görünməsini qeyri-mümkün hesab edirlər. Onlar öz nəzərlərini iki yolla isbat edirlər:

**١. Əqli dəlil;**

İnsan, yalnız hiss üzvlərinin hiss etmək imkanında olan şeyləri hiss edə bilər. Bir şey insanın gözləri önündə qərar tutmayınca, onu görmək mümkün deyildir; hər hansı bir şeyi hiss edə biliriksə, deməli o şeyin duyğu üzvlərimizdən hansı birininsə funksiyaları ilə uyğunluğu vardır. Allah-taalanın insanın hiss üzvlərinin heç bir funksiyası ilə uyğunluğu yoxdur. Müqəddəs zatın maddi aləmlə heç bir oxşarlığı olmadığına və bu aləmin fövqündə dayandığına görə, Onun insanların gözləri önündə yerləşməsi, görmə üzvü qarşısında qərar tuta bilməsi mümkün deyildir.

**٢. Nəqli dəlil.**

Möʾtəzilə ardıcılları Allahı gözlə görməyin qeyri-mümkünlüyünü isbat etmək üçün aşağıdakı ayəyə istinad edirlər:

**«Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cismlikdən uzaqdır) və hər şeydən xəbərdardır!»**[١]

٢. İlahi ədalət;

Möʾtəzilə məzhəbinin tövhiddən sonra ikinci əsas eʾtiqad prinsipi ilahi ədalətdir. Onlar bu məsələdə imamiyyə məzhəbi ilə eyni fikirdədirlər və cəbrə eʾtiqadlı olanların, eləcə də əhli-hədisin və əşʾərilərin müqabilində dayanırlar.

Möʾtəzilə ardıcılları ədalət dedikdə, Allah-taalanın ədalətli və kərəm sahibi olmasını nəzərdə tuturlar. O, insanları Özünə ibadət etmək üçün yaratmış və

---

[١] Ənʾam-١٠٣.

onları özünə itaət etməyə əmr etmiş və itaətsizlikdən çəkindirmişdir. Allah-taala hamını hidayət etmiş, ne`mətlərini hamıya əta etmiş, Öz lütf və mərhəmətini bütün insanlara şamil etmiş, heç kəsi bacarığından artıq işlərə mükəlləf etməmişdir. Xilqət işlərində əbəslik, Onun fe`llərində çatışmazlıq yoxdur. Heç bir şəxsi, günahlarından başqa bir şeyə görə cəzalandırmaz, heç bir kəsə zülm etməz, azacıq da olsa, yaxşı iş görənlərin mükafatını bir neçə qat verər.

**٣. Və`d və vəid;**

Mö`təzilə firqəsinin e`tiqadi əsaslarının üçüncüsü və`d və vəid adlanır. Və`d - saleh əməllər və itaət qarşısında mükafat və tə`rif, vəid isə çirkin əmllərə görə cəza və məzəmmət mə`nasınadır.

Mö`təzilə ardıcıllarının əqidəsinə görə, saleh bəndələrə mükafat, günahkarlara və kafirlərə əzab vermək Allah üçün vacibdir. Əhdə vəfa etmək vacib olduğu üçün, Allah-taala və`d etdiyi şeyləri hökmən həyata keçirməlidir.

Əlbəttə, bu məsələdə mö`təzilə ardıcılları arasında fikir ayrılığı vardır. Bəsrə məktəbinin ardıcılları inanırlar ki, günahkarların əvf edilməsi Allah üçün vacib deyil, caizdir. Onlar öz müddəalarına belə bir dəlil gətirirlər ki, günahkarları cəzalandırmaq Allah-taalanın bəndələr üzərində olan haqqıdır. Buna görə də Allah istəsə əzab verə bilər, istəməsə Öz haqqından keçərək günahkarı əfv edər. Bir kəsin güzəştə gedib öz haqqından keçməsi başqasının haqqının aradan getməsinə səbəb olmaz və bu işin ilahi ədalətlə heç bir ziddiyyəti yoxdur.

Bu əqidənin qarşısında Bağdad məktəbi ardıcılları günahkarların əfv edilməsini caiz bilmir və iddia edirlər ki, günahkar şəxsləri cəzalandırmaq Allaha vacibdir. Bu məktəb ardıcıllarının nəzərində, günahkarların cəzalandırılması, saleh şəxslərin mükafatlandırılmasından daha vacibdir. Çünki Allah-taala bəndələrə verdiyi ne`mət və mükafatları Öz mərhəməti hesabına əta edir; Allah bir kəsə borclu deyildir ki, onun ödənməsi Allaha vacib olsun. Günahkarların cəzalandırılması haqda isə, ümumiyyətlə belə bir qayda yoxdur.

Bağdad məktəbinin ardıcılları günahkarların əfv edilməsinin caiz olmaması ilə əlaqədar müddəalarını isbat etmək üçün üç dəlil gətirmişlər:

١. Günahkarları cəzalandırmaq Allah tərəfindən olan bir lütf və mərhəmətdir.

Bəndə günah edəcəyi təqdirdə, qəti şəkildə cəzalandırılacağını bildiyi üçün günahdan çəkinərək vacib əməlləri yerinə yetirəcək və bu halda nicat və qurtuluşa nail olacaqdır. Bu da Allahın onun barəsindəki mərhəmətidir. Çünki cəzanın Allah tərəfindən bir mərhəmət olduğunu qəbul etdikdə, Allaha, öz lütfünü mükəlləfin haqqında əda etmək vacib olur.

٢. Allah-taala günahkarlara cəza və`dəsi vermişdir. Buna əsasən, onları əfv edərsə, Öz və`dəsinə xilaf çıxmış olur; və`dəyə xilaf çıxmaq isə qəbahətli bir işdir.

٣. Günahkarı əfv etməyin caiz olması, mükəlləfin, ilahi əfvə ümid bəsləyib, ona arxalanmaqla günah işlərə mürtəkib olmağa cür`ətlənməsinə səbəb olur. Allah-

taalanın, Öz bəndələrini günah işlərə təşviq etməsi çox qəbahətli bir məsələdir. İnsanlar ilahi əfvə arxalanaraq günah bataqlığına süqut etməsin deyə, günahkarları cəzalandırmaq zəruri və vacibdir.

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Bağdad məktəbi ardıcıllarının istinad etdikləri dəlilə müəyyən iradlar tutulmuşdur.

**Birinci dəlilin iradı:**

İlahi lütf bəndənin ibadətə yaxınlaşdırılması və günahdan uzaqlaşdırılması üçün bir amildir və bu məsələ cəza və mükafat evi olan axirətdə deyil, yalnız təklif və əməl evi sayılan dünyada təsəvvür oluna bilər.

**İkinci dəlilin iradı:**

Və҆də və vəidin - əhdə vəfa etmək, yaxud və҆dəyə xilaf çıxmaq baxımından bir-birləri ilə fərqi vardır. Çünki əqli baxımdan və҆dəyə xilaf çıxmaq qəbahət sayılır və bütün əql sahibləri öz əhdinə xilaf çıxanları məzəmmət edirlər. Amma «vəidə» xilaf çıxmaq əqlən qəbahət deyil, əksinə əfv etmək daha bəyənilləndir. Belə ki, əfv edən həmişə tə҆riflənir və bu əməl onun üçün bir növ alicənablıq və kəramət hesab olunur. Buna əsasən, əgər əfv etmək Allah üçün qəbahətli və bəyənilməz bir iş olsaydı, onda bu iş hər bir aqil şəxs tərəfindən baş versəydi, qəbahətli sayılmalı idi.

**Üçüncü dəlilin iradı:**

Əfvin ehtimali şəkildə deyil, vacib və qəti olmasına inanmaq mükəlləfin günah işlərə mürtəkib olmasında cəsarət tapıb cür҆ətlənməsinə səbəb olur. Bundan əlavə, əgər əfvin ehtimali şəkildə olmasını da inkar etsək, onda tövbə və şəfaət məsələsi də aradan gedəcəkdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Mö҆təzilə məzhəbinin e҆tiqadi üsullarını sadalayın.
٢. Mö҆təzilə məzhəbinin tövhid barəsindəki nəzəriyyəsini bəyan edin.
٣. Mö҆təzilə ardıcılları ilahi ədaləti necə izah və tə҆rif edirlər?
٤. Onların ilahi və҆də və vəid barədə fikirləri necədir?
٥. Və҆də və vəid barədə Bəsrə və Bağdad məktəblərinin fərqini izah edin.

# ON BİRİNCİ DƏRS

## *MÖʾTƏZİLƏ (٣)*

## *ƏQİDƏLƏR (٢)*

*١. «Mənzilətun beynəl-mənziləteyn»in məʾnası nədir?*
*٢. Nə üçün möʾtəzilə nöqteyi-nəzərində əmr be məʾruf və nəhy əz münkər üsulidindən sayılır?*

## *٤. MƏNZİLƏTUN BEYNƏL-MƏNZİLƏTEYN*

Doqquzuncu dərsin əvvəlində qeyd olunduğu kimi, möʾtəzilə firqəsinin yaranmasının ən mühüm səbəbi böyük günahlara mürtəkib olanlar və onların aqibəti barədə idi. Mürciə firqəsi böyük günahlara mürtəkib olanları möʾmin hesab etdikləri halda, xəvaric onları kafir sayır. Amma möʾtəzilə ardıcılları belə şəxslərin imanla küfr arasında olduqlarına eʾtiqadlıdırlar. Yəʾni, onlar nə mütləq şəkildə kafir, nə də kamil şəkildə möʾmin deyillər. Bu məzhəb nöqteyi-nəzərindən belə şəxslərin yeri «mənzilətun beynəl-mənziləteyn» adlandırılmışdır. (İman və küfr arasında yerləşən bir mövqe).

Möʾtəzilə məzhəbinin məşhur alimlərindən olan qazi Əbdül Cəbbar (H.Q. ٤١٥) bu barədə belə deyir: «Böyük günahlara mürtəkib olanlara nə kafir demək olar, nə də möʾmin. Belə şəxslər fasiq adlanırlar. Buna görə də onların hökmü nə kafirlərin, nə də möʾminlərin hökmü ilə eyni deyildir. Burada üçüncü bir hökm vardır ki, biz onu «mənzilətun beynəl-mənziləteyn» təʾbiri ilə ifadə edirik. Deməli, böyük günaha mürtəkib olan şəxs nə kafirin məqamına malikdir, nə də möʾminin.»[١]

Möʾtəzilə məzhəbi böyük günaha mürtəkib olanları fasiq adlandıraraq, onları möʾminlərin cərgəsindən xaric etməsinin səbəbi belə izah edirlər: İman yalnız qəlbi eʾtiqaddan ibarət deyildir və bu eʾtiqaddan doğan göstərişlərə əməl etmək də imanın bir hissəsidir. Buna görə də əgər bir şəxs qəlbdə inanıb dildə iqrar etsə,

---

[١] Qazi Əbdül Cəbbar, «Şərhül-üsulil-xəmsəti».

lakin əməldə böyük günahlara mürtəkib olsa, onu mö᾽min hesab etmək olmaz. Bu şəxslər digər tərəfdən mütləq şəkildə kafir də sayılmırlar.

Deməli, onun yeri küfr ilə imanın arasındadır. Buna görə də Qazi Əbdül Cəbbar mükəlləfləri savab və ya cəzaya layiq olmaq baxımından iki dəstəyə bölmüşdür:

١. Savaba layiq olanlar; bunlar Allah övliyalarıdır.

٢. Cəzaya layiq olanlar; bunlar da Allahın düşmənləridir.

O daha sonra ikinci dəstəni də yenidən iki dəstəyə bölür:

١. Ağır cəzaya malik olanlar; kafirlər, münafiqlər və mürtədlər.

٢. Nisbətən az cəzaya layiq olanlar; bunlar fasiqlər, yə᾽ni böyük günahlara mürtəkib olan şəxslərdir.[١]

## *MÖ᾽TƏZİLƏ ARDICILLARININ «MƏNZİLƏTUN BEYNƏL MƏNZİLƏTEYN» HAQDA SÜBUTLARI*

Mö᾽təzilə ardıcılları böyük günahlara mürtəkib olan üçüncü dəstənin hökmünü, yə᾽ni onların küfr ilə iman arasında olduğunu isbat etmək üçün iki dəlil gətirmişlər.

**Birinci dəlil:**

Müsəlman firqələri böyük günah edən şəxslərin necə adlandırılması məsələsində ixtilaflıdırlar. Xəvaric onları fasiq və müşrik hesab edir, Zeydiyyə məzhəbi onları ilahi ne᾽mətlər qarşısında küfr etdikləri üçün fasiq adlandırır, Həsən Bəsri və ona tabe olanlar bu kimi şəxsləri münafiq sanır və mürciə firqəsi onlara fasiq mö᾽min adı verir. Göründüyü kimi, müsəlmanlar böyük günahlara mürtəkib olan şəxsləri necə adlandırmaqda ixtilafa düçar olmuşlar. Amma onların hamısı həmin şəxsin fasiq olmasında fikir birliyinə malikdirlər. Buna görə də biz, müsəlmanların fikir yekdilliyini nəzərə alıb, böyük günahlara mürtəkib olanları fasiq adı ilə tanıyırıq, lakin onları münafiq, müşrik yaxud ne᾽mətə kafir olan və ya mö᾽min adlandırmaqdan çəkinirik.

**İkinci dəlil:**

Şəriətdə mö᾽min kəlməsi öz leksik mə᾽nasında deyil, istilahi mə᾽nada işlədilir. Ümumiyyətlə bu söz tə᾽rifə layiq olan şəxslərə deyilir. Çünki, Allah-taala hər yerdə mö᾽min kəlməsini gözəl sifətlərlə yanaşı zikr etmişdir. O cümlədən:

**«Həqiqətən, mö`minlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!)»[٢]**

Yenə buyurur:

---

[١] Qazi Əbdül Cəbbar, «Şərhül-üsulil-xəmsəti».

[٢] Mu᾽minun-١.

**«Mö`minlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər.»**[١]

Yaxud başqa bir yerdə:

**«Həqiqətən, mö`minlər ancaq Allaha və Onun Peyğəmbərinə iman gətirən, ümumi bir iş üçün Peyğəmbərlə bir yerdə olduqda ondan izn almamış bir yerə getməyən kimsələrdir...»**[٢]

Bu barədə ətraflı mə`lumat əldə etmək üçün Qazi Əbdül Cəbbarın «Şərhül-üsulil-xəmsə» kitabına müraciət edə bilərsiniz.

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

**Birinci dəlilin araşdırılması:**

Aydındır ki, İslami firqələr böyük günaha mürtəkib olan şəxsin fasiq olmasında fikir yekdilliyinə malikdirlər. Amma bu fikir birliyi bundan artıq heç bir şeyə dəlalət etmir. Başqa sözlə desək, müsəlmanların bu fikir birliyinə əsaslanıb, yalnız böyük günah edən şəxslərin fasiq olduğunu isbat etmək olar. Amma belə şəxslər üçün üçüncü bir mövqe nəzərdə tutmaq, onları həm kafir, həm də mö`min hökmündən xaric etməyə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu məsələdə ortaq bir məxrəcə gəlmək mümkün deyildir. Halbuki, mö`təzilə firqəsi həmin şəxsin mö`minlə kafir arasında qərar tutduğunu isbat etmək üçün dəlil axtarırlar.

Müsəlmanlar arasında böyük günahlara mürtəkib olan şəxsin mö`min, kafir və ya müşrik adlandırılması ilə bağlı yaranan ixtilaflardan da aydın olur ki, belə şəxslər nəhayətdə bu iki yerdən birinə malikdir və onlar üçün ayrı bir ünvan axtarmaq yersizdir.

**İkinci dəlilin araşdırılması:**

İkinci dəlil araşdırılarkən iki məsələni diqqət mərkəzində saxlamaq lazımdır:

١. Görəsən iddia etmək olarmı ki, hədis və rəvayətlərdə xüsusi mə`nada işlənən bir söz, leksik mə`nadan istilahi mə`naya keçsin? Məsələn, Peyğəmbərin (s) buyurduğu **«Əssəlatu me`racul mu`min»** hədisində, «səlat» kəlməsinin «me`racul-mö`min» mə`nası üçün yaradılmasını iddia etmək olarmı? Necə iddia etmək olar ki, Qur`an ayəsində mö`min kəlməsi mədh və əzizləmə mə`nasında işlənməklə yanaşı, öz leksik mə`nasından mö`təziləçilərin nəzərdə tutuduğu istilahi mə`naya keçmişdir?!

---

[١] Ənfal-٢.

[٢] Nur-٦٢.

٢. Qur᾽an ayələrinə müraciət etməklə, nəzərə almaq lazımdır ki, mö᾽min kəlməsi heç də mədh və əzizləmə ilə yanaşı deyildir. Qur`ani-kərimin Nisa surəsinin ٩٢-ci və Əhzab surəsinin ٣٦-cı ayələrini də buna misal çəkmək olar.

**٥. Əmr be mə᾽ruf və nəhy əz münkər;**

Mö᾽təzilə məzhəbinin e᾽tiqadi prinsiplərindən beşincisi əmr be mə᾽ruf və nəhy əz münkərdir.

Əmr be mə᾽ruf və nəhy əz münkərin vacib olmasında müsəlmanlar arasında heç bir ixtilaf yoxdur. Sadəcə olaraq, onun necəliyi və şərtləri barədə fikir ayrılığı vardır.

Bütün İslam firqələri əmr be mə᾽ruf və nəhy əz münkəri füruidindən sanır, onu fiqhi məsələlər arasında araşdırırlar. Amma mö᾽təzilə ardıcılları onu üsulidin məsələlərindən hesab edirlər. Çünki əvvəldə qeyd olunduğu kimi, onlar əməli də imanın bir hissəsi sayırlar. Buna görə də əməli bir məsələ olan əmr be mə᾽ruf və nəhy əz münkər mö᾽təzilə məzhəbi nöqteyi-nəzərindən əqidə üsullarından hesab olunur.

## *MÖ᾽TƏZİLƏ MƏZHƏBİNİN BAŞQA ƏQİDƏLƏRİ*

Mö᾽təzilə ardıcıllarının, bütün mö᾽təzilə firqələrinin müvafiq olduqları beş üsuldan əlavə, müttəfiq olmadıqları bə᾽zi əqidələri də vardır. Burada həmin üsulların bə᾽zisini xülasə şəkildə bəyan edirik:

١. İnsan, gördüyü bütün işləri öz ixtiyarı ilə həyata keçirir, onun əməlinin yaxşı və ya pis olması onun özünə aid edilir. Hər bir şəxs bu əməllərin əsasında cəza və ya mükafata layiq görülür. Allah pak və münəzzəhdir və heç vaxt insanların günah, mə᾽siyət, küfr və zülmləri Ona nisbət verilməz.

٢. Qur᾽an Allahın kəlamı və onun yaratdığıdır.

Allahın kitabı Həzrət Məhəmməd (s.ə.v.v.)-in peyğəmbərliyə məb᾽us olunması ilə eyni zamanda vücuda gəlmişdir və qədim deyildir.

٣. «Riza» (razılıq) və «qəzəb» xüsusiyyəti sifət deyil, vəziyyətdir. Çünki bu xüsusiyyətlər sabit vəziyyət deyillər və dəyişəndirlər. Buna görə də Allahı bu iki sifətlə vəsf etmək olmaz. Unutmaq olmaz ki, Allahın zatı sabitdir. Deməli, qəzəb və razılıq kimi sifətləri ilahi savab və cəza (yə᾽ni behişt və cəhənnəm) hesab etmək lazımdır.

٤. Allahın ədaləti tələb edir ki, O, heç bir əməli Öz ədalətinin xilafına görməsin. Aqil şəxs özünün xeyir və məsləhətinə olan şeydən başqa bir iş görməz. İlahi hikmət də bəndələrin xeyrinə olan şeyləri tələb edir. Buna görə də Allahın öz bəndələrinə zülm etməsi, şər işləri vücuda gətirməsi, məsləhət olan işlərdən göz yumması qeyri-mümkündür. Allahın Öz bəndələrini qeyri-mümkün olan işlərə

mükəlləf etməsi mümkün deyildir. Hətta əql də hökm edir ki, Allah heç bir məxluqa, taqəti çatmayan işlər əmr etməz.[1]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. «Mənzilətun beynəl mənziləteynin» əqidəsinin tə᾽rifini deyin.

٢. Mö᾽təzilə küfr ilə imanın arasında olan yeri necə sübut edirlər?

٣. Mö᾽təzilənin «mənzilətun beynəl-mənziləteyn» əqidəsini isbat etməkdə istifadə etdikləri dəlilləri bəyan edin.

٤. Nə üçün mö᾽təzilə ardıcılları əmr be mə᾽ruf və nəhy əz münkəri üsulidinin bir hissəsi hesab edirlər?

٥. Mö᾽təzilə məzhəbinin, insanın yaxşı və ya pis əməllərdə ixtiyarlı olub-olmaması barədə nəzəri necədir?

---

[1] Miyan Məhəmməd Şərif, «Tarixi fəlsəfə dər islam».

# ON İKİNCİ DƏRS

## *ƏŞ`ƏRİLƏR (١)*

## *YARANMA TARİXİ*

*١. Əş`əri məzhəbinin banisi kimdir?*
*٢. Əş`əri məzhəbi yaranan zaman ictimai-tarixi şərait necə idi?*

## *MƏZHƏBİN BANİSİ*

Əş`əri məzhəbi Əbul Həsən Əli ibni İsmail Əş`əriyə mənsubdur. O, Siffeyn müharibəsində həkəmiyyətin qarşı tərəfini öhdəsinə alan Əbu Musa Əş`ərinin nəvələrindəndir. Əbul Həsən Əş`əri ٢٦٠-cı Hicri ilində Bəsrədə dünyaya gəlmiş və ٣٢٤, yaxud ٣٣٠-cu Hicri ilində vəfat etmişdir. Atası Əbi Bişr adı ilə tanınan İsmail ibni İshaq əhli-hədisin məşhur tərəfdarlarından idi. Atasının ölümündən sonra anası, mö`təzilənin böyük rəhbərlərindən olan Əbu Əli Cəbai ilə izdivac etmişdi. Əbul Həsən o vaxtdan e`tibarən anası ilə birlikdə atalığının evində yaşamış və cavanlıq vaxtlarından onun tərbiyəsi altında böyümüşdür. Əş`əri uzun müddət onun şagirdi olmuş və mö`təzilə məzhəbini qəbul etmişdi. Amma təqribən qırx yaşında ikən, mö`təzilə məktəbindən əl çəkərək yenidən əhli-hədisə üz gətirmiş və bu məzhəbin təbliğatçısı olmuşdur. O, Cəbaidən təhsil aldığı dövrlərdə əhli-hədis əqidəsinin zəif nöqtələrini anladığına görə, mö`təzilədən üz döndərdikdən sonra mö`təzilə kəlamı üslubundan istifadə etməklə və əqidəvi araşdırmalarda əqli bəhslərdən faydalanmaqla həmin zəif nöqtələri müəyyən dərəcədə islah etmək istəmişdir. Həqiqətdə o, mö`təzilənin əqlə ifratçı dərəcədə üstünlük verməlşri ilə əhli-hədisin zahiri mə`naları əxz etmələri arasında olan orta mövqeli bir məzhəb yaratmaq fikrində olmuşdu. Buna görə də əhli-hədisin əqidəvi əsaslarında və onların kəlami nəzərlərində müəyyən dəyişikliklər etmiş və öz adı ilə tanınan əş`əri məzhəbini yaratmışdı. Bundan sonra onun ardıcılları əş`ərilər adlandırılmışdı.

Əbül Həsən Əş`əri həyatının üçüncü bölməsində (yə`ni mö`təzilə məktəbindən üz döndərdikdən sonra) bir çox kitablar yazmışdı ki, tarixçilərdən bə`ziləri onların sayını ٣٠٠ cildə qədər saymışlar. İbni Əsakir öz «Tarix» kitabında onun

yazdığı ٩٣ kitabın adını qeyd etmişdir. Əlbəttə, bizim zəmanəmizə onun yazdığı əsərlərdən yalnız bir qismi gəlib çıxmışdır. Bu kitablardan «Əl-ibanətu ən üsulid-diyanə», «Məqalatul-islamiyyin vəxtilafil müsəllin», «İadətul-burhan», «Ət-təbyin», «Əş-şərhü vət-təfsil», «Əl-lümə᾽ti fi rəddi əla əhliz-ziyəci vəl-bidə᾽», «İstihsanul xozi fi elmil kəlam» və bu kimi digər məşhur əsərlərin adını çəkmək olar. Bu kitablar arasında «Əl-ibanə», «Məqalatul-islamiyyin» və «Lümə᾽» daha çox əhəmiyyət kəsb edir. Çünki onlar əş᾽əri məzhəbinin e᾽tiqadının məzmununu bəyan edir.

Belə nəzərə çarpır ki, Əş᾽əri «İbanə» kitabını mö᾽təzilə məzhəbindən qayıtdığı və əhli-hədisin əqidəsini müdafiə etdiyi zamanda yazmışdır. Çünki bu kitabla Əhməd ibni Hənbəlin «Əs-sünnə» kitabının arasında heç bir fərq yoxdur. Amma «Lümə᾽» kitabı «İbanə» kitabı ilə əsaslı şəkildə fərqlənir və orada Əş᾽ərinin xüsusi nəzərləri bəyan edilmişdir.

## *ƏŞ᾽ƏRİNİN MÖ᾽TƏZİLƏ FİRQƏSİNDƏN AYRILMASININ SƏBƏBLƏRİ*

Əbul Həsən Əş᾽ərinin mö᾽təzilə firqəsindən çıxmasının səbəbləri barədə müxtəlif fikirlər qeyd edilmişdir. Onun böyük kəramət və fəzilət sahibi olduğunu deyən əş᾽əri məzhəb ardıcıllarından bir dəstəsi iddia edirlər ki, Əş᾽əri bir gecə Rəsuli-Əkrəmi (s) yuxuda görür. Yuxuda həzrət Peyğəmbər ona göstəriş verir ki, mö᾽təzilədən əl çəkib əhli-hədis məzhəbinə qoşulsun. Amma yuxu heç vaxt höccət ola bilməz və bu iddianın isbat olunması ümumiyyətlə mümkün deyildir. Buna görə də demək olar ki, əgər bu məsələnin düzgünlüyü qəbul olunsa belə, yenə də Əbul Həsən Əş᾽əri Peyğəmbərin (s) göstərişinə əməl etməmişdir. Çünki o həzrətin göstəriş verməsi (onun iddiasına görə) əhli-hədis məzhəbinə qoşulmaqla əlaqədar idi. Halbuki, o əməldə əhli-hədisin e᾽tiqadları ilə çox-çox fərqli olan yeni bir məzhəbin əsasını qoymuşdu.

Əş᾽ərinin mö᾽təzilə məzhəbindən çıxmasına bəraət qazandırmaq üçün gətirilən ikinci dəlil onunla ustadı Əbu Əli Cəbai arasında olan bə᾽zi ixtilaflardır.

Tarixçilər miləl və nihəl kitablarında Əş᾽əri ilə Cəbai arasında Allahın sifətləri, ədaləti və s. məsələlər ətrafında baş verən bir çox mübahisələr nəql etmişlər. Belə ki, Əbu Əli Cəbai Əş᾽ərinin tutduğu iradlara cavab verməkdə aciz qalmış və mübahisəni davam etdirə bilməmişdir. Buna görə də Əş᾽əri mö᾽təzilənin bütün İslami e᾽tiqadları əql əsasında qurmaq üçün göstərdiyi sə᾽yləri yanlış və azdırıcı hesab edərək onlardan uzaqlaşmışdır.

Əgər bu mübahisələrin baş verməsi düzgün olsa – onun səhih olmadığına da heç bir dəlil yoxdur – demək olar ki, Cəbainin, Əş᾽ərinin iradlarına cavab verməkdə aciz qalması onun mö᾽təzilədən uzaqlaşmasında mühüm rol oynamışdır. Amma iddia etmək olmaz ki, onun bu firqədən ayrılmasının bütün

səbəbləri məhz həmin məsələlərlə bağlıdır. Çünki, Əş᾽əri sonradan əhli-hədis məzhəbində etdiyi islahatları mö᾽təzilə firqəsində də edə bilər və bu məzhəbdə qalmaqla da öz iradlarına cavab tapa bilərdi. Bu məqsədlə mö᾽təzilənin tamamilə əqli olan yollarında bir qədər islahat aparıb bə᾽zi nəqli ünsürləri ona əlavə etmək də kifayət idi. Bu da məhz Əş᾽ərinin əhli-hədisin tam mə᾽nada nəqli və zahiri olan yolları barəsində etdiyi işlərdir ki, bə᾽zi əqli üslubları ona artırmışdır.

Üçüncü dəlil Abbasi xəlifələrinin mö᾽təzilə firqəsi ardıcıllarının əleyhinə göstərdiyi təzyiqlər idi. Abbasi xəlifələrinin vaxtından Mə᾽munun dövrünə qədər, rəsmi məzhəb əhli-hədis məzhəbi olmuşdur və mö᾽təzilə ardıcılları öz ayinlərini gizli şəkildə yayırdılar. Amma Mə᾽mun mö᾽təzilə firqəsini rəsmiyyətlə tanıdı və iş o yerə çatdı ki, hətta camaatın əqidəsinin mö᾽təzilənin məramları ilə müvafiq olub-olmaması barədə əqidə təftişinə başlandı. Bu vaxtdan Mütəvəkkilin vaxtına qədər əhli-hədis hökumət tərəfindən ağır təzyiqlərə mə᾽ruz qaldı və hətta Əhməd ibni Hənbəl Qur᾽anın məxluq olmasına e᾽tiqad bəsləmədiyi üçün ٣٠ şallaq zərbəsinə məhkum edildi.

Mütəvəkkilin vaxtından Abbasi xilafətinin axırına qədər vəziyyət yenidən dəyişdi; əhli-hədis məzhəbi yenidən rəsmiləşdi və bu dəfə mö᾽təzilə ardıcılları çoxlu təzyiqlərə mə᾽ruz qaldılar. Bu zaman tanınmış və məşhur şəxsiyyət olan Əbul Həsən Əş᾽əri rəsmi məzhəbi qəbul etdi və mö᾽təzilə firqəsindən uzaqlaşdı. O Bəsrənin came məscidində minbərə çıxdı və camaatın hüzurunda rəsmi şəkildə mö᾽təzilə məzhəbinin ardıcılı olmaqdan imtina edib dedi: «Məni tanıyanlar mənim kim olduğumu bilir, məni tanımayanlar bilsin ki, mən Əbul Həsən Əli ibni İsmail Əş᾽ əriyəm. Mən bundan əvvəl Qur᾽anın məxluq olmasına inanır və deyirdim ki, Allah insanın gözünə görünməz; e᾽tiqadım bu idi ki, şər işlərin faili mən özüməm. İndi isə bu fikirlərimdən peşman olub, əvvəllər belə bir əqidəyə malik olmağımdan tövbə edir, mö᾽təzilə məzhəbindən çıxır və onun rüsvayçılıqlarına nifrət edirəm.»

Əş᾽ərinin mö᾽təzilə məktəbindən uzaqlaşmasının dördüncü səbəbi bu ola bilər ki, Əş᾽əri əhli-hədis məktəbinə qayıtmaqla, onların əqidələrini islah etmək fikrində idi. Əvvəldə qeyd olunduğu kimi, mö᾽təzilə məktəbi gizli fəaliyyətlə məşğul olduğu halda, əhli-hədis məktəbi rəsmiyyətlə tanınmış və camaatın əksəriyyəti ona tabe olmuşdu. Həm əhli-hədisin əqidə baxımından irad və zəif nöqtələri ilə, həm də mö᾽təzilənin əqli üslubları ilə tanış olan Əbul Həsən Əş᾽əri qərara alır ki, həmin əqli üsulları əhli-hədisə daxil etməklə onların e᾽tiqadlarını islah etsin.

Əhli-hədisin rəsmi məzhəb olduğuna, mö᾽təzilə məzhəbinin isə həqiqətdə batil bir əqidə kimi tanındığına diqqət yetirməklə, Əş᾽əri öz məqsədinə nail olmaq və əhli-hədisin əqidəsini islah etmək üçün çıxış yolunu yalnız bunda görürdü. Yə᾽ni, o, mö᾽təzilə firqəsindən əl çəkib rəsmi şəkildə ona nifrətini bildirmək, zahirdə

əhli-hədis məzhəbini qəbul edib bu məktəb ardıcıllarının rəğbətini qazanmaq və nəhayət, bir islahatçı kimi öz nəzərlərini həyata keçirmək məqsədilə bu yolu seçmişdir. O, bu məqsədlə də mö`təzilə firqəsindən qayıtdıqdan sonra «Əl-ibanətu ən üsulid-diyanə» kitabını yazdı ki, burada əhli-hədis əqidələrini tamamilə qəbul etdiyini və həmin əqidələrə inandığını e`tiraf edir. Bir qədər sonra yazdığı «Lümə» kitabında isə əhli-hədis əqidələrində etdiyi dəyişikliklərlə yanaşı, onlarla tam fərqli olan xüsusi nəzəriyyələrini də qeyd etmişdir.[١]

Şübhəsiz, əgər dördüncü amili Əş`ərinin mö`təzilə firqəsindən üz döndərməsinin yeganə səbəbi hesab etsək, kifayət qədər qənaətbəxş olmaz. Çünki o halda Əş`əri məsləhət xatirinə və yalnız zahirdə mö`təzilə məzhəbindən üz döndərmiş olur. Amma əvvəla, öz məzhəbini haqq və səhih bilən bir şəxsin onu təbliğ etməməsindən əlavə, camaat arasında rəsmi şəkildə ona öz nifrətini bildirməsi və onu batil hesab etməsi mümkündürmü?

İkincisi, Əş`əridən yadigar qalan kitablardan aydın olur ki, o, mö`təzilənin nəzər və əqidələri ilə həqiqi mə`nada müxalifətçilik etmişdir və onun bu məzhəbdən üz döndərməsi zahiri xarakter daşımırdı.

Belə nəzərə çarpır ki, yuxarıdakı dəlillərdən hər birini (birinci dəlildən başqa) Əş`ərinin mö`təzilə firqəsindən uzaqlaşaraq əhli-hədisə üz gətirməsində tə`sirli hesab etmək olar. Belə ki, Əbul Həsən Əş`əri, Əbu Əli Cəbai ilə apardığı mübahisələrdə mö`təzilə firqəsinin üsullarının zəif cəhətlərini başa düşmüş və o məzhəbə qarşı e`timadını itirmişdi. Həmçinin əhli-hədis məzhəbinin rəsmiləşməsi ilə onu həqiqətdə qəbul etdiyini bildirdi. Amma bu firqənin əqidə üsullarındakı zəifliklərlə əvvəldən tanış olduğu üçün əhli-hədis məzhəbini qəbul etməklə, onun əqidəvi prinsiplərini bir növ islah etmək qərarına gəlmişdi.

Sonrakı dərslərdə Əş`ərinin fikirlərini və bu məzhəbin əqidə üsullarını araşdıracağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əş`əri məzhəbinin banisinin tərcümeyi-halını xülasə şəkildə bəyan edin.

٢. Əbul Həsən Əş`əri əvvəllər kimin tərbiyəsi altında böyümüşdü və hansı məzhəbə meyl göstərirdi?

٣. Əş`ərinin əhli-hədis məzhəbinə üz tutmasının səbəbləri nədir?

٤. Mütəvəkkil Abbasinin dövründən sonra mö`təzilə ardıcılları ilə necə rəftar olunurdu?

[١] Sübhani, «Bühusun fil-miləl vən-nihəl», ٢-ci cild.

# ON ÜÇÜNCÜ DƏRS

## *ƏŞ᾽ƏRİLƏR (٢)*

## *KƏLAMİ ÜSLUBLAR*

*١. Əş᾽əri məzhəbinin kəlami üslubu necədir?*
*٢. Əş᾽əri məzhəbinin hansı səciyyəvi xüsusiyyətləri vardır?*

Əbul Həsən Əş᾽ərinin qarşısında iki müxalif məktəb və nəzəriyyə mövcud idi:

١. Əqli qaydalara meyl edən mö᾽təzilə məktəbi; bu məktəb ardıcılları e᾽tiqad üsullarının qəbul və isbat olunmasında, hədislərin məzmun və möhtəvasının isbat olunmasında əsas me᾽yarı əql hesab edirdilər.

٢. Əhli-hədis kimi zahirə istinad edən firqələr; onlar ayə və hədislərin zahirinin tələbinə uyğun əməl edir, bu işdə azacıq da olsa belə, əqli təhlilləri caiz bilmirdilər. Bu firqələr əsas e᾽tibarilə əqlin e᾽tiqadi üsullarda, onların şərh və bəyan olunmasında rol oynaması ilə müxalif idilər. Buna görə də əhli-hədisin nəzərində mö᾽təzilə bid᾽ətçi kimi tanınmışdı. Əbul Həsən Əş᾽əri bu iki məzhəb arasında mö᾽tədil bir mövqe və üslub seçmək qərarına gəlmişdi.

Buna görə də bir tərəfdən mö᾽təzilənin əqlə ifrat dərəcədə meyl göstərməsi ilə mübarizə aparmalı idi. Əvvəlki dərslərdə qeyd olunduğu kimi, Bəsrə məscidində mö᾽təzilənin əqli əsaslarla izah etdiyi bir sıra əqidələrlə müvafiq deyildi, digər tərəfdən də əhli-hədisin zahiri mə᾽nalara qapılmaq meylləri qarşısında dayanmalı və əqli bəhsləri dini təfəkkürə daxil etməli idi. Əş᾽əri üçün bu mübarizə mö᾽təzilənin ifratçılığı ilə mübarizədən qat-qat ağır idi. Çünki o zamanlar mö᾽təzilə gizli təbliğat dövrünü keçirir, əhli-hədis isə əksəriyyətin rəsmi məzhəbi hesab olunurdu. Buna görə də onunla açıq-aşkar müxalifətçilik etmək üçün münasib şərait yox idi və müxalifət edənlər çox asanlıqla bid᾽ətçi kimi tanıtdırılırdı.

Bununla belə, Şeyx Əş᾽əri öz məqsədinə nail olmaq və əqli qaydaları dini mövzulara daxil etmək üçün «İstihsanul-xovzi fi elmil-kəlam» kitabını yazdı və onda əhli-hədis firqələrinin əqlin e᾽tiqadi məsələlərə daxil edilməsinə qarşı söylədiyi e᾽tirazlara cavab verməyə başladı. O, bu kitabda yazırdı: Camaatın bir dəstəsi (zahiriyyə və sair əhli-hədis) son dərəcə nadanlıq göstərirlər; e᾽tiqadi

məsələlərdə əqli təfəkkür və qaydalardan istifadə etmək onlara çox ağır gəlir. Buna görə də onlar kor-koranə təqlid və iman yolunu seçirlər. Onlar səʾy edirlər ki, üsulidini əql yolu ilə bəyan etməyə çalışanları bidʾətçi adlandırıb məhkum etsinlər. Hərəkət, sükunət, cism, rəng, məkan, cövhər, ərəz və ilahi sifətlər barədə bəhs aparmağı günah və bidʾət hesab edərək deyirlər ki, belə bəhslər düzgün olsaydı, Peyğəmbər (s) və onun səhabələri də mütləq bu işi görərdilər.

Həmçinin deyirdilər ki, Peyğəmbər (s) vəfatından əvvəl dini baxımdan lazım olan bütün mətləbləri kamil şəkildə izah etmiş və ardıcıllar üçün deyilməmiş bir söz qalmamışdır. Həzrət Peyğəmbər (s) yuxarıda qeyd olunan mətləblərdən heç birinə işarə etmədiyi üçün aydındır ki, onların ətrafında bəhs etmək bidʾət hesab olunacaqdı.[١].

Əhli-hədis öz müddəasını belə izah edirdi ki, bu kimi kəlami məsələlər, ya şəxsən Peyğəmbərin özünə və səhabələrə məʾlum idi və eyni halda bunun barəsində sükut edərək, onları araşdırmamışdılar, yaxud onlar bu məsələlərdən xəbərsiz idilər. Əgər onlar bilərəkdən bu məsələləri bəyan etməmişlərsə, onda o həzrətə tabe olaraq, biz də bu məsələdə sükut etməliyik. Əgər Peyğəmbər (s) və səhabələr bu məsələləri bilməmişlərsə, onda biz də bu barədə heç bir şey əldə edə bilmərik. Buna əsasən hər iki halda bu kimi məsələlər barəsində bəhs aparmaq bidʾət olacaqdır.

Əşʾəri bu kimi sualları cavabsız qoymadı və kəlami-əqli məsələləri müdafiə etməyə çalışdı. O, əhli-hədisin gətirdiyi dəlillərin müqabilində üç cavab vermişdi:

**Birinci cavab: (**Çaşqınlıq və cədəl yolu ilə verilən cavab) «Peyğəmbər (s) hər bir şeyi bəyan edibsə və heç nəyi (bəyan etməkdə) əsirgəməyibsə, bununla belə, ondan sonra bu kimi məsələlər barədə bəhs edən şəxsləri bidʾətçi adı ilə məzəmmət etməmişsə, demək belə məsələləri araşdırmağın heç bir eybi yoxdur. Əgər hər bir şeydə Peyğəmbərin sözlərinə istinad ediriksə, onda hansı əsasla o həzrətin bidʾətçi adlandırmadığı şəxsləri bidʾətçi hesab edə bilərik?! Çünki bu əməlin özü Peyğəmbərin xatırlatmadığı məsələlər barəsində bəhs etməkdən ibarətdir və Peyğəmbərin (s) məzəmmət etmədiyi şəxslərin əməlini məhkum etmək olmaz.»

**İkinci cavab:** Peyğəmbər (s) heç bir kəlami bəhslərin bəyanını əsirgəməyib, həmçinin ayə və rəvayətlərdə kəlam elmində mövcud olan cism, ərəz, hərəkət və sükunət kimi bəhslərin hamısı qeyd olunmuşdur. Onlar müəyyən və dəqiq şəkildə zikr olunmadığına baxmayaraq, o bəhslərin əsas prinsipləri Qurʾanda və sünnədə bəyan olunmuşdur.

Şeyx Əbul Həsən Əşʾəri bir çox rəvayət və ayələrə istinad edir ki, onun əqidəsinə görə, kəlami bəhslər orada öz əksini tapmışdır. O cümlədən: «Ənʾam»

---

[١] Miyan Məhəmməd Şərif «Tarixi fəlsəfə dər islam», ١١-ci fəsil, doktor Nəsrullah Purcəvadi və Əbdül Hüseyn Azərəngin tərcüməsi.

surəsinin ٧٥-٧٩-cu ayələrini, yə᾽ni İbrahim peyğəmbərin ulduzun və günəşin batması ilə əlaqədər apardığı bəhsi Qur᾽anda hərəkət və sükunət bəhsinin işıqlandırılmasına dəlil hesab edir. Həmçinin «Ənbiya» surəsinin ٢٢-ci ayəsi və «Mu᾽minun» surəsinin ٩١-ci ayəsini «təmanö᾽» bürhanı ilə əlaqədar olduğunu qeyd edir. Əş᾽əri axırıncı cavabda əhli-hədisin əqidəvi məsələlərdəki mövcud üslubundan, yə᾽ni Qur᾽an və sünnənin zahiri mə᾽nasını əxz etmək yolundan istifadə etməyə çalışmış və onlara isbat etmək istəmişdir ki, əqli və kəlami bəhslər şəriətin diqqət yetirdiyi məsələlərdəndir.

**Üçüncü cavab:** Peyğəmbəri-Əkrəm (s) bu mətləblərdən xəbərsiz deyildi və onları tam incəliklərinə qədər bilirdi. Amma onun həyatında bu kimi məsələlərlə əlaqədar bir şey qarşıya çıxmadığından, onlar barəsində bəhs etmək zərurəti yaranmamışdı.

Peyğəmbərin (s) səhabələri o həzrətin həyatı dövründə irəli gələn dini məsələlərin çoxu barəsində bəhs edib və dəlil gətirmişlər. Bunu da nəzərə almaq lazımdır ki, qeyd olunan məsələlər ətrafında Peyğəmbərdən (s) birbaşa və aşkar hədis nəql olunmamışdır. Peyğəmbərdən (s) aşkar göstəriş verilmədiyinə görə, bu kimi məsələlər barədə müəyyən hökmlər çıxartdıqları zaman, onların arasında ixtilaf yaranmışdı. Məsələn, əgər Qur᾽anın məxluq olub-olmaması, yaxud fərdin cövhəri və s. məsələlər Peyğəmbərin (s) sağlığında tam təfsilatı ilə qarşıya çıxsaydı, şübhəsiz o həzrət sair məsələlər kimi, onları da izah edərdi.

Buna əsasən, Qur᾽anın məxluq olub-olmaması barədə Peyğəmbərdən (s) aşkar bir kəlamın nəql olunmadığını fərz etsək, onda Qur᾽anın məxluq hesab edilməsi bid᾽ət olsa, elə həmin dəlillə demək olar ki, onun qədim və qeyri-məxluq olması da bid᾽ətdir.[١]

Əbul Həsən Əş᾽əri bu bəhsin axırında belə nəticə alır ki, İslam dini heç də əqidəvi bəhslərdə ağıldan istifadə etməyin ziddinə çıxmamışdır, əksinə e᾽tiqadi məsələlər barəsində əqli və istidlali bəhsləri zəruri hesab etmişdir.

## *ƏŞ᾽ƏRİ MƏZHƏBİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ*

Qeyd olunanlardan belə nəticə alırıq ki, əş᾽əri məzhəbinin iki mühüm xüsusiyyəti var idi:

**١. Əqlin əqidəvi məsələlərdə dəxaləti:**

Əş᾽əri çalışırdı ki, Qur᾽an və sünnəni əsas me᾽yar götürməklə yanaşı, ayələrin, hədislərin, əqidə prinsiplərinin tanınmasında və dərk olunmasında əqli qaydalardan da istifadə etsin və həqiqətdə əhli-hədis məzhəbində islahat apararaq, onu əqlyönlü bir məzhəb şəklinə salsın. Baxmayaraq ki, o, «hüsn və qübhi əqli»

---

[١] Əvvəlki mənbə və (Sübhani «Bühusun fil-miləl vən-nihəl», ٢-ci cild.

(ağlın yaxşı və pisi ayırd etmək qüdrətinə malik olması) kimi əqli bir məsələni heç vaxt qəbul etməmişdir.

**٢. Mö᾽tədil mövqe:**

Əş᾽ərinin fikri bu idi ki, əhli-hədisin təfrit nəzərləri ilə mö᾽tazilənin əqlə əsalət verməkdə olan ifrat nəzəriyyələri arasında mö᾽tədil bir məktəb yaratsın. Məsələn, o, qəza və qədər, cəbr və ixtiyar kimi bəhslərdə əhli-hədisin cəbrə meyilli olan nəzərləri ilə mö᾽tazilənin təfviz nəzəriyyəsi arasında «kəsb» nəzəriyyəsini irəli sürmüşdü. Yaxud, xəbəri sifətlər barəsində əhli-hədisin həmin sifətlərin zahiri mə᾽nasını götürərək, Allah üçün əl, üz və s. isbat etmək əsasında olan nəzəriyyəsi ilə mö᾽təzilə firqəsinin bu sifətlərin yozulması nəzəriyyəsi arasında «xüsusiyyətsiz» qeydi ilə xəbəri sifətləri isbat edərək bəyan etdi.

Qeyd olunanlardan əş᾽əri məzhəbinin səciyyəvi xüsusiyyətləri, habelə Əbul Həsən Əş᾽ərinin əqidəvi bəhslərin kəlami cəhətdən araşdırması və onun əqli-kəlami bəhsləri işıqlandırması, eləcə də mö᾽tədil, əql, məntiq və istidlalla müdafiə olunası bir məzhəbi tə᾽sis etmək üçün seçdiyi yol idi. Amma onun öz məqsədinə çatmaqda nə qədər müvəffəqiyyət qazandığına, öz məzhəbinin əqidəvi prinsiplərini əqli və bürhani istidlal üzərində qura bilməsinə gəldikdə isə, bu məzhəbin əqidəvi və fikri əsaslarının araşdırılmasından aydın olur.

Özünü mö᾽təzilə və əhli-hədis məzhəblərindən ayıran əş᾽əri firqəsinin əqidəvi əsasları aşağıdakılardır:

١. Allah və ilahi sifətlər məsələsi;

٢. İnsanın ixtiyarı;

٣. Əqli gözəllik və qəbahət; (ağlın yaxşı və pisi ayırd etmək qüdrətinə malik olması)

٤. Allahın gözlə görünməsinin mümkün olub-olmaması;

٥. Qur᾽anın məxluq olub-olmaması;

٦. İnsanın bacarığından artıq işlərə mükəlləf olub-olmaması;

٧. Və᾽də və vəid;

٨. Allahın işlərinin əqli, yaxud qeyri-əqli üsullar əsasında olub-olmaması;

٩. Allah tərəfindən bəndələrlə əlaqədar ən səlahiyyətli işə riayət etməyin vacib olub-olmaması.

Altıncı dərsdə Əş᾽ərinin xəbəri sifətlərlə əlaqədar nəzərləri araşdırıldı; gələn dərsdə isə əş᾽əri məzhəbinin nəzərlərinin ən mühümləri ilə tanış olacaqsınız.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əbul Həsən Əş᾽əri öz məktəbinin bünövrəsini qoyan zaman hansı təfəkkürlərlə qarşılaşmışdı?

٢. Əhli-hədis hansı bəhslərin işıqlandırılmasını bid᾽ət saymışdır?

٣. Əş`əri əhli-hədisin kəlami bəhslərlə müxalifətçilikləri qarşısında hansı dəlillərdən istifadə edirdi?

٤. Əş`əri məzhəbinin mö`təzilə ilə olan ixtilafları hansı üsullarladır?

٥. Əş`əri məzhəbinin xüsusiyyətlərini bəyan edin.

# ON DÖRDÜNCÜ DƏRS

## *ƏŞʾƏRİLƏR (٣)*

## *ƏQİDƏLƏR (١)*

*١. İlahi sifətlər barəsində əşʾərilərin nəzəri nədir?*
*٢. Əşʾərilərin nəzərində Allahın gözlə görünməsi mümkündürmü?*

Əşʾərilərin daha çox araşdırma aparılmalı əqidəvi-kəlami bəhslərinin ən mühümləri aşağıdakılardır:

١. Allahın zati sifətləri;
٢. Allahın gözlə görünüb-görünməməsinin mümkünlüyü;
٣. Allahın insanın feʾlləri ilə əlaqədar fəaliyyəti və «kəsb» nəzəriyyəsi;
٤. Allah kəlamının qədim olması;
٥. İnsanın qüdrətindən artıq işlərə əmr edilməsi;
٦. Əqli gözəllik və qəbahətin inkar olunması.

١. **Zati sifətlər:**

Allaha pərəstiş edənlərin hamısı Allah-taalanın elm, qüdrət, həyat, eşitmək, görmək, iradə və s. sifətlərə malik olması barədə yekdil nəzərdədirlər. Bu kimi sifətləri bütün kəlam alimləri zati sifətlər, imamiyyə alimləri isə müsbət kəmal sifətləri adlandırırlar. Amma ixtilaf bu sifətlərin Allah-taalanın zatı ilə necə əlaqələndirilməsindədir. Möʾtəzilə məzhəbinin əksər ardıcılları zati sifətlərin Allahın zatı ilə eyniyyət təşkil etdiyini deyirlər. Bunun müqabilində əhli-hədisdən bir qrupu sifətlərin Onun zatına artırılmasına inanırlar. Bu bəyanda Əşʾəri ikinci nəzəriyyəni seçib və ona bir şey də əlavə etmişdir. O, deyir: Allah-taala elm vasitəsilə alimdir, qüdrət vasitəsilə qadirdir, həyat vasitəsilə diridir, iradə vasitəsilə müriddir, kəlam vasitəsilə mütəkəllimdir və s. Bu əzəli sifətlər Onun zatı əsasında qaimdir və sifətlərin zatla eyni və ya ondan qeyri olmasını demək düzgün deyildir.»[١] Burada «Allah elm vasitəsilə alimdir» və s. deyildikdə, məqsəd budur ki, elm Allahın zatı ilə eyniyyət təşkil etmir və Onun zatına artırılmışdır. Lakin o, sözünün axrında belə əlavə edir: «Nə zatla eynidir, nə də

---

١ Şəhristani, «Əl-miləl vən-nihəl, ١-ci cild.

zatdan qeyridir.» Əşˋəri bu qeydi gətirməklə sifətlərin zata artırılmasına inananların nəzərinə çarpan bir irada cavab vermək istəmişdir. O, irad bundan ibarətdir ki, sifətlər zata artırıldığı təqdirdə, qədim varlıqların çoxluğu lazım gəlir və bu da tövhidlə müvafiq deyil. Çünki bu halda Allah, zatı sifətlərinin hamısı qədim olan bir varlığa çevrilir. Belə olanda da qədimlər çoxluğu yaranacaq, bu da tövhidin ziddinədir.

Əşˋəri sifətlərin zata artırıldığını deməkdən əlavə, yuxarıdakı iradla qarşılaşmamaq üçün, sifətlərin nə zatla eyni, nə də ondan qeyri olmasına eˋtiqadlı olduğunu bildirir.

Amma bizə elə gəlir ki, Əşˋərinin artırdığı bu qeyd həmin iradı aradan qaldırmır. Çünki ilahi sifətlər zatın həqiqətindən başqa bir həqiqətə malik olsalar belə, sual yaranacaqdır ki, görəsən sifətlər öz varlıqlarında zatdan ehtiyacsızdır, yoxsa yox? Əgər «ehtiyacsızdır» deyilsə, qədimlər çoxluğu iradı yenidən qarşıya çıxacaq. Əgər ehtiyaclıdırsa, onda belə bir sual yaranır ki, bu sifətlərin olmadığı bir zat aşağıdakı qayda əsasında həmin sifətləri necə yarada bilər.

«Kimsə özündə olmayan bir şeyi başqasına verə bilməz.»

Qeyd olunmalıdır ki, əşˋərlərin ilahi sifətlərlə əlaqədar (xəbəri sifətlər barəsində) müəyyən nəzərləri də vardır ki, onun şərhi səkkizinci dərsdə bəyan edildi.

**٢. Allahın gözlə görünməsinin mümkün olub-olmaması:**

Əşˋərinin əhli-hədislə möˋtəzilə arasındakı seçdiyi möˋtədil mövqeyin əksinə olaraq, belə nəzərə çarpır ki, o, Allahın gözlə görünməsinin mümkün olub-olmaması barədə orta mövqe seçməmiş, yalnız əhli-hədisin nəzərinin əqli əqli qaydalarla uyğunlaşdırılmasına çalışmışdır. Əvvəldə qeyd edildiyi kimi, əhli-hədis, xüsusilə zahiriyyə firqəsi Allahın görünməsinin mümkünlüyünə inanır. Hətta onlardan bəˋzilərinin eˋtiqadına görə, Allahın bu dünyada da bəˋzi xalis və saleh insanların gözünə görünməsi mümkündür. Bunun müqabilində möˋtəzilə ardıcılları Allahın gözlə görünə bilməsinin mümkünlüyünü birdəfəlik inkar edirlər. Bu barədə şeyx Əbul Həsən Əşˋəri əhli-hədisin nəzərini qəbul edərək çalışmışdır ki, bu nəzəriyyənin mümkün olmasına əqli və nəqli dəlillər gətirsin.

Əşˋəri «Əl-ibanə» kitabında deyir: Biz inanırıq ki, ay ١٤ gecəlik vaxtında göründüyü kimi, Allah-taala da axirət aləmində gözlə görünəcəkdir. Əlbəttə, Onu yalnız möˋminlər görəcək, kafirlər isə belə bir səadətdən məhrum qalacaqlar. Çünki Onu behiştdə görmək mümkündür. Allah-taala kafirlər barəsində belə buyurur:

**«Xeyr, o gün onlar Rəbbinin mərhəmətindən məhrum olacaqlar!»**[١]

---

[١] Mutəffifin-١٥.

«Musa Allahdan, Onu dünyada görməsini istədikdə, Allah dağa təcəlli etdi və Musa huşdan gedib yerə yıxıldı; bildi ki, Onu dünyada heç vaxt görə bilməyəcək».

Qeyd:

Əş᾽ərinin Allahı görməyin mümkün olub-olmaması ilə bağlı gətirdiyi dəlilləri araşdırmazdan əvvəl, qeyd etmək lazımdır ki, bu bəhsdəki ixtilaf Allah-taalanın adi gözlə, normal olan görünüşünün mümkün olub-olmaması barədədir. Çünki Onun qəlblə, qeyri-hissi yolla görünməsi, ümumiyyətlə ixtilaflı məsələ deyildir. Çünki İslami firqələrdən heç biri bunu inkar etməmişlər.

Deməli, münaqişə və ixtilaf Allahın insanın baş nahiyəsində yerləşən gözlərlə görünməsinin mümkün olub-olmamasındadır. Bu barədə əhli-hədis firqələrindən bir neçəsi Allahın görünə bilməsinə inanır və Onun görünməsini sair maddi varlıqların insan tərəfindən görünməsi ilə eyni olduğunu deyirlər. Əş᾽əri də həmin nəzəri seçmişdir. Amma sonrakı əsrlərdə bu firqənin rəhbərliyini öhdəsinə alan bə᾽zi böyük şəxsiyyətlər, o cümlədən Təftazani, Əş᾽ərinin nəzərinə bir qeyd əlavə etmişdir; o, Allahın görünməsinin «məkan, cəhət və qarşı-qarşıya durmağı lazım gətirməyən bir görmək»lə mümkün olduğunu söyləmişdir.

Belə nəzərə çarpır ki, Təftazani bu qeydi gətirməklə təşbih iradını aradan qaldırmaq istəmişdir. Amma həqiqət budur ki, bu qeydin gətirilməsi həmin məsələni daha da müəmmalı və mürəkkəb edir. Birinci irad həll olunmamış, ikinci bir sual yaranır ki, Onun gözlə görünməsi qarşı-qarşıya durma, cəhət və məkan olmadan necə mümkün ola bilər?!

## *ƏŞ᾽ƏRİNİN ALLAHIN GÖRÜNMƏSİNİN MÜMKÜNLÜYÜNƏ GƏTİRDİYİ DƏLİLLƏR*

Əbul Həsən Əş᾽əri öz nəzəriyyəsini isbat etmək üçün həm əqli, həm də nəqli dəlillərə istinad etmişdir.

**Əqli dəlil:**

١. Allahın görünməsinin mümkün hesab olunması Allah-taala üçün heç bir qeyri-mümkün işi qarşıya çıxarmır və bu mətləbdən Allahın hadis olması, yaxud hüdus mə᾽nasının təsəvvür olunması lazım gəlmir.

Başqa sözlə desək, Allahın görünməsinin caiz olması onun hadis olmasını isbat etmir, çünki görünməli şeylərin görünməsi, onların hadis olmasına görə deyildir, əks halda, hadis olan hər bir şeyin görünməsi mümkün olmalıdır. Halbuki, belə

deyildir. Bundan əlavə, Allahın gözlə görünməsinin mümkünlüyü təşbih məsələsini də qarşıya çıxarmır.[١]

**Birinci dəlilin iradı:**

Əş᾽ərinin bu dəlilində bir neçə irad nəzərə çarpır:

١. Gözlə görünməsi mümkün olan hər bir şey hadisdir, nəinki hadis olan hər bir şeyin gözlə görünməsi mümkün olmalıdır. Başqa sözlə desək, qarşılıqlı tələbetmə (mülazimə) iki tərəfdən deyil, bir tərəfdəndir.

٢. Allahın gözlə görünməsinin mümkün olması təşbihə səbəb olmaya bilməz; gözlə görünmə yalnız o zaman mümkün ola bilər ki, görünən şey gözlərin önündə qərar tapsın. Buna əsasən, hadis varlıqların xüsusiyyətlərindən olan qarşı-qarşıya durma, cəhət və məkan hər bir görünmədə lazımdır. Əgər Allah barəsində belə bir görünməyə inansaq, təşbih məsələsi ilə mütləq qarşılaşacağıq.

٣. Görünmək cövhərlə ərəz arasında müştərəkdir və müştərək görünmə üçün vahid bir səbəb lazımdır. Bu vahid səbəb ya vücuddur, ya hüdus. Hüdus müştərək səbəb ola bilməz, çünki, hüdus yoxluğa aid bir işdir. Buna görə də müştərək səbəb ola biləcək şey yalnız vücuddur. Digər tərəfdən də vücud vaciblə mümkün arasında olan müştərək bir cəhətdir.

Buradan belə bir nəticə almaq olar ki, görünmək də vaciblə mümkün arasında müştərəkdir. Deməli, mümkünül-vücudun görünməsi mümkün olduğu kimi, vacibül-vücudun da görünməsi mümkündür.

**İkinci dəlilin iradı:**

Bu dəlillə əlaqədar belə bir sual yaranır ki, görünmək üçün vücud tam səbəbdir, yoxsa naqis səbəb? Əgər «tam səbəbdir» deyilərsə, onda məhəbbət, qəzəb, atifə, nəvaziş, qorxu (bir sözlə bütün vicdani işlər) kimi gözə görünməz şeylərin hamısında bu qayda doğru olmalıdır. Halbuki, belə deyildir. Əgər «naqis səbəbdir» deyilərsə, (əlbəttə bu düzgündür) onda qəbul etməliyik ki, o şeylərin görünməsi mümkün olacaqdır ki, gözlərin müqabilində qərar tapıb, görünmək üçün vücuddan başqa, «maddi olmaq» xüsusiyyətinə də malik olsun.

**Nəqli dəlil:**

Əş᾽arilər Allahın gözlə görünməsinin mümkünlüyünü isbat etmək üçün bə᾽zi Qur᾽an ayələrinə də istinad etmişlər. Onların ən mühümü «Qiyamət» surəsinin ٢٢-٢٥-ci ayələridir.

Onlar bu ayəni Allahın görünməsinin mümkün olmasına dəlil gətirirlər. Halbuki, diqqət yetirmək lazımdır ki, «nəzər etmək» ifadəsi mövcud əlamətlərə diqqət yetirməklə, hər bir cümlədə xüsusi mə᾽naya malikdir. Məsələn, «filankəs gözünü başqasının əlinə dikibdir» - deyildikdə, onun köməyinə ümid bəsləməsi nəzərdə tutulur. Bu şərif ayələrdə mövcud olan əlamətlərə diqqət yetirməklə

---

[١] Əş᾽əri «Əl-lümə᾽».

aydın olur ki, «nəzər etmək» dedikdə, məqsəd ilahi məğfirət və rəhmətə göz dikməkdir.

Mövcud olan əlamət isə ٢٤-٢٥-ci ayələrdir. Belə ki, Allah-taala buyurur: **«Üzlər qəmgin [nigaran] halda bel sındıran əzabın intizarını çəkər.»** Buna əsasən ٢٢-٢٣-cü ayələrin mə᾽nası belə olur: «Fərəhli üzlər ilahi məğfirət və rəhmətə ümid (nəzəri) dikmişlər.»

Allahın gözlə görünməsini ümumiyyətlə inkar edən digər ayələrə nəzər salsaq, bu mə᾽na daha da aydınlaşar. O cümlədən «Ən᾽am» surəsinin ١٠٣-cü ayəsində Allah-taala buyurur:

**«Gözlər Onu (görüb) dərk etməz...»**

Şeyx Əbul Həsən Əş᾽əri bu nəqli dəlildən əlavə, başqa ayələrə, həmçinin Allahın görünməsinin mümkünlüyünü göstərən bə᾽zi rəvayətlərə istinad etmişdir. Onlarla tanış olmaq üçün müfəssəl kitablara müraciət olunmalıdır.[١]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İlahi sifətlər barədə mö᾽təzilə ilə əş᾽ərilərin nəzərləri arasında fərq nədən ibarətdir?

٢. Əş᾽ərilərin ilahi sifətlər barədə e᾽tiqadlı olduqları nəzərləri araşdırın.

٣. Nə üçün onlar mö᾽minlərin Allahı görə biləcəyinə inanır, kafirlərin isə belə bir səadətdən məhrum qalacaqlarına e᾽tiqad bəsləyirlər?

٤. Əş᾽ərilərin Allahın görünməsinin mümkünlüyü barədə gətirdiyi əqli dəlili araşdırın.

٥. Onların «Qiyamət» surəsində Allahın görünməsi ilə əlaqədar ayələrə istinad etmələri düzgündürmü?

[١] Əbul Həsən Əş᾽əri «Əl-lümə᾽»; Cə᾽fər Sübhani «Buhusun fil-miləl vən-nihəl», ٢-ci cild.

# ON BEŞİNCİ DƏRS

## *ƏŞ᾽ƏRİLƏR (٤)*

## *ƏQİDƏLƏR (٢)*

*١. Kəsb nəzəriyyəsi nədir?*
*٢ Allahın kəlamı hadisdir, yoxsa qədim?*
*٣. Əşyaların gözəl və ya qəbahətli olması əqlidir, yoxsa şər᾽i?*
*٤. İmkan və bacarıqdan xaric olan işlərə mükəlləf olmaq mümkündürmü?*

**٣. İnsanın əməlləri ilə əlaqədar Allahın fail olub-olmaması; «Kəsb» nəzəriyyəsi.**

Kəlam alimlərinin müxtəlif rə᾽ylər söylədiyi və hal-hazırda da söyləməkdə olduqları və ətrafında müxtəlif nəzərlər verdiyi digər bir münaqişəli və mühüm məsələ insanın fe᾽llərinin yaranması, ixtiyar və cəbr məsələsidir.

Yə᾽ni, görəsən insan bütün işlərini öz ixtiyarı ilə yerinə yetirir, yoxsa bu fe᾽llər ilahi iradə ilə həyata keçir və insan onda heç bir rol oynamır? Əvvəldə qeyd etdik ki, əhli-hədis cəbrə inanaraq, insanın işlərinin ilahi qəzanın hökmünə məhkum olduğuna və öz fe᾽llərini yaratmaqda heç bir rol oynamadığına inanırlar. Bu dəstə də tövhid məsələsində Allahın xaliqiyyət sifətini müdafiə etmək və şirkdən qaçmaq üçün bu nəzəri seçmişlər. Bunun müqabilində isə mö᾽təzilə və qədəriyyə əqidəsində olanlar inanırlar ki, insanın işləri onun öz iradəsi ilə yerinə yetirilir və fe᾽llərin xaliqi həqiqətdə insanın özüdür. Allah-taala bəşərin fe᾽llərinin yaranmasında heç bir rol oynamır. Çünki, insanın fe᾽lləri Allaha nisbət verilərsə, bu halda çirkin və yaramaz işlər də Allaha mənsub ediləcəkdir. Halbuki, Allah-taala yaramaz, çirkin və qəbahətli işlərdən pak və münəzzəhdir.

Şeyx Əbul Həsən Əş᾽əri bir çox məsələlərdə əhli-hədislə mö᾽təzilə arasında mö᾽tədil bir nəzər tə᾽yin etdiyi kimi, cəbr və ixtiyar məsələsində də orta mövqe tapmağa çalışmışdır. O, mö᾽təzilədən əl çəkdikdən sonra əhli-hədisin nəzərini seçərək demişdir: «Bəşərin fe᾽lləri Allahın məxluqudur və məxluqat heç bir fe᾽li xəlq etməyə qadir deyildir. Allahdan başqa heç bir xəlq edən yoxdur və ona görə də insanın fe᾽llərinin hamısı Allahın yaratdığıdır.»

Amma əhli-hədisin nəzəriyyəsi cəbrilik doğurduğuna görə, habelə insanın fe`llərdə məcbur olması, peyğəmbərlərin be`səti, eləcə də təklif, savab və cəza ilə uyğun gəlmədiyinə görə, bu çatışmazlığı aradan qaldırmaq üçün «kəsb» nəzəriyyəsini seçdi. O deyirdi ki, fe`lləri xəlq etməklə kəsb etmək arasında fərq vardır; insanın fe`llərinin xəlq olunması Allahın qüdrət və iradəsi ilə baş verir. Amma o fe`lləri kəsb edən məhz insandır.

Əş`əri «kəsbi» belə tə`rif edir: İnsanda iki növ hərəkət vardır: İztirari və iktisabi hərəkət.

İktisabi hərəkətdə insanın qüdrəti rol oynayır. Buna görə də onu «kəsb» adlandırırıq. Çünki insanın fe`li onda hadis olan qüdrətin vasitəsilə vücuda gəlir. Başqa sözlə desək, fe`lin əsli Allahın məxluqudur. Amma bu fe`l insanda hadis olan qüdrətin vasitəsilə yaranır və fe`l insandan baş verir. Buna görə də fe`lin kəsb edilməsi insana mənsub edilir.

Bu nəzəriyyədəki irad bundan ibarətdir ki, əgər insanda hadis olan qüdrət onun fe`linin gerçəkləşməsində də rol oynayırsa, onda bu iş fe`llərin xəlq olunmasının Allahdan başqasına mənsub edilməsini tövhidlə uyğun bilməyən əş`ərilərin və əhli-hədisin əqidəsi ilə təzadlı olur. Həmçinin əgər hadis olan qüdrətin fe`lin gerçəkləşməsində rolu olmazsa, cəbr barəsində yaranan irad öz yerində qalacaq və bu halda savab və cəzaya layiq olmağın mə`nası olmayacaqdır.

**٤. İlahi kəlamın həqiqəti:**

Allah kəlamının Onun zatından, yoxsa sifətindən olması barədə olan bəhs, kəlam alimləri arasında son dərəcə münaqişəli bəhslərdən biridir. Bu bəhs uzun müddət alimlər arasında ən çox münaqişə və çəkişmə yaradan mövzulardan olmuşdur. Bu bəhsin nəticələrindən biri Qur`anla əlaqədardır. Onlar deyirlər: Allahın kəlamı məxluqudur, ya yox?

Bu bəhslə əlaqədar kəlam alimlərinin qarşıdurması o qədər davam etmişdir ki, iş əqidələrin təftişi, həbs, çoxlu insanların öldürülməsi, hətta Əhməd ibni Hənbəl kimi şəxsiyyətin ٣٠ şallaq zərbəsinə məhkum edilməsi ilə nəticələnmişdir. Bu, tarixdə «möhnəti xəlqi Qur`an» adı ilə məşhurdur. Mö`təzilə ardıcılları inanırlar ki, Allahın kəlamı Onun sifətlərindəndir. «Allah mütəkəllimdir» - dedikdə, məqsəd budur ki, Allah kəlamı hərflərdən, kəlmələrdən və cümlələrdən təşkil olunduğu halda, səslə yanaşı onu müəyyən lövhədə icad edib və nəhayət Cəbrail o kəlamı Peyğəmbərə çatdırmışdır.

Başqa sözlə desək, Allahın mütəkəllim olmasının mə`nası kəlamın həqiqətinin Allahın zatında elm, qüdrət və s.-nin olması kimi deyil, Onun kəlamı icad etməsidir. Əlbəttə, mümkündür ki, kəlam hər hansı bir cismdə icad olunsun və Peyğəmbər o səsi eşitsin. Həzrət Musanın Sina dağında Allahla danışması kimi.[١]

---

[١] Qazi Əbdul Cabbar, Şəhri üsuli xəmsə.

Bu e᾽tiqada görə, Qur᾽an Allahın məxluqu olmalıdır, halbuki, mö᾽təzilənin əksinə olaraq, əhli-hədis Allah kəlamını elm, qüdrət və s. kimi zatın sifətlərindən bildiyinə görə, Qur᾽anı də qədim hesab edirlər. Hər kəs onun məxluq olmasına inansa kafir sayırdılar. Bu məqamda Əş᾽əri bu iki nəzər arasında əhli-hədisin nəzərini əsas götürərək, Allah kəlamını zati sifətlərdən hesab edir və Qur᾽anın qədim olmasına inanırdı. Amma ilahi kəlam üçün iki səth və dərəcə olduğunu deyirdi.

١. Kəlami nəfsi;

٢. Kəlami ləfzi.

Əş᾽əri sonra belə izah edir ki, Allahın zatı sifətlərindən və qədim kəlamdan olan dərəcə Allahın nəfsi kəlamıdır. Amma bu kəlam insanların kəlamı kimi hərflərdən, kəlmələrdən, səslərdən ibarət deyildir. Kəlamın həqiqəti elə nəfsi kəlamdan ibarətdir. Lakin ləfzi kəlam nəfsi kəlama dəlalət edir. «Kəlamın» ləfzi kəlama aid edilməsi məcazi mə᾽na daşıyır.

Buna əsasən, nəfsi kəlam qədim olduğu halda kəlmə, səs, hərflərdən uzaqdır.

Ləfzi kəlam, yə᾽ni hərflər, kəlmələr və s. isə hadisdir. Buna görə də Qur᾽anın həqiqəti nəfsi kəlamın qədim olması e᾽tibarı ilə qədimdir. Lakin onun kəlmə və ləfzləri hadisdir, vəhy mələyi ilə Peyğəmbərə (s) nazil edilmişdir.

Qeyd:

Bu üç nəzəriyyənin müqabilində digər bir e᾽tiqad da vardır. Bu e᾽tiqada görə, ümumiyyətlə Allahın kəlamı və sözü insan kəlamı kimi kəlmələrdən, hərflərdən təşkil olunmayıb. Bu nəzəriyyədə deyilir ki, bütün yaradılış dünyası Allahın kəlamıdır və Allah-taala bu yolla Özünün kamal, camal və cəlal xüsusiyyətlərindən xəbər verir. Bu fikri təsdiq etmək üçün Allahın məxluqatı «kəlmə» adlandırdığı bə᾽zi Qur᾽an ayələrinə istinad olunur. O cümlədən, «Ali-imran» surəsinin ٤٥, «Nisa» surəsinin ٧١, «Kəhf» surəsinin ١٠٩, «Loğman» surəsinin ٢٧-ci ayələrini misal göstərmək olar.

٥. **Bacarıqdan və qüdrətdən artıq işlərə əmr etmək;**

Əş᾽ərilər bəşəri fe᾽llərin əsil failinin insan deyil, Allah olduğunu hesab etdiklərinə görə, inanırlar ki, Allah insanı onun qüdrət və bacarığından artıq olan işlərə mükəlləf edə bilər. Çünki əgər fe᾽llərin faili Allahdırsa, həqiqətdə Allah-taala Öz qüdrətinə istinad edərək insanı mükəlləf edir.

Buna əsasən, əş᾽ərilərin nəzərində insanı bacarığından artıq işlərə əmr etmək qəbahət deyildir.

Halbuki, mö᾽təzilə və insanın ixtiyarına e᾽tiqad bəsləyən sair məzhəblər bu nəzəriyyəni qəbul etmir və inanırlar ki, qüdrət və bacarıqdan artıq işlərə əmr etmək qəbahətdir və Allah da qəbahətli iş görməz.

Bundan əlavə, əş᾽ərilər bə᾽zi Qur᾽an ayələrinə də istinad edirlər:

«Allah-taala heç kəsi qüvvəsi çatmayan işi görməyə vadar etməz.»[1]

٦. **Əqli gözəllik və çirkinliyin inkar edilməsi; (İnsan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olması)**

Əş`arilər əhli-hədisə tabe olaraq, əqlin əşyaların gözəllik (hüsn) və ya çirkinliklərini (qübh) dərk etməyə qadir olmasını inkar edirlər. Onların əqidəsinə görə, **insan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olmasını deyənlər,** həqiqətdə Allahın iradəsini məhdudlaşdırmış olurlar. Çünki bu halda Allah-taala öz iradəsi ilə deyil, insan ağlının hökmünə əsasən əməl etməlidir. Əş`arilər inanırlar ki, yaxşılıqla pislik əşyaların zati xüsusiyyəti deyildir və Allah hər nəyi yaxşı sayıbsa, yaxşı və hər şeyi pis bilibsə, pisdir.

Əbul Həsən Əş`əri «Əl-lümə`» kitabında belə deyir: «Əgər bir şəxs «Allahın axirətdə uşaqları əzaba düçar etməsi layiqdirmi?» - deyə soruşsa, cavabında deyilər: «Bəli, əgər O, bu işi etsə də adildir və həmçinin Onun üçün mö`minə əzab verməsi və kafiri behiştə aparması qəbahət deyildir. Amma O, bu işləri etmir, çünki Özü buyurmuşdur ki, kafirləri cəzalandıracaq. Əgər bundan başqa bir iş görərsə (və`dəsi) yalan olar və yalan da Allah barəsində caiz deyildir.

**İnsan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olması** məsələsi kəlami kitablarda müfəssəl şəkildə araşdırılmışdır. Burada yalnız çaşqınlıq yaradan bir suala və **insan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olmasına** dair bir dəlilə işarə edirik:

Əş`arilərə verilən və çaşqınlıq yaradan sual bundan ibarətdir ki, onlar «Allahın yalan deməsi caiz deyildir» - dedikdə, nəyi nəzərdə tuturlar və bu mühakimədə sənədləri nədir? Əgər Allahın buyurduğu «İnnəllahə la yuxliful miad» kəlamına istinad edirlərsə, cavabında deyiləcəkdir ki, həmin xəbərin yalan deyil, doğru olması haradan mə`lumdur? Əgər **insan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olmasını qəbul etməsələr,** onda heç Allah kəlamının həqiqət və doğruluğu da onlar üçün höccət sayıla bilməz.

**İnsan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olmasına inananlar** öz müddəalarına bu ardıcıllıqla dəlil gətirirlər ki, əgər əşyaların hüsn və qübhü əql ilə dərk olunmasa, şəriətlə də sübuta yetməz. Çünki, əgər əql əşyaların hüsn və qübhünü dərk etməkdə acizdirsə, şəriətin hər hansı bir işi əmr və ya nəhy etdiyi haradan mə`lum olar, yaxud həqiqətin gözəl, yalanın qəbahət olması necə ayırd edilər?

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İnsanın fe`lləri barəsində mö`təzilə və əhli hədisin nəzəri necədir?

٢. Kəsb nəzəriyyəsini izah edin.

[1] Bəqərə-٢٨٦.

٣. Nəfsi kəlam və ləfzi kəlam ifadələrindən məqsəd nədir?
٤. Əş᾽ərilərin nəzərinə görə, Qur᾽an hadisdir, yoxsa qədim?
٥. Əş᾽ərilərin insanın bacarığından artıq işlərə əmr edilməsi barədə dəlilini izah edin.
٦. Nə üçün əş᾽ərilər i**nsan ağlının yaxşı ilə pisi ayırd etməyə qadir olmasına** inanmırlar?

**ON ALTINCI DƏRS**

## *MATURİDİYYƏ MƏZHƏBİ (١)*

## *YARANMA TARİXİ*

*١. Maturidi məzhəbinin banisi kimdir?*
*٢. Maturidi məzhəbi necə meydana gəlmişdir?*
*٣. Bu məzhəbin əqidəvi əsasları nədən ibarətdir?*

## *MATURİDİ FİRQƏSİNİN BANİSİ*

Maturidi məzhəbinin banisi Əbu Mənsur Məhəmməd ibni Məhəmməd ibni Mahmud Maturidi olmuşdur.

O, ehtimal üzrə ٢٣٨-ci Hicri ilində Səmərqənd şəhəri yaxınlığında yerləşən Maturidi kəndində doğulmuş və ٣٣٣-cü Hicri ilində vəfat etmişdir. Tarixdə qeyd olunur ki, o, Peyğəmbərin böyük səhabəsi və Mədinəyə hicrət etdiyi zaman o həzrəti evinə qonaq aparan Əbu Əyyub Ənsarinin nəvələrindən imiş. Əbu Mənsur Maturidi kəlam və fiqh baxımından Əbu Hənifənin ardıcılı sayılırdı. Ustadlar silsiləsində üç vasitə ilə Əbu Hənifəyə çatmaqdan əlavə, onun elmi sə᾽ylərinin hamısı təqribən Əbu Hənifənin kəlami əsaslarının təhlil və bəyanına sərf olunmuşdur. Halbuki, Maturidinin əsaslı təhlili və kəlami üslubu Əbu Hənifənin üslubundan tamamilə fərqlənən müstəqil bir məktəb idi və onun öz adı ilə məşhurlaşmışdı.

Maturidi Əş᾽ərinin müasiri idi və onun kimi, mö᾽təzilənin əqlə meylləri ilə əhli-hədisin zahiri əsas götürmək təfəkkürü arasında mö᾽tədil bir mövqe seçmək qərarına gəlmişdi. Amma Maturidi və Əş᾽əri təfəkkürlərinin müqayisəsindən belə nəticə alınır ki, Maturidi əndişəsi mö᾽təzilə ilə, Əş᾽ərinin seçdiyi yol isə əhli-hədislə daha uyğun gəlir.

Maturidi ٢٦١–٣٨٩-cu hicri illərində bütün İran ölkəsinə hakim olan Samaniyan hökumətinin dövründə yaşamışdır. Samaniyan hökuməti elm və maarifin qorunub yayılmasında çox fəaliyyət göstərirdi. Buna görə də onların hakimiyyətdə olduğu illər Maturidi kimilərin inkişaf edib çiçəklənməsinə münasib bir şərait yaradırdı. Belə bir şəraitdə Maturidi o dövrdə dörd böyük

məşhur ustadın – Əbu Bəkr Əhməd ibni İshaq Cuzcani, Əbu Nəsir Əhməd ibni Abbas ibni Fəqih Səmərqəndi, Nəsir ibni Yəhya Bəlxi və Məhəmməd ibni Müqatil Razinin hüzurunda öz təhsilini təkmilləşdirdi. Əbu Bəkr Cuzcani, Əbu Nəsir Fəqih və Məhəmməd ibni Müqatil, Əbu Süleyman Cuzcaninin şagirdlərindən idi və o da Əbu Hənifənin məşhur və isteʾdadlı tələbəsi olan Əbu Yusifdən dərs almışdı. Buna əsasən Əbu Mənsur Maturidi öz ustadları vasitəsilə kəlam və fiqh nəzəriyyələrini Əbu Hənifədən əxz etmişdir. Onun özü də məşhur «Məaxizuş-şəriə» və «Əl-cədəlu fi üsulil fiqh» kitablarında Əbu Hənifənin fiqhi nəzərlərini təhlil və bəyan etmişdir.

## *MATURİDİNİN ELMİ ƏSƏRLƏRİ*

Əbu Mənsur Maturidi təfsir, kəlam, üsuli-fiqh, əxlaq sahələrində çoxlu kitab yazmışdır ki, onlardan bəʾzilərinin adlarını aşağıda qeyd edirik:

١. «Təʾvilatul-Qurʾan», yaxud «Təʾvilatu Əhlis-sünnə»; Bu kitab Qurʾanın Hənəfiyyə, fiqhi və eʾtiqadi əsasında təfsiridir.

٢. «Tövhid»; Bu kitab Maturidi məzhəbinin ən mühüm eʾtiqadi mənbələrindən sayılır. Əbu Mənsur öz eʾtiqadi nəzərlərini bu kitabda şərh etmişdir.

٣.«Əl-üsul»;

٤. «Məaxizuş-şəriə»;

٥. «Əl-cədəlu fi üsulil-fiqh»;

٦. «Məqalat»;

٧. «Bəyanu vəhmil-möʾtəzilə»;

٨. «Rəddul ədilləti lil-Kəʾbi»;

٩. «Rəddu təhzibil cədəli lil-Kəʾbi»;

١٠. «Rəddu vəʾidil-fussaq lil-Kəʾbi»;

١١. «Rəddul üsulil xəmsəti li-Əbi Məhəmməd Bahili»;

١٢. «Rəddu kitabil-imaməti»;

١٣. «Rəddun ələl Qəramitə»;

١٤. «Pəndnamə dər əxlaq və moizə».

## *MATURİDİNİN ŞAGİRDLƏRİ*

Hənəfi məzhəbinin məşhur alimlərindən bir qrupu Əbu Mənsur Maturididən bəhrələnmişlər. Onlar aşağıdakılardır:

١. Əbul Qasim İshaq ibni Məhəmməd ibni İsmail; [H.Q.٢٤٠] (Həkim Səmərqəndi adı ilə məşhurdur.)

٢. İmam Əbul Leys Buxari;
٣. İmam Əbu Məhəmməd Əbdülkərim ibni Musa Bəzudi; [H.Q.٣٩٠]. O, «Üsuliddin» kitabının müəllifi Məhəmməd ibni Hüseyn Əbdülkərimin babasıdır. Bu kitab Maturidi məzhəbinin əsas kitablarındandır.

## *MATURİDİ MƏZHƏBİNİN TANINMIŞ ŞƏXSİYYƏTLƏRİ*

Əbu Mənsur Maturidinin ölümündən sonra bu məzhəbin yayılıb bəyan edilməsi üçün müxtəlif dövrlərdə məşhur alimlər səˋy göstərmişlər. Onların ən mühümləri aşağıdakılardır:
١. Qazi Əbul Yüsr Məhəmməd ibni Hüseyn Əbdülkərim Bəzudi [H.Q.٤٢١–٤٧٨]. O, «Üsuliddin» kitabının müəllifidir.
٢. Əbu Muin Nəsəfi [H.Q.٥٠٢]. O, «Təbsirətül ədillə» kitabının müəllifidir. Bu kitab Əbu Mənsurun «Tövhid» kitabından sonra Maturidilərin kəlami mənbələrinin ən mühümü sayılır.
٣. Şeyx Nəcmuddin Əbu Həfs Ömər ibni Məhəmməd [H.Q.٥٣٧]. O, «Əqaidi Nəsəfi» kitabının müəllifidir. Bu kitab Nəsəfinin «Təbsirətül-ədillə» kitabının xülasəsidir və hazırkı dövrə qədər Maturidi məzhəbinin eˋtiqadlar bəhsində olan ən mühüm dərs kitabı sayılır.
٤. Şeyx Məsˋud ibni Ömər Təftazani; O, tanınmış İslam alimlərindən biridir; ərəb dili və kəlam barəsində çoxlu kitablar yazmışdır. «Şərhi əqaidi Nəsəfi» onun ən məşhur əsəridir.
٥. Şeyx Kəmaluddin Məhəmməd ibni Hümamuddin; (ibni Hümam adı ilə məşhurdur) [H.Q.٨٦١]. O, kəlam elmində «Əl-musayərətu fil-əqaidil-munciyəti fil-axirət» kitabını yazmışdır.
٦. Əllamə Kamaluddin Əhməd Bəyazi Hənəfi. O, ١١-ci hicri əsrinin alimlərindən olub, Maturidinin mühüm mənbələrindən sayılan «İşaratul-məram min ibadatil-imam» kitabını yazmışdır.

## *MATURİDİNİN ƏQİDƏVİ ƏSASLARI*

Maturidi «Tövhid» kitabında əvvəlcə əqidə və imanda təqlid etməyin düzgün olmadığına toxunur, daha sonra öz əqidə üsullarını haqq bilib sələflərə tabe olduğunu, digərlərinin əqidələrinin isə batil olduğunu deyən firqələri tənqid atəşinə tutur. O, inanırdı ki, hər hansı bir firqə ardıcıllarının çox olması həmin firqənin haqq olmasına dəlil ola bilməz; əqidə üsulları əqli bürhanlar əsasında araşdırılıb təsdiq olunmalıdır, əks təqdirdə, onun heç bir elmi dəyəri olmayacaqdır. O, həmçinin dini anlayışları əldə etməkdə əqli kafi bilən şəxsləri

tənqid edir, mə῾rifətin əldə olunmasının mümkünlüyünü aşkar şəkildə bəyan etməklə yanaşı, mə῾rifət vasitələrini hiss, xəbər və əqldə görürdü.

**١. Hiss;**

İnsanın mə῾rifət əldə etməsi üçün ilk vasitə hissdir. Maturidi, hissi mə῾rifət vasitələri içərisində ən ümumi və ibtidai vasitə hesab edərək deyir ki, hətta heyvanlar da öz hiss və duyğu orqanları ilə onlar üçün faydalı və ya zərərli olan şeyləri dərk edə bilirlər. Maturidi «hissi mə῾rifəti» açıq-aşkar bir şey hesab edir və inanır ki, onu inkar edənlər üçün dəlil gətirməyə ehtiyac yoxdur. Sonra belə təklif irəli sürür ki, belə şəxslərə qarşı əməli tədbirlər görmək, zərbə vurmaqla öz fikirlərindən əl çəkməyə vadar etmək lazımdır. Çünki, vurulan zərbələrdən yaranan ağrıya dözmək qeyri-mümkündür.[١]

**٢. Xəbər;**

Maturidi xəbərləri mə῾rifət üçün digər bir vasitə hesab edərək deyir: Xəbərlər nəsəb elmi, keçmiş hadisələr, uzaq diyarlarda olan şəhərlər və məntəqələr, faydalı və zərərli şeylər, qida maddələri, dərmanlar və sair şeylər barəsində mə῾rifət kəsb etmək üçün bir vasitədir. Xəbər iki növdür:

١. Tarixi, ya mütəvatir xəbərlər;

٢. Öz risalətlərinin doğru olmasına dair aydın nişanələr göstərən Peyğəmbərlərin xəbərləri.

Maturidi sonra deyir: Bu iki növ xəbərin hər biri mə῾rifət üçün bir vasitədir. Amma peyğəmbərlərdən gəlib çatan xəbərlərə çox diqqət yetirmək lazımdır. Çünki bu xəbərlərin bizə gəlib çatmasında vasitə olan ravilər mə῾sum deyildirlər və onların xətaya yol vermələri mümkündür.

Maturidi xəbərin höccət olmasını inkar edənlər barəsində də əməli tədbirlər görülməsini təklif edib deyirdi ki, bu kimi şəxsləri fiziki cəhətdən əzaba mə῾ruz qoymaq və döymək lazımdır. Onlar ağrıdan şikayət etdikləri zaman onlara deyilməlidir: «Sizin şikayətiniz də bir növ xəbərdir və sizin iqrarınız vasitəsilə bu xəbərdən yəqin doğuran elm hasil olmur».

**٣. Əql.**

Maturidinin nəzərinə görə, əql mə῾rifətin ən mühüm mənbəyidir. Çünki hiss və xəbər əqlin köməyi olmadan həqiqi elmə yol tapa bilməz. Təbiətin fövqündə dayanan şeylərin həqiqəti və əxlaqi prinsiplər barədə elm və agahlıq əldə etmək yalnız əql vasitəsilə mümkün ola bilər. İnsanla heyvan arasındakı ən böyük fərq məhz Allahın insana bəxş etdiyi əql qüvvəsidir. Əql qüvvəsi həqiqətin kəşf olunmasında ən mühüm vasitə olduğundan, Qur῾ani-kərim insanı daim təfəkkürə və ağıl qüvvəsini işlətməyə də῾vət edir.

[١] O, bu təklifi insanda hiss üzvlərinin mövcud olması və onunla bir çox şeylərin hiss edilməsinin mümkünlüyünü sübut etmək üçün irəli sürürdü.

Maturidinin nəzərində əql mə᾽rifət kəsb etməkdə ən mühüm mövqe və məqama malikdir. Bununla belə, o inanırdı ki, əql bütün işlər, o cümlədən insanın ehtiyac duyduğu məsələlər barəsində kamil bir anlayış əldə edə bilməz, əql də hiss orqanları kimi müəyyən məhdudiyyətlərə malikdir. O cümlədən, əql həm xarici, həm də daxili amillərin, məsələn meyl, məqsəd, adət və mühitin tə᾽sirinə qapılır və nəhayət fərqli nəticələr alınır. Alimlər arsında bir-birinə zidd və fərqli olan əqidə və rə᾽ylərin mövcudluğu da bu müddəamızın şahididir.

Buna əsasən Maturidi bildirir ki, əql düzgün nəticəyə çatmaqda və həqiqətin kəşf olunmasında mötəbər bir yol göstərənə ehtiyaclıdır və bu yol göstərən də məhz vəhydir. O, həmçinin inanırdı ki, peyğəmbərlərin hidayətinə olan ehtiyacı və vəhyin təlqin olunma vasitəsini inkar edən şəxslər, eləcə də əqli, dini mə᾽rifət və anlayışlar əldə etməkdə kafi sananlar, həqiqətdə əql qüvvəsinin üzərinə çox çətin bir vəzifə qoyur və sonda bu işin düzgün nəticə verməyəcəyi qaçılmazdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əbu Mənsur Maturidinin tərcümeyi-halını qısa şəkildə bəyan edin.
٢. Maturidinin mühüm kitablarından bə᾽zilərini sadalayın.
٣. Maturidi necə bir məzhəb yaratmaq fikrində idi?
٤. Maturidinin mə᾽rifət vasitələri barədə olan nəzərlərini qısa şəkildə izah edin.

## ON YEDDİNCİ DƏRS

## *MATURİDİYYƏ MƏZHƏBİ (٢)*

*١. Maturidinin ən mühüm əqidəvi əsasları hansılardır?*
*٢. İlahi sifətlər barəsində Maturidinin nəzəri necədir?*
*٣. Maturidinin cəbr və ixtiyar barəsində nəzəri nədən ibarətdir?*

Keçən dərsdə Maturidinin kəlami üslubları ilə tanış olduq. Aydın oldu ki, Maturidi, Əş`əri kimi əhli-hədislə mö`təzilə firqələri arasında orta bir mövqe seçmək fikrində idi. Aşkar şəkildə nəzərə çarpır ki, Maturidi əhli-hədisin və Əş`ərənin əqidəvi nəzərlərinin bə`ziləri ilə müvafiq idi. Əks halda, burada orta mövqe seçməyə heç bir əsas olmazdı. Amma bununla belə, onun bu iki məzhəblə bir neçə əsaslı məsələdə ixtilafı var idi. Bunlar aşağıdakılardır:

١. Allah barəsində ümumi anlayış və mə`rifət;
٢. İlahi sifətlər;
٣. Cəbr və ixtiyar;
٤. Əşyaların hüsn və qübhü; (İnsan ağlının yaxşı və pisi ayırd etməyə qadir olub-olmaması)
٥. İnsanların bacarıqlarından artıq işlərə əmr olunması;
٦. Böyük günahlara mürtəkib olanların hökmü.

Bu dərsdə Maturidinin bu beş mövzu ilə əlaqədar nəzərini araşdıracağıq. Qeyd etmək lazımdır ki, Maturidinin Əhli-hədis və Əşəri məzhəbi ilə olan ixtilaf və fərqləri təkcə yuxarıdakı altı məsələdə bitmir. Onların arasında digər ixtilaflı məsələlər də vardır ki, onların araşdırılması bu kitabın həcminə və səviyyəsinə uyğun deyildir. Bu haqda əlavə mə`lumat əldə etmək istəyənlər müfəssəl kəlam və fəlsəfə kitablarına müraciət edə bilərlər.

**١. Allah barəsində ümumi anlayış və mə`rifət;**

Allahı tanımaq və Onun barəsində mə`rifət kəsb etməyin zəruri və lazım olması barədə heç bir ixtilaf yoxdur və bütün firqələr bunun vacib olduğunu təsdiq etmişlər. İxtilaf yalnız mə`rifətin vacib olmasının necə isbat olunmasındadır. Əş`ərilər Allah barəsində mə`rifət kəsb etməyin, yalnız nəqli yolla vacib olmasına inanırlar. Onun üçün qeyd etdikləri dəlillərdən biri aşağıdakı ayədir:

**«De ki: Bir gör göylərdə və yerdə nələr var. Lakin iman gətirməyən bir tayfaya ayələr və peyğəmbərlər heç bir fayda verməz.»**[١]

Allah-taala bu ayədə nəzər salmağı (mə᾽rifət kəsb etməyi) əmr etmişdir.

Əş᾽ərilərin qarşısında maturidiçilər inanırlar ki, Allah barəsində mə᾽rifət kəsb etməyin vacib olması əqli yolla isbat olunur. İnsan azacıq da olsa, təfəkkür etməklə Allahın vücudu bərəsində mə᾽rifət kəsb etməyin vacib olması, tövhid, ilahi iradə, qüdrət və elm, aləmin hadis olması, mö᾽cüzənin peyğəmbərlərin doğruçuluğuna dəlalət etməsi, Allaha küfr və Onu təkzib etməyin haram olması kimi məsələlərə vaqif olacaqdır. Bu nəzərdə maturidiçilər mö᾽təziləçilərlə müvafiqdirlər. Çünki mö᾽təziləçilər də Allah barəsində mə᾽rifət kəsb etməyin məhz əqli cəhətdən vacib olmasına inanırlar.

**٢. İlahi sifətlər;**

İlahi sifətlər barəsində Maturidinin nəzəri üç halda (bunlar məzhəblər arasında ixtilaflı sayılan ən mühüm məsələlərdəndir) araşdırılmalıdır.

**Birinci**: Allahın zati sifətləri;

Əbu Muin Nəsəfinin nəql etdiyi kimi, Əbu Mənsur Maturidi Allahın zatı ilə sifətlərinin eyniyyət təşkil etdiyinə inanır və sifətlərin zata artırılmasına əqidəli olan Əş᾽ərilərin və Əhli-hədisin nəzərini rədd edir. O, bu barədə deyir: Allah Öz zatı ilə alimdir, Öz zati ilə diridir, Öz zati ilə qadirdir. Bu bəyan Əhməd ibni Hənbəlin həmin əqidənin izahında gətirdiyi ifadələrin qarşısında gətirilmişdir.

Maturidi daha sonra fe᾽li sifətlərlə zati sifətlər arasındakı fərqi rədd edir və fe᾽li sifətləri də zati sifətlər kimi əzəli hesab edir. Bu nəzərə əsasən, Allah-taala xəlq etməzdən əvvəl də, sonra da Xaliqdir. Bu söz də aləmin əzəli olmasını çatdırmır, çünki elm və qüdrət əzəli sifətlər olduğu kimi, mə᾽lumat və müqəddərat da məxluqdur, təkvin də əzəli sifətdir, lakin mükəvvənat məxluqdur.

**İkinci**: Xəbəri sifətlər;

Maturidi xəbəri sifətlər barəsində Allah ilə insanın sifətləri arasında heç bir təşbihi qəbul etmir və nəzərini **Şura surəsinin ١١-ci ayəsinə istinad etməklə sübut etməyə çalışır. «Allah-taala Öz məxluqatının heç biri ilə müqayisə edilməz və onlara təşbih oluna bilməz»**. Maturidi nəinki əhli-hədisin təşbihə inanan bir dəstəsinin nəzərini, hətta «xüsusiyyətsiz olan isbat» nəzəriyyəsini də[٢] rədd edir. O, mö᾽təzilə məzhəbinin yozumunu da qəbul etməyərək deyir:

«Hər bir yozum ehtimali nəzəriyyə olduğuna görə, onun həqiqətin əksinə olması da mümkündür.» Məhz bu səbəbdən də Maturidi xəbəri sifətlərə iman gətirməklə yanaşı, bu sifətlərin mə᾽nalarını Allahın elminə həvalə etmişdir.

**Üçüncüsü:** İlahi kəlam.

---

[١] Yunus–١٠١.

[٢] Bunu Əş᾽ərilər ixtira edib.

Maturidi inanır ki, Allahın kəlami sifəti sair ilahi sifətlər kimi əzəli və misilsizdir; o, bəşər kəlamına təşbih edilməməlidir. Deməli, Allah kəlamı hərf və səslərdən təşkil olunmamışdır; Allah kəlamı kəlmələrlə ifadə olunan bir sıra mə᾽nalardan ibarətdir. Nəticə e᾽tibarilə, qeyd olunmalıdır ki, məxluqun kəlam hərfləri və kəlmələri Allahın zati və əzəli kəlamının göstəricisidir və Allah kəlamının yalnız məxluq kəlamı vasitəsi ilə eşidilmək və düşünülmək imkanı vardır.

**٣. Cəbr və ixtiyar;**

Maturidi qəza və qədər, eləcə də cəbr və ixtiyar məsələsində həm əhli-hədisin və əş᾽ərilərin, həm də mö᾽təzilənin nəzərini rədd edir. O, inanır ki, Allahla insanlar arasında olan rabitə, Allahla sair cismlər və varlıqlar arasındakı rabitə kimi deyildir. Allah insana əql qüvvəsi, haqqı batildən ayırd etmək qüdrəti, idrak, hiss, iradə, mühakimə yürütmək və qərara almaq kimi qüvvələr vermiş, bəşərin hidayəti üçün peyğəmbərlər və səmavi kitablar göndərmişdir. İnsan öz nəzərinə görə faydalı olan bir şeyə meyl edir, zərərinə olan şeylərdən isə çəkinir. Bu zaman əql və dərk qüvvəsindən istifadə edərək, bir əməlin müxtəlif yollarından birini seçir və onun özü yaxşı və ya pis əməllərinin məs᾽uliyyətini daşıyır. O, bütün bu mərhələlərdə azad və seçməkdə ixtiyar sahibidir; heç vaxt xarici bir amilin onu vadar etməsini hiss etmir. Həmçinin Allah-taala insanı müəyyən işlərdən çəkindirib və ya əmr etmiş, onu öz əməlinin məs᾽ulu, cavabdehi təyin etmişdir.

İnsan öz əməlinə görə müəyyən savab, yaxud əzaba layiq olur. Əgər insanın əməli Allahın məxluqu olsaydı, Allahın Özü savab və ya cəzaya layiq olardı. Allahın, Özü xaliqi olduğu işləri bəndənin adına yazıb, qiyamətdə onu cəzalandırması İlahi ədalətə layiq deyildir.

Buna əsasən, insanın fe᾽lləri onda Allah tərəfindən vücuda gətirilən və insanın özünə mənsub edilən ixtiyar və qüdrət vasitəsi ilə yerinə yetirilir.[١]

Maturidi ilahi qəza və qədərlə insanın ixtiyar və azadlığı arasında heç bir ziddiyyət görmür. Onun əqidəsinə görə, insanın bütün əməlləri ilahi-əzəli elmlə lövhi-məhfuzda yazılmasına baxmayaraq, insan cəbrə məhkum edilməmişdir. Çünki, Allah-taalanın əzəldən bildiyi şeyləri insan öz ixtiyar və iradəsi ilə, azad şəkildə yerinə yetirir. İnsan ilahi qəza və qədəri bəhanə edərək, öz məs᾽uliyyətlərini inkar edə bilməz. İnsan mütləq ixtiyar sahibi olmamasına baxmayaraq, Allah-taala onun vəzifə və təklifi ilə mütənasib olan azadlığı ona əta etmişdir. Buna görə də insanın əməlləri ilə bağlı olan ilahi qəza-qədər təbiət aləmi ilə əlaqədar olan ilahi qəza-qədərlə eyni hesab edilməməlidir.[٢]

---

[١] Əbu Mənsur Maturidinin «Ət-tövhid» və Əbul Yüsr Məhəmməd Bəzudinin «Üsuliddin» kitabları.

[٢] Miyan Məhəmməd Şərif «Tarixi fəlsəfə dər islam», ١٣-cü fəsil.

**٤.Əqli hüsn və qübh;** (İnsan ağlının yaxşı və pisi ayırd etməyə qadir olub-olmaması)

Maturidi ardıcılları əşyaların (əqli) qübh və hüsnünə e᾽tiqad bəsləyirlər. (Yəni, insan ağlının yaxşı və pisi ayırd etməyə qadir olmasına inanırlar.) Hüsnü mədh və savaba, qübhü isə məzəmmət və əzaba layiq olmaq mə᾽nasında bilirlər. Onlar inanırlar ki, əql hüsn və qübhün ayırd edilməsində müstəqildir və Allah-taala Öz ədaləti əsasında yaxşı əməl sahiblərinə mükafat, günahkarlara isə əzab verəcəkdir.

**٥. İnsanı bacarığından artıq işlərə əmr etmək;**

Maturidi ardıcılları insanın qüdrət və bacarığından artıq işlərə vəzifəli edilməsini caiz bilmirlər. Əbu Mənsur Maturidi belə deyir: «İnsanın bacarığından artıq işlərə vəzifəli edilməsi, onların bu işlərə qüdrətinin olmamasına görə, yaxud fe᾽lin əncam verilməsi şərti olmadıqda caiz deyildir.

Əlbəttə, Maturidi müəyyən bir işi əvvəlcədən yerinə yetirməyə qüdrəti olmayan şəxslərlə öz qüdrətini aradan aparan şəxslər arasında fərq qoymuşdur. Birinci qism də bacarıqdan artıq vəzifəli edilməyi qadağan, ikinci halda isə caiz hesab edir.[١]

**٦. Böyük günahlara mürtəkib olanların hökmü.**

Maturidi böyük günahlara mürtəkib olanları mö᾽min hesab edir və inanır ki, imanın zahiri hökmləri onlarda qüvvədədir. Əlbəttə, əgər tövbə etməsələr, qiyamətdə şəfaətə nail olmazlar və onlara əzab veriləcək; amma əbədi olaraq əzabda qalmayacaqlar.

Maturidiçilərin nəzərində iman qəlbi e᾽tiqad və təsdiqdən ibarətdir. Başqa sözlə desək, imanın ən azacıq mərhələsi qəlbi e᾽tiqad və təsdiqlə gerçəkləşir, hökmlərə əməl etmək isə imanın tərkib hissəsi deyildir. Buna əsasən, bir kəs qəlbi e᾽tiqadda iman şərtlərinə malik olsa və ilahi hökmləri inkar etməsə, şeytanın vəsvələri ilə qurşandığı günahlara görə mö᾽minlər cərgəsindən çıxmaz.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Maturidiyyə məzhəbinin ilahi mə᾽rifət barəsində əşərilərlə olan fərqləri nədir?

٢. Nə üçün onlar zati sifətlərlə fe᾽li sifətlər arasında fərq olduğuna inanmırlar?

٣. Maturidiyyə ardıcıllarının Allahın kəlamı barəsindəki nəzərləri necədir?

٤. Onların insanın fe᾽lləri barəsində olan nəzərini izah edin.

٥. Maturidiyyə firqəsinin qəza-qədər və ixtiyar barədə olan baxışları necədir?

٦. Onların insanın bacarığından artıq işlərə əmr edilməsi məsələsi haqda nəzərini bəyan edin.

---

[١] Əbu Mənsur Maturidi, «Ət-tövhid» kitabı.

٧. Nə üçün Maturidiyyə ardıcılları böyük günahlara mürtəkib olanları mö᾽min hesab edirlər?

# ON SƏKKİZİNCİ DƏRS

## *SƏLƏFİLİK*

*١. Sələfilik dedikdə, hansı əqidə nəzərdə tutulur?*
*٢. Sələfiliyin banisi kimdir?*

## *YARANMA TARİXİ*

Sələfilər bir məzhəb kimi tanınmazdan öncə, əqidəvi cərəyan və hərəkat, hətta ictimai və bəʾzən siyasi bir hərəkat hesab edilmişlər. Bu cərəyan tarix boyunca bir neçə dəfə İslam dünyasının müxtəlif məntəqələrində zahir olmuşdur. Sələfi cərəyanı saleh sələflərin, yəʾni İslamın əvvəllərində yaşayan müsəlmanların əməl və rəftarlarını dirçəltmək məramında olmuşlar. Adətən, İslam ümmətində müxtəlif eʾtiqadlı firqə və məzhəblər yarandıqda, İslam xalqları müxtəlif dəstə və qruplara bölündükdə dünyanın ayrı-ayrı guşələrində bəʾzi fərdlər dindəki bidʾətləri aradan qaldırmaq, müxtəlif firqələrin İslama artırdıqları qol-budaqları kəsmək üçün qiyam edərək, Peyğəmbər (s) dinində islahat aparmaq istəmişlər. Sələfilər iddia etmişlər ki, öz nəzəriyyələri ilə Peyğəmbər ümmətini azğınlıqdan düz yola döndərəcəklər. Onlar bu hədəfin gerçəkləşməsi üçün hamılıqla saleh sələflərin getdiyi yola və adət-ənʾənələrə qayıdaraq onlar kimi fikirləşib əməl etmək istəyirdilər. Onlar deyirdilər ki, saleh sələflərimiz olan Peyğəmbər (s) və səhabələrin əsrindən sonra artırılan şeylərdən uzaqlaşmaq lazımdır. Məhz buna görə də bu cərəyana «sələfilik» adı verilmişdir.

Qeyd:

Bu bəhsdə iki mühüm məsələ qeyd edilməlidir:

١. İslam dünyasında bəʾzən «Xalis İslamın Bayraqdarı» iddiası ilə müəyyən cərəyanlar yaranıb, sair firqələri bidʾətçi və kafir adlandırmışlar. Bunlar təkcə İslam ümmətinə məxsus deyildir və adətən bütün dini və ideoloji cərəyanlarda belə islahatçılıq meylləri meydana gəlir. Bəʾzi dinlər, o cümlədən xristianlıqda meydana gələn «ortodoks» kəlməsi «xalis din» məʾnasınadır. Belə ki, ortodoks məsihiləri öz ayinlərini sair məsihi firqələrinin müqabilində xalis bir din hesab

edir və inanırlar ki, bu ayin məhz həzrət İsanın hər növ bid`ət və azğınlıqdan pak olan dinidir.

٢. Hər hansı bir tədqiqatçı müəyyən bir məzhəbin ideoloji əsaslarını araşdırmaq, o məzhəbin əqidə üsullarını təhlil etmək və haqqı batildən ayırmaq məqamına gələrək, öz gümanı əsasında onu islah etmək istəsə, şübhəsiz onun öz şəxsi fikirləri də bu işdə mühüm rol oynayacaqdır. Belə şəxslər adətən öz əqidə və məsləkinin təsirindən çıxa bilmir. Və onların yürütdüyü mühakimələrin tam düzgün olmasına da heç bir zəmanət yoxdur. Nəticədə bu kimi islahat prosesi yeni bir məzhəb yaradır və sair alimlər də onun qarşısında əks mövqe tuturlar.

Bəzən hər hansı bir ümmət arasında vəhdət yaratmaq məqsədi ilə başlanan bu kimi hərəkatın özü, daha artıq və yeni-yeni təfriqələrin yaranmasına səbəb olur.

Ən mühüm sələfi cərəyanı əvvəlcə ٧-ci əsrin axırlarında və ٨-ci əsrin əvvəllərində, sonralar isə ١٢-ci və ١٣-cü əsrlərdə meydana gəlmişdir.

٧-ci hicri əsrinin axırlarında başlanan cərəyan aydın şəkildə «Sələfiyyə» adı ilə məşhurlaşmış, ١٢-ci və ١٣-cü əsrlərdə yaranan cərəyanlar isə başqa adlarla tanınmışdır. Burada yalnız ٧-ci əsrdə baş verən hadisələrə nəzər salacağıq.

## *CƏRƏYANIN BANİSİ*

İbni Teymiyyə sələfiyyə cərəyanının əsas bani və təsisçisi kimi tanınmışdır. Təqiyuddin Əbul Əbbas Əhməd ibni Əbdül Həlim (İbni Teymiyyə adı ilə məşhurdur) ٦١١-ci hicri ilində Dəməşq yaxınlığındakı Hərran şəhərində dünyaya gəlmiş və ٧٢٨-ci ildə dünyadan köçmüşdür.

İbni Teymiyyə ٧ yaşında ikən, monqol-tatar qoşunları Hərran şəhərinə həmlə edib oranı dağıtdı. Buna görə də o, ailəsi ilə birlikdə Dəməşqə köçdü. O, öz təhsilini də Dəməşqdə başa vurmuşdu.

İbni Teymiyyənin cavanlığı monqolların müxtəlif ölkələrə qoşun yeridərək müsəlman şəhərlərini dağıdıb viran qoyması, hər yeri qarət edib qırğınlar törətməsi dövrünə təsadüf edir. Nəql olunmuşdur ki, İbni Teymiyyənin özü monqolların əleyhinə mübarizə aparmaq üçün ordu təşkil edilməsində və onlarla döyüşdə mühüm rol oynamışdır. O dövrün ictimai-siyasi şəraiti İbni Teymiyyənin ruhiyyəsində özünəməxsus tə`sir qoymuşdur. Belə ki, İslam cəmiyyətində hökm sürən qarışıqlıq və hərc-mərcliklərin səbəbini, yadellilərin müsəlmanların müqəddəratına hakim olmalarını onların arasındakı məzhəbi təfriqənin nəticəsi hesab etmişdi. Buna görə də o, qərara almışdı ki, (öz nəzərinə görə) Peyğəmbər (s) və səhabələrin dövründən sonra İslam dünyasında yaranan hər növ yenilik və inkişafla mübarizə aparsın.

Bu məqsədlə o, irfan, sufilik, fəlsəfə və kəlamla çox ciddi mübarizəyə başlamış, sufilər, filosoflar, kəlam alimləri və müxtəlif firqələr tərəfindən işıqlandırılan bütün bəhsləri bid`ət adı ilə rədd etmişdi. İbni Teymiyyə bu bəhslərin hamısını

Peyğəmbər (s) dinində xurafat və azğınlıq adlandırmış, Qur᾽ana və Peyğəmbər (s) sünnəsinə qayıtmağı vacib hesab etmişdir.

Onun bütün İslam məzhəbləri ilə ciddi mübarizə aparması əksər müsəlmanların, alimlərin və din rəhbərlərinin kəskin qarşıdurmasına səbəb oldu; onunla müasir olan alimlərin əksəriyyəti bu cərəyanın qarşısında ciddi mövqe tutdular. Çünki, İslam alimlərinin əksəriyyətini bid᾽ətçi, onların qəbul edib tabe olduqları əqidələri isə bid᾽ət adlandırmaq çox sadə qəbul ediləsi və göz yumulası bir iş deyildi… Xüsusilə İbni Teymiyyə İslamın əvvəllərində mövcud olan rəftar və adətlərinin çoxunu, başqa sözlə, onun da diqqət mərkəzində olan saleh sələflərin əməllərini, o cümlədən, Peyğəmbərin (s) qəbrinin ziyarət etmək, O həzrətə təvəssül etmək və s. bid᾽ət adlandırıldı (bu məsələ gələcək dərsdə araşdırılacaqdır). Nəticədə isə İslam alimlərini, müxtəlif firqə və məzhəb başçılarını bid᾽ətçi adlandırıb kafir hesab etdiyinə görə bir neçə dəfə müxtəlif məntəqələrdə həbsə məhkum olundu. Bu cərəyanda ona yalnız bir qrup adam qoşuldu. Onun ən məşhur şagirdi İbni Qəyyim Cövziyyə də onların arasında idi.

Bə᾽zi kitablarda qeyd olunduğu kimi, onun dəfn mərasimində iki yüz min nəfərin iştirak etməsinin şişirdilmiş rəqəm olmasını, o dövrdə islam ölklərindəki əhalinin sayına nəzər yetirməklə başa düşmək olur. O dövrün alimlərinin demək olar ki, hamısı onun barəsində mənfi nəzərə malik idilər ki, onlardan üçünün adını burada qeyd edirik:

**١. Şeyx Səfiyəddin Hindi Urməvi (H.Q.٧١٥).** O, Əş᾽əri məktəbinin kəlam alimlərindən biri və öz dövründə Əş᾽əri məzhəbinin tanınmış şəxsiyyəti idi. O, İbni Teymiyyənin əqidələri barədə apardığı uzun-uzadı mübahisələrdən sonra (bu mübahisələrdə e᾽tirazlara və şübhələrə cavab verirdi) axırda belə demişdi: «Mən səni bir sərçəyə bənzədirəm ki, tutmaq istəyəndə, bir budaqdan başqa bir budağa qaçar». (Yəni, mübahisə mövzusunu tez-tez dəyişir və bir məsələ üzərində axıra qədər dayanıb onu tamamlamaqdan imtina edir.)[١]

**٢. Hafiz Şəmsəddin Məhəmməd ibni Əhməd Zəhəbi (H.Q.٧٤٨)** O, İbni Teymiyyəyə xitab edərək nəsihətamiz məktubda deyirdi: «...Xoş olsun o kəslərin halına ki, onun öz eybləri onun başqalarında eyb axtarmaqdan saxlayar. Vay o kəsin halına ki, camaatın eyblərini axtarmaq onu öz eybini görməkdən məhrum edər. Nə vaxta qədər öz gözündə tiri görməyib özgələrin gözündə qıl axtaracaqsan?! Nə vaxta qədər özünü, öz nəzərlərini və ifadələrini tə᾽rifləyib alimləri məzəmmət edəcəksən; camaatın eyblərini araşdıracaqsan?! Halbuki Rəsuli-Əkrəm bu işi qadağan edərək buyurmuşdur: «Öz ölülərinizi yaxşılıqdan başqa şeylə yad etməyin.» Məgər sənin ardıcıllarının əksəriyyəti ağıldan kəm, avam, yalançı və kütbeyin deyillərmi? Yəqin ki, sənin ölüm vaxtın yaxınlaşıb... Mən güman etmərəm ki, sən hər hansı bir sözü və nəsihəti qəbul edəsən. Əksinə,

---

[١] Əbu Bəkr Dəməşqi «Təbəqatuş-şafeiyyə».

bu bir vərəqin cavabında bir neçə cild kitab yazmaq fikrinə düşəcəksən. Sənə ürək yandıran mənim kimi bir dost sənin haqqında belə fikirləşirsə, onda gör düşmənlərin sənin barəndə nə düşünür! Allaha and olsun, dostlarının arasında fasiq, yalançı, ikiüzlü və cahil adamlar olduğu kimi, düşmənlərinin arasında da saleh, ağıllı və fəzilətli şəxsiyyətlər vardır. Əlbəttə, məni aşkar şəkildə nifrin etməyindən, xəlvətdə isə məktubumdan faydalanmağından razıyam...»[١]

**٣. Hafiz Əli ibni Əbdül Kafi Səpki; (H.Q.٧٥٦)**

O, İbni Teymiyyənin Peyğəmbəri-Əkrəmin (s) ziyarətinə səfər etməyin bid`ət olması ilə əlaqədar yazdığı nəzəriyyəni rədd etmək üçün «Şifaus-siqam fi ziyarəti xeyril-ənam əleyhissəlatu vəssəlam» adlı kitab yazmışdır. «Təbəqatuş-şafeiyyə» kitabı bu əsəri yad etməklə, İbni Teymiyyəni bu işdə səhv edən və şeytani vəsvəsələrə düçar olan bir şəxs kimi tanıtdırır. Çünki o, Peyğəmbərin (s) ziyarətinə səfər etməyi inkar etmişdir....[٢]

Adları qeyd olunanlardan başqa sair alimlər də İbni Teymiyyənin barəsində mənfi fikirdə olmuşlar. O cümlədən: Şeyx Şəhabuddin Hələbi (H.Q.٧٣٣), Qazil-Quzat Zəməlkani (H.Q.٧٣٣), Şeyx Sədruddin Mərhəl (H.Q.٧٥٠), Şeyxulislam ibni Həcər Əsqəlani (H.Q.٨٥٢), Əbu Məhəmməd Yafe`i (H.Q.٧٦٨), İbni Həcər Heysi (H.Q.٩٧٣), Molla Əli Tari Hənəfi (H.Q.١٠٥٠).

* * * * *

Qeyd olunduğu kimi, İbni Teymiyyənin yaratdığı sələfiyyə cərəyanı onunla müasir olan İslami şəxsiyyətlərin, eləcə də ondan sonrakı dövrlərdə yaşamış alimlərin müxalifətçiliklərinə görə İslam dünyasında nəzərə çarpacaq müvəffəqiyyətlər əldə edə bilmədi. Amma, ١٢-١٣-cü hicri əsrlərində İbni Teymiyyənin əqidə üsulları İslam aləmində sair siyasi əqidəvi hərəkatların, o cümlədən vəhhabiyyət və sənəviyyətin əsasına çevrildi. Gələn dərslərdə, vəhhabi firqəsini araşdırarkən İbni Teymiyyənin ən ümdə fikri və əqidəvi nəzərləri işıqlandırılacaq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Nə üçün Sələfiyyə cərəyanı belə adlandırılıb?

٢. Dindəki islahatçılıq hərəkatları vəhdət və müvəffəqiyyət icad etmək məqsədi daşımışdırmı?

٣. İbni Teymiyyənin tərcümeyi-halını qısa şəkildə bəyan edin.

٤. İbni Teymiyyə öz dövrünün alimləri ilə necə qarşılaşdı?

---

[١] Şeyx Məhəmməd Kovsəri, «Təkmilətus-seyfis-səqil».

[٢] Əbu Bəkr Dəməşqi «Təbəqatuş-şafeiyyə».

٥. İbni Teymiyyənin müasiri olan alimlərdən birinin onun barəsindəki nəzərlərini söyləyin.

## ON DOQQUZUNCU DƏRS

### *VƏHHABİYYƏT (١)*

### *YARANMA TARİXİ*

*١. Vəhhabi firqəsi hansı firqəyə deyilir?*
*٢. Vəhhabi firqəsinin banisi kimdir?*
*٣. Bu firqə hansı əsas üzərində qurulmuşdur?*

### *FİRQƏNİN BANİSİ*

Vəhhabiyyət firqəsinin banisi Məhəmməd ibni Əbdül Vəhhabdır. Bu firqənin adı onun atasının adından, yə`ni «Əbdül Vəhhab» kəlməsindən götürülmüşdür. Məhəmməd ibni Əbdül Vəhhab hicri tarixi ilə ١١١١-ci ildə Ərəbistanın Nəcd vilayətinin Üyeynə şəhərində dünyaya gəlmiş və ١٢٠٦-ci ildə, ٩٦ yaşında dünyadan getmişdir.

Atası Şeyx Əbdül Vəhhab öz dövrünün Hənbəli alimlərindən biri idi və Üyeynə şəhərində qazi işləyirdi. O, camaatın çox hörmət bəslədiyi adamlardan biri idi. Məhəmməd atasının yanında Hənbəli fiqhini öyrənmiş, Məkkə-Mədinə alimlərindən sair islami elmləri, o cümlədən hədis, əqaid, təfsir elmlərini təhsil almağa başlamışdı. O, Müsəyləmə, Səccah, Əsvəd Ənəsi, Tüleyhə Əsədi və s. kimi peyğəmbərçilik iddiasında olan şəxslərin tarixini oxumağa daha çox maraq göstərirdi. Cavanlığından camaatın dini əməlləri, əqidə və fikirlərinə qarşı şəkk-şübhə ilə baxır, onların qarşısında çox mənfi bir mövqe tuturdu. İş o yerə çatmışdı ki, o, camaatın əməllərindən çoxunu şirklə qarışıq hesab edirdi.[١]

Şeyx Məhəmmədin camaatın əməl və əqidələri ilə belə rəftar etməsi, hətta onunla atası arasında mübahisə və çəkişməyə səbəb olmuşdu. Atası onu öz yanından qovmuş və camaatı ondan çəkindirmişdi. Buna görə şeyx Məhəmməd atasının sağlığında öz əqidə və fikirlərini istədiyi kimi aşkar edə bilməmişdi. Amma ١١٥٣-cü ildə atası vəfat etdikdən sonra öz fikir və əqidələrini aşkar etməyə, camaatın dini əməllərinin bir qismini inkar etməyə başladı. O dövrdə

---

١ Əhməd Zeyni Dehlan «Xülasətul kəlam» kitabı».

onun məskunlaşdığı Hərimələ əhalisinin bir qrupu ona itaət etdi və o, tədricən məşhurlaşmağa başladı. Sonra öz vətəni Üyeynəyə qayıtdı. Üyeynənin o dövrdəki valisi Osman ibni Həmd onu çox hörmətlə qarşıladı və onu himayə edəcəyinə söz verdi. Amma o, ١١٦٠-cı ildə Ehsa şəhərinin əmiri onun barəsində Osmana yazdığı tənqidi məktubdan sonra Üyeynədən qovuldu və Dər`iyyəyə yola düşdü. Dər`iyyənin o dövrdəki əmiri Məhəmməd ibni Səud[١] onu çox səmimiyyətlə qarşıladı və onunla Nəcdin hakimiyyətini ələ alacaqları barədə əhd-peyman bağladılar. Sonra Nəcdin bütün qəbilə rəislərinə və camaatına məktub yazaraq, onları öz məzhəbini qəbul etməyə çağırdı və qəbul etməyəcəkləri surətdə onlarla müharibə edəcəyini bildirdi. Bir qrup onun məzhəbini qəbul etdi, digər bir qrup isə ona e`tinasız yanaşdı. Dər`iyyə camaatının köməyi ilə Nəcd və Ehsa camaatı ilə apardığı müharibələrdən sonra Nəcd əyaləti bütövlükdə Səud ailəsinin ixtiyarına keçdi. Bundan sonra vəhhabilər Ali-Səud əmirlərinin rəhbərliyi ilə (Məhəmməd ibni Səuddan sonra oğlu Əbdül Əziz və ondan sonra Səud ibni Əbdül Əziz hakimiyyətə çatmışdı) Hicazın sair məntəqələrini və şəhərlərini, o cümlədən Taif, Məkkə, Mədinə və Cəddəni öz ixtiyarlarına keçirmək fikrinə düşdülər. Uzun sürən qanlı müharibələrdən sonra nəhayət ١٣٤٣-cü ildə Məkkə və ١٣٤٤-cü ildə Cəddə işğal edilməklə, bütün Hicaz məntəqəsi Ali Səudun ixtiyarına keçdi və Vəhhabiyyət bu ölkənin rəsmi məzhəbi kimi tanındı.[٢]

Vəhhabilər həmin dövrdə və sonralar sair ölkələrə, o cümlədən Bəsrəyə, Nəcəfə, Kərbəlaya, Suriyaya ardıcıl həmlələr etdilər.

## *İDEOLOJİ ƏSASLAR*

Əvvəlki dərsdə qeyd olunduğu kimi, vəhhabilərin ən mühüm ideoloji əsaslarını İbni Teymiyyənin düşüncələri təşkil edir. Məhəmməd ibni Əbdül Vəhhab və onun şagirdi İbni Qəyyim Coziyyə onun əqidə və fikirlərinin şiddətli tə`siri altına düşmüşdü.

İbni Teymiyyənin Əhli-hədisin və Hənbəlilərin əndişəsindən qaynaqlanan, kəskin şəkildə zahirə meyl edən nəzəriyyələri bir tərəfdən Allaha mə`rifət və İlahi sifətlər barəsində büruz edərək, Allahın cismi olduğunu güman edən müşəbbihə və həşəviyyə əndişəsinə yaxınlaşdı, digər tərəfdən də müsəlmanların rəftar və əməllərinin çoxunu şirk adlandırıb rədd etdi. O cümlədən, ilahi övliyalara təvəssül etmək, onlardan şəfaət diləmək, Allah övliyalarının və Peyğəmbəri (s) ziyarət etmək, mə`sumların qəbirləri üzərində hərəm və hər hansı bir bina tikmək və sairəni qeyd etmək olar. Həmin nəzəriyyə daha qabarıq şəkildə Məhəmməd

---

[١] Ərəbistanın hazırkı krallarının mənsub olduğu Səud sülaləsinin babası.

[٢] Böyük Şafei alimi və Məhəmməd ibni Vəhhabın müasiri olan Əhməd Zeyni Dehlan. O, Məkkəni almaq üçün vəhhabilərin Şərif Ğalib ilə apardıqları müharibələrin sayının ٥٠-dən artıq olduğunu qeyd edir.

ibni Əbdül Vəhhabın və onun ardıcıllarının təfəkkürünün əsasını təşkil edirdi. O, müsəlmanları şirk və küfrdə ittiham etməkdə o qədər həddini aşdı ki, hətta bütün İslami ölkələri və hələ vəhhabilərin əlinə düşməyən Məkkə və Mədinəni belə Darul-hərb və Darul-küfr (müharibə evi, küfr evi) adlandırdı. O, müsəlmanlarla müharibə edib müqəddəs məkanları işğal etməyi cihad adı ilə vacib edirdi. Səud ibni Əbdül Əziz də Məkkəyə həmlə edərkən Şərif Əbdül Müin Məkkə camaatı üçün ondan aman istədikdən sonra, Məkkə camaatına xitabən belə yazdı: «Bismihi-taala. Səud ibni Əbdül Əzizdən bütün Məkkə əhalisinə, alimlərə, böyük şəxsiyyətlərə, sultanın qazisinə. Əssəlamu əla mənittəbəl huda. Əmma bəʾd. Siz Allah evinin qonşuları və Onun hərəminin sakinlərisiniz. Allahın əmniyyəti ilə amanda olun. Mən sizi Allahın və Onun Peyğəmbərinin dininə dəʾvət edirəm».

Belə isə siz Allahın fərmanı müqabilində və müsəlmanların rəisi Səud ibni Əbdül Əzizin fərmanındasınız. Sizin hakiminiz Əbdül Müin ibni Müsaiddir. Onun əmrlərini eşidin, nə qədər ki, Allahın fərmanına itaət edirsiniz, onun fərmanında olun. Vəssəlam.»

Mülahizə etdiyiniz kimi, əvvəlcə «Əssəlamu ələykum» sözü əvəzinə, «Əssəlamu əla mənʾittəbəl huda» qeyd olunur və bu da onu göstərir ki, o, müraciət etdiyi şəxsləri müsəlman hesab etmir. Çünki, Peyğməbər (s) bu cür salamı kafirlərə xitabən işlədərdi. Halbuki, müsəlmanlar barəsində İslami qayda-qanunlara uyğun olaraq, «Əssəlamu ələykum və rəhmətullah» deyilir. Daha sonra kitab əhlinə xitab olunan bir ayəyə istinad edir.

## *MƏHƏMMƏD İBNİ ƏBDÜL VƏHHABIN MÜXALİFLƏRİ*

Şeyx Məhəmmədin əqidə və məfkurələrinin yayıldığı və vəhhabi firqəsinin təʾsis olunduğu vaxtdan indiyə qədər, İslam alimləri arasında onun əndişələrinin əleyhinə geniş müxalifət dalğaları yaranmışdır.

Şafei firqəsinin böyük müftisi Əhməd Zeyni Dehlanın (Məhəmməd ibni Əbdül Vəhhabın müasiri idi) yazdığı kimi, Məhəmməd ibni Əbdül Vəhhabın müxalifləri ilk növbədə onun atası, qardaşı Süleyman, eləcə də öz ustadı idi.

O, yazır: «Şeyx Məhəmmədin atası və qardaşı (Süleyman) hər ikisi öz dövrünün böyük alimlərindən və Şeyx Məhəmmədin ustadlarından idi. Onun bir sıra ifratçı əqidələri ilə tanış olduqdan sonra camaatın onunla əlaqə saxlamasına mane oldular.

O, daha sonra yazır: «Məhəmməd ibni Əbdül Vəhhabın qardaşı Şeyx Süleyman Mədinədə onunla birlikdə təhsil almış və daha sonra onunla birlikdə Nəcdə qayıtmışdı. Amma bir az sonra qardaşının ifratçı nəzəriyyələrinin qorxusundan Mədinəyə qayıtdı, orada «Əssəvaiqul-ilahiyyət fi rəddil-vəhhabiyyət» kitabını yazaraq, Nəcddə öz qardaşına göndərdi. Bu kitabda o, qardaşına xitabən belə yazmışdı: «Bu məsələlər (müsəlmanların Şeyx Məhəmmədin tərəfindən şirk və

küfr adlandırılan əməlləri) Əhməd ibni Hənbəldən qabaq və İslam rəhbərlərinin dövründə də mövcud idi. Bə`ziləri onları inkar edirdilər, lakin islam rəhbərlərinin heç birindən bu əməllərə mürtəkib olanları kafir və mürtəd hesab edərək, onlara qarşı cihad hökmü verilməsi, yaxud müsəlman ölkələrinin sənin dediyin kimi, «Darul-küfr», «Darul-şirk» ölkəsi adlandırılması eşidilməmiş və ya rəvayət olunmamışdır.

Həmçinin dörd məzhəb imamlarının dövründən keçən ٨٠٠ il müddət ərzində İslam alimlərinin heç birindən bu kimi məsələlərin küfr hesab edilməsi eşidilməmişdir. Allaha and olsun, sənin sözündən belə çıxır ki, Əhməd ibni Hənbəlin zamanından sonra Peyğəmbər (s) ümmətinin hamısı, istər alimlər, istər əmirlər, istərsə də ümumxalq kütləsi kafir və mürtəddirlər.

İnna lillah və inna iləyhi raciun...! Sənin dediyin «Məndən qabaq heç kəs İslam dinini tanımamışdır» sözünə vay olsun!»[١]

Şeyx Məhəmmədin müasirləri olan və onun əleyhinə kitab və risalə yazan digər alimlərin adını aşağıda qeyd edirik:

***Şeyx Məhəmməd ibni Süleyman Kürdi;** O, Mədinədə Şeyx Məhəmmədin ustadı idi və Şeyx Süleymanın kitabına əlavələr edərək, Şeyx Məhəmmədin əqidələrini rədd edən bir məqalə yazmışdı.

***Əbdüllah ibni Əbdüllətif Şafei;** O, da Şeyx Məhmmədin ustadlarından idi və «Təcridu seyfil-cihad li muddil-ictihad» adlı kitabını onun əqidələrini rədd etmək üçün yazmışdır.

***Əfifuddin Əbdüllah ibni Davud Hənbəli;** O, «Əssəvaiqu vərrəud» adlı kitabını bu barədə yazmış və Bəsrə, Hələb, Bağdad, Ehsa şəhərlərin və sair yerlərin alimləri ona əlavələr etmişlər.

***Şeyx Əbdüllah ibni İbrahim Taifi;** O, «Təhrizul-əğbiya ələl-istiğasəti bil-ənbiyai vəl-övliya» adlı kitabını yazmışdır.

***Şeyx Tahir Hənəfi;** O, «Əl-intisaru lil-övliyail-əbrar» kitabının müəllifidir.

***Şeyx Əta Məkki;** O, «Əs-sarimul hindi fi ünüqin-nəcdi» kitabının müəllifidir.

***Şeyx Əta Əl-Kəsim və Dəməşqi.** O, «Əl-əqvalul mərziyyətu fir-rəddi ələl-vəhhabiyyəti» kitabının müəllifidir.

Qeyd etmək lazımdır ki, Məkkə alimlərindən olan Əbu Hamid ibni Mərzuq «Ət-təvəssulu ilən-nəbiyyi və cəhalətul-vəhabbiyyin» kitabında Məhəmməd ibni Vəhhaba xitab edərək, onun əqidələri ilə müxalifətçilik edən müasir alimlərdən ٤٠ nəfərin adını qeyd etmişdir. Yuxarıda qeyd olunanlar ٤٠ kitabdan yalnız bir neçəsi idi. Gələn dərslərdə vəhhabilərin əqidə əsasları və onların əməlləri ilə tanış olacağıq.

---

[١] «Əssəvaiqul ilahiyyə» kitabı.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabiyyət firqəsinin banisinin tərcümeyi-halını xülasə şəkildə yazın.

٢. Vəhhabilər Hicaza necə hakim oldular?

٣. Vəhhabi təfəkkürünün əsası nədir?

٤. Vəhhabilər müsəlmanların hansı əməllərini şirk hesab edirlər?

٥. Məhəmməd ibni Əbdül Vəhhabın əqidələri ilə müxalifət edən ən mühüm şəxsiyyətlərin adını qeyd edin.

# İYİRMİNCİ DƏRS

## VƏHHABİLİK (٢)

## ƏQİDƏLƏR (١)

*١. Vəhhabiliyin əsas e᾽tiqadi üsulları hansılardır?*
*٢. Şəfaət barəsində vəhhabilərin nəzəri nədir?*

Əslində İbni Teymiyyənin əqidəsi olan vəhhabi əndişəsi əsasən tövhidlə şirkin arasında müəyyən bir sərhəd tə᾽yin etməklə əlaqədardır. İbni Teymiyyə və onun ardıcıllarının fikrincə, müsəlmanların arasında çoxlu şirk növləri, xüsusilə ibadətdə olan şirk nüfuz etmiş və onları tövhiddən uzaq salmışdır. Buna görə də İslami cəmiyyətlərdə yayılmış müxtəlif şirk nümunələrini üzə çıxarıb onu başqalarına da tanıtdırmaq lazımdır. Əməl məqamında da bu kimi təzahürlərlə ciddi mübarizə aparılmalıdır.

Tövhid və şirk məsələsi İslamda ən mühüm e᾽tiqadi məsələlərdən birdir. Çünki İslam tövhid dini olduğu üçün şirki qadağan edir. Bütün İslami məzhəblər bu nəzərdə yekdil fikrə malik olub, özlərini müvəhhid (təkallahlı) hesab edirlər. Amma ayrı-ayrı vaxtlarda müsəlmanlar arsında bə᾽zi şəxslər tapılmışdır ki, bə᾽zi firqələrin əqidə və rəftarlarını şirklə qarışmış hesab etmişlər. İbni Teymiyyə, İbni Əbdül Vəhhab və onların ardıcılları bu barədə ifratçı nəzəriyyələr irəli sürərək öz müasirlərinin hamısını şirkdə ittiham etmişlər. Onlar öz fikirlərini isbat etmək üçün müsəlmanların əməl və rəftarlarından bir çoxunu öz müddəalarına şahid gətirərək, şirk nümunələrini rədd etməyə çalışmışlar.

İbni Teymiyyə deyir: «Peyğəmbərlərin risalətində çatdırılmalı olan tövhid prinsipi, ilahilik prinsipini yalnız Allaha məxsus edir; yə᾽ni bəndə şəhadət verir ki, Allahdan başqa heç bir mə᾽bud yoxdur. Nəticədə Allahdan başqa heç kəsə pərəstiş və heç nəyə təvəkkül etməməli, Onun xatirinə olmadıqda heç bir şəxsi sevməməli, Onun xatirinə olmayan heç bir kəslə düşmənçilik etməməli və heç bir iş Onun razılığı olmadan yerinə yetirilməməlidir.

Bu deyilənlərin hamısı Qur᾽anda Allahın Özü üçün isbat etdiyi tövhidi əhatə edir.

Buna əsasən, sadəcə olaraq Allahın vahid olmasına e᾽tiqad bəsləmək, yaxud vahid Allahın dünyanın xaliqi olduğuna inanmaq, həmçinin Allahın sifətlərini

e`tiraf etmək və Onu eyblərdən pak bilmək, tövhid sayılmayacaq. Yalnız o vaxt tövhid sayıla bilər ki, Allahdan başqa heç bir mə`budun olmamasına, yalnız Allahın pərəstişə layiq olmasına şəhadət versin».

İbni Teymiyyə və onun ardıcılları inanırdılar ki, Allahdan başqasından kömək istəyib, onun qarşısında kiçilmək, Peyğəmbər (s) və övliyalardan şəfaət diləmək, imamların və peyğəmbərlərin qəbirlərini ziyarət etmək, onların məqbərələri qarşısında qurbanlıq kəsib, nəzir etmək və namaz qılmaq, onlara təvəssül etmək, övliyaların qəbirləri üzərində hər hansı bir bina inşa etmək və s... tövhidlə ziddir və şirkin aşkar nümunələrindən sayılır.

İndi isə İbni Teymiyyənin və ümumi şəkildə vəhhabi məzhəbinin müsəlmanların tövhidlə zidd olan, şirk və küfr sayılan əməl və əqidələri barədə irəli sürdükləri nəzərləri araşdırırıq.

## ١. *ŞƏFAƏT*

Vəhhabilərin nəzərində şirkin bariz nümunələrindən biri hesab olunan ən mühüm məsələ peyğəmbərlər və övliyalardan şəfaət diləməkdir. Onların əqidəsinə görə, Allah övliyaları və peyğəmbərlərinin dünyada şəfaət etməsinin heç bir tə`siri yoxdur, bu yalnız axirətdə, özü də yalnız Allahın izni ilə mümkündür. Buna əsasən bəndələrin özləri ilə Allah arasında müəyyən şəxsləri vasitəçi qərar verib onlar üçün şəfaət etməsini istəməsi şirkdir və Allahdan başqasına ibadət hesab olunur. Buna görə də bəndələr yalnız Allaha dua edərək belə deməlidirlər: Pərvərdigara! Bizim peyğəmbərimiz Məhəmmədi (s) və ya Özünün sair saleh bəndələrini, yaxud mələkləri qiyamət günündə bizim şəfaətçimiz qərar ver.

Lakin bizim «Ey Allahın Rəsulu! (yaxud) Ey Allahın vəlisi, səndən istəyirəm ki, mənim barəmdə şəfaət edəsən» - yaxud buna oxşar cümlələr deməyə haqqımız yoxdur. Çünki, Allahdan başqa heç kəsin şəfaət etmək qüdrəti yoxdur. Deməli, əgər hal-hazırda bərzəx aləmində olan Peyğəmbərdən belə bir şey istənilsə, şirk hesab olunacaqdır».[١]

Vəhhabilər bu əqidələri əsaslandırmaq və doğrultmaq üçün aşağıdakı Qur`an ayələrinə istinad edirlər:

Allah-taala buyurur:

**«Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin.»**[٢]

Buna görə də Allah dərgahından başqa heç bir yerdə səcdə və ibadət olmaz.

Əgər duada hər hansı bir şəxsi Allahla şərik etsək, şirkə mübtəla olarıq.

Başqa bir ayədə şəfaət yalnız Allahın izn və icazəsi ilə

---

[١] Məhəmməd ibni Əbdül Vəhhab, «Əl-hədiyyətu səniyyə».

[٢] **Cinn–١٨.**

mümkün hesab edilmişdir.

**«Kim Allah yanında Onun icazəsi olmadan şəfaət edə bilər?!»**[١]

Digər bir yerdə Allah-taala buyurur:

**«Onlar yalnız Allahın razı olduğu şəxslər üçün şəfaət edərlər, başqası üçün yox».**[٢]

Buna əsasən razılığı Allahın Özündən tələb etmək lazımdır.

Başqa bir ayədə isə belə oxuyuruq:

**«Qiyamət günündə Allah tərəfindən peymanı alınan şəxslərdən başqa heç kəs şəfaətə nail olmaz».**[٣]

Deməli, şəfaət Allahın izni ilədir, özü də Qiyamət günündə olacaqdır.

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

**Birinci məsələ:**

İlahi övliyaların və peyğəmbərlərin şəfaəti Allah dərgahında dua və yalvarışdan başqa bir şey deyildir. İlahi övliyalar Allah dərgahında malik olduqları yüksək məqam sayəsində günahkar insanların barəsində dua etdikləri zaman, Allah tərəfindən daha tez qəbul olunur və həmin günahkar şəxs ilahi məğfirət və rəhmətə nail olur. Buna əsasən şəfaət, dua və istiğfar mə᾽nasında olsa, nəinki ilahi övliyalardan, hətta hər bir mö᾽min şəxsdən dua etməsini xahiş etməkdə kim şübhə edə bilər? Adi bir müsəlman Peyğəmbəri-Əkrəmdən (s), yaxud sair ilahi övliyalardan şəfaət istəyirsə, həqiqətdə hacət tələb etmir, əksinə onun barəsində istiğfar və dua etməsini xahiş edir.

Başqa sözlə desək, ondan istəyir ki, Allah dərgahında olan məqamına diqqət yetirməklə, Allahın əvəzində onun hacətini yerinə yetirib günahlarını bağışlanmasını deyil, Allahdan onun üçün istiğfar edib onun hacətini istəməsini diləyir. Bu o haldadır ki, Allah-taala Qur᾽ani-kərimdə Peyğəmbərdən (s) istəyir ki, özü və mö᾽minlər üçün Allahdan məğfirət və bağışlanmaq istəsin.

**«(Ya Məhəmməd!) Bil ki, Allahdan başqa heç bir tanrı oxdur. (Ondan) həm öz günahlarının, həm də mö`min kişilərin və qadınların günahlarının bağışlanmasını dilə...»**[٤]

Allah-taala başqa bir ayədə və᾽də verir və buyurur ki, əgər Peyğəmbər günahkarlar üçün məğfirət və bağışlanmaq istəyərsə, Allahın tövbə qəbul edən və rəhimli olduğunu görərlər.

---

[١] Bəqərə–٢٥٥.

[٢] **Ənbiya–٢٨.**

[٣] Məryəm–٨٧.

[٤] Məhəmməd–١٩.

«Əgər özlərinə zülm edən kəslər sənin yanına gələrək bağışlanmaq istəsələr və Peyğəmbər (s) də onlar üçün bağışlanmaq istəsə, Allahın tövbələri qəbul edən və mehriban olduğunu görərlər.»[1]

Əgər şəfaət istəyən şəxs şəfaət edəndən yalnız Allahın öhdəsində olan bir işi istəyərsə, bu düzgün ola bilməz. Çünki şəfaət istəyən, şəfaət edən şəxsdən onun hacətinin rəva olunmasını deyil, yalnız onun barəsində dua etməsini istəyir.

**İkinci məsələ:**

«Duada Allahla yanaşı bir kəsi çağırmayın» - deyilməsinin səbəbi budur ki, Allah-taala Özü bu işi qadağan etmişdir Bu söz də rədd olunur, çünki şəfaət, şəfaət edənlə şəfaət olunanın dua və istəyində yanaşı olmasıdır. Çünki «şəfi`» cüt mə`nasınadır. Yə`ni, insan öz hacətinin rəva olunmasında özünü müqabil tərəfə yanaşdırır ki, onunla müştərək şəkildə Allahdan hacətini istəsin. Buna əsasən, şəfaət Allah-taaladan istənilən bir dua və hacətdir. «Şəfi`» Allahdan dua edərək istəyir, nəinki dua edən duada bir kəsi Allahla şərik edir. Deməli, əgər ayəyə diqqət edilsə aydın olacaqdır ki, bəndə dua edən zaman Allahdan başqasını Ona şərik etsə, bu iş qadağan edilmişdir. Məsələn, əgər bir kəs «Ya Rəsuləllah! Səndən və Allahdan istəyirəm ki, mənim günahımı bağışlayasınız» - desə, bu halda Peyğəmbəri də öz duasında Allahla şərik etmişdir. Halbuki, şəfaət diləyən şəxs sadəcə olaraq Peyğəmbərdən (yaxud başqa bir ilahi övliyadan) onun barəsində dua etməsini və Allahdan onun üçün bağışlanmaq istəməsini diləyir.

**Üçüncü məsələ:**

Əgər Allah-taala şəfaət icazəsini və bu işə ləyaqəti Peyğəmbərə və sair ilahi övliyalara vermişsə, onlardan şəfaət istənilməsinin caiz olmaması (qadağan olması) necə mümkün ola bilər?! Halbuki, Allah-taala Qur`ani-kərimdə Peyğəmbərə buyurur:

**«Onların barəsində dua et, çünki sənin duan onların qəlblərinə aramlıq bəxş edir».**[2]

Başqa bir ayədə buyurulur:

**«Bir kəs başqasının barəsində yaxşı şəfaət edərsə, şəfaətdən onun da bir nəsibi, payı olacaqdır».**[3]

Əgər bir mö`minin başqa bir mö`min barəsində yaxşı şəfaəti caizdirsə, mö`mindən şəfaət və dua istəməsi də caiz olacaqdır. Əgər şəfaət istəmək qadağan bir iş və ya şirk olsaydı, şəfaətə icazə verilməsi də əbəs bir iş olacaqdı.

**Dördüncü məsələ:**

Vəhhabilər inanırlar ki, Allah bütpərəstləri ona görə müşrik və kafir kimi təqdim etmişdir ki, onlar bütləri Allah yanında şəfaətçi bilərək deyirdilər:

---

[1] Nisa–٦٤.
[2] Tövbə–١٠٣.
[3] Nisa–٨٥.

**«Biz bu bütlərə ona görə pərəstiş edirik ki, bizi Allah dərgahına yaxınlaşdırsınlar».**[١]

Buna görə də Allahdan başqasını vasitəçi və şəfi՚ qərar verməK şirk və küfr hesab edilmişdir. Amma bunun cavabında deyilməlidir ki, Peyğəmbərin şəfi qərar verilməsi bütlərin şəfaətçi qərar verilməsi ilə tamamilə fərqlənir. Çünki bütpərəstlər bütləri Allaha yaxınlaşmaq üçün bir vasitəsi qərar verərək onlara pərəstiş edirdilər. Belə ki, Qur՚an aşkar şəkildə bu məsələni çatdırır. Halbuki, şəfaət istəyən şəxs şəfaət edənə pərəstiş etmir.

**Beşinci məsələ:**

Müsəlmanlardan heç biri (hətta vəhhabilərin özü belə) Peyğəmbərin və ilahi övliyaların şəfaət etmə haqqına malik olduqlarını inkar etmirlər. İndi biz soruşuruq ki, günahların bağışlanması üçün şəfaətçi olan şəxs Allahla şərikdir, yoxsa günahların bağışlanmasında şəfaət olunan şəxslə şərikdir?

Aydındır ki, birincini qəbul etmək olmaz. Çünki o, şirkdən başqa bir şey deyildir. İkinci qism də sair müsəlmanların e՚tiqad bəslədiyi bir məsələdir. Bundan əlavə, dünya ilə axirət arsında fərq qoymaq və yalnız axirətdə şəfaətə inanaraq dünyada onu inkar etmək düzgün ola bilməz. Çünki, əgər dünyada şəfaət istəmək və şəfaətin özü şirkdirsə, axirətdə də şirk olacaqdır.

**Altıncı məsələ:**

Vəhhabilər deyirlər: Peyğəmbər (s) dünyadan gedib bərzəx aləmində olduğuna görə, ondan şəfaət istəməyin heç bir tə՚siri ola bilməz. Bu iddianın cavabı bundan ibarətdir ki, o həzrətdən, yaxud hal-hazırda dünyadan getmiş ilahi övliyalardan şəfaət istəmək həqiqətdə onların cismlərindən yox, onların yüksək məqamda olan ruhlarından şəfaət istəməkdir; bir çox Qur՚an ayələrindən aydın olur ki, insanın həyatı öldükdən sonra da davam edir. O cümlədən «Ali-İmran» surəsinin ١٦٩–١٧٠-ci, «Bəqərə» surəsinin ١٥٤-cü, «Mu՚minun» surəsinin ٤٦-cı ayələri buna misaldır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər tövhidi necə tə՚rif edirlər?

٢. Vəhhabilərin şəfaət barəsindəki nəzəri necədir?

٣. Vəhhabilərin şəfaət istəməyin müşriklik olması barəsində olan dəlilləri nədir?

٤. Şəfaətin tə՚rifini deyin.

٥. Şəfaətin tə՚rifinə diqqət yetirməklə, vəhhabilərin dəlillərini araşdırın.

---

[١] **Zümər–٣.**

٦. Bütpərəstlər tərəfindən bütlərin vasitə qərar verilməsi ilə müsəlmanlar tərəfindən Peyğəmbər və ilahi övliyaların şəfaətçi qərar verilməsi arasında nə kimi fərq vardır?

٧. Qur'an ayələrinə əsasən, ilahi övliyalardan diri olduqda və ya ölümlərindən sonra şəfaət istəməyin fərqi vardırmı?

# İYİRMİ BİRİNCİ DƏRS

## *VƏHHABİLİK (٣)*

## *ƏQİDƏLƏR(٢)*

*١. İlahi övliyalara təvəssül etmək tövhid əqidəsi ilə uyğun gəlirmi?*
*٢. Təvəssül barəsində vəhhabilərin nəzəri necədir?*

## ٢. *TƏVƏSSÜL*

Vəhhabilər şəfaət məsələsi ilə yanaşı Peyğəmbər və övliyalara təvəssül etməyə də irad tutaraq iddia edirlər ki, bu əməl bid᾽ət və şirkdir. Vəhhabilər bu əqidələrini aşağıdakı kimi əsaslandırırlar:

**Əvvəla:** Əgər təvəssül məsələsi qanuni və düzgün olsaydı, Allah-taala onu bəyan edər və camaatı bu işə rəğbətləndirərdi. Caiz olduğu halda Allahın belə bir mühüm işi bəyan etməməsi yolverilməzdir; deməli, belə bir iş şər᾽i nöqteyi-nəzərdən caiz deyildir.

**İkincisi:** Allah-taala Qur᾽ani-kərimdə[١] müşriklərin əməllərinə irad tutub buyurur ki, onlar heç bir ziyan və faydaya malik olmayan bütlərə təvəssül etmişlər; belə dualar onları heç bir yerə çatdırmaz. Çünki onlar Allaha doğru gedən yolu itirmişlər.

**Üçüncüsü:** Əgər vasitə qərar vermək zərərin dəf edilməsi və ya mənfəət əldə edilməsi üçün olarsa, məsələn Peyğəmbəri (s) və ya övliyanı ruzi qazanmaqda vasitə qərar versələr, bu özü ən böyük şirkdir.[٢] Yuxarıda qeyd olunan mətləblərdən belə bir nəticə alınır ki, Allah-taala peyğəmbərlərə və övliyalara təvəssül etməklə əlaqədar heç bir söz buyurmadığından, vəhhabilər bu əməli bid᾽ət hesab edirlər. Çünki müşriklər başqalarını və bütləri Allaha pərəstiş etməkdə və ilahi fe᾽llərdə vasitə qərar verdikləri üçün şirk sayılmışdı. Bu barədə vəhhabilərin digər bir nəzəri də budur ki, təvəssül olunan ilahi övliyaların və peyğəmbərlərin hamısı dünyadan getdiklərinə görə, onların heç biri tə᾽sir

---

[١] «İsra» surəsi, ٥٦–٥٧-ci ayələr.
[٢] Məhəmməd Nəsib Rifa᾽i, «Ət-təvəssülü ila həqiqətit-təvəssül».

mənşəyi ola bilməz. Onlar bu barədə «Fatir» surəsinin ١٤-cü ayəsinə istinad edirlər. Belə ki, Allah-taala buyurur:

«Allahın yerinə çağırdığınız şəxslər heç bir şeyə malik deyillər. Əgər onları çağırsanız sizin duanızı eşitməzlər, əgər eşitsələr də sizin istəklərinizi həyata keçirə bilməzlər. Onlar qiyamət günündə sizin şirkinizdən bizarlıq edəcəklər. Alim Allah qədər heç kəs səni həqiqətdən agah etməz.»[١]

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Vəhhabilərin nəzəriyyəsini araşdırarkən üç əsas mehvərdə bəhs aparmaq olar:

**Birincisi**: Görəsən şəriətdə (kitab və sünnədə) təvəssül məsələsi mövcuddurmu?

**İkincisi**: Peyğəmbərə (s) və övliyalara təvəssül etmək müşriklərin əməli ilə eynidirmi?

**Üçüncüsü:** Övliya və peyğəmbərlər vəfatlarından sonra tə᾿sir mənşəyi ola bilməzlərmi?

Bu üç mehvər ətrafında bəhsə başlamazdan əvvəl təvəssülün mahiyyət və tə᾿rifi ilə tanış olmalıyıq.

## *TƏVƏSSÜLÜN TƏ᾿RİFİ*

«Təvəssül» müəyyən bir hədəfə çatmaq üçün bir şeyi vasitə seçmək mə᾿nasınadır. Məsələn, ərəb dilində «Təvəssələ iləllahi bi əməlin» (yə᾿ni, «bir nəfər müəyyən bir iş vasitəsi ilə Allah dərgahına yaxınlaşdı») deyilər. Buna əsasən əgər insan hər hansı bir məqsəd və hədəfə çatmaq üçün bir şeyi və ya şəxsi vasitə qərar versə, «hədəf və məqsədə çatmaq üçün o şəxsə, yaxud o şeyə təvəssül etdi» deyilər.

Buradan aydın olur ki, həm insan, həm də sair canlı varlıqlar öz hədəflərinə çatmaq üçün daim müəyyən şəxslərə və yaxud əşyalara təvəssül edirlər.

İnsan gündəlik həyatında aclığını dəf etmək üçün qidaya, susuzluğunu dəf etmək üçün suya, xəstəliyini dəf etmək üçün həkimə, dərmana və ya müalicəyə ehtiyaclı olur; bunların vasitəsi ilə öz məqsədinə nail olmağa çalışır. Bu kimi minlərlə nümunə göstərmək olar ki, insanın və sair canlıların həyatını onlarsız təsəvvür etmək mümkün deyildir. Deməli, həyatda hər hansı bir səbəbin vasitə qərar verilməsini şirk hesab etmək olmaz. Amma, əgər səbəb və vasitələrin müstəqil təsir qüvvəsinə malik olduğuna inansaq, təbiidir ki, şirkə düçar olmuş olacağıq. Amma Allah-taalanın bu kimi vasitələrə tə᾿sir bəxş etdiyinə və onların insanın ehtiyaclarını tə᾿min etmək üçün sadəcə bir şey olduğuna inansaq, onda bunun şirk olmasını necə iddia etmək olar?! Allah-taala təkvin aləmində bizim

---

[١] İbni Teymiyyə, «Minhacus-sünnə».

üçün müəyyən vasitələr müəyyən etmiş və insanı fitri və təkvini olaraq, öz hədəf və məqsədlərinə çatmaq üçün vasitə seçmək məcburiyyətində qoymuşdur. Peyğəmbərlərə və övliyalara təvəssül etmək bəhsində də yalnız Allah-taalanın bu böyük şəxsiyyətləri, yaxud onların müqəddəs ruhlarını vasitə qərar verib-verməmədiyini araşdırmaq lazımdır. Çünki, həyatda insanın vasitələrdən faydalanmaq məsələsinin qaçılmaz bir iş olduğunu kimsə inkar edə bilməz. Burada mübahisə mbvzusu xüsusi olaraq, müəyyən şəxslərə təvəssül etməyin düzgün olub-olmamasındadır. İndi isə yuxarıda qeyd olunan üç mehvəri araşdırırıq:

**Birinci mehvər:** Allah-taala «Maidə» surəsinin ٣٥-ci ayəsində bəndələri Öz dərgahına yaxınlaşmaq üçün vəsilə (vasitə) seçməyə rəğbətlənidirir və onları bu işə də`vət edərək buyurur:

**«Ey iman gətirənlər! İlahi təqvaya malik olun və Ona çatmaq yolunda vəsilə seçin. Allah yolunda çalışın, bəlkə nicat tapasınız».**

Bununla da təvəssülün, Allah dərgahına qovuşmaq üçün vasitə qərar verməyin düzgün bir iş olmasında heç bir şəkk-şübhə yeri qalmır.

## *İBADƏTLƏR VƏ SALEH ƏMƏLLƏR*

Təqva və pərhizkarlıq Allah dərgahına yaxınlaşmaq vasitələrindən biridir. Amma peyğəmbərlər və ilahi övliyalara təvəssül etmək barədə Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan çoxlu rəvayətlərdə o Həzrət (s) səhabələri sair peyğəmbərlərə və saleh insanlara təvəssül etməyə də də`vət edir. Aşağıdakı iki rəvayət bu mövzunun şahididir:

١. Osman ibni Hüneyf bir neçə vasitə ilə belə rəvayət edir ki, bir nəfər kor kişi Peyğəmbərin (s) yanına gəlib ondan özü üçün dua etməsini və Allahdan ona sağlamlıq bəxş etməsini istədi. Peyğəmbər (s) cavabında buyurdu: «Sənin sağalmağın üçün dua edərəm, amma səbr etsən daha yaxşı olar». Həmin kişi o həzrətdən dua etməsini istədi.

Peyğəmbər (s) ona buyurdu: Dəstəmaz al, dəstəmaz alarkən onun düzgün yerinə yetirilməsinə diqqət yetir; sonra iki rəkət namaz qıl və namazdan sonra belə dua et:

«Pərvərdigara! Mən Səndən istəyirəm və rəhmət elçisi olan Məhəmməd Peyğəmbərin vasitəsi ilə Sənin dərgahına üz tuturam. Ey Məhəmməd, mən sənin vasitənlə Pərvərdigarıma üz tutaraq hacətimə nail olmaq istəyirəm. Pərvərdigara, onun mənim barəmdə olan şəfaətini qəbul et».

Ravi sözünün davamında deyir: «Allaha and olsun, çox çəkmədi ki, bu kişi bizim yanımıza gəldi, artıq onda korluqdan əsər-əlamət qalmamışdı».

Bu hədis hacətlərin rəva olunması üçün Peyğəmbərə (s) təvəssül etməyin düzgün bir iş olmasına dəlalət edir və sənəd baxımından da hədisşünasların əksəriyyəti tərəfindən qəbul olunub.

O cümlədən İbni Macə özünün «Sünən» kitabında[١] onu nəql etmiş və Əbu İshaqdan onun düzgünlüyünə şahid gətirmişdir. Həmçinin Termezi «Əbvabul-əd`iyyə» kitabında Əhməd ibni Hənbəldən,[٢] Hakim «Müstədrək» kitabının ١-ci cildində, Süyuti «Əl-camius-səğir» kitabında bunu rəvayət etmiş və hamısı hədisin düzgün olduğunu təsdiq etmişlər.

٢. Səhabələrdən bə`ziləri, o cümlədən Cabir ibni Əbdüllah, İbni Abbas, Ənəs ibni Malik rəvayət etmişlər ki, Fatimə binti Əsəd vəfat edərkən Peyğəmbər (s) onun dəfn mərasimində hazır olub buyurdu: «Ey ana! Anamdan sonra Allah sənə rəhmət etsin.» Sonra o Həzrət (s) Əbu Əyyubu, Üsaməni, Ömər ibni Xəttabı və bir qulamı çağırdı ki, qəbri hazırlasınlar. Ləhədə çatanda Peyğəmbər (s) öz əlləri ilə onu qazıb torpaqları çölə tökdü və qəbirdə bir az yatıb sonra buyurdu: «Allah O kəsdir ki, dirildir, öldürür; O, diridir və heç vaxt ölməz. (Pərvərdigara) peyğəmbərinin və məndən qabaq olan peyğəmbərlərin xatirinə, Anam Fatimə Əsəd qızını bağışla, onun yerini genişləndir.»

Bu rəvayəti Təbərani, Hakim, İbni Həyyan, İbni Əbi Şeybə və sairləri nəql edərək, onun səhih olduğunu təsdiq etmişlər. Bu barədə başqa rəvayətlər də qeyd olunur. Xülasə şəkildə demək olar ki, şəriət nöqteyi-nəzərindən Peyğəmbərə (s), salehlərə və peyğəmbərlərə təvəssül etməyin caiz bir iş olmasında heç bir şəkk-şübhə ola bilməz və mötəbər mənbələrdə bunu təsdiq etmək üçün kifayət qədər dəlil və sübut vardır. Ona görə də bunu bid`ət hesab etmək olmaz.

**İkinci mehvər:**

Vəhhabilər peyğəmbərlərə, ilahi övliyalara təvəssül etməyi müşriklərin bə`zi şəxsləri, yaxud bütləri Allaha pərəstiş etməkdə vasitə qərar vermələrinə oxşatmışlar. Bu barədə keçən dərsdə qısa da olsa söhbət olundu. Bütpərəstlərin iradı bundadır ki, onlar Allaha qovuşmaq üçün bütə pərəstiş edir, yaxud da Allahdan başqasını çağırırlar. Halbuki, təvəssüldə vasitəyə pərəstiş olunmur, vasitənin müstəqil təsir qüvvəsinə malik olması nəzərdə tutulmur. Sadəcə olaraq, burada Allah yanında uca məqama malik olan müqəddəs bir şəxs vasitəçi rolunu oynayır.

**Üçüncü mehvər:**

Peyğəmbərlərə və ilahi övliyalara təvəssül etmək həqiqətdə onların yüksək məqamlı ruhlarına təvəssül etməkdir, çünki, vəfat edib maddi dünyanı tərk etməklə ruh aradan getmir. İslamın aşkar və danılmaz e`tiqadına əsasən, insan ölməklə ruhu ölmür, həmişə diridir və buna görə də mələklər ona xitab edir,

---

[١] ١-ci cild, ١٣٨٥-ci hədis.

[٢] «Müsnəd» kitabının ٤-cü cildi.

Nəkir və Münkərin suallarına cavab verir. Bu barədə bir çox Qur᾽an ayələrini qeyd etmək olar. O cümlədən «Qaf» ٢٢, «İsra» ١٤, «Məryəm» ٦٢, «İnfitar» ١٣, «İbrahim» ١٦ və ٢٧, «Ğafir» ٤٦, «Ə᾽raf» ٤٤, «Ənkəbut» ٦٤, «Fəcr» ٢٤, «Bəqərə» ١٥٥, «Ali-İmran» ١٧٠-١٧١, «Fəcr» ٢٧-٣٠, «Mu᾽minun» ٩٩, «Yasin» ٢٦-٢٧ və sair. Buna əsasən övliyalara təvəssül etməkdə onların dünyəvi həyatları ilə ölümləri arasında heç bir fərq yoxdur.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər «İsra» surəsinin ٥٦-٥٧-ci ayələrindən təvəssül etməyin caiz olmadığını necə isbat edirlər?

٢. Vəhhabilərin dünyadan gedən peyğəmbər və ilahi övliyaların tə᾽sir mənşəyi olmaması ilə əlaqədar dəlilləri nədir?

٣. Təvəssülün tə᾽rifini deyin.

٤. Qur᾽anda bu barədə ayələr vardırmı?

٥. Təvəssül barəsində gəlib çatan rəvayətlərin məcmusundan necə nəticə alınır?

٦. Dünyadan köçən ilahi övliyalara təvəssül etmək mümkündürmü?

# İYİRMİ İKİNCİ DƏRS

## *VƏHHABİLİK (٤)*

## *ƏQİDƏLƏR (٣)*

*١. And içmək barəsində vəhhabilərin nəzəri nədir?*

## *٣. AND İÇMƏK*

Vəhhabilərlə sair firqələr arasındakı ixtilaflı məsələlərdən biri də budur ki, onlar yalnız Allahın adına və sifətlərinə and içməyi caiz bilir, Allahdan başqa bir şeyə and içməyi şirk və haram hesab edirlər. İbni Teymiyyə deyir: «Şirk iki cürdür: Böyük şirk, məxluqdan şəfaət istəmək, onlara təvəssül və sair; kiçik şirk, riya, süm`ə, Allahdan başqasına and içmək kimi.» Sən`ani deyir: Qəbri ziyarət edənlər müşriklər kimidir. Onların əməl və rəftarları eynidir və onların adlarına and içirlər. Hətta əgər bir vaxt Haqq sahibi Allahın adına and içsə ondan qəbul etməzlər, amma öz böyüklərindən birinə və yaxud bir vəliyə and içilsə, qəbul edərlər. Bütpərəstlər də belə idilər. Qur`anda belə buyurulur:[١]

«Allah təklikdə yad edilərkən axirətə imanları olmayanların qəlbləri ikrahlı olur. Əgər Allahdan başqası yad edilsə, o zaman şad olub fərəhlənərlər».

Həmçinin hədisdə qeyd olunur: «Hər kəs and içmək istəsə, Allahın adına and içməlidir, əks halda sakit olmalıdır».

Rəsuli-Əkrəm (s) bir kişinin Lata and içdiyini eşitdikdə ona göstəriş verdi ki, tövhid kəlmələrini yenidən desin. Bu da göstərir ki, bütə and içmək küfrdür.»[٢]

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Bu nəzərin araşdırılmasını da üç istiqamətdə aparmaq lazımdır.

**Birincisi:** Allahı başqalarının haqqına and verməyin caiz olub-olmaması;

---

[١] **Zümər–٤٥.**

[٢] Sən`ani «Təthirul-e`tiqad».

**İkincisi:** Allahdan başqasının adına and içmək;

**Üçüncüsü:** Vəhhabilərin istifadə etdikləri hədislərin araşdırılması və dəyərləndirilməsi.

Birinci mehvər:

Vəhhabilər Allahı başqalarının haqqına and verməyi caiz bilmir, onu haram və şirk kimi qələmə verirlər. Onlar bu barədə iki dəlil gətirirlər: Birinci dəlil əvvəlki dərsdə təvəssül bölməsində bəyan olundu. Peyğəmbərdən (s) bu barədə nəql olunan hədislərdən məlum oldu ki, onu bid`ət və haram hesab etmək olmaz.

Vəhhabilər bu işin caiz olmamasına dair gətirdikləri ikinci dəlildə deyirlər: «Allahın məxluqlarından heç birinin üzərində haqqı yoxdur ki, Allahı onların haqqına and verək». Amma ayə və rəvayətlərə müraciət etdikdə görürük ki, Allah-taala Öz bəndələri ilə əlaqədar bə`zi haqları öhdəsinə almış və həm də peyğəmbərlər bəndələrin Allah nəzərində olan hüquqlarını zikr etmişlər. Bu barədə bə`zi ayə və rəvayətləri mülahizə edin:

«Mö`minlərə kömək etmək Bizə olan bir haqqdır».[١]

«Allahın haqq və`dəsidir ki, Tövrat və İncildə gəlmişdir».[٢]

«Beləliklə, mö`minlərin qurtuluşu onların Bizim üzərimizdə olan haqqıdır!»[٣]

«Həqiqətən nadanlıq üzündən çirkin əməllər görən kəslərin tövbəsini qəbul etmək Allahın öhdəsindədir».[٤]

Peyğəmbəri-Əkrəm (s) buyurur:

«Öz iffətini qorumaq və Allahın haram buyurduğu işlərə düşməmək üçün izdivac edən şəxslərə kömək etmək Allahın öhdəsindədir».[٥]

Həmçinin buyurur:

«Üç kəsə kömək etmək Allahın üzərindədir: Allah yolunda cəhad və çalışmaq, məkatib (yə`ni, bir qul öz ağası ilə qərar bağlayır ki, müəyyən məbləğ pul vermək müqabilində öz azadlığını əldə etsin) və öz iffətini qorumaq məqsədilə evlənən şəxs».[٦]

Buna əsasən, Allah və Onun Peyğəmbəri (s) camaat qarşısında müəyyən hüquqları rəsmi olaraq qəbul etmişsə, onda heç bir məxluqun Allah üzərində heç bir haqqı olmadığını necə iddia etmək olar?! Aydındır ki, bu hüquqlar Allah-taala tərəfindən bəndələr üçün lütf və mərhəmət olaraq və`də verilmişdir. Halbuki, təkvini baxımdan heç kəs Allah yanında haqq sahibi deyildir.

**İkinci mehvər:**

---

[١] **Rum–٤٧.**

[٢] **Tövbə–١١.**

[٣] **Yunis–١٠٣.**

[٤] **Nisa–١٧.**

[٥] Süyuti «Əl-camius-səğir», ٢-ci cild.

[٦] «Sünəni ibni Macə», ٢-ci cild.

Vəhhabilər Allahdan başqasına and içməyi haram və şirk hesab edirlər. Amma unutmaq olmaz ki, həm Quranda, həm də Peyğəmbərin (s) sünnəsində Allahdan başqa şeylərə and içməyin çoxlu nümunələri qeyd olunub. Allah-taalanın Özü Qur`anda sair varlıqlara and içmişdir, o cümlədən: «vəl-əsri», «vəttin», «vəz-zəytuni», «vəturisininə vəhazəl bələdil əmin», **«vəşşəmsi və zühaha...»**

Burada deyilə bilər ki, Allahın Özündən başqasına and içməsinin caiz olmasını başqalarına aid etmək olmaz. Başqa sözlə desək, Allah-taala bütün varlıqların Xaliqi olduğu üçün istədiyi şeyə and içməyə haqqı vardır, amma insanlara belə bir icazə verilmir.

Cavabında deməliyik ki, Allahdan bu fe`lin baş verməsi Onun çirkin və qəbahətli olmamasını göstərir. Əgər biz bu işi şirk hesab etsək, onda necə mümkün ola bilər ki, Allah-taala Özü Özünə şərik qoşsun?

Peyğəmbərdən (s) nəql olunan rəvayətlərdə də Allahdan başqasına and içilməsi gözə çarpır. Məsələn, «Vəbikə» (and olsun atanın canına), «Vələəmri» (öz canıma and olsun). Bu kimi ifadələr o həzrətin sözlərində nəzərə çarpır.[١] Belə olan halda (nəuzibillah) demək olarmı ki, Rəsuli-Əkrəm (s) kiçik şirkə düçar olub?

Bundan əlavə, səhabələrin də kəlmələrində Allahdan başqa şeylərə and içməyin çoxlu nümunələri müşahidə olunur. Məlum olduğu kimi, Peyğəmbəri-Əkrəm (s) onları bu işdən çəkindirməmişdir.

**Üçüncü mehvər:**

Vəhhabilər öz nəzəriyyələrini əsaslandırmaq üçün Peyğəmbərdən (s) rəvayət olunan iki hədisə istinad edirlər:

*Birincisi*: Peyğəmbər (s) Ömərin atasının canına and içdiyini eşitdikdə buyurdu: «Allah sizi öz atanıza and içməkdən çəkindirmişdir. Hər kəs and içmək istəsə, Allaha and içsin, əks halda sakit olsun.»

*İkincisi*: Bir kişi Ömərin oğlunun yanına gəlib dedi: «Kə`bəyə and içirəm!» Ömərin oğlu dedi: «Yox, mən Kə`bənin Allahına and içirəm, çünki atam (Ömər) atasına and içdikdə Rəsuli-Əkrəm (s) buyurdu: «Atana and içmə. Çünki, hər kəs Allahdan başqasına and içsə, müşrikdir».

Birinci rəvayətdə iki incə nöqtəyə işarə etməliyik. Birincisi: ataların canına and içməkdən çəkindirilməyin səbəbi budur ki, İslamın əvvəllərindəki müsəlmanların əksəriyyətinin ataları müşrik idilər. Buna görə də onların heç bir hörmət və müqəddəsliyi yox idi ki, and içməyə layiq olsunlar. Halbuki, bir şeyə and içmək onun əzəmət və hörmətini çatdırır.

---

[١] Səhihi Müslüm, ٤-cü cild, səh.٢٢٤; «Əs-sünənil-kubra» ٩-cu cild, səh.٢٤٦; «Tarixi Bağdad», ١٢-ci cild, səh.٣٧٧; «Məcməuz-zəvaid» ٩-cu cild, səh-١٢; «Müsnədi Əhməd ibni Hənbəl», ٥-ci cild, səh.٢٢٥ və sair.

Bu müddəanın şahidi bu hədisdir: «Peyğəmbər (s) bütlərə and içməyin yanında ata-analara and içməyi qadağan etmiş və buyurmuşdu: Ata-analarınıza və bütlərə and içməyin».

Digər məsələ bundan ibarətdir ki, ataya (yaxud Allahdan başqa hər bir şeyə) and içməkdən çəkindirilməsi sadəcə olaraq mübahisəli məsələlərdə mühakimə yürüdüb münaqişəni sona çatdırmaq məqsədi güdür. Çünki bütün İslam alimlərinin fikir birliyinə əsasən, bu kimi hallarda andiçmə Allaha və Onun sifətlərindən başqa bir şeylə gerçəkləşmir.

İkinci rəvayətə də birinci rəvayətlə əlaqədar digər mühüm bir məsələni əlavə etmək lazımdır: Ömərin oğlu öz ictihad və şəxsi nəzərinə əsasən, (Ömərin) atasına xitabən buyurduğu kəlamı ümumi mənada götürərək, Kə᾽bə kimi müqəddəslərə and içməyini də ona daxil etmişdir.

Buna əsasən Peyğəmbərin (s) və bir çox səhabələrin Allahdan başqasına and içdiyini göstərən rəvayətlər, həmçinin Allahın Özündən başqasına and içdiyini çatdıran ayələri belə izah etmək olar ki, müşrikə, yaxud şirkin təzahürü olan şeyə, (məsələn bütə) and içmək, ona e᾽tiqad bəsləmək və onu təsdiq etmək mə᾽nasına olduğundan caiz deyildir. Amma Allaha mənsub edildiyinə görə müqəddəslik tapan sair müqəddəslərə and içmək ümumi halda caizdir. Əlbəttə, münaqişəni həll etmək məqamında Allahdan başqasına and içmək kifayət deyildir və bu işin şər᾽i və hüquqi təsiri yoxdur.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər Allahdan başqasının adına and içməyi inkar edərkən hansı Qur᾽an ayələrinə istinad edirlər?

٢. Nə üçün vəhhabilər Allahı başqalarının adına and verməyi caiz bilmirlər?

٣. Doğrudanmı mö᾽minlərin Allah yanında heç bir haqqı yoxdur?

٤. Allahdan başqasının adına and içməyin caiz olmasını necə isbat etmək olar?

٥. Ömərin oğlundan nəql olunan hədis necə izah olunur?

# İYİRMİ ÜÇÜNCÜ DƏRS

## *VƏHHABİLİK (٥)*

## *ƏQİDƏLƏR(٤)*

*١. Allahdan başqası üçün nəzr və qurbanlıq tövhidlə necə uyğun gələ bilər?*
*٢. Vəhhabilər nəzr və qurbanlıq barəsində necə düşünürlər?*

## *٤. NƏZR VƏ QURBANLIQ*

Qədim zamanlardan bəşər cəmiyyətləri arasında belə bir adət vardır ki, camaat xüsusi niyyət və hədəflər üçün, yaxud məxsus şəraitlərdə qurbanlıq etmiş və ya müəyyən bir işi nəzr adı ilə özlərinə vacib etmişlər. Məsələn nəzir edirlər ki, xəstələri sağalarsa müəyyən bir məbləğ versinlər, yaxud bir qoyunu qurban kəssinlər və s. Əlbəttə bütpərəstlik ayinləri hakim olan cəmiyyətlərdə bütün adına və bütün qarşısında qurbanlıq və nəzr edilirdi. Buna görə də İslam nöqteyi-nəzərindən onların bu əməli müşrikcəsinə edilən bir əməl sayılmış, Allah və Peyğəmbər tərəfindən aşkar şəkildə qadağan edilmişdir. Müsəlmanlar da həmişə Peyğəmbər və din böyükləri, eləcə də müqəddəs məkanlar və bu kimi şeylər üçün nəzr, yaxud da qurbanlıq edirlər. Məsələn, bir kəs belə nəzr edir: «əgər filan hacətim qəbul olsa, müəyyən bir məbləği Peyğəmbər məscidinə və ya o Həzrətin hərəminə, yaxud filan məscidə, xəstəxanaya və ya digər bir yerə verərəm», yaxud da «filan gün filan müqəddəs məkanın zəvvarları və namaz qılanları üçün bir qoyun qurbanlıq edərəm.» Vəhhabilərlə sair İslami firqələr arasında bu məsələ ilə əlaqədar yaranan əsaslı ixtilaf bundan ibarətdir ki, onların fikrincə, Allahdan başqası üçün olan hər növ nəzr və qurbanlıq büt üçün olan nəzr və qurbanlığın nümunəsi kimidir.

İbni Teymiyyədən soruşulduqda ki: «Məscidlər üçün, ölü və diri şəxsiyyətlər üçün pul, dəvə, qoyun, şam, yağ və sair bu kimi şeyləri nəzr etmək olarmı? İnsanın «əgər övladım salamat qayıtsa, filan imam üçün filan məbləğ pul verəcəyəm» - deyə nəzr etməsi səhihdirmi?» O, bu suala belə cavab verdi: Bizim alimlərimiz belə nəzrləri caiz hesab etmir və insanın bir şeyi qəbir, yaxud qəbrin mücavirləri üçün nəzr etməyinə icazə vermirlər. Əgər pul, yağ, şam, heyvan və

sair kimi şeylər bu yolda nəzr edilərsə, onun nəzri günah hesab olunacaqdır. Belə ki, Peyğəmbərdən (s) nəql olunan səhih bir hədisdə deyilir: «Hər kəs Allaha itaət etməyi nəzr etsə, gərək itaət etsin (nəzri səhihdir), Allaha günah etməyi nəzr edən şəxs o günahı etməməlidir (onun nəzri batildir).»

Məhəmməd ibni Əbdül Vəhhab deyir: «Peyğəmbər (s) müşriklərlə vuruşdu ki, hər bir şey, o cümlədən zibh və qurbanlıq da Allah üçün olsun.» Sonra deyir: «Məgər namaz və qurbanlıq ibadət deyildirmi? Əgər bir məxluq üçün qurbanlıq edirsinizsə, Allaha ibadətdə şərik qoşmursunuzmu? Mələklərə və saleh şəxsiyyətlərə ibadət edən müşriklər onlar üçün qurbanlıq kəsərək, dua etmirdilərmi və ya onlara sığınmırdılarmı?»[١]

Sənʾani də belə deyir: «İbadətdə tövhid yalnız bununla kamil olar ki, hər bir şey, o cümlədən qurbanlıq Allah üçün olsun. Buna əsasən qəbirlərin kənarında qurbanlıq etmək müşriklərin əməli kimidir. Belə ki, onlar bütlərin yanında qurbanlıq edirdilər.» Həmçinin belə deyir: «Qurbanlıq edən şəxslərdən soruşuruq: Bunu Allah üçün və Onun razılığı naminə yerinə yetirirsinizmi? Onda nə üçün bu işi qəbirlərin kənarında edirsiniz? Əgər bu yolla qəbrin sahibinə ehtiram qoyub ona təʾzim etmək istəyirsinizsə, onda müşrik sayılırsınız. Əgər belə məqsədiniz olmasa, onda qəbri qana batırmaq, camaatın üst-başını murdarlamaq istəyirsiniz.»[٢]

Sənʾani nəzr barəsində belə deyir: «Hər kəs belə bir iş görsə ibadətdə şirkə düçar olmuşdur, hansı məxluq üçün nəzr etmişdisə, o məxluq onun məʾbudu sayılır. Məxluqun xeyir və zərər sahibi olmasına eʾtiqad bəsləmək, onu şəfaətçi etmək şirkdir. İnsanın malını və övladını ölü və ya yaxud diri üçün nəzr etməsinə gəldikdə isə, bu şübhəsiz şirkdir! Bu kimi əqidələr cahiliyyət əqidəsidir və belə nəzrlər cahiliyyət dövründəki camaatın əməllərinə oxşayır».

O, sözünün davamında deyir: «Əgər «bu qurbanlıqların və nəzrlərin hökmü nədir?» - deyə soruşsanız, cavabında deyəcəyik: Camaatın var-dövləti özləri üçün əziz və sevilməlidir. Nəzr edib malının bir miqdarını bir tərəfə qoyan şəxs yalnız zərəri dəf edib, yaxud fayda aparmağa inanır. Əgər əməlinin yanlış olmasını bilsəydi, heç vaxt bu işi görməzdi. Deməli, əvvəlcə ona demək lazımdır ki, onun bu işi malını zay etməkdir və bu işdə nəinki bir fayda hasil etməmiş, üstəlik zərəri də dəf etməmişdir.» Sonra deyir: «Alimlərin vəzifəsi budur ki, bu əməl və eʾtiqadların şirk və haram olduğunu izah etsinlər və bildirsinlər ki, bu işlər müşriklərin öz bütləri qarşısında yerinə yetirdikləri həmin əməllər kimidir.»[٣]

---

١ «Kəşfüş şübəhat».

٢ «Təthirul-eʾtiqad».

٣ «Təthirul-eʾtiqad».

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Vəhhabilərin nəzr və qurbanlıq barəsindəki nəzəriyyəsini araşdırıb onun səhih və ya batil olmasını ayırd etmək üçün bir neçə məsələni qeyd etmək lazımdır:

١. Şübhəsiz qurbanlıq etmək həmişə ibadət ünvanı ilə edilmir və ibadət də deyildir. Çünki əksər hallarda heyvanın başı zibh olunarkən Allahın adını dilimizə gətirməyimiz yalnız buna görədir ki, o heyvanın əti halal olsun, çünki Allah-taala buyurur:

**«Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır...»**[١]

Bə᾽zən mümkündür ki, zibh edilmə məxluqa aid edilsin. Məsələn, «bu qoyunu qonaqlar üçün zibh etmişik» desək, belə çıxır ki, biz qonaqların dərgahına yaxınlaşmaq məqsədilə bu işi görmüşük və bizim bu qonaqpərvərliyimiz ibadət hesab olunur?!

Məlumdur ki, qurbanlıq etməkdə məqsəd hansısa bir yerə yaxınlaşmaq olsa, o surətdə ibadət hesab olunur; bir kəs qurbanlıq etməklə Allahdan başqasına yaxınlaşmaq istəsə, şirkə düçar olar. Amma müsəlmanların müqəddəs məkanlarda etdikləri əməli yə᾽ni, qurbanlığı şirk hesab etmək olmaz. Müsəlmanlar heç vaxt Allahdan başqasına yaxınlaşmaq məqsədi güdmür, müqəddəs məkanlarda ibadətin daha çox savabı və dəyəri olduğundan, öz qurbanlıqlarını o yerlərdə yerinə yetirirlər. Digər tərəfdən də niyyət edirlər ki, məsələn, bu qurbanlığın savabı Peyğəmbərə, imama, yaxud o müqəddəs məkanda dəfn olunmuş saleh bir insana çatsın.

Hər hansı bir xeyir işi yerinə yetirib onun savabını ölülərin ruhuna hədiyyə etmək, bütün müsəlmanların nəzərində məqbul məsələdir. Bu barədə çoxlu rəvayətlər də nəql olunmuşdur. O cümlədən buyurulur: Bir kişi Peyğəmbərin yanına gəlib dedi: «Ya Rəsuləllah! Mənim anam vəsiyyət etmədən vəfat etmişdir. Zənnimcə, əgər diri olsaydı sədəqə verərdi. Mən sədəqə versəm ona bir fayda çatdırarmı?» Peyğəmbər (s) buyurdu: «Bəli.» Sonra həmin kişi soruşdu: «Nə sədəqə verim?» Həzrət (s) buyurdu: «Su.» Ona görə də həmin kişi quyu qazdı və dedi ki, bu anam üçündür.»[٢]

O kişinin «Bu anam üçündür» deməsinin mə᾽nası bu deyildir ki, bu işlə anamın dərgahına yaxınlaşmaq istəyirəm; məqsədi budur ki, bu işin savabını anama hədiyyə edirəm.

٢. Qurbanlıq barəsində qeyd olunduğu kimi, nəzr barəsində də əgər nəzr edənin məqsədi bu işlə Allahdan başqasına yaxınlaşmaq olarsa, şübhəsiz şirkə mübtəla olar. Halbuki, bütün müsəlmanlar nəzr verməklə yalnız Allaha

---

[١] Ən᾽am–١٢١.

[٢] «Səhihi Müslüm», Ayişədən nəqlən.

yaxınlaşmaq istəyirlər. Çünki hər hansı bir şeyi nəzr etdikdə deyərlər ki: «Lillahi ələyyə kəza, in kanə kəza» yə᾿ni, əgər bu iş belə olarsa, Allah görə mənim öhdəmə filan iş olsun. Müsəlmanların peyğəmbər və yaxud imam üçün nəzr etməsindən məqsəd, məhz onların Allaha yaxınlaşmasıdır. «Lillahi ələyyə kəza» deməklə tə᾿kid edirlər ki, Allah görə mənim öhdəmədir ki, misal üçün, filan işi Rəsuli-Əkrəm üçün yerinə yetirim. Bu nəzrin mə᾿nası Allah dərgahına yaxınlaşmaq və savabını Peyğəmbərə (s) hədiyyə etməkdir. Diqqət yetirmək lazımdır ki, Qur᾿ani-kərimdə «Əs-sədəqatu lil füqəra»[١] deyilməsinin mə᾿nası bu deyildir ki, sədəqəni fəqirlərə yaxınlaşmaq üçün vermək lazımdır. Əksinə, mə᾿nası budur ki, sədəqənin xeyir və faydaları fəqirlərə çatmalıdır, onların ehtiyacları tə᾿min olunmalıdır. Amma, əsas niyyət Allah dərgahına yaxınlaşmaqdır.

٣. Qurbanlıq və nəzr barəsində Peyğəmbəri-Əkrəmdən (s) çoxlu rəvayətlər nəql olunmuşdur. O hədislərin hamısında Allahdan başqası üçün nəzr və qurbanlıq edilməsinə icazə verilir. Bu məsələdə yalnız bir hal istisna olunur, o da müşriklərin və bütpərəstlərin əməli ilə qarışıq düşməsi ehtimal olunan hallardır.. Aşağıdakı rəvayətlərə diqqət yetirin:

*Peyğəmbərin (s) dövründə bir kişi nəzr etmişdi ki, bir dəvəni Dəvanədə (qırmızı dənizin sahilində bir çölün adıdır) qurbanlıq etsin. Peyğəmbərin (s) yanına gəlib öz məqsədini bildirdi. Həzrət (s) ona buyurdu: «Orada cahiliyyət dövründə pərəstiş edilən bütlərdən biri vardırmı?» Kişi dedi: «Xeyr.» Həzrət buyurdu: «Orada cahiliyyət dövrünə məxsus olan bayramlardan biri keçirilirdimi?» Dedi: «Xeyr.» Sonra Peyğəmbər (s) buyurdu: «Öz nəzrinə vəfa et, çünki (yalnız) Allaha qarşı günah sayılan və insanın malikiyyətində olmayan yerlərdə nəzr etmək caiz deyildir.»[٢]

*Meymunə adlı bir şəxs Peyğəmbərə (s) ərz etdi: «Mən nəzr etmişəm ki, əlli baş qoyunu Dəvanədə qurbanlıq edəm». Peyğəmbər (s) ondan soruşdu: «Orada büt varmı?» Dedi: «Xeyr». Həzrət (s) buyurdu: «Onda öz nəzrinə əməl et».[٣]

*Bir qadın Peyğəmbərin (s) yanına gəlib dedi: «Nəzr etmişəm ki, xüsusi bir məhəldə qurbanlıq edəm». Peyğəmbər (s) buyurdu: «Orada büt varmı?» Dedi: «Xeyr». Peyğəmbər (s) buyurdu: «Öz nəzrinə vəfa et».[٤]

*Əhməd ibni Hənbəl, Əbu Davud və Termezi rəvayət etmişlər ki, Peyğəmbər (s) öz mübarək əli ilə qurbanlıq edib belə buyurdu: «Pərvərdigara! Bu mənim və ümmətimdən qurbanlıq etməyə qadir olmayanların tərəfindən olan bir qurbanlıqdır ».

---

[١] Tövbə–٦٠.

[٢] «Sünəni ibni Davud», ٢-ci cild.

[٣] Mö᾿cəmül-Büluan», ٢-ci cild.

[٤] «Sünəni ibni Davud», ٢-ci cild.

*Seyf və Əbu Davud, Əli ibni Əbi Talib (ə)-dan nəql edirlər ki, o həzrət Peyğəmbərin (s) yerinə qurbanlıq kəsib buyurdu: «Rəsuli-Əkrəm (s) mənə vəsiyyət etmişdir ki, onun yerinə qurbanlıq edəm».

Bu barədə nəql olunan rəvayətlər məcmusundan belə nəticə alınır ki, savabını başqa şəxslərə, yaxud heç bir şirk ehtimalı olmayan, ehtirama malik olan məkanlara hədiyyə etmək məqsədilə nəzr etmək caiz və bəyənilən işdir. Yalnız o nəzrlər caiz deyildir ki, Allahdan başqasına yaxınlaşmaq məqsədi və ibadət ünvanı ilə edilsin. Müqəddəs məkanlarda, yaxud saleh insanların, böyüklərin, üzərimizdə haqqı olan şəxslərin və s. tərəfindən qurbanlıq etməyin də hökmü eynidir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər hansı dəlilə görə müqəddəs şəxslərə və ya məkanlara qurbanlıq və nəzri bütpərəstliyin nümunəsi hesab edirlər?

٢. Sən᾿aninin nəzr və qurbanlıq barəsindəki nəzərini bəyan edin.

٣. Hansı hallarda Allahdan başqası üçün nəzr və qurbanlığın şirklə ziddiyyəti yoxdur?

٤. Nəzr və qurbanlıqla əlaqədar rəvayətlərdən hansı nəticəni almaq olar?

# İYRİMİ DÖRDÜNCÜ DƏRS

## *VƏHHABİLİK (٦)*

## *ƏQİDƏLƏR (٥)*

*١. Peyğəmbərlərin və övliyaların qəbirlərinə ehtiram qoymaq caizdirmi?*
*٢. İlahi övliyaların qəbri üzərində bina tikməyin hökmü necədir?*
*٣. Vəhhabilərin ilahi övliyaların qəbri barədəki əməl və nəzərləri nədən ibarətdir?*

## *٥. BÖYÜK ŞƏXSİYYƏTLƏRİN QƏBİRLƏRİNƏ EHTİRAM QOYMAQ*

Müsəlmanlar İslamın zühur etdiyi ilk əvvəllərdən hazırkı əsrə qədər, din böyüklərindən hər hansı biri dünyadan gedərsə, sağlığında malik olduğu ehtiram və məhəbbətin şiddətindən, ölümündən sonra da onun qəbrinə xüsusi əhəmiyyət verir, məhəbbət və ehtiramlarını bildirmək üçün qəbr sahibinin ziyarətinə gedirlər; bə`zən qəbrin yaxınlığında dua və ibadətlə məşğul olur, ziyarətçilərin asayiş və rahatlığı üçün orada bina tikir və bə`zən qəbir sahibinin malik olduğu hörmət və müqəddəsliyə görə onun qəbrinə ehtiram əlaməti olaraq, məqbərə də düzəldirlər.

Bu kimi əməllər təqribən İslamın bütün dövrlərində mövcud olmuş və islam cəmiyyətində bir növ sünnət, (adət-ən`ənə) formasını almışdır. Amma vəhhabi məzhəbi bütün bu əməllərə bütpərəstlik və şirk damğası vuraraq bu işlərlə kəskin mübarizə aparırdı. Buna görə də bu və gələn dərsdə vəhhabilərin bu barədə irəli sürdükləri nəzəriyyəni araşıdaracığıq.

**a). Ziyarət;**

Vəhhabilərin nəzərində peyğəmbərlərin, ilahi övliyaların, hətta Peyğəmbəri-Əkrəmin (s) qəbrini ziyarət etmək mütləq şəkildə şirk və haram kimi cilvələndirilir. İbni Teymiyyə deyir: «İslam dininin əsaslarından biri də budur ki, Peyğəmbər qəbirlər barəsində heç bir göstəriş verməyib, peyğəmbərlərin və salehlərin qəbirləri kənarında bir şey düzəltməyi öz ümməti üçün qanun bilməyib. Bu, müşriklərin adət-ən`ənəsidir ki, Allah onların barəsində belə buyurub:

«Kafirlər dedilər: Öz mə`budlarınıza pərəstiş etməkdən əl çəkməyin, Vəd, Sər`, Yəğus, Yəuq və Nəsr` (bütlərin adlarıdır) pərəstiş etməkdən əl çəkməyin».[Nuh-٢٣]

İbni Abbas demişdir: «Bu beş nəfər Nuh qövmündə olan beş saleh şəxsiyyət idi ki, öldükdən sonra camaat onların qəbirlərinin üzərində heykəl düzəldərək pərəstiş etdilər.»[١]

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

İbni Teymiyyənin bu sözlərindən belə başa düşülür ki, Peyğəmbərin (s) və ilahi övliyaların qəbirlərini ziyarət etmək Nuh qövmünün müşriklərinin əməli kimidir. Belə ki, onlar öz qövmünün böyük və saleh şəxsiyyətlərini pərəstiş edib və ibadət üçün heykəl düzəldirdilər. Buna görə də İbni Teymiyyə bu işlə müxalifətçilik edirdi.

Aydındır ki, müsəlmanlardan hər hansı biri Peyğəmbərin (s) və ya ilahi övliyaların qəbirlərinə sitayiş etmək məqsədi ilə onların şərif qəbirlərinin ziyarətinə getsə, şübhəsiz ki, şirkə düçar olur. Amma sualımız budur ki, müsəlmanlardan hansı biri Peyğəmbərin (s) qəbri önündə səcdə və ibadət edir. Başqa sözlə desək, o şərif qəbri özünə qiblə seçir?

Müsəlmanlar qəbir sahibinə öz ehtiram və məhəbbətlərini bildirmək, nəticədə üzü qibləyə namaz qılıb savabını qəbir sahibinin əzəmətli ruhuna hədiyyə etmirlərmi? Bu əməllə bütpərəstlərin və müşriklərin yerinə yetirdikləri əməl müqayisəolunmaz dərəcədə fərqlidir və azacıq diqqət yetirməklə onu dərk etmək olar.

Bundan əlavə, Rəsuli-Əkrəm (s) qəbirləri ziyarət etməyə dair çoxlu tövsiyələr edərək buyurmuşdur: «Qəbirləri ziyarət edin, çünki onların ziyarət edilməsi sizə axirəti xatırladır».[٢]

O həzrətdən (s) rəvayət olunan başqa bir hədisdə deyilir: «Mən əvvəllər sizi qəbirləri ziyarət etməkdən çəkindirdim, amma bundan sonra ziyarət edin, çünki qəbirlərin ziyarət edilməsi dünyada zahidliyə və axirətin xatırlanmasına səbəb olur».[٣]

Başqa bir yerdə Ayişədən belə nəql olunur: «Rəsuli-Əkrəm (s) qəbirlərin ziyarətinə icazə verdi».[٤]

Rəvayət olunmuşdur ki, Peyğəmbər (s) anasının qəbrinin ziyarətinə gedib orada ağladı, ətrafında olanlar da ağladı. Sonra həzrət buyurdu: «Pərvərdigarımdan anamın qəbrinə ziyarət etmək üçün icazə istədim və O da

---

[١] «Minhacus-sünnə».

[٢] «Sünəni ibni Macə», ١-ci cild.

[٣] «Sünəni ibni Macə», ١-ci cild.

[٤] «Sünəni ibni Macə», ١-ci cild.

icazə verdi. Belə isə, siz də qəbirlərin ziyarətinə gedin, çünki bu iş insana ölümü xatırladır».[1]

Mö᾽minlərin qəbirlərini ziyarət etmək Peyğəmbərin (s) bu qədər diqqət yetirdiyi və tövsiyə etdiyi məsələlərdəndirsə, onda o həzrətin (s) öz qəbrini və sair din başçılarının qəbirlərini ziyarət etmək sözsüz ki, bəyənilən bir işdir. Bundan əlavə, o Həzrətin özü də onun qəbrinin ziyarət edilməsini tövsiyə edərək buyurmuşdur: «Hər kəs mənim qəbrimi ziyarət etsə, mənim şəfaətimə nail olacaqdır.». Bu hədisi hədisşünaslar və məşhur müəlliflərin çoxu öz kitablarında qeyd etmişlər. O cümlədən, Darqutni «Sünən» kitabında, Mavurdi «Əl-əhkamus-sultaniyyə» kitabında, İbni Əsakir «Tarix» kitabında, Süyəki Şafei «Şifaus-siqam» kitabında, İbni Xüzeymə «Səhih» kitabında və s.-ni qeyd etək olar. Peyğəmbər (s) başqa bir hədisdə buyurur: «Hər kəs həcc etdikdən sonra mənim qəbrimi (vəfatımdan sonra) ziyarət etsə, məni sağlığımda ziyarət edən şəxs kimidir.» Şeybani, Əbu Yə᾽la, Bəğli, Beyhəqi, Darqutni, İbni Əsakir və sair alimlərdən bir çoxu bu hədisi rəvayət etmişlər.

Peyğəmbər (s) başqa bir hədisdə buyurur: «Bir kəs Allah evinin ziyarətinə gedib məni ziyarət etməsə, mənim haqqımda zülm etmişdir». Səmhudi, Darqutni, Qəstəlani və başqaları bu hədisi rəvayət etmişlər.

**b) Qəbirlərin üzərində bina tikilməsi;**

Vəhhabilər tərəfindən şirkin növü sayılan digər bir məsələ ilahi övliyaların qəbirləri üzərində bina tikməkdir. İbni Qəyyim Coziyyə (İbni Teymiyyənin məşhur şagirdi idi) bu xüsusda deyir: «Qəbirlərin üzərində tikilən binaları uçurtmaq vacibdir, dağıdılması mümkün olduğu halda onun bir gün belə saxlanılması caiz deyildir.»[2] Sən᾽ani də belə deyir: «Qəbir üzərində tikilən bina büt kimidir. Cahil bütpərəstlərin düzəldərək onu büt və sənəm dedikləri şeyi qəbrə əlaqələri olanlar edir və onun adını qəbir və məşhəd qoyurlar. Büt adını dəyişdirmək, həqiqətdə bir şeyi büt olmaqdan xaric etmir.»[3]

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Vəhhabilərin öz nəzəriyyələrini isbat etmək üçün gətirdikləri ən mühüm sənəd Əbil Həyyac Əsəddən nəql olunan rəvayətdir. O, deyir: «Əli ibni Əbi Talib mənə buyurdu: Mən səni, Peyğəmbərin məni seçdiyi bir iş üçün seçmədimmi? Yə᾽ni, heç bir təsviri qoyma qalsın, hamısını məhv et, heç bir uca qəbri qoyma qalsın, onu yerlə bərabər et».

---

١ «Səhihi Müslüm», ٣-cü cild.

٢ İbni Qəyyim, Zadul məad fi hüda xeyril ibad».

٣ Sən᾽ani, «Təthirul-e᾽tiqad».

Bu rəvayətə əsasən vəhhabilər inanırlar ki, qəbri yerlə eyni səviyyədə etmək, onun üzərində düzəldilən binaları dağıtmaq Peyğəmbəri-Əkrəmin göstəriş və tövsiyəsidir.

Bu hədis həm sənəd, həm də dəlalət baxımından münaqişəli və iradlıdır. Sənəd baxımına gəldikdə, bu hədisin rəvayətçiləri silsiləsində Vəki῾, Süfyan Suri, Cəlil ibni Sabit, Əbi Vail Əsədi kimi şəxslər vardır ki, hədisşünasların nəzərində mö῾təbər sayılmırlar. O cümlədən, İbni Həcər Əsqəlani «Təhzibut-təhzib» kitabında Əhməd ibni Hənbəldən Vəki῾nin barəsində belə nəql edir ki, o, beş yüz hədisdə səhv etmişdir. O, həmçinin İbni Mübarəkdən Süfyan barəsində nəql edərək deyir: «Bir gün Süfyan hədis oxuyurdu, bu vaxt onun yanına gəlib gördüm ki, hədisdə müəyyən dəyişikliklər edir (buna tədlis deyilir). Məni görən kimi xəcalət çəkdi». Həmçinin İbni Həcər İbni Əbi Sabit barəsində İbni Həyyandan nəql edir ki, o, müdəllis idi (yə῾ni, özünün ürəyi istədiyi kimi hədisləri təhrif edirdi). O, Əbu Vail Əsədini də nasibi və Əlinin (ə) yolundan azanlardan hesab edir.[١]

Amma dəlalət baxımına gəldikdə isə, qeyd etmək lazımdır «səvvəytəuhu» kəlməsi «dağıdıb yerlə yeksan, eyni səviyyədə etmək» - deyildir. Çünki əgər belə olsaydı, əvvəla bu felin vasitəsiz tamamlığı olmalıydı. Məsələn həzrət (ə) belə buyurmalı idi ki: «Heç bir qəbri yerlə yeksan etməmiş qoyma». «Səvvəytəhu» fe῾linin tamamlığı səth, müstəvi şəkilində etmək, onun iki tərəfini bərabər etmək deməkdir. Bu mə῾na dəvə beli kimi düzəldilən qəbirlər barəsində səhih ola bilər.

İkincisi, əgər qəbrin yerlə eyni səviyyədə edilməsi nəzərdə tutulursa da, bu, müsəlmanların qəbri yerdən bir qarış qaldırmaq əsasında olan qət῾i sünnəsi ilə uyğun gəlmir.

Bundan əlavə əgər məqsəd qəbri yerlə eyni səviyyədə düzəltmək olsa, onda ziyarət edənlərin rahatlıq və asayişi üçün düzəldilən binaların dağıdılmasına haradan dəlalət edir?

Digər məsələ budur ki, əgər qəbir üzərində bina tikmək qadağandırsa, onda Peyğəmbərin səhabələri hansı əsasa görə o həzrətin mütəhhər cənazəsini Aiyşənin otağında dəfn etdilər və dəfn mərasimindən sonra nəinki otağı dağıtmadılar, üstəlik onun divarlarını düzəldib tə῾mir etdilər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər hansı ayəyə əsasən qəbirlərin ziyarət olunmasını haram hesab edirlər?

٢. Vəhhabilərin ziyarətin haram olması ilə əlaqədar gətirdikləri dəlili araşdırın.

٣. Nə üçün vəhhabilər qəbrin yerlə eyni səviyyədə olmasını iddia edirlər?

---

١ İbni Həcər Əsqəlani, «Təhzibut-təhzib».

٤. Vəhhabilərin qəbirlərin yerlə eyni səviyyədə olması ilə əlaqədar istinad etdikləri hədisi araşdırın.

İYİRMİ BEŞİNCİ DƏRS

## *VƏHHABİLİK (٧)*

## *ƏQİDƏLƏR(٦)*

*١. İlahi övliyaların qəbirləri üzərində məscid tikmək tövhidlə uyğundurmu?*
*٢. Qəbirlərin kənarında dua və ibadət etməyin hökmü nədir?*
*٣. Qəbirlərin üzərində çıraq yandırmaq və onlardan təbərrük etməyin hökmü nədir?*
*٤. Vəhhabilərin yuxarıdakı hallarda nəzəri necədir?*

### *V) CALEH BƏNDƏLƏRİN QƏBİRLƏRİ ÜZƏRİNDƏ MƏSCİD TİKMƏK*

Vəhhabilər Peyğəmbəri-Əkrəmdən nəql olunan bir hədisə istinad edərək saleh bəndələrin qəbirləri üzərində, yaxud onun qonşuluğunda məscid tikməyi caiz bilmir və bu işi bir növ qəbrə sitayiş etmək adlandıraraq, onu şirk hesab edirlər.

Vəhhabilərin istinad etdikləri hədislər aşağıdakılardır:

Nəsai öz «Sünən» kitabında İbni Abbasdan belə rəvayət edir: «Peyğəmbəri-Əkrəm qəbirlərin ziyarətinə gedən qadınları, eləcə də qəbirləri məscid qərar verənləri və onun üzərində çıraq yandıranları ləʾnətləmişdir».

Buxari «Səhih» kitabında Aiyşədən nəql edir ki, Peyğəmbər (s) buyurdu: «Allah məsihilərə və yəhudilərə ləʾnət eləsin, çünki onlar peyğəmbərlərinin qəbrini məscid qərar verirdilər». Ayişə sonra dedi: Əgər belə olmasaydı, Peyğəmbərin qəbrini aşkar edərdilər (və onun qarşısından pərdə asmazdılar), amma mən bundan qorxuram ki, onu məscid qərar versinlər (buna görə də o pərdəni qaldırmıram)».

Müslüm də öz «Səhih» kitabında rəvayət edir: «Allah yəhud qövmünü məhv etsin, çünki onlar peyğəmbərlərinin qəbrini məscid qərar vermişdilər».

Vəhhabilər bu kimi rəvayətlərdən nəticə almışlar ki, qəbirlərin üzərində məscid tikmək caiz deyildir. İbni Teymiyyə «Ziyarətul-qubur» risaləsində yazır: Bizim alimlərimiz demişlər ki, qəbirlərin üzərində məscid tikmək caiz deyildir».

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

Bu rəvayətlərin düzgünlüyündə edilən münaqişəni nəzərə almasaq belə, onun dəlalət baxımından vəhhabilərin nəzərini təsdiq etməsi nəzərə çarpmır. Çünki bu hədislərin hamısında qəbirlərin məscid edilməsi ilə əlaqədar xəbərdarlıq edilir. Həqiqətdə belə bir nigarançılıq var idi ki, müsəlmanlar da yəhudi və məsihilər kimi peyğəmbərlərin və saleh bəndələrin qəbirlərini mə`bəd qərar verərək onlara pərəstş etsinlər. Belə olan surətdə şəriət baxımından onların qarşısı alınmalıdır, çünki bu əməlin şirk olmasında heç bir şəkk-şübhə yoxdur. Müddəamızın şahidi Peyğəmbəri-Əkrəmin (s) Allaha xitabən ərz etdiyi duadır: «Pərvərdigara, mənim qəbrimi ibadət olunan büt qərar verməꞏ».[١]

Əgər peyğəmbərlərin qəbirləri məscid və qibləgah formasına düşərsə, qəbir və onun sahibi pərəstiş edilərsə, əlbəttə şirk və haramdır. Amma sualımız budur ki, müsəlmanların hansı biri ilahi övliyaların qəbrinin yanında məscid tikməklə öz qibləsini dəyişdirərək Allah dərgahında ibadət və səcdə etmək əvəzinə, o qəbir və onun sahibinə səcdə və pərəstiş edir?

Şərif məzarlarda məscid tikilməsini səbəbi ilk növbədə bu işlə həmin məkanlara daha artıq müqəddəslik və hörmət gətirmək və onun savabını həmin yerdə dəfn olunanın sahibinə hədiyyə etmək, eləcə də ibadət və dua mərasimlərini yerinə yetirilməsi şəraitini ziyarətçilər üçün tə`min etməkdir.

Amma bu işlərin hamısında yeganə niyyət Allah dərgahına yaxınlaşmaqdır, qiblə də məhz Beytullahul-həramdır.

**q) Qəbirlərin üzərində çıraq yandırmaq;**

Yuxarıda, Peyğəmbərin qəbirləri ziyarət edən qadınları, eləcə də qəbirlərin üzərində çıraq yandıranları nifrin etməsi barədə İbni Abbasdan nəql olunan hədis vəhhabilər tərəfindən qəbirlərin üzərində çıraq yandırmağın haram olmasını isbat etməyə bir əsas verir.

**Bu əqidəni araşdırarkən demək lazımdır ki:**

١. Bu hədis sənəd baxımından zəifdir, çünki hədisin sənədində «Bazan» künyəsi ilə tanınan Əbu Saleh vardır və bu şəxs mühəddislərin nəzərində mö`təbər sayılmır. Nəsai onun barəsində deyir: «Siqə (e`timad olunası adam) deyildir.» İbni Ədi demişdir: «Bir kəsi görmədim ki, ondan razı olsun.» Əbu Hatəm deyir: «Onun hədisini dəlil gətirmək olmaz».

٢. Mətninin dəlaləti baxımından demək lazımdır ki, çırağın yandırılması o yerdə qadağan olunur ki, onun heç bir faydası olmasın və nəticəsi yalnız malın tələf edilməsi olsun. Əks halda, əgər fəzanın işıqlandırılması, namaz, dua, Qur`an oxumaq üçün münasaib şərait yaradılması üçün olsa, buna hansı əsasla irad

---

[١] «Müsnədi Əhməd ibni Hənbəl», ٣-cü cild.

tutmaq olar? Bundan əlavə, Termezi İbni Abbasdan nəql edir ki: «Bir gecə Peyğəmbəri-Əkrəm bir qəbirə daxil oldu və onun üçün çıraq yandırdı».

Alimlər də məhz bu mə᾽na əsasında fətva vermişlər. O cümlədən Əzizi «Şərhi camius-səğir» kitabında yazır: «Qəbir üzərində çıraq yandırılması o zaman qadağan olunur ki, onun heç bir şəkildə faydası olmasın, əks halda bu işin heç bir iradı yoxdur». Həmin nəzərin oxşarını Sindi Nəsainin «Sünən» kitabının haşiyəsində və Muğni «Camius-səğir»in haşiyəsində bəyan etmişdir.

**d) Qəbrin kənarında dua oxumaq və namaz qılmaq;**

İbni Teymiyyə «Ziyarətil-qubur» adlı risaləsində yazır: «Səhabələr Peyğəmbərin (s) rövzəsinə və onun qəbrinin kənarına gələndə salam verirdilər. Dua etmək istəyəndə qəbirdən üz döndərib qibləyə tərəf dururdular.» O, daha sonra deyir: «Keçmiş alimlərdən heç biri qəbirlərin kənarında namaz qılmağı müstəhəbb hesab etməmiş, orada yerinə yetirilən dua və namazı başqa yerlərdəkindən əfzəl hesab etməmişlər, əksinə onların hamısı fikir birliyindədirlər ki, məscidlərdə və evlərdə qılınan namaz saleh bəndələrin və peyğəmbərlərin qəbirləri kənarında qılınan namazdan yaxşıdır».

Bu nəzəri araşdırarkən deməliyik ki:

Əvvəla: «Peyğəmbəri-Əkrəmin, yaxud sair peyğəmbər və salehlərin qəbrinin kənarında dua və namazın caiz olmasını hər bir məkanda namaz qılıb dua oxumağın caiz olmasının ümumiyyəti ilə isbat etmək olar.

İkincisi: Şərif məkanlar, o cümlədən peyğəməbərlərin və ilahi övliyaların qəbirləri ibadət üçün daha münasibdir. Çünki, onların orada dəfn olunması onlara şərafət gətirir. Əgər belə olmasaydı, Allah-taala mö᾽minlərin İbrahim (ə) məqamında namaz qılmalarını tə᾽kid etməzdi.

**«(Ya Məhəmməd!) Yadına sal ki, biz Kə`bəni insanlar üçün savab (ziyarətgah) və əmin-amanlıq yeri etdik. (Ey mö`minlər!) Sizə də: "İbrahimin durduğu yeri özünüzə namazgah edin!" – dedik...»**[١]

Üçüncüsü: Rəvayət olunmuşdur ki: Fatimeyi Zəhra hər cümə axşamları əmisi Həmzənin qəbrinin ziyarətinə gedir, orada namaz qılır və ağlayırdı.[٢] Halbuki həzrət Həmzə hicrətin ٣-cü ilində şəhid olmuşdu, Peyğəmbər (s) isə hicrətin ١٠-cu ilində vəfat etmişdir.

Deməli, Fatimeyi-Zəhra yeddi il əmisi Həmzənin qəbrinin ziyarətinə getmiş və orada namaz qılmışdır. Əgər bu iş caiz olmasaydı nə üçün Peyğəmbər (s) onu bu işdən çəkindirməmişdir?

**e) Qəbrə təbərrük etmək;**

---

[١] Bəqərə-١٢٥.

[٢] «Sünəni Kübra», ٤-cü cild.

Vəhhabilər saleh bəndələrin qəbrini öpüb təbərrük etməyi və onların üzərlərinə toxunmağı caiz bilmir, həmçinin bunu bütpərəstlərin və müşriklərin əməllərinə oxşadırlar.

Amma, diqqət yetirmək lazımdır ki:

١. Qəbrə təbərrük etmək qəbir sahibinin hörmətinə e᾽tiqad bəsləmək və eləcə də ona məhəbbət və ehtiram göstərmək üçün edilir. Buna görə də əgər qəbirlərə ehtiram və tə᾽zimi ibadət sayıb, onun haram və şirk olduğunu desək, onda Kə᾽bəyə ehtiram, tə᾽zim, təvaf etmək və Həcərül-əsvədə əl sürtüb tə᾽zim etmək, İbrahim məqamına və Hicrə tə᾽zim etmək də şirk sayılacaqdır. Eləcə də ata-anaya ehtiram göstərmək, onların qarşısında tə᾽zim etmək, mələklərin Adəmə səcdə etməsi, həzrət Yusifin ata-anası və qardaşlarının onun qarşısında səcdə etməsi və bu kimi işlərin hamısı onlara ibadət sayılaraq, haram və şirk olardı. Halbuki heç kəs bu fikirdə deyildir.

٢. Peyğəmbərin (s) şərif qəbri üzərində təbərrük etmək və ona toxunmaq böyük şəxsiyyətlərin və səhabələrin adətləri idi. Rəvayət olunub ki, Peyğəmbər (s) dəfn olunandan sonra Fatimeyi-Zəhra qəbrin torpağından götürüb gözünə sürtdü və ağladı.[١] Həmçinin rəvayət olunmuşdur ki, bir gecə Bilal Peyğəmbəri (s) yuxuda gördü. Peyğəmbər ona xitabən buyurdu: «Bilal! Bu nə cəfadır ki, mənim haqqımda rəva görüb ziyarətimə gəlmirsən?» Bilal ağlar halda yuxudan durdu və Peyğəmbərin (s) qəbrini ziyarət etmək məqsədi ilə Mədinəyə yola düşdü. Peyğəmbərin (s) qəbrini qucaqladı və ağladı.[٢] Həmçinin İbni Münkədərdən rəvayət olunmuşdur ki, o, dili tutularkən özünü üzü üstə Peyğəmbərin (s) qəbrinin üstünə saldı. Bunun səbəbini soruşduqda, dedi: «Narahatlığım (və xəstəliyim) var idi, Peyğəmbərin (s) qəbri ilə şəfa aldım».[٣]

**Z. Bayram keçirmək;**

Vəhhabilər Peyğəmbərin (s) milad günündə şadlıq və bayram mərasimlərinin keçirilməsini bid᾽ət hesab edirlər. İbni Teymiyyə deyir: «Bu günün bayram hesab edilməsi yeni bir işdir və İslamda onun əsası yoxdur. Nə əvvəlkilərin, nə Peyğəmbər (s) Əhli-beytinin və nə də başqa şəxslərin arasında bu günün bayram kimi qeyd edilməsi görünməmişdir. Bu əməl məsihilərin həzrət İsa (ə)-la bağlı əlamətdar günlərini qeyd edilməsi kimidir. Əgər Peyğəmbərə (s) tə᾽zim və məhəbbət göstərmək xeyirli və üstün bir əməl olsaydı, bizdən əvvəl yaşayanlar bu işi görməyə daha layiqli olardı.»[٤]

Vəhhabilər bu barədə Peyğəmbərdən (s) nəql olunan bir hədisə istinad edib deyirlər ki, o həzrət (s) buyurmuşdur: «Öz evlərinizi qəbirə oxşatmayın və mənim

---

[١] «İrşadus-sari», ٣-cü cild, «Vəfaul-vəfa», ٤-cü cild və s.

[٢] «Siyəru ə᾽lamin-nəbla», ١-ci cild, Usdul-ğabə, ١-ci cild, «Şifaus-siqam», səh.٣٩.

[٣] «Vəfaul-vəfa», ٢-ci cild.

[٤] «İqtizaus-siratil-müstəqim».

qəbrimi bayram etməyin, əksinə mənə salavat göndərin ki, sizin salamınız harda olsam, mənə çatacaq.»[١]

## *TƏNQİD VƏ ARAŞDIRMALAR*

١. Yuxarıda qeyd olunan hədis sənəd baxımından münaqişəli olmaqdan əlavə, mətn baxımından da naqisdir. Çünki, «eyd» mövsüm məʾnasınadır və bu cümlədə qəbir sözü xəbər ola bilməz. Çünki «qəbrin bayram edilməsinin» heç bir məʾnası yoxdur. «Eyd» zamanla əlaqədardır və demək olar ki, filan zaman, filan gün bayram olaraq nəzərdə tutulur. Bundan əlavə, əgər hədisin zahiri məʾnasını nəzərə alsaq belə, onun ilk hissəsi müsəlmanlar tərəfindən diqqət mərkəzinə alınmamışdır. Çünki, Peyğəmbəri-Əkrəmin mübarək cənazəsi məhz öz evində dəfn edilmişdir.

٢. Ehtiram və təʾzimin ibadətlə əsaslı fərqi vardır. Çünki ibadət o yerdə olar ki, məʾbudun «ilah» və «rəbb» olması nəzərdə tutulsun. Bu da Peyğəmbərin (s) (yaxud sair ilahi övliyaların və böyük şəxsiyyətlərin) əzizlənib ehtiramla yad edilməsi, onların təvəllüdünün bayram tutulmasına aid edilə bilməz.

٣. İslam şəriətində hər hansı işlə əlaqədar aşkar şəkildə qadağan gəlməyibsə, ilk qayda o işin caiz və mübah olmasını tələb edir. Bundan əlavə, Peyğəmbərə (s) və onun Əhli-beytinə qarşı məhəbbət bəsləməklə əlaqədar aşkar Qurʾan ayəsi möcuddur.

**«(Ya Peyğəmbər!) De ki: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlarıma məhəbbətdən başqa bir şey istəmirəm"...»**[٢]

Buna əsasən Peyğəmbərin (s) yaxud Əhli-beytinin təvəllüd günləri münasibəti ilə bayram, şənlik keçirmək bu pak və şərafətli ailəyə məhəbbət göstərməyin ən bariz nümunələrindən biridir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər ilahi övliyaların qəbirləri üzərində məscid tikməyin haram olmasına nə kimi dəlil gətirirlər? Onun cavabı nədir?

٢. Nə üçün vəhhabilər qəbirlərin üzərində çıraq yandırmağın əleyhinədirlər? Onların dəlilləri düzgündürmü?

٣. Hansı hallarda qəbirlərin kənarında dua və ibadət etmək caiz olmaz?

٤. Vəhhabilərin qəbirlərə təbərrük etmək barəsində nəzərləri nədir?

٥. Qəbirlərə təbərrük etməyin caiz olmasını necə isbat etmək olar?

٦. Vəhhabilərin ilahi övliyaların miladları münasibəti ilə bayram keçirməyin caiz olmamasına dəlilləri nədir?

---

[١] Müsnədi Əhməd ibni Hənbəl, ١٣-cü cild.

[٢] Şura-٢٣

٧. Bu bayramların keçirilməsinin caiz olmasını necə isbat etmək olar?

# İYİRMİ ALTINCI DƏRS

## *VƏHHABİLİK (٨)*

## *ƏMƏLLƏRİ*

*١. Vəhhabilər necə inkişaf etdilər?*
*٢. İslam aləmində vəhhabilərin rolu və tə᾿siri necə olmuşdur?*

Keçən dərslərdə vəhhabilərin öz nəzərləri, eləcə də onların sair müsəlmanların əməl və əqidələri ilə əlaqədar olan fikirləri araşdırılıb tənqid edildi. Vəhhabilər müsəlmanların bir çox əməl və rəftarlarını şirk hesab etdiklərinə görə yarandığı ilk vaxtlardan e᾿tibarən (yə᾿ni, Məhəmməd ibni Əbdül Vəhhabın dövründə) İslami bina və əsərləri məhv edib aradan aparmaq fikrinə düşdülər; bu məqsədlə də müxtəlif şəhərlərə hücum etdilər, müsəlmanlardan çoxunu müşriklikdə təqsirləndirib qılıncdan keçirdilər. Bu dərsdə vəhhabilərin törətdikləri cinayətlər qısa şəkildə şərh olunacaq.

On doqquzuncu dərsdə qeyd olundu ki, Məhəmməd ibni Əbdül Vəhhab Nəcd vilayətinin Dir᾿iyyə şəhərinə daxil olduqda, kiçik Ğuneyzə qəbiləsinin əmiri olan Məhəmməd ibni Səuda bütün Nəcd əyalətinə rəhbər olmaq və᾿dəsi verərək, onu özü ilə həmfikir edə bildi və daha sonra (h.q.١١٥٩-də) qonşu qəsəbə və şəhərlərə hücum etdi; uzun-uzadı çarpışmalardan, camaatın kütləvi şəkildə qətlə yetirilməsindən sonra o, Nəcd vilayətinə tam mə᾿nada hakim kəsildi.

Məhəmməd ibni Səud ١١٧٩-cu hicri ilində Nəcd əyalətində ٣٠ il hökmranlıq etdikdən sonra öldü və onun oğlu Əbdül Əziz atasının yerinə keçdi. Məhəmmədin ən böyük oğlu olan Əbdül Əziz təqribən ٣٠ il müxtəlif qəbilələrlə vuruşdu və ١٢٠٨-ci hicri ilində Ehsa və Qüteyd məntəqələrini ələ keçirib Fars körfəzi sahillərinə çatdı. Həmin vaxtlarda yə᾿ni, ١٢٠٦ ya ١٢٠٧-ci hicri ilində Məhəmməd ibni Əbdül Vəhhab dünyadan getdi və böyük oğlu şeyx Əbdüllah onun yerinə keçdi.

١٢٠٧-١٢١٤-cü hicri illərində vəhhabi ordusu Məkkəni ələ keçirmək uğrunda Məkkə əmiri Şərif Ğaliblə müharibəyə başladı və nəticədə bu müharibə qarşılıqlı sülhlə sona çatdı.

Əbdül Əziz ١٢١٥-ci ildə oğlu Səud və Nəcd əyalətinin köçəri və yerli əhalisi ilə birlikdə Həccə doğru hərəkət etdi, amma yolda özündə ağırlıq hiss edərək Nəcdə qayıtdı və həcc səfərini Səud yerinə yetirdi. O, bu səfərində Əsir, Təhamə, Bəni hərb qəbilələrini özünə müttəfiq edə bildi.

## *İRAQA HƏMLƏ*

Vəhhabilər ١٢١٤-cü ildə Nəcəfi-Əşrəfə hücum etdilər, lakin Xəzail ərəblərinin şiddətli müqaviməti ilə qarşılaşdılar və ٣٠٠ nəfər təlafatla geri çəkilməyə məcbur oldular. ١٢١٦-cı ildə də Səud ibni Əbdül Əziz atasının göstərişi ilə Kərbəlaya həmlə etdi və camaatı kütləvi şəkildə qırdı. Vəhhabi yazıçılarından olan Səlahəddin Muxtar yazır: «١٢١٦-cı ildə əmir Səud böyük qoşunla Nəcd camaatından və Vəhbub, Hicaz və Təhamənin köçərilərindən bir çoxu ilə İraqa doğru hərəkət etdi; Zilqə`də ayında Kərbəlaya çatdı və oranı mühasirəyə aldı. Həmin qoşun şəhərin qala divarlarını dağıdaraq, zorla içəri daxil oldular. Camaatın çoxunu küçədə, bazarda və öz evlərində qətlə yetirdilər və günortaya yaxın şəhərin çoxlu miqdarda qənimət və var-dövlətini ələ keçirərək xaric oldular. Sonra Əbyəz adlı bir yerdə toplaşaraq qənimətləri öz aralarında böldülər.» Vəhhabi tarixçilərindən olan Şeyx Osman ibni Bişr yazır: «Qəbrin (Hüseyn ibni Əlinin məqbərəsinin) günbəzini viran etdilər. Zümrüd, yaqut və sair cəvahiratla bəzədilmiş qəbrin üzərindəki sandığı oğurladılar və şəhərdə mövcud olan mal-dövlət, silah, libas, xalça-palaz, qızıl-gümüş, nəfis Qur`anlar və sair şeyləri qarət edərək günorta zamanı şəhərdən çıxdılar. Bu zaman Kərbəla əhalisindən ٢٠٠٠ nəfərə yaxın öldürmüşdülər».

Vəhhabilər ١٢٢١-ci ildə Nəcəfi-Əşrəfə həmlə etdilər, amma şəhərin bürcləri, keşikçi postları olduğuna və ətrafa xəndək çəkildiyinə görə, digər tərəfdən camaat və dini tələbələri şeyx Cə`fər Kaşiful-ğitanın rəhbərliyi ilə şəhəri müdafiə etdiyinə görə vəhhabilər şəhərə daxil ola bilmədilər, ٧٠٠ nəfər təlafatla geri çəkilməyə məcbur oldular. Oradan Hilləyə həmlə etdilər. Yenə də camaatın tam hazırlığı və kəskin müqaviməti ilə rastlaşdılar. Bir daha Kərbəlaya hücum etdilər. Bu dəfə Kərbəla camaatı müqavimətə hazırlıqlı idilər. Buna görə də müharibə şəhərdən kənarda baş verdi və Səud öz qoşunu ilə şəhərə daxil olmadan geri qayıtdı. Vəhhabilər bir daha ١٢٢٥-ci ildə Nəcəf və Kərbəlaya hücum etdilər, bir müddət bu iki şəhəri mühasirədə saxladılar və oraya gələn ziyarətçilərin çoxunun mal-dövlətini qarət edib özlərini də qətlə yetirdilər.

## *TAİF VƏ MƏKKƏYƏ HÜCUM*

Vəhhabi ordusu ١٢١٧-ci ildə Əbdül Əzizin göstərişi və Osman Məzayiqinin komandanlığı ilə Taif şəhərinə (Məkkənin ١٢ fərsəxliyində yerləşir) həmlə etdilər və camaatı kütləvi şəkildə qırdılar. Cəmil Sidqi Zəhavi Taifin fəth olunması

barədə belə yazır: «Vəhhabilərin ən çirkin işlərindən biri camaatı kütləvi şəkildə qırmaları idi. Onlar böyüyə kiçiyə rəhm etmədilər, südəmər uşaqların başlarını analarının qucağındaca kəsdilər. Qur᾽an öyrənməyə məşğul bir qrupu öldürdülər, evlərdə bir kəs qalmadığından mağazalara, məscidlərə gedib qarşılarına çıxan hər bir şəxsi, hətta səcdə halında olan namaz qılanları belə öldürdülər. Aralarında çoxlu Qur᾽an, «Səhihi Buxari», «Səhihi Müslüm» və s. fiqh və hədis olan külli miqdarda kitabları küçə-bazara dağıdıb məhv etdilər. Bu hadisə ١٢١٧-ci hicri ilində baş vermişdi.»

Bundan sonra vəhhabilər Məkkəyə üz tutdular. Bu dəfə vəhhabi ordusu Səudun rəhbərliyi ilə ١٢١٨-ci ilin Məhərrəm ayında Məkkəyə daxil olub oranı işğal etdi. Məkkə əhalisi vəhhabilərin törətdikləri ağır cinayətləri, vəhşicəsinə əməlləri və faciələri eşitdiklərindən həmin faciələrin təkrar olunmaması naminə onun hakimiyyətini qəbul etdilər. Bu zaman Səud onlardan tələb etdi ki, qəbirlərin üzərində düzəldilən qübbələri öz əlləri ilə dağıtsınlar. Buna görə də vəhhabilər camaatın bir çoxu ilə bel və külüng götürüb «Cənnətül-Müəlla» qəbristanlığına getdilər və orada çoxlu günbəzləri o cümlədən Əbu Talibin, Əbdülmüttəlibin, Xədicənin, Peyğəmbərin (s) övladlarının günbəzlərini, həmçinin Peyğəmbərin (s), Əbu Bəkrin, Əli (ə) və Xədicənin doğulduğu yerdəki günbəzləri dağıtdılar.

Məkkənin işğal olunmasından iyirmi gün sonra Səud Cəddəni işğal etmək və Şərif Ğalibi tutmaq üçün (o dövrdə Cəddədə əmir idi) Cəddəyə doğru hərəkət etdi. Səkkiz gün bu şəhəri mühasirədə saxladı, şəhəri müdafiə edən topxananın təzyiqləri altında Cəddəni işğal etmək fikrindən döndü və iranlıların Fətəli şah Qacarın göstərişi ilə Nəcdə hücum etməsi xəbərini eşitdikdə Nəcdə qayıtdı. Səudun Nəcdə qayıtması ilə eyni zamanda Şərif Ğalib ona hədiyyə olunan topxana ilə Məkkəni azad etmək üçün hərəkət etdi və vəhhabilərlə ağır çarpışmadan sonra Məkkəni öz ixtiyarına keçirdi. Amma ١٢١٩-cu ildə Məkkə yenidən Səudun vasitəsi ilə mühasirəyə alındı və Məkkə əhalisinin həyat şəraiti o qədər ağırlaşdı ki, hətta az qaldı aclıq və xəstəlikdən kütləvi şəkildə məhv olub aradan getsinlər. Nəhayət Şərif Ğalib ١٢٢٠-ci ildə vəhhabilərin əqidəsini qəbul edərək Səuda təslim oldu.

## *MƏDİNƏYƏ HƏMLƏ*

Səud ١٢٢٠-ci ildə Mədinəyə həmlə etdi, oranı bir il yarım mühasirədə saxladıqdan sonra işğal etdi. Osmanlı dövləti tərəfindən şəhərə tə᾽yin olunmuş qazini şəhərdən qovdu və Peyğəmbərin (s) pak qəbrini, eləcə də «Bəqi»də dəfn olunmuş böyük şəxsiyyətlərin qəbrlərini ziyarət etməyi qadağan etdi. Sonra vəhhabilərə göstəriş verdi ki, «Bəqi» qəbristanlığının qəbir və hasarlarını dağıtsınlar. Buna görə də onlarla birlikdə qəbristanlığa həmlə etdi, orada mövcud

olan abidələri və qəbirləri dağıdıb, yerlə-yeksan etdi, gördükləri hər bir qiymətli əşyaları qarət etdi.

## *SURİYAYA VƏ MƏSQƏTƏ HƏMLƏ*

Vəhhabilər ١٢٢٥-ci ildə Əbdüllah ibni Səudun sərkərdəliyi ilə Suriyada yerləşən Xoran məntəqəsinə həmlə etdi və camaatın var-yoxunu taladı, əkin sahələrini yandırdı, qadınları əsir etdi, uşaqları qılıncdan keçirib evləri dağıtdı və böyük bir qrupu didərgin saldı.

Sonrakı il (١٢٢٦-cı) Məsqəti işğal etmək məqsədi ilə oraya həmlə etdi. Lakin, bu şəhərin əmiri İrandan kömək istədi və oradan kömək üçün Məsqətə tərəf bir ordu yola düşdü və vəhhabilərlə qarşılaşdı. Vəhhabilər çoxlu insan təlafatı verdilər, onların sərkərdələri Seyf ibni Malik və Məhəmməd Seyf də yaralı halda qaçdılar.

## *TƏNƏZZÜL VƏ YENİDƏN DİRÇƏLİŞ*

١٢٢٥-ci ildə Məhəmməd Əli Paşa (Misirin sultanı) Osmanlı sultanının göstərişi və oğlu Əhməd Tulunun sərkərdəliyi ilə Yənbu limanına doğru bir qoşun göndərdi. O, vəhhabi Əbdüllah ibni Səudun başçılığı altında onun qoşunu ilə apardığı bir neçə döyüşdən sonra ١٢٢٧-ci ildə onunla sülh bağladı, nəticədə Məkkə, Mədinə və Taif şəhərlərini azad etdi. Taifin fatehi Osman Muzayifi və Mədyənin əmiri Mübarək ibni Mizyanı tutub Misirə apardı və orada qətlə yetirdi. Həmin halda Məhəmməd Əli Paşa bir ordu ilə dəniz yolundan Hicaza hərəkət edib Cəddə limanına yan aldı, sonra Cəddədən Məkkəyə getdi və oranı öz qərargahı seçdi. Daha sonra Nəcd əyalətindəki Qunfuzə məntəqəsini işğal etmək üçün həmlə etdi və şiddətli döyüşdən sonra oranı ələ keçirdi. Məhəmməd Əli Paşa təqribən ١٢٣٠-cu ildə İbrahim paşanın sərkərdəliyi ilə başqa bir qoşunu Nəcdə göndərdi. İbrahim ١٣٣٢-ci ildə Nəcddə Riclə əyalətini öz əlinə keçirdi və daha sonra vəhhabi hökumətinin mərkəzi olan Dir`iyyəyə hücum etdi, ağır döyüşdən sonra ١٢٣٤-cü ildə şəhəri aldı. Həmin ilin Şə`ban ayında İbrahim Paşa Məhəmməd Əli Paşanın göstərişi ilə böyük və təmtəraqlı şəhər olan Dir`iyyəni, əhalisini boşaltdıqdan sonra tamamilə dağıdıb yerlə yeksan etdi və sonra Misirə qayıtdı.

١٢٣٤-cü ilin axırlarında şəhərdən qaçan vəhhabilərin çoxu xaraba qalmış Dir`iyyəyə qayıtdılar və oranı tə`mir etməyə başladılar. Vəhhabi başçılarından Məhəmməd ibni Muşari (Səud ibni Əbdül Əzizin bacısı oğlu) və Türki ibni Əbdüllah şəhərdən qaçıb gizlənmişdilər və bu zaman onlar da şəhərə qayıtdılar. Qüvvələrini nizama saldıqdan sonra çoxlu həmləyə tədarük görüb əvvəlcədən işğal etdiyi məntəqələrin hamısına yürüş etdilər. O yerləri yenidən işğal etdikdən sonra ilk hücumda törətdikləri əməlləri, o cümlədən İslami tikililərin məhv

edilməsi, böyük şəxsiyyətlərin qəbirlərinin dağıdılması və s. kimi işləri təkrar etdilər və ١٣٤٤-cü ilə qədər təqribən Hicazın hər bir yerinə hakim oldular.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Vəhhabilər Nəcd əyalətinə necə hakim oldular?

٢. Vəhhabilər İraqa həmlə etdikdə hansı işləri gördülər?

٣. Vəhhabilər Məkkə və Mədinəyə nə vaxt həmlə etdilər və oranı necə tutdular?

٤. Vəhhabilər Mədinəyə həmlə etdikləri zaman nə kimi işlər gördülər?

## İYİRMİ YEDDİNCİ DƏRS

## *SAİR SÜNNÜ FİRQƏLƏRİ*

*١. Təhaviyyə, Cühəmiyyə və Kiramiyyə məzhəblərinin təfəkkürü necədir?*
*٢. Bu məzhəblərin tə᾽sisçiləri kimlərdir?*

Keçən dərslərdə qeyd olunan firqə və məzhəblər sünnülərin əsas firqələrini təşkil edir. Bu firqələr həm İslam əqidəvi təfəkkürünün tarixinə tə᾽sir qoymaq baxımından, həm də ardıcıllarının çoxluğu və ya tarix boyu uzun müddət qaldıqlarına görə daha artıq əhəmiyyətə malikdirlər. Amma bu zaman bu cür tə᾽sir və əndişəyə malik olmayan başqa firqələr də zahir olmuşdur. Bu dərsdə yalnız qısa tanışlıq üçün həmin firqələr haqda söhbət açacağıq.

### ١. *TƏHAVİYYƏ*

Təhaviyyə məzhəbi Əbu Cə᾽fər Əhməd ibni Məhəmməd ibni Sələmət Əl-əzudi Əl-hicri Ət-təhaviyə mənsub edilir. Təha-Ülya Misrin kəndlərindən biridir. Əbu Cə᾽fər Təhavinin təvəllüd tarixi barəsində tarixçilər arasında ixtilaf vardır. Onlar ٢٢٩, ٢٣٠, ٢٣٨, ٢٣٩ kimi tarixləri qeyd etmişlər. Lakin onun ən çox ehtimal olunanı ٢٢٩-cu ildir. ٣٢١-ci ildə Misirdə vəfat edib.

Təhavi Əbul Həsən Əş᾽ərinin və Əbu Mənsur Maturidinin müasiri idi və onlar kimi Əhli-hədisin ardıcıllarından sayılırdı. Amma bildiyimiz kimi, Əş᾽əri və Maturidi Əhli-hədis düşüncələrini dirçəltmək üçün onların ideoloji əsaslarına əqli daxil etmək fikrində idilər. Bununla eyni zamanda Əhli-hədisin ideoloji əsaslarına tənqid nəzəri ilə baxırdılar və nəticədə Əhli-hədislə müəyyən nəzərlər barəsində ixtilafa düçar oldular. Amma o, bu iki şəxsin əksinə olaraq, yalnız Əhli-hədisin nəzəriyyələrində mövcud olan anlaşımazlıqları aradan qaldırıb onları islah etmək fikrində idi. Buna görə də Əhli-hədisin bütün ideoloji əsaslarını qəti və danılmaz prinsiplər kimi qələmə verirdi və çalışırdı ki, onun əqidəvi əsaslarını möhkəmlətsin.

Buna əsasən Təhavi yeni bir e᾽tiqad ayin tə᾽sis etməmişdir. Hətta onun ən məşhur kəlam risaləsi olan «Bəyanus-sünnəti vəl-cəmaəti» (o, «Əqiətu təhaviyyə» adı ilə məşhurdur) kitabının müqəddiməsində özünün dediyi kimi, Əhli-

sünnənin əqidələri, Əbu Hənifə, Əbu Yusif və Məhəmməd Şeybaninin rə᾽yləri əsasındadır. Amma, Təhavini məşhurlaşdıran şey Mö᾽təzilənin fəlsəfi fikirlərinin böhranlı hala düşməsindən sonra Əhli-hədisin əqidələrini yenidən bərpa etməsidir. Demək olar ki, Təhavi bu məzhəbi yeni bir bəyanla bir növ dirçəltmiş və çalışmışdır ki, onun əsaslarında yaranan şəkk-şübhələri və anlaşılmazlıqları müəyyən qədər aradan qaldırsın.

Təhavi bir çox kitablar yazıb-yaratmışdır. O cümlədən, aşağıdakı kitabların adlarını qeyd etmək olar:

١. «Şərhu məanil asar»;
٢. «Şərhu muşkilu əhadisi Rəsulillah»;
٣. «Əhkamul-Qur᾽an»;
٤. «İxtilaful-füqəha»;
٥. «Ən-nəvadirul-fiqhiyyə»;
٦. «Əş-şurutul-kəbir»;
٧. «Əş-şurutul-ovsət»;
٨. «Şərhul-camius-səğir»;
٩. «Şərhul camiul-kəbir»;
١٠. «Əl-müxtəsərus-səğir»;
١١. «Əl-müxtəsərul kəbir»;
١٢. «Mənaqibu Əbi Hənifə»;
١٣. «Ət-tarixul-kəbir»;
١٤. «Ər-rəddu əla kitabil-müdəlləsi»;
١٥. «Kitabil-fəraiz»;
١٦. «Kitabul vəsayə»;
١٧. «Hökmu ərazi Məkkə»;
١٨. «Əqidətut-təhaviyyə».

## ٢. *ZAHİRİYYƏ*

Zahiriyyə ٢٠٠, yaxud ٢٠٢-ci ildə Kaşanda dünyaya gəlmiş və ٢٧٠-ci ildə dünyadan getmiş Davud ibni Əli İsfahaniyə mənsub edilən firqənin adıdır. Öz zəmanəsinin məşhur fəqihlərindən olan Davud ibni Əli əvvəlcə Hənəfi fiqhində idi, amma Şafei məzhəbinin fəqihlərindən çoxunun, o cümlədən Əbu Sovrun yanında bir müddət təhsil aldığına görə Hənəfi məzhəbindən əl çəkib Şafei məzhəbinə qoşuldu.

Davud hədislərin və Qur᾽anın zahiri mə᾽nalarına əməl etmək yönünə malik olan fiqhi əqidəsini kəlam və əqidə çərçivəsinə saldı və etiqadi məsələlərdə əqlin və düşüncənin rolunu ümumiyyətlə inkar etdi. O, inanırdı ki, ayələrin və hədislərin zahirindən əldə olunanları (dərk etdikləri) qəbul etmək və onlara inanmaq lazımdır. Deyilmişdir ki, zahiriyyə ideologiyası batiniyyə hərəkatının

qarşısında yaranmışdır. O zaman şiələrin arasında batiniyyə adı ilə məşhur olan bir ideoloji cərəyan formalaşmışdı. Çünki onlar inanırdılar ki, şəriətin zahiri hökmlərinin hamısı (istər Qur᾽an ayələri, istərsə də rəvayətlər) müəyyən batini mə᾽nalara malikdir və batini mə᾽nalarda dərindən düşünərək onları yozmaq və həqiqəti kəşf etmək lazımdır. Bu ideoloji cərəyanda yunan fəlsəfəsinin təfəkkür prinsipləri mövcud olduğundan, sünnü alimləri onu bid᾽ətçi bir cərəyan kimi dindən xaric hesab edirdilər. Bu cərəyan xüsusilə Mə᾽munun xilafəti dövründə (h.q.١٩٨-٢١٨) çox güclü idi və İran, İraq, Qərbi Hindistandan başlayaraq, Əmman və Şimali Afrikaya qədər olan geniş İslam ərazilərində yayılmışdır.

Belə bir şəraitdə Zahiriyyə təfəkkürü batinçilərin təfəkkürünü rədd etmək üçün yaranmışdır. Onlar İslami əqidə prinsiplərində hər növ fəlsəfə və əqlin dəxalətini rədd etməklə, onların zahirlərinə əməl etməyi, şəriətin zahirinə əqidə bağlamağı caiz bilirdilər.[١]

Zahiriyyəçilər şəriətin zahiri hökmlərini əxz etmək məsələsində o qədər ifrata varmışdılar ki, ilahi hökmlərin kəşf edilməsində ictihadı belə inkar edirdilər. Zahiriyyəçilər bu əqidədə Ən᾽am surəsinə ٣٨-ci ayəsinə istinad edirdilər. Buna görə də inanırdılar ki, hər bir şey Allahın kitabında zikr olunubdursa, onun barəsində ictihada yer qalmır və Allahın kitabının zahirinə əməl etmək kifayətdir.

Hədislərin və ayələrin zahiri mə᾽nalarını əxz (əməl) etmək nəticəsində ilkin Əhli-hədisin ideoloji bünövrələrində mövcud olan nəticələrdən başqa bir şey hasil olmadı. Yə᾽ni, onlar Allah-taala barəsində istər-istəməz təşbih və təcsim əqidəsinə gəlib çıxırdılar.

## ٣. *CÜHƏMİYYƏ*

Cəhm ibni Səfvan Səmərqəndi ardıcıllarına Cühəmiyyə firqəsi deyilir. O, ١٢٨-ci hicri ilində vəfat etmişdir.

Cühəmiyyənin müstəqil bir firqə şəkilinə düşüb sair firqələrdən ayrı qeyd olunmasının səbəbi onlar tərəfindən irəli sürülən beş nəzərdir:

١. Mütləq şəkildə cəbrə inanmaq; Cühəmiyyəçilər inanırdılar ki, insan heç bir şeyə qadir deyildir və istitaət vəsfi onun üçün işlədilə bilməz, əksinə o, bütün işlərdə məcburdur, onun fe᾽llərini icad edən də məhz Allahdır. Eləcə də, sair varlıqların fe᾽llərini, istər bitkilərin, istər heyvanların, istər cansızlara aid olan işləri Allah xəlq edir. Fe᾽llər məcazi mə᾽nada məxluqa aid edilir. Məsələn, ağacın meyvə verməsi, suyun axması, daşın diyirlənməsi və s.

٢. Tə᾽til; Cühəmiyyə bütün sifətləri Allahdan inkar edir və inanırdılar ki, Allahı məxluqatın vəsf edildiyi sifətlərlə vəsf etmək olmaz.

---

[١] Miyan Məhəmməd Şərif, «Tarix və fəlsəfə dər islam», ١-ci cild.

٣. Allah elminin hadis olması; Cühəmiyyəçilər Allahın elmini hadis bilir, amma, deyirlər ki, bu, sair varlıqların vəsf edildiyi bir tərzdə deyil.

٤. İman və küfr; Cühəmiyyəçilər inanırdılar ki, iman Allah barəsində mə`rifət kəsb etmək mə`nasınadır. Bunu dildə demək də lazım deyildir. Küfr də Allah barəsində cahil olmaq mə`nasınadır.

٥. Behişt və cəhənnəm. Cühəmiyyəçilər behişt və cəhənnəmin əbədi olmasını inkar edərək deyirdilər ki, insanlar behiştdə Allahın ne`mətlərindən faydalanıb, cəhənnəm əhli cəhənnəm əzabına düçar olduqdan sonra hər bir şey (behişt və cəhənnəm) aradan qalxacaqdır.

## ٤. *KİRAMİYYƏ*

Bu firqənin üzvləri ٢٥٥-ci hicri ilində vəfat etmiş Məhəmməd ibni Kiram Sistaniyə mənsub edilir. Kiramiyyə təfəkkürünün əsası təcsim üzərindədir. Onlar Allahın cism olmasına inanırlar. Onlar hədd, son, cəhət və s. bu kimi şeyləri Allaha aid edir və həmçinin Allahı hadislərin hülul etdiyi yer hesab edirlər. Onlar deyirlər ki, Allahın sözü, iradəsi və idrakı hadis olmuşdur və Allah bu hadisələrin hülul etdiyi yerdir.

Bunu da qeyd etmək lazımdır ki, sonuncu iki firqə dində icad etdikləri çoxlu bid`ətlər və inhirafçı nəzəriyyələr səbəbi ilə sünnü alimləri tərəfindən rədd edilmiş və onların əqidələri bid`ət və zəlalət kimi tanıtdırılmışdır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Təhaviyyə məzhəbinin Maturidiyyə və Əş`ərilərlə olan fərqi nədir?
٢. Təhavi Əhli-hədis məzhəbinə nə kimi xidmətlər etdi?
٣. Zahiriyyə məzhəbinin əsas nəzəriyyələri nədir?
٤. Zahiriyyə ilə batiniyyə məzhəblərinin fərqi nədir?
٥. Cühəmiyyə təfəkkürünün ən mühümlərini bəyan edin.
٦. Nə üçün Kiramiyyə firqəsi bid`ət və zəlalətlə ittiham olundu?

# ÜÇÜNCÜ FƏSİL

## *XƏVARİC*

# İYİRMİ SƏKKİZİNCİ DƏRS

## *XƏVARİC (١)*

## *YARANMA TARİXİ*

*١. Xəvaric kimlərə deyilir?*
*٢. Xəvaric cərəyanı necə formalaşmışdır?*
*٣. Xəvaricin əqidəvi əsaslarının ən mühümü hansılardır?*

Siffeyn müharibəsində Müaviyənin ordusu Əmr Asın məkrli hiylələri ilə Qur᾽anları nizələrin ucuna keçirib Əmirəl-mö᾽minin Əlinin (ə) ordusuna e᾽lan etdilər ki, gəlin müharibə və qan axıdılması yerinə Qur᾽anı öz aramızda hakim edək. Əlinin (ə) zahiri nəzərlərə əsir olan və Müaviyənin zahirdə qurduğu hiylələrə aldanan ordusundan bir qrupu Əli ibni Əbi Talib (ə)-a xitabən dedilər: Bunlar bizi Allahın kitabına də᾽vət edirlər, sən isə bizi qılınca çağırırsan?!

Əmirəl-mö᾽minin Əli (ə) onları Müaviyə və Əmr Asın hiyləli və məkrli planlarından agah etməyə çalışdısa, heç bir nəticə hasil olmadı. O qrup Əli (ə)-dan son dərəcə həyasızlıqla tələb etdilər ki, Müaviyənin xeyməsinə çatmaqda olan Malik Əştərin qayıtmasına göstəriş versin, əks halda üçüncü xəlifə Osman ibni Əffanla etdikləri rəftarı o həzrətlə də edəcəklər.

Əmirəl-mö᾽minin Əli (ə) öz batini istəyinin əksinə olaraq, Malikin qayıtmasına göstəriş verməyə məcbur oldu. Atəşkəs e᾽lan olundu və iki ordu arasında mühakimənin həkəmiyyətə tapşırılması qərara alındı. Müaviyə tərəfindən Əmr As nümayəndə seçildi. Əmirəl-mö᾽minin Əli (ə) Əbdüllah ibni Abbası öz tərəfindən nümayəndə seçmək istəyəndə, həmin qrup kəskin şəkildə müxalifətçilik edərək dedilər ki, bu şəxs (yə᾽ni, İbni Abbas) sənin ailəndəndir. Sonra həzrət Əlini (ə) məcbur etdilər ki, Əbu Musa Əş᾽ərini həkəm tə᾽yin etsin.

Həkəmiyyət qərara alındıqdan və iki nümayəndə e᾽lan edildikdən sonra həkəmiyyətin çıxardığı nəticə həmin qrup üçün çox ağır gəldi. Bu zaman Əlini (ə) tənqid edib dedilər ki, əgər o haqq xəlifədirsə, bəs nə üçün həkəmiyyəti qəbul etdi?! Onlar bununla da kifayətlənməyərək iddia etdilər ki, «İnil hökmü illa lillah» ayəsinin tələbinə görə, hökm yalnız Allaha məxsusdur və heç kəsin həkəmiyyət haqqı yoxdur.

Bu qrup elə həmin yerdə Əmirəl-mö᾽minin Əlinin (ə) ordusundan ayrıldı və İslam tarixində «xəvaric» adlanan bir cərəyanı təşkil etdilər. Bu qurupa ona görə xəvaric deyirdilər ki, onlar Əmirəl-mö᾽minin Əlinin (ə) fərmanından imtina edərək onun əleyhinə qiyam etmişdilər. İslam mədəniyyətində imamın əleyhinə qiyam edən hər şəxs xarici yə᾽ni, qiyamçı adlanır. «Xəvaric» də «xarici» kəlməsinin cəm formasıdır. Əlbəttə bu qrupu «şurat» kimi təqdim edirdilər. Bu sözün kökü Bəqərə surəsinin ٢٠٧-ci ayəsində əxz edilib. «Yə᾽ni, camaatdan bə᾽ziləri Allahın razılığını kəsb etmək yolunda öz canını satırlar».

Xəvaric «mariqin» də adlandırılırdı. Mariq «xaric olmuş», «kənara getmiş» mə᾽nasınadır. Bu tə᾽bir həm Peyğəmbərdən (s) nəql olunan rəvayətdə, həm də Əlinin (ə) kəlamında qeyd olunmuşdur.

Peyğəmbərdən (s) Zul-Xuveysirə barəsində belə nəql olunur:

«Bu kişinin nəslindən bir dəstə yaranacaqdır ki, ox kamandan çıxdığı kimi, onlar da dindən çıxacaqlar».[١]

## *HƏRURADA YIĞINCAQ*

Xəvaric Siffeyn müharibəsindən qayıdarkən Əmirəl-mö᾽minin Əli (ə)-la birlikdə Kufəyə qayıtmadı. Onlar Kufənin Hərura adlı bir kəndində məskən saldılar və orada öz qruplarını təşkilat halına salaraq qərara aldılar ki, qərar çıxaran bir şura seçsinlər. Şibs ibni Rəbini müharibə komandanı və Əbdüllah ibni Kəvva᾽nı imam camaat təyin etdilər, «əmr be mə᾽ruf və nəhy əz münkər»i özlərinə şüar qərar seçdilər.

Xəvaricin Hərurada toplaşdığı vaxtdan sonra Əmirəl-mö᾽minin Əli (ə) Əbdüllah ibni Abbası onlarla münazirə (elmi mübahisə) aparmaq üçün seçib oraya göndərdi. İbni Abbas onların yanına gedən zaman xəvaricdən bir qrupu onu görərək fəryad etdilər: Vay olsun sənə, ey ibni Abbas! Allaha kafir olmusanmı, necə ki, dostun Əli ibni Əbi Talib oldu?

İbni Abbas dedi: Mən sizin hamınızla söhbət edə bilmərəm. Öz aranızdan başqalarından daha agah olanını seçin ki, mən onunla danışım.

İtab ibni Əhvər Sə᾽ləbi irəli çıxıb ibni Abbasın qarşısında dayandı. İbni Abbas ona dedi: Sənin üçün bir misal çəkmək istəyirəm (yə᾽ni, bir mətləbi demək istəyirəm). Yaxşı-yaxşı qulaq as, sonra cavab ver. Mənə de görüm «Darul-islam» kimin üçündür və onu kim buyurmuşdur?

İtab dedi: Bəli. Allah üçün. Onu Allahın Peyğəmbəri və müt᾽i bəndələrinin əli ilə tikmiş və Özünün seçdiyi peyğəmbərlərə əmr etmişdir ki, millətlərə Allaha xalis ibadət etməyi əmr etsinlər. Bir qrup iman gətirib digər bir qurup isə kafir oldular. Darul-islamda məb᾽us olan son peyğəmbər Həzrət Məhəmməd oldu.

---

[١] Şəhristani, «Əl-miləlu vən-nihəl», ١-ci cild, səh.١١٥.

İbni Abbas dedi: Bəli, düz dedin. De görüm Məhəmməd (s) Darul-islamı idarə etməyə məb᾽us olanda onun imarətlərini möhkəmləndirdi, onun hüdudlarını bəyan etdi və ümməti dinin maarifinə və şəriət hökmlərinə əməl etmək yoluna vaqif etdi, yoxsa yox?

İtab dedi: Bəli. Məhəmməd elə etdi.

İbni Abbas dedi: De görüm Məhəmməd (s) Darul-islamda əbədi qaldı, yoxsa ondan rehlət etdi?

İtab dedi: Rehlət etdi.

İbni Abbas dedi: Peyğəmbər (s) vəfat edərkən Darul-islam kamil binaya, açıq-aşkar vücuda malik olan halda xarab və viran oldumu?

İtab dedi: Peyğəmbərin (s) rehləti zamanı bu bina kamil, onun hüdudları da müəyyən və aşkar idi.

İbni Abbas dedi: Düzdür, lakin de görək Məhəmməd (s) özündən sonra bu evin abadlaşdırılması üçün bir kəsi seçdimi?

İtab dedi: Bəli. Səhabə, Əhli-beyt, vəsi və onun zürriyyəsi (sülaləsi) Peyğəmbərdən (s) sonra bu evi abad edənlərdən idi.

İbni Abbas soruşdu: Onlar öz vəzifələrinə əməl etdilər, ya etmədilər?

İtab dedi: Çalışdılar ki, bu evi abad etsinlər.

İbni Abbas soruşdu: De görüm bu ev (Darul-islam) Peyğəmbərin (s) qoyduğu kimi tam abadlıqdadır, yoxsa xarab olmuş və hüdudları tə᾽til olmuşdur?

İtab dedi: Xeyr. Hal-hazırda viran olmuşdur və onun hüdudlarına riayət edilmir.

İbni Abbas soruşdu: Onu Peyğəmbərin (s) zürriyyəsi xarab etdi, yoxsa ümməti?

İtab dedi: Ümməti.

İbni Abbas dedi: Ey İtab! De görüm, sən Allahın və Rəsulunun evini viran edən, onun hüdudlarını tə᾽til edən bir ümmətdən olduğun halda cəhənnəm odundan qurtarmağa necə ümid bəsləyirsən?

İtab dedi: «İnna lillahi və inna iləyhi raciun». Vay olsun sənin halına, ey İbini Abbas! Mənə kələk gəldin və məni ağır bir işə saldın. Məndən e᾽tiraf aldın ki, Allahın evini xarab edən şəxslərdənəm. İndi de görüm bu həlakətdən xilas olmağın yolu nədir?

İbni Abbas cavab verdi: Sənə vacib olan ilk şey budur ki, bu evin dağıdılmasında kimin çalışdığını görüb, onunla düşmənçilik edəsən, kimin də onu abadlaşdırmaqda çalışdığını görüb onunla dostluq edəsən.

İtab dedi: Düzdür, Allaha and olsun, indiki zamanda bu evin abadlaşdırılmasını sənin əmin oğlu Əli ibni Əbi Talibdən də artıq istəyən bir şəxs tanımıram. Lakin o, Əbu Musa Əş᾽ərini onun haqqı olmayan bir şeydə hakəm qərar verdi.

İbni Abbas dedi: Vay olsun sənin halına! Biz həkəm və münsif qərar verməyi Qur᾽andan götürmüşük. Nisa surəsinin ٣٥ və Maidə surəsinin ٩٥-ci ayələri bizim dediklərimizə aşkar sübutdur.

İbni Abbasın kəlamı bura çatanda xəvaric hər tərəfdən fəryad çəkərək dedilər ki, Əmr ibni As sənin nəzərində adil sayılırmı?! Halbuki, cahiliyyət dövründə cahiliyyət rəislərindən və İslam evinə bir yük olduğunu bilirsən. O, əbtər oğlu əbtərdir. Elə kəslərdəndir ki, Məhəmmədlə vuruşmuş və peyğəmbər ümməti arasında fitnə salmışdır.

İbni Abbas dedi: Ey camaat! Əmr As bizim tərəfimizdən həkəm deyildi. Onun barəsində bizi danlayırsınızmı?! Halbuki o, Müaviyənin həkəmi idi və Əli ibni Əbi Talib məni həkəm seçmək istəyəndə siz imtina edib dediniz ki, biz Əbu Musa Əş᾽əriyə razıyıq. Siz təqvalı olun, Əmirəl-mö᾽minin Əli (ə)-a itaət edin. Çünki onun öz haqqından əl çəkməsinə baxmayaraq, amma peymanın vaxtının keçməsini gözləyir ki, yenidən bu qövm ilə müharibə etsin. Əli Allahın ona verdiyi haqqdan əl çəkən bir adam deyildir.

Bu zaman xəvaric fəryad çəkib dedilər: Heyhat, İbni Abbas! Biz bu gündən sonra Əlinin vilayətinə qayıtmayacağıq! Get ona de ki, özü bizim yanımıza gəlsin və onunla mübahisə edək.

İbni Abbas Kufəyə qayıdıb bu xəbəri Əli (ə)-a bəyan etdi. Həzrət Əli (ə) səhabədən ١٠٠ nəfərlə birlikdə Həruraya getdi. Xəvaric bundan xəbər tutanda Əbdüllah ibni Kəvvanı ١٠٠ nəfərlə Əli (ə)-a tərəf göndərdi. Bu iki dəstə bir-biri ilə qarşılaşanda Əli (ə) Əbdüllaha xitabən buyurdu: Ey ibni Kəvva! Söz çoxdur, səhabələrindən bir dəstə ilə gəl səninlə danışım.

İbni Kəvva dedi: Sənin qılıncından amandayıqmı?

Həzrət buyurdu: Bəli. Sən mənim qılıncımdan amandasan.

İbni Kəvva səhabəsindən on nəfərlə birlikdə Əlinin (ə) yanına gəldi. Bu zaman Əli (ə) özü ilə Müaviyə arasındakı müharibəni şərh etdi və Qur᾽anın nizələrin başına keçirildiyi hadisəni, həkəmiyyətə necə razılaşdıqlarını, xəvaricin bu hadisə ilə müxalifətini ona xatırlatdı.

İbni Kəvva özünün on nəfər yoldaşı ilə Əlinin (ə) tərəfinə keçdi və xəvaricin dəstəsindən çıxdı. Lakin qalanları öz e᾽tiqadlarında qalaraq «La hökmə illa lillah və la taətə limən əsəllah» şüarını verdilər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Xəvaric cərəyanı necə formalaşdı?

٢. Xəvariclər «inil-hökmü illa lillah» şüarını kim üçün işlədirdilər?

٣. Xəvaric nə üçün özlərini şurat adlandırırdılar?

٤. Xəvaric cərəyanının tanınmış şəxsiyyətləri kimlər idi?

٥. İbni Abbasın İtab ibni Ə᾽vərlə mübahisəsi nə ilə nəticələndi?

# İYİRMİ DOQQUZUNCU DƏRS

## *XƏVARİC (٢)*

## *İLK XƏVARİCLƏRİN AQİBƏTİ*

*١. Əmirəl-mö᾽minin Əlinin (ə) zamanında xəvaricin fəaliyyəti nədən ibarət idi?*
*٢. Əli (ə) xəvariclə necə rəftar etdi?*

Keçən dərsdə xəvaric cərəyanının necə formalaşmasını şərh etdik və İbni Abbasın İtab ibni Ə᾽vərlə münazirəsini açıqlamaqla, bu qrupun əqidəvi əsasları və təfəkkür-tərzinin bir qismini aydınlaşdırdıq.

Bu dərsdə xəvaricin işinin davamı, Əmirəl-mö᾽minin Əlinin (ə) onlarla necə qarşılaşması və o həzrətin xilafəti dövründə onların aqibəti, bu qrupun nəzər və əqidələrindən bir hissəsi bəyan olunacaq.

### *NƏHRAVANDA TOPLANTI*

Əmirəl-mö᾽minin Əlinin (ə) ibni Kəvva ilə münazirəsindən, ibni Kəvvanın onlardan ayrılmasından sonra xəvaric öz əqidələrində israr edərək qərara almışdılar ki, Nəhravanda düşərgə salsınlar. Sonra Əbdüllah ibni Vəhəb Təmili Rasibi və Hərqus ibni Züheyr Bəcəlini özlərinin iki əmiri seçdilər və Şüreyh ibni Ovfa Əbəsinin evində yığıncaq təşkil edib qərara aldılar ki, Bəsrədəki köməkçilərinə məktub yazıb onları Nəhravana də᾽vət etsinlər. Bəsrə xəvaricləri məktubu aldıqdan sonra Müs᾽ər ibni Fədəki Təmiminin başçılığı altında Nəhravana doğru yola düşdülər. Onlar malik olduqları mənfi fikirlə yolda rastlaşdıqları hər kəsdən Əmirəl-mö᾽minin Əli (ə)-a olan nəzərini soruşur, əgər o həzrətlə müvafiq olsaydı, əziyyət verir və yaxud da öldürürdülər. O cümlədən Peyğəmbər səhabəsi və Əmirəl-mö᾽minin Əlinin (ə) köməkçilərindən olan Əbdüllah ibni Xəbbabı, onun həyat yoldaşı və onlarla səfər edən bir neçə qadını faciəli şəkildə qətlə yetirdilər.

Bu faciələrin, eləcə də xəvaricin müharibəyə hazırlıq xəbəri Əli (ə)-çatdıqda Haris ibni Mürrə Əbdini göndərdi ki, bu xəbərlərin düzgün olub-olmamasını araşdırsın. Amma o, Nəhrəvana çatdıqda xəvaric tərəfindən qətlə yetirildi. Harisin ölüm xəbəri Əli (ə)-a çatdıqda bir qoşun hazırlayıb Nəhrəvana yola

düşdü. Nəhrəvanın yaxınlığında həmin tərəfdən gələn bir kişidən xəvaric barəsində soruşduqda kişi cavab verdi: Xəvaric sənin gəlişindən xəbərdar olduqda, qaçmaq məqsədilə çayı keçdilər.

Əli (ə) soruşdu: Onların çayı keçmələrini özün gördünmü?

Dedi: Bəli.

Həzrət dedi: Məhəmmədi haqq olaraq peyğəmbərliyə seçən Allaha and olsun ki, onlar heç vaxt çayı keçməyəcək və Kəsranın qızı Puranın qəsrinə çatmayacaqlar. Allah onları mənim əlimlə öldürəcək, onlardan on nəfərdən çox sağ qalmayacaqdır. Mənim dəstəmdən də on nəfərdən artıq şəhid olmayacaqdır. Bu imzlanmış bir əhd və labüd bir qəzadır.

## *ƏLİNİN (Ə) XƏVARİCLƏ OLAN MÜNAZİRƏSİ*

Əli (ə) Nəhrəvana çatdıqda xəvaric nizələrini o həzrətə tərəf tuşlayıb «la hökmə illa lillah» şüarını verirdilər. Həzrət Əli (ə) dedi: Allahın hökmünü icra etməkdən başqa sizdən heç nə istəmirəm. Bizim qardaşlarımızı öldürənləri təhvil verin ki, onların barəsində Allahın hökmünü icra edim. Sizinlə bundan artıq işim yoxdur və mənim əsas məqsədim Şam əhli ilə qarşılaşmaqdır. Bəlkə Allah sizin qəlblərinizi xeyrə döndərə.

Xəvaric dedi: Onların (İbni Xəbbab, Haris və sairlərinin) qatilləri bizim hamımızıq. Bizim hamımız onların və sizin qanınızı mübah hesab etmişik.

Əli (ə) buyurdu: Ey camaat! Mən Əli ibni Əbi Talibəm, mənə deyin görüm hansı əsasla mənimlə müxalifətçilik edib intiqam almaq istəyirsiniz?

Dedilər: Bizim ilk dəlilimiz budur ki, biz Bəsrə əhli ilə müharibədə (Cəməl döyüşündə) sənin tərəfində vuruşduq, amma sən onlara qələbə çaldıqda onların mal-dövlətlərini bizə mübah etdin. Lakin, qadın və övladlarını bizə vermədin.

Əli (ə) dedi: Ey camaat! Bəsrə əhli bizimlə vuruşdular, müharibəyə başlayanlar da onlar idilər. Allah məni onlara qalib etdiyi zaman sizə qarşı döyüşənlərin mal-dövlətlərini sizin aranızda bölüşdürdüm. Lakin qadın və uşaqlara əl vurmağı sizə qadağan etdim, çünki qadınlar sizinlə vuruşmamışdılar və onların övladları İslam fitrətində dünyaya gəlmişdilər. Buna görə də onların qadın və uşaqlarına əl vurmağı sizlərə qadağan etdim. Siz bilirsiniz ki, Rəsuli-Əkrəm Məkkəni fəth edən zaman Məkkə əhlinə minnət qoyub onların qadın və uşaqlarını əsir götürmədi. Peyğəmbər müşriklərə minnət qoyubsa, mənim müsəlmanlara minnət qoymağımı, onların qadın və uşaqlarını əsir götürməməyimdən təəccüblənməyin.

Xəvaric dedi: Sənə olan başqa bir iradımız da bundan ibarətdir ki, Siffeyn müharibəsində, səninlə Müaviyə arasında əhdnamə yazılan zaman sən öz katibinə dedin ki, belə yazsın: «Bu, mö`minlərin əmiri Əli ibni Əbi Taliblə Müaviyə ibni Əbi Süfyan arasında olan bir əhdnamədir». Müaviyə sənin mö`minlərin əmiri olmağına e`tiraz etdikdə, sən o ünvanı pozdurub dedin ki, belə

yazılsın: «Bu Əli ibni Əbi Taliblə Müaviyə ibni Əbu Süfyan arasında olan bir əhdnamədir». Əgər sən mö᾽minlərin əmiri deyilsənsə, onda kafirlərin əmirisən. Halbuki biz mö᾽minik və sən bizim əmirimiz olmamalısan.

Əli (ə) buyurdu: Ey camaat! Siz öz sözlərinizi dediniz, indi cavabı eşidiniz. Mən Hüdeybiyyə sülhündə Peyğəmbərin (ə) katibi idim. O həzrət (s) mənə buyurdu ki, belə yazım: «Bu Allahın Rəsulu Məhəmməd ilə Məkkə əhli arasında bir sülhnamədir». Əbu Süfyan (yaxud Məkkə müşriklərinin nümayəndəsi olan Süheyl ibni Əmr) dedi: Əgər mən sənin Allahın Rəsulu olduğunu qəbul etsəydim, səninlə müharibə etməzdim. Belə isə özünün və atanın adından başqa bir şey yazma». Buna görə də Peyğəmbər (s) mənə əmr etdi ki, risalət ünvanını pozub belə yazım: «Məhəmməd ibni Əbdillah ilə Məkkə əhli arasında olan bir sülhnamədir». Mənim xilafət ünvanını götürməyim eynilə Peyğəmbərin risalət ünvanını götürməyinə oxşayır və Peyğəmbər də bu işdə mənim üçün nümunədir.

Xəvaric dedi: Digər bir iradımız da budur ki, sən hakəmlərə dedin: «Allahın kitabına nəzər edin, əgər məni Müaviyədən fəzilətli bilsəniz, xilafətə məni seçin, yox əgər Müaviyəni fəzilətli bilsəniz xilafətə onu seçin.» Deməк, sən özün-özünə arxayın deyilsən ki, deyirsən Müaviyə məndən əfzəldir. Belə ki, bizim sənin əfzəl olmağın barəsindəki şəkkimiz, sənin özünə olan şəkkindən daha çox olacaqdır.

Əli (ə) buyurdu: Mən bu işlə Müaviyə ilə insafla rəftar etmək istəyirdim, əks halda hakəmlərə deyə bilərdim ki, mənim xeyrimə hökm edin və Müaviyəni boşlayın. Müaviyə də bu işə razı olmazdı. Eləcə də əgər Rəsuli-Əkrəm (s) Nəcran məsihiləri ilə mübahilədə «gəlin mübahilə edək və Allahın lə᾽nətini sizə qərar verək» desəydi, məsihilər bu işə razı olmazdı. Məhz bu səbəbdən onlarla insafla rəftar etdi. Mən də Peyğəmbər kimi Müaviyə ilə insafla davrandım, Əmr Asın mənim nümayəndəmə hazırladığı hiylədən agah deyildim.

Xəvaric dedi: Sənə digər bir iradımız da vardır. Sən öz haqqın olan bir işi hakəmlərə həvalə etdin.

Əli (ə) buyurdu: Rəsuli-Əkrəm (s) Bəni Qureyzə barəsində Sə᾽d ibni Məazı hakəm qərar verdi. Halbuki istəsəydi belə etməyə bilərdi. Sonra Sə᾽d onların kişi və qadınlarının qətlinə, övladlarının əsirliyinə, mal-dövlətlərinin qarət edilməsinə hökm verdi. Rəsuli-Əkrəm (s) özü görməli olduğu bir şeydə digərini hakəm qərar verdi. İndi deyin, mənim əleyhimə deyə biləcəyiniz başqa bir dəliliniz vardırmı?

Xəvaric sakit oldular və deməyə heç bir söz tapmadılar. Amma, öz aralarında dedilər: Düz deyir. O, bizim bütün dəlillərimizi batil etdi. Bu zaman camaat hər tərəfdən fəryad çəkib dedi: Ya Əmirəl-mö᾽minin! Tövbə, tövbə!

Bu hadisədə xəvaricdən ٨٠٠٠ nəfər tövbə edərək Əmirəl-mö᾽minin Əli (ə)-a tərəf gəldilər. O həzrət də onların tövbələrini qəbul etdi. Amma dörd min nəfərə kimi qaldı və Əbdüllah ibni Vəhəb Rasibinin sərkərdəliyi ilə, tarix kitablarında müfəssəl şəkildə deyildiyi Nəhrəvan müharibəsində Əmirəl-mö᾽minin Əlinin (ə)

qarşısında cəbhələşdilər və nəhayətdə sayları ١٠ nəfərdən az olan bir dəstə istisna olmaqla, hamısı qətlə yetirildi.

Nəhrəvana gəlməyən xəvaric dəstəsi, eləcə də Nəhrəvanda Əlinin (ə) vasitəsi ilə öldürülənlərin övladları xəvaricin siyasi və əqidəvi cərəyanının davam etməsinə səbəb oldu.

Xəvaric tədriclə öz əqidə və fikirlərinin bə`zilərini yaymaqla, xüsusilə «günaha mürtəkib olmaq şirk və küfrdür» məsələsinə e`tiqad bağlayaraq, bir məzhəb və məktəbə çevrildi, sair məzhəblərin, o cümlədən Mürciə məzhəbinin müqabilində dayandı. Belə ki, onlar günaha mürtəkib olanın dindən çıxaraq əzaba layiq olmasına inanmırdılar. Xəvaric cərəyanı da sair əqidəvi cərəyanlar kimi müxtəlif firqələrə bölündü ki, gələcək dərslərimiz də onların firqələri ilə tanış olacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Xəvaric Nəhrəvanda nə işlər törətdi?

٢. Əmirəl-mö`minin Əli (ə) ilk əvvəldə xəvariclə müharibə etmək fikrində idimi? Nə üçün?

٣. Əli (ə)-la xəvaricin arasındakı müzakirədən nə nəticə alınır?

٤. Xəvaric cərəyanı necə davam etdi?

# OTUZUNCU DƏRS

## *XƏVARİC (٣)*

## *FİRQƏLƏR*

*١. Xəvaric neçə dəstə və firqəyə bölünür?*
*٢. Bu firqələrdən hansı indiyə kimi davam etməkdədir?*

Xəvaric cərəyanı özünün ifratçı nəzəriyyələrinə, sabit və aydın bir ideoloji fikirdən məhrum olduqlarına görə çox tez bir zamanda müxtəlif firqələrə bölündü.

Bu firqələrin arasında səkkizi digərlərinə nisbətən daha mühümdür. O səkkiz firqənin özü də müxtəlif firqələrə bölünmüşlər ki, onların hamısı tarixi hadisələr nəticəsində aradan getmiş və yalnız Əbaziyyə firqəsi indiyə qədər öz həyatını davam etdirə bilmişdir. Bu firqənin ardıcılları da hal-hazırda Əmmanda və kiçik bir qrupları Tanzaniya, Liviya, Əlcazir və Tunisdə yaşayırlar.

Xəvaricin səkkiz əsas firqəsi aşağıdakılardan ibarətdir:

**١. Mühəkkimə, yaxud Həruriyyə;**

Bu firqə hakəmiyyət zamanı Əmirəl-mö`minin Əlinin (ə) qarşısında dayanan və ondan sonra Həruraya yığışan şəxslərdən ibarətdir. Bu firqə hakəmiyyətlə müxalifət etdiklərinə görə Mühəkkimə, Hərurada bir yerə toplaşdıqlarına görə isə Həruriyyə adı ilə məşhurlaşıb.

Əbdüllah ibni Vəhəb Rasiqi, Urvət ibni Cərir, Yezid ibni Asimə, Hərqus ibni Züheyr və İtab ibni Ə`vər bu qrpun rəhbərlərindən idi.

Bu qrupun İslami firqələrin heç birində görünməyən və sair firqələrdə bid`ət sayılan əqidələrindən biri də budur ki, nəinki imaməti Qüreyşdən başqasına caiz bilmirlər, üstəlik inanırdılar ki, camaat hər kəsi öz rə`yilə seçsə və o, camaatın istəyi və rə`yi əsasında əməl etsə imamdır, əgər yolunu dəyişdirsə, yaxud haqdan (camaatın dərk etdikləri tərzdə) dönsə, onun işdən çıxardılması və yaxud qətlə yetirilməsi vacib olacaqdır. Bundan əlavə inanırdılar ki, ümumiyyətlə imamın olmaması da caizdir.

Bu qrupun törətdiyi bid`ətlərdən biri də bu idi ki, Əmirəl-mö`minin Əlinin (ə) hakəmiyyət məsələsində xəta etdiyinə inanır və deyirlər ki, Əli (ə) o iki kişinin

(Əmr As və Əbu Musa) hökmünü təsdiq etdi, halbuki hökm yalnız Allaha məxsusdur. Əlinin (ə) barəsində bu kimi sözləri elə bir halda davam etdirirdilər ki, o həzrət həkəmiyyətə məcbur edilmişdi və buna görə də «La hökmə illa lillah» şüarının cavabında buyururdu: «Bu kəlmə batil məqsədlə deyilən haqq bir kəlmədir. Bəli, hökm yalnız Allaha məxsusdur, lakin onlar deyirlər ki, rəhbərlik Allahdan başqasına məxsus deyildir. Halbuki camaatın həmişə rəhbərə ehtiyacı vardır. İstər yaxşı əməl sahibi olsun, istərsə də pis əməl sahibi (yəʾni, rəhbərin varlığının zərurəti elə bir həddədir ki, əgər saleh şəxs olmasa, saleh olmayan bir şəxs də rəhbərliyi öhdəsinə almalıdır)»[١]

Bu qrupun əqidə üsulları sair xəvaric firqələrinin əqidə və düşüncələrinin əsası oldu. Onların eʾtiqadi əsaslarının bəʾzisində müəyyən fərqlər də var idi. Nəcdad firqəsindən başqa hamısı Əli ibni Əbi Talibi, Osman ibni Əvfanı, Cəməl səhabələrini, həkəmeyni və həkəmiyyətə razı olan hər bir şəxsi kafir hesab edir və bundan əlavə böyük günah edənləri də kafir sayırdılar. Mühəkkimə firqəsinin ideoloji əsasları ٢٨-٢٩-cu dərslərdə bu iki firqənin mübahisələrində bəyan olundu.

**٢. Əzariqə;**

Bu firqə ardıcılları Əbi Raşid Nafe ibni Əzrəq Hənəfinin ardıcıllarıdır. Onlar öz müxaliflərini kafir deyil, müşrik hesab edirdilər (Mühəkkimə isə kafir hesab edirdi).

İbni Əzrəq öz müxaliflərinə qarşı çox barışmaz və məntiqsiz bir adam idi. O, Qurʾani-Kərimin çox səthi təfsir və təʾbiri əsasında öz əqidə prinsiplərinə Qurʾandan dəlil gətirməyə çalışırdı. Onun ifratçı əqidələrindən biri də bu idi ki, bütün cəmiyyətlər, o cümlədən islam cəmiyyəti Darul-küfrdür və hamısı cəhənnəm əhlidir, yalnız öz imanlarını (Əzariqənin özünün başa düşdükləri kimi) izhar edənlərdən başqa; eləcə də möʾminlərdən (yəʾni, ibni Əzrəqin ardıcıllarından) heç birinə namaz üçün başqalarının dəʾvətini qəbul etmək, yaxud başqasının kəsdiyi heyvan ətindən yeməsi və onlarla izdivac etməsi caiz deyildir. Həmçinin, heç kəs irs aparmır, çünki, sairləri (xəvaricdən başqaları) kafir və bütpərəstlər kimidir, onlara qılınc və yaxud İslamın qəbul edilməsindən başqa bir təklif irəli sürülmür.

İbni Əzrəq hətta bitərəflik mövqeyini də qəbul etmir və inanırdı ki, bu qrup ya müsəlman olmalı, ya da İslam ölkəsindən (yəʾni, xəvaricin yerləşdiyi yerdən) çıxarılmalı, əks halda isə öldürülməlidir.

Əzariqənin sair bidʾətləri kimi aşağıdakıları qeyd etmək olar:

Müxaliflərin arvad və uşaqlarının qətlinin halal olması, müşriklərin uşaqlarının ataları ilə birlikdə cəhənnəm əhli olacaqlarına hökm etmək, Allahın beʾsətdən qabaq kafir olan, yaxud peyğəmbərlikdən sonra kafir olacağını bildiyi bir şəxsin peyğəmbərliyə seçməsini caiz olması və s.

---

[١] «Nəhcul-Bəlağə», ٤٠-cı xütbə.

**٣. Nəcdat;**

Bu firqənin üzvləri Nəcdət ibni Amir Hənəfinin ardıcıllarıdır (h.q.٦٩). Bu firqə Nafe ibni Əzrəqin özündən göstərdiyi çox tələbkar və şiddətli reaksiyaların ardınca yaranmışdır. Çünki başda Əbu Füdeyk Təmimi və Ətiyyə ibni Əsvəd Hənəfi olmaqla xəvaricdən bir qurupu bu kimi ciddi tələbkarlıqdan cana doyaraq Yəmaməyə getmişdilər.

Orada Nəcdəti mö`minlərin əmiri seçib Nafenin ardıcıllarını kafir hesab etdilər. Amma çox keçmədən bu firqənin özü üç kiçik firqəyə bölündü. Birinci firqə Ətiyyənin rəhbərliyi altında olub Ətəviyyə adlandırıldı, digər bir qrup Əbu Füdeykin rəhbərliyi ilə yarandı ki, Nəcdətin çox qatı müxaliflərindən idi və axırda da Nəcdət onun köməkçilərinin vasitəsi ilə öldürüldü. Üçüncü qrup isə Nəcdətə vəfadar qalanlar idi.

Nəcdatın ardıcılları şərab içən şəxsə hədd (şallaq) vurulmasını ləğv etdilər və dedilər ki, hər kəs haram bir şeyə nəzər etsə, yaxud bir yalan desə, ya ona israr etsə müşrikdir. Amma əgər bir kəs zina və oğurluq etsə, şərab içsə və bu işə israr etməsə müsəlmandır; bu şərtlə ki, xəvaricdən olsun.

**٤. Mücaridə;**

Bu firqə Əbdülkərim ibni Əcrüdün vasitəsi ilə yaradıldı. O, Ətiyyət ibni Əsvədin səhabələrindən idi və onunla olan bə`zi nəzər ixtilaflarına görə ondan ayrılmışdı. Buna əsasən onun nəzərləri Nəcdətə çox yaxın idi.

Bu firqə həddi-büluğa çatmayan bir uşağı, həddi-büluğa çatmayıb İslam dininə dəvət olunmayanacan, İslam, küfr və şirk hökmünə şamil etmirlər. Həmçinin Əzariqənin əksinə olaraq, bitərəf şəxsləri təqvalı olması şərti ilə qəbul edir, onlardan bizarlıq etmirdilər.

Onların çox qəribə əqidələrindən biri bu idi ki, «Yusif» surəsinin Qur`anın bir hissəsi olmasını qəbul etmirdilər. Çünki orada eşq və aşiqlik məsələsi irəli çəkilmişdir və onların nəzərinə görə bu, Allah kəlamına yaraşmayan bir işdir.

**٥. Süfriyyə;**

Süfriyyə Ziyad ibni Əsfərin ardıcıllarıdır. Onların nəzərinə görə, şəriətdə hədd vurulması nəzərdə alınan böyük günahlardan birini görən şəxs bu günaha mürtəkib olsa, kafir və ya müşrik olmur. Lakin, o böyük günahın adı ona qoyulacaqdır. Məsələn zinakar, oğru, qəsb edən və s. Amma şəriətdə hədd nəzərdə alınmayan bir günaha mürtəkib olsa, ona kafir deyiləcək. Namazı tərk etmək və yaxud da müharibədən qaçmaq kimi günahlar.

**٦. Beyhəsiyyə;**

Bu firqənin üzvləri ibni Beyhəs Heysəm ibni Cabirin ardıcıllarıdır. Əbu Beyhəs inanırdı ki, bir kəsə yalnız o zaman müsəlman demək olar ki, Allaha, Onun peyğəmbərinə və ilahi övliyalara mə`rifət kəsb edib Allah düşmənlərindən bəraət

(bezarlıq) etsin və eləcə də müqəddəs şəriətdə gələnlərin (Allahın haram etdiyi və Onun barəsində əzab qərar verdiyi şeylər) hamısını iqrar etsin.

**٧. Süalibə;**

Bunlar Sə`ləbə ibni Amirin ardıcıllarıdır. Sə`ləbə ilk əvvəllər Əbdülkərim ibni Əcrüdlə yanaşı idi, amma uşaqların hökmü barəsində aralarında ixtilaf yarandıqdan sonra ondan ayrıldı. Çünki Sə`ləbə müsəlman uşaqlarını müsəlman hesab edirdi. Buna görə də Ücaridə Sə`ləbədən bezarlıq etdi, Sə`ləbə və onun dostları yeni bir firqəni yaratdılar.

**٨. Əbaziyyə.**

Bu firqənin banisi Əbdüllah ibni Əbaz Təmimidir. Doğum və vəfat tarixi mə`lum deyildir. Amma, Müaviyə ibni Əbu Süfyanın dövründə olmuş, Mərvanın xilafətinə qədər (h.q.٦٥-٨٧) yaşamışdır. Əbdüllah ibni Əbazdan əlavə Əbu Şə`saadı ilə tanınan Cabir ibni Zeydi də bu firqənin banisi kimi qeyd edirlər. Bu firqənin tədqiqatçılarından bə`ziləri inanırlar ki, İbni Əbaz öz ideoloji əsaslarını Cabirdən əxz etmişdir. Cabir h.q.١٨-ci ildə dünyaya gəlmiş, h.q.٩٣-cü ildə isə dünyadan getmişdir. O, Peyğəmbər (s) səhabələrinin çoxundan elm öyrənmişdir. Bə`zi tədqiqatçılar bu iki nəzəri bir yerə belə cəm edirlər ki, Əbaziyyə firqəsinin iki rəhbəri olmuşdur, biri Cabir kimi əqidəvi rəhbər, digəri isə Əbaz kimi siyasi rəhbər.

Hər halda Əbaziyyə firqəsi, dərsin əvvəlində qeyd olunduğu kimi, yalnız xəvaricdən qalan yeganə firqədir ki, hazırkı dövrə qədər gəlib çıxmışdır və onun ardıcılları İslam dünyasının müəyyən məntəqələrində vardır.

Əbazi yazıçılardan bə`ziləri deyir: «Əbazi firqəsi yalnız iki məsələdə, yə`ni həkəmiyyətin səhv olması və imamətin Qüreyşdən olmayan şəxsə caiz olması kimi iki məsələdən başqa sair üsul e`tiqadlarında islam firqələri ilə çox da fərqlənmir. Belə ki, Allahın sifəti, Allahın görünməsi, tənzih, tə`vil, Qur`anın hadis olması kimi məsələlərdə Mö`təzilə və şiələrlə müvafiqdir; şəfaətdə Mö`təzilə ilə eyni əqidədədir, yaxud qəzavü-qədər və fe`llərin xəlq olunmasında Əşərilərlə eyni rə`ydədir.[١] Əlbəttə, Əbaziyyə qeyd olunanlardan başqa bə`zi üsuliddin məsələlərində sair xəvaric firqələri ilə eyni əqidədədir. O cümlədən, imamət məsələsində nəssin inkarı, böyük günahlara mürtəkib olanların cəhənnəmdə əbədi qalması və onlara şəfaətin çatmaması, kəbirə günahlara mürtəkib olanları müşrik hesab etmək və s.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Həruriyyə kimlərə deyilir?

---

١ Əli Yəhya Müəmmər, «Əl-əbaziyyətü beynəl-firəqil-islamiyyə».

٢. Əmirəl-mö᾽minin Əli ibni Əbi Talib (ə) «La hökmə illa lillah» şüarı barəsində nə buyurdu?

٣. İbni Əzrəqin nə kimi nəzərləri vardır?

٤. Nəcdatın kiçik firqələrə parçalanmasının səbəbi nə idi?

٥. Kimlər «Yusif» surəsini Qur᾽anın bir hissəsi olmasını qəbul etmirdilər və nə üçün?

٦. Beyhəsiyyənin iman və küfr barəsindəki nəzəri nədir?

٧. Süalibə Ücaridədən necə ayrıldı?

# DÖRDÜNCÜ FƏSİL

# *ŞİƏLİK*

## *OTUZ BİRİNCİ DƏRS*

**Şiə və şiəlik sözü lüğət və terminologiyada hansı mə᾿naları daşıyır?**
Şiəlik hansı məzhəbə deyilir?

## *ŞİƏLİYİN TƏ᾿RİFİ*

Kitabın otuz dərsdən ibarət olan birinci cildində əhli-sünnə və xəvaric məktəbləri ilə tanış olduq. Lakin islam ümməti arasında «şiəlik» adlı özünəməxsus əqidə və ideologiyaya malik olan başqa bir cərəyan da vardır. Şiəlik öz üsul və əqidəvi əsasları ilə yanaşı, bütün məktəblərdən fərqli olan kəlami və fəlsəfi baxışlara da malikdir. Bu məktəb islam dininin ictimai, tarixi və siyasi cərəyanlarında böyük tə᾿sir qoymuş və bir çox yüksək əhəmiyyətli hadisələrin mənşəyi olmuşdur.

**Elmi inkişaf və tərəqqiyə gəldikdə də, şiə alimləri tərəfindən minlərlə elmi əsərlər yazılmış və hətta onların vasitəsi ilə bə᾿zi elmlərin bünövrəsi də qoyulmuşdur. Bu səbəbdən də dərslərimizin bir hissəsini şiə məzhəbinin tarixinə, necə meydana gəlməsinə, daxilində yaranmış firqələrin təfəkkür-tərzi və ideologiyasına və eləcə də onun görkəmli şəxsiyyətləri ilə tanışlığa sərf**

**edəcəyik. Araşdırmaya başlamazdan əvvəl şiəliyin leksik və istilahi mə᾽naları ilə tanış olaq.**

## *LEKSİK MƏ᾽NASI*

Şiə sözü lüğətdə müşayiət etmək, kömək etmək, dostluq etmək və kiminsə davamçısı olmaq mə᾽nasını daşıyır. (Sihahe Cohəri, Tacül-ərus). Qur᾽ani-kərimdə də şiə sözü davamçı və köməkçi mə᾽nasında işlənmişdir.

«Onlardan biri öz adamlarından (yəhudilərdən), digəri isə düşmənlərindən (qibtilərindən) idi Musanın adamlarında olan kəs düşməninə qarşı ondan ».[١]

Bə᾽zi alimlərin nəzərinə görə, şiə sözünün digər mə᾽nalarından biri də kiminsə əqidə və məsləki ilə müvafiq olmaqdır. Bu mə᾽naya əsasən, özündən əvvəl və ya sonra mövcud olan bir kimsənin məslək və əqidəsi ilə müvafiq olan şəxs onun şiəsi hesab olunur. Səba surəsinin ٥٤-cü ayəsində şiə kəlməsi həmin mə᾽nada işlənmişdir:

**«Artıq onlarla istədikləri şey [iman və tövbə] arasında əngəl törədilmişdir. [Birdə dünyaya qayıdıb tövbə və iman sahibi olmaları qeyri-mümkündür]. Daha öncə özlərinə bənzər kəslər [kafirlər] barəsində də belə edilmişdi...»**

Göründüyü kimi, bu ayədə «şiə» sözü, qeyd olunan şəxslərdən qabaq əzab verilən və istədikləri şeylərə qarşı maneə törədilən şəxslərə deyilir. Belə bir tə᾽rifə əsasən deyə bilərik ki, başqalarının həyat və düşüncə tərzi ilə müvafiq olan şəxslər onların «şiəsi» hesab olunur. Saffat surəsinin ٨٣-cü ayəsində «şiə» sözü bu mə᾽nada həzrət İbrahim (ə) haqqında işlənmiş və o həzrət Nuh (ə) peyğəmbərin şiəsi adlandırılmışdır.

**«Həqiqətən, İbrahim də onun yolu ilə gedənlərdən [Nuhun firqəsindən] idi.»**

İbrahim (ə)-ın gətirdiyi şəriət Nuh (ə) peyğəmbərin şəriəti ilə müvafiq olduğu üçün o həzrət onun davamçı və şiəsi hesab olunur.

Sözsüz ki, həzrət İbrahim (ə)-ın şəriəti həzrət Nuhun (ə) şəriətindən bir qədər fərqli olmuşdur, amma onların hər ikisi tövhid dinində olduqları üçün biri digərinin ardıcılı sayılır.

## *İSTİLAHİ VƏ ELMİ MƏ᾽NASI*

İslam tarixində və eləcə də bu dinin əqidə və maarifində «şiə» sözü adətən mö᾽minlərin əmiri Əli ibni Əbu Talibin (ə) davamçılarına deyilmişdir. Yə᾽ni, bu ifadə Peyğəmbərdən (s) bilavasitə sonra Əlini (ə) xilafətə ən layiqli şəxs hesab edən müsəlmanlara aid olunur.

---

[١] Qəsəs-١٥.

Bununla yanaşı, şiələr belə bir əqidədədirlər ki, Peyğəmbər (s) özündən sonra xilafət və canişinlik məqamının təyin olunmasına islam dininin ən əhəmiyyətli bir məsələsi kimi yanaşmış, öz həyatında bu işin həllinə həddindən artıq diqqət yetirmiş, onu müsəlmanların öhdəsinə buraxmamış və hətta bu vəzifəyə kimlərin layiq olduğunu dəfələrlə bəyan etmişdir. Əlbəttə, şiə firqələri arasında bu barədə müxtəlif fikirlər irəli sürülmüşdür. Məsələn, imamiyyə firqəsi belə bir əqidədədir ki, Peyğəmbər (s) özündən sonrakı canişinləri adları ilə bəyan etmişdir. Zeydiyyə firqəsinə görə isə, Peyğəmbər (s) öz canişinlərinin adını çəkməmiş, onların hər birinin sifət və xüsusiyyətlərini bəyan etmişdir. Zaman və məkanından asılı olmayaraq, bu xüsusiyyətlərə malik olan hər bir şəxs yer üzündə Peyğəmbərin (s) xəlifəsi olacaqdır. Əlbəttə, onların nəzərinə görə həzrət Fatimə (ə) övladları bu məqama hamıdan daha layiqli və önəmlidirlər.

İslam alimləri şiə kəlməsinin elmi və istilahi məʾnasını müxtəlif şəkillərdə izah etmişlər. Burada onlardan bir neçəsini gətiririk:

Şəhristani özünün «Miləl və Nihəl» adlı kitabında yazır:

«Şiə sözü yalnız həzrət Əliyə (ə) tabe olub onun yolunu davam etdirən şəxslərə deyilir. (Yəʾni, onlar əvvəlki üç xəlifəyə tabeçilik və ardıcıllığı qəbul etmirlər.) Onlar Peyğəmbərin (s) aşkar və ya gizli buyuruqlarına əsasən, yalnız həzrət Əlinin (ə) imamət və xilafətini qəbul edirlər. Şiə əqidəsinə görə, imamət yalnız onun övladlarına məxsusdur. Əgər onlardan qeyrisi bu məqama yiyələnsə, demək bu iş ya zülm, ya da təqiyyə vasitəsilə həyata keçmişdir. Bu əqidəyə əsasən, imam (dini rəhbər) ümumi kütlənin rəyʾi əsasında təʾyin olunmur. Dini əsasların ən ümdə hissəsindən biri olduğu üçün, Peyğəmbər (s) imamət məsələsində səhlənkarlığa yol verməz və onu camaatın öhdəsinə buraxmazdı.

Növbəxti özünün «Firəqüş-şiə» adlı kitabında yazır:

«Şiə sözü Əli ibni Əbu Talibin (ə) davamçılarına deyilir. Onlar Peyğəmbərin (s) dövründə də Əli şiəsi adlanırdı. Bundan əlavə, sevgi və məhəbbətləri Əli (ə) məhəbbəti ilə uyğun gələn şəxslərə də «şiə» deyilir.

Məhəmməd Fərdi Vəcdi özünün «İyirminci əsrin ensiklopediyası» adlı kitabında şiə sözünü belə izah edir:

«Şiə sözü Əlinin (ə) imamətini qəbul edib ondan sonra imamətin onun övladları ilə davam edəcəyinə eʾtiqad bəsləyən şəxslərə deyilir. Onlar belə bir əqidədədirlər ki, imamlar kiçik və böyüklüyündən asılı olmayaraq, hər növ səhv, xəta və günahdan uzaq və məʾsumdurlar. Həmçinin zalımların şər və təcavüzündən yaxa qurtarmaq üçün təqiyyə etmək istisna olmaqla, söz və əməldə təvəlla* və təbərra* eʾtiqadına da əsaslanırlar.»

Görkəmli şiə alimlərindən olan Şeyx Müfid şiə anlayışı haqda belə deyir:

«Şiə sözü Əlinin (ə) davamçılarına və onu Peyğəmbərin (s) bütün səhabələrindən üstün tutan şəxslərə deyilir. İmamiyyə əqidəsinə görə, imamət

açıq-aşkar olaraq və Carudiyyə əqədəsinə görə isə, vəsf edilərək Peyğəmbərin (s) vəsiyyəti və ya Allah-taalanın istək və iradəsi əsasında tə'yin olunur.»

Şəhid Sani adı ilə məşhur olan Zeynəddin Əli ibni Amili şiə barəsində belə yazır:

«Şiə sözü Əlinin (ə) davamçılarına deyilir. Digər imamların imaməti ilə müvafiq olmasalar da, özlərini Əlinin (ə) davamçıları və onu başqalarından üstün hesab edən şəxslər şiə hesab olunurlar. Bu səbəbdən də İmamiyyə, Carudiyyə, İsmailiyyə, Vaqifiyyə və Fəthiyyə firqələri də bu məktəbin ardıcılı sayılırlar.»

## *PEYĞƏMBƏRİN (S) HƏDİSLƏRİNDƏ ŞİƏ ANLAYIŞI*

Əhli sünnə və şiə mənbələrinin Peyğəmbərdən (s) nəql olunmuş rəvayətlərində şiə sözünün istilahi və elmi mə'nada Əli ibni Əbu Talibin (ə) davamçılarına verilən ad olduğu göstərilir. İbni Əsakir, Cabir ibni Əbdullah Ənsaridən nəql edərək deyir: «Peyğəmbərin (s) hüzurunda idik, elə bu vaxt Əli (ə) da gəldi. Peyğəmbər (s) onu görcək buyurdu: «Vəlləzi nəfsi biyədihi innə haza və şiətihi ləhumul faizunə yovməl qiyaməti.» Yə'ni, and olsun canım əlində olan Allaha! Bu kişi (Əli) və onun davamçıları qiyamət gününün nicat tapacaq şəxsləridir. Sonra bu ayə nazil oldu:

**«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır»**[١]

Bunun üçün də səhabələr Əlini (ə) görəndə deyərdi: «Yaradılmışların ən yaxşısı gəlir».[٢]

İbni Həcər, Ümmül-mö'minin Ümmi Sələmədən nəql edərək deyir: «Peyğəmbər (s) mənim yanımda olduğu gün Fatimə (ə) və onun ardınca Əli (ə) gəldi. Peyğəmbər (s) onları görcək buyurdu: «Ya Əli! Əntə və şiətukə fil cənnəti.» Yə'ni, ey Əli! Sən və sənin şiələrin Cənnətdə olacaqsınız![٣]

Məğazəli, Ənəs ibni Malikdən nəql edərək deyir: Peyğəmbər (s) buyurur: «Yədxulunə min ummətiyəl cənnətə səb'unə əlfən la hesabə ələyhim.» Yə'ni, ümmətimdən yetmiş min nəfəri sorğu-sual olunmadan Cənnətə daxil olacaqlar. Sonra üzünü Əliyə (ə) tutub buyurdu: «Hum şiətukə və əntə imamuhum.» Yə'ni, onlar sənin şiələrin və sən də onların imamısan.[٤]

---

[١] Bəyyinə-٧.

[٢] Süyuti, Dürrül-mənsur, ٦-cı cild.

[٣] İbni Həcər, Əs-səvaiqul-muhərrəqə.

[٤] Məğazəli, Mənaqib.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Qur᾽ani-kərimdə şiə sözü hansı mə᾽nada işlənmişdir?

٢. Şiə əqidəsinə əsasən, Peyğəmbərin (s) canişini necə tə᾽yin olunmalıdır?

٣. Peyğəmbərdən (s) şiə kəlməsi istifadə olunmuş bir hədisi əzbərdən söyləyin.

٤. Peyğəmbərdən (s) şiə barəsində nəql olunmuş hədislərə diqqət yetirdikdə hansı nəticəyə gəlmək olar?

## OTUZ İKİNCİ DƏRS

Şiə məzhəbi nə vaxt meydana gəlmişdir?
Bu barədə irəli sürülən nəzəriyyələr nədən ibarətdir?

### *ŞİƏLİYİN YARANMASI (١)*

Şiə məzhəbinin meydana gəlməsi barədə qeyri-şiə alim və tarixçiləri tərəfindən bir neçə nəzəriyyə irəli sürülmüşdür ki, onların hər birində bu cərəyanın yaranmasında xüsusi zaman və amilin tə`sirli olması bildirilir.

Lakin şiə alimləri bunların hamısını rədd edərək onların qarşısında digər bir nəzəriyyə irəli sürmüşlər. Bu və növbəti iki dərsimizdə onların hər biri haqda ayrı-ayrılıqda söhbət açacaq, şiə alimlərinin bu barədə olan tənqidi fikirlərini gətirəcək və sonda onların öz nəzəriyyələrini aydınlaşdıracağıq.

### *١. ŞİƏ MƏZHƏBİNİN PEYĞƏMBƏR (S) VƏFAT ETDİKDƏN SONRA YARANMASI*

Bə`zi alimlərin fikrincə, şiə məzhəbi Peyğəmbər (s) vəfat etdikdən sonra yə`ni, o həzrət üçün canişin tə`yin olunan zaman meydana gəlmişdir. Bu fikrə əsasən, mühacir və ənsar Bəni-saidə səqifəsində toplanıb Peyğəmbərdən (s) sonra onun canişinin hansı qəbilədən və kimin olacağını müzakirə edirdilər. Səhabələrdən bə`ziləri Əli ibni Əbu Talibin xilafətə daha layiq olduğunu israr edərək Əbu Bəkrin xəlifə seçilməsinə öz e`tirazlarını bildirdilər və həzrət Əlinin (ə) evində toplanıb Əbu Bəkrə bey`ət etməkdən imtina etdilər. Məhz bu səbəbdən də onlar sonralar Əli şiələri kimi tanındılar.

Belə bir fikrə əsaslanan tarixçilərdən biri də İbni Xəldun olmuşdur. O deyir:

«Şiəlik Peyğəmbər (s) vəfat etdikdən sonra meydana gəldi. Çünki Əhli-beyt özünü xilafətə hamıdan daha layiqli sanır və səhabələrdən bə`ziləri də Əlinin (ə) davamçıları olduqları üçün onu xilafətə hamıdan münasib hesab edirdi. Bu səbəbdən də onlar xəlifəyə bey`ət etməkdən imtina edib Əliyə (ə) üz tutdular.[١]

Təbəri də bu barədə belə yazır:

Ənsar, Sə`d ibni Übadəyə bey`ət etmək üçün Bəni-saidə səqifəsinə toplaşdı. Əbu Bəkr bu xəbəri eşitdikdən sonra Ömər və Əbu Übeydə Cərrahla birlikdə

[١] Tarixi İbni Xəldun, ٣-cü cild.

oraya gəldi və üzünü ənsara tutub onlardan soruşdu: Nəyi müzakirə edirsiniz? Onlar dedi: Əmirin (xəlifənin) biri bizdən, biri də sizdən olsun. Əbu Bəkr dedi: Əmir bizdən, onun vəziri isə sizdən olacaq...

Sonra Ömər Əbu Bəkrə bey᾽ət etdi və başqaları da onun xilafətinə tabe oldular. Lakin ənsar və ya onlardan bə᾽ziləri e᾽tiraz edərək dedilər: Əlidən başqa bir kimsəyə bey᾽ət etməyəcəyik.

Təbəri sonra yazır: Ömər ibni Xəttab Əlinin evinə gəldi. Təlhə, Zübeyr və ənsardan olan bir neçə nəfər şəxs də orada idi. Qəzəblə üzünü onlara tutub dedi: And olsun Allaha, əgər çıxıb Əbu Bəkrə bey᾽ət etməsəniz evə od vurub yandıracağam.[١]

Yə᾽qubi də öz tarix kitabında yazır: «Ənsar və mühacirdən bə᾽ziləri Əbu Bəkrə bey᾽ət etməkdən imtina edib Əli ibni Əbu Talibə tərəf üz tutdular. Abbas ibni Əbdülmüttəlib, Fəzl ibni Abbas, Zübeyr ibni Əvvam, Salmani Farsi, Əbuzər Ğəffari, Əmmar ibni Yasir, Bərra ibni Azib və Ubey ibni Kə᾽b də onların arasında idi.»[٢]

Doktor Əhməd Əmin yazır: «Şiələrin ilk şəxsiyyətləri o kəslərdir ki, Peyğəmbər (s) vəfat etdikdən sonra onun Əhli-beytini xilafətə hamıdan daha layiqli hesab edirdilər.»[٣]

Doktor Həsən İbrahim Həsən yazır: «Peyğəmbər (s) vəfat etdikdən sonra müsəlmanlar son mərhələdə Əbu Bəkrin xilafəti ilə nəticələnən hakimiyyət məsələsi ətrafında ixtilafa düçar oldular və bu ixtilaf ərəb ümmətinin «Cəmaət» və «Şiə» adlanan iki hissəyə bölünməsinə səbəb oldu.»[٤]

## *TƏNQİD VƏ MÜLAHİZƏLƏR*

Şiə alimləri yuxarıda qeyd olunan nəzəriyyələrdən istifadə edərək bu fikrə əsaslanan tarixçilərin irəli sürdükləri fərziyyələri rədd etmişlər. Onlar şiə məzhəbinin Səqifə hadisəsi zamanı deyil, hələ Peyğəmbərin (s) sağlığında meydana gəldiyini bildirirlər. Axı necə ola bilərdi ki, belə bir həyəcanlı və təlatümlü gündə istər Səqifədə, istərsə də Əli ibni Əbu Talibin evində toplaşmış mühacir və ənsar arasında təsadüfi olaraq fikir yekdilliyi yaransın və onlar Əlinin (ə) xilafət məsələsini ortaya atıb Əbu Bəkrə bey᾽ət etməkdən imtina etsinlər. Təbərinin dediklərinə diqqət yetirin: (Səqifədə olan) ənsar və mühacir və ya

---

١ Tarixi Təbəri, ٢-ci cild.

٢ Tarixi Yəqubi, ٢-ci cild.

٣ Fəxrül İslam, Əhməd Əmin.

٤ İslam tarixi, Həsən İbrahimhəsən.

onlardan bə`ziləri dedilər: Əlidən başqa bir kimsəyə bey`ət etməyəcəyik. Ömər ibni Xəttab bey`ət mərasimi başa çatdıqdan sonra Əlinin (ə) evinə getdi. Bey`ət etməkdən imtina edən Təlhə və Zübeyri də orada görüb onlara hədə-qorxu gələrək Əbu Bəkrə bey`ət etməyi tə`kid etdi.

Belə bir halda necə ola bilərdi ki, Əlinin (ə) evində toplanan mühacir və ənsardan olan bir qrup şəxs Səqifədə toplanan başqa bir qrupla təsadüfi olaraq eyni fikirdə olsunlar, Əlinin (ə) xilafətə layiq və haqq olduğuna dair yetkin fikir əldə etsinlər və nəticədə şiə adlı müstəqil bir məzhəb halına düşsünlər?! Əlavə olaraq bunu da qeyd edək ki, İbni Quteybə nəql edərək deyir: «Əbuzər, Əbu Bəkr üçün bey`ət alındığı zaman orada yox idi və gəlib vəziyyətlə tanış olduqdan sonra dedi: Az bir şeyə qane olub Peyğəmbərin (s) Əhli-beytindən uzaq düşdünüz?! Əgər xilafəti Əhli-beytə həvalə etsəydiniz, aranızda heç bir ixtilaf yaranmazdı.[١]

Əbuzərin dediklərindən belə bir qənaətə gəlmək olur ki, Əlinin (ə) digər səhabələrdən üstünlüyü və onun xəlifə olmaq haqqı heç də Səqifə günü bəlli olmamışdır. Belə ki, o, Səqifədə iştirak etmədiyi bir halda, bu hadisədən xəbər tutduqdan sonra dərhal e`tirazını bildirmiş və Əlinin (ə) digər səhabələrdən üstün olduğunu bəyan etmişdir.[٢]

## ٢. *ŞİƏ MƏZHƏBİNİN CƏMƏL VƏ YA SÜFFEYN DÖYÜŞÜNDƏ MEYDANA GƏLMƏSİ*

İbni Nədim belə bir fikrə əsaslanır ki, şiə məzhəbi Cəməl və ya Süffeyn döyüşündə meydana gəlmişdir. O deyir: Əli ibni Əbu Talib, Təlhə ilə Zübeyri haqq yola qaytarmaq üçün döyüşə gəldiyi zaman öz tərəfdarlarını şiə adlandırmışdı. Əli onları «mənim şiələrim», «əsfiya» və «övliya» kimi ifadələrlə də çağırardı.[٣]

Digər alimlər isə belə bir fikirdədirlər ki, «şiələr» Süffeyn müharibəsində bir tərəfdən Müaviyənin, digər tərəfdən isə Xəvaricin* qarşısında meydana gəlmişlər. Əbdüləziz Dəhləvi deyir: «Şiə ləqəbi Hicrətin ٣٧-ci ilində meydana gəlmişdir və həmin ildə Süffeyn müharibəsi baş vermişdir.[٤]

---

[١] Əl-imamətu vəs-siyasətu, İbni Quteybə.

[٢] Bühusun fil miləli vən-nihəli, ٦-cı cild, Cə`fər Sübhani.

[٣] Əl-fehrest, İbni Nədim.

[٤] İhdasut-tarixil islam/١-ci cild, Tərmanini.

Tədqiqatçı alimlərdən bəʾziləri əlavə edərək yazırlar: «Həkəmiyyət* cərəyanından sonra Əlinin (ə) ordusunda parçalanma baş verdi. Kufəyə qayıtdıqdan sonra Əlinin (ə) tərəfdarları ona bir daha beyʾət edib dostları ilə dost, düşmənləri ilə isə düşmən olacaqları barədə əhd-peyman bağladılar. Beləliklə, «şiə» məzhəbi meydana gəldi.[١]

Qərb şərqşünası Velhauzen belə bir nəzəriyyəyə əsaslanaraq deyir: Osman qətlə yetirildikdən sonra müsəlmanlar iki hizbə bölündülər: Əli və Müaviyənin hizbi. Hizb ərəb dilində «şiə» deməkdir. Bu səbəbdən də «Əlinin şiəsi» deyildikdə, «Müaviyənin şiəsi»nin qarşısında dayanan dəstə nəzərdə tutulurdu. Lakin Müaviyə öz hakimiyyətini genişləndirdikdən sonra «şiə» kəlməsi yalnız Əlinin tərəfdarlarına deyildi.[٢]

## *TƏNQİD VƏ MÜLAHİZƏLƏR*

Yuxarıda qeyd olunan nəzəriyyələrdən belə bir nəticəyə gəlmək olur ki, «Şiə» məzhəbinin meydana gəlməsi üçüncü xəlifə Osman ibni Ofvanın qətlindən sonra baş vermiş Süffeyn və Həkəmiyyət hadisəsi dövrünə təsadüf edir. Yəʾni, şiələr Əli (ə)-a töhmət vuraraq onu Osmanın qətlində təqsirkar bilən şəxslərin qarşısında dayanan və onu müdafiə edən dəstənin üzvləridir.

**Şiə alimlərinin nəzəri:**

Əlinin (ə) tərəfdarlarının onu Osmanın qətlində ittiham edən şəxslərin qarşısında dayanması və o həzrəti daim müdafiə etməsi tamamilə düzgündür, lakin bu heç də şiə məzhəbinin məhz o zaman meydana gəlməsinə dəlalət etmir. Çünki Velhauzenin dediyi kimi, bu iki dəstənin bir-birinin qarşısında durması onların əvvəlki əqidə və fikir ayrılığından irəli gəlmişdir. Başqa sözlə desək, hər iki dəstə hələ çox-çox əvvəllər formalaşmışdı və xəlifənin qətlindən sonra bu qarşıdurma bir qədər kəskinləşmişdi.

Digər tərəfdən isə İbni Nədim (h.q.٣٧٨) və ondan da əvvəl Burqi (h.q.٢١٢ və ya ٢٨٠) öz kitablarında Əlinin (ə) sadiq tərəfdarları olan Salman Farsi, Miqdad, Əbuzər, Əmmar Yasir, Əbu Leyla, Şubeyr, Əbu Sənnan, Əbu Səid Xidri, Əbu Bərze, Cabir ibni Əbdullah Ənsari, Bərra ibni Azib, Urfə Əzdi, Əbu Əmrə və digərlərinin adlarını çəkmişlər. (Ricali Burqi.) Bir halda ki, Əlinin (ə) Salman, Əbuzər və Miqdad kimi sadiq səhabələri hələ Cəməl döyüşündən əvvəl vəfat etmişdilər. Belə bir halda «şiəlik» və «şiələr» Cəməl [və ya ondan sonra Süffeyn] döyüşündə meydana gələ bilərdimi?[٣]

---

[١] Tarixul-imamiyyə/Əbdullah Fəyyaz.

[٢] Əl-xəvaricu vəş-şiə, Əbdürrəhman Bədəvinin tərcüməsi.

[٣] Bühusun fil miləli vən-nihəli, ٦-cı cild, Cəʾfər Sübhani.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Şiə məzhəbinin Peyğəmbər (s) vəfat etdikdən sonra meydana gəldiyinə dair irəli sürülən nəzəriyyəni bəyan edin.

٢. Şiə məzhəbi Cəməl və ya Süffeyn döyüşündə meydana gəlmişdirmi?

# OTUZ ÜÇÜNCÜ DƏRS

Şiə məzhəbi nə vaxt meydana gəlmişdir?
Bu barədə irəli sürülən nəzəriyyələr nədən ibarətdir?

## *ŞİƏLİYİN YARANMASI (٢)*

## *٣. ŞİƏ MƏZHƏBİNİN BÜNÖVRƏSİNİ ƏBDULLAH İBNİ SƏBA QOYMUŞDUR*

Bu barədə irəli sürülən nəzəriyyələrdən birində şiə məzhəbinin Osmanın xilafəti dövründə yaşamış Əbdullah ibni Səba tərəfindən yaradıldığı göstərilir.

Bu dərsimizdə Əbdullah ibni Səbanın şəxsiyyəti, nə zaman və necə islamı qəbul etməsi, əqidə və şiə məzhəbini necə təbliğ etməsi barədə söhbət açacağıq. Daha sonra tarixi sənədlərə istinad edərək şiə və sünni alimlərinin bu barədə irəli sürdükləri nəzəriyyələrlə tanış olacağıq.

## *ƏBDULLAH İBNİ SƏBANIN KİMLİYİ BARƏDƏ SÖYLƏNİLƏN FİKİRLƏR*

İbni Əmətus-souda (qara kənizin oğlu) ləqəbi ilə məşhur olan Əbdullah ibni Səba əslən yəhudi olmuş və Yəmənin Sənʾa, ya Hira və ya Həmir vilayətində dünyaya gəlmişdir. Üçüncü xəlifənin dövründə islamı qəbul etmiş, onun dövründə də müsəlmanlar arasında öz əqidəsini yaymağa başlamışdır. Müsəlmanları haq yoldan azdırmaq məqsədi ilə Şam, Kufə və Bəsrədən tutmuş, Kiçik Asiya, İran, Misir və Şimali Afrika ölkələrini gəzərək öz əqidəsini geniş surətdə təbliğ etmişdir. Yüksək natiqlik qabiliyyətinə malik olduğu üçün az bir zamanda minlərlə müsəlmanı öz ətrafına toplamış, səhabə və tabeinlərdən olan Əbuzər, Əmmar, Məhəmməd ibni Huzeyfə, Malik Əştər, Məhəmməd ibni Əbi Bəkr, Səʾsəʾət ibni Suhan və Əbdürrəhman ibni Udeys kimi şəxslərin diqqətini özünə cəlb edə bilmişdi.[١]

---

[١] Əhməd Əmin; Pərtove İslam, Məhəmməd Rəşid Rza; Əs-sunnətu vəş-şiətu, Qabril Pol Ankiri; Şəhsövare İslam, Kazim İmadinin tərcüməsi; Əbülhəsən Əşʾəri; Məqalatul islamiyyin, Əli Əlverdi; Vuazüs-səlatin.

Əbdullah Səba müsəlmanlar arasında ondan əvvəl kimsənin e`tiqadı olmayan üç şeyi təbliğ edirdi:

١. O, «Peyğəmbər (s) özündən sonra Əlini vəsi və imam tə`yin etmişdir» deyən ilk şəxs olmuşdur;

٢. Peyğəmbər (s) və Əlinin (ə) (vəfat etdikdən sonra) yenidən qayıdacağına dair fikir irəli sürən ilk şəxs olmuşdur.

٣. O deyirdi: Əli öldürülməmişdir, həmişə diridir. O, buludların arasında sakin olmuşdur. Şimşək onun səsi, ildırım isə onun qırmancıdır. İlahi varlığın bir hissəsi Əlinin vücudunda yerləşdirilmişdir, o yenə qayıdacaq və yer üzündə haqq-ədaləti bərqərar edəcəkdir.

İbni Səba getdiyi bütün yerlərdə öz batil əqidəsini təbliğ edər və deyərdi: «Həzrət Məsihin qayıdacağına inanıb, həzrət Məhəmmədin (s) rəc`ətini qəbul etməyən şəxslərə təəccüb edirəm. Allahın min peyğəmbəri olmuş və onların hər birinin öz vəsisi olmuşdur. Həzrət Məhəmmədin (s) də vəsisi Əlidir». O, İslamı qəbul etməzdən əvvəl və yəhudi olduğu zaman öz əqidəsini Musa və Yuşə ibni Nuh barəsində bəyan edərdi.[١]

Dördüncü xəlifə Əli ibni Əbu Talibin (Allah ondan razı olsun) adı ilə bağlı olan şiəlik, zahirdə özünü müsəlman kimi qələmə verən, olduqca hiyləgər Əbdullah ibni Səba adlı bir şəxs tərəfindən meydana gəlmişdir. O, müsəlmanlar arasında təfriqə və ayrı-seçkilik salmaq, din və dünyalarını dağıtmaq üçün onları Əliyə pərəstiş etməyə çağırırdı.[٢]

Yəhudilər Əbdullah ibni Səbanın Əlinin (ə) xilafət və ilahiləşdirilməsinə dair irəli sürdükləri nəzəriyyələrdən istifadə edərək daim müsəlmanlar arasında bid`ət və təfriqə yaratmağa cəhd göstərmişlər.[٣]

İnqilabçıları xəlifə Osmana qarşı təhrik edən məhz Əbdullah ibni Səba olmuşdur. O, Osman barədə deyirdi: «Osman xilafəti qəsb etmişdir, camaat ona qarşı qiyam etməli və qəsb etdiyi hakimiyyətə qarşı mübarizə aparmalıdır.» Cəməl döyüşündə Əli və Ayişə arasında bağlanılan sülh sazişinə mane olanlardan biri də Əbdullah ibni Səba idi.[٤]

---

[١] Əbulhəsən Əş`əri; Məqalatul İslamiyyin, Əhməd Əmin; Pərtove İslam, Sə`d Məhəmməd Həsən; Əl-məhdəviyyətu fil İslam, Şeyx Məhəmməd Xizri Bək; Mühaziratu tarixil uməmil islamiyyəti, Həsən İbrahimhəsən; Tarixe siyasiye islam.

[٢] Məhəmməd Rəşid Riza, əs-sünnətu vəş-şiətu.

[٣] Təfriqul minar, Məhəmməd Rəşid Riza.

[٤] Sabir Əbduh İbrahim, «Osman ibni Əffan», «Əmmar ibni Yasir» və «Zubeyr ibni Əvvam» kitabları.

# *ƏBDULLAH İBNİ SƏBA BARƏDƏ APARILAN İKİNCİ ARAŞDIRMA*

Bütün tarixçilər, o cümlədən İbni Kəsir, İbni Xəldun, İbni Əsir, Fərid Vəcdi Bəstani, Əhməd Əmin və Həsən İbrahimhəsən bu əhvalatı Təbəridən nəql etmişlər. Rəşid Riza isə bunu İbni Əsirdən nəql edir. İbni Əsir isə kitabının müqəddiməsində bu mətləbi Təbəridən nəql etdiyini göstərir. Çünki bu kitab camaatın əksər hissəsinin istinad etdiyi ən mö᾽təbər mənbə hesab olunur.[١]

Buradan belə bir nəticəyə gəlirik ki, bütün tarixçi alimlər Əbdullah ibni Səbaya və onun gördüyü işlərə dair olan mə᾽lumatları məhz Təbəridən nəql etmişlər. Bəs görəsən Təbərinin özü bütün bunları kimdən və necə nəql etmişdir?!

Bu mə᾽lumatları nəql edən ilk şəxs Rical alimləri tərəfindən mö᾽təbər sayılmayan və özündən bir çox saxta hədislər nəql edən Seyf ibni Ömərdir.

Onun barədə deyilənlərə nəzər salın:

Yəhya ibni Muin (h.q.٢٣٣) deyir: «Onun nəql etdiyi hədislər zəif və əsassızdır».

«Sünən» adlı kitabın müəllifi Nəsai (h.q. ٣٠٢) deyir: «Nəql etdiyi hədislər zəifdir və kimsə tərəfindən qəbul edilmir. O, e᾽timad olunası bir şəxs deyildir.»

Əbu Davud (h.q.٢١٥) deyir: «O olduqca yalançı və e᾽tibarsızdır.»

İbni Hatəm (h.q.٣٧٧) deyir: «Onun nəql etdiyi hədislər kənara qoyulmuşdur.»

İbni Səkən (h.q.٣٥٣) deyir: «O həddindən artıq zəif bir ravidir.»

İbni Həbban (h.q.٣٥٤) deyir: «Özünün uydurduğu hədisləri mö᾽təbər bir şəxsin dilindən nəql edərdi. O, zındıqlıqda* ittiham olunurdu.»

Dar Qutbi: (h.q.٣٨٥) deyir: «Nəql etdiyi hədislər zəif olduğu üçün əksəriyyət tərəfindən rədd edilmişdir.»

Hakim (h.q.٤٠٥) deyir: Nəql etdiyi hədislər rədd edilmiş və zındıqlıqda ittiham olunmuşdur.

Firuzabadi (h.q.٨١٧) deyir: İbni Həcər (h.q.٨٥٢) və Süyuti (h.q.٩١١) onu olduqca zəif ravi hesab edirlər.[٢]

Qeyd etmək lazımdır ki, səhabə və tarixçilərin bir çoxu öz kitablarında Əbdullah ibni Səba haqda heç bir mə᾽lumat verməmişlər.

O cümlədən İbni Sə᾽d özünün «Təbəqat» və Bilazəri «Ənsabul Əşraf» adlı kitablarında Osmana qarşı edilən üsyan haqda söhbət açarkən Əbdullah ibni Səbanın hətta adını da çəkməmişlər. Əbdullah ibni Səba haqda mə᾽lumat verən tarixçilərin kitablarında onun barəsində tam ziddiyyətli xəbərlər müşahidə olunur. Onun Sən᾽a, Hirə və ya Həmir şəhərlərinin hansı birindən olduğu və Osmana qarşı edilən qiyamda necə iştirak etməsi də tarixçilərə bəlli deyildir. Cəməl və Süffeyn döyüşlərində də onun adı çəkilmir. Sual doğuran məsələlərdən

---

[١] Əl-kamilu fit-tarix, İbni Əsir.

[٢] Əbdullah ibni Səba, Mürtəza Əskəri.

biri də bundan ibarətdir ki, görəsən nəyə görə Osman, Peyğəmbərin (s) hədislərini İbni Əbi Huzeyfə və Əbuzərə nəql etməyi yasaq etdiyi bir halda, İbni Səbaya tam ixtiyar verərək islam ölkələrini dolanıb öz xürafi əqidəsini təbliğ etməyə imkan vermişdir?

Yuxarıda qeyd olunan məsələləri nəzərə alaraq belə bir nəticəyə gələ bilərik ki, bir çox tarixçi alimlər Əbdullah ibni Səba haqda deyilənləri Seyf ibni Ömərin uydurduğu cəfəngiyat sanır və onu tarixi hadisə kimi qəbul etmirlər.

## ٣. *ALİMLƏRİN ƏBDULLAH İBNİ SƏBA BARƏDƏ İRƏLİ SÜRDÜKLƏRİ NƏZƏRLƏR*

Müasir alimlərin Əbdullah ibni Səbaya olan münasibətlərinə nəzər salaq. Görəsən ilk dəfə şiə məzhəbinin bünövrəsini qoyan şəxs həqiqətən də o olmuşdurmu?

Misrin məşhur yazıçılarından olan doktor Taha Hüseyn onun barəsində yazır: «Mənim nəzərimcə İbni Səbanın əhvalatını bu qədər böyüdənlər həm özlərinə, həm də tarixə ağır zərbə vurmuşlar. Nəzərə çarpan ilk şey bundan ibarətdir ki, Osmanın əleyhinə edilən qiyamlardan xəbər verən mö̀təbər tarixi kitablarda İbni Səba adlı bir şəxsə rast gəlmirik. İbni Sə̀d Osmanın xilafət dövrü və camaatın onun əleyhinə qiyam etməsindən söz açarkən orada İbni Səbanın adını çəkmir. Bu barədə ən müfəssəl kitab hesab etdiyim Bəlazərinin «Ənsabul Əşraf» adlı tarix kitabında da İbni Səba barədə heç bir mə̀lumat verilmir. Bu haqda yeganə mə̀lumat verən şəxs varsa, o da Təbəridir. Sonrakı tarixçilər də onun barəsində deyilənləri məhz ondan nəql etmişlər.

Osmanın xilafət dövründə İbni Səbanın mövcud olması və onun hər hansı bir ictimai-tarixi hadisədə mühüm rol ifa etməsi mənə dəqiq mə̀lum deyildir. Amma bunu yəqin bilirəm ki, diqqət mərkəzində olsaydı belə, bir o qədər də əhəmiyyətli şəxsiyyət deyildi. Çünki, islamı təzə qəbul etmiş yəhudi bir şəxsin ölkə və şəhərləri dolanaraq belə bir mövqeyə nail olması, müsəlmanların böyük bir hissəsini özünə cəlb etməsi qeyri-mümkündür.

Əgər hiylə işlədərək müsəlman olmuş bu yəhudini Müaviyə və ya Əbdullah ibni Amir tutsaydı, onlardan biri və ya hər ikisi xəlifəyə (Osmana) xəbər verər və İbni Səba öz layiqli cəzasına çatardı.

Osmana məktub yazaraq Əbu Bəkrin və Əbu Huzeyfənin oğlanlarının, eləcə də Əmmar Yasirin cəzalandırılmasını tələb edən şəxslər müsəlmançılıqdan sui-istifadə edərək təfriqə salan və onlarda imam və dinlərinə qarşı şəkk yaradan yəhudi bir şəxsi cəzalandırmamalı idilər...?!»

Təəccüb doğuran burasıdır ki, Osmanın əleyhinə edilən qiyamlar, onun qətlə yetirilməsi və ondan sonra Əli (ə), Təlhə, Zubeyr və Ayişə ilə qarşı-qarşıya durmazdan əvvəl baş vermiş hadisələrdən söhbət açarkən İbni Souda yə̀ni,

Əbdullah ibni Səba və onun tərəfdarlarının adını tez-tez çəkmişlər. Həmçinin Əli (ə) sülhün bərqərar olunması üçün öz adamlarını Təlhə, Zubeyr və Ummul-mö`mininin* yanına göndərdiyi zamanda onların adına tez-tez rast gəlmək olur. Sonra yazırlar: «Qarşıdurma yaratmaq məqsədi ilə onlar Əlinin icazəsi olmadan döyüş meydanına gəlmişlər. Süffeyn döyüşünə gəldikdə isə, İbni Səbanın tərəfdarlarının adlarını əsla çəkmirlər. Əgər İbni Soudanın əhvalatı tarixi baxımdan əsaslı olsaydı, hiylə və məkrləri bu ağır döyüşdə də özünü biruzə verərdi. Belə bir səhlənkarlığı necə başa düşmək olar? Onun Süffeyn döyüşündə iştirak etməməsini necə yozmaq olar? Bunun yalnız bir səbəbi olar bilər. O da bundan ibarətdir ki, İbni Souda bir şəxsiyyət kimi mövcud olmamış, sadəcə olaraq şiə məzhəbinin düşmənləri mübarizə məqsədilə ondan sui-istifadə etmişlər.[١]

Bağdad universitetinin doktoru Əli Əliverdi deyir: «Günlərin bir günündə bir kişi islam dininə istehza edərək deyirdi: Dinə bir baxın, qalib gəldiyi və inkişafda olduğu bir halda asanlıqla tarixə bir o qədər tanış olmayan qərib bir şəxsin ovuna çevrilir. Peyğəmbər (s) və onun davamçılarının islam ölkələrində nüfuzunun artdığı, dini hökm və tə`limlərin sürətlə yayıldığı bir vaxtda, yəhudi bir şəxs meydana gəlir və kimsə qarşısını alıb onunla mübarizə aparmır. Doktor Əliverdi sonra əlavə edərək deyir: Bu qəribə şəxsiyyəti bilərəkdən meydana çıxarmışlar... Əbdullah ibni Səba haqda deyilənlər camaatı cadugərlik yolu ilə özünə cəlb edən xariqüladə iste`dada malik olan bir şəxsdən başqa kimsədən gözləmək olmaz. Demək, heç olmasa İbni Səbanın vücudunda elə bir qeyri-adi qüvvə olmuşdur ki, camaatı tam ixtiyarsız olaraq özünə tabe etmiş və onları ovsunlayaraq öz tə`siri altına sala bilmişdir. Əgər Osmanın xilafət dövründə belə bir şəxs mövcud olsaydı, tarix kitablarında malik olduğu fövqəl`adə xüsusiyyətlərlə birgə onun haqda xəbər verilərdi. Lakin təəccüb doğuran budur ki, Osmana qarşı edilən qiyamlar barədə xəbər verilən mö`təbər mənbələrdə İbni Səba haqda heç bir mə`lumat verilmir.»[٢]

Məşhur şiə alimlərindən olan Abdülhüseyn Əhməd Əmini öz kitabında yazır: «Bu məsələyə bir qədər ehtiyatla yanaşmalıyıq və islamın zühur etdiyi ilk illərdə bu müqəddəs dini qəbul etmiş müsəlmanlar barədə deyilənlərə aldanmamalıyıq. Belə ki, yəhudi bir şəxsin islamdan sui-istifadə edərək müsəlmanların din və siyasətlərini oyuncağa çevirməsi, hiylə yolu ilə xəlifəyə qarşı qiyam edib onun qətlinə və nəhayət müsəlmanlar arasında parçalanmaya səbəb olması olduqca qeyri-məntiqi bir fərziyyədir.»[٣]

---

[١] Taha Hüseyn; Əl-fitnətul kubra, İbni Səba fəsli.

[٢] Vuazüs-səlatin, Doktor Əli Əliverdi.

[٣] Əl-qədir, Əmini, ٩-cu cild.

Həmçinin başqa bir məşhur şiə alimlərindən olan Məhəmmədhüseyn Kaşiful Ğita bu barədə yazır: «Şiə kitablarında Əbdullah ibni Səba ləˈnətlənmiş və hər bir müsəlmana onun barəsində yazılanlardan uzaq olmağa əmr olunmuşdur. İbni Səbanın şəxsiyyəti hətta təhqir olunmağa belə layiq deyildir.»[١]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əbdullah ibni Səba kimdir?

٢. Əbdullah ibni Səbaya nə kimi işlər aid edilir?

٣. İbni Səbaya aid olan məˈlumatları sənəd baxımından araşdırın.

٤. Doktor Taha Hüseyn İbni Səba barəsində nə fikirdədir?

٥. Alimlərin İbni Səba barədə irəli sürdükləri nəzəriyyələrdən hansı nəticəyə gəlmək olur?

---

[١] Şiə məzhəbinin əsasları, Məhəmmədhüseyn Kaşiful Ğita.

## OTUZ DÖRDÜNCÜ DƏRS

Şiə məzhəbi nə vaxt meydana gəlmişdir?
Bu barədə irəli sürülən nəzəriyyələr nədən ibarətdir?

### *ŞİƏLİYİN YARANMASI (٣)*

### *٤. ŞİƏLİK İRANLILARIN MƏZHƏBİDİR*

Şiəlik haqda irəli sürülən dördüncü nəzəriyyə bu məzhəbin iranlılar tərəfindən meydana gəlməsidir. Onlar qeyri-islami ünsürləri dinə əlavə edərək sadə məzhəb halından çıxarmış, daha da genişləndirərək qol-budaq vermişlər. Bu nəzəriyyəni irəli sürənlər üç hissəyə bölünmüşlər, başqa sözlə desək, bu fikir üç müxtəlif tərzdə bəyan edilmişdir:

### *A) ŞİƏLİK QOHUMLUQ ƏLAQƏLƏRİ NƏTİCƏSİNDƏ MEYDANA GƏLMİŞDİR*

Tarixçilərin bə᾿ziləri şiə məzhəbinin meydana gəlməsini Hüseyn ibni Əlinin Sasani sülaləsinin sonuncu padşahı üçüncü Yəzdgerdin qızı ilə evlənməsi ilə əlaqələndirirlər. Belə ki, iranlılar bundan sonra Əli və onun övladlarına meyl etməyə başlamış, imam Hüseynin (ə) Kərbəla faciəsindən sonra onlara olan diqqəti daha da artırmış və şiə məzhəbinin əhli-sünnənin müqabilində olduqca ciddi mövqe tutmasına səbəb olmuşlar.

Əhməd Əmin yazır: «Tarixçilər yazırlar ki, iranlıların Əliyə (ə) meyl etmələri oğlu Hüseynin İran padşahı ٣-cü Yəzdgerdin qızı ilə evlənməsindən irəli gəlmişdir. Beləliklə, iranlılarla Əli övladları arasında qohumluq əlaqəsi yaranmışdır. Lakin Fatimə övladlarına bəslədikləri sevgi və məhəbbət onların qədim əqidələrindən irəli gəlir. İranlılar belə bir əqidədə olmuşlar ki, Allah-taala aləmin bütün işlərini kəsraların* öhdəsinə buraxmış və Öz vücudunun bir hissəsini onlarda yerləşdirmişdir. İslamı qəbul etdikdən sonra bu əqidəni xəlifələrə də aid etmişlər. Yə᾿ni, Allahın vücudunun bir hissəsi xəlifələrin vücudunda yerləşmiş və irsi olaraq atadan övlada keçmişdir.[١]

---

[١] Əhməd Əmin Misri, Fəcrul islam.

**Doktor Həsən İbrahim Həsən yazır: Hüseyn ibni Əli Sasani sülaləsinin sonuncu padşahı Yəzdigərdin qızı Şəhrəbanu ilə evləndikdən sonra iranlılarda ərəblərə qarşı meyl yarandı. Onlar Hüseynin övladlarını qədim padşahlarının məzhəbi hesab edir və Əli ibni Əbu Talibə qarşı sonsuz sevgi və məhəbbətlə yanaşırdılar. Bütün bunlar şiə məzhəbinin İranda asanlıqla yayılmasına münasib şərait yaratdı.**

Hüseynin Kərbəlada qətlə yetirilməsi pərakəndə vəziyyətdə olan İran şiələrini həyəcana gətirərək birləşdirdi. Hüseynin qanı şiəliklə yoğrularaq onların qəlblərinə nüfuz etdi. Beləliklə, şiəlik Hüseyn ilə qohum olan iranlılarda özünə yer taparaq daha da genişləndi. Onlar Hüseyni ərəb və iranlı irqinin ən gözəl məzhəbi hesab etdikləri üçün xilafəti onun övladlarının haqqı hesab edirdilər.»[١]

## *TƏNQİD VƏ MÜLAHİZƏLƏR*

Hüseyn ibni Əlinin Şəhrəbanu ilə evlənməsi Ömər ibni Xəttabın dövrünə təsadüf edir. İran fəth olunduqdan sonra müsəlmanların əsir aldıqları şəxslərin arasında Yəzdgərdin üç qızı da var idi. Əsirlər satıldıqdan sonra xəlifə Yəzdgərdin qızlarının da satılmasını əmr etdi. Lakin Əli ibni Əbu Talib xəlifənin yanına gəlib buyurdu: Onlarla digər əsirlər kimi rəftar etmək olmaz. Xəlifə dedi: Bəs nə etməli? Əli dedi: Qiymətlərini tə`yin et, istəyən şəxslər seçib pulunu versinlər. Xəlifə onların qiymətlərini tə`yin etdikdən sonra Əli onların hər üçünü alıb birini Əbdullah ibni Ömər, birini oğlu Hüseyn, digərini isə Məhəmməd ibni Əbu Bəkrlə evləndirdi. Əbdullahın o qadından Salim, Hüseynin Şəhrəbanudan Zeynəlabidin, Məhəmməd ibni Əbu Bəkrin isə evləndiyi qadından Qasim adlı oğlanları oldu. Deməli, onların (Salim, Zeynəlabidin və Qasim) anaları Yəzdgərdin qızları olduğu üçün bir-birləri ilə xalaoğlu hesab olunurlar.[٢]

Burada belə bir sual yaranır. Əgər şiəlik Hüseyn ibni Əlinin iranlılara kürəkən olmasından irəli gəlibsə, bəs nə üçün hər ikisi xəlifə oğlu olan Əbdüllah və Məhəmmədin iranlılara kürəkən olması onların (yə`ni iranlıların) məzhəb və e`tiqadına tə`sir göstərə bilməmişdir.

Bütün bunlarla yanaşı, Yəzid ibni Vəlid ibni Əbdülməlik və Əməvi sülaləsinin sonuncu xəlifəsi olan Mərvan ibni Məhəmmədin anası da iranlı olmuşdur.[٣]

Belə bir halda nə üçün bu ailə və qohumluq münasibətləri iranlıların Bəni-üməyyə sülaləsinə, onların məzhəb və e`tiqadlarına rəğbət göstərməsinə səbəb olmamışdır?

---

١ İslamın siyasi tarxi, Həsən İbrahimhəsən.

٢ Fəcrul-islam, Əhməd Əmin.

٣ Diyarbəkri; Tarixul-xəmsin, ٢-ci cild.

## *B). ŞİƏLİK ALİ-BƏVEYH TƏRƏFİNDƏN MEYDANA GƏLMİŞDİR*

Tarixçilərin bə`zilərinin fikrincə, şiəlik Ali-Bəveyh sülaləsinin hakimiyyət dövründə və onlar tərəfindən meydana gəlmişdir. Sə`d Məhəmməd Həsən özünün «Əl-məhdəviyyə fil islam» adlı kitabında yazır: «Qüdrətli və vüqarlı İran sultanlığı olan Ali-Bəveyh şiə məzhəbinin zühur və rəsmən e`lan olunmasına səbəb oldu.»

Başqa bir yerdə deyilir: «İslamdan sonra Ali-Bəveyh səltənətinin hakimiyyət illərində İran tarixində nəzərə çarpan dəyişikliklər müşahidə olunur. Çünki bu tayfa başqalarından fərqli olaraq, milli hissləri yaşatmağa və özünü onların bir nümayəndəsi kimi tanıtdırmağa nail ola bildi. Onlar Bağdad xilafətini süquta uğradıb, onun qarşısında şahlığı, sünnülüyün müqabilində şiəliyi və ərəb adət-ən`ənəsinin müqabilində isə İran adət-ən`ənələrini yaşadıb gücləndirə bildi.»[١]

Həmin kitabda yazılır: «Ali-Bəveyh mərkəzi xilafətə ağır zərbə vuraraq Sasanilərdən sonra ilk dəfə Bağdadı Mədainin canişini etdi. İran, islam dinini və Abbasi xilafətini darmadağın edən şiə məzhəbini rəsmi məzhəb e`lan etdi və xilafətlə müxalif olduğunu bildirdi.

## *TƏNQİD VƏ MÜLAHİZƏLƏR*

Ali-Bəveyh sülaləsi Hicrətin ٣٢٠-ci ilindən ٤٤٧-ci ilinədək İranın cənub və qərb nahiyələrində (Fars, Kerman, İsfahan vilayətlərində) və İraqda hakimiyyətdə olmuşdur. Lakin qeyd olunan müddət ərzində onlar vahid hakimiyyət şəklində hökmranlıq etməmişlər. Onlar müxtəlif vaxtlarda ayrı-ayrı məntəqələrdə hökmranlıq etmiş və səltənətlərini daha da genişləndirməyə çalışmışlar.

İbni Əsir özünün «Əl-kamilu fit-tarix» adlı kitabında qeyd edir ki, elmə xüsusi diqqət yetirdiyi üçün Ali-Bəveyh xilafətinə tabe olan ölkə və şəhərlərdə, hətta ətraf məntəqələrdə alimlərin sayı getdikcə artır və saysız-hesabsız kitablar yazılırdı. Yaranmış münasib şəraitdən istifadə edərək alimlər həmin məntəqələrə üz tutur və öz elmi-tədqiqat işlərini o yerlərdə aparırdılar. Onların arasında hətta sünnü alimlərini də görmək olardı. İbni Əsir özünün «Əl-izah fin-nəhv», «Əl-huccə fil-qiraət», «Əl-mulki fit-tib», «Ət-taci fit-tarix» kitablarını məhz bu dövrdə yazmışdır.[٢]

Buradan belə bir nəticəyə gəlmək olur ki, Ali-Bəveyh nə sünnü, nə də şiə alimlərinə qarşı bir tərəfli mövqe tutmamış, həmçinin sünnü alimlərinə təzyiq göstərmək məqsədi ilə şiə alimlərinə xüsusi diqqət yetirməmişdir.

---

[١] Bəhmənyar, Ali-Bəveyh tarixi, Rəşid Yasəmin müqəddiməsi, Kerman nəşri

[٢] Əl-kamilu fit-tarix, İbni Əsir, ٩-cu cild

## *V) ŞİƏ MƏZHƏBİ SƏFƏVİLƏR TƏRƏFİNDƏN MEYDANA GƏLMİŞDİR*

Bə`zi tarixçilərin fikrincə, digər müsəlmanların qarşısında dayanmaq üçün Səfəvi şahları şiə məzhəbini sadə haldan çıxarmış, ona qeyri-dini ünsürlər əlavə edib genişləndirməyə çalışmışlar. «...Sasani dövlətinin e`tiqad və ayinləri şiə adı ilə meydana gəldi. Sonralar yaranan Səfəvi dövləti əslində islam libasını geymiş Sasani dövləti idi.»[١] Başqa bir yerdə deyilir: «Səfəvilərin gördükləri iş ölkə və şəhərləri fəth edib orada dərvişlərin Əli və onun övladlarını mədh etməsi üçün kiçik ibadətgahlar tikməkdən ibarət idi.»[٢]

«Şah İsmayılın şan-şöhrəti ucaldıqda Allahlıq iddiası etdi. Olduqca zalım və qaniçən bir şəxs idi. Amansızcasına öldürdüyü günahsız insanların sayı-hesabı bəlli deyildi. Ordusu onu gördükdə qarşısında səcdə edirdi. Şəhərləri, ölkələri fəth edir, günahsız Allah bəndələrinin qanını tökürdü. Küframiz bir məzhəb yaradıb alimləri öldürür, sünni alimlərinin Qur`anlarına da od vurub yandırırdı. Öldürdüyü hər bir əmirin zövcəsini başqa birinə ya halal, ya da hədiyyə edərdi.[٣]

## *TƏNQİD VƏ MÜLAHİZƏLƏR*

Səfəvilər Hicrətin ٩٠٥-ci ilindən ١١٣٥-ci ilinədək İran və İraqın bir hissəsində hakimiyyətdə olmuş və bu müddət ərzində şiə məzhəbini rəsmi dövlət məzhəbi e`lan etmişlər. Lakin onları şiə məzhəbinin bünövrəsini qoyan ilk sülalə hesab etmək olmaz. Eyni zamanda şiə əqidəsinin Səfəvilər tərəfindən meydana gəldiyini iddia etmək də tamamilə əsassız bir fikirdi. Çünki Səfəvilərdən çox-çox əvvəl alimlər bu barədə yüzlərlə kitab yazmış və ətraflı izahlar vermişlər. Seyyid Mürtəza, Seyyid Rəzi, Şeyx Tusi, Şeyx Müfid, Koleyni, Xacə Nəsrəddin Tusi və onlarla digər şiə alimi bu məzhəbin fiqh, kəlam və e`tiqadı barədə yüzlərlə əsərlər yazaraq bu baxımdan islam dininin əsaslarını şərh etmişlər. Bütün bunları nəzərə alaraq, irəli sürülmüş üçüncü nəzəriyyənin nə dərəcədə düzgün olduğunu bilmək olar.

Eyni zamanda mö`təbər tarix kitablarında Səfəvilər barədə verilən mə`lumatları yuxarıda adları çəkilən alimlərin şiə məzhəbinin e`tiqadına dair yazdıqları əsərlərlə müqayisə edərək, onların rəftar və davranışları barədə deyilənlərin nə dərəcədə düzgün olub-olmadığını da yoxlamaq olar.

* * *

[١] Lutrup Stevard; «Yeni islam aləmi» kitabına Əmir Şəkib Ərsəlanın əlavələri.

[٢] Məhəmməd Rəşid Riza; «Əs-sünnətu vəş-şiətu».

[٣] Əhməd Zeyni Dəhlan; Futuhatul islamiyyə, ٢-ci cild.

Bu bəhsin sonunda qeyd etmək istəyirik ki, şiə əqidəsinə əsasən, bu məzhəb hələ Peyğəmbərin (s) həyatında mövcud olmuşdur. O həzrətin özündən «Əli şiəsi» kimi ifadələrin istifadə olunduğu onlarla hədis və rəvayətlər nəql edilmişdir. (Otuz birinci dərsdə bu hədislərin bir neçəsini qeyd etdik). Həmçinin onlar belə bir əqidədədirlər ki, Peyğəmbər (s) vəfat etməzdən əvvəl onlar şiəliyin ayrı məzhəb halında formalaşmasını istəməmişlər. Çünki şiəlik Peyğəmbərin (s) tə`lim etdiyi şeylərdən savayı bir şey deyildir. Lakin Peyğəmbər (s) vəfat etdikdən sonra o həzrətin canişinlik məsələsi ortaya çıxmaqla, şiələr təbii olaraq, Peyğəmbər (s) vəsiyyətinə əsasən xilafət və imamətin Əliyə (ə) çatmasında sə`y göstərmək məcburiyyətində qalmışlar. Beləliklə, səhabələrdən bir qisminin xilafət məsələsində müxalifət etməsi ilə, islam ictimaiyyəti bir-birindən fərqli olan fikri-siyasi hissəyə ayrıldı. Onlardan biri şiə adı ilə məşhurlaşdı. Zaman keçdikcə şiə məzhəbinin fiqhi, ictimai, əqidə və təfəkkür məsələləri mə`sum imamlar tərəfindən açıqlanmış, şərh edilmiş və tədricən vahid və müstəqil məzhəbə çevrilmişdir. Şiə əqidəsinə əsasən, imamlar Peyğəmbərin (s) tə`limlərindən savayı öz davamçılarına heç bir şey söyləməmiş, dini hökmlərə düzgün əməl etmək üçün sadəcə olaraq onun sünnə və buyuruqlarını təfsir etməyə və açıqlamağa çalışmışlar.

Bütün məzhəblərdə olduğu kimi, şiə məzhəbinin tarixində də bə`zi cərəyanlar baş vermiş və müxtəlif firqələr yaranmışdır. Növbəti dərsimizdən başlayaraq, islam tarixi və ideologiyasında öz tə`sirini qoymuş və bu günədək davam edən şiə məzhəbinin mühüm firqələri barədə söhbət açacaq, sonda sair firqələr haqda danışacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İranlılarla Əli ibni Əbu Talibin ailəsi arasında nə kimi qohumluq əlaqəsi vardır?

٢. Qohumluq əlaqələri iranlıların şiə məzhəbini qəbul etməsinə dəlil ola bilərmi?

٣. Şiə məzhəbi Ali-Bəveyh səltənəti tərəfindən meydana gəlmişdirmi?

٤. Şiə məzhəbinin meydana gəlməsini Səfəvilərlə əlaqələndirmək olarmı?

٥. Şiə məzhəbi nə zaman meydana gəlmişdir?

## OTUZ BEŞİNCİ DƏRS

Zeydiyyə məzhəbi hansı firqəyə deyilir?
Zeyd ibni Əli kimdir?

### *ZEYDİYYƏ MƏZHƏBİNİN YARANMASI*

Bu firqənin davamçıları Zeyd ibni Əli ibni Hüseyn ibni Əli ibni Əbu Talibi özlərinə imam seçdikləri üçün belə adlandırılmışlar. Bir çox tarixi sənədlərdən belə bir qənaətə gəlmək olur ki, Zeyd ibni Əli heç vaxt imamlıq iddiası etməmiş, atası və qardaşı Məhəmməd ibni Əlinin e՚tiqadına zidd olan heç bir əqidəyə əsaslanmamışdır. Bu səbəbdən də onu bu firqənin banisi hesab etmək tamamilə əsassız olardı. Lakin onun tərəfdarları qiyam etdiyi zaman, xüsusilə şəhid olarkən onu imam kimi qələmə verərək Zeydiyyə firqəsinin bünövrəsini qoymuşlar. Bu və növbəti dərslərimizdə Zeydiyyə firqəsinin e՚tiqadları barədə söhbət açacaq və onun ətrafında araşdırmalar aparacağıq.

### *ZEYD İBNİ ƏLİNİN TƏRCÜMEYİ-HALI*

Zeyd ibni Əli şiələrin dördüncü imamı Əli ibni Hüseyn ibni Zeynəlabidinin oğludur. Zeydin doğum və şəhadət günü barədə səhabələr və tarixçilər müxtəlif fikirdədirlər.

Doğulduğu il Hicrətin ٦٧, ٧٥, ٧٨, ٧٩ və ٨٠-cı illəri, şəhid olduğu il isə Hicrətin ١٢٠, ١٢١ və ١٢٢-ci illəri göstərilmişdir. Lakin Zeydin Hicrətin ١٢٢-ci ilində ٤٢ yaşında ikən şəhid olması həqiqətə daha yaxındır. Demək, onun Hicrətin ٨٠-cı ilində doğulması daha mö՚təbər hesab olunmalıdır. Tarixçilərin qeyd etdiklərinə və alimlərin e՚tirafına görə, Zeyd zəmanəsinin görkəmli alim, fəqih, müfəssir və hədisşünası olmuşdur. Həddindən artıq təqvalı, pəhrizkar və mö՚min bir şəxs olan Zeyd gecələrini ibadətlə keçirər və çox sadə həyat tərzi sürərdi. Onun şagirdlərindən biri olan Əbu Hənifə deyir: «Zeyd dövrünün ən savadlı şəxsiyyəti idi, mən həmin vaxtlar ondan daha elmli və natiqlik iste՚dadına malik olan ikinci bir şəxs görmədim.»

Zeyd ibni Əlinin imamiyyə alimlərinin arasında xüsusi yeri vardır. Şeyx Mufid onun barəsində deyir: «Zeyd ibni Əli ibni Hüseyn, qardaşları arasında həzrət Məhəmməd Baqirdən sonra ən bacarıqlı və iste՚dadlı şəxs hesab olunurdu. O, olduqca abid, pəhrizkar, zahid, səxavətli, fəqih və şücaətli bir şəxs idi. Xeyirli

işlərə də`vət, pis işlərdən çəkindirmək və cəddi Hüseyn ibni Əlinin intiqamını almaq məqsədilə qiyam etdi. Qur`anla çox ünsiyyətdə olduğu üçün ona «Həliful Qur`an» (Qur`anla əhd-peyman bağlayan) ləqəbi verildi.[١]

Şeyx Bəhaəddin Amili onun barəsində deyir: Zeydin haqqında yaxşılıqlardan başqa heç bir şey xatırlaya bilmirəm. İmamlarımız daim onu xoş sözlərlə yad edər və ruhuna rəhmət oxuyardılar. İmam Sadiq (ə) hər zaman onu xatırlayarkən deyərdi: «Allah əmimə rəhmət etsin.»[٢]

Cabir ibni Yəzid rəvayət edərək deyir: «Eşitmişəm ki, imam Məhəmməd Baqir (ə) qardaşı Zeyd ibni Əlini xatırlayarkan bu ayəni tilavət edərdi:

«...Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək...»[٣]

Daha sonra isə buyurardı: «And olsun Allaha! Zeyd bu ayənin ən aşkar nümunəsi idi.» Cabir ibni Yəzid deyir: Məhəmməd Baqir ələyhissəlamdan qardaşı Zeyd barədə soruşduqda buyurardı: «Elə bir şəxs barədə sual verirsiniz ki, o, vücudu elm və təqva ilə dolu bir insan və sülaləsinin böyük şəxsiyyətlərindən olmuşdur.»

İmamiyyə məktəbinin ravilərinin nəql etdiyi hədislərə əsasən, Zeyd ibni Əli qiyam etməzdən əvvəl altıncı imam Cə`fər Sadiq (ə)-la məşvərət etmiş və o həzrət də buyurmuşdur: Ey Əli! Əgər qətlə yetirilib zibillikdə dar ağacından asılmağa razısansa, belə et (qiyam et!)»

Zeyd o həzrətlə xudafizləşib getdiyi zaman imam Cə`fər Sadiq (ə) buyurmuşdur: «Vay o kəslərin halına ki, qiyam harayını eşidib ona yardımçı olmasınlar!»[٤]

İmam Rizadan (ə) nəql olunan rəvayətdə deyilir: «Zeyd ibni Əli Peyğəmbər sülaləsinin böyük alimlərindən biri olmuşdur. O, Allahın razılığı üçün qəzəblənib Allah düşmənləri ilə cihad etdi və Allah yolunda da şəhid oldu.»[٥]

## *ZEYD İBNİ ƏLİNİN MÜƏLLİM VƏ ŞAGİRDLƏRİ*

Qeyd etdik ki, Zeyd ibni Əli zəmanəsinin böyük alimlərindən biri olmuşdur. Zəmanəsinin böyük ustadlarından təhsil almaqla yanaşı, şagirdlərin tə`lim-

---

١ Əl-irşad, Şeyx Mufid.
٢ Ə`yanuş-şiə /١-ci cild. Şeyx Bəhaəddin Amilidən nəql edilməklə.
٣ Ali-İmran-١٩٥.
٤ Üyunu Əxbarur-riza/١-ci cild, Biharul Ənvar/٤٦-cı cild.
٥ Üyunu Əxbarur-riza/١-ci cild, Biharul Ənvar/٢٨-ci cild.

tərbiyəsi ilə də ciddi məşğul olurdu. Onun təhsil aldığı müəllimlərdən aşağıdakıların adlarını çəkmək olar:

Atası Əli ibni Hüseyn Zeynəlabidin (ə), qardaşı Əbu Cə᾽fər Məhəmməd Baqir (ə), Əban ibni Osman, Ubeydullah Əbi Rafe və Urvət ibni Zubeyr.

Məşhur şagirdlərindən də bə᾽ziləri aşağıdakılardan ibarətdir:

Övladları İsa ibni Zeyd, Məhəmməd ibni Zeyd, Hüseyn ibni Zeyd və Yəhya ibni Zeyd.

Həmçinin Əbu Hənifə, Mənsur ibni Mö᾽təmir, Harun ibni Sə᾽d, Müaviyət ibni İshaq, Əbulcarub Ziyad ibni Munzir, Həsən ibni Saleh, Əli ibni Saleh, Məhəmməd ibni Əbdürrəhman, Məhəmməd ibni Müslim, Əmr ibni Xalid Əlvasiti, Muəmmər ibni Xeysəm Hilali, Qeys ibni Rəbi, Süfyan ibni Əbissəmət, Məhəmməd ibni Əbdullah (Nəfs Zəkiyyə) və onun övladları və qardaşları İbrahim, İdris, Yəhya və Seyyid Musa.

## *ZEYD İBNİ ƏLİNİN ELMİ ƏSƏRLƏRİ*

١. «Əl-məcmuül fiqhi», «Əl-məcmuül hədisi» və «Əl-musnəd» kitabları Zeydin yazdığı əsərlərdən hesab edilir. Zeydiyyə alimləri bu kitabların onun tərəfindən yazıldığını bildirirlər. Onlar bu kitablara şərh və izahlar da yazmışlar. Verilən şərhlərdən biri də qazi Əllamə Şərəfuddin Hüseyn ibni Əhməd Səyağinindir (h.q.١٢٢١).

٢. «Ğəribul-Qur᾽an təfsiri»; Əgər bu kitabın Zeydə mənsub olunması düzgün olarsa deməliyik ki, bu kitab anlamı çətin olan Qur᾽an ayələrinə şərh verən ilk təfsirlərindəndir.

٣. «Əs-sifvətu»; Qur᾽an ayələrindən istifadə olunaraq Əhli-beytin fəziləti haqda olduqca sadə dildə yazılan bir kitabdır.

٤. «Həcc əməlləri»; Həcc mərasiminin qayda-qanunları barədə yazılmış əməliyyə risaləsi.

٥. «Alim və ümmətə peyğam». Zeyd bu kitabda edəcəyi qiyamın hədəf və məqsədini şərh edir.

Yuxarıda adları çəkilən kitablar Zeyd ibni Əliyə mənsub edilmiş və tarixçilər tərəfindən az-çox təsdiq olunmuşdur.

## *ZEYD İBNİ ƏLİNİN QİYAMI*

Zeyd ibni Əlinin həyatı və Bəni-üməyyəyə qarşı etdiyi qiyam islam tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Zeyd, cəddi Hüseyn ibni Əlinin intiqamını almaq məqsədilə, Peyğəmbər (s) sünnəsini məhv edərək aradan aparmış və bir

çox bid᾽ətlərə səbəb olan Bəni-üməyyəyə qarşı qiyam etdi. Qiyam etməkdə ilk məqsədi müsəlmanları Allahın kitabına də᾽vət etmək, Peyğəmbərin (s) sünnəsini yaşatmaq və meydana gəlmiş bid᾽ətləri aradan qaldırmaq idi.

Zeyd ibni Əli bir müddət gizli şəkildə ətrafına silahdaş yığıb onlara hərbi tə᾽limlər keçirdi. Qiyam edəcəyini rəsmən e᾽lan etdikdə alimlərin bir çoxu, o cümlədən Əbu Hənifə onu müdafiə edərək müsəlmanlara bu qiyama qoşulmağın vacibliyinə dair fətva verdi.[١]

Bir qədər əvvəl qeyd olunduğu kimi, imamiyyə məzhəbinin başçıları və mə᾽sum imamlar Zeydin qiyamını dəstəkləmiş və müsəlmanları bu qiyama qoşulmağa də᾽vət etmişlər. Tarixi mənbələrdə qeyd olunur ki, on beş min nəfərdən ibarət olan könüllü dəstə Zeydə birləşərək qiyamda iştirak etmələrinə hazır olduqlarını bildirdilər. Lakin o zaman Kufənin valisi olan Yusif ibni Ömər Səqəfi, Zeydin qiyam edəcəyindən xəbərdar olub Bəni-üməyyəyə tə᾽cili olaraq döyüşə hazır olmağın zəruriliyini çatdırır. Zeydin ordusu tam hazırlıqlı vəziyyətə düşməzdən əvvəl onlara qarşı hücum başlanır. Çarəsizlikdən üç yüz nəfərlik kiçik bir ordu ilə döyüşə atılıb həmin döyüşdə tərəfdarları ilə birlikdə şəhid olur. Zeydin bədəni Əməvilərin əlinə düşdükdə, onlar vəhşicəsinə onun başını bədənindən ayırıb Hişam ibni Əbdülməlikə göndərdilər. Sonra cəsədini Kufə zibilliyində dar ağacından asdılar və bir müddət qaldıqdan sonra yandırıb külünü Fərat çayına tökdülər.

Zeydin qiyamı oğlu Yəhya tərəfindən Xorasanda davam etdirildi. Eyni zamanda imam Həsən (ə)-ın nəvəsi (Nəfs Zəkiyyə ləqəbi ilə məşhur olan) Məhəmməd ibni Əbdullah ibni Həsən Musənna Hicazda və qardaşı İbrahim ibni Əbdullah İraqda qiyama qoşularaq Bəni-üməyyə və Bəni-abbas sülaləsinə böyük təhlükə yaratdılar.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

**١. Zeyd ibni Əlinin şəxsiyyəti haqda qısa şəkildə danışın.**
٢. Zeyd ibni Əlinin yazdığı kitabların adlarını çəkin.
٣. Zeyd ibni Əli nə üçün qiyam etmişdir və onun qiyamı nə ilə nəticələnmişdir?

[١] Mənaqibu imam Əbu Hənifə/١-ci cild/İbni Bəzzaz.

# OTUZ ALTINCI DƏRS

Zeydiyyə məzhəbinin əqidə üsulları nədən ibarətdir?

## *ZEYDİYYƏ MƏZHƏBİNİN E`TİQADLARI*

Ötən dərslərimizdə qeyd etdik ki, Zeyd ibni Əli öz ata və qardaşının tə`limindən savayı, başqa sözlə desək, Əhli-beytin e`tiqadından fərqli olan heç bir əqidəyə əsaslanmamışdır. Lakin sonralar sair firqələrlə təmasda olan Zeydiyyə alimləri öz məzhəblərinin mövqeyini qoruyub saxlamaq üçün imamiyyə məzhəbinin əqidəsi ilə fərqli olan bə`zi e`tiqadi məsələlər meydana gətirdilər. Nəticədə bu cərəyan müstəqil fiqhi və kəlami məzhəbə çevrildi. Bu dərsimizdə onların e`tiqadının əsasını təşkil edən üsullar haqda söhbət açacaq və onların hər biri barədə ətraflı izahlar verəcəyik.

Zeydiyyə məzhəbinin əqidə əsaslarını beş şey təşkil edir: Tövhid, Allahın ədaləti, və`d və vəid (cənnətə müjdə, cəhənnəm əzabından qorxutmaq), nübuvvət, yaxşı işlərə də`vət etmək, pis işlərdən çəkindirmək.

## ١. *TÖVHİD VƏ ALLAHTANIMA*

Zeydiyyə məzhəbinin nəzəri tövhidə olan e`tiqadı Allahın zat, sifət və ibadətdə təkliyinə iman bəsləməkdən ibarətdir. Əməli tövhiddə isə onlar insanın tam azadlığını və həmin azadlığın tələbatlarından irəli gələn insanın Allahdan başqa digər varlıqlara ibadət etməkdə azad olmasını görürlər.[١]

Allahın sifətlərinə gəldikdə isə, Zeydiyyə məzhəbi belə bir əqidədədir ki, Allah-taala zati və fe`li sifətlərə malikdir. Onlar Allahın sifətlərini Onun zatı hesab edir, xəbəri sifətlərin yozum və təfsirinə əsaslanır və Onun sifətlərinin bəşəri sifətlərə bənzədilməsini qətiyyətlə rədd edirlər. Bu səbəbdən də onlar «yədullah» – Allahın əli ifadəsini - İlahi ne`mət və qüdrət, «cənbəllah» - Allahla qonşuluq və yaxınlıq – kəlməsini Allaha itaət və «Əynullah» - Allahın gözü – ifadəsini isə İlahi elm kimi təfsir etmişlər.[٢]

---

[١] Əli ibni Əbdülkərim əl-Fuzeyl Şərəfuddin; Zeydiyyə: Nəzəriyyə və tətbiq.

[٢] Əmirulhüseyn ibni Bədruddin Məhəmməd; Əl-əqdussəmin fi mə`rifəti Rəbbil aləmin.

## ٢. *ALLAHIN ƏDALƏTİ*

Zeydiyyə e᾽tiqadında İlahi ədalət xüsusi yer tutur. Ehtiyac və cəhalətin mənşəyi olduğu üçün onlar bütün mənfi xüsusiyyətləri Allahın müqəddəs zatından uzaq hesab edirlər. Bu səbəbdən də Zeydiyyə əqidəsi əşyaların zatən yaxşı və pis xüsusiyyətlərə malik olması qaydasına (hüsn və qubhi zati) əsaslanır və Allahın gördüyü işlərin «hüsn» (müsbət) tələbatından irəli gəldiyi hesab edilir.

Digər tərəfdən də onlar belə bir əqidədədirlər ki, ilahi qəza-qədər Allahın ədalətindən doğur və Allah-taala yalnız haqq-ədalət üzərində qəzavət edəcəkdir. Bunun üçün də bu məzhəb insanların ilahi qəza-qədər üzündən günaha düçar olmasına dair irəli sürülən nəzəriyyəni qətiyyətlə rədd edir. Bu məktəbə əsasən, insanın gördüyü bütün işlər onun özünə aiddir və görülən heç bir yaxşı və ya pis işi Allah-taalaya nisbət vermək olmaz. Zeydiyyə alimləri Qur᾽anda insanın gördüyü işlərə dair istifadə olunan ifadələri öz e᾽tiqadlarının sübuta yetirilməsində əsaslı dəlil hesab edirlər. Belə ki, Qur᾽ani-kərimin bir çox ayələrində «yəksibun» - ələ gətirirlər, «yəmkurun» – məkr və hiylə edirlər, «yəf᾽əlun» – yerinə yetirirlər, «yəsnəun» – qururlar, meydana gətirirlər, «yəxliqunə ifkən» – günah edirlər, «yəkfurun» – küfr edirlər kimi ifadələrdən istifadə olunduğunu müşahidə edirik. Demək, insanın istər yaxşı, istərsə də pis və xoşagəlməz əməlləri onun özünə aid olunur.

İnsanın gördüyü bütün işlərdə yalnız onun özünün məs᾽uliyyət daşımasında və Allahın qəza-qədər və iradəsinin gördüyü işlərdə heç bir tə᾽siri olmamasına dair irəli sürdükləri nəzəriyyədə Zeydiyyə məzhəbi ilə Mö᾽təzilə məktəbi tamamilə həmfikir və həmrə᾽ydir. Lakin «Əmrun beynə əmreyn*»ə e᾽tiqadlı olan imamiyyə ilə zeydiyyə və mö᾽təzilə arasında müəyyən fikir ayrılığı vardır.[١]

Bu məktəb digər tərəfdən də Allah-taalanın insanlara onların güc və bacarığından xaric vəzifələr tə᾽yin etməsini qəbahət hesab edir və bunun ilahi ədalətə uyğun gəlmədiyinə əqidə bəsləyirlər.

## ٣. *VƏ᾽D VƏ VƏİD*

### *(CƏNNƏTƏ MÜJDƏ, CƏHƏNNƏM ƏZABINDAN QORXUTMAQ)*

Bu məsələdə Zeydiyyə ilə Mö᾽təzilə həmfikirdir. Onlar belə bir əqidədədirlər ki, və᾽d və vəid Allah üçün vacib və zəruridir. Çünki O, mö᾽minlərin cənnətə, kafirlərin isə cəhənnəmə daxil olacağına və᾽də vermişdir. Bu səbəbdən də O, «və᾽d» və «vəid» qaydasına əməl etməlidir.[٢]

---

١ Əl-əqdussəmin.

٢ Əl-əqdussəmin

Böyük günahlara gəldikdə də, onlar Mö᾽təzilə kimi «Mənzilətun beynə mənziləteyn*» nəzəriyyəsinə əsaslanırlar. Çünki, Zeydiyyə məzhəbi böyük günaha düçar olanları fasiq hesab edərək deyir: «Böyük günaha düçar olanlar nə kafir, nə də mö᾽mindirlər.» Onlar belə bir əqidədədirlər ki, kafir və mö᾽min ifadəsi bu şəxslərə dəlalət etmir. Həmçinin qeyd edirlər ki, böyük günaha düçar olmuş hər bir şəxs tövbə etmədən dünyasını dəyişərsə, əbədi olaraq cəhənnəmdə qalacaqdır.

Zeydiyyə ilə imamiyyə arasında mövcud olan fikir ayrılıqlarından biri də məhz bu məsələ ətrafındadır. Çünki, imamiyyə ardıcılları böyük günaha düçar olan şəxslərin cəhənnəmə daxil olacaqlarını qəbul etsələr də, onların əbədi olaraq orada qalacaqlarına e᾽tiqadlı deyildirlər.

## ٤. NÜBUVVƏT

Peyğəmbərlik məsələsində Zeydiyyə ilə digər islam firqələri arasında nəzərə çarpacaq ixtilaflar mövcuddur. Onlar peyğəmbərlərin mə᾽sum olmasını və onlara olan ehtiyacların əqlən zəruriliyini qəbul edərək deyirlər: Şəriət sahibi və ya əvvəlki peyğəmbərlərin gətirdikləri şəriəti təzələyən hər bir peyğəmbər, hər şeydən əvvəl, Allahın lütfü ilə peyğəmbərliyə tə᾽yin olunmazdan əvvəl böyük günahlardan uzaq (mə᾽sum) olmalıdır. Bundan əlavə, peyğəmbərlik məqamına xələl gətirən və eləcə də onlara qarşı şübhə yaradacaq kiçik günahlara da yaxın düşməməlidirlər.[١]

Lakin İmamiyyə məzhəbi kiçik və böyüklüyündən, həmçinin şübhə yaradıb-yaratmamasından asılı olmayaraq, Peyğəmbərləri bütün günahlardan uzaq və mə᾽sum hesab edir.

## ٥. YAXŞI İŞLƏRƏ DƏ᾽VƏT VƏ PİS İŞLƏRDƏN ÇƏKİNDİRMƏK

### (ƏMR BE MƏ᾽RUF VƏ NƏHY ƏNİL MUNKƏR)

Əmr be mə᾽ruf və nəhy əz münkər Zeydiyyə məzhəbinin dini e᾽tiqadlarının beşinci əsas hissəsini təşkil edir. Onlar bu prinsipi belə izah edirlər: «Əmr be mə᾽ruf və nəhy əz münkər, nəzəri baxımdan qəlbən təsdiq, dillə iqrar etmək və əməli olaraq həyata keçirməkdən yə᾽ni, Allahın əmr etdiyi şeylərə də᾽vət və yasaq etdiklərindən çəkindirməkdən ibarətdir. Əməli baxımdan isə haqq-ədalətə kömək, batilə qarşı mübarizə, Allahın, peyğəmbərlərin və mö᾽minlərin izzətinin isbatı üçün əməl, dil və imanın ən aşağı mərhələsi olan qəlbi ehtiramın vacibliyinə iman gətirməkdir.[٢]

---

[١] Nəzəriyyə və tətbiq / Zeydiyyə.

[٢] Nəzəriyyə və tətbiq / Zeydiyyə.

## ٦. *İMAMƏT*

Zeydiyyə nöqteyi-nəzərindən Peyğəmbərdən (s) sonra birinci imam və xəlifə Əmirəl-mö᾽minin Əli ibni Əbu Talib (ə) olmalıdır. Onlar Əlini (ə) xilafət üçün ən layiqli və bacarıqlı bir şəxsiyyət hesab edirlər. Əqidələrinin sübuta yetirilməsində Əli (ə) barəsində nazil olmuş «Maidə» surəsinin ١٥٥-ci ayəsinə, «Qədir-Xum» və «Mənzilət» hədislərinə istinad edirlər.

Zeydiyyə məzhəbi Əmirəl-mö᾽minin Əli ibni Əbu Talibdən sonra Həsən ibni Əli (ə) və Hüseyn ibni Əlini (ə) özlərinə imam hesab edir və bu barədə Peyğəmbərdən (s) nəql olunan bu hədisə əsaslanırlar: «Həsən və Hüseyn qiyam etsələr də, etməsələr də imamdırlar. Ataları isə onların hər ikisindən üstündür.»

Zeydiyyə məzhəbi bu hədisi imam Həsən və imam Hüseynin (ə) imamətini sübuta yetirmək üçün açıq-aşkar sənəd hesab edir. Onlar İmam Həsən və imam Hüseyn (ə)-ın hər ikisinin övladlarını imamət üçün layiqli hesab edib deyirlər: Ata tərəfindən həzrət Fatimə (s) övladlarından olan hər bir şəxs imama xas olan xüsusiyyətə malik olarsa, müsəlmanların rəhbəri olacaqdır.

Bu məzhəbə görə, imamət üçün lazım olan xüsusiyyətlər şər᾽i məsələlərdə başqalarından daha elmli olmaq, pəhrizkarlıqda şan-şöhrət tapmaq, şücaət, səxavət, düşüncə və təfəkkür, din yolunda qiyam və cihad etməkdən ibarətdir.[١]

**Zeydiyyə, Peyğəmbər (s) tərəfindən imam Zeynəlabidin (ə)-ın imamətinə dəlalət edəcək bir sənədin olmadığını və din yolunda qiyam etmədiyini əldə əsas tutub onu dördüncü imam hesab etmirlər. Əgər bu iki şərtdən biri Zeydiyyə tərəfdarları üçün sabit olsaydı, onu imam kimi qəbul edərdilər.**

**Peyğəmbər (s) tərəfindən imamın haqq olmasına dəlalət edəcək açıq-aşkar dəlil olduğu təqdirdə, onun qiyam etməsi heç də zəruri deyildir. Bu səbəbdən də onlar Əli ibni ƏbuTalibdən sonra imam Həsən, imam Hüseyn və Zeyd ibni Əlinin imamətini qəbul edirlər.**

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Zeydiyyə məzhəbinin tövhidə olan baxışını bəyan edin.

٢. Zeydiyyənin qəza-qədərə, cəbr və ixtiyara olan baxışı nədən ibarətdir?

٣. Onlar hansı məsələlərdə Mö᾽təzilə ilə həmfikirdirlər?

٤. Bu məktəbin Əmr be mə᾽ruf və nəhy əz münkərə olan baxışı nədən ibarətdir?

٥. Zeydiyyə nöqteyi-nəzərindən kimlər imamətə daha layiqli hesab edilir?

[١] Əl-əqdussəmin/Nəzəriyyə və tətbiq.

# OTUZ YEDDİNCİ DƏRS

Zeydiyyə məzhəbi neçə firqəyə bölünür?
Zeydiyyə məktəbi kimlər tərəfindən yaradılmışdır?

## *ZEYDİYYƏ FİRQƏLƏRİ*

Digər əqidəvi məzhəb və cərəyanlar kimi «Zeydiyyə» firqəsi də tarix boyu müxtəlif dəstələrə bölünmüşdür.

Dinlər və məzhəblər sahəsində tədqiqat aparmış alimlər Zeydiyyə firqəsindən ayrılmış qollar barədə müxtəlif nəzərlər irəli sürmüşlər. Bə᾽ziləri onları üç, bə᾽ziləri altı, bə᾽ziləri səkkiz, bə᾽ziləri isə on altı firqəyə böləndüyünü qeyd etmişlər. Lakin bizim dövrümüzə onlardan yalnız biri gəlib çıxmış, digərləri isə zaman keçdikcə öz mövqeyini itirərək tarix səhifələrindən birdəfəlik silinmişdir. Hal-hazırda Yəməndə müstəqil məzhəb kimi fəaliyyət göstərən «Zeydiyyə» firqəsinin varisləri özlərini bu məktəbin yeganə davamçıları hesab edir və bu məzhəblə bağlılığı olan heç bir cərəyanı qəbul etmirlər.

Bu dərsimizdə «Zeydiyyə» firqəsinin tarix boyu keçdiyi mərhələlər və ondan ayrılmış digər firqələr haqda söhbət açacaq, onların görkəmli şəxsiyyətlərinin tarixçəsinə qısa şəkildə nəzər salacağıq.

## *ZEYDİYYƏ FİRQƏLƏRİ*

**١. Carudiyyə;**

Carudiyyə firqəsi ibni Carud və Ziyad ibni Munzər Həmdanin (h.q.١٥٠. və ya h.q.١٦٠.) ardıcıllarının təşkil etdiyi cərəyandır. İbni Carud əvvəllər ٥-ci və ٦-cı imamın, yə᾽ni Əli ibni Məhəmməd Baqir (ə) və Cə᾽fər ibni Məhəmməd Sadiq (ə)-ın səhabələrindən olmuş və onlardan hədis nəql etmişdir. Lakin sonralar onlardan ayrılıb «Zeydiyyə» firqəsinə qoşulmuşdur. Əbu Xalid Vasiti, Fəzl ibni Yəzid və Mənsur ibni Əbil Əsvəd Əbu Carudun tərəfdaralarından hesab olunurlar.

Əbu Carud belə bir əqidəyə əsaslanmışdır ki, Peyğəmbər (s) həzrət Əlini qeyri-aşkar olaraq (yə᾽ni, adını çəkmədən), imamətə tə᾽yin etmişdir, lakin o həzrətin vəfatından sonra camaat başqa birisinə bey᾽ət edərək yollarını azmış və nəticədə kafir olmuşlar.

Onların fikrincə, həzrət Məhəmməd (s) sülaləsinin rəva bildiyi hər bir şey müsəlmanlara halal və rəva bilmədikləri isə haramdır. Peyğəmbərin (s) gətirdiyi hər bir şey bu sülalə tərəfindən qorunub saxlanılır və onlar elm baxımından tamamilə eyni səviyyədədirlər.[١]

Carudiyyə Zeyd ibni Əlidən sonra Nəfsi Zəkiyyə ləqəbi ilə məşhur olan Məhəmməd ibni Əbdullah ibni Həsən ibni Əli ibni Əbu Talibin imamətini qəbul edib üç firqəyə bölündülər:

١. Bə᾽ziləri belə bir əqidədə olmuşlar ki, Məhəmməd ibni Əbdullah ölməmiş, qeybə çəkilmiş və nə vaxtsa yenidən qayıdacaqdır.

٢. Bə᾽ziləri (Taleqan vilayətinə hakim olan) Məhəmməd ibni Qasim Ələvinin qeybə çəkilib yenidən zühur edəcəyinə e᾽tiqad etməyə başlamışlar.

٣. Bə᾽ziləri isə (Kufə vilayətinə hakim olan) Yəhya ibni Ömər haqda da həmin əqidədə olmuşlar.

Əlbəttə, belə bir bölüm Carudiyyə imamlarına aiddir. Yə᾽ni, onlar Məhəmməd ibni Əbdullahdan sonra Məhəmməd ibni Qasim və daha sonra Yəhya ibni Ömərin imamətinə e᾽tiqad bəsləmişlər.

**٢. Süleymaniyyə;**

Bu ad Süleyman ibni Cərir Zeydinin tərəfdalarına verilən addır.

Süleymaniyyə firqəsinin davamçıları belə bir əqdidə olmuşlar ki, imamət şura tərəfindən tə᾽yin olunmalı və imam şuranın rə᾽yi əsasında seçilməlidir. (Yə᾽ni, kiminsə tərəfindən deyil, müsəlman şurası tərəfindən müəyyənləşdirilməlidir). Əlbəttə, bu iş iki müsəlman şəxsin rə᾽yi əsasında da həyata keçirilə bilər. Xalqın nəzərində fəzilət sahibi olan şəxsin də seçilməsi tamamilə mümkün olan bir işdir. Onlar Əbu Bəkr və Ömərin imamətinə dair belə bir fikirdə olmuşlar ki, ümmət bu şəxsləri öz ictihadları ilə seçdikləri üçün bu növ hakimiyyəti də qanuni hesab etmək olar. Bununla yanaşı, onların fikrincə Əli ibni Əbu Talib olduğu bir halda onlara bey᾽ət etmək düzgün deyildi. Lakin onların bu səhvi ictihadi səhv olduğu üçün böyük günah hesab olunmur. Qeyd etmək lazımdır ki, Süleymaniyyə firqəsi Aişə, Təlhə və Zubeyri Əli (ə)-a qarşı çıxdıqları üçün kafirlikdə günahlandırdıqları kimi, Osmanı da öz qətlinə səbəb olan şəraiti yaratdığı üçün küfrdə ittiham etmişlər. Onlar imamiyyə məzhəbinin bəda* və təqiyyəyə olan e᾽tiqadını tamamilə inkar etmişlər.

Süleymaniyyə firqəsi aradan getsə də, onların imamət mövzusuna dair bə᾽zi nəzəriyyələri bir sıra təriqətlərdə davam etdirilmişdir. Mö᾽təzilə alimlərindən bə᾽ziləri, o cümlədən Cə᾽fər ibni Mubəşşir və Cə᾽fər ibni Hərb, Süleyman ibni Cərirənin fikirləri ilə müvafiq olaraq imaməti dinin məsləhətli işlərindən biri hesab etmişlər. Onların fikrincə tövhid və Allahtanıma mövzusunda imamətə ehtiyac olmasa da, qəzavət və qanunvericilikdə, yetimlərin və kimsəsiz qadınların

---

[١] Firəquş-şiə/Novbəxti.

himayəsində, islam cəmiyyətinin qorunmasında və düşmənə müharibə e᾽lan olunmasında imama ehtiyac duyulur. Bu səbəbdən də imamın elm baxımından hamıdan üstün olması, hamıdan daha tədbirli və düşüncəli olub xalqın ümumi rəğbətini qazanması lazım deyildir. Çünki, qeyd olunan ehtiyaclar bu xüsusiyyətlərə malik olan şəxsin seçilməsi ilə də aradan qaldırılmış olur. Əhli-sünnə alimlərinin bə᾽ziləri də belə bir əqidəyə əsaslanaraq müctəhid olmayan bir şəxsin də imamətini qanuni hesab etmişlər, bu şərtlə ki, (şər᾽i) hökmlərdə müctəhidə müraciət etmiş olsunlar.[١]

٣-٤. Salehiyyə və Təbəriyyə;

Salehiyyə Həsən ibni Saleh ibni Həyyin və Təbəriyyə Kəsirun-nə᾽vanın tərəfdarlarına verilən addır.

Bu iki firqə əqidə və e᾽tiqad baxımından bir-birinə olduqca oxşar olmuşlar. Onlar imamət mövzusunda Süleymaniyyə ilə həmfikir olmuş, lakin Osmanın mö᾽min və ya kafir olmasında müəyyən fikir ayrılığına gəlib çıxmışlar. Onlar deyirlər: Onun barəsində nəql olunan tarixi sənədlərə müraciət etdikdə, onun «əşəreye mubəşşirə*»nin biri olmasına, müsəlman və ya mö᾽minliyinə, cənnət əhlindən olacağına hökm edirik, lakin gördüyü işlərə yə᾽ni, Bəni-üməyyəni dirçəltməsinə, səhabələrin rə᾽yi ilə müxalif olduğuna və zorakılığa dair rə᾽y verməsinə nəzər saldıqda, küfr etməsinə dair hökm veririk. Bu səbəbdən də onun haqda qəti qərar çıxarmağa çətinlik çəkir və onun işini Allah-taalanın öhdəsinə qoyuruq. Əli ibni Əbu Talibə gəldikdə isə, onlar Peyğəmbərdən (s) sonra onu müsəlman ümmətinin ən fəzilətli və imamətə hamıdan layiqli şəxs olduğunu hesab etmişlər. Əgər o, öz razılığı ilə imaməti başqalarının öhdəsinə buraxıb öz haqqından keçməyə razı olubsa, biz də onun razı olduğu şeyə razıyıq. Yox, əgər Əli (ə) bu məsələyə razı olmamışsa, onda Əbu Bəkr özünü həlak etmişdir.[٢]

٥. Nəimiyyə;

Bu firqə Nəim ibni Yəmanın davamçılarına verilən addır. Onlar Peyğəmbərdən (s) sonra Əli ibni Əbu Talibi imamətə daha layiqli və insanların ən fəzilətlisi hesab etmişlər. Onların fikrincə, islam ümməti Əliyə (ə) bey᾽ət etməməklə böyük səhvə yol vermişlər. Nəimiyyə firqəsi Osmana və Əliyə (ə) qarşı çıxan şəxsləri məhkum edərək onları küfrdə ittiham etmişdir.

٦. Yə᾽qubiyyə;

Onlar Yə᾽qub ibni Əli Kufinin tərəfdarları olmuşlar. Qiyamət günündən əvvəl insanların dünyaya qayıtmalarını, qəbr əzabını, Nəkir və Munkirin sorğu-sualını və şəfaəti inkar edərək Əbu Bəkr, Ömər və Osmanın xilafətini qətiyyətlə rədd etmişlər. Lakin onların imamətini zəlalət saymamışlar.

---

[١] Əl-miləh vən-nihəl/Şəhrisatni/١-ci cild – ١٦٠-cı səh.

[٢] Əl--miləl vən-nihəl/١-ci cild / Şəhristani.

Əbrəqiyyə, Əcəliyyə, Mərsiyyə, Səbahiyyə, Qasimiyyə, Hüseyniyyə, Həsəniyyə, Xəlʾiyyə və Xəşəbiyyə, Zeydiyyə firqəsinin digər şaxələrini təşkil etmişlər.

## *ZEYDİYYƏ FİRQƏSİNİN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ*

Zeyd ibni Əli, Yəhya ibni Zeyd, (Nəfsi Zəkiyyə ləqəbi ilə məşhur olan) Məhəmməd ibni Əbdullah, İbrahim ibni Əbdullah, İsa ibni Zeyd, Yəhya ibni Əbdullah, İbni Təbatəba və Hüseyn ibni Əli Sahibul-Fəxlə yanaşı, Zeydiyyə məzhəbinin bir çox görkəmli şəxsiyyətləri də olmuşdur. Tarix boyu onlar tərəfindən yüzlərlə kitab və elmi əsərlər yazılmışdır. Burada misal olaraq onlardan bir neçəsini gətiririk:

١. Əhməd ibni İsa ibni Zeyd; (١٥٧-٢٤٧ h.q.) Zəhəbi öz kitabında onun «Siyam» (Oruc) adlı yazdığı kitabın adını çəkmişdir. Lakin onun «Əmali» adlanan başqa bir əsəri daha çox şöhrət qazanmışdır. Bu kitab Əllamə Əli ibni İsmail tərəfindən «Rəʾbus-səd» ünvanı altında üç cilddə nəşr olunmuşdur. Əhməd ibni İsa bu kitabda Peyğəmbər (s) və onun Əhli-beytindən ٢٧٩٠ hədis nəql etmişdir ki, onların əksəriyyəti Əli ibni Əbu Talib (ə)-dan qeyriləri tərəfindən nəql olunmuşdur.

٢. Qasimur-rəssi ləqəbi ilə məşhur olan Qasim ibni İbrahim Təbatəba; (١٦٩-٢٤٦ h.q.) O, Yəməndə Zeydiyyə firqəsinin bünövrəsini qoymuş Yəhya ibni Hüseynin babası olmuşdur. Əqidə və fiqhə dair bir çox kitablar yazmışdır. «Əd-dəlilul Kəbir», «Kitabul-ədl vət-tovhidul kəbir», «Ər-rəddu ələn-nəsara», «Əl-mustərşid», «Təʾvil-ul-ərşi vəl-kursi», «Əl-fəraiz vəs-sünən» və «Siyasətun-nəfsi» kitablarını buna misal çəkmək olar.

٣. Yəhya ibni Hüseyn ibni Qasim; İmamul-Hadi ləqəbi ilə məşhur olan bu şəxs Yəməndə Zeydiyyə hökumətini təʾsis etmişdir. O, bu firqənin bünövrəsini qoyduqdan sonra ٧٧-yə yaxın elmi əsərlər yazmışdır. «Əl-muntəxəb fil-fiqh», «Əl-fununu fil-fiqh», «Əl-məsail», «Ər-riza», «Məzariə», «Kitabut-tovhid», «Kitabul-imamət», «İsbatun-nubuvvəti vəl-vəsiyyə», «Əl-mizan bəynə mənzilətəyn», Əd-diyanə», «Əl-xəşiyyə» və «Məanil Qurʾan» kitablarını buna misal çəkmək olar.

٤. Ən-nasiru lil-həqq ləqəbi ilə məşhur olan Əbu Məhəmməd Həsən ibni Əli Ət-tərvəş; (٢٣٠-٣٠٤ h.q.) Təbəristanda Zeydiyyə firqəsinin bünövrəsini qoyan bu şəxs «Əl-bəsat», «Ət-təfsir», «Əl-huccacul-vazihə» və «Əmali» kimi elmi əsərlərin müəllifi hesab olunur.

٥. İmamul-Mürtəza ləqəbi ilə məşhur olan Əbul Qasim Məhəmməd ibni Yəhya; (٢٨٧-٣١٣ h.q) Bu şəxs «Əl-usul fil-ədl vət-tovhid», «Təfsirul-Qurʾan», «Əş-şərhu vəl-bəyan», «Cəvabu məsail ibni Məhdi», «Cəvabu ibni Fəzlil-Qərməti», «Ər-rəsailussəbil-muntəqa» adlı kitabların müəllifidir.

٦. Əl-hakimul-Cəsmi ləqəbi ilə məşhur olan Möhsin ibni Məhəmməd ibni Kiramə; (٤١٣-٤٩٤ h.q.) Bu şəxs dövrünün tanınmış kəlam alimlərindən olmuşdur və məşhur alim Zəməxşərinin müəllimlərindən biri hesab olunur. ٤٢-yə yaxın kitab və elmi əsər yazıb yaratmışdır. «Ət-təhzib», «Şərhu uyunul-məsail», «Ət-tə᾿siru vəl-mə᾿sur», «Əs-səfinə», «Əl-imamə», «Cəlaul-əbsar» və başqalarını buna misal çəkmək olar.

٧. Əl-məhdi lidinillah ləqəbi ilə məşhur olan Əhməd ibni Yəhya ibni Mürtəza. (٧٦٤-٨٤٠ h.q) Fiqh və üsul sahələrində Zeydiyyə firqəsinin görkəmli alimlərindən olmuş bu şəxs «Əl-bəhruz-zuxar» adlı kitabın müəllifi hesab olunur.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Carudiyyə və Süleymaniyyə firqələrinin imamət mövzusuna dair fərqli baxışları nədən ibarətdir?

٢. Süleymaniyyə və Salihiyyə firqələri üçüncü xəlifəyə qarşı hansı fərqli baxışlara malik olmuşlar?

٣. «Əd-dəlilul-Kəbir», «Ər-riza», «Rə᾿bus-səd», «Şərhul bəyan» kitabları hansı müəlliflər tərəfindən yazılmışdır?

## OTUZ SƏKKİZİNCİ DƏRS

İsmailiyyə nə zaman və necə meydana gəlmişdir?
İsmailiyyə məzhəbi kimlər tərəfindən tə᾽sis olunmuşdur?

## *İSMAİLİYYƏ MƏZHƏBİ*

Şiə məzhəbli firqələrdən biri də İsmailiyyə məzhəbidir. İsmailiyyə istər e᾽tiqadi, istərsə də tarixi baxımdan islam dünyasında böyük əhəmiyyət kəsb etmiş, öz mövqeyini qoruyub saxlayaraq bu günkü günədək davam gətirə bilmişdir. Bu məzhəb hal-hazırda islam dünyasının bir çox ölkələrində müstəqil firqə şəklində fəaliyyət göstərir, istər cəmiyyət, istərsə də müsəlman alimlərinin arasında xüsusi yer tutur. Bu cərəyan şiələrin altıncı imamı Cə᾽fər ibni Məhəmməd Sadiq şəhid olduqdan sonra qısa bir müddət ərzində meydana gəlmişdir. İsmailiyyə digər firqələrdən fərqli olaraq, imam Sadiqin (ə) böyük oğlu İsmaili imam kimi qəbul edir. Ümumiyyətlə altıncı imam vəfat etdikdən sonra şiələr beş firqəyə bölünmüşlər:

١. Navusiyyə;

Onların əqidəsinə əsasən, altıncı imam vəfat etməmişdir və hələ də yaşamaqdadır. O, Peyğəmbərin (s) nəslindən olan və zühurunun intizarı çəkilən Məhdidir. Zühur etdiyi gün bütün aləmə imamət (rəhbərlik) edəcəkdir. İsmailiyyə Cə᾽fər ibni Məhəmməddən belə bir rəvayət nəql edir: «Dağdan başımın aşağı endiyini (yə᾽ni, qətlə yetirildiyimi) görsəniz belə, yenə də inanmayın və bilin ki, mən sizin ağanız və rəhbərinizəm». Başqa bir rəvayətdə deyilir: «Əgər sizin yanınıza gəlib xəstələndiyimi və ya vəfat etdikdən sonra mənə qüsl verib kəfənləndiyimi xəbər versələr də inanmayın, çünki mən sizin ağanız və rəhbərinizəm».

Bu firqə onu tə᾽sis edən şəxsin - Əcəlan ibni Navusun - adı ilə bağlı olaraq Navusiyyə adlandırılmışdır və hal-hazırda tamamilə aradan getmişdir.

٢. İsmailiyyə;

Bu firqənin ardıcılları Cə᾽fər ibni Məhəmməddən sonra oğlu İsmaili imam kimi qəbul edirlər. Onlar hələ atası sağ ikən İsmailin vəfat etdiyini inkar edərək demişlər: İsmailin ölümü və dəfn mərasimi onun Abbasilərdən qorunması üçün atası tərəfindən qurulmuşdur. Sonralar İsmailiyyə bir neçə firqəyə bölünmüşdür və bunun ən başlıca səbəbi İsmailin imaməti, sağ və ya vəfat etdiyinə dair

aparılan mübahisələr olmuşdur. (Bu barədə növbəti dərslərimizdə söhbət açacağıq). Lakin İsmailiyyə firqələrinin müştərək cəhəti imamət məsələsində İsmailin bu işə daha layiq olması və onun altıncı imamın digər övladlarından üstünlüyünə olan e᾽tiqad təşkil edir.

٣. Fəthiyyə;

Fəthiyyə imam Cə᾽fər Sadiqin (ə) ikinci övladı olan Əbdullah ibni Cə᾽fərin davamçılarına verilən addır. Baş və ayaqları enli olduğu üçün Əbdullah «Əftəh» ləqəbi ilə məşhur olmuşdur. Bu səbəbdən də bu firqəyə Fəthiyyə adı verilmişdir. Tarixi sənədlərə əsasən Əbdullah özünü atasının canişini e᾽lan etmişdir. Bu səbəbdən də atası vəfat etdikdən sonra bə᾽ziləri ona qoşularaq Fəthiyyə firqəsinin bünövrəsini qoymuşlar. Fəthiyyə davamçıları belə bir əqidəyə əsaslanırlar ki, Əbdullah vəfat etdikdən sonra imamət onun oğluna çatacaqdır. Lakin övladı olmadığı üçün və özü də atasının vəfatından sonra yalnız yetmiş gün yaşadığı üçün onun tərəfdarları yeddinci imam Cə᾽fər Kazimə (ə) üz tutdu. Beləliklə, Fəthiyyə firqəsinə son qoyuldu.

٤. Səmitiyyə;

Səmitiyyə firqəsinin tərəfdarları Məhəmməd ibni Cə᾽fəri imam kimi qəbul etmişlər. Məhəmməd ibni Cə᾽fər «Dibac» ləqəbi ilə məşhur olan cəsur bir şəxsiyyət olmuşdur. Hicrətin ١٩٩-cu ilində Məkkədə Mə᾽muna* qarşı qiyam etmişdir. Zeydiyyə firqəsinin davamçıları bu qiyamda onlara köməklik göstərsələr də, İsa Cəludi onu yaxalayaraq Mə᾽munə təslim etmişdir. Səmitiyyə firqəsi bu cərəyanı tə᾽sis edən Yəhya ibni Əbi Səmitin adı ilə adlandırılmışdır. Bu firqə hal-hazırda öz fəaliyyətini tamamilə dayandırmış və tərəfdarlarını itirmişdir.

٥. Musəviyyə;

Bu firqə imam Musa Kazim (ə)-ı sonuncu imam hesab edən şəxslərə verilən addır. Musa ibni Cə᾽fər on iki imamçı şiələrin yeddinci imamı hesab olunur. O həzrət vəfat etdikdən sonra bir çox tərəfdarları onun yenidən qayıdacağına e᾽tiqad bəsləsələr də, hal-hazırda Musəviyyə firqəsi tamamilə öz fəaliyyətini dayandırmışdır.

## *İSMAİLİYYƏ MƏZHƏBİNİN TƏ᾽SİSÇİLƏRİ*

Altıncı imamın vəfatından sonra şiələrin ümumi vəziyyəti və onların beş firqəyə ayrılmaları artıq mə᾽lum oldu. Bəs görəsən İsmailiyyə firqəsi kimlər tərəfindən tə᾽sis olunmuşdur?

İsmail ibni Cəʾfər özü imamlıq iddiası edib bu firqənin bünövrəsini qoymuşdurmu? Yoxsa, bu məzhəb başqa bir şəxs tərəfindən meydana gəlmişdir?

Qeyd etdik ki, İsmail imam Cəʾfər Sadiqin (ə) övladı olmuşdur və tarixi dəlillərə əsasən, ən azı onun özündən heç olmasa beş il əvvəl vəfat etmişdir. Bu da Hicrətin ١٤٣-cü ilinə təsadüf edir. Görkəmli rical* alimlərindən olan Zərkəli öz kitabında İsmailin vəfatını Hicrətin ١٤٣-cü ilinə aid edir. İbni Ənbə isə İsmailin vəfatının Hicrətin ١٣٣-cü ilində baş verdiyini qeyd edir. İsmailiyyə məzhəbli yazıçılardan olan Arif Təʾmər bu hadisənin Hicrətin ١٣٨-ci ilində baş verdiyini qeyd etmişdir.[١]

Bir çox hədis və rəvayətlərdə İsmailin hələ atası sağ ikən vəfat etdiyi nəql olunmuşdur. İmam Sadiq (ə) onun dəfn mərasimində oğlunun vəfat etdiyinə şəhadət vermiş, hətta bəʾzilərinin sonradan bu barədə şəkkə düçar olacaqlarını iqrar etmişdir. Nöʾmani və Zurarət ibni Əʾyundan bu məzmunda nəql olunmuş rəvayətdə deyilir: Əbu Əbdullah Cəʾfər ibni Məhəmməd Sadiqin evinə getdim. Oğlu Musa o həzrətin sağ tərəfində, İsmailin cənazəsi isə qarşısında idi. İmam mənə Davud ibni Kəsiri, Həmran və Əbu Bəsiri çağırmağı əmr etdi. Camaat bir-birinin ardınca oraya gəlirdi. Evin astanasına otuz nəfər yığıldıqda İmam (ə) Davud ibni Kəsirə buyurdu: Cənazənin üzərindən örtüyü götür. Davud, İsmailin üzündən örtüyü götürdükdən sonra Əbu Əbdullah (ə) buyurdu: Ey Davud! O diridir, ya ölü? Davud dedi: Ey mənim mövlam, o ölmüşdür. Sonra imam üzünü bir-bir orada iştirak edənlərə tutub həmin sualla onlara müraciət etdi və hamı İsmailin vəfat etdiyini iqrar etdi. Daha sonra Əbu Əbdullah buyurdu: İlahi! Sən Özün onlara şahid ol! Bunu deyib cənazəyə qüsl verilib kəfənlənməsini əmr etdi.

Qəbrə qoyularkən İmam (ə) Müfəzzələ bir daha əmr edib cənazənin üzünü açıdırdı və daha sonra ondan soruşdu: «O diridir, yoxsa ölü?» Müfəzzəl dedi: Ölü. O həzrət bir daha buyurdu: «İlahi! Sən Özün onlara şahid ol.»

Qəbrə qoyulduqdan sonra üçüncü dəfə Müfəzzələ İsmailin kəfənini açdırıb bir daha onlardan soruşdu: O diridir, ya ölü? Dedilər: Ölü. Bir daha buyurdu: İlahi! Sən Özün şahid ol və siz də ey camaat şəhadət verin. Çünki tezliklə batil əhli şəkk-şübhə yaradaraq Allah nurunu söndürmək istəyəcəklər.

İmam Cəʾfər Sadiq (ə) bu qısa çıxışını bitirdikdən sonra oğlu Musaya (ə) işarə edərək buyurdu: «Lakin, kafirlər istəməsələr belə, Allah-taala öz nurunu tamamlayacaqdır.» Ravi deyir: Sonra İmam (ə) qəbrin üzərinə torpaq tökməyimizi istədi və hələ bu iş qurtarmazdan əvvəl bir daha soruşdu: Qəbirdəki qüsl verilmiş, kəfənlənmiş şəxs kimdir? Dedim: İsmail. Buyurdu: İlahi şahid ol! Sonra Musanın (ə) əlindən tutub buyurdu: Allah dünyanı və onun əhalisini qoruyub möhlət verənədək o haqla, haqq da onunladır.

---

[١] Əl-imamətu fil-İslam/Arif Təʾmər.

Bu məzmunda nəql olunmuş digər rəvayətlər tarixçi və ravilər tərəfindən əsaslı şəkildə qəbul olunmuşdur. Bunu da qeyd edək ki, İsmailiyyə firqəsinin davamçılarının bir çoxu sonralar İsmailin vəfat etdiyini e`tiraf edərək oğlu Məhəmmədin imamətini iqrar etmişlər. Beləliklə, İsmailiyyə firqəsi meydana gəlmişdir. İsmailin atasının sağlığında vəfat etməsi tarixi sənədlərdə o qədər dəqiq işıqlandırılır ki, Abbasi dövlətindən gizli saxlamaq məqsədi ilə imam Sadiqin (ə) saxta dəfn mərasimi təşkil etməsi heç cür həqiqətə uyğun ola bilməzdi və elə bir şəraitdə təşkil olunan dəfn mərasimi ilə Abbasi dövlət mə`murlarını aldatmaq sadəcə olaraq qeyri-mümkün idi.

Qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, İsmail nə imamlıq iddiası etmiş və nə də İsmailiyyə firqəsinin bünövrəsini qoymuşdur. Tarixə müraciət etdikdə isə İsmailiyyə firqəsinin bünövrəsini qoymuş dörd nəfər şəxsin adı ilə qarşılaşırıq:

١. Məhəmməd ibni Əbi Zeynəb, ya Məqlas ibni Əbil Xəttab;

**(Əbul Xəttab ləqəbi ilə məşhur olmuşdur). Bu şəxs əvvəllər imam Məhəmməd Baqir (ə) və imam Cə`fər Sadiqin (ə) səhabələrindən olmuşdur. Lakin sonralar imamların məqamlarını daha da ucaldaraq onları ilahiləşdirdiyi üçün imamlar tərəfindən lə`nətlənərək uzaqlaşdırılmışdır.**

Belə ki, hətta imam Sadiqdən (ə) Əbul Xəttabın lə`nətlənməsinə və hər bir müsəlmanın ondan uzaq düşməsinə dair bir neçə rəvayət də nəql olunmuşdur. Əbul Xəttab özünü imam Sadiqin (ə) vəsisi, imamları isə əvvəllər peyğəmbər hesab edirdi, daha sonra isə ifrata vararaq Cə`fər ibni Məhəmmədi ilahilik dərəcəsinə qədər ucaltmışdır.

Əbul Xəttab Kufədə ətrafına kiçik bir dəstə toplaya bilmişdir. Lakin Kufənin valisi İsa ibni Musa tərəfindən qətlə yetirildikdən sonra tərəfdarları Məhəmməd ibni İsmailə üz tutaraq onun vəfatını e`tiraf etmişlər. İsmailiyyə firqəsinin «Natiq» və «Lal İmam»a (İmamun-natiq və imamus-samit) olan e`tiqadı məhz Əbul Xəttabın nəzəriyyələrindən qaynaqlanmışdır.[١]

٢. Məymun Qəddah;

Əhvazda sakin olmuş və müxtəlif göz xəstəliklərini, o cümlədən mirvari suyunun çəkilməsini müalicə etmişdir. Bu səbəbdən də ona «Qəddah» ləqəbi verilmişdir. Qəddah Əbul Xəttabın davamçılarından olmuş və onun nəzəriyyələrinin yayılmasında böyük rol oynamışdır.

٣. Əbdullah ibni Məymun;

Məymun Qəddahın oğlu olmuşdur. Əvvəllər atası ilə həmfikir olsa da, sonralar ifrata vararaq peyğəmbərlik iddiası etmişdir. İbni Məymun müxtəlif hiylələrdən istifadə edərək uzaq ölkə və şəhərlərin tarix və əhvalatlarını nəql edir və bununla da əhalini öz ətrafına yığmağa çalışırdı. Əvvəl Əhvazdan Bəsrəyə, sonra isə Həms

---

[١] Əl-firəq bəynəl firəq/Bağdadi; Əl-Xutət/٢-ci cild, Miqrizi;

yaxınlığında yerləşən Səlmiyyə adlı məntəqəyə gəlmiş və orada boyu qısa olduğu üçün Qərmət ləqəbi ilə məşhur olan Məhəmməd ibni Əş᾽əs adlı şəxsə qoşulmuşdur. Qəramətə firqəsi də məhz həmin şəxsin adı ilə bağlıdır.

٤. Məhəmməd ibni Hüseyn.

Dəndan və ya Zeydan ləqəbi ilə məşhur olmuşdur. Tarixi sənədlərdə göstərilir ki, o İraqda ibni Məymunla tanış olmuş və elə orada da İsmailiyyə firqəsinin nəzəriyyələri əsasında Batiniyyə firqəsini meydana gətirmişdir. İbni Nədimin dediyinə görə, İbni Hüseyn fəlsəfə və astronomiya elmlərinə mükəmməl yiyələnmişdir. O, ulduzların ruhani xüsusiyyətə malik olduğunu hesab edirdi. Bu səbəbdən də İbni Məymunla tanış olduqdan sonra əqidəsinin yayılması üçün münasib şərait tapıb ona maliyyə yardımları etməklə Batiniyyə firqəsini tə᾽sis etdi.

Deməк, İsmailiyyə bu dörd nəfər şəxsin fəaliyyəti nəticəsində meydana gəlmişdir. Bu məzhəb sonralar bir neçə firqəyə bölünsə də, bə᾽zi müsəlman ölkələrində tarixi cərəyanlarda öz tə᾽sirini qoymağa, hətta dövlət tə᾽sis etməyə nail oldu. Beləliklə, tarixin enişli-yoxuşlu mərhələlərini keçərək öz ətrafına minlərlə tərəfdar yığaraq öz mövqeyini bu günkü günədək qoruyub saxlaya bilmişdir.

Növbəti dərsimizdə İsmailiyyə firqəsinin e᾽tiqadı barədə ətraflı söhbət açacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İmam Sadiq (ə) vəfat etdikdən sonra şiələr neçə hissəyə bölünmüşlər?

٢. İsmailiyyə tərəfdarlarının altıncı imamın canişinlik məsələsinə dair olan baxışı necədir?

٣. İmam Sadiq (ə) İsmail vəfat etdikdə dəfn mərasimində iştirak edənlərdən nə üçün şəhadət verməlırini istəmişdir?

٤. İsmailiyyə firqəsi kimlər tərəfindən yaradılmışdır?

# OTUZ DOQQUZUNCU DƏRS

İsmailiyyə firqəsinin e᾽tiqadı nədən ibarətdir?

## *İSMAİLİYYƏ FİRQƏSİNİN E᾽TİQADLARI*

İki səbəbə görə İsmailiyyə firqəsinin e᾽tiqadları barədə dəqiq mə᾽lumat əldə etmək olduqca çətindir. Əvvəla ona görə ki, bu firqə tərəfdarları düşmənlərindən qorunmaq məqsədilə tarix boyu öz əqidə və e᾽tiqadlarını gizli saxlamış və başqalarının onlara yaxınlaşmalarına şərait yaratmamışlar. Bu sahədə müxtəlif kitablar yazsalar da, onu digərlərindən gizli saxlayaraq kimsənin əlinə düşməsinə razı olmamışlar. Hal-hazırda İsmailiyyə firqəsinin müqəddəs hesab etdiyi və müəmmalı mətləbləri ehtiva edən Əbul Xəttabın «Ummul-kitab» adlı şübhəli əsəri də bu qəbildəndir.

Digər tərəfdən də İsmailiyyə firqəsinin əqidə üsullarının əsasını batinçilik və yozumluq prinsipi təşkil edir. Onlar belə bir əqidədədirlər ki, bütün dini hökmlərin batini mə᾽naları vardır və onlardan agah olan yeganə şəxs imamın özüdür. Bu səbəbdən də İsmailiyyə bütün dini hökmlər üçün batini mə᾽nalar nəzərdə tutmuşdur. Yə᾽ni, bütün işlərin həqiqətini onun zahiri quruluşu və mə᾽nası deyil, batini mə᾽nası təşkil edir.

Məhz bu məsələ İsmailiyyə firqəsinin e᾽tiqad və əqidə üsullarının şübhəli və anlaşılmaz olmasına səbəb olmuşdur. Tədqiqatçı alimlər apardığı araşdırmalar zamanı bir çox hallarda yetkin nəticəyə gələ bilməyib onlar barədə elə bir fikir və fərziyyələr irəli sürmüşlər ki, bunun həqiqətən onlara aid olub-olmamasını dəqiqləşdirmək çox çətindir.

İsmailiyyə məzhəbinə qarşı yaranmış belə bir yanlış tərzi-təfəkkür onların alimlərini bu sahədə onlarla kitab və əsərlər yazıb öz əqidə və e᾽tiqadlarını müdafiə etməyə vadar etmişdir. Onlara qarşı irəli sürülən ittihamlardan biri də «tənasüx*» və «ibahəçiliyə»* e᾽tiqad bəsləmələridir.

İsmailiyyə firqəsinin əsas e᾽tiqadlarını isə bunlar təşkil edir:

١. Tövhid;

Bu məzhəbin davamçıları tövhid mövzusunda Allahın mütləq sifətlərini inkar edərək deyirlər: Allah-taala əql və düşüncədən üstün olduğu üçün məxluqata xas olan diri, alim, qadir, eşidən, görən və sair sifət və xüsusiyyətləri ona aid edə bilmərik.

Onlar Qur᾽ani-kərimin bir çox ayələrində və nəql olunmuş rəvayətlərdə Allah-taalanın adı çəkilən gözəl ad və sifətlərini isə «ümumi məfhum» olaraq qəbul edirlər. İsmailiyyə firqəsinə mənsub olan təhqiqatçılardan biri bu barədə deyir: Allah-taala məxluqata aid olunan sifətlərdən uca olduğu üçün Onun müqəddəs zatı bu xüsusiyyətlərlə vəsf olunmamışdır. Eyni zamanda məxluqat da olduqca aciz və zəif olduğu üçün Allaha xas olan sifətlərlə vəsf olunmamışdır. Allah-taala lütf və mərhəmət üzündən məxluqatı yaratmış və bütün sifət və xüsusiyyətlər Ona aid olunmuşdur ki, məxluqatı heyrət hissi bürüməsin. Allahın vücudu bütün varlıqların vücudundan ilkindir və bütün varlıqlar yaradılış (xilqət) baxımından Onun vücudundan nəş᾽ət tapır. Qur᾽ani-kərimdə «Qələm» ifadəsi ilə zikr olunan ilkin varlıq «lövhi-məhfuz» adlanan ikinci yaradılışı vücuda gətirir. İlk yaradıcı ikinci yaradılışdan əvvəl olduğu üçün «Sabit», ikinci yaradılış isə ilk yaradıcıdan asılı olduğu üçün «Tali» adlanır. Mücərrəd aləmdə olan hər bir şeyin təcəllisi cismani aləmdə mövcud olduğu üçün, birincidə olan mütləq əqlin qarşılığını cismani aləmdə olan imam hesab etmişlər.[١]

٢. Cəbr və ixtiyar;

Cəbr və ixtiyara gəldikdə, İsmailiyyə məzhəbi insanı özünə aid olan elm, əqidə, məslək, adət-ən᾽ənə, gündəlik işlər və s. məsələlərdə tam ixtiyar sahibi hesab edir. Onların fikrincə, belə olmadıqda, peyğəmbərlərin göndərilməsi heç bir nəticə verməyəcəkdir. Bu barədə Nəcm surəsinin ٣٩–٤٠-cı ayələrinə istinad edirlər:

**«İnsana ancaq öz əməli, öz zəhməti qalar!»**

**«Şübhəsiz ki, [qiyamət günü] onun əməli, zəhməti görünəcəkdir.»**

Onlar eyni zamanda cəbr və ixtiyarı qəza-qədərlə ziddiyyətli hesab etmirlər. «Qəzanı» xeyir, vəsiyyət və asudəçilik (qurtuluş), «qədər»i isə təqdir, miqdar və tərbiyə kimi mə᾽nalandırırlar.[٢]

٣. Peyğəmbərlik;

Nəfsin vəhy qəbul edə biləcək yüksək bir məqama ucalmasına peyğəmbərlik deyilir. Peyğəmbər bəşəriyyəti səadətə apardığı üçün ən yüksək kamal və əxlaqa yiyələnir və bütün varlıqlar onun ixtiyarında olur.

İsmailiyyə məzhəbi nöqteyi-nəzərindən peyğəmbərlik iki hissəyə bölünür: ١. Ümumi peyğəmbərlik; ٢. Xüsusi peyğəmbərlik. Ümumi peyğəmbərlik dedikdə, əql və təbiət baxımından onun bütün insanlara şamil olduğu nəzərdə tutulur. Ümumi peyğəmbərlik olmadıqda, xüsusi peyğəmbərlik (yə᾽ni, müəyyən təbəqəyə aid olan) camaat tərəfindən qəbul olunmur.

Qeyd etmək lazımdır ki, imamiyyə şiələri «ümumi peyğəmbərlik» dedikdə, batini hüccət və dəlil olan əqli nəzərdə tuturlar. Allah tərəfindən peyğəmbərliyə

---

[١] Əli ibni Məhəmməd Əl-Vəlid, «Tacul əqaid və Mə᾽dənul fəvaid» Haşim Osman; «Əl-ismailiyyə bəynəl həqaiq vəl-əbatil».

[٢] Əli ibni Məhəmməd Əl-Vəlid/Tacul əqaid və Mə᾽dənul fəvaid.

tə᾽yin olunan şəxslərə gəldikdə isə, onları zahiri hüccət adlandırırlar. Müsəlmanlar ulul-əzm peyğəmbərləri beş nəfər hesab etdikləri bir halda, İsmailiyyə alimləri şəriət sahibi və ulul-əzm peyğəmbərləri «Natiq peyğəmbər» adlandıraraq onların sayını yeddiyə çatdırmışlar. Yeddi natiq peyğəmbər bunlardan ibarətdir: Adəm, Nuh, İbrahim, Musa, İsa, Məhəmməd və Qaim. (Qaim dedikdə zühur edərək qiyam edəcəyinə e᾽tiqad bəslədikləri İsmailiyyənin yeddinci imamı Məhəmmədi nəzərdə tuturlar.)

٤. Məad;

İsmailiyyə məzhəbi cismani məadı inkar edir, yalnız ruhani məada e᾽tiqad bəsləyir və bu barədə deyirlər: İnsan yaşadığı aləmdə həmin aləmə münasib vasitələrə ehtiyac duyur. O bir aləmdən xaric olub başqa bir aləmə qədəm qoyduqda belə, yenə də həmin aləmə münasib vasitələrə ehtiyac duyur. Bu səbəbdən də onlar cism və bədən üzvlərinin yalnız bu dünyaya lazım olduğunu hesab edirlər. Axirət dünyasına gəldikdə isə, oranı ruhani aləm hesab etdikləri üçün məadın cismani olmasına heç bir zərurət duymurlar.[١]

İsmailiyyə məzhəbli şəxslər islamı təzə qəbul edənlərə məadı və ya məad haqqında mə᾽lumatı olmayan şəxslərə izah etmək istərkən bu əqidəni özünün zahiri mə᾽nasında yə᾽ni, cismani olaraq baş verəcəyini bəyan edirlər. Bir çox «miləl və nihəl» kitablarında İsmailiyyə firqəsinin «tənasüx»ə e᾽tiqad bəslədiklərinə işarə olunmuşdur, lakin onlar belə bir ittihamı qətiyyətlə rədd edib onu tamamilə batil və əsassız adlandırırlar.

٥. Şəriətin batini.

Dərsin əvvəlində qeyd etdik ki, İsmailiyyə alimləri bütün şər᾽i üsul və hökmlərin zahiri və batini mə᾽nalardan ibarət olduğunu hesab edirlər. Onlar bu barədə deyirlər: Allah-taala bütün şəriət və ibadi hökmləri elə bir qaydada tə᾽yin etmişdir ki, onlar hər bir əqli işləri və ilahi hökmləri əhatə edir. İbadət və hökmlər insanın cismi ilə, batini hökmlər isə əql və mə᾽nəviyyatla bağlıdır. Bu səbəbdən də şəriətin batininə daha çox qiymət verilmişdir. Onlar bu barədə bir çox əsərlər yazmış, hətta Qur᾽anı öz şəxsi əqidələrinə əsasən təfsir edərək ayə və ifadələrin batini mə᾽na daşıdığını hesab etmişlər. Məsələn, namazın mahiyyətini haqqa də᾽vət və imama dua etmək, orucu, ədəb-ərkanı riyakarlardan gizli saxlamaq, cənnəti imama itaət, cəhənnəmi imama qarşı üsyan, həcci elm məqsədilə el-obanı tərk etmək, zəkatı elmi, elmə ehtiyacı olan və həqiqi olaraq qiymətləndirməyi bacaran şəxslərin arasında yaymaq kimi təfsir etmişlər. İsmailiyyənin batinçiliyə olan meyli, müxaliflərinin onları şər᾽i hökmləri kənara qoyub batini mə᾽naya kifayətlənməkdə ittiham etmişlər. Yə᾽ni, namaz qılmaq əvəzinə imama dua edir, Beytul-haramı ziyarət etmək əvəzinə öz əqidələrini yaymağa can atır və s. Lakin İsmailiyyə ardıcılları bu ittihamları rədd edərək hər iki tərəfə e᾽tiqad

---

[١] Həmiduddin Əhməd Kermani; Rahətul-əql.

bəslədiklərini iqrar etmişlər və şər`i hökmlərin təkcə zahirinə və ya batininə e`tiqad bəsləməyi və əməl etməyi ayrı-ayrılıqda düzgün hesab etmirlər. Belə bir e`tiqadı olanları isə küfrdə ittiham edirlər.[١]

İsmailiyyənin diqqət yetirdikləri ən mühüm məsələlərdən biri də imamət məsələsidir və bu barədə növbəti dərsimizdə söhbət açacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İsmailiyyə firqəsinin e`tiqadlarını araşdırmaq nə üçün çətindir?
٢. İsmailiyyə alimləri Allahın sifətləri barədə hansı əqidədədirlər?
٣. İsmailiyyənin cəbr və ixtiyar haqqında olan e`tiqadını izah edin.
٤. Ümumi, xüsusi və «natiq peyğəmbər» dedikdə nə nəzərdə tutulur?
٥. Onlar məad barəsində hansı əqidədədirlər?
٦. İsmailiyyənin şəriətə olan baxışı nədən ibarətdir?

---

[١] Taifətul İsmailiyyə, Məhəmməd Kamil Hüseyn.

# QIRXINCI DƏRS

İsmailiyyənin imamət məsələsi barədə olan baxışı nədən ibarətdir?
İsmailiyyə əqidəsinə əsasən «dövr» hansı məʾna daşıyır?

## *İSMAİLİYYƏNİN İMAMƏTƏ OLAN BAXIŞI*

İmamət məsələsi İsmailiyyə eʾtiqadının əsas hissəsini təşkil edir. Onlar əqidə əsaslarına dair yazılmış kitablarında imamət mövzusuna xüsusi fəsl ayıraraq bu barədə geniş izahlar vermişlər. İmamət məsələsi geniş mövzulardan biri olmaqla yanaşı, digər məzhəb və firqələrdən fərqli olaraq, İsmailiyyənin ən şübhəli və əsraramiz əqidə əsasını təşkil edir.

İsmailiyyə məzhəbinin imamətə olan baxışına nəzər salmazdan əvvəl üç məsələyə toxunmağı lazım bilirik.

١. ٨-ci dərsdə qeyd etdik ki, Dəndan ləqəbi ilə məşhur olan Məhəmməd ibni Hüseyn fəlsəfə və astronomiya elmlərində şöhrət qazanmışdır. O belə bir fikirdə olmuşdur ki, ulduz və göy cismlərinin ruhani təʾsiri vardır. Onun nəzəriyyələri İsmailiyyə alimləri arasında heç də təʾsirsiz qalmamışdır. Belə ki, onlar həmin təsirlər nəticəsində belə bir əqidəyə əsaslanmışlar ki, göy cismləri ilə dini həqiqətlər və maddi gerçəkliklər arasında sıx əlaqə vardır və hər bir göy cismi hər hansı bir dini və batini həqiqəti özündə əks etdirir.

Məsələn, onlar yeddi natiq peyğəmbəri yeddi göy cisminə bənzətmişlər.

Digər tərəfdən də İsmailiyyə alimləri fəlsəfi ünsür və terminləri öz əqidələrinə daxil edərək onlar üçün batini yozumlar nəzərdə tutmuş və onları dini ünsürlərlə uyğunlaşdırmışlar. Belə ki, Ərəstunun (Aristotelin) on əql* nəzəriyyəsini özlərinin dini mənsəb və dərəcələri ilə tətbiq etmişlər. Birinci əqli peyğəmbər, ikinci əqli əsas, üçüncü əqli imam, dördüncü əqli fəsl, beşinci əqli hüccət, altıncı əqli bəlağət, yeddinci əqli mütləq, səkkizinci əqli məhdudiyyət, doqquzuncu əqli mütləq izn verilmiş və onuncu əqli isə məhdud izn verilmiş hesab etmişlər.

Bütün bunlarla yanaşı on əqli səmavi cismlərlə də tətbiq etmişlər.

٢. Onlar Adəmdən (ə) başlayaraq bəşəriyyət tarixini yeddi dövrə bölürlər və bu dövrlər natiq peyğəmbərlərin peyğəmbərliyə təʾyin olunması ilə başlanır. Bu məsləkə görə, hər bir natiq peyğəmbərin yer üzündə öz canişini olmalıdır və sonuncu yeddinci dövr Qaimin zühur edəcəyi günədək davam etməlidir. Lakin

bu dövrün özünün də yeddi hissəyə bölünməsinə və onların hər birinin yeddi imamı olmasına da etiqad bəsləyirlər.

٣. İsmailiyyə məzhəbi belə bir əqidədədir ki, hər bir natiq peyğəmbərin cəmiyyətdə mühüm rol ifa edən vəsi və nümayəndəsi olmuşdur. Adəmin vəsisi Habil, Nuhun vəsisi Sam, İbrahimin vəsisi İsmail, Musanın vəsisi Harun, İsanın vəsisi Şəmun, Məhəmmədin vəsisi isə Əli ibni Əbu Talib olmuşdur.

Yuxarıda qeyd olunanları nəzər alaraq İsmailiyyə firqəsinin imamətə olan baxışını araşdıraq.

١. İsmailiyyə belə bir əqidədədir ki, hər bir peyğəmbərin vəsisi onun kamalından bəhrələndiyi, sünnə və buyuruqlarının əsrarından agah olduğu üçün insanların ən fəzilətli və ən təqvalısıdır. Peyğəmbər dünyasını dəyişdikdən sonra onun gətirdiyi din və buyuruqların keşiyində duran şəxs varsa, o da peyğəmbərin yer üzündəki vəsisi və nümayəndəsidir. Bu səbəbdən də peyğəmbər ümməti və səhabələri arasında kimsə onun canişini ola bilməz, vəsi vəfat etdikdən sonra başqa birisi onu əvəz etməz. Çünki onun vəzifəsi şəriəti, ümmətin sirrini və peyğəmbərin sünnə və buyuruqlarını qorumaqdır və o vəfat etdikdən sonra şəriətdə dəyişiklik baş vermir. Bir daha peyğəmbər gəlmədiyi üçün onun vəsisi də olmayacaqdır.[١]

٢. İsmailiyyə məzhəbi imamı Peyğəmbərin varisi və vəsisi hesab edir. Peyğəmbərdən hökmləri və şəriətin zahirini, vəsisindən isə onların mə᾽na və məfhumunu irs aparırlar. Beləliklə, o kamala çataraq ümmət üzərində rəhbərliyi öz öhdəsinə alır.

٣. İsmailiyyə məzhəbi daimi imamətə əsaslanaraq deyir: İmam peyğəmbərin varisidir. Şər᾽i hökmlərin qorunması və təbliğ olunması məhz onun üzərinə düşür. Peyğəmbərin şəriəti yeni şəriətlə əvəz olunmayınca, imamət həmin peyğəmbərin dövründə və şəriət qüvvədə qalan müddət ərzində davam edir.

Şəriətin təbliğ və izahı hər bir imamın üzərinə düşən ən ümdə vəzifələrdəndir. Həzrət Məhəmmədin (s) şəriəti sonuncu şəriət olduğu üçün başqa bir şəriətlə əvəz olunmayacaq və imamət qiyamət gününədək davam edəcəkdir.

٤. İsmailiyyə məzhəbi imaməti Peyğəmbər (s) ümmətinin və yalnız Əli (ə) və Fatimənin (ə) haqqı olduğunu hesab edir. Onlar belə bir əqidədədirlər ki, Peyğəmbər (s) şəxsən özü bu mətləbə toxunaraq buyurmuşdur: «Həsən və Hüseyn qiyam etsələr də, etməsələr də hər ikisi imamdırlar və onların ataları hər ikisindən üstündür». Deməк, Peyğəmbər (s) özü imamı tə᾽yin etmiş və onun seçilməsini ümmətin ixtiyarına qoymamışdır. Ümumiyyətlə imam dinin sütunu və əsası olduğu üçün başqaları tərəfindən seçilmir. Özəyi Allah tərəfindən olan din, camaat tərəfindən gətirilmədiyi kimi, imamın tə᾽yin olunması və ya seçilməsi

---

[١] Tacul-əqaid və Mə᾽dənul fəvaid , Əli ibni Məhəmməd Əl-Vəlid.

də ümmət tərəfindən deyil, Allah tərəfindən müəyyənləşir. Əks təqdirdə, ümmət böyük səhvə yol vermiş olur.

٦. İsmailiyyə məzhəbi imamın qeybə çəkilməsini qəbul etmir. Onlar bu barədə deyirlər: İmam öz ümmətindən gizlənməməli və qeybə çəkilməməlidir. Çünki imamın qeybə çəkilməsi yalnız üç əsaslı səbəbdən baş verə bilər:

Bu ya ilahi əmr olar, ya özü bu qərara gələr və ya düşməndən qorunmaq məqsədilə camaatdan uzaq düşər. Verilən hər üç ehtimal batil və əsassızdır.

a) Ona görə ki, ümməti imamdan məhrum etmək Allahın ədalət və hikməti ilə tamamilə müxalifdir.

b) İmamın mə᾽sum olması və onun cəmiyyət arasında qalması zəruridir və bunun üçün də o, qeybə çəkilməz.

v) İmam kiminsə qorxusundan camaatdan uzaq düşərsə (qeybə çəkilərsə), dininə şəkk etmiş olur. Çünki Allah-taala insanları hidayət etməyi ona həvalə etmişdir və o bilir ki, başqa birisi onun canişini olmayınca dünyanı dəyişməyəcəkdir.

٦. İsmailiyyə məzhəbi İmama qarşı üsyan edib onu öz məqamından uzaqlaşdıran şəxsi tağut hesab edir. Onun yerinə gələn adam daha fəzilətli bir şəxs olduğu halda, sabiq şəxsin imamətini batil adlandırırlar.

٧. İsmailiyyə məzhəbi imaməti beş dərəcəyə bölərək onları «imamun muqim», «imamun əsas», «imamun mutəmmim», «imamun mustəqər» və «imamun mustəvdə» adlandırır.

١) İmamun muqim; Natiq peyğəmbərin müəllim və tərbiyəçisidir. Natiq peyğəmbəri bu məqama çatdıran və onu öz hikmət və kamalından bəhrələndirən məhz imamun muqimdir. Bu səbəbdən də «imamun muqim» «Rəbbu muvəqqət» də adlandırılmışdır. İmamət məqamının ən yüksək dərəcəsi də məhz «imamun muqim» mərhələsidir.

٢) İmamun əsas; Natiq peyğəmbərə həyatının bütün mərhələlərində yardımçı olaraq ona müavinlik edir. Peyğəmbərin bütün işlərini təsdiqləyib həyata keçirən də məhz odur.

٣) İmamun mutəmmim; Peyğəmbərin peyğəmbərlik dövrünə son qoyur. Bu səbəbdən də imamun mutəmmim peyğəmbər dövrünün yeddinci imamı hesab olunur və özündən əvvəlki altı imamla bərabər səlahiyyətə malikdir.

٤) İmamun mustəqir; Özündən sonra kimin bu məqama tə᾽yin olunduğuna dair açıq-aşkar sənədə yiyələndiyi üçün imaməti öz övladına irs qoyma səlahiyyətinə malik olan imama deyilir.

٥) İmamun mustəvdə. Yalnız istisna hallarda imamətə tə᾽yin olunur, özünə canişin seçməyə və bunu kiminsə üzərinə qoymaq səlahiyyətinə malik deyildir.

Onlar Həsən ibni Əli, Məhəmməd ibni Hənifə və Musa ibni Cə`fəri imamun mustəqər deyil, imamun mustəvdə kimi qəbul edirlər.[١]

Dərsimizi iki mətləbə toxunmaqla yekunlaşdırırıq.

İsmailiyyə məzhəbi imamətin bir neçə dərəcə və mərhələdən ibarət olduğunu hesab etdikləri kimi, öz tərəfdarlarını da yeddi hissəyə bölərək onların hər birinə müəyyən adlar qoymuşlar. Mustəcib, Mə`zun, Dai, Hüccət, İmam, Əsas və Natiq.

١. Mustəcib; İsmailiyyə firqəsini təzə qəbul etmiş şəxslərə deyirlər.

٢. Mə`zun; İsmailiyyə firqəsində yeni fikir irəli sürməyə icazə verilmiş şəxslərə deyirlər.

٣. Dai; Mə`zundan yüksək dərəcəyə çatmış şəxslərə deyirlər. Belə ki, onlara yeni fikir irəli sürməklə yanaşı, İsmailiyyə əqidəsini təbliğ etməyə də icazə verilir. «Dai» özü də üç dərəcəyə - «dai bəlağ», «dai məhdud», «dai mütləq»ə bölünür.

٤. Hüccət; Əslində Allahın hüccəti hesab olunan bu şəxslər dailər üzərində rəhbərlik səlahiyyətinə malikdirlər.

٥. İmam; Vilayət məqamına çatan şəxslərə deyilir.

٦. Əsas; Canişinlik səlahiyyətinə malik olan şəxslərə deyilir.

٧. Natiq. İmamətin ən yüksək dərəcəsi hesab olunur.

٢) Əqidə və kəlami bəhslərdə yalnız əql və nəql yolu ilə sübuta yetirilən mətləblər qəbul olunur. Yə`ni, tərəf-müqabili qane etmək üçün ya əqli dəlillərdən, ya Qur`an ayələrindən və ya mö`təbər rəvayətlərdən istifadə etmək lazımdır. Məsələn, əgər hər iki tərəf müsəlmandırsa, gərək mətləbin sübuta yetirilməsi üçün Qur`an və ya Peyğəmbərin (s) hədislərindən istifadə olunsun. Lakin əgər mətləbin sübuta yetirilməsində əqli dəlillərdən istifadə edə bilməsək, sübuta yetirmək istədiyimiz şeyi başqalarının qəbul etməsi üçün əsaslı əqidə hesab edə bilmərik. Bu səbəbdən də təmsil, oxşatma (təşbih) və s. üsullardan irəli gələn İsmailiyyə əqidəsi sair islam firqələri tərəfindən qəbul olunmur. Misal olaraq, imamətin beş dərəcəyə bölündüyünü götürək. Şəxsi rə`y və istəkdən başqa, imamətin bu şəkildə bölünməsinə hansı amil səbəb ola bilər? Peyğəmbərlərin səma cisimləri ilə tətbiq olunmasına hansı əqli və ya nəqli dəlillər gətirə bilərik? Və ya imamətin daim xalq arasında zahir və hazır olan imam vasitəsilə davam etdirilməsini Peyğəmbərin (s) açıq-aşkar buyuruğu ilə necə əlaqələndirmək olar? Qərbdə təhsil almış şəxslər necə dərk edə bilərlər ki, peyğəmbər və batini elmə yiyələn bir şəxs onun vəsisi və peyğəmbərdən ilham almış imamlar onunla bərabərdir? Mə`lum məsələdir ki, bu mətləbi sübuta yetirəcək əqli və nəqli dəlillər olmadan belə bir əqidənin digər islam firqələri tərəfindən qəbul olunması qeyri-mümkündür.

---

[١] Arif Tamir, Əl-imamətu fil islam.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. «Dəndan» İsmailiyyə əqidəsinə nəyi əlavə etdi?

٢. İsmailiyyə alimləri Ərəstunun on əql nəzəriyyəsini özlərinin dini məqamları ilə necə əlaqələndirmişlər?

٣. İmamla vəsinin fərqi nədən ibarətdir?

٤. İsmailiyyənin imamın qeybətinə olan baxışı nədən ibarətdir?

٥. İsmailiyyə məzhəbinin imamətin beş məqama bölünməsinə dair olan baxışını izah edin.

٦. İsmailiyyə tərəfdarlarının məqam və dərəcələri nədən ibarətdir?

# QIRX BİRİNCİ DƏRS

İsmailiyyə firqəsinin parçalanmasına nə səbəb olmuşdur?
İsmailiyyə firqələri hansılardır?

## *İSMAİLİYYƏ FİRQƏLƏRİ*

١. Əsas İsmailiyyə firqəsi;

**Əsas və ilk İsmailiyyə firqəsi İsmailin imamətini qəbul edib ölümünü inkar edənlərdir. Onların əqidəsinə görə, İsmail hələ də sağdır, qeybə çəkilmişdir və günlərin bir günündə yenidən zühur edib qayıdacaqdır. Bu səbəbdən də atasının sağlığında təşkil olunmuş dəfn mərasimini Abbasi xilafətini aldatmaq məqsədilə qurulmuş tədbir hesab edirlər. Xalis və ilk İsmailiyyə məzhəbinin əvvəllər bir çox ardıcılları olmuşdur, lakin bu firqə parçalandıqdan sonra onlar zəifləyib aradan getmişlər. Hal-hazırda İsmailiyyə məzhəbinin əqidəsi ilə fərqli olan bir neçə digər firqə fəaliyyət göstərir.**

٢. Mübarəkiyyə;

Mübarəkiyyə İsmail ibni Cəˋfərin «mübarək» adlı kəlmələrindən birinin tərəfdarlarına verilən addır. Onlar İsmailin atasının sağlığında vəfat etməsini eˋtiraf etmişlər. Bunun üçün də Cəˋfər ibni Məhəmməd Sadiqdən sonra imaməti oğlu İsmailin haqqı hesab etsələr də, atasının sağlığında vəfat etdiyi üçün imamətin oğlu Məhəmməd ibni İsmailə çatdığını hesab etmişlər. Mübarəkiyyə firqəsi Həsən ibni Əli və Hüseyn ibni Əli istisna olmaqla, iki qardaşın imamətini qəbul etmirlər. Bu səbəbdən də İsmail vəfat etdikdən sonra imam Sadiqin (ə) digər qardaşlarını xilafətə layiq hesab etməmişlər.

٣. Qəramətə;

Qəramətə firqəsi Mübarikiyyədən ayrılmış bir firqədir. Nəql olunur ki, Əbdullah ibni Məymun Qəddah Bəsrədən Səlmiyyəyə qaçdıqdan sonra orada Həmdan ibni Əşˋəs adlı iraqlı bir şəxslə tanış olur. Boyu və ayaqları qısa olduğu üçün ona «qərmət» ləqəbi verilmişdi. Qərmət belə bir tanışlıqdan sonra İsmailiyyə firqəsinin əqidəsi ilə yaxından tanış olaraq İbni Məymunla həmkarlıq etməyə başlayır. Çox tez bir zamanda İbni Məymunun tərəfdarları arasına nüfuz edərək onların rəğbətini qazanır və firqəyə rəhbərliyi öz üzərinə götürür.

Həmdan Qərmət az bir zamanda İraq, Xuzestan, Bəhreyn, Suriya və Yəməndə öz ətrafına böyük bir kütləni toplaya bilir. Qəramətə adlanan bu yeni firqə

Hicrətin ٢٤٦-cı ilində Abbasilərin Bəhreyn hakiminə qarşı qiyam edərək ölkəni ələ keçirir, Qəramətilər dövlətini tə`sis edir və Hicrətin ٣٥٨-ci ilinədək öz hakimiyyətlərini qoruyub saxlaya bilirlər.

Bununla yanaşı onlar digər ölkələrə də, o cümlədən Yəmən, Suriya, İrana qoşun çəkərək Abbasi dövlətinə qarşı çıxırlar. Qəramətə İsmailin ölmədiyini və Roma şəhərlərindən birində yaşadığını hesab edirdi. Onların əqidəsinə əsasən o, qaim olan Mehdidir. Qəramətə firqəsinin ardıcıllarına görə, qaim o şəxsdir ki, peyğəmbərlik iddiası ilə qiyam edərək yeni ayin gətirsin, həzrət Məhəmmədin (s) dinini qoruyaraq onun keşiyində durmuş olsun. Qəramətə firqəsi Məhəmməd ibni İsmaili ulul-əzm peyğəmbərlərdən hesab edir və onun yeni şəriət gətirərək özündən əvvəlki şəriəti qüvvədən salmasına əqidə bəsləyirlər.[١]

Həmçinin onlar belə bir əqidədə olmuşlar ki, şər`i hökmlərə əməl etmək onların zahiri mə`nasına deyil, batini mə`nasına əməl etmək deməkdir. Bu firqənin davamçıları Həcərul-əsvədi (qara daşı) öpməyi qəbahət saymış və onu öpənləri küfr etməkdə ittiham etmişlər.

Nəql olunur ki, hətta onlar həcərul-əsvədi oğurlamağa cəhd göstərmiş, lakin bu işdə ciddi müqavimətlə qarşılaşmışlar.

٤. Fatimiyyə;

İsmailiyyə rəhbərləri Hicrətin ٢٨٩-cu ilinədək gizli şəkildə fəaliyyət göstərir və öz əqidələrini ticarət səfərlərində təbliğ edirdilər. Bu səbəbdən də İsmailiyyənin mübəlliğlərinə «imamun məstur» (yə`ni, gizli imam) deyilirdi. Nəhayət onların altıncı imamı yə`ni, Ubeydullah Məhdi (٢٦٠-٣٢٢-ci h.q.) Hicrətin ٢٨٩-cu ilində Mərakeşi fəth edərək orada ilk İsmailiyyə dövlətini tə`sis etdi. İsmailiyyə dövləti tə`sis olunduqdan sonra isə onlara «imamun zahir» yə`ni, aşkar imam deyilməyə başlandı. Ubeydullah tərəfindən Mərakeşdə tə`sis olunmuş dövlət sonralar Misir, Tunis və digər ətraf məntəqələrdə də yaradıldı və daha sonra Fatimilər dövlətinin bünövrəsi qoyuldu.

Fatimi adlandırılmalarının əsas səbəbi, onların Peyğəmbərin (s) qızı həzrət Fatiməyə həddindən artıq rəğbət göstərmələri olmuşdur. İlk vaxtlar digər məntəqələrdə sakin olan İsmailiyyə firqəsi ilə Fatimilər arasında elə bir əsaslı fərq nəzərə çarpmırdı. Bu səbəbdən də Qəramətə firqəsi tə`sis olunduğu ilk gündən Fatimi dövlətini müsbət qarşılamış və onlarla həmkarlıq etmişdir. Lakin onlar zaman keçdikcə dövlətçiliyi qorumaq və yaranmış ictimai-siyasi şəraitlə ayaqlaşmaq üçün yenidən İsmailiyyə əqidə əsaslarında bə`zi dəyişikliklər apararaq yeni firqəyə çevrildilər və təbii olaraq, Qəramətə və digər firqələrlə onlar arasında müəyyən ixtilaflar meydana gəldi. Qəramətənin Fatimilərlə ciddi

[١] Firəquş-şiə/Nobəxti/İbnun- nədim, əl-fehrest.

qarşıdurması və onun müharibə ilə nəticələnməsi tarixdə xüsusi şəkildə əks olunmuşdur.[١]

Fatimilər İsmailiyyə əqidə üsullarını qoruyub saxlamış, onda yalnız bə᾽zi dəyişikliklər aparmışlar. Apardıqları dəyişikliklərdən biri də şər᾽i hökmlərin zahir və batin mövzusudur. Fatimilər belə bir əqidədə olmuşlar ki, hökmlərin zahir və batininə olan baxış bərabər səviyyədə olmalıdır və batini mə᾽naya görə zahiri mə᾽naya göz yumulmamalıdır. Zahiri və batini mə᾽nalar bir-birini tamamladığı üçün onların hər ikisinə eyni səviyyədə diqqət yetirilməlidir. Otuz doqquzuncu dərsdə haqqında söhbət açdığımız batinə yönəlmə prinsipi isə şər᾽i hökmlərin batininə əhəmiyyət verərək zahirinə göz yuman qədim İsmailiyyə firqəsinə aiddir. Lakin onlar son vaxtlar verdikləri təfsirlərlə bu ittihamları özlərindən uzaqlaşdırmışlar.

Fatimilərin apardıqları başqa bir dəyişiklik Məhəmməd ibni İsmaillə əlaqəlidir. Onlar İsmaili zühur edəcək Mehdi kimi qəbul etməkdən imtina edir və onun «imamun mutəmmim» və (٦-cı dövrün) ٧-ci imamı olduğunu qəbul etmirlər. Onlar belə bir əqidədədirlər ki, bu dövrə şamil olan imamların sayı daha çoxdur. Bu səbəbdən də Fatimi imamları Məhəmməd ibni İsmailin xəlifəsi hesab olunaraq, onun bə᾽zi vəzifələrini öz üzərlərinə götürürlər.

Zaman keçdikcə İsmailiyyə tərəfdarları Qaimin zühuruna ümidsiz olur və Məhəmməd ibni İsmailə əvvəlkindən daha az əhəmiyyət verməyə başlayırlar. Lakin Müstənsirin (Fatimilərin ٨-ci xəlifəsi) dövründə qaimin zühurunun ruhani və qeyri-cismani olacağı təfsir edildi və onun Məhəmməd ibni İsmail deyil, başqa bir şəxs tərəfindən həyata keçiriləcəyi haqda danışılmağa başlandı. Beləliklə, Fatimilər Məhəmməd ibni İsmailin cismani zühuruna e᾽tiqad bəsləməyə son qoydular.

٥. Mustə᾽ləviyyə və Buhrə;

Hicrətin ٤٦٧-ci ilində Fatimi sərkərdəsi Bədrul Cəmali öz mövqeyini gücləndirərək Fatimilərin daxili üsyanlarına son qoya bildi. Bunlarla yanaşı (orduda) «rəisul-cüyuş», din mübəlliğlərinə başçılıq edən «daid-düyut» və bir neçə başqa vəzifələr də əlavə etdi. O, Fatimi dövlətini öz tabeçiliyinə keçirərək bütün işlərə sözün əsl mə᾽nasında nəzarət etməyə başladı. Sonralar bu vəzifələr irsi olaraq onun övladlarına çatdı. Hicrətin ٤٨٩-cu ilində Bədrul Cəmalinin oğlu Əfzəl atasının canişini seçilərək orduya sərkərdəliyi öz üzərinə götürdü. Müstənsir isə ölüm ayağında idi. Bu səbəbdən də Əfzəli hər şeydən əvvəl xəlifənin canişini kimi seçiləcəyi maraqlandırırdı. Müstənsirin isə iki oğlu var idi: Xəlifəyə vəliəhd tə᾽yin edilmiş, iste᾽dad və bacarığı ilə fərqlənən Nəzar və bir o qədər də yüksək mövqeyə malik olmayan Mustə᾽li. Əfzəl, Mustə᾽linin xilafətə çatması üçün lazımi şərait yaratmağa cəhd göstərirdi. Belə olduqda o, Mustə᾽lini

[١] Bəhreyn Qərmətiləri və Fatimilər/Dəxəviyyə.

asanlıqla öz tabeçiliyinə keçirə bilərdi. Bunun üçün də qızını ona ərə verdi və Müstənsirin ölümündən sonra onu xilafətə tə᾽yin edib müdafiə etməyə başladı. Mustə᾽linin tərəfdarları «Mustə᾽liyyə» və ya «Mustə᾽ləviyyə», Hindistanda isə Buhrə ləqəbi ilə məşhur oldular. Buhrə sözü lüğətdə satıcı və tacir mə᾽nasını daşıyır. Buhrələr şər᾽i hökmlərə əsaslanır və onu əməli olaraq həyata keçirirdilər. Peyğəmbər (s) və altıncı imamadək olan imamların, həmçinin İsmailiyyə imamlarının və bu firqəyə mənsub olan şəxslərin qəbrini ziyarət edirdilər.

Onların evlənmə, bayram və bir çox adət-ən᾽ənələri ilə hind və şiə müsəlmanlarının adət-ən᾽ənələri arasında bə᾽zi oxşarlıqlar vardır.[١]

٦. Nəzariyyə.

Fatimi firqəsinə mənsub olan bu cərəyan Mustə᾽linin xilafətini əsaslı saymayaraq qardaşı Nəzarın xilafətinə tabe olmuşlar. Nəzar İskəndəriyyəyə qaçdıqdan sonra tərəfdarları onunla həmrə᾽y olaraq Mustə᾽liyə qarşı qiyam etmişlər. Lakin Nəzar çox tez bir zamanda tutularaq qətlə yetirildi.

Nəzarın tərəfdarları ilə Misir Fatimiləri arasında olan əlaqələr kəsildi. Nəzariyyənin görkəmli şəxsiyyətlərindən olan Həsən Səbbah Mustə᾽li hakimiyyətini gücləndirdikdən sonra Suriya yolu ilə Hələbə və oradan da İsfahana gəldi. Az müddət orada qaldıqdan sonra öz tərəfdarları ilə birlikdə Qəzvin şəhərinin yaxınlığında yerləşən Ələmuta gəlib orada öz mübarizəsini davam etdirmək üçün möhkəm istehkam və tarixi qala tikdirdi.

İsmailiyyə firqəsinə mənsub olan digər iki cərəyan - Dəruziyyə və Ağaxaniyyə firqələri barədə növbəti dərslərimizdə söhbət açacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İsmailiyyə firqəsinin əqidəsi nədən ibarətdir?

٢. Mübarəkiyyənin imamətə olan baxışı necədir?

٣. Qəramətə ilə Mübarəkiyyə arasında hansı fərqlər vardır?

٤. Fatimilər nə üçün belə adlandırılmışlar?

٥. Fatimilərin iki firqəyə bölünməsinə nə səbəb olmuşdur?

٦. Fatimilər İsmailiyyə firqəsində nə kimi dəyişikliklər aparmışlar?

٧. Mustə᾽ləviyyə və Nəzariyyə firqələrinin əqidə əsaslarında mövcud olan fərq nədən ibarətdir?

[١] Şiə ensiklopediyası/٣-cü cild.

# QIRX İKİNCİ DƏRS

Dəruziyyə necə meydana gəlmişdir?
Dəruziyyənin əqidəsi nədən ibarətdir?

## *DƏRUZİYYƏNİN YARANMASI*

Firqəni tə᾽sis edən şəxs yə᾽ni, İsmail ibni Məhəmməd dərzi olduğu üçün onun tərəfdarları özlərinə bu təxəllüsü götürmüşlər. «Dəruziyyə» firqəsi İsmailiyyə Fatimilərindən ayrılmış və ٤-cü əsrin sonunda, daha dəqiq desək, Fatimi xəlifəsi Əl-hakim Bi-Əmrillahın (٣٧٥-٤١١ H.q.) dövründə meydana gəlmişdir.

Bu firqənin meydanagəlmə səbəblərini iki amillə əlaqələndirirlər. Birincisi, Hakim Bi-Əmrillahın şəxsiyyəti və onun xilafət dövründəki fəaliyyətləri; İkincisi, xəlifəliyə və dəruziliyə olan sufilik təmayülü. Onlar İsmailiyyənin batinçilik, yozumçuluq və gizli fəaliyyət dövründə öz mövqelərini gücləndirmək üçün münasib şəraitlə rastlaşmışdılar.

Hakim Bi-Əmrillahın tərcümeyi-halına və gördüyü işlərə nəzər salmaqla, hər iki amilin nədən ibarət olduğu bəlli olacaqdır.

## *HAKİM Bİ-ƏMRİLLAHIN TƏRCÜMEYİ- HALI*

Fatimilər və Dəruzilər tarixində qeyd olunur ki, Hakim Bi-Əmrillah hakimiyyəti ələ alan zaman islam ictimaiyyəti böyük çətinliklərlə qarşılaşmışdı. Dövlət mə᾽murlarının böyük əksəriyyəti eyş-işrətə, fəsad və pozğunçuluğa qurşandıqları üçün cəmiyyətdə hərc-mərclik baş alıb gedirdi. Hakim Bi-Əmrillah o zaman güclü və bacarıqlı olduğu üçün yüksək ictimai-siyasi mövqeyə malik idi. Yaş həddini və yerləşdiyi şəraiti təsəvvür edən bir çoxları onun da eyş-işrətə meyl edəcəyini düşünürdülər. Lakin o bütün sə᾽y və bacarığını islam adət-ən᾽ənələrinin yenidən dirçəlməsinə, məscid və şəhərlərin abadlaşdırılmasına, şəriət qanunlarının və əxlaqi dəyərlərin güclənməsinə yönəltdi. Beytul-malı abadlıq işlərinə sərf edir və əmin-amanlığın tə᾽min olunmasında böyük sə᾽ylər göstərirdi. Camaat namazlarının, xüsusilə cümə namazlarının qılınması və haqq-ədalətin bərqərar olunması yolunda yorulmadan çalışırdı. Öz şəxsi həyatına gəldikdə isə, olduqca sadə və zahidanə həyat keçirir və ədalətə hər şeydən çox diqqət yetirirdi. (Şeyx Mursəl Nəsr/Əl-muvəhhidun «Əd-dəruz» fil- islam.).

Həmin dövrdə sonralar «Dəruziyyə» firqəsinin bünövrəsini qoymuş və onların rəhbərliyini öz üzərlərinə götürmüş bir çox Fatimi şəxsiyyətləri, o cümlədən Dəruz ləqəbi ilə şöhrət tapmış İsmail ibni Məhəmməd, Həmzət ibni Əli ibni Əhməd Zuzəni, (İmamun ə`zəm kimi tanınırdı), Səlamət ibni Əbdülvəhhab Samiri, Məhəmməd ibni Vəhəb Qərşi və Murtəza Bəhauddin xəlifəyə dini, siyasi və ictimai islahatların keçirilməsində yaxından köməklik göstərərək bir çox ölkə və şəhərlərdə onun siyasətini (də`vətini) təbliğ etməyə başladılar. Xəlifə bu beş şəxsə hamıdan yaxın olduğu üçün onların e`tiqadlarından mütəəssir olmuşdu. Çünki onlar Dəruziyyə əqidəsinin təbliğinə xəlifənin həyatının son on ilində başlamışlar və həmin dövrdə «Muvəhhidun» (Dəruzilər bu adı özlərinə fəaliyyətə başladıqları ilk gündən qoymuşlar) ləqəbi ilə tanınmışlar. Sonrakı xəlifənin (Əliyyuz-zahir Lağərazə dinullahın) dövründə isə tə`qib və işkəncələrə mə`ruz qalaraq kütləvi şəkildə qətlə yetirilmişlər. Qeyd olunan həmin on il ərzində Hakim Bi-Əmrillahın vücudunda böyük ruhi dəyişiklik baş verdi. Tax-tacdan, ləl-cəvahirat və şan-şöhrətdən əl çəkdi, sadə paltar geyib qatırına minərək camaat arasında gəzməyə başladı. Hicrətin ٤١١-ci ili Şəvval ayının ٢٧-də ibadət məqsədilə camaatdan ayrılıb səhraya üz tutdu və bir daha onu kimsə görmədi.

Hakimin qeybdə olduğu illər ərzində bir neçə risalə yazıldı. Qeyd olunur ki, onların bə`zilərinin müəllifi Hakim özü olmuşdur. Risalələrdən bə`ziləri Hakimin mə`nəvi və ruhani yüksəlişinə dəlalət edir və onlardan belə mə`lum olur ki, Hakim həqiqəti bütün vücudu ilə dərk etmiş və onu özündə yaşatmışdır. Sufilərin istifadə etdikləri irfani ifadələrin çoxluğu və (hədis mütəxəssislərinin dediklərinə əsasən,) onların özlərindən uydurduqları bə`zi hədislər Hakim Bi-Əmrillahın sufi təriqətinə böyük meyl göstərdiyinə dəlalət edir. Sufi təriqətinə olan belə bir təmayül Dəruzilərin İsmailiyyə firqəsinin əqidə üsullarında əsaslı dəyişikliklər aparmalarına və nəticədə Dəruziyyənin İsmailiyyə firqəsinin bətnində müstəqil firqə kimi formalaşmasına səbəb olmuşdur.

## *DƏRUZİYYƏNİN ƏQİDƏLƏRİ*

١. Tövhid;

Dəruzilər, məzhəblərini «Ət-tovhid», özlərini isə «Muvəhhidun» adlandırırdılar. E`tiqadlarının əsasını mütləq təkallahlıq əqidəsi təşkil edirdi. Allahın zatından başqa heç bir sifətin mütləq vəhdaniyyətini qəbul etmirdilər. Onların əqidəsinə görə, Allahın müqəddəs zatı [vəhdaniyyəti] bəşərin şüurundan üstün olduğu üçün dərkolunmaz və adi ifadələrlə vəsfedilməzdir; Allah zaman

və məkanda məhdudlaşmır və Onun vücudu hər zaman hər yerdədir; Oxşarı olmayan yeganə bir varlıqdır; Onun yeganə zatı nə tə᾿rif olunar, nə də vəsf; Allah mütləq varlıqdır; Onun vücudu heç nəyə və kimsəyə ehtiyac duymayan yeganə zatdır. Bəşər Allahın müqəddəs zatını dərk və vəsf etməyə qadir olmadığı üçün O, özünü xarici aləmdə təcəlli etdirmişdir. İlk dəfə «uca olan Əlinin» sonuncu dəfə isə Hakimin (Fatimilərin ٦-cı imamı) vücudunda təcəlli etmişdir.

Dəruzilərin bu əqidəsi Hakimin Allahlıq iddiası etməkdə ittiham olunmasına səbəb olmuşdur. Lakin Dəruzilər bu ittihamı rədd etmişlər. Əvvəla ona görə ki, onlar Allahın insan vücudunda təcəlli etməsini Hülul* sayır və belə bir nəzəriyyəni qətiyyətlə rədd edirlər. Onlar İsmailiyyənin Məsəl* və Məmsul* nəzəriyyəsinə əsaslanaraq, imamları ilahiliyi özündə əks etdirən kamil insan hesab edirlər. Onların fikrincə, hər hansı bir təsvir güzgünün cövhərinə hülul etmədiyi kimi, Allah da Hakimin vücuduna hülul etməmişdir. Lakin Allahın təsvirinin bir hissəsi onda zühur və təcəlli edir. Dəruzilər Allahın Hakimin vücuduna hülul etməsini təkzib etdikləri üçün belə bir əqidədə olmuşlar ki, Allahın insanın vücudunda təcəlli etməsi kamil insanın vücudunda onun sifətlərinin təcəlli etməsi deməkdir. Və bu heç də hülul demək deyildir. Qeyd olunanlarla yanaşı, Dəruziyyə firqəsinin müasir alimlərindən olan Şeyx Mursəl Nəsr, Hakimin ilahilik iddiasını qətiyyətlə rədd edir və onun tərcümeyi-halını nəql etdikdən sonra deyir: Dinin dirçəlişi naminə belə bir fədakarlıq göstərən bir şəxs necə Allahlıq iddiası edə bilər!? Şeyx Nəsr daha sonra Hakimin dövründə hazırlanmış sikkəyə istinad edərək deyir: «Hakimin xilafəti dövründə onun göstərişi ilə hazırlanan sikkənin bir tərəfində «La ilahə illəllah, vəhdu la şərikə ləh, Muhəmmədən rəsulullah və Əliyyən vəliyyullah», digər tərəfində isə «Əbdullah və vəliyyuhu əl-imam əl-Hakim Bi-Əmrillah» sözləri yazılmışdır. Bu nəzəriyyənin araşdırılmasında iki mətləbə diqqət yetirilməlidir:

١. Fatimilərin ٧-ci xəlifəsi Əz-zahir hakimiyyəti ələ keçirdikdən sonra öz babalarının Allahlıq iddiasını qətiyyətlə inkar edərək belə bir əqidəyə əsaslananların qətlə yetiriləcəklərini bildirdi. Nəticə olaraq belə bir qənaətə gələ bilərik ki, (Dəruziyyənin təbliğat aparatının fəaliyyət göstərdiyi və Hakim Bi-Əmrillahın onlara tam ixtiyar verdiyi bir şəraitdə) Fatimiyyə cəmiyyətində belə bir əqidə geniş şəkildə yayılmış və Əz-zahir bu bəhanə ilə minlərlə günahsız insanı qətlə yetirərək var-dövlətlərini talan etmişdir.

٢. Hakimin Allahlıq iddiası etməməsi sübuta yetirilməsə belə, Allahın Hakimin vücudunda təcəlli etməsinə dair yaranmış fikir əksəriyyətin nəzərində onun Allahlıq iddiası etməsi ilə heç bir fərq daşımır və sufilərin irfani fərqi onlar üçün tamamilə dərkolunmazdır.

٢.Beş müqəddəs rütbə;

Dəruziyyə firqəsi imamdan sonra daha beş müqəddəs dərəcənin mövcud olduğunu hesab edir:

١. Kulli əql;

Bu, İmam-ə`zəm Həmzət ibni Əli Zuzəninin ixtiyarındadır. O, zamanın imamı və hazırkı dövrün həqiqi insanıdır.

٢. Kulli nəfs;

Bu yalnız Əbu İbrahim ibni İsmail ibni Məhəmməd Təmiminin məqamıdır.

٣. Kəlmə; Əbu Əbdullah Məhəmməd ibni Vəhəb Qərşi nəzərdə tutulur.

٤. Sağ cinah; Əbu Xeyr Səlamət ibni Əbdülvəhhab Samiri nəzərdə tutulur.

٥. Sol cinah; Əbul Həsən ibni Əhməd Səmuqi nəzərdə tutulur.

Deməк, Dəruzi firqəsinə mənsub olan hər bir şəxs Hakimin imamətini qəbul etdikdən sonra yuxarıda adları çəkilən şəxslərin mə`nəvi məqamlarına da hörmət və ehtiramla yanaşmışdır.

* * *

Bunlarla yanaşı «nəsx», «mə`suliyyətin götürülməsi» və digər e`tiqadi nəzəriyyələr Dəruziyyə firqəsinə mənsub edilsə də, onların müasir alimlərindən olan Şeyx Mürsəl Nəsr bütün bu ittihamları qətiyyətlə təkzib edərək onları əsassız hesab edir. Bu fikirlər hal-hazırkı Dəruzi firqəsinə qarşı əsassız ittihamlar olduğu üçün bu barədə ətraflı izah verməyi məqsədəuyğun saymırıq.[١]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Dəruzilərin meydana gəlməsinə hansı amillər səbəb olmuşdur?

٢. Dəruzilər firqəsi kimlər tərəfindən və necə meydana gəlmişdir?

٣. Dəruzilər İsmailiyyə firqəsinin əqidə üsullarında nə kimi dəyişikliklər aparmışlar?

٤. Dəruziyyənin tövhidə olan baxışı nədən ibarətdir?

٥. Dəruzilərin müqəddəs hesab etdikləri beş məqam hansılardır?

[١] Əl-muvəhhidun «Əd-dəruz» Fil- islam/ Şeyx Mürsəl Nəsr.

# QIRX ÜÇÜNCÜ DƏRS

Ağaxaniyyə firqəsi necə meydana gəlmişdir?
Ağaxaniyyə cərəyanı dini firqə hesab olunurmu?

## *AĞAXANİYYƏ FİRQƏSİNİN YARANMASI*

Fatimi xəlifəsi Müstə`li hakimiyyəti ələ keçirdikdən sonra İsmailiyyə məzhəbindən ayrılmış Nəzariyyə firqəsinin davamçıları ölkə və şəhərlərdə qaçqın və köçkün halına düşdülər. Onlar xilafətin tə`qib və əzab-əziyyətindən yaxa qurtarmaq üçün müxtəlif məntəqələrdə gizli şəkildə yaşayır və çox az hallarda öz e`tiqadlarını biruzə verə bilir və ya təbliğ edirdilər. Digər tərəfdən də imam Şəmsəddin ibni Ruknuddindən sonra Nəzariyyə ardıcılları canişinlik məsələsində böyük ixtilafa düçar oldular. Beləliklə, onlar Mö`min ibni Məhəmmədi imamətə layiq hesab edən «Mö`miniyyə» və «Qasim şahı» imam kimi qəbul edən «Qasimiyyə» adlanan iki firqəyə bölündülər.

Mö`miniyyə firqəsi çox tez bir zamanda süquta uğradığı üçün onlar barədə əsaslı sənəd əldə etmək mümkün deyildir. Lakin Qasimiyyə firqəsinin davamçıları sonralar İran və Hindistanda fəaliyyət göstərmişlər.

Qasimiyyə tərəfdarları ١٢-ci əsrin sonunadək hələ də gizli fəaliyyət göstərirdilər. Elə həmin dövrlərdə onlar öz düşmənlərindən qorunmaq məqsədilə sufi firqələrinə, o cümlədən «Ne`mətülahiyyə» firqəsinə yaxınlaşıb onların adından istifadə etməyə başladılar və nəticədə əqidə baxımından onların tə`siri altına düşdülər. Qasimiyyə firqəsinin imaməti onların ٤٤-cü imamı Əbul Həsən Əli Şahın xilafəti dövrünə çatdıqda, onlar İranda Zəndiyyə sülaləsinin banisi Kərim xan Zəndə rəğbət göstərməyə başladılar. Buna görə də İsmailiyyə məzhəbinin mövqeyi daha da güclənməyə və yenidən dirçəlməyə başladı. Məhz Həmin dövrdə Əbul Həsən Şah Kermana hakim tə`yin olundu və bu illərdə Hindistandakı İsmailiyyə tərəfdarları ona hər il şər`i vergi olaraq ٢٠ min tümən məbləğində nəqd pul verməli oldular. Nəticədə o, Kermanda külli miqdarda var-dövlət, mülk əldə edib mövqeyini gücləndirdi və öz tərəfdarlarına maddi yardımlar göstərməyə başladı. ١٢٠٦-cı ildə Qasimiyyənin ٤٤-cü imamı vəfat etdi. Az sonra yə`ni, ١٢٠٧-ci ildə Zənd sülaləsi Qacar xan tərəfindən məğlub edildi və bir müstəqil firqə kimi onların fəaliyyətinə son qoyuldu. Onlar Kermandan didərgin düşdü və imamın ailəsi, o cümlədən onun oğlu şah Xəlilullah Əli

Kəhəkə getdi və orada firqə imamətliyini öz üzərinə götürdü. Daha sonra, ١٢٣٠-cu ildə Bəm, Bəlucistan və Sinddəki tərəfdarlarına yaxınlaşmaq üçün Yəzdə gəldi, lakin baş vermiş məhəlli toqquşmaların birində qətlə yetirildi. Beləliklə, Nəzariyyə firqəsinin Qasimiyyə qolunun imamətliyinə son qoyuldu və sonra yeni bir cərəyan - Ağaxaniyyə firqəsi yaranmağa başladı.

## *AĞAXANİLƏR*

Ağaxanilərin ilk imamı Həsən Əli şah ləqəbi ilə məşhur olan Məhəmməd Həsən ١٢١٩-cu ildə Qum şəhəri yaxınlığındakı Kəhək kəndində dünyaya gəlir. ١٢٣٢-ci ildə atası qətlə yetirildikdən sonra İsmailiyyə məzhəbinin Nəzariyyə firqəsinin imamətliyini öz üzərinə götürür. Fətəli şah Qacar bu firqəyə böyük rəğbət göstərdiyi üçün onlar müəyyən mə᾽nada canlanmağa başladılar. Əli şah bacısını Fətəli şaha ərə verməklə qarşılıqlı münasibətləri daha da gücləndirdi və Qacar şahı tərəfindən Ağaxan ləqəbini aldı. Əvvəllər Qum və ətraf məntəqələrə hakim tə᾽yin olunsa da, az sonra Kerman da onun ixtiyarına verildi və əvvəldən də sıx münasibətdə olduğu üçün, orada məskunlaşan nəzariləri tez bir zamanda öz ətrafına toplaya bildi.

Hindistan, Sind və digər məntəqələrdə yaşayan tərəfdarları da onun Kermana hakim tə᾽yin olunduğundan xəbər tutub görüşünə gəldilər. Lakin sonralar o, Nəsrəddin şahla yaranmış ixtilaflar nəticəsində özünü və ailəsini təhlükədən qurtarmaq üçün Kermanı tərk edib Böyük Britaniyanın istismarı altında olan Əfqanıstana qaçmağa vadar oldu. Hicrətin ١٢٦٠-cı ilində ingilislərin köməyi ilə Əfqanıstandan Bombeyə gedir və orada tərəfdarlarının səmimi münasibətini görüb oranı imamət mərkəzi tə᾽yin edir. Beləliklə, o dövrədək İranda fəaliyyət göstərən Qasimiyyə sülaləsi süquta uğrayır və onun yerinə imamət mərkəzi Hindistanda yerləşən Ağaxaniyyə səltənəti tə᾽sis olunur.

Birinci Ağaxan Hicrətin ١٢٩٨-ci ilində vəfat edir və Bombey şəhərində dəfn olunur. Ondan sonra ikinci Ağaxan yə᾽ni, onun oğlu Əli şah İsmailiyyə rəhbərliyini öz üzərinə götürür. O, Hicrətin ١٢٤٦-cı ilində İranın Məhəllat şəhərində dünyaya gəlmiş, dörd il imamət etdikdən sonra ١٣٠٢-ci ildə vəfat etmiş və yerini oğlu Məhəmməd şaha vermişdir.

Məhəmməd şah və ya Məhəmməd soltan üçüncü Ağaxan kimi İsmailiyyə firqəsinə imam tə᾽yin olundu. O, Hicrətin ١٢٩٤-cü ilində Pakistanın Kəraçi şəhərində dünyaya gəlmiş və atası vəfat etdikdən sonra səkkiz yaşında ikən Hindistandakı tərəfdarlarının köməyi ilə imamət məqamına yiyələnişdir. İngiltərə və İran dövlət rəhbərləri onunla səmimi münasibətdə olduqları üçün fəxri ad olaraq ona «Ser», İran şahı isə «Həzrəti-vala» (Ə᾽lahəzrət) ləqəbini verir. Tərəfdarlarının ödədikləri külli miqdarda şər᾽i vergilər Məhəmməd şaha saysız-

hesabsız var-dövlət yığmaq, dünyanın bir çox yerlərində saray və imarətlər tikdirmək və hətta şəxsi təyyarəyə malik olmaq imkanı verir.

Etdiyi çıxışlardan və verdiyi göstərişlərdən onun Qərb adət-ən᾽ənələrinə meyl göstərdiyi və islam mədəniyyətindən uzaq düşdüyü açıq-aşkar bəlli olur. Belə ki, çıxışlarının birində tərəfdarlarına təcrübi və texniki elmlərə yiyələnib, əqli və nəzəri elmlərdən uzaqlaşmağı tövsiyə edir. Üçüncü Ağaxan vəfat etməzdən əvvəl nəvəsi Kərimi özünə canişin tə᾽yin edir, oğlu Əlini isə imamətdən uzaqlaşdırır. O bunun səbəbini belə izah etmişdir: «Yaranmış şərait dünyada bir sıra əsaslı dəyişikliklərə səbəb olmuşdur. Onlardan biri də nüvə texnologiyası və buna aid olan elmin meydana gəlməsidir. Yəqin bilirəm ki, İsmailiyyə firqəsinin rəhbərliyini elə bir şəxs öz üzərinə götürməlidir ki, yaşadığımız əsrdə inkişaf etməkdə olan müasir elmlə ayaqlaşa bilsin, yeni fikir irəli sürməyə qadir olsun. Bunun üçün də nəvəm Kərimxanı öz yerimə xəlifə və tayfanın rəhbəri tə᾽yin edirəm.[١]

Üçüncü Ağaxan İsmailiyyə firqəsinə ٢٨ il rəhbərlik etdikdən sonra Hicrətin ١٣٨٠-cı ilində vəfat edir və Kərimxan ٤-cü Ağaxani imamı tə᾽yin olunur. O, miladın ١٩٣٨-ci ilində Cenevrədə dünyaya gəlmiş, qərb universitetlərində təhsil almışdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində, xüsusilə qərbdə onlarla qəsr, iqtisadi mərkəz və şirkətlər sahibidir. İmamlıq iddiası etsə də, qərb ölkələrində vaxtının çox hissəsini eyş-işrət məclislərində keçirir və onun bu hərkətləri kütləvi informasiya vasitələri tərəfindən də geniş şəkildə işıqlandırılır. Qeyd edirlər ki, Tanzaniyanın İrinqay şəhərində olarkən tərəfdarlarının yanına gəlmiş və müvəqqəti olaraq məskun olduğu məhəllədə hamama getmişdir. Hamamdan çıxdıqdan sonra vannanın suyu şüşə qablara doldurub satılmış və camaat da təbərrük olaraq onu almağa cəhd göstərmişlər. Ağaxanilər haqda bu qədər mə᾽lumatla kifayətlənib söhbətimizi burada yekunlaşdırırıq.[٢]

## *DİNİ BAXIŞ*

Sadəlövh tərəfdarları dini əsaslara e᾽tiqad bəsləsələr də, mövcud şəraiti nəzərə alaraq, Ağaxaniyyə firqəsinin rəhbərliyinin dini e᾽tiqadlara yiyələndiyini təsəvvür etmək olmaz. Çünki, qərb tə᾽lim-tərbiyəsi görmüş firqə rəhbərləri öz tərəfdarlarını yalnız müasir elmlərə yiyələnməyə çağırmış və dindən yalnız öz şəxsi mövqelərini qoruyub saxlamaq üçün istifadə etmişlər. Bir halda ki, İsmailiyyə firqəsinin ilkin dini rəhbərləri belə bir əqidədə olmuşlar ki, elm Peyğəmbərin (s) pak Əhli-beytindən öyrənilməli və bu işdə yalnız onların yolu davam etdirilməlidir.

---

[١] Tarixud-də᾽vətil İsmailiyyə/Mustafa Qalib.

[٢] Ağaxanlar; Mahərbus.

Mə`lum məsələdir ki, hər hansı bir firqənin dini rəhbəri öz təhsilini qeyri-müsəlmandan əxz edib həyatını eyş-işrət içində keçirərsə, ondan dinin əsaslarını təbliğ edib bu qanunları özündə yaşatmasını da gözləmək olmaz. Onların arasında dini ayinlərdən bir şey qalıbsa, o da «Sahibəzzaman» üçün edilən dualar və bə`zi zahiri mərasimlərdir. Bu kimi mərasimlər Ağaxanilərin «camaatxanə» adlandırdıqları mərkəzlərdə keçirilir və bu, dini e`tiqad kimi qələmə verilir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Nəzariyyə firqəsi neçə şaxəyə bölünür?
٢. Ağaxaniyyə onların hansına deyilir?
٣. Ağaxan kimdir? Və onun gördüyü işlər nədən ibarətdir?
٤. Ağaxaniyyə firqəsinin tərəfdarları imama necə münasibət bəsləyirlər?
٥. Elmə münasibətdə İsmailiyyə ilə Ağaxaniyyə firqələri arasında mövcud olan fərq nədən ibarətdir?

## QIRX DÖRDÜNCÜ DƏRS

İmamiyyə məzhəbi hansı məzhəbə deyilir?
İmamiyyə məzhəbi necə meydana gəlmişdir?

### *İMAMİYYƏ*

«İmamiyyə» sözü şiə məzhəbli firqələrə verilən ümumi bir addır. Onlar «imamət» məsələsini dini əsasların biri hesab edir və onu dinin qorunub saxlanılmasında ən mühüm amil kimi qiymətləndirirlər. Onların əqidəsinə görə, yer üzü heç vaxt imamsız olmayacaq, istər qeybdə, istərsə də zahirdə olmaqla daim dinin keşiyində duracaqdır.

İmamət digər islam məzhəblərinin diqqət mərkəzində olmadığı üçün bu ad yalnız onların müqabilində dayanan İmamiyyə firqələrinə verilmişdir. Əvvəlki dərslərimizdə qeyd etdiyimiz kimi, İmamiyyə məzhəbi tarix boyu ağır mərhələlərlə qarşılaşmış və nəticədə «Zeydiyyə», «İsmailiyyə» və sair firqələrə bölünmüşdür.

Bunun üçün də İmamiyyə deyildikdə, yalnız «on iki imamçı» şiə məzhəbi nəzərdə tutulur. Demək, hal-hazırda İmamiyyə məzhəbinin ardıcılları Əli ibni Əbu Talibdən başlayaraq, Məhəmməd ibni Həsən Mehdi Sahibəzzəmana qədər olan on iki mə᾽sum şəxsin imamətinə e᾽tiqadı olan şəxslərdir.

**Bu məzhəb altıncı imam Cə᾽fər ibni Məhəmməd Sadiqin adı ilə bağlı olaraq, Cə᾽fəri məzhəbi də adlanır. Bunun isə əsas səbəbi şiə məzhəbinin fiqhi əsaslarının məhz onun dövründə genişlənib vüs᾽ət tapmasıdır. E᾽tiqadi məsələlərə gəldikdə isə, şiə məzhəbi əksər hallarda imamiyyə adlandırılır.**

### *İMAMİYYƏ MƏZHƏBİNİN YARANMASI*

Əvvəlki dərslərimizdə islam firqələrinin necə və kimlər tərəfindən meydana gəlməsi haqda söhbət açdıq. Lakin İmamiyyə barədə belə bir fikir irəli sürmək düzgün və əsaslı olmazdı. Çünki, İmamiyyə tərəfdarları bu məzhəbin onların hər hansı bir alimi tərəfindən meydana gətrildiyini düzgün anlayış hesab etmir. Yə᾽ni, şiə məzhəbinin meydana gəlməsi heç də Vasil ibni Ətanın öz şəxsi nəzəriyyələrini irəli sürməsi və Mö᾽təzilə məzhəbini tə᾽sis etməsi kimi olmamışdır. Əksinə, onlar belə bir əqidədədirlər ki, şiə məzhəbi İslamın əvvəllərində Qur᾽an, sünnə və Peyğəmbərin (s) öz canişinləri haqda buyurduğu

tövsiyələrdən irəli gəlmişdir. Peyğəmbər (s) vəfat etdikdən sonra isə onun sadiq davamçıları olan imamlar fiqh və əqidə üsullarının əsasını qoymuş və o həzrətin tə`limlərindən bəhrələnərək şiə ideologiyasını öz davamçılarına şərh və tə`lim etmişlər. Bu səbəbdən də İmamiyyə alimləri şiə məzhəbinin meydana gəlməsində özlərinin heç bir rol oynamadıqları fikrini irəli sürürlər.

٣٣-٣٤-cü dərslərdə qeyd etdik ki, İmamiyyə alimləri şiə məzhəbinin müxtəlif şəxs, dövlət və ya xalq tərəfindən meydana gəlməsinə dair irəli sürülmüş nəzəriyyələri əsaslı dəlillərlə rədd və təkzib etmişlər.

Bunun üçün də İmamiyyə alimləri şiə məzhəbini Peyğəmbərin (s) sünnə və buyuruqlarına tabe olub, müsəlman ümmətinin hidayət olunması üçün o həzrətin özündən sonra canişin tə`yin etdiyi imamların yolunu davam etdirməkdən savayı bir şey hesab etmirlər. Məsum imamlar ümmətin hidayət və rəhbərliyini öz üzərlərinə götürməklə yanaşı, şər`i hökmlərin təfsir və təbliğ olunması vəzifəsini də birbaşa rəhbərlik etmişlər. Bunun üçün də şər`i əqidə və qanunlar mə`sum imamların həyat tərzi ilə sıx əlaqəlidir. İmamiyyə almilərinin üzərinə düşən ən başlıca vəzifə isə Peyğəmbərin (s) tə`limlərini şərh və izah etmək, şər`i qanunları fiqhi mənbələrdən üzə çıxarmaqdır. İmamiyyə alimləri şiə məzhəbinin formalaşdığı tarixi mərhələni üç hissəyə bölürlər:

١. Məzhəbin tə`sis və yaranması;

٢. Zühuru;

٣. Bəyan və davam etdirilməsi.

## ١. ŞİƏ MƏZHƏBİNİN TƏ`SİS EDİLMƏSİ

Bu mərhələ Peyğəmbərin (s) sağlığında o həzrətin özü tərəfindən həyata keçirilmişdir. İmamiyyə alimləri belə bir əqidədədirlər ki, bu mərhələ iki əsas hədəf və məqsəd daşımışdır:

١. «Şiə» kəlməsinin meydana gəlib açıqlanması;

٢. İmamətin əsasının qoyulması.

## BİRİNCİ HƏDƏF

Peyğəmbər (s) buyuruqlarının bir çoxunda Əli ibni Əbu Talibin tərəfdarlarını «Əli şiəsi» adlandırmış və onun razılığını qazanan şəxslərin böyük mükafata nail olacaqları və`dəsini vermişdir. (٣١-ci dərsdə bu hədislərdən bə`zilərin gətirdik). Orada qeyd olunan mənbələrlə yanaşı, aşağıda adları çəkilən kitablarda da bu məzmunda yüzlərlə hədis və rəvayət nəql olunmuşdur: «Yənabiul-məvəddə», ٢-ci cild, (Qunduzi); «Nurul-əbsar», səh.٧٨. (Şəblənci); «Şəvahidut-tənzil», ٢-ci cild, (Hakim Həskani); Tarix, Əli ibni Əbu Talibin həyatının tərcüməsi, ٢-ci cild, (İbni Əsakir); Mənaqib, səh.٣. (Xarəzmi); Təfsir, ٣-cü cild, (Təbəri); Künuzul-Həqaiq, ١-ci cild, (Mənadi); Fəthul-Qədir, ٥-ci cild, (Şəvkani); Əl-füsulul-muhimmə, səh.١٠٧.

(İbni Səbbağ Maliki); Təzkirətul-Xəvas, səh.٢٧. (Səbt ibni Covzi); Ruhul-Məani, ١٦-cı cild, (Alusi); Ənsabul-Əşraf, ١٨٢-ci cild, (Bəlazəri).

## *İKİNCİ HƏDƏF*

Peyğəmbərin (s) özündən sonra canişin tə`yin etməsinə dair üç fərziyyə irəli sürmək olar:

a) Peyğəmbər (s) bu məsələyə e`tinasızlıqla yanaşaraq sükut etmişdir. (Yə`ni, kimsəni özündən sonra canişin tə`yin etməmişdir);

Bu fərziyyə tamamilə əsassız və batildir. Çünki, Peyğəmbər (s) özünün sonuncu Peyğəmbər olduğunu bildiyi və on il ərzində bütün sə`yini islam cəmiyyətinin qurulmasına sərf etdiyi bir halda müsəlman ümmətinin gələcəyinə qarşı bu qədər e`tinasız ola bilməzdi. Digər tərəfdən də, Peyğəmbər (s) hələ öz sağlığında ümmətinin gələcək aqibətindən agah olmuş və buyuruqlarının bir çoxunda dəfələrlə bu mətləbə işarə etmişdir. Bu bir daha Peyğəmbərin (s) ümmətin gələcəyinə qarşı e`tinasız olmadığını sübuta yetirir. Bütün bunlarla yanaşı, Peyğəmbər (s) ümmətin gələcəyinin işıqlı olması üçün bə`zi tədbirlər də görmüşdür.

Üsamənin rəhbərlik etdiyi qoşunu döyüş hazırlığına gətirib ölkədən xaricə e`zam olunmasını buna misal çəkmək olar. Peyğəmbərin (s), ümmətin gələcəkdə qarşılaşdığı çətinliklərin öhdəsindən gələcəyinə əmin olmasına dair irəli sürülən ehtimalı da əsaslı hesab etmək olmaz. Çünki, tarix bunun tam əksini göstərmiş və müsəlman ümməti bir çox məsələlərdə ixtilaf və qarşıdurmalara düçar olmuşlar.

Gətirilən dəlili nəzərə alaraq, birinci fərziyyəni düzgün hesab etmək olmaz.

b) Peyğəmbər (s) imamət və canişinlik məsələsini şuranın üzərinə qoymuşdur;

Bunu sübuta yetirəcək mö`təbər tarixi sənəd mövcud olmadığı üçün irəli sürülmüş bu fərziyyəni də əsaslı hesab etmək olmaz.

v) Peyğəmbər (s) öz canişinini əvvəlcədən tə`yin etmişdir.

Bu mətləbə dəlalət edəcək bir çox mö`təbər hədis və rəvayətlər nəql olunmuşdur. «Qədir-xum», «Səqəleyn», «Yovmud-dar» və «Mənzilət» hədislərini buna misal çəkmək olar. Yuxarıdakı iki fərziyyə rədd edilməklə, istər-istəməz irəli sürülən bu fərziyyə böyük e`tibar kəsb edir. İmamiyyə alimləri deyilənlərdən belə bir nəticəyə gəlirlər ki, bu məzhəb Peyğəmbərin (s) sağlığında tə`sis olunmuş və hər iki hədəf Peyğəmbərin (s) öz tərəfindən tə`min olunmuşdur.

## *٢. ZÜHURU VƏ AŞKAR EDİLMƏSİ*

Bu mərhələ Peyğəmbərin (s) vəfatından sonraya - Peyğəmbərin (s) canişinlik məsələsinin diqqət mərkəzinə çıxdığı bir dövrə aiddir. İmamiyyə alimləri belə bir əqidədədirlər ki, bu mərhələdə «Əli şiələri» kimi tanınan şəxslər, yə`ni Salman Farsi, Əbuzər Ğəffari, Əmmar Yasir, Miqdad ibni Əsvəd, Əbu Əyyub Ənsari,

Xəzimət ibni Sabit, Əbul Heysəm və başqaları Peyğəmbərin (s) hədislərini nəzərə alaraq, Əli ibni Əbu Talibin həqiqi canişin olduğunu dəfələrlə iqrar etmiş və onun xəlifə e҆lan olunmasını istəmişlər.

Bu mərhələdə müsəlman ümməti arasında yaranmış ixtilaflar özünü biruzə verdi və beləliklə, tarixdə iki böyük cərəyan, yə҆ni şiə və sünnü məzhəbləri meydana gəldi.

## *٣. BƏYAN VƏ DAVAM ETDİRİLMƏSİ*

Əbu Bəkr xəlifə tə҆yin olunduqdan sonra İmamiyyə şiələri Əhli-beytin ətrafına yığılaraq, onlara olan sevgi və məhəbbətlərini biruzə verməkdə davam etdilər.

İmamların hər biri öz dövründə fiqhi və e҆tiqadi əsasların müəyyən bir qismini tərtib və təkmil edərək, şiəliyi kamil məzhəb kimi ərsəyə çatdırdılar.

İmamiyyə tərəfdarlarının fikrincə, imamların hər biri şiə məzhəbinin formalaşıb tarix boyu müstəqil məzhəb kimi fəaliyyət göstərməsində başlıca rol oynamışlar. Bu məzhəb son dərəcə çətin tarixi və ictimai şəraitlərlə üzləşməsinə baxmayaraq, onların sə҆y və çəkdikləri zəhmətlər nəticəsində öz həyatını davam etdirə bilmişdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İmamiyyə məzhəbinin e҆tiqadi əsaslarını nə təşkil edir?
٢. İmamiyyə məzhəbi nə üçün Cə҆fəri məzhəbi də adlandırılır?
**٣. İmamiyyə məzhəbi kim və ya kimlər tərəfindən meydana gəlmişdir?**
٤. İmamiyyə məzhəbinin meydana gəlməsi mərhələlərini ixtisarla izah edin.

## QIRX BEŞİNCİ DƏRS

İmamiyyə məzhəbinin əqidə üsulları hansılardır?
İmamiyyə məzhəbi ilə digər məzhəblər arasında mövcud olan ixtilaflar nədən ibarətdir?

## *İMAMİYYƏ ƏQİDƏSİ (١)*

**Bu dərsimizdə İmamiyyə məzhəbinin e'tiqadlarını nəzərdən keçirəcək və növbəti dərslərimizdə tutulan iradlar barədə ətraflı söhbət açacağıq. Əlbəttə, kəlam alimlərinin bu barədə olan baxış və nəzəriyyələrindən ətraflı danışmaq istəsək, bu mövzuda yazılmış onlarla kitaba ayrı-ayrılıqda müraciət etməli və yetkin nəticəyə gəlməliyik.**

İmamiyyə məzhəbi isə üsulidinin bunlardan ibarət olduğunu hesab edir:

### *١. TÖVHİD*

**İmamiyyə məzhəbi belə bir əqidədədir ki, O böyük Allah (Əhəd) yeganə, ehtiyacsız və heç bir oxşarı olmayan bir varlıqdır. Ondan əvvəl heç bir varlıq olmamışdır; qədim, əzəli və əbədidir. Onun nə başlanğıcı var, nə də sonu; alim, həkim, daim diri, hər şeyə qadir, hər şeyi görən, eşidən və ehtiyacsızdır. Onu məxluqatın sifət və xüsusiyyətləri ilə vəsf etmək olmaz. Çünki O, nə cismdir, nə də müəyyən surətə malikdir. O nə cövhərdir və* nə də ərəz.* Ağırlıq və yüngüllük Onun vücuduna aid edilməz; Onun nə zamanı var, nə də məkanı. Onu nişan və əlamətlərlə xarici aləmdə göstərmək də qeyri-mümkündür. Onun nə şəriki var, nə oxşarı və nə də qarşılığı. Aləmi idarə etməkdə nə yardımçısı var, nə də övladı. Aləmdə Ona oxşar ikinci bir varlıq təsəvvür etmək belə, mümkün deyildir. Kimsə ona bərabər ola bilməz. Gözlər Onu görməkdə aciz olsalar da, O hamını görür. Şiələr, Allahı varlıqlardan birinə oxşadan, yə'ni Onun üçün üz, əl, göz və s. bədən üzvləri təsəvvür edən və ya Allahın göylərə enərək özünü Cənnət əhlinə göstərməsini təsəvvür edən şəxsləri kafir və müşrik hesab edirlər. Onların əqidəsinə görə, belə bir təfəkkür-tərzinə malik olan şəxslər Allahı tanımaqdan məhrum olmuşlar. Bir sözlə, ən zərif təxəyyülə malik olmaqla, Allahı hər hansı bir varlığa bənzədəriksə, imam Baqir (ə) buyurduğu kimi, «O Allaha deyil, yenidən bizim özümüzə aid olacaqdır». Yə'ni, sözün əsl mə'nasında O, bizim deyil, biz Onun yaradanı (xaliqi)**

**olacağıq. Həmçinin Allahın qiyamət günü Özünü insanlara göstərəcəyinə e`tiqadı olan şəxslər zahirdə Allaha bənzər bir varlığı inkar etsə də, sözün əsl mə`nasında Allaha başqa bir varlıq oxşatmış və bunun üçün də küfr etməkdə ittiham olunmuşlar. Belə bir yanlış əqidə, həmin şəxslərin Qur`an ayələrinin və hədislərin zahiri mə`naları ilə kifayətlənib onların batini mə`nalarına diqqət yetirməmələrindən irəli gəlmişdir.**

İmamiyyə şiələri Allahın birliyinə hər baxımdan e`tiqad bəsləyirlər. Çünki, əvvəla onlar Allahı Öz zatında vacibəl-vücud* və yeganə hesab edirlər. İkincisi, onlar belə bir əqidədədirlər ki, Allah, rəqibi və oxşarı olmayan bir varlıqdır. Yə`ni, Onun sifətləri Onun zatıdır və zati sifətlərində heç bir oxşarı yoxdur. Deməк, Onun elmdə, qüdrətdə, yaradıcılıqda, ruzi verməkdə və bütün xüsusiyyətlərdə heç bir rəqib və oxşarı yoxdur. Üçüncüsü, onlar ibadətdə də Allahı pərəstişə layiq olan yeganə varlıq hesab edirlər. Yə`ni, Allahdan başqa digər varlıqlara ibadət etməyi düzgün hesab etmirlər. İstər namaz kimi gündəlik vacib ibadətlərdə, istərsə də müstəhəb əməllərdə Allaha şərik qoşmur və belə bir əqidəyə əsaslanırlar ki, ibadətdə Allaha şərik qoşan şəxslər kafir və müşrikdirlər. Onların əqidəsinə görə, riyakarlarla müşrik və bütpərəstlərin heç bir fərqi yoxdur.[١]

## ٢. *İLAHİ ƏDALƏT*

Şiələr, ədaləti Allahın kamal sifətlərindən biri hesab edirlər. Belə ki, Allah-taala gördüyü bütün işlərdə ədalətlidir. O bir kimsəyə zülm etməz və eləcə də zalimanə [haqsız] hökm verməz. Ona tabe olanları mükafatlandırır, tabe olmayanları isə haqlı olaraq cəzalandırır. Bəndələrini bacardıqlarından artıq hər hansı bir işə əmr etməz. Onları cəzalandırdıqda da ədalətdən kənara çıxmaz. Allah-taala məsləhət olan xeyirli işləri tərk etməz və heç vaxt nalayiq və xoşagəlməz işlər görməz. Çünki O, xeyirli işlər görməkdə əsla aciz deyildir; nəyin pis və nəyin yaxşı olduğunu bilir; bir şeyə möhtac olmadığı, bir şeydən qorxmadığı və heç bir qüvvənin qarşısında aciz olmadığı üçün xoşagəlməz işlər görməyə də heç bir ehtiyacı yoxdur.

Şiələr qəza-qədər məsələsində Əhli-beyt yolunu davam etdirərək nə mütləq cəbr,* nə də mütləq təfviz* nəzəriyyəsini qəbul edirlər. Onlar «Əmrun beynə əmreyn» nəzəriyyəsinə əsaslanaraq deyirlər: Gördüyümüz hər bir iş bir tərəfdən həqiqətən bizim özümüzə aiddir; onun amili və təbii səbəbkarı biz özümüzük; həmin işləri tərk etməkdə tam ixtiyar sahibiyik. Lakin digər bir nöqteyi-nəzərdən, gördüyümüz bütün işləri Allahın qüdrət və iradəsi ilə yerinə yetiririk. Çünki O, bütün varlıqların həyat, enerji və rəhmət mənşəyidir.

---

[١] Əqaidul-İmamiyyə/Məhəmməd Riza Muzəffər.

Hər iki nəzəriyyədən belə bir nəticəyə gəlmək olar ki, gördüyümüz iş həqiqətən bizə aid olduğu üçün əməli olaraq, onun yerinə yetirilməsində və ya tərk olunmasında tam azad və ixtiyar sahibiyik. Demək, Allah-taala bizi heç də həmin işləri görməyə vadar etməmişdir ki, günahlarımıza görə cəzalandıqda Onun zülm etdiyini fikirləşək. Eləcə də yaradılış aləmində bizi tamamilə özbaşına buraxmamışdır ki, özümüzü Onun qüdrət və iradəsindən xaricdə hesab edək.[١]

## ٣. *NÜBUVVƏT (PEYĞƏMBƏRLİK)*

İmamiyyə şiələri peyğəmbərliyi ilahi bir vəzifə hesab edirlər ki, onu başqa ifadə ilə Allahın yer üzündəki nümayəndəsi də adlandırmaq olar. Allah-taala bu məqamı özünün ən layiqli və ən kamil bəndələri üçün müəyyən etmişdir; onlara, bəşəriyyəti qeyri-əxlaqi xüsusiyyətlərdən, xoşagəlməz davranışlardan uzaqlaşdırıb, onları əxlaqi dəyərlərə də᾽vət etməyi və nəhayət, əbədi səadətə qovuşduran haqq yola hidayət etməyi əmr etmişdir. Peyğəmbərlərin ən başlıca vəzifəsi insanlara hikmətamiz öyüd-nəsihətlər vermək və kamala çatmaq üçün səadət qapılarını onların üzünə açmaqdan ibarətdir. Onların tə᾽lim-tərbiyələrindən bəhrələnən hər bir şəxs, həm dünya, həm də axirətin ən yüksək məqamına nail ola bilər.

**Şiələr belə bir əqidədədirlər ki, lütf qanununa* əsasən, öz bəndələrinə qarşı olduqca mehriban olan Allah-taala, bəşəriyyətin haqq yola hidayət olması üçün onlara nümayəndə olaraq peyğəmbərlər göndərməlidir. Allah-taala kimin peyğəmbərliyə tə᾽yin olunmasını yaxşı bilir və yaranmışlar onun seçilməsində heç bir ixtiyara malik deyillər.**

Haqq olmasını sübuta yetirmək və insanların iman gətirmələri üçün hər bir peyğəmbər bə᾽zi dəlil və əlamətlərə malik olmalıdır. Mö᾽cüzə adlandırdığımız xariqül-adə bir iş bəşəriyyətin elm və bacarığından olduqca üstün və uca bir şeydir. Belə ki, camaat belə bir işi müşahidə etdikdə onun qarşısında təslim olmalıdır. Bunun üçün də hər bir peyğəmbərin mö᾽cüzəsi yaşadığı dövrün şəraitinə uyğun olmalıdır. Məsələn, Musa peyğəmbərin dövründə sehr və cadugərlik geniş yayılmış və bu iş ümumi kütləni özünə cəlb edə bilmişdi. Musanın (ə) göstərdiyi mö᾽cüzə isə onların hər birinə üstün gəlmiş, əlindəki əsa ilana dönüb onların cadugərlik alətlərini udaraq məharətlərini batil etmişdi.

Peyğəmbərimizin əbədi mö᾽cüzəsini də [Qur᾽ani-kərimi] buna misal çəkmək olar. Bəşəriyyət bu günə qədər fəsahət və bəlağət elminin ən yüksək nümunəsi olan Qur᾽andan üstün bir şey yaza bilməmiş və bundan sonra da yaza bilməyəcəkdir. Qur᾽an elə bir dövr və şəraitdə nazil olmuşdur ki, ərəb söz ustaları öz şe᾽r və xütbələrinin fəsahət və bəlağəti ilə öyünür, ərəb ictimaiyyətinə meydan

---

[١] Əqaidul-imamiyyə/Məhəmməd Riza Müzəffər.

oxuyurdu. O gündən indiyədək Qur᾽an əbədi mö᾽cüzə olaraq qalır; kimsə nə onun oxşarını gətirə bilmiş, nə də ayələrini təhrif etməyi bacarmışdır. Qur᾽an təhrifolunmaz sonuncu ilahi kitabdır. Qiraət olunan hal-hazırkı Qur᾽an Peyğəmbərə (s) nazil olmuş orjinal nüsxənin nümunəsidir. Bu barədə başqa bir nəzəriyyə irəli sürən şəxslər haqq yoldan azmışdır, onlar yalançı və iftiraçıdırlar. Qur᾽anın özündə bu barədə buyurulur:

«Nə öncə, nə də sonra batil ona yol tapa bilməz...»[١]

Şiələr peyğəmbərləri mə᾽sum və günahsız hesab edərək deyirlər: İsmət, insanın hər bir günah, səhv və unutqanlıqdan uzaq olmasına deyilir. Lakin bu heç də o demək deyildir ki, peyğəmbərlərin günah etmələri, hətta əqlən də qeyri-mümkün olmuşdur. Şiə əqidəsinə görə, həqiqətən onlar heç vaxt günaha düçar olmamışlar. Onlar bütün peyğəmbərlərə və onlara nazil olmuş asimani kitablara iman gətirməyi Allaha iman gətirməyin əsas şərtlərindən biri, inkar etməyi isə küfrə bərabər hesab edirlər. Bu məzhəbin əqidəsi budur ki, həzrət Məhəmməd ibni Əbdullah (s) Allah tərəfindən bəşəriyyətə göndərilmiş sonuncu və ən üstün peyğəmbərdir.[٢]

## ٤. *İMAMƏT*

Şiələr imaməti dinin əsaslarından (üsulidinin) biri hesab edir və ona e᾽tiqad bəsləmədən islamı qəbul etməyi kamil saymırlar. Bu məsələdə ata-babalardan, qohum-əqrəbadan və alimlərdən təqlid olunmamalıdır. Tövhid və peyğəmbərliyi sübut etmək üçün əsaslı dəlillər tələb olunduğu kimi, imamət məsələsini qəbul etmək üçün də tutarlı dəlil və sübutlar lazımdır. Şiələr imaməti də peyğəmbərlik kimi ilahi lütf hesab edirlər. Onların fikrincə, bəşəriyyəti haqqa hidayət etmək üçün imamlar peyğəmbərlərin vəzifəsini öz üzərlərinə götürməli, bütün dövrlərdə onları hər iki dünyanın kamal və səadətinə çatdırmalıdırlar. Demək, imamət peyğəmbərliyin davamıdır. Peyğəmbərliyin Allah tərəfindən göndərilməsi zəruri olduğu kimi, imamətin də peyğəmbərlərdən sonra davam etməsi vacib və zəruridir. Bunun üçün də şiələr belə bir əqidədədirlər ki, imam Allah tərəfindən peyğəmbərin vasitəsi ilə tə᾽yin olunmalıdır və camaat imamın seçilməsində və ya tə᾽yin olunmasında heç bir rol oynamır. Onlar istədikləri şəxsi imam vəzifəsinə seçmək və ya istəmədikdə onu tutduğu məqamdan kənarlaşdırmaq səlahiyyətinə malik deyillər. Çünki, Peyğəmbərdən (s) bu barədə bir neçə hədis nəql olunmuşdur. Onlardan birində deyilir: «Kim zəmanəsinin imamını tanımadan dünyasını dəyişsə, cəhalət dövrünün insanları kimi dünyadan getmiş olur.»

---

[١] Fussilət-٤٢

[٢] Həmin mənbə.

Demək, istər qeybdə olsun, istərsə də zahirdə və istər camaat ona tabe olsun, istərsə də tabe olmasın, yer üzündə Allah tərəfindən tə`yin olunan, itaət olunması vacib olan imamın olması zəruridir və belə bir vücudun olmaması mümkün deyildir.

Qur`ani-kərimdə belə buyurulur:

«...Elə bir ümmət yoxdur ki, onu içindən [kafirləri Allahın əzabı ilə] qorxudan bir peyğəmbər [yaxud alim] gəlib getməsin!»[١]

**Şiələr belə bir əqidədədirlər ki, Peyğəmbər (s) Əli ibni Əbu Talibi özünə canişin tə`yin etmiş, ondan sonra müsəlman ümmətinə rəhbərlik edəcək on iki mə`sum imamın adını ayrı-ayrılıqda çəkmiş və onlara tabe olmağı hər bir müsəlmana əmr etmişdir.**

On iki mə`sum imam bunlardan ibarətdir:

١. İmam Əbül Həsən Əli ibni Əbu Talib; ləqəbi Mürtəza, təvəllüdü: Hicrətdən ٢٣ il əvvəl. Şəhadəti: Hicrətin ٤٠-cı ili.

٢. İmam Əbu Məhəmməd Həsən ibni Əli; ləqəbi Müctəba. Təvəllüdü: Hicrətin ٢-ci ili. Şəhadəti: Hicrətin ٥٠-ci ili.

٣. İmam Əbu Əbdullah Hüseyn ibni Əli; ləqəbi Seyyidüş-şühəda. Təvəllüdü: Hicrətin ٣-cü ili. Şəhadəti: Hicrətin ٦١-ci ili.

٤. İmam Əbu Məhəmməd Əli ibni Hüseyn; ləqəbi Zeynəlabidin və Səccad. Təvəllüdü: Hicrətin ٣٨-ci ili. Şəhadəti: Hicrətin ٩٥-ci ili.

٥. İmam Əbu Cə`fər Məhəmməd ibni Əli; ləqəbi Baqir. Təvəllüdü: Hicrətin ٥٧-ci ili. Şəhadəti: Hicrətin ١١٤-cü ili.

٦. İmam Əbu Əbdullah Cə`fər ibni Məhəmməd; ləqəbi Sadiq. Təvəllüdü: Hicrətin ٨٣-cü ili. Şəhadəti: Hicrətin ١٤٨-ci ili.

٧. İmam Əbu İbrahim Musa ibni Cə`fər; ləqəbi Kazim. Təvəllüdü: Hicrətin ١٢٨-ci ili. Şəhadəti: Hicrətin ١٨٣-cü ili.

٨. İmam Əbül Həsən Əli ibni Musa; ləqəbi Riza. Təvəllüdü: Hicrətin ١٤٨-ci ili. Şəhadəti: Hicrətin ٢٠٣-cü ili.

٩. İmam Əbu Cə`fər Məhəmməd ibni Əli; ləqəbi Cavad. Təvəllüdü: Hicrətin ١٩٥-ci ili. Şəhadəti: Hicrətin ٢٢٠-ci ili.

١٠. İmam Əbül Həsən Əli ibni Məhəmməd; ləqəbi Hadi. Təvəllüdü: Hicrətin ٢١٣-cü ili. Şəhadəti: Hicrətin ٢٥٤-cü ili.

١١. İmam Əbu Məhəmməd Həsən ibni Əli; ləqəbi Zəki və Əskəri. Təvəllüdü: Hicrətin ٢٣٢-ci ili. Şəhadəti: Hicrətin ٢٦٠-cı ili.

١٢. İmam Əbül Qasim Məhəmməd ibni Həsən; ləqəbi Məhdi. Təvəllüdü: Hicrətin ٢٥٥-ci ili. Qeybə çəkilmişdir.

---

[١] Fatir-٢٤.

## ٥. *MƏʾAD*

Digər firqələr kimi, İmamiyyə şiələri də cismani məʾadı və məhşərdə sorğu-sual gününü, sirat körpüsünü, cənnət və cəhənnəmin olacağına eʾtiqad bəsləyirlər. Onlar bu barədə Qiyamət surəsinin ٣-cü, Rəʾd surəsinin ٥-ci və Qaf surəsinin ١٥-ci ayələrinə istinad edirlər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İmamiyyə məzhəbinin ilahi sifətlər barədə olan baxışı necədir?
٢. İmamiyyə məzhəbinin cəbr və ixtiyar barədə olan nəzərini izah edin.
٣. İmamiyyənin ibadi tövhid barədə olan baxışı nədən ibarətdir?
٤. İmamiyyə ardıcılları Allahın ədalətli olmasını necə sübuta yetirirlər?
٥. Onlar nə üçün peyğəmbərləri günahsız hesab edirlər?
٦. İmamiyyənin imamət barədə olan baxışı necədir?
٧. Peyğəmbərin (s) özündən sonra canişin təʾyin etdiyi imamların adını çəkin.

## QIRX ALTINCI DƏRS

İmamiyyə məzhəbinin özünə xas olan əqidələri hansılardır?

## *İMAMİYYƏ ƏQİDƏSİ(٢)*

Bu dərsimizdə İmamiyyə məzhəbinin əqidə, nəzər və təfəkkür-tərzi barədə apardığımız söhbəti davam etdirəcək, onlara qarşı irəli sürülən iradlar barədə araşdırmalar aparacağıq.

### ١. *BƏDA*

Şiəliyin «Bəda»ya olan e᾿tiqadı bir çoxlarının e᾿tirazına səbəb olmuşdur. Onların fikrincə, «Bəda» – Allahın insanları bir şeyə əmr etməsi, sonradan onu ayrı cür düşünərək digər bir şəkildə buyurmasıdır. Belə bir e᾿tiqad şübhəsiz ki, küfr və şirkdir. Çünki, Allahın öz nəzərini dəyişməsini qəbul etmək, Ona bir növ nöqsan və çatışmazlığı aid etmək deməkdir.

İmamiyyə alimləri buna cavab olaraq deyirlər: «Bəda» - insan barədə işlənilərsə, hər hansı bir şəxsin əvvəllər e᾿tiqadı olmadığı bir şey barədə nəzər verib, sonradan yeni bir baxışa yiyələnməsinə deyilir. Bir sözlə, hər hansı bir şəxsin yeni mə᾿lumat əldə etdiyi və ya təfəkkür-tərzində dəyişikliklər yarandığı üçün nəzərdə tutduğu şeydən yayınmasına aid olunur. Hətta nəzərdə tutduğu əvvəlki işin xeyirli olmadığını başa düşüb ilk rə᾿yin əsasında yerinə yetirdiyindən peşman olsa da.

Allah-taalaya gəldikdə isə, burada «Bəda»nın rə᾿y və nəzərin dəyişilmə mə᾿nasını daşıması qeyri-mümkündür. Çünki belə bir tərzi-təfəkkür cəhl və çatışmazlığı Allaha aid etməkdən irəli gəlir. İmamiyyə şiələri isə bu fərziyyəni qətiyyətlə rədd edirlər.

İmam Cə᾿fər Sadiq (ə) buyurur: Bədanı Allaha aid edib onu «rə᾿yin dəyişməsi» kimi yə᾿ni, «Allah gördüyü işdən peşman olmuşdur» kimi mə᾿nalandıran şəxslər küfr etmişlər.

Həmçinin buyurur: «Allah-taala dünən bilmədiyi şeyi bu gün başa düşmüşdür» deyən şəxslərə nifrət edirəm.

İmamlardan gəlib çatan digər rəvayətlər də belə bir yanlış tərzi-təfəkkürlə tam ziddiyyət təşkil edir.

**İmamiyyə alimləri bu kimi rəvayətlərin izahında deyirlər: «Bəda» deyildikdə, Rə᾽d surəsinin ٣٩-cu ayəsindəki «məhv və sabitlik» nəzərdə tutulur. Orada buyurulur:**

«Allah [həmin kitabda] istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar [bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya onu olduğu kimi saxlayar]. Kitabın əsli [lövhi-məhfuz] Onun yanındadır.»

Yə᾽ni, Allah-taala hər hansı bir mətləbi peyğəmbərinin və ya onun canişininin vasitəsilə camaata aşkar etdikdən sonra, şərait dəyişildiyi və ya məsləhət ayrı cür olduğu üçün bu dəfə onun yerinə başqa bir şeyə hökm verir. İbrahim Peyğəmbərin oğlu İsmailin əhvalatını buna misal çəkmək olar: İbrahim peyğəmbər yuxuda oğlunu qurban etməli olduğunu gördükdə, tə᾽xirə salmadan ilahi hökmü icra etmək qərarına gəlir. Lakin Allah-taala onun qurban kəsilməsini əsla istəmirdi. Sadəcə olaraq, Ona iman gətirmiş həqiqi təqva sahiblərinin [yə᾽ni həzrət İbrahimin camaata] Onun qarşısında təslim olmalarını göstərmək istəyirdi.

İmam Sadiq (ə)-ın öz oğlu barədə dedikləri də məhz bu mətləbə dəlalət edir. Yə᾽ni, əvvəl hamı İsmailin imam tə᾽yin olacağını düşünürdü, lakin onun imam olmayacağı mə᾽lum olsun deyə, atasının sağlığında Allah-taala onun dünyasını dəyişdirdi. İslam dininin zühur etməsi ilə əvvəlki dinlərin hökm və qanunlarının qüvvədən düşməsini (nəsx olmasını) də buna misal çəkmək olar. Allah-taala nəsx olunmuş hökmlərin bəyanında insanlar üçün müəyyən mənafelər nəzərdə tutmuşdu ki, onlar aradan getdikdən sonra, verilmiş ilk hökm növbəti hökmlə nəsx olaraq dəyişdirilmişdir.

## ٢. *İMAMLARIN İSMƏTİ*

İmamiyyə məzhəbinə qarşı söylənilən digər iradlardan biri də onların imamları mə᾽sum və günahsız hesab etmələridir. İmamiyyə alimləri bu irada cavab olaraq deyirlər: İmam (şəriət gətirməsə də,) peyğəmbərlər tək şəriətin qoruyucusu və onun keşiyində duran mə᾽sum şəxsə deyilir. Bunun üçün də onlar peyğəmbərlər kimi mə᾽sum və günahsız olmalıdırlar. İlahi hökmlərin təbliğində nə səhvə, nə də unutqanlığa yol verər, eləcə də heç vaxt günaha düçar olmazlar. Əvvəla ona görə ki, camaat nümunə olaraq şər᾽i hökmləri onlardan öyrənir. Demək, əgər imam şər᾽i hökmlərin izahında səhv və ya unutqanlığa yol verərsə, camaat haqdan uzaqlaşaraq zəlalətə düçar ola bilər.

**İkincisi, imamlar xalqa nümunə olduqları üçün onlar öz həyatlarında azacıq da olsa, səhvə yol verməməlidirlər. İmamlar günaha düçar olduqları təqdirdə, bu iş başqaları üçün getdikcə adiləşəcək və təbii bir hala çevriləcəkdir. Əhzab surəsinin ٣٣-cü ayəsində imamların mə᾽sum olduqları barədə buyurulur:**

«...Siz ey [Peyğəmbərin] ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər.»

Ayədə istifadə olunun «rics» kəlməsi hər bir xoşagəlməz şeyə deyilir. Təbii ki, günah da onun ən bariz nümunəsidir. Bu səbəbdən də bütün günah və çatışmazlıqlar Peyğəmbər (s) Əhli-beytinin şə᾽nindən uzaqdır. İsmətin mə᾽nası da məhz budur.[١]

## ٣. *İLAHİLƏŞDİRMƏ (ĞÜLUVV)*

İmamiyyə tərəfdarlarına vurulan ittihamlardan biri də budur ki, guya onlar, Allahın imamların vücudunda təcəlli etdiyinə e᾽tiqad bəsləyir və onları ifrat dərəcədə ilahiləşdirirlər.

İmamiyyə alimləri imamları ilahiləşdirən «Ğulat» adlı dəstənin şiələr arasında olmasını qətiyyətlə təkzib etmişlər və yekdilliklə onların küfr etmələrinə dair fətva vermişlər. Misal olaraq, onlardan bir neçəsini qeyd edirik:

١. İmamiyyənin böyük alimlərindən biri olan Məhəmməd ibni Nö᾽man Əkbəri (Şeyx Mufid) deyir: «Zahirdə özlərini müsəlman kimi göstərən Ğulat dəstəsi Əmirəl-mö᾽minin Əlini (ə) və onun nəslindən olan imamları peyğəmbərlik məqamına ucaldır, ilahiləşdirir, olduqca fəzilətli adlarla vəsf edir və haqdan uzaq düşüb kafir olurlar. Əmirəl-mö᾽minin Əli (ə) onların od vurulub yandırılmasına, digər imamlar isə, islamdan xaric olub küfr etmələrinə dair hökm vermişlər.»[٢]

٢. İmamiyyənin görkəmli müasir alimlərindən olan Seyyid Kazim Yəzdi deyir: «Ğulat, Xəvaric və Nasibilərin murdar və nəcis olmalarında heç bir şəkk-şübhə yoxdur.»[٣]

٣. İmamiyyənin görkəmli alimlərindən olan mərhum Əbülqasim Xoyi bu barədə deyir: «Kafir o kəsə deyilir ki, ya heç bir dinə mənsub olmasın, ya islmadan qeyri bir dinə iman gətirsin və ya islamı qəbul edib onun bir hissəsini inkar etmiş olsun. Belə ki, onun bu inkarı bir növ peyğəmbərliyin inkar olunmasına qayıtsın. (Mə᾽adın inkarı da küfrə səbəb olur). Belə olduqda mürtəd, kafir, hərbi kafir, zimmi kafir, xəvaric, nasibi və ğulat arasında heç bir fərq yoxdur.[٤]

٤. Müasir dövrün görkəmli fiqh alimlərindən olan mərhum Ayətullah Xomeyni bu barədə deyir: «...Ğulata gəldikdə, bilmək lazımdır ki, onlar Allahın birliyini və ya peyğəmbərləri inkar edərlərsə, kafir hesab olunurlar.»[٥]

Bütün bunlarla yanaşı, digər İmamiyyə alimləri də ğulatın küfr etmələrinə dair fətvalar vermiş və öz risalələrində «Ər-rəddu ələl-ğulat» adlı ayrıca bir fəsl yazmışlar. Yunis ibni Əbdürrəhman, Əli ibni Məhziyar, Fəzl ibni Şazan,

---

[١] Həmin mənbə.
[٢] Təshihul-e᾽tiqad / Şeyx Mufid.
[٣] Urvətul-vusqa / Yəzdi.
[٤] Minhacus-salihin; Xoyi.
[٥] Təhrirul-vəsilə/Xomeyni.

Məhəmməd ibni Həsən Səffar, Həsən ibni Əli ibni Fəzzal, Sə᾿d ibni Ubeydulla Əş᾿əri, İsmail ibni Əli Nobəxti, İshaq ibni Həsən ibni Bəkr, Məhəmməd ibni Əli Kəracəki və Məhəmməd ibni Həsən Cə᾿fərinin yazdıqları risalələri buna misal göstərmək olar.

## ٤. *RƏC᾿ƏT*

**İmamiyyə məzhəbi qiyamətdən əvvəl imam Mehdinin (ə.c.) zühur edərək yer üzərində islam dövlətini bərqərar etməsinə, digər imamların və onların sadiq tərəfdarlarının dünyaya qayıdıb bunu müşahidə etdikdən sonra yenidən dünyalarını dəyişmələrinə e᾿tiqad bəsləməkdə ittiham olunurlar.**

İmamiyyə məzhəbi ilə müxalif olan bə᾿zi firqələr belə bir e᾿tiqadı bə᾿zi dinlərdə mövcud olan «tənasüx*» əqidəsinə oxşatmışlar.

İmamiyyə alimləri tutulan irada belə cavab verirlər: Allahın qüdrəti ilə insanların vəfat etdikdən sonra yenidən dünyaya qayıtmasına Qur᾿anın bir neçə ayəsində işarə toxunulur. Bəqərə surəsinin ٥٥-٥٦, ٧٢-٧٣ və ٢٤٣-cü ayələrində Bəni-israildən olan bir dəstə şəxsin və başqalarının öldükdən sonra yenidən dirilməsini, Üzeyir peyğəmbərin yüz ildən sonra yenidən dirilməsini (Bəqərə-٢٥٩) və ölülərin İsa peyğəmbərin vasitəsi ilə yenidən dirilməsini (Ali-imran-٤٩) buna misal göstərmək olar. Demək, keçmiş dövrlərdə ölülərin Allahın izn və qüdrəti ilə dirilmələri mümkün olmuşsa, təbii olaraq, gələcəkdə də mümkün ola bilər və bu heç də Allahın istək və iradəsindən xaric deyildir. Lakin belə bir əqidənin «tənasüx»ə bənzədilməsi heç də düzgün sayılmır. Çünki, tənasüx bir şəxsin ruhunun öldükdən sonra başqa birisinin vücuduna daxil olmasına deyilir. Bir halda ki, rəc᾿ətdə ruh öz sahibinin bədəninə qayıdır və bu, islam və digər dinlər tərəfindən tamamilə qəbul olunmuş bir nəzəriyyədir. Çünki belə bir hal ən azı qiyamət günü müşahidə olunacaqdır. Yuxarıda qeyd olunan ayələrdə bunun yaşadığımız dünyada da baş verməsinin mümkünlüyü göstərilmişdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Bəda nədir?
٢. İmamiyyənin Bədaya olan baxışı nədən ibarətdir?
٣. İmamiyyə nə üçün imamları mə᾿sum hesab edir?
٤. Ğuluvv nədir və İmamiyyənin onlara olan baxışı necədir?
٥. Qur᾿an ayələrindən istifadə edərək, deyin görək rəc᾿ət mümkündürmü?

# QIRX YEDDİNCİ DƏRS

İmamiyyə məzhəbinin əqidə üsulları kimlər tərəfindən meydana gəlmişdir?

## *İMAMİYYƏNİN MƏŞHUR KƏLAM ALİMLƏRİ*

Əvvəlki dərslərimizdə qeyd etdik ki, İmamiyyə şiələri öz əqidə üsullarını Peyğəmbər (s) sülaləsi olan imamlardan, onlar da öz növbəsində həzrət Rəsuli-əkrəmdən əxz etmişlər. İmamiyyə alimləri imamlardan əqidə əsaslarını təşkil edən onlarla hədis və rəvayət nəql etmişlər. Bu məzmunda nəql olunmuş hədislər tövhid və əqlin əqidəvi anlayışlarda ifa etdiyi roldan başlayaraq, cəbr və ixtiyar, qəza və qədər, peyğəmbərlik, məʾad və s. mövzuları əhatə edir. Bu hədislər həm ayrı-ayrı məcmuələr şəklində, həm də İmamiyyə alimlərinin yazdığı kitablarda dərc edilmişdir.

Şiə alimləri imamların dövründə onların kəlami, fiqhi məsələlərə dair nəql etdikləri hədislərə daha çox diqqət yetirər, fikir mübadiləsinə və yeni nəzəriyyə irəli sürməyə çox az yer verərmişlər. Bəʾziləri isə imamlardan təʾlim alaraq digər firqələrin alimləri ilə elmi mübahisələr də aparmışlar. Bu kimi mübahisələrdən bəʾziləri kitab halına salınaraq müasir dövrə də gəlib çatmışdır. İmamiyyə məzhəbinin ١٢-ci imamı qeybə çəkildikdən sonra isə, şiə alimləri kəlami bəhslərə qoşularaq, imamların nəzərlərindən istifadə etməklə ortaya çıxan şübhə və sualların aradan qaldırılmasında böyük səʾylər göstərmişlər. Onlar imamlardan sonrakı dövrlərdə yaranmış firqələrin irəli sürdükləri əsassız nəzəriyyələrə tutarlı cavablar verərək onlardan bəʾzilərini rədd etmişlər. Unutmamalıyıq ki, on dörd əsr ərzində islam maarifi sahəsində yazılmış elmi əsərlərin böyük bir hissəsi şiə alimlərinin payına düşür. Bu dövrdə digər firqələr də islam svilizasiyasının daha kamil şəkildə formalaşmasında böyük rol oynamışlar.

Bu dərsimizdə İmamiyyə məzhəbinin bir neçə kəlam alimi barədə söhbət açacağıq. Bütün sahələrdə fəaliyyət göstərmiş alimlərə gəldikdə isə, bu barədə yazılmış ayrı-ayrı kitablara müraciət etmək lazımdır. Burada adları çəkilən alimlər isə kəlam elminin meydana gəlib geniş vüsʾət tapmasında fəaliyyət göstərmiş ilk şəxsiyyətlərdir.

١. Zürarət ibni Əʾyun; İmamiyyə məzhəbinin görkəmli fiqh, hədis və kəlam alimlərindən biri olmuşdur. Hicrətin ikinci əsrində yaşamış bu dahi şəxsiyyət haqda İbni Nədim özünün «Əl-fehrest» adlı kitabında yazır: «Zürarə şiə aləminin

fiqh, hədis və kəlam sahələrinin ən böyük alimi olmuşdur. O, «istitaət və cəbr» kitabının müəllifidir.

٢. «Mu᾽minut-taq» ləqəbi ilə məşhur olan Məhəmməd ibni Əli ibni Nö᾽man Bucəlli; Hicrətin ٢-ci əsrində yaşamışdır. Güclü hafizəyə malik olmuş və digər firqələrlə apardığı müzakirələrdə əsaslı dəlillərlə onlara tutarlı cavablar vermişdir. «Əl-imamə», «Əl-mə᾽rifə», «Ər-rəddu əla Mu᾽təzilə fi imamətil-məfzul», «Əl-ihticac fi imaməti Əmirəl-mu᾽minin Əli», «Məcalis məə Əbi Hənifə vəl-murciə» adlı əsərlər onun kəlam sahəsində yazdığı kitablardandır.

٣. Hişam ibni Həkəm; (Hicrətin ١٩٩-cu ilində vəfat etmişdir). ٧-ci imamın səhabələrindən olmuş Hişam ibni Həkəm ٢-ci əsrin görkəmli kəlam alimlərindən sayılır. Qeyri-adi iste᾽dada malik olduğu üçün daim mübahisə etdiyi şəxslərə qalib gəlirdi. Hişam ibni Həkəm üsulidində dərin düşüncəyə malik idi. Onun Mö᾽təzilə ilə apardığı elmi mübahisələr və onlara qələbə çalması elm tarixinin maraqlı səhifələrindəndir. (Əl-miləl vən-nihəl/Şəhristani; ١-ci cild).

Rical alimlərindən olan Nəcaşi öz kitabında onun yazdığı ٣٠ kitabın adını çəkir. «Ər-rəddu ələz-zənadiqə», «Əl imamə», «Ət-tohid», «İxtilafun-nas fil imamə», «Əl-cəbr vəl-qədr», «Ər-rəddu ələl-mö᾽təzilə», «Əl-məcalis fit-tohid», «Əl-məcalis fil-imamə» və başqalarının adını çəkmək olar.

٤. Fəzl ibni Şazan Nişapuri; (Hicrətin ٢٦١-ci ilində vəfat etmişdir).

٣-cü əsrin görkəmli fiqh və kəlam alimlərindən olmuşdur. İmam Riza (ə) imam Məhəmməd Təqi (ə) və imam Əliyyən Nəqidən (ə) hədis nəql etmişdir. Kəlami bəhslərə aid onlarla kitab yazmışdır. Nəcaşi öz kitabında onlardan bir neçəsinin adını çəkmişdir. «Ər-rəddu ələs-sənəviyyə», «Ər-rəddu ələl həşəviyyə», «Ət-tohid fi kitabulla», «Əl və᾽d vəl vəid», «Mihnətul islam», «Ər-rəddu ələl Murciə», «Ər-rəddu ələl-qəramitə», «Mə᾽rifətul huda fiz-zilalə» və başqalarını buna misal çəkmək olar.

٥. Həsən ibni Musa Nöbəxti; (Hicrətin ٣١٠-cu ilində vəfat etmişdir).

«Firəquş-şiə» adlı kitabın müəllifidir. Üçüncü əsrin axırları-dördüncü əsrin əvvəllərinin məşhur kəlam alimlərindən olmuşdur. Yazdığı kitablardan «Əl-came fil-imamə», «Ət-tohidul-kəbir», «Ət-tənziyə və zikrun mutəşabuhul-Qur᾽an», «Ər-rəddu ələl-mənziləti bəynə mənzilətəyn fil-vəid», «Ər-rəddu ələl-mucəssəmə», «Ər-rəddu ələl-ğulat» və başqalarının adını çəkmək olar.

٦. Məhəmməd ibni Əli ibni Hüseyn; Şeyx Səduq ləqəbi ilə məşhur olmuşdur. Vəfat tarixi hicrətin ٣٨١-ci ilinə təsadüf edir. Şiə məzhəbinin görkəmli alimlərindən biri olmuşdur. Hədis elmində daha çox şöhrət qazana bilmişdir. Kəlam elmində də bir neçə kitab yazmışdır. Onlardan «Ət-tohid», «İkmalud-din və itmamun-ne᾽mə», «Əl-e᾽tiqadat», «İləluş-şərae», «Ən-nübuvvə», «Dəlailul-Əimmə və mö᾽cəzatihim», «İsbatul-vəsiyyə», «İsbatun-nəssi ələl-əimmə» və s.

kitabların adını çəkmək olar. Müəllifin «Ət-tohid» kitabı İmamiyyə məzhəbinin kəlam elmində əsas mənbə hesab olunan ən mö`təbər kitablardan biridir.

٧. Əbu Əbdullah Məhəmməd ibni Nö`man; Şeyx Mufid ləqəbi ilə məşhur olmuşdur. Vəfat tarixi Hicrətin ٤١٣-cü ilinə təsadüf edir. İbni Nədim onun barəsində deyir: Kəlam elmində özünəməxsus mövqe sahibidir. Olduqca güclü hafizə və iste`dada malik olmuşdur. Onunla görüşdükdə nə dərcədə fəzilətli bir şəxs olduğunun şahidi oldum. Yazdığı kitablardan «Əvailul-məqalat minəl-məzahib vəl-muxtarat» və «Təshihul e`tiqadat»ın adını çəkmək olar.

٨. Əbül Qasim Əli ibni Hüseyn ibni Musa Musəvi; Seyyid Murtəza və Ələmul-huda ləqəbi ilə məşhur olmuşdur. Vəfat tarixi ٤٣٦-cı ilə təsadüf edir. Beşinci əsrin təkcə şiə məzhəbində deyil, digər firqələr arasında da şöhrət tapmış görkəmli alimlərdən olmuşdur.

Tanınmış şair Əbul Ə`la Muərri ilk dəfə Seyyid Murtəza barədə deyilənləri eşitdikdə, yaxından tanış olmaq məqsədilə onun evinə gəlir. Evinə qayıtdıqdan sonra ondan Seyyid Murtəzanın necə şəxsiyyət olduğunu soruşduqda, öz təəssüratlarını bu rübai ilə bəyan edir: Məzmunu:

Bütün eyb və nöqsanların ondan uzaq olduğunu gördüm. Əgər yanına gəlsəydin bütün insanları bir nəfərin vücudunda, ruzigarı bir saatın içində və bütün aləmi bir evdə müşahidə edərdin.

«Əşşafi» (Qazi Əbdül Cəbbarın «Muğni» adlı kitabına tənqid və cavab olaraq yazılmışdır.), «İnqazul-bəşər minəl qəzai vəl-qədər», «Tənzihul-ənbiya» və «Əz-zəxirətu fi üsuliddin» kitabları onun əsərlərindəndir.

**٩. Məhəmməd ibni Həsən Tusi; Şeyx Tusi adı ilə məşhur olmuşdur. Vəfat tarixi Hicrətin ٤٦٠-cı ilinə təsadüf edir. İmamiyyə alimləri arasında elə bir mövqeyə malik idi ki, bir çoxları ona Şeyxut-taifə ləqəbini vermişdilər. Şiə məzhəbinin ən mö`təbər hesab etdiyi dörd hədis kitabının ikisi yə`ni, «Ət-təhzib» və «Əl-istibsar» kitabları onun payına düşür. «Təmhidul-üsul», «Əl-ğəybə» və «Əl-iqtisad fil-e`tiqad» adlı kitablar da onun yazıb-yaratdığı əsərlərdəndir.**

١٠. Məhəmməd ibni Məhəmməd ibni Həsən Tusi; Daha çox Xacə Nəsrəddin Tusi kimi tanınırdı. İmamiyyə məzhəbinin ٧-ci əsrdə yaşamış görkəmli alimlərindən olmuşdur. Yazıb-yaratdığı əsərlər hal-hazırda təhsil ocaqlarında şiə alimləri tərəfindən geniş istifadə olunur. Xacə Nəsrəddin Tusi fiqh, təfsir, əxlaq kimi dini elmlərlə yanaşı tibb, riyaziyyat, astronomiya və s. elmlərdə də böyük nailiyyətlər əldə etmişdir. Marağa rəsədxanası da məhz onun adı ilə bağlıdır. Monqolların işğal etdikləri məntəqələrdə minlərlə günahsız insanın qanını töküb ölkə və şəhərlərini xarabalıqlara çevirdikləri bir dövrdə, Xacə qaniçən hakimlərin cinayətlərinin qarşısını almaqda böyük rol oynamışdır. «Təcridul-etiqad», «Qəvaidul-əqaid», «Fusulun-nəsiriyyə», «Təlxisul-

muhəssəl» və «Cəbr və ixtiyar» barədə yazılmış risalə Şeyx Tusinin məşhur elmi əsərlərindən hesab olunur.

١١. Şeyx Kəmaluddin Meysəm ibni Əli ibni Meysəm Bəhrani; Vəfat tarixi Hicrətin ٦٩٩-cu ilinə təsadüf edir. ٧-ci əsrin görkəmli kəlam və fəlsəfə alimlərindən biri olmuş və «Qəvaidul-məram fil-kəlam» adlı kitabı yazmışdır.

١٢. Şeyx Cəmaluddin Həsən ibni Yusif ibni Əli ibni Mutəhhər. Əllamə Hilli kimi məşhur olmuşdur. Vəfat tarixi Hicrətin ١٢٦-cı ilinə təsadüf edir. Yazdığı əsərlərdən «Nəzmul-bərahin fi üsuliddin», «Əbhasul-mufidə fi təhsilil-əqidə», «Nəhayətul-məram fi elmil-kəlam», «Kəşful-murad fi şərhi təcridil-e᾽tiqad», «Ənvarul-mələkut fi şərhil-yaqut», «Kəşful-həqq və nəhcul-sidq», «Minhacul-kəraməti fi isbatil-imamə», «Əl-babul-hadi əşr», «Risalətu fi xulqul-ə᾽mal», «Nəhcul-mustərşidinə fi üsuliddin» və başqalarının adını çəkmək olar.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İmamiyyə alimlərinin qeybətdən əvvəlki və sonrakı təbliğ üsullarındakı fərq nədən ibarət olmuşdur?

٢. Zürarət ibni Ə᾽yunu və Mu᾽minut-taqın kim olduqlarını xülasə şəkildə bəyan edin.

٣. Şeyx Mufid və Şeyx Səduq kimlərin ləqəbi olmuşdur?

٤. «Ər-rəd ələz-zənadiqə», «Ər-rəddu ələl-həşəviyyə», «Əş-şafi», «Qəvaidul-məram» kim tərəfindən yazılmışdır?

# QIRX SƏKKİZİNCİ DƏRS

Kisaniyyə hansı firqəyə deyilir və onların əqidəsi necə olmuşdur?
Vaqifiyyə kimlərə deyilirdi?
Ələvilər kimlərdir?

## *DİGƏR ŞİƏ FİRQƏLƏRİ*

Bu dərsimizdə haqqında söhbət açmadığımız üç firqə - «Kisaniyyə», «Vaqifiyyə» və «Ələvilər» barədə qısa şəkildə söhbət danışacağıq. Bu üç firqədən yalnız biri yə`ni, Ələvilər indi də Türkiyə və Suriyanın bə`zi məntəqələrində öz fəaliyyətlərini davam etdirirlər. Digər iki firqədən isə heç bir əsər-əlamət qalmamışdır.

### ١. *KİSANİYYƏ*

Kisaniyyənin nə zaman meydana gəlməsi barədə tarixçilər arasında fikir ayrılığı vardır. Üçüncü əsrin görkəmli alimlərindən olan, şiə firqələri barədə ilk dəfə olaraq ayrıca kitab yazan Həsən ibni Musa Növbəxti özünün «Firəquş-şiə» adlı əsərində Kisaniyyə barədə iki yerdə (bir-birindən fərqli olan) mə`lumat verir. Birinci yerdə, Əli ibni Əbu Talibin şəhadəti barədə söhbət açdıqdan sonra deyir: «Əli qətlə yetirildikdən sonra bə`ziləri hələ də onun rəhbərliyinə tabe olaraq, Allah və peyğəmbər tərəfindən onun imamətini vacib hesab edirdilər. Belə bir əqidədə olanlar üç hissəyə ayrıldılar. Onlardan biri Məhəmməd ibni Hənəfiyyənin imamətini qəbul edərək deyirdilər: Bəsrədə (Cəməl döyüşündə) orduya rəhbərlik etdiyi üçün imamət ona çatmalıdır. Sonralar bu dəstə Kisaniyyə adlandırıldı. Çünki onlara rəhbərlik edən Muxtar ibni Əbi Ubeydə Səqəfi, Kisan ləqəbini daşıyırdı.

Başqa bir yerdə Hüseyn ibni Əlinin şəhadəti barədə söhbət açdıqdan sonra deyir: Bə`ziləri Məhəmməd ibni Hənəfiyyəni imam olaraq qəbul etdi. Onlar belə bir əqidədə idilər ki, Həsən və Hüseyndən sonra Əmirəl-mö`minin Əliyə (ə) ondan yaxın bir şəxs olmamışdır və o, onlardan sonra imamətə hamıdan daha layiq idi. Necə ki, Hüseyn qardaşı Həsəndən sonra bu məqama hamıdan artıq ləyaqətli idi. Bu səbəbdən də Məhəmməd ibni Hənəfiyyə Hüseyndən sonra imam olmalıdır.

Növbəxtinin verdiyi mə`lumatlardan belə bir nəticəyə gəlmək olur ki, Kisaniyyə Məhəmməd ibni Hənəfiyyənin imamətini qəbul etmişdir. Lakin bu cərəyanın Əli ibni Əbu Talibin və ya Hüseyn ibni Əlinin şəhadətindən dərhal sonra baş verdiyi bir o qədər də dəqiq mə`lum deyildir. Onun «Firəquş-şiə» adlı kitabından bu sualın cavabı aydınlaşmır.

Firqənin tə`sis olunmasında nəzərə çarpan başqa bir ixtilaf bu cərəyanın başqa-başqa şəxslər tərəfindən tə`sis olunmasından ibarətdir. Növbəxti «Kisaniyyə»nin Muxtar ibni Əbi Ubeydə tərəfindən tə`sis olunduğunu göstərdiyi bir halda, Şəhristani onun Əmirəl-mö`minin Əli İbni Əbu Talibin qulluqçusu və Məhəmməd ibni Hənəfiyyədən dərs almış «Kisan» adlı şəxs tərəfindən yaradıldığını bildirir. Muxtarın tərəfdarlarını isə Kisaniyyənin firqələrindən biri hesab edir. Lakin heç bir tarixi sənəddə Əlinin (ə) Muxtar adlı qulluqçusu olduğu göstərilmir və o həzrət şəhid olduqda Muxtar ibni Ubeydə elə bir ictimai-siyasi mövqeyə də malik deyildi. Əlinin (ə) qulluqçusuna gəldikdə isə, bütün tarixi sənədlər bu şəxsin Qənbər olduğu göstərilir.

Göründüyü kimi Növbəxtinin verdiyi ikinci mə`lumat yə`ni, Hüseyn ibni Əli şəhid olduqdan sonra şiələrin bir qisminin Məhəmməd Hənəfiyyəyə meyl etmələri həqiqətə daha çox yaxındır.

Digər tərəfdən də Məhəmməd ibni Hənəfiyyənin şəxsiyyətinə nəzər saldıqda, onun həddindən artıq pəhrizkar və təqva sahibi olduğunun, bir cavan kimi həm atasının, həm də başqalarının e`timadını qazana bilməsinin şahidi oluruq. Bu səbəbdən də həm tarixi sənədlərə, həm də onun şəxsiyyətinə diqqət yetirməklə, belə bir insanın imamət iddiası etməsinə inanmaq olmur.

Kisaniyyə barədə verilən mə`lumatlar bir-biri ilə o qədər ziddiyyət təşkil edir ki, hətta bə`ziləri onların qondarma bir firqə olduğunu da təsəvvür etmişlər.[١]

Lakin Kisaniyyənin Məhəmməd ibni Hənəfiyyəni imam kimi qəbul etmələri göstərir ki, bu, onların əqidələrinin əsas hissəsini təşkil etmişdir. Tarixi mənbələrdə Məhəmməd vəfat etdikdən sonra onların bir neçə hissəyə bölündüyü göstərilir. Onlardan bə`ziləri Məhəmməd ibni Hənəfiyyənin ölmədiyini, Əli ibni Əbu Talibin canişini olaraq, Məkkə ilə Mədinə arasında yerləşən Rəzəvi dağında sakin olduğunu və zühur edərək yer üzündə haqq-ədaləti bərqərar edəcəyini hesab etmişlər. Bə`ziləri ifrata vararaq onu ilahiləşdirmiş, bə`ziləri isə vəfat etdiyinə inanaraq ondan sonra oğlu Əbu Haşim Əbdullaha üz tutmuşdur ki, sonradan Haşimiyyə adlandırılmışlar.

---

[١] Məzhəbu ibtədəəthəs-siyasəti fil-islam/Əbdül vahid Ənsari

## ٢. VAQİFİYYƏ

Növbəxti «Firəquş-şiə» kitabında deyir: Yeddinci imam Musa ibni Cəˋfər Kazim vəfat etdikdən sonra şiələr həbs olunaraq bir daha Harun Ər-rəşidin zindanına atıldı və tərəfdarları arasında ixtilaf yarandığı üçün onlar beş dəstəyə bölündülər. Birinci dəstə imam Kazimin (ə) «Sindi be-şahək» zindanında vəfat etdiyini və ondan sonra oğlu imam Əli ibni Musa Rizanın (ə) imamətini qəbul etdi. İkinci dəstə imam Musa ibni Cəˋfərin ölmədiyini və heç vaxt ölməyəcəyini, yer üzü zülm və ədalətsizliklə dolduqdan sonra zühur edərək haqq-ədaləti bərqərar edəcəyini, üçüncü dəstə isə onun qaim olduğunu və vəfat etdiyini, lakin yenidən qayıdıb gizli olduğunu hesab edirlər. Tərəfdarları məxfi şəkildə onunla görüşür, onlara haram və halala dair hökmlər verir. Dördüncü dəstə imamın vəfat etdiyini qəbul etmiş, lakin yenidən İsa ibni Məryəm kimi qayıdıb qiyam edərək yer üzündə haqq-ədaləti bərqərar edəcəyini bildirmişlər. Beşinci dəstə belə bir əqidədə olmuşdur ki, imam Kazim (ə) vəfat etmişdir, lakin Allah-taala onu göylərə qaldırmış və qiyamət günü yenidən dünyaya qaytaracaqdır. Birinci dəstədən başqa qalan dörd dəstə imam Musa ibni Cəˋfərin imaməti üzərində dayandıqları və onun qeybə çəkildiyini güman etdikləri üçün «Vaqifiyyə» (dayananlar) və ya«Vaqifə» adlandırılmışlar.

Əbül Həsən Əşˋəri özünün «Məqalatul-islamiyyin», «Əbdül Qahir Bağdadi» «Əl-fərqu beynəl-firəq» və Şəhristani «Əl-miləl vən-nihəl» adlı kitablarında bu nəzəriyyəni irəli sürmüşlər.

## ٣. ƏLƏVİLƏR

Ələvilər şiə firqələrindən biri hesab olunur və hal-hazırda Suriya, Livan və Türkiyənin bəˋzi nahiyələrində yaşayırlar. On üç nəfərdən ibarət olan Ələvi alimlərinin Hicri ١٣٩٢/٨/٢٤ tarixdə verdikləri bəyanata nəzər saldıqda, bu həqiqətin şahidi oluruq ki, şərˋi hökmlər və üsulidin məsələləri baxımından ələvilərlə imamiyyə şiələri arasında heç bir fərq yoxdur. Eyni zamanda bəˋzi imamiyyə alimləri də belə bir eˋtiqadın doğruluğuna dair şəhadət vermişlər. Bu yaxınlarda dünyasını dəyişmiş Livanın görkəmli fiqh alimlərindən olan Şeyx Məhəmməd Cavad Muğniyə Ələvi alimləri ilə apardığı müzakirə və elmi məclislərdən sonra onların əqidələrinin imamiyyə şiələri ilə tamamilə müvafiq olduğunu bir daha eˋtiraf etmiş və buna şəhadət vermişdir.[١]

Lakin burada belə bir sual meydana gəlir. Əgər Ələvilərin əqidəsi imamiyyə şiələri ilə tam uyğun gəlirsə, onda nə üçün onlar müstəqil firqə hesab olunurlar?

---

١ Əl-ələviyyun fi dairətuz-zovˋ/Əli Əzizul İbrahim.

Bu sual müxtəlif məzhəb və dinlər barədə kitab yazmış bir çox alimlərin marağını özünə cəlb etmişdir. Onlar daim sə`y etmişlər ki, Ələviləri «Nusəyriyyə» firqəsi ilə eyniləşdirsinlər.

Nusəyriyyə Hicrətin beşinci əsrində İbni Nusəyr adlı şəxs tərəfindən meydana gəlmişdir. O özünü Ələvi kimi qələmə verdiyi üçün son dövrün ələvi alimləri də özlərini onun davamçıları hesab etmişlər. Lakin Ələvilər Nusəyriyyənin nəzəriyyələrini, əqidə və e`tiqadlarının heç birini qəbul etmədikləri üçün onları Nusəyriyyəyə aid etmək olmaz. Çünki Nusəyriyyə ١٢-ci imamın imamətini qəbul etmir. Əli ibni Əbu Talibə gəldikdə isə, bu işdə də ifrata vararaq o həzrəti ilahiləşdirmişlər. Həmçinin İbni Mülcəmi lə`nətləyənlərə qarşı çıxaraq, onu həzrət Əlinin maddi aləmlə olan əlaqəsini kəsib, əbədi həyata qovuşdurduğu üçün çox sevirlər. Bütün bunlarla yanaşı, tənasüxə e`tiqad bəsləyib şərabı halal hesab etmişlər.

Necə olursa-olsun, Ələviləri Nusəyriyyə əqidəsini rədd, şiə əqidəsini isə iqrar etdikləri üçün ayrı bir firqə deyil, məhz imamiyyə firqəsindən hesab etmək lazımdır.[١]

Ələvilərin belə adlandırılmasına gəldikdə isə, deyə bilərik ki, bəlkə də onlar Abbasi xəlifəsinə qarşı çıxmaları və apardıqları uzun sürən mübarizədən sonra dövlət qurmağa nail olmalarına görə bu adla məşhur olmuşlar.

Hələbdə təşkil olunmuş Həmdanilər və Təbəristanda tə`sis edilən Ələvi dövlətini buna misal çəkmək olar. Deməli, Abbasilər öz şiə müxaliflərini Ələvi kimi tanıdıqları üçün bu ad sonralar onlara da verilmişdir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Kisaniyyənin meydana gəlməsi barədə nə kimi fikirlər irəli sürülmüşdür?
٢. Kisainyyə kimlərə deyilir?
٣. Vaqifiyyə nə üçün belə adlandırılmışdır?
٤. Vaqifiyyədən ayrılmış firqələrin əqidələrini bəyan edin.
٥. «Ələvilərin» əqidəsi nədən ibarətdir?
٦. Bə`ziləri Ələviləri nə üçün Nusəyriyyə adlandırırlar?
٧. Ələvilər ilə Nusəyriyyə arasında nə kimi fərqlər vardır?

---

١ Əl-ələviyyun min darirətuz-zov`, Əli əziz İbrahim/Ələviyyun fit-tarix – Məhəmməd Əhməd Əli.

# BEŞİNCİ FƏSİL

## QIRX DOQQUZUNCU DƏRS

Şeyxiyyə firqəsi necə meydana gəlmişdir?
Şeyxiyyə firqəsinin əqidəsi nədən ibarətdir?

## *ŞEYXİYYƏ FİRQƏSİNİN YARANMASI*

Şeyxiyyə firqəsi şiə məzhəbindən ayrılan və Şeyx Əhməd İhsai tərəfindən tə᾽sis olunmuş kiçik cərəyanlardan biridir.

Şeyx Əhməd hicrətin ١١٦٦-cı ilində İran körfəzinin qərbində, yə᾽ni Ərəbistan yarmadasının Qətif məntəqəsində yerləşən «İhsa» və ya «Lihsa» şəhərində dünyaya gəlmişdir. O, ١١٨٦-cı ildə elm və təhsil əldə etmək məqsədilə Kərbəlaya gəlmiş və orada məşhur şiə alimlərindən olan «Ağa Baqir Behbəhani», «Seyyid Mehdi Bəhrul-ulum», «Şeyx Cə᾽fər Kaşiful-Ğita» və bu kimi digər görkəmli şəxsiyyətlərdən dərs almışdır. Fiqh, üsul və hədis elmləri ilə yanaşı tibb, astronomiya, riyaziyyat və bu kimi digər dəqiq elmlərə də yiyələnmişdir. Şeyx İhsai hicri tarixi ilə ١٢٢١-ci ildə İrana gələrkən «Fətəli Şah» tərəfindən səmimiyyətlə qarşılanır, daha sonra Fətəli Şahın oğlu «Məhəmməd Əli Mirzə»nin də᾽vəti ilə Kermana gələrək üç il orada qalır. ١٢٤١-ci ildə ziyarət məqsədilə Məkkəyə gedir, qayıtdıqda Mədinə yolunda dünyasını dəyişir və elə oradaca dəfn olunur.

Şeyx Məhəmməd İranda olduğu illər ərzində bir çox şəhərlərə səfər edir. Yiyələndiyi elmlərin sayəsində böyük bir kütlənin diqqətini özünə cəlb edə bilir.

Bu müddət ərzində ilk dəfə Qəzvin alimləri ilə görüşüb orada tədrisə başlayır. Lakin biruzə verdiyi əqidələrinin bə᾽zilərinə görə Şəhid Salis kimi tanınan Molla Məhəmməd Təqi Bərğani tərəfindən təkfir və ifşa olunur. Şəhid Salisin verdiyi fətva İran və İraq alimləri tərəfindən qəbul edilir. Şeyx Əhməd İhsainin ölümündən sonra şagirdi «Seyyid Kazim Rəşti» ustadının yerini tutur. O, Şeyx Əhməd Yəzd şəhərində olduğu illərdə ondan dərs almış və şeyxin qabaqcıl şagirdlərindən biri olmuşdur. Seyyid Kazim Kərbəlaya gedib orada ömrünün sonunadək Şeyxiyyə əqidəsinin təbliği ilə məşğul olur və hicrətin ١٢٥٩-cu ilində vəfat edir. Deyilənlərə görə o, Osmanlı hakimi Nəcib paşanın xəfiyyələri tərəfindən zəhərlənlərək qətlə yetirilmişdir. Onun özündən sonra iki şagirdi qalır. Onlardan biri, yə᾽ni Məhəmməd Kərim Kermani Şeyxiyyə firqəsinə rəhbərlik edir, digəri isə, yə᾽ni Məhəmməd Əli Şirazi ondan sonra «Babiyyə» firqəsini yaradır.

**Seyyid Kazim vəfat etdikdən sonra bir müddət canişinlik məsələsində ixtilaf meydana gəlir. Nəhayət, münasib ictimai mövqeyə malik olan Məhəmməd Kərim Xan Kermani firqəyə rəhbərliyi öz üzərinə götürür. Şagirdlər arasında rəğbət qazanmasına ilk növbədə onun müəllimi ilə səmimi münasibətdə olması, digər tərəfdən də Qacar şahlarına yaxın olması səbəb olmuşdur. Çünki Zəhirud-dövlə ləqəbi ilə məşhur olan atası İbrahim xan, Fətəli şahın həm əmisi**

**oğlu, həm kürəkəni, həm də Xorasan və Kerman vilayətinin valisi idi. O da Şeyx Əhmədlə səmimi münasibətdə olmuş və onun şahla görüşünün təşkil olunmasında mühüm rol oynamışdır. Qeyd etmək lazımdır ki, Şeyxiyyə firqəsinin əqidələrinin bir çoxu, o cümlədən «dörd bünövrə» əqidəsi Məhəmməd Kərim xanın uydurmaları olmuşdur.**

Məhəmməd Kərim xanın dövründə Şeyxiyyə firqəsinin mərkəzi Kerman şəhərində yerləşmişdir. Lakin o, öz təbliğatçılarını ətraf şəhərlərə də göndərirdi. Hicrətin ١٢٨٨-ci ilində vəfat etdikdən sonra oğlu «Hacı Məhəmməd Xan» onun canişini tə`yin olunsa da, iki əsaslı səbəbdən bu məsələ ətrafında ixtilaf meydana gəldi.

Əvvəla ona görə ki, oğlanları Hacı Rəhim, Hacı Zeynəlabidin, Məhəmməd xan və canişinlik arzusunda olan tərəfdarları arasında böyük ixtilaf və qarşıdurmalar meydana gəlmişdi. Bu səbəbdən də Hacı Kərim xanın ölümündən sonra Şeyxiyyə firqəsi bir neçə yerə bölündü.

Məhəmməd Baqir Xəndəq Abadinin adı ilə bağlı olan «Baqiriyyə» firqəsinin meydana gəlməsini buna misal çəkmək olar. O, əvvəllər Hacı Kərim Xanın Hindistandakı nümayəndəsi olsa da, sonralar Kerman şeyxiyyələrindən ayrılmışdı. Bu səbəbdən də onun tərəfdarları «Baqiriyyə» adlandırıldı.

«Azərbaycan Şeyxiyyələri» adlanan başqa bir firqə də Azərbaycanda meydana gəldi. Mirzə Şəfi Siqətul-islam Təbrizinin tərəfdarları olduqları üçün, bu firqə «Siqətul-islamiyyə» kimi məşhurlaşdı.

Şeyxiyyə firqəsinin «İhqaqiyyə» adlanan bir qolu da Kərbəlada meydana gəldi. Onlar Molla Baqir Üskuyinin tərəfdarları idilər. Yazdığı «İhqaqul-həqq və ibtalul-batil» adlı kitabında Məhəmməd Kərim Xanla müxalif olduğunu bildirdiyi üçün onun tərəfdarları «İhqaqiyyə» ləqəbi ilə şöhrət tapmağa başladı. Bu firqənin davamçıları Kərbəla, Küveyt və İran Azərbaycanında yerləşirlər.

## *ŞEYXİYYƏ FİRQƏSİNİN ƏQİDƏLƏRİ*

Şeyxiyyə firqəsi üsulidinin tövhid, nübuvvət, imamət və dörd bünövrədən ibarət olduğunu hesab edir. Göründüyü kimi, bu firqə qeyd olunan əvvəlinci üç məsələdə digərləri ilə həmfikirdir. Lakin onlar üsulidinə «dörd bünövrə» adlandırdıqları başqa bir əqidəni də əlavə etmişlər. Onların əqidəsinə görə, ədalət və məad ayrı-ayrılıqda təsəvvür olunmamalıdır. Çünki Allaha və Onun peyğəmbərinə iman gətirmək, bu iki şeyə iman gətirmək deməkdir. Belə ki, Allaha və Onun peyğəmbərinə e`tiqad bəsləməyin zəruriliyi Qur`ana iman gətirməyə səbəb olur. Hər iki mətləb yə`ni, ədalət və məad da öz növbəsində orada sübuta yetirilmişdir. Demək, Qur`ana e`tiqadı olan hər bir şəxsin təbii olaraq, ədalət və məada da e`tiqadı olacaqdır. Bütün bunlarla yanaşı, «ədalət» Allahın sübutiyyə sifətlərindən biridir. Tövhid bəhsində də Allahın sübutiyyə

sifətlərindən bəhs olunduğu üçün istər-istəməz orada ədalət barədə də söhbət açılır.

İslami dəstələrin bir çoxundan fərqli olaraq, Şeyxiyyə firqəsi məadın cismani olmasını qəbul etmir. Onların fikrincə, cism dağılaraq aradan getdikdən sonra yerdə qalan ünsür lətif bir cismdir ki, «cism huvə rəqləyali*» adlanır. Şeyx Əhməd İhsai deyir: İnsan iki cismə malikdir.

١. Zaman ünsürlərindən ibarət olan, həmçinin ərəz şəklində həqiqi cism üçün yaradılan bir varlıq. Bu, insanın gündəlik geyinib-çıxardığı paltara bənzəyir. İnsan vəfat etdikdən sonra fani olaraq aradan gedən də məhz həmin cismdir.

٢. Həqiqi cism: Bu, insan vücudu üçün yoğrulan və yaranan təbiətdən ibarətdir. Belə bir cismin zamanla heç bir bağlılığı yoxdur və o «hurqəlya*» aləminə aiddir. Bu səbəbdən də insan vəfat etdikdən sonra yaşadığı aləmdə qalır. Qiyamət günü də məhşərə həmin cism ilə gələcək, savab və əzab da məhz həmin cismə veriləcəkdir.

«Rukni rabe» (dörd bünövrə) də yalnız Şeyxiyyə firqəsinə aid olan bir əqidədir. Əlbəttə, belə bir əqidə Məhəmməd Kərim xan Kermani tərəfindən meydana gəlmişdir, çünki «Azərbaycan şeyxiyyələri» belə bir əqidəni qəbul etmirlər. Buna görə də yalnız Məhəmməd Kərim xanın tərəfdarları olan Kerman Şeyxiyyələrinə «Rukniyyə» yə`ni, dörd bünövrəyə e`tiqadı olanlar deyilirdi. Dörd bünövrə deyildikdə, imanı kamil olan şiə nəzərdə tutulur ki, mübəlliğ və birinci natiq adı ilə şiələrlə qeybdə olan imam arasında vasitə rolunu oynayır. Çünki o, arada heç bir vasitə olmadan şər`i hökmləri qeybdə olan imamdan alıb onu şiələrə təbliğ və bəyan edir.

Şiə alimlərinin bə`ziləri belə bir nəzər irəli sürmüşlər ki, dörd bünövrə deyildikdə, «təvəlla və təbərra» yə`ni, şiələrin füruidinin bir hissəsi hesab etdikləri - Əhli-beytin dostları ilə dost, düşmənləri ilə düşmən olmaq – nəzərdə tutulur. Şeyxiyyə ardıcılları isə həmin işə tə`kid olunsun deyə, onu müstəqil bir əqidə üsulu kimi qələmə verirlər.

Lakin bu nəzəriyyə bir o qədər də əsaslı və düzgün nəzərə çarpmır. Çünki dərsin əvvəlində qeyd etdik ki, Şeyxiyyə firqəsi yiyələndiyi əqidələrə görə, şiə alimləri tərəfindən küfr etməkdə ittiham olunmuşlar. Burada belə bir sual meydana gəlir. Onlar hansı əqidələrinə görə qeyd olunan hökm və fətvalara məruz qalmışlar? Tövhid, Ədalət, Nübuvvət, İmamət və Məad məsələlərində elə bir mühüm ixtilaf nəzərə çarpmır. Zamandan asılı olmayan cismə, təvəlla və təbərraya olan e`tiqada görə isə onların küfrə düçar olduqlarını güman etmək olmaz. Lakin böyük qeybət dövründə İmam Zamanla birbaşa əlaqədə olmaq və onun yer üzündə naibliyinə dair «dörd bünövrə» əqidəsinə verilən birinci tə`rif isə, imamiyyə məzhəbi tərəfindən qətiyyətlə rədd edilir və təbii ki, belə bir əqidəyə sahib olan hər bir şəxs küfrə düçar olmuşdur. Kamil şiə mə`nasını

daşıyan dörd bünövrə qeybdə olan imamla şiələr arasında vasitəçi olan Şeyxiyyə rəhbərlərinə verilən addır. Yə`ni, onlar özlərini imamla camaat arasında vasitəçi və şər`i hökmləri onlara çatdıran mübəlliğ hesab edirlər. Şeyxiyyə firqəsi dörd bünövrəni və ya kamil şiəni İmam Zamanın məhzəri yə`ni, həzrətin hər hansı bir şəxsdə zühur və hülul etməsi hesab edir.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Şeyx Əhməd İhsainin tərcümeyi-halını xülasə şəkildə bəyan edin.

٢. Şeyx Əhməd vəfat etdikdən sonra Şeyxiyyə firqəsində nə kimi hadisələr baş verdi?

٣. Şeyxiyyə firqəsi Ədalət və Məadı nə üçün üsulidinin bir hissəsi hesab etmir?

٤. Şeyxiyyənin Məada olan baxışı nədən ibarətdir?

٥. Dörd bünövrə nə deməkdir?

# ƏLLİNCİ DƏRS

Bəhailik nəyə əsaslanır?
Əli Məhəmməd Bab kim olmuşdur?

## BƏHAİLİYİN YARANMASI

Bəhailik Hicrətin ١٣-cü əsrində Şeyxiyyə firqəsinin təʾsiri ilə İranda Babiyyə adlanan başqa bir cərəyanın davamçısı olan Əli Məhəmməd Şirazi (Bab) tərəfindən təʾsis olunmuşdur. Əli Məhəmməd Babın ölümündən sonra «Bəhaullah» ləqəbi ilə şöhrət tapmış Mirzə Hüseynəli Nuri bu firqənin rəhbərliyini öz üzərinə götürdü və bir çox əlavələr etməklə onu yeni məzhəb kimi formalaşdırdı. Bu dərsdə ilk növbədə Əli Məhəmməd Bab və onun canişinlərinin tərcümeyi-halı, daha sonra isə babilik eʾtiqadları bardə söhbət açacağıq.

## ƏLİ MƏHƏMMƏD BABIN TƏRCÜMEYİ-HALI

Bab təxəllüsü ilə məşhur olan Əli Məhəmməd Şirazi Hicrətin ١٢٣٥-ci ilində(١٨١٥ m.) Şirazda dünyaya gəlmişdir. Hələ uşaq ikən atasını itirmiş və ticarətlə məşğul olan dayısının himayəsinə keçmişdir.[١]

Yeddi yaşında ibtidai təhsilə başlamış, dərsə qarşı maraq və istedadı həddindən artıq zəif olduğu üçün elmdə müəyyən nailiyyət əldə edə bilməmişdir. Təhsil aldığı məktəbin müəllimlərindən biri Şeyx Əhməd İhsainin şagirdi Şeyx Abid adlı bir şəxs olduğu üçün, bəlkə də Şeyxiyyə firqəsinin bəʾzi əqidələri ilə orada tanış olmuşdur.

## BUŞEHRƏ GƏLMƏSİ

Şirazda bir neçə il təhsil aldıqdan sonra Əli Məhəmməd Şirazi (Bab) iyirmi yaşına çatmamış dayısının məsləhəti ilə ticarətlə məşğul olmaq üçün Buşehrə gəlir. Bu şəhərin İranın ən isti yerlərindən biri olmasına baxmayaraq, Babi və Bəhai tarixçilərinin nəql etdiklərinə görə, o, günəşi öz ixtiyarına almaq və ulduzların ruhani aləminə nail olmaq üçün yayın qızmar çağında səhərdən axşamadək evinin damında namaz qılar və zikr etməklə məşğul olardı.[٢]

---

١ Tarixi-Nəbil, Nəbil Zərəndi.

٢ Səkkiz cənnət/Mirza Ağa xan Kermani Babi.

**Buşehr limanı o dövrdə əlverişli coğrafi mövqeyə malik olduğu üçün Hindistan tacirlərinin daimi gediş-gəliş mərkəzinə çevrilmişdi. Bəlkə də Əli Məhəmməd Bab saatlarla qızmar günəşin hərarətinə dözüb onu öz ixtiyarına almağı onlardan öyrənmişdi.**

Ümumiyyətlə, ab-havası mülayim olan Şiraz kimi bir yerdə böyüyüb boya-başa çatmış bir şəxsin Buşehrin qızmar günəşi altında saatlarla ibadət etməsi və hafizəsini gücləndirmək üçün həddindən artıq ruhi məşğələlərlə məşğul olması istər-istəməz Əli Məhəmməd Babın qeyri-adi davranış və təfəkkürə yiyələnməsinə səbəb oldu. Belə ki, dayısı onu fikrindən döndərə bilmədiyini görüb məcburi olaraq, Buşehri tərk edib imam Əli (ə) və imam Hüseyn (ə)-a təvəssül etmək üçün Nəcəf və Kərbəlaya göndərdi.[١]

## *BABİLİK İDDİASI*

Əli Məhəmməd Kərbəlada Seyyid Kazimin şagirdlərinin bir neçəsi ilə tanış olub onun dərslərində iştirak etməyə başladı və bir neçə müddətdən sonra onların əqidəsinə meyl göstərdi. Seyyid Kazimin özünü Bab yə'ni, zamanın imamı və dörd bünövrəyə iddia etməsi xüsusi olaraq onun diqqətini cəlb etdi. Hicrətin ١٢٥٩-cu ilində Seyyid Kazim vəfat etdikdən sonra Əli Məhəmməd onun canişini olduğunu iddia edərək özünə «Bab» təxəllüsünü götürdü. Əvvəlki dərsimizdə qeyd etdik ki, Şeyxiyyə tərəfdarlarının bir çoxu Seyyid Kazim Rəştidən sonra Hacı Məhəmməd Kərim Xana üz tutaraq Əli Məhəmməd Şiraziyə heç bir əhəmiyyət vermədilər. Bu səbəbdən də Əli Məhəmməd Bab, Şeyxiyyədən ayrılıb öz əqidəsini təbliğ etmək üçün doğma vətəni Şiraza qayıtdı. İlkin fəaliyyətindən sonra on səkkiz nəfəri ətrafına yığa bilib, «Hurufi-həyy» adlandırdıqları babiyyə firqəsinin əsasını qoyur. (Əbcəd əlifbasında «h» hərfi ٨, «ya» hərfi isə ١٠ rəqəmini bildirir, bu da cəm halda ١٨ rəqəmini təşkil edir.

Onlar Əli Məhəmmədin «Babi İmam Zaman» iddiasını qəbul edərək onun əqidəsini təbliğ etməyə və camaat arasında onu «ilk nöqtə» və «Əlahəzrət» kimi tanıtdırmağa başladılar. Beləliklə, Hicrətin ١٢٦٠-cı ilində Babiyyə firqəsinin bünövrəsi qoyuldu və müxtəlif şəhərlərdə fəaliyyət göstərən babi mübəlliğləri öz ifratamiz çıxışları ilə sadəlövh camaatı özlərinə cəlb edib onlarda babiliyə inam yaratmağa başladılar.

## *PEYĞƏMBƏRLİK İDDİASI*

**Tərəfdarlarının çoxaldığını və əqidəsinin geniş şəkildə yayıldığını görüb babilik iddiası ilə fəaliyyətə başlayan Əli Məhəmməd bir qədər sonra İmam Zaman Mehdi, daha sonra peyğəmbərlik iddiası edərək Allah tərəfindən ona**

---

[١] Miftahu babul-əbvab/Zəimud-dövlə.

**vəhy olunduğunu bildirdi. Hətta, «Bəyan» adlı kitabın ona Allah tərəfindən nazil olduğunu bildirdi. Hər bir fəsli «Vahid» adlanan bu kitab ١٩ fəsildən ibarət olmalı idi. Lakin o yalnız kitabın ١١ fəslini tamamlaya bildi, onun e᾽dam olunması qalan ٨ fəslin «nazil olmasına» imkan vermədi!!**

İmamiyyə alimləri Babiliyin şiə cəmiyyətinə nüfuz etməsini və orada geniş şəkildə təbliğ edilib yayılmasını gördükdə, onların küfr etmələrinə dair hökm verdilər. Eləcə də dövlətdən, ciddi tədbirlərə əl atıb bunların fəaliyyətinə son qoymasını istədilər. Yaranmış belə bir ağır şəraitdə babilər də özlərindən əks-əməl göstərməyə başladılar. Belə ki, Babul, Zəncan və başqa şəhərlərdə dövlət ordusu ilə qarşı-qarşıya durub ciddi müqavimət göstərdilər. Bu qarşıdurmalarda hər iki tərəf böyük itkilər verdi. Qeyd olunan məlumatlara əsasən, yalnız Babul şəhərində qətlə yetirilən babilərin sayı min beş yüz nəfərə yaxın idi.

## *BABIN TÖVBƏSİ*

Dövlət və imamiyyə alimləri Əli Məhəmməd Baba təzyiq göstərərək onu təslim olmağa məcbur etdilər. Əvvəl Tehrana, sonra isə oradan Qacar şahın əmri ilə Makuya göndərilərək oradaca həbs olundu. Təbrizə hakim olan Qacar şahın vəliəhdi Nasirəddin Mirzə, şahın göstərişi ilə Əli Məhəmməd Baba öz iddialarını sübuta yetirmək üçün Təbriz alimləri ilə mübahisə etmək imkanı verdi. Əli Məhəmməd hətta verilən ən sadə və ibtidai suallara cavab verə bilmədi, bütün iddialarından əl çəkib tövbə etdi.

O, tövbənamə yazıb şaha göndərdi. İran İslam şurasının kitabxanasında saxlanılan və şaha müraciət olunan tövbənamənin orjinal nüsxəsində deyilir:

**«Ruhum sənə fəda olsun! Şükr olsun Allaha ki, Öz rəhmət və fəzilətini bütün hallarda kafir və abidlərə şamil edir. Həmd və şükr olsun Allaha ki, Həzrətin vücuduna (Qacar şahı nəzərdə tutur) Öz rəhmət və sevgisindən bəxş etmiş, o da günahkar bəndələrinə qarşı mehriban olub günahlarının üzərinə pərdə çəkərək onları əfv etmişdir. Allah şahiddir ki, bu zəif bəndənin Allahın, islamın və Onun rəhbər (hakim) tə᾽yin etdiyi şəxslərin narazılığına səbəb olacaq bir iş görmək məqsədi olmamışdır. Özümə qarşı günah etmiş olmuşamsa da, qəlbən Allahın birliyinə, həzrət Məhəmmədin (s) haqq olaraq peyğəmbərliyə göndərilməsinə və onun vilayətinə iman gətirərək Allah tərəfindən nazil olanları zikr etmişəm. Onun rəhmətinə ümid bəsləyirəm və qətiyyətlə iqrar edirəm ki, Onun narazılığına səbəb olan heç bir şey istəməmişəm. Əgər dilimdən və ya qələmimdən Allahın narazılığına səbəb olan bir şey çıxmışsa da, məqsədim Ona qarşı çıxmaq olmamışdır. Amma necə olursa-olsun, Ona tövbə edib bağışlanmağımı istəyirəm və mənim iddia etməyə heç bir elmim yoxdur. Gördüyüm hər bir işə və dediyim hər bir sözə görə Allahdan əfv və bağışlanmaq diləyirəm və mən həzrət Hüccətullahın**

**(İmam Zamanı nəzərdə tutur) naibliyini tamamilə batil hesab edirəm. Mən nə bunu, nə də başqa bir şeyi iddia etməmişəm. Həzrət şahənşahın öz lütf və mərhəməti sayəsində məni əfv edəcəyinə ümid bəsləyirəm. Vəssəlam.**

## *BABIN AQİBƏTİ*

Babın tövbə etməsi artıq çox gec idi. Çünki o vaxtadək onun tərəfdarları bir çox şəhərləri qarət etmiş və sakinlərini amansızcasına qırmışdılar. Onların işğal etdikləri məntəqələrdə hərc-mərclik baş alıb gedir, heç bir nizam-intizam və əmin-amanlıq hiss olunmurdu. Qacar hökuməti babilərin qarşısını almaq üçün daim onları təzyiq və nəzarət altında saxlamalı olurdu. Bütün bunları nəzərə alaraq, Qacar şahı getdikcə alovlanmaqda olan iğtişaşların qarşısını almaq məqsədilə Babın e᾽dam olunmasına dair hökm verdi. Hökm Hicrətin ١٢٦٦-cı ilində Təbrizdə icra olundu. E᾽damdan sonrakı aqibəti barədə babilər arasında ixtilaf yaransa da, belə bir iddia irəli sürmüşlər ki, onun cənazəsi ١٨ ildən sonra Fələstinə aparılmış, dəfn edildikdən ora «Məqami-əəla» adlandırılmışdır. E᾽dam olunmasının qarşısını almaq məqsədilə Babın tövbə etməsi heç bir fayda vermədiyi kimi, onun e᾽dam olunması ilə də tərəfdarlarının üsyan və qarətlərinin qarşısını almaq mümkün olmadı. Əli Məhəmməd e᾽dam olunduqdan sonra babilər Bəhailik adı ilə öz fəaliyyətlərini davam etdirdilər.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əli Məhəmməd Babın tərcümeyi-halını ixtisarla bəyan edin.
٢. Əli Məhəmməd Bab hansı səbəblər üzündən müxtəlif iddialar etmişdir?
٣. Babın tövbə etməsindən hansı nəticəyə gəlmək olar?

# ƏLLİ BİRİNCİ DƏRS

Bəhailik necə meydana gəlmişdir?
Bəhailik kim tərəfindən tə`sis olunmuşdur?

## *BƏHAİLİYİN YARANMASI*

Bab e`dam edildikdən sonra, ölümündən bir il əvvəl canişin tə`yin etdiyi Sübhi-əzəl ləqəbini daşıyan Mirzə Yəhya Nuri Mazandarani (١٢٤٦-١٣٣٠ H.) babilər üzərində rəhbərliyi öz əlinə keçirdi. Lakin Mirzə Yəhyanın Bəhaullah ləqəbi ilə məşhur olan qardaşı Mirzə Hüseynəli onun canişin olması ilə tam müxalif idi. Bu səbəbdən də Sübhi-əzəl qardaşını vəkil tə`yin edir. Bundan belə tərəfdarları onunla əlaqə saxlamaq istədikdə, Mirzə Hüseynəliyə müraciət etməli idilər. Belə bir təklif onun üçün gələcək hədəflərinə çatmaqda münasib şərait yaradırdı. Məhz bu məqsədlə o, Sübhi-əzəlin təhlükəsizliyini tə`min etmək bəhanəsi ilə onu hamıdan gizlədərək bütün işləri öz əlinə alır.

Babilərin camaata qarşı törətdiyi cinayət və qırğınlar hələ də davam etməkdə idi. İran dövləti öz təzyiqlərini gücləndirdiyi bir halda, Hicrətin ١٢٦٨-ci ilində gözlənilmədən Nəsrəddin şaha sui-qəsd olunur. Dövlət mə`murları babilərə qarşı apardıqları geniş əməliyyatda onların böyük bir hissəsini ələ keçirə bilirlər. Mirzə Hüseynəli və tərəfdarları da onların arasında idilər. Lakin Rusiya səfirliyi bu məsələyə birbaşa qarışaraq onların e`dam olunmasının qarşısını alır. Bu səbəbdən də Mirzə Hüseynəli və qardaşı Sübhi-əzəl tərəfdarları ilə birlikdə İraqa sürgün olunurlar. Sürgün olunmalarına baxmayaraq, babilər üzərində rəhbərlik uğrunda mübarizə hələ də davam edirdi. Yaranmış ixtilafın qarşıdurmaya gətirib çıxaracağını görən Osmanlı dövləti (o zaman İraq Osmanlı imperatorluğuna tabe idi) onları müxtəlif məntəqələrə - Sübhi-əzəli Kipirə, Bəhaullahı isə Fələstinə sürgün edir. Bəhaullahın Fələstinə sürgün olunması onun babilər üzərində hakim olmasına münasib şərait yaratdı. Çünki, Sübhi-əzəl Kipirə sürgün olunarkən tərəfdarlarının çox az bir hissəsi onunla getdi və orada «Əzəliyyə» firqəsinin bünövrəsini qoydular. Hicrətin ١٣٣٠-cü ilində Sübhi-əzəlin vəfatından sonra Mirzə Yəhya Dövlətabadi Tehranda Əzəliyyə firqəsinin rəhbərliyini öz üzərinə götürsə də, əksəriyyəti təşkil edən Kipirdəki tərəfdarlarına nicat verə bilmədi. Beləliklə, «Əzəliyyə» çox tez bir zamanda zəifləyib aradan getdi.

Digər tərəfdən də Bəhaullah qardaşını aradan götürdükdən sonra tərəfdarların əksər hissəsini öz ətrafına yığaraq geniş təbliğata və yeni-yeni dəstələr yaratmağa başladı. Nəhayət, Bəhailik əməli olaraq Babilik üçün canişinlik rolunu ifa etdi.

* * *

Bəhaullah ləqəbi ilə məşhur olan Mirzə Hüseynəli Nuri Hicrətin ۱۲۸۵-ci ilində Fələstinin «Əkka*» məntəqəsində Bəhailik firqəsini təʾsis etdi. O, Hicrətin ۱۲۳۳-cü ilində Mazandaran vilayətinin Nur şəhərinin ətraf kəndlərinin birində dünyaya gəlmişdir. O dövrün adəti üzrə ibtidai oxu-yazı mərhələsini başa vurur və dövlət idarələrinin birində işə girir. Qeyri-adi xasiyyət və əhval-ruhiyyəsi onu, dərvişlərə qoşulub onlara xas olan uzun və gen paltarlar geyməyə sövq etdi. Hörüklərini uzadıb dərviş məclislərində iştirak etməyə başladı. Əli Məhəmməd Babın dəʾvətindən xəbərdar olub qardaşı Mirza Yəhya və onun qohumları ilə birlikdə Babilik cərəyanına qoşulur.

Bəhaullah, Bəhailik firqəsini təşkil etdikdən sonra Əli Məhəmməd Babın canişini olmağa can atmışdır. Canişinlik məqamından Babilik məqamına çatdı. Sonra İmam Zaman, daha sonra isə mütləq hakimiyyət iddiası etdi. Bir neçə müddətdən sonra peyğəməbrlik iddiası edərək özünün yeni şəriət sahibi olduğunu eʾlan etdi. Bütün bunlarla kifayətlənməyib Allahın onun vücuduna hülul etdiyini və özünün Allahın yer üzündəki məzhəri olduğunu iddia etdi. Allahlıq iddiası Bəhaullahın son iddiası oldu.

«Kitabun-mubin» adlı kitabında yazır: «La ilahə illa ənəl məscunul fərid»

«Əyyamu tisʾə» adlı başqa bir kitabında öz doğum günü haqda yazır: «Fəya həbbəza hazəl fəcrul-ləzi fihi vulidə mən ləm yəlid və ləm yuləd».

Bəhaullah neçə cild kitab yazmış, orada öz iddia və əqidələri barədə ətraflı məʾlumatlar vermişdir. Kitablarının ən məşhuru bəhailərin ən müqəddəs hesab etdikləri «Əqdəs» və «İqan» adlı kitablardır. Bəhaullah kitabdakı bütün mənbələrin ona vəhy olunduğunu iddia etmişdir.

Hicrətin ۱۳۱۰-cu ilində Bəhaullah Əkka şəhərində vəfat edir və elə oradaca dəfn olunur. Hal-hazırda onun qəbri bəhailərin qibləgahı hesab olunur.

## *BƏHAULLAHDAN SONRAKI BƏHAİLİK*

Bəhaullahın ölümündən sonra onun «Ğusnu-əʾzəm» kimi tanınan oğlu Mirza Abbas Əfəndi atasının yerini tutaraq bəhailərə rəhbərliyi öz üzərinə götürdü. Bəhailərin yeni rəhbəri özünə Əbdül-Bəha təxəllüsünü götürdü.

Bəhaullah Əbdül-Bəhadan sonra Məhəmməd Əli Mirzə adlı başqa bir oğlunun onun canişini olmasını vəsiyyət etsə də, vəfat etdikdən sonra canişinlik məsələsi üstündə qardaşları Əbdül-Bəha və Məhəmməd Əli Mirzə arasında böyük rəqabət

meydana gəldi. Bəhailərin böyük bir hissəsi Əbdül-Bəhanın rəhbərliyini qəbul etdi, çox az bir qismi də Məhəmməd Əli Mirzəyə meyl etdikləri üçün Bəhaullahın davamçıları tərəfindən küfr etməkdə ittiham olundular.

Lakin bəhailiyin əsas qolunu təmsil edən Əbdül-Bəha və onun tərəfdarları xarici dövlətlərin, xüsusilə İngiltərənin himayəsi ilə fəaliyyətlərini daha da geniş şəkildə aparmağa başladılar.

Birinci dünya müharibəsindən sonra İngilis hökuməti Əbdül-Bəhanı bu ölkəyə göstərdiyi xidmətlərinə görə ən yüksək dərəcə və «Ser» ləqəbi ilə mükafatlandırdı.

O, atasının canişinliyinə dair etdiyi vəsiyyətə əhəmiyyət vermədən Bəhaullahın «Rəbbani» ləqəbini daşıyan qız nəvəsi Şövqi əfəndini öz canişini tə`yin etdi.

Şövqi ömrünün çox hissəsini qərb ölkələrində keçirmiş və Kanadalı bir qadınla evlənmişdi. Bu səbəbdən də Asiya əhalisindən daha çox Avropa və amerikalılara meyl edirdi. Belə ki, həyat yoldaşının məsləhəti ilə amerikalı Çarliz Meyson Reymi öz canişini tə`yin edərək ona «vəliyyi əmri sani» (ikinci dərəcəli hakim) ləqəbini verdi.

Şövqinin gördüyü işlərdən biri də Bəhaullah və Əbdül-Bəhanın yazılarında işarə olunan «Beytul-ədli» tə`sis etmək oldu. Beytul-ədl, bəhailərin ibadətgah, yığıncaq və dini mərasimlər keçirdikləri yerə deyilir. İlk olaraq Beytul-ədl ə`zəmi tə`sis edir və «vəliyyi əmri əvvəl» kimi tanınan səkkiz nəfər bəhai mübəlliğini öz başçılığı ilə oraya rəhbər tə`yin edir. Sonra isə tərəfdarları üçün ümumi beytul-ədlin tə`sis olunmasına dair göstəriş verir. Miladın ١٩٥٧-ci ilində, Şövqi vəfat etdikdən sonra Əkkada yerləşən Beytul-ədl ə`zəm Meysan Reyminin ixtiyarına keçdi və Avropa, Amerika bəhailəri onun rəhbərliyini qəbul etdilər. Lakin digər məntəqələrdə yaşayan bəhailər Meysonun belə bir məqama tə`yin olunmasına razı olmayıb bir neçə hissəyə bölündülər.

Şövqinin ölümündən sonra bəhai firqəsində baş vermiş parçalanma başqa dövrlərdəkindən daha çox olmuşdur. Onun ölümündən sonra bəhailərin elə bir nüfuzlu rəhbəri olmamışdır və onlar hal-hazırda işğal olunmuş Fələstin ərazilərində (İsrail) yerləşən Beytul-ədl ə`zəm tərəfindən idarə olunurlar.

İşğal olunmuş Fələstin ərazisində tə`sis olunan İsrail dövləti ilk gündən Şövqi Rəbbaninin rəhbərliyi ilə bəhailiyi rəsmi din kimi tanıdı və öz etiraflarına görə, sonralar onların arasında səmimi dostluq əlaqələri yarandı. (İran bəhailərinin əsasları, ١٦-cı nömrə, ١٣٣١-ci Hicri-şəmsi).

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əli Məhəmməd Bab vəfat etdikdən sonra Babiyyə firqəsi hansı hadisələrlə qarşılaşdı?

٢. Bəhaullah kimdir?

٣. Bəhaullah vəfat etdikdən sonra Bəhailik kimin tərəfindən idarə olundu?
٤. Beytul-ədl harada yerləşir?
٥. Şövqi Rəbbani vəfat etdikdən sonra Bəhailərə kim rəhbərlik etdi?

# ƏLLİ İKİNCİ DƏRS

Bəhailər hansı əqidəyə yiyələnmişlər?
Bəhailərin məram və şər᾽i hökmləri nədən ibarətdir?

## *BƏHAİLƏRİN MƏRAM VƏ ƏQİDƏLƏRİ*

Əvvəlki dərsimizdə Bab və Bəhaullahın bütün iddiaları ilə tanış olduq. Mə᾽lum oldu ki, onların hər ikisi özlərini yeni şəriət sahibi və intizarı çəkilən İmam Zaman kimi qələmə vermişlər.

Bəhailər özləri bu suala cavab verməlidirlər ki, əvvəla nə üçün aradan çox keçmədən yə᾽ni, Babın ölümündən ١٣ il sonra yeni bir peyğəmbər gəlib özünün başqa bir şəriət sahibi olduğunu bildirir? Bir halda ki, əvvəlki peyğəmbər yə᾽ni, Bab hələ öz peyğəmbərliyini başa vurmayıb və onun müqəddəs kitabı olan Bəyan natamam qalıb. Onun şəriət və müqəddəs kitabı kənara qoyularaq, bəşəriyyətə başqa bir peyğəmbər göndərilirmi?!! Özü də Bəhaullahın yaşca Babdan böyük olduğu bir halda. Yə᾽ni əgər Allah-taala ikinci şəriəti birinciyə hakim etməli olsaydı, onda nə üçün birinciyə zəhmət verib göndərdiyi şəriəti qüvvədən salaraq peyğəmbərliyini natamam qoyardı. Bir haldakı elə əvvəldən Bəhaullahın peyğəmbərliyini tə᾽yin edib gətirdiyi şəriəti e᾽lan edərdi. Digər tərəfdən, əgər onların hər ikisi bəşəriyyətin intizarında olduğu (İmam Zaman) şəxs olmuşlarsa, necə ola bilər ki, firqənin tə᾽sis olunmasından bir əsrdən çox keçsə də, yer üzündə haqq-ədaləti bərqərar edə biləcək, bəşəriyyətə zalımların zülmündən nicat verə biləcək bir şəxs zühur etməsin?

Həmçinin necə ola bilər ki, bu müddət ərzində babilər öz ətrafına olduqca az tərəfdar yığa bilmiş və dünyaya hakim ola bilməmişlər? Bu dərsimizdə yalnız bəhailərin e᾽tiqadları ilə tanış olacağıq. Onların əqidə və e᾽tiqadları o qədər əsassız və qeyri-məntiqidir ki, bunu sübuta yetirmək üçün heç bir araşdırmaya ehtiyac görmürük.

## ١. İSLAM ŞƏRİƏTİNİN NƏSX (LƏĞV) OLUNMASI

Bəhailər belə bir əqidədədirlər ki, Bəhailik İslam dinini (şəriətini) nəsx edərək həzrət Məhəmmədin (s) peyğəmbərlik dövrünü arxada qoymuşdur. Onlar deyirlər: Bizim dövrümüz ilahi məzhərin (mən yuzhirəhullah – O kəs ki, Allah onun vücudunda təcəlli və zühur edir) risalət [peyğəmbərlik] dövrüdür. Bundan sonra da Allah-taala yer üzündə və onun sakinlərinin vücudunda təcəlli edəcəkdir. Lakin növbəti zühur ən azı min ildən sonra baş verəcək, Allah-taala uzun fasilədən sonra aləmdə təcəlli edəcəkdir.

## ٢. ALLAHIN HÜLUL VƏ TƏCƏLLİ ETMƏSİ

Bəhailər belə bir əqidədədirlər ki, Allah-taala ən azı bir dəfə seçdiyi şəxsin vücudunda hülul və zühur edir. Belə olduqda həmin şəxs Allahın məzhəri hesab olunur. Bu kimi şəxslərə «mən yuzhirəhullah – o kəs ki, Allah onun vücudunda zühur etmişdir» deyilir. İlk dəfə belə bir iddiada olan şəxs Babın özü olmuş, daha sonra Bəhaullah və onun digər tərəfdarları da bu kimi fikirlər irəli sürmüşlər.

## ٣. NAMAZ VƏ QİBLƏ

Bəhailərin səhər, günorta və axşam qıldıqları namazlar doqquz rükətdən ibarətdir. Namazların böyük bir hissəsini Bəhaullah onların üzərindən götürmüşdür. Bəhailər, qibləgahın Bəhaullahın dəfn olunduğu «Əkka» şəhərinə tərəf olduğunu hesab edirlər. Bəhaullah demişdir: Namaz qılmaq istərkən Allahın müqəddəs məkanı olan, oradan yer və göy sakinlərinə hökm verilən yerə tərəf üz tutun.

## ٤. TƏQVİM VƏ ÖLÇÜ

Bəhailərin ili on doqquz ay və on doqquz gündən ibarətdir. (Bəhailər on doqquzu müqəddəs rəqəm hesab edirlər). On doqquz ay bunlardan ibarətdir: Bəha, Cəlal, Cəmal, Əzəmət, Nur, Rəhmət, Kəlimat, Kəmal, Əsma, İzzət, Məşiyyət, Elm, Qüdrət, Qovl, Sail, Şərəf, Soltan, Mulk və Ə`la. Hər bir günəş ilinin ٣٦١ gündən ibarət olduğunu hesab edir, ٣٦١ günü ١٩ aya bölür və yerdə qalan ٤ günü (Kəbisə illərindən ٥ gün) isə Bəhailərin azad günü hesab edirlər. Bu günlər ərzində Bəhailərin üzərinə heç bir məsuliyyət düşmür və onlar eyş-işrət etməkdə tamamilə azaddırlar.

Bəhailər həftənin günlərinə də müəyyən adlar qoymuşlar.

Cəlal (Çərşənbə axşamı);

Cəmal (Çərşənbə);

Kəmal (Şənbə);

Fuzal (Bazar);

Əlal (Cümə axşamı);
İsticlal (Cümə);
İstiqlal (Bazar ertəsi).
Babın qiyamını ilin əvvəli, ilin bir illik dövrünü isə şəmsi, qəməri və ya miladi əvəzinə «Bədi» adlandırmışlar.

## ٥. *HƏCC*

Əli Məhəmməd Şirazda dünyaya gəldiyi evi Kə`bə hesab elib öz tərəfdarlarını oraya həcc ziyarətinə gəlməyə sövq etmişdir. O, Bəyan kitabında deyir: Beytul-harama gəldikdə, bunu bilmək lazımdır ki, Allahın müəyyən məkanı olmamışdır və heç vaxt da olmayacaqdır. Özünə aid etdiyi hər bir yer Onun evidir.

«...O evə [Kə`bəyə] aid olan bütün hökmlər, bu gün bu evə [Şirazdakı yaşadığı evə] şamildir...» Başqa bir yerdə deyir: «Kim orada [Şirazda] və ya onun ٦٦ kilometrliyində olarsa və əgər iyirmi doqquz yaşı haqlayarsa, həmin il oraya [Babın evinə] daxil olub on doqquz gün həmin məhəldə [Şirazda] qalmalıdır. Özünü [mə`nən] saflaşdıraraq, orada beş rük`ət namaz qılmalıdır. Kimin buna taqəti yoxdursa, niyyətində buna əməl etsin. Burada sakin olmayanlara güzəşt edilmiş və onlar bağışlanmışlar. Bəhaullah qibləni Əkkaya (yaşadığı və dəfn olunduğu yerə) dəyişərək oranı Beytul-haram qərar vermişdir. O deyir: Həqiqətən Allah sizlərdən imkanı olan hər bir şəxsə həcc (Əkkadakı dəfn olunduğu yeri) hökmünü vermişdir. Lakin qadınlar bu hökmdən azaddırlar. Bu onun tərəfindən insanlara bəxş olunan bir rəhmətdir. Həqiqətən o bol-bol ne`mətlər verəndir. Bəhailər hər iki yeri yə`ni, həm Kə`bəni, həm də Babın dəfn olunduğu yeri müqəddəs hesab edirlər.

## ٦. *TƏHARƏT VƏ NƏCASƏT*

Əli Məhəmməd Bab siçanın, gecə quşunun, qaranquşun ifrazatının və spermanın pak olduğuna hökm vermiş, islam dininin nəcasət hesab etdiyi digər şeyləri o da nəcis bilmişdir. O atəş, hava, su, torpaq və Allahın kitabını (Bəyanı) pakedici hesab etmişdir. Əşyaların «Bəyanla» pak olmasını belə izah edir: Babın adı nə qədər mümkünsə və təthir (paklıq) ayəsi ٦٦ dəfə nəcis olmuş şeyə oxunsa, həmin şey pak olur. Təthir ayəsi isə bundan ibarətdir: «Allahu əthər.»

Bu ayəni nəcis olmuş şeyi qalan dörd pakedici ünsürlərlə pak etdikdə də oxumaq lazımdır.

Lakin Bəhaulla istisnasız olaraq, bütün murdar şeyləri pak hesab etmişdir. O deyir: Allah natəmizlik hökmünü bütün şeylərdən və hər bir millətdən götürmüşdür. Bu, Allah tərəfindən insanlara verilən bir bəxşişdir. Həqiqətən Allah bağışlayan və günahlardan keçəndir.

## ٧. SƏLƏMÇİLİYİN HALALLIĞI

Bab hər iki tərəfin razılığı ilə edilən müamilələrin, o cümlədən sələmin halal olduğunu e`lan etmişdir. O, bu barədə deyir: Allah hər iki tərəfin razılığı ilə alış-verişi halal etmişdir. Tacirlərə, bu günlər onların arasında adi hal almış sələmçiliyə də izn vermişdir

## ٨. HİCAB VƏ NAMƏHRƏMƏ BAXMAQ

Bab hicab hökmünü götürmüş, qadın və kişilərin bir-birlərinə baxmalarını halal etmişdir.

Yusif surəsinin təfsirində deyir: «Qadınlara cənnət huriləri kimi ipək paltar geyib özlərinə bəzək-düzək vermək və evlərindən camaat arasına çıxıb oturacaqlarda hicabsız oturmaq icazəsi verildi.» Özünün «Bəyan» kitabında deyir: «Allah Bəyan kitabında mö`min kişilərə qadınlara, qadınlara da bəyəndikləri kişilərə baxmağa icazə vermişdir. Lakin Allahın istəyi olmayan şeylərə baxmamalıdırlar. Allah istəyir ki, cənnətdə olduqları kimi, kişi və qadınlar necə istəyirlərsə, eləcə də azad olsunlar. Bab bundan da artıq özünə cəsarət verərək ərləri xədim olan qadınlara uşaq dünyaya gətirmək üçün ərlərinin icazəsi ilə başqa kişilərlə cinsi əlaqədə olmaq icazəsi də vermişdir. O bu hökmü Bəyanın ١٥-ci babının ٤-cü vahidində və ١٥-ci babın ٨-ci vahidində vermişdir.

## SUALLAR VƏ TAPŞIRIQLAR

١. Bəhailiyin tə`sis olunmasında ən başlıca nöqsan nədən ibarətdir?
٢. Bəhailərin əqidələrini xülasə şəkildə yazın.
٣. Bəhailərin şər`i hökmlərini bəyan edin.
٤. Babilik və Bəhailiyin şər`i hökmləri arasında olan fərqləri bəyan edin.

# ƏLLİ ÜÇÜNCÜ DƏRS

Əhmədiyyə necə meydana gəlmişdir?
Əhmədiyyə firqəsinin əqidə və e῾tiqadları nədən ibarətdir?

## ƏHMƏDİYYƏ

Tə῾sisçisi:

Qadiyaniyyə kimi də məşhur olan və bəzi tərəfdarları özlərini Mirzaiyyə də adlandıran Əhmədiyyə firqəsi Mirzə Qulam Əhməd Qadiyani tərəfindən tə῾sis olunmuşdur. Qulam Əhməd təqribən Hicrətin ١٢٥٥-ci (١٨٣٩-cu miladi) ilində Hindistanın Pəncab vilayətində yerləşən Qadiyan şəhərinin Qurdaspur məntəqəsində dünyaya gəlmişdir. Atası Mirzə Qulam Mürtəza, Əmir Teymur Qurqaninin əmisi Əmir Bərlasın nəslindən idi. Əmir Teymur, Əmir Bərlasın ixtiyarında olan Kiş vilayətini ələ keçirdikdən sonra o, ailəsi ilə birlikdə əvvəlcə Xorasanda, sonra isə Hicrətin ١٠-cu əsrinin sonunda Hindistana gəlib Bəpas çayının kənarında məskunlaşdı. Əmir Bərlasın maddi və ictimai mövqeyinin yüksək olması Hindistandakı İngilis dövlətinin diqqətini özünə cəlb etmişdi. Qulam Mürtəzanın sənəti təbabət idi və deyilənlərə görə o, İngilis dövləti ilə səmimi münasibətdə olmuş və neçə illər onlara xidmət etmişdir. Qulam Əhməd ibtidai təhsilini başa vurduqdan sonra islami elmlərə yiyələnməyə başlayır. Lakin az sonra İngilis dövləti onu ١٨٦٠-cı ildən ١٨٦٥-ci ilədək «Səyalkut» şəhərində dövlət idarələrinin birində xidməti vəzifəyə götürür. Lakin həmin il işini atıb vətəni «Qadiyana» qayıdır. Bir neçə il təklikdə ibadətlə məşğul olur. ١٨٨٠-cı ildən e῾tibarən camaat tərəfindən rəğbətlə qarşılanan «Bərahinul Əhmədiyyə» adlı kitabı yazıb nəşr etdirir. Bu da Qulam Əhmədin ictimai mövqeyinin güclənməsinə səbəb olur.

Cavanlıq illərindən mənəviyyat və ruhi tərbiyə naminə özünü çətinliklərə vadar edən və həmin dövrlərdə Allah tərəfindən peyğəmbərliyə göndərildiyini və ona vəhy olunduğunu iddia edən Qulam Əhməd əlli yaşına çatdıqda, camaatdan bey῾ət almaq icazəsini alır. O, Peyğəmbərin (s) hədisinə istinad edərək özünü «İslam dininin islahatçısı» kimi qələmə verib deyirdi: Mən İsa ibni Məryəmdən daha üstünəm və hind, müsəlman, məsihi və zərdüştlərin intizarında olduqları həmin sonuncu ilahi rəhbərəm.

Sonralar peyğəmbərlik iddiası etmiş və Səyəlkutun müftisi ۱۹۰۰-cu ildə cümə namazındakı xütbəsində onun peyğəmbərliyini rəsmi şəkildə e᾽lan edərək demişdir: «Həqiqətən Mirzə Əhməd Allah tərəfindən göndərilmişdir və ona iman gətirmək hər bir şəxsə vacibdir.

Mirzə Əhməd Qadiyani peyğəmbərlik iddiasından təqribən səkkiz il sonra, yə᾽ni ۱۹۰۸-ci ildə Qadiyan şəhərində vəfat etdi və elə oradaca dəfn olundu.

## *ƏHMƏDİYYƏ FİRQƏSİNİN ƏQİDƏLƏRİ*

Tarixi mənbələrdə və öz əlyazmalarında Mirzə Qulam Əhmədin peyğəmbərlik iddiası sübuta yetirilsə də, onun bu iddiası xoş xəyal və xülyadan başqa bir şeyə bənzəmir.

Qulam Əhmədin Hindistan kimi çoxtəriqətli və yoqa ayininə mənsub olan bir məntəqəsində bə᾽zi şəxslərin özlərini əzab və çətinliklərə vadar etdikdən sonra camaatı öz ətrafına yığaraq yeni məzhəb yaratması bəlkə də onun peyğəmbərlik iddiası etməsinə öz tə᾽sirini göstərmişdir.

**Belə ki, o, iyirmi beş yaşından bir guşəyə çəkilərək ibadətə qapılmış və özünü bir çox çətinliklərə vadar etmişdir. Mə᾽lum olduğu kimi o, əvvəllər özünün Məsih, sonra İmam Zaman Mehdi, daha sonra isə Tara Krişna olduğunu iddia etmişdir. Krişnanın məzhəriyyət (Allahın, insanın vücudunda zühur etməsi) iddiası etməsi isə Hinduizm e᾽tiqadından qaynaqlanmışdır. Bunun səbəbi də Hindistanda fəaliyyət göstərməkdə olan üç dinin (tarixi kökü olan Hinduizm, İslam və İngilislərin oraya gətirdikləri məsihiyyətin) özlərinə tərəfdar yığmaları olmuşdur. Lakin deyilənlərdən belə mə᾽lum olur ki, Qulam Əhmədin peyğəmbərlik iddiası heç də ciddi və əsaslı olmamışdır. Əvvəla ona görə ki, onun peyğəmbərliyi özünün iştirak etdiyi cümə namazında müfti tərəfindən e᾽lan olunmuşdur. Belə ki, əgər onun peyğəmbərlik iddiası ciddi olsaydı, əvvəlki şəriətlə fərqli olan şəriət gətirər və orada bə᾽zi dəyişikliklər apararaq özünün yeni şəriətini təbliğ edərdi. Bir halda ki, orada müsəlmanların şəriəti ilə fərqli olan (bir qədər sonra işarə edəcəyik) elə bir dəyişiklik nəzərə çarpmır. Digər tərəfdən də peyğəmbərlik iddiası edən şəxslər Allah tərəfindən onlara vəhy nazil olduğunu və bəşəriyyətə yeni asimani kitab gətirdiklərini iddia etmişlər. Bab və Bəhaullahı buna misal çəkmək olar. Lakin Qadiyani ayinində heç bir müqəddəs kitabdan söz açılmır. Belə ki, Qadiyanilər (Əhmədiyyələr) əqidələrinin sübuta yetirilməsində daim Qur᾽ana istinad etmişlər. Hərçənd Qur᾽an ayələrini öz əqidələrinə əsasən təhlil və təfsir etmişlər. Bunu da nəzərdən qaçırmamalıyıq ki, islam nöqteyi-nəzərindən peyğəmbərlərin sonuncusu həzrət Məhəmməddən (s) sonra kiminsə peyğəmbərlik iddiası etməsi tamamilə əsassız və eyni zamanda həmin şəxsin dindən çıxması deməkdir. Bu səbəbdən də istər sünni, istərsə də şiə alimləri**

Qulam Əhmədin dindən çıxmasına dair fətva vermişlər. Əllamə İqbal Lahuri isə Qulam Əhmədin peyğəmbərlik iddiasını həzrət Məhəmmədin (s) peyğəmbərliyinə qarşı mübarizə və islamdan xaric olmuş müstəqil məslək adlandırmışdır. Qulam Əhmədin başqa bir əqidəsi həzrət İsa Məsihlə əlaqəli idi. O, belə bir əqidədə idi ki, Məsih dara çəkilməmiş, düşmənlərinin əlindən qaçaraq Hindistana gəlmiş və Kəşmirdə sakin olub orada İncili tə`lim və təbliğ etmişdir. Yüz iyirmi il yaşadıqdan sonra orada vəfat etmiş, Kəşmirin mərkəzi Səringərdə dəfn olunmuşdur və dəfn olunduğu yer hal-hazırda «Yazasəf» adlanır.

Qulam Əhməd cihadı rədd edərək deyir: Yaşadığımız dövrdə cihad silah yolu ilə olmamalıdır. Bəlkə sülh və əmin-amanlıqla məzhəbin əsaslarını insanlara tə`lim etmək lazımdır. Belə bir hökmün Qulam Əhməd tərəfindən verilməsi və Qadiyaniyyə firqəsinin meydana gəlməsi İngilis istismarı ilə sıx əlaqəlidir. Çünki belə bir nəzəriyyə islam ölkələrinin böyük bir hissəsini İngilis dövləti tərəfindən istismar olunduğu bir dövrdə irəli sürülmüşdür və təbii ki, belə bir şəraitdə cihad hökmünün götürülməsi İngilis dövlətinə böyük köməklik göstərə bilərdi. İngilislər müsəlmanlar arasında belə bir ideologiyanı yaymaqla onların üzərində öz hakimiyyətini çox asanlıqla bərqərar edə bildi. Bu səbəbdən də Qadiyaniyyə firqəsinin müxalifləri belə hesab edirlər ki, Qulam Əhməd ingilislərdən asılı bir şəxs idi və bu cərəyan onların təşəbbüsü ilə meydana gəlmişdir

Bu nəzəriyyənin düzgün olub-olmaması dəqiq şəkildə məlum olmasa da, bu iş nəticə etibarı ilə eyni təsirə malik idi. Çünki Qadiyaniyyə firqəsinin meydana gəlməsi ingilislərin mənafeyinə tamamilə uyğun olmuşdur. Çünki istismarçı qüvvələr müsəlmanlar arasında təfriqə və xürafi əqidələr yaymaqla daim öz siyasətlərini həyata keçirmişlər. Təbii ki, Qadiyaniyyə ideologiyasının yayılması və cihad hökmünün aradan götürülməsi İngiltərə kimi imperialist bir qüvvənin öz məqsədinə çatmasında yaxından köməklik göstərmişdir. Qulam Əhmədin İngilis dövləti tərəfindən yüksək «Ser» ləqəbi ilə təltif olunmasının səbəbi də məhz bu idi.

Qulam Əhməd ona iman gətirməyən müsəlmanları kafir hesab edirdi. Bu səbəbdən də Qadiyaniyyə firqəsinə mənsub olmayan imam camaata iqtida etməyi, vəfat etmiş şəxsə meyit namazı qılmağı, müsəlmanların Qadiyaniyyə qəbristanlığında dəfn olunmasını, Qadiyaniyyə qadınlarının müsəlman kişilərlə evlənməsini və Allahdan bu firqəyə mənsub olmayanların bağışlanmasını diləməyi düzgün hesab etməmişdir.

## ƏHMƏDİYYƏ FİRQƏSİNİN QULAM ƏHMƏDDƏN SONRAKI FƏALİYYƏTİ

**Qulam Əhməd vəfat etdikdən sonra onun sadiq tərəfdarlarından olan Həkim Nurəddin Bəhirəvi Məsihin ilk xəlifəsi seçildi və ondan sonra bu məqama Qulam Əhmədin ٢٥ yaşlı oğlu Mirzə Bəşirəddin Mahmud tə᾽yin olundu. O bütün aləmə hakim olduğunu iddia edərək deyirdi: «Mən yalnız Qadiyaniyyə və Hind xəlifəsi deyiləm, mən qayıdacağına və᾽də verilmiş Məsihin xəlifəsiyəm... Mənim səltənətim bütün aləmə şamildir.»**

İkinci xəlifənin rəhbərlik dövründə Qadiyaniyyə ardıcılları arasında təfriqə yarandı və onlar iki hissəyə bölündülər. Əksəriyyəti təşkil edən birinci dəstə Bəşirəddinin rəhbərliyinə sadiq qalaraq onunla birlikdə Qadiyanın ١٤٤ kilometrliyində yerləşən Lahur şəhərinə doğru hərəkət etdilər və orada Rəbvə şəhərinin tə᾽məlini qoyaraq oranı özlərinə mərkəzi iqamətgah seçdilər. Onlar rəhbərlərinə sadiq qalaraq Qulam Əhməd və onun xəlifəsinin Məsih və İmam Zaman Mehdi olmaq iddialarına tə᾽kid edirdilər. Məşvərət məclisi adlı şura tə᾽sis edildi və orada xəlifənin nəzarəti altında firqənin maliyyə, əqidəvi, mədəni və təbliğat işlərinə baxılmağa başlandı. Firqənin davamçıları gəlirlərinin dörddə birini yardım məqsədilə məşvərət şurasına təhvil verməli idilər.

İkinci dəstə Bəşirəddinin rəhbərliyindən imtina edərək Mövləvi Məhəmməd Əlini özlərinə rəhbər seçərək Lahurda məskunlaşdılar. Bu səbəbdən də onlara Lahuriyyə deyilirdi. Onlar Əhməd Qulamın İmam Zaman və peyğəmbərlik iddiasını təkzib edərək belə bir əqidədə olmuşlar ki, o, heç vaxt belə bir fikir irəli sürməmişdir. Sadəcə olaraq dində islahatlar apararaq islam dininə daxil olmuş bid᾽ətləri aradan çıxarmaq istəmişdir. Lahuriyyə «məşvərət məclisinə» oxşar «İslam yayım birliyini» tə᾽sis etməklə öz əqidələrini təbliğ etməyə başlayır. Onlar özlərinin müsəlman və Peyğəmbər (s) davamçıları olduqlarını israr etmiş və Qur᾽anın (Əlbəttə öz əqidələrinə müvafiq olaraq) təbliğ olunmasında böyük səylər göstərmişlər.

## SUALLAR VƏ TAPŞIRIQLAR

١. Qulam Əhməd Qadiyaninin tərcümeyi-halını ixtisarla yazın.

٢. Qulam Əhməd necə peyğəmbərlik iddiası etmişdir?

٣. Qulam Əhmədin cihad hökmünü ləğv etməsindən daha çox kimlər faydalanmışlar?

٤. Əhmədiyyənin əqidələrini bəyan edin.

٥. Qulam Əhməd vəfat etdikdən sonra Əhmədiyyə firqəsinin aqibəti necə olmuşdur?

# ALTINCI FƏSİL

## *SUFİLİK*

## ƏLLİ DÖRDÜNCÜ DƏRS

Sufilik nədir?
Sufi kimlərə deyilir?

### *SUFİLİK*

**Müqəddimə**

Sufilik islam aləmində bir neçə firqənin meydana gəlməsinə səbəb olan dördüncü ideoloji cərəyandır. Sufilik, kəlami cərəyan kimi tanınmadığı üçün yuxarıda haqqında söhbət açdığımız firqələrdən biri hesab olunmur. Lakin həm varlıq aləmi və insan həyatına olan baxışa, həm də insanın fərdi və ictimai davranışına aid olan özünəməxsus dünyagörüşünə malikdir. İslam aləmində

xüsusi tərzi-təfəkkür və ideologiyaya malik olduğu üçün onun haqqında ayrı-ayrılıqda söhbət açılır. Sufiliyin islam tarixində qoyduğu müsbət təsirlərə də göz yummaq olmaz. Monqolların islam ümmətinə divan tutduqları illərdə və islam aləminin qarşılaşdığı faciəli dövrlərdə bu cərəyan müsəlmanları vəhdətə və bir-birlərinə mə᾽nəvi dayaq olmağa çağırmış, İslam dininin uzaq və əlçatmaz ölkələrdə təbliğ olunmasında mühüm rol oynamışdır. Ticaniyyə, Şazliyyə və Sənusiyyə kimi sufi firqələri barədə qısa araşdırma apardıqda, onların İslam dinini Afrikanın qərb və mərkəzi ölkələrində yaydıqlarının şahidi oluruq. Nurbəxşiyyə, Kubrəviyyə və digər Sufi firqələri İslam dininin şərqdə yə᾽ni, Pakistan, Çin (qərb hissəsi), Hindistan və Cənubi-şərq ölkələrində də yayılmasında aparıcı rol oynamışlar.

Lakin Sufiliyin İslam mədəniyyəti və sünnəsində yanlış e᾽tiqadlar yaratmasına və bidətçi adət-ən᾽ənələr meydana gətirməsinə də göz yuma bilmərik. Şəriət və Sufilərin özlərinə məxsus mərasimlərini, Peyğəmbərin (s) sünnəsində mövcud olmayan adət-ən᾽ənələrini, danışıqda istifadə etdikləri mübhəm ifadələri, rəftar və danışıq tərzlərini buna misal göstərmək olar. Bu bir həqiqətdir ki, bu kimi bid᾽ətlər islam ictimaiyyəti və mədəniyyətinə yol tapa bilmiş və öz mənfi tə᾽sirini göstərə bilmişdir. Şəriət və dini hökmlərə bir-birindən fərqli baxışlara yiyələnsələr də, şübhəsiz ki, bu kimi bid᾽ətlərin meydana gəlməsinin əsas səbəbkarı onların özləri olmuşdur. Qeyd etmək lazımdır ki, sufi firqələrinin şəriət məsələlərinə yanaşma tərzi müxtəlifdir və onların hamısını haqq yoldan azmaqda ittiham etmək olmaz.

## *SUFİ SÖZÜNÜN LEKSİK MƏ᾽NASI*

Sufi və Sufilik kəlməsinin meydana gəlməsi və onlara belə bir adın verilməsi haqda müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Bə᾽ziləri deyirlər: Sufilik – Suffə əhlinə mənsub olan addır və bu söz oradan meydana gəlmişdir. Suffə əhli, Hicrətdən sonra Peyğəmbər məscidinin kənarında qurulmuş kiçik düşərgədə yerli əhalinin yardımı ilə yaşayan, olduqca yoxsul müsəlmanlara verilən addır. Lakin belə bir ehtimal tamamilə səhvdir. Çünki Suffə sözünün mənsubiyyət forması sufi deyil, «səffiyy» kəlməsidir. Bə᾽ziləri Sufi kəlməsinin Səfa sözündən götürüldüyünü, digərləri də onu olduqca təqvalı və zahidanə həyat tərzi keçirən ərəb qəbilələrindən olan Bəni-Sufəyə verilən ad hesab etmişlər. Başqalarının fikrincə, Sufə sözü ilk dəfə ömrünü Allaha xidmət üçün vəqf edən Ğovs ibni Mərrəyə verilən ləqəbdir. Bu səbəbdən də Allaha qovuşmaq istəyən zahidlər ona oxşadılaraq belə adlandırılmışlar. Bə᾽ziləri isə Sufinin Sufanə kəlməsindən götürüldüyünü zənn etmişlər. Sufanə nazik və kiçik bitki növüdür. Sufilər bitkilərdən hazırlanmış az yeməklərlə kifayətləndikləri üçün onlara belə bir ad verilmişdir. Lakin bu ehtimal da olduqca batil və əsassızdır. Çünki Sufani

kəlməsinin mənsubiyyət forması Sufi deyil, Sufaniyydir. Verilən nəzəriyyələrdən həqiqətə daha yaxın olanı Sufi kəlməsinin yun mə᾽nasını daşıyan Sovf kəlməsindən götürülməsidir. Belə bir mə᾽naya əsasən Sufi «yun paltar geyinən» mə᾽nasını daşıyır. Çünki o zamanlar yun paltar ən ucuz və ümumi kütlənin geydiyi libaslar olmuşdur. Yoxsul və gəliri az olan təbəqə, dünya malına və onun bərbəzəyinə göz yuman, zahidanə həyat tərzi keçirən abidlər də adətən yun paltarlar geyinərdilər. Bu səbəbdən də onlara Sufi adı verilmişdir. Əbu Nəsr Sirac özünün «Əl-ləm᾽ fit-təsəvvuf» (Sufi məsləkinin ən qədim kitabı sayılır) adlı kitabında deyir: «Yun paltarlar geyindikləri üçün onları Sufi adlandırırıq. Peyğəmbərlərin, əməli-saleh insanların, həvari və zahidlərin geydikləri də yun paltarlar olmuşdur.»

Sirac daha sonra belə bir sual verir. Nə üçün Peyğəmbərin (s) zamanında yaşayan dərviş və zahid insanlara Sufi deyilmirdi? Özü sualın cavabında deyir: «Peyğəmbərin (s) tərəfdarlarına səhabə deyilirdi. Mə᾽lum məsələdir ki, Allah peyğəmbərinin səhabəsi olmaq sufilikdən olduqca üstün və şərəflidir.» Söhbətinin davamında deyir: «Sufi kəlməsi Həsən Bəsrinin dövründən istifadə olunmağa başladı. Onun ifadəsinə diqqət yetirin: Kə᾽bəni təvaf edərkən (bir nəfər) sufi gördüm, ona bir qədər pul vermək istədim. Bundan imtina edib dedi: Özümdə bir dirhəmdən az var və o mənə kifayət edər.»

Həsən Bəsrinin Hicrətin ١١٠-cu ilində vəfat etdiyini nəzərə alaraq, deyə bilərik ki, Sufi kəlməsi ən azı ikinci əsrin əvvəllərində işlənmişdir.

## *SUFİNİN TƏ᾽RİFİ*

Sufi kəlməsinin leksik mə᾽nası mə᾽lum olduqdan sonra bu kəlmənin kimlərə deyilməsini də aydınlaşdırmaq lazımdır. Sufi kəlməsinin leksik mə᾽nası haqda aparılan araşdırmalardan belə bir qənaətə gələ bilərik ki, bu söz maddi və dünyəvi həyatı tərk edib mə᾽nəvi saflığa nail olmaq istəyən, bu yolla Allaha yaxınlaşmaq üçün özünü müxtəlif çətinliklərə vadar edən şəxslərə deyilir. Onlar olduqca az və ucuz yemək və geyimlərlə kifayətlənər, dünyanın bütün maddi ləzzətlərinə göz yumarlar. Sufilik ilk vaxtlarda olduqca sadə mə᾽na daşımışdır. Belə ki, adətən bir guşəyə çəkilib gününün əksər hissəsini Allaha ibadət və Onu zikr etməklə keçirən şəxslərə deyilmişdir. Lakin getdikcə daha da genişlənməyə və şaxələnməyə başlamış, özünəməxsus rəftar, davranış, ibadət və ibadi mərhələlərdən ibarət olmuşdur. İslam sufiliyinin meydana gəlməsinə səbəb olan amillər haqda növbəti dərsimizdə söhbət açacağıq. Lakin bu dərsimizdə Sufilərin gözəl bəyanatlarından istifadə edərək onu bir qədər geniş şəkildə izah edəcəyik. Verilən izahlara diqqət yetirsək, onların hansı istiqamətə yönəlməsi müəyyən qədər mə᾽lum olar.

Cüneyd Bağdadi Sufilik haqda belə deyir: Sufilik heç bir bağlılıq olmadan Allahla olmaq deməkdir.»

Həmçinin deyir: «Sufilik cəm halda edilən zikr, dinləmə ilə birgə olan şur və davam etdirilən işdən ibarətdir.» Və ya deyir: «Sufi pak və napak olmayanların üzərində addım atdıqları yerə bənzəyir, Sufi hər şeyə kölgə salan bir buluddur, Sufi hər şeyi sirab edən bir qətrədir.»

Süfyan Suri deyir: «Sufi aram və rahatlıq, yoxsulluqda bəxşiş deməkdir.»

Şəbli deyir: «Sufilik Allahla qəm-qüssəsiz ünsiyyət yaratmaq deməkdir. Sufi isə məxluqatdan [xarici aləmdən ayrılıb] xaliqə [Allaha] birləşmiş bir şəxsdir.»

Zunnun Misri deyir: «Sufilər Allahı hər şeydən üstün tutan kəslərdir. Allah da onları hər şeydən üstün tutmuşdur.»

Mə`ruf Kərxi deyir: «Sufilik həqiqəti tapmaq və yaradılmışların əlindən ümidsizliyi almaq deməkdir.»

Ruvəym ibni Əhməd Bağdadi sufilik haqda soruşduqda deyərdi: « Allahın iradəsi ilə nəfsin öz istəklərindən ayrı düşməsinə deyilir.» Həmçinin deyərdi: Sufilik üç xislətdən ibarətdir: Yoxsulluğa əl atmaq, güzəşt və aliaçıqlığı biruzə vermək, riyakarlıqdan uzaq olmaq.[١]

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Sufi və sufilik üçün verilmiş mə`naları ixtisarla bəyan edin.
٢. Sufilik, şiəlik və sünnilikdən ayrı cərəyandırmı?
٣. Sufilik islam aləmində nə kimi rol oynamışdır?
٤. Sufi kimlərə deyilir?
٥. Sufilik necə meydana gəlmişdir?

---

[١] Əl-lum`ə fit-təsəvvuf/Əbu Nəsr Sirac

# ƏLLİ BEŞİNCİ DƏRS

Sufilik islam dünyasında necə meydana gəlmişdir?
Sufilik islam dünyasının öz daxilindən qaynaqlanan bir cərəyandır, yoxsa xaricdən?

## *SUFİLİYİN İSLAM ALƏMİNDƏ MEYDANA GƏLMƏ SƏBƏBLƏRİ*

Sufiliyin islam dünyasında meydana gəlməsi barədə nəzərə çarpacaq dərəcədə ixtilaflar mövcuddur. Bə`zilərinin fikrincə, Sufilik bir əcnəbi cərəyan olaraq, əvvəllər digər dinlərdə mövcud olmuş, lakin sonralar islam dünyasına yol tapmışdır. Belə bir nəzəriyyəyə əsaslananlar öz növbəsində bir neçə dəstəyə bölünürlər:

Birinci dəstə sufiliyin Məsihi rahibliyindən, ikincisi Yoqa məktəbindən və hinduizim dinindən nəş`ət tapdığını, üçüncüsü Buddizmin tərkidünyalıq cərəyanından, dördüncüsü Əflatunun yeni əqidəsindən və nəhayət beşincisi onun İran mənşəli bir məslək olduğunu hesab edir. Bütün bu nəzəriyyələrin qarşısında sufiliyi islami bir məktəb hesab edən yeganə dəstə də mövcuddur. Onlar belə bir əqidədədirlər ki, islami tə`lim, əqidə, irfani baxış, habelə islam dünyasına hakim olan ictimai və xüsusi şərait sufi təriqətinin meydana gəlməsinə səbəb olmuşdur. Xarici amillərin heç biri sufi təriqətinin meydana gəlməsində tə`sir göstərməmişdir. Deməli, sufiliyin islam dünyasında meydana gəlməsini xarici və daxili amillər çərçivəsində araşdırmalıyıq. Baxaq görək onların hər biri sufiliyin meydana gəlməsində nə dərəcədə tə`sir göstərə bilmişdir.

## *DAXİLİ AMİLLƏR*

Daxili amillər iki hissədən ibarətdir:

١. İslamın əqidəvi əsasları;

٢. İslam cəmiyyətinin ictimai-siyasi şəraiti.

Tədqiqatçıların bə`ziləri hər iki amili sufi təriqətinin meydana gəlməsində təsirli hesab etsələr də, bə`ziləri onlardan yalnız birinə üstünlük vermişlər. Bu səbəbdən də hər iki dəstəyə şamil olan amilləri ayrı-ayrılıqda nəzərdən keçirməliyik.

١. Əqidəvi əsaslar:

**Sufiliyin meydana gəlməsində islamın əqidəvi əsaslarını ən başlıca amil hesab edən şəxslər belə bir əqidədədirlər ki, tövhid və islam irfanı bu amilin əsasını təşkil edir. Həmin nəzəriyyənin xülasəsi bundan ibarətdir: «Qur᾽an tövhid barədə söhbət açdıqda heç vaxt Allah və yaradılışı (xilqəti) bina və onu tikən bənna ilə müqayisə etmir. Qur᾽an Allahın xaliq və eyni zamanda Onun müqəddəs zatının hər yerdə və hər şeyə şamil olduğunu bildirir.**

«...Hansı tərəfə yönəlsəniz [üz tutsanız] Allah oradadır...»[١]

**«...Biz ona şah damarında da yaxınıq!...»**[٢]

**«...Əvvəl də, axır da, zahir də, batin də Odur...»**[٣]

Bu və bu qəbildən olan digər ayələr bu mövzuya dəlalət edir. Mə᾽lum məsələdir ki, bu qəbildən olan ayələrin təqdim etdiyi tövhid ümumi kütlənin təsəvvürlərində mövcud olan tövhiddən daha üstündür (və bu islam irfanında haqqında söhbət açılan tövhiddir).

Həmçinin insanın Allaha yaxınlaşmaq üçün qət etməli olduğu mərhələlərə gəldikdə, kifayətdir ki, «liqaullah», «rizvanullah», vəhy, ilham, mələklərin peyğəmbərlərlərdən qeyriləri ilə apardıqları söhbətlər – mələklərin həzrət Məryəm ilə etdikləri söhbətlər kimi – və Peyğəmbərin (s) me᾽racına aid olan ayələri nəzərdən keçirməliyik. Qur᾽ani-kərimin bə᾽zi ayələrində nəfsi əmmarə*, nəfsi ləvvamə* və nəfsi mutməinnə* barədə söhbət açılır.

Həmçinin səy və məşəqqətlər yolu ilə haqqa hidayət olanlara işarə edərək buyurulur:

**«Bizim uğrumuzda cihad edənləri öz yollarımıza [Bizə tərəf gətirib çıxardan behişt yollarına] qovuşduracağıq...»**[٤]

**Nəfsin saflaşmasının insanın nicat tapması üçün yeganə yol olduğuna işarə olunaraq buyurulur:**

«Nəfsini [günahlardan] təmizləyən mütləq nicat tapacaqdır!

**Onu [günaha] batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.»**[٥]

Qur᾽anda dəfələrlə bütün eşqlərdən üstün olan İlahi eşq və sevgidən söhbət açılır. Burada habelə bütün canlı və cansız əşyaların Allaha şükr və zikr etməsindən, insanın yaradılışına və ilahi ruhun onun vücuduna üfürülməsinə toxunulur. Belə ki, insan əgər öz düşüncə və idrakını kamil edə bilərsə, onların şükr və zikr etmələrini özü dərk etməlidir.[٦]

---

[١] Bəqərə-١١٥.
[٢] Qaf-١٦.
[٣] Hədid-٣.
[٤] Ənkəbut-٦٩.
[٥] Şəms ٩-١٠.
[٦] İslam və İranın bir-birlərinə olan qarşılıqlı xidmətləri/Mürtəza Mütəhhəri.

Yuxarıda qeyd olunan ayələrlə yanaşı, bu fikrə əsaslanan şəxslər islamın zühur etdiyi illərdə mö`minlərin yalnız savab naminə iman gətirməmələrinə dəlalət edən bir çox hədis və rəvayətlərə də toxunmuşlar. Bu rəvayətlərdə və həmin dövrdə oxunan dua və xütbələrdə belə şəxslərin yüksək mə`nəvi baxışlarından, saf niyyət və təqvaya malik olduqlarından xəbər verilir. Misal olaraq nəql olunmuş rəvayətlərdən birinə diqqət yetirək: «Günlərin bir günündə Peyğəmbər (s) sübh namazından sonra rəngi saralıb-solmuş və gözləri çuxura düşmüş arıq bir cavanla rastlaşır. Zəifliyindən öz müvazinətini saxlaya bilmirdi. Peyğəmbər (s) ondan soruşur: Özünü necə hiss edirsən? Cavan deyir: Yəqinə çatdığımı hiss edirəm. Buyurur: Yəqinə çatmağının əlamətləri nədir? Deyir: Yəqinə çatmağımın əlaməti bundan ibarətdir ki, gecələri ibadət, gündüzləri oruc tutmağa, dünyanın və onun naz-ne`mətlərindən ayrılmağa vadar olmuşam; sanki məhşər günü insanların oraya toplandığını və onların arasında dayandığımı görürəm; cənnət əhlinin ne`mətlərdən bəhrələndiklərini və cəhənnəm əhlinin əzab çəkdiyini müşahidə edirəm. Sanki gözümlə cəhənnəm odunu görüb, qulaqlarımla onların səsini eşidirəm. Peyğəmbər (s) cavanı bura qədər dinlədi və üzünü səhabələrə tutub buyurdu: O, qəlbini Allah nuruna qərq edən bir bəndədir. Sonra cavana dedi: Öz əhval-ruhiyyəni qoruyub saxla. Cavan dedi: Dua et ki, Allah mənə şəhadət ruzisini nəsib etsin. Çox keçmədi ki, o, iştirak etdiyi döyüşlərin birində şəhidlik məqamına nail oldu.»

Peyğəmbərin (s) hikmətamiz buyuruqları və etdiyi münacatlar isə yüksək mə`nəviyyat, ilahi eşq və irfanla doludur. Bu dualar əksər hallarda ariflərin istinad mənbəyinə çevrilmişdir. Əmirəl-mö`minin Əli ibni Əbu Talibin (ə) etdiyi dua və münacatlar da belə bir xüsusiyyətə malikdir. Belə ki, bir çox arif və sufi silsilələrinin o həzrətə çatdıqlarını hesab edənlər az deyildir.[١]

Bu səbəbdən də bir tərəfdən islam dinində mövcud olan bir çox irfani mənbələr və tövhidi baxışlar, mə`nəvi saflığa və bu yolla Allaha yaxınlaşmağa nail olmaq üçün dünyanın naz-ne`mətlərindən əl çəkmək, maddi zənginliyi kənara qoymaq, ibadət və münacatlarla İlahi dərgaha üz tutmaq islam sufiliyinin meydana gəlməsində ən başlıca amil ola bilər. Digər bir cəhətdən də sufilər öz əqidələrinin, rəftar və davranışlarının e`tibarını göstərmək üçün digər din və ideoloji məktəblərdən də ehtiyacsız deyillər.

## ٢. *İCTİMAİ-SİYASİ ŞƏRAİT*

Sufiliyin meydana gəlməsində təsirli olan digər amillərdən biri də müsəlman ümmətinin müxtəlif dövrlərdəki ictimai-siyasi şəraiti olmuşdur.

[١] İslam və İranın qarşılıqlı xidmətləri.

İslamın zühur etdiyi ilk illərdə müsəlmanların olduqca sadə və yoxsul həyat tərzi keçirməsi insanların böyük əksəriyyəti üçün islam həyat tərzinin nümunəsi ola bilər. Bu səbəbdən də Peyğəmbərin (s) məişət və həyat tərzi hər bir sufi üçün örnək və nümunə olmuşdur. Çünki sufilər dünyanın maddi ləzzətlərindən daim uzaq olmaq istəmişlər. Onlar Peyğəmbərin (s) və səhabələrin həyat tərzi, rəftar və davranışlarını başqaları ilə müqayisə etmişlər. Tarixə nəzər saldıqda görürük ki, sufilərin bə᾽ziləri Peyğəmbər (s) və onun səhabələrinin ucuz və sadə paltar geydiklərini əldə əsas tutaraq, imam Cə᾽fər ibni Məhəmməd Sadiq və Əli ibni Musa Rizanın (ə) ağ və nəfis paltarlar geyinmələrinə etiraz etmişlər. İslam həyat tərzindən belə bir nəticəyə gəlmişlər ki, Allahın razılığını qazanıb «Liqaullaha – Allahla görüşə» nail olmaq üçün maddi-dünyəvi ləzzətlərdən əl çəkib yalnız zikr, dua, ibadət və münacata qapılmaq lazımdır.

Sufilər Peyğəmbərin (s) sadə həyat tərzi və sünnəsinin sonralar saray və imarətlərdə eyş-işrət içində yaşayan və hakimiyyətlərinin davam gətirməsi üçün zülm və haqsızlıqlara yol verən Əməvi və Abbasi əmirlərinin şahanə həyat tərzinə çevrildiyini gördükdə, öz əqidələrində daha da möhkəm qalaraq haqq olduqlarını iqrar etmişlər. Sufiliyin keçid mərhələsinə nəzər saldıqda, bunun şahidi oluruq ki, islam dünyası qan içən monqol işğalçıların təcavüzünə mə᾽ruz qaldığı bir halda, daha da inkişaf etmiş, asayiş və əmin-amanlıq bərqərar olunduqda isə, tənəzzülə uğramışlar. Bu isə islam dünyasında baş verən ictimai-siyasi cərəyanların sufiliyin yaranıb-yayılmasında nə qədər təsirli olduğuna dəlalət edir. Çünki bəla və müsibətlərlə dolu olan bir şəraitdə xalqın əksəriyyəti dövrün e᾽tibarsızlıq və vəfasızlığının şahidi olub dərd və bəlalarına dərman etmək üçün Allah dərgahına üz tuturdu və məhz bu məsələ sufilərin rəftar və baxışlarının formalaşmasına səbəb olurdu.

Yuxarıda qeyd olunanlar sufiliyin islami cərəyan olduğunu hesab edənlərin irəli sürdükləri nəzəriyyə idi. Onların fikrincə sufilik islamın əxlaqi-əqidəvi, siyasi-ictimai amillərindən mütəəssir olmuşdur. Növbəti dərsimizdə sufiliyin xarici amillər üzündən meydana gəldiyini hesab edən şəxslərin irəli sürdükləri fərziyyələrə toxunacaq və söhbətimizi irəli sürülmüş hər iki nəzəriyyənin müqayisə olunması ilə yekunlaşdıracağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Sufiliyin islam dinində meydana gəlməsinə dair irəli sürülən ümumi nəzəriyyələr hansılardır?

٢. İslam irfanı nə zaman Sufilik adını daşımağa başlamışdır?

٣. Peyğəmbərin (s) məsciddəki cavanla apardığı söhbətdən hansı nəticəyə gəlmək olar?

٤. İslamın zühur etdiyi illərdə müsəlmanların keçirdikləri sadə və yoxsul həyat tərzi nə üçün sufiliyin meydana gəlməsinə səbəb olmuşdur?

# ƏLLİ ALTINCI DƏRS

Sufilik islam dünyasında necə meydana gəlmişdir?
Sufilik islam dünyasının öz daxilindən qaynaqlanan bir cərəyandır, yoxsa xaricdən?

## *SUFİLİYİN MEYDANA GƏLMƏSİNDƏ TƏSİRLİ OLAN AMİLLƏR*

Xarici amillər:

Sufiliyin islami kök olduğunu və ondan nəş῾ət tapdığını hesab edənlərin qarşısında, bu cərəyanın xarici amillərin təsiri ilə meydana gəlməsini güman edənlər də var. Onların fikrincə, Sufilik əvvəllər başqa millətlərdə, digər dinlərdə mövcud olmuş və müsəlmanlar onlarla tanış olduqdan sonra bə῾ziləri bu cərəyana qoşulmuş və islami üsulları sufiliklə tətbiq edərək ona islami rəng vermişlər. Mə῾lum məsələdir ki, sufi və sufilik ifadələri müsəlmanlar tərəfindən meydana gəlmişdir. Lakin sufiliyin həqiqi mahiyyəti digər dinlərə aiddir.

Sufiliyin xarici amillər tərəfindən meydana gəlməsini hesab edən şəxslərin özləri bir neçə dəstəyə bölünürlər:

١. Bə῾ziləri sufiliyin köklərini hind mənşəli dinlərdə axtarırlar.

٢. Bə῾ziləri sufiliyin Yunan fəlsəfəsindən, xüsusilə yeni Əflatun məktəbindən nəş῾ət tapdığını güman edirlər.

٣. Bə῾zilərinin fikrincə sufilik İranda meydana gəlmişdir.

٤. Bə῾ziləri isə onun rahiblik və məsihi irfanından qaynaqlandığını hesab edirlər.

Bu dərsimizdə yuxarıda qeyd olunan dörd baxışla tanış olacağıq.

## *١. SUFİLİYİN MEYDANA GƏLMƏSİNDƏ HİND MƏNŞƏLİ DİNLƏRİN ROLU*

Dinlərlə tanışlıq dərslərindən mə῾lum oldu ki, Hind mənşəli dinlər yə῾ni, hinduzim, buddizm və cinizm islam dinindən çox-çox əvvəllər mövcud olmuşdur. Hər üç dinin əsas hissəsini, daha dəqiq desək, mahiyyətini ruhun saflanması və son mərhələdə Niruvana, ya Mütləq fənaya çatmaq təşkil edir. Bir tərəfdən islam dininin şərqdə geniş yayılıb Hind və Çinə çatması, digər tərəfdən də müsləlmanların fəth olunmuş məntəqələrdə ticarət əlaqələri qurmaları,

həmçinin hind ayinlərinə dair tərcümə olunmuş kitabların müsəlmanlar arasında geniş yayılması onların hind mənşəli din ayinləri ilə tanış olub onlardan mütəssir olmalarına səbəb olmuşdur.

Digər amillərdən biri də islamdan ١٠٠٠ il əvvəl «Budda» məzhəbinin İranın şərqində yə՚ni, Bəlx, Buxara və ətraf məntəqələrdə yayılması və həmin məntəqələrdə Somiə adlandırdıqları ibadətgahların tikilməsi olmuşdur. Bəlxdə tikilən ibadətgahlar daha çox məşhur olmuşdur. Bu isə islamın zühur etdiyi ilk əsrlərdə, bəlkə də sufiliyin ən fəal mərkəzlərindən olduğu bir dövrə təsadüf edir.

İbrahim Ədhəm, Şəqiq Bəlxi, Bayəzid Bəstami, Əbu Səid Əbul Xeyr, Hatəm Əsəm, Davud Bəlxi, Əhməd Xəzrəviyyə və sufiliyin digər görkəmli şəxsiyyətləri bu məntəqədə yaşamışlar. Diqqəti cəlb edən məsələlərdən biri də bə՚zi sufilərin, xüsusilə İbrahim Ədhəmin tərcümeyi-halının Məhaviranın tərcümeyi-halı ilə oxşar olmasıdır. Deyilənlərə görə İbrahim Ədhəm, Bəlx əmirlərindən birinin oğlu olmuş, əvvəllər qəsrlərdə yaşamış, lakin sonralar var-dövlətdən üz çevirib «Fəna fillaha*» çatmaq üçün dağ və çöllərə üz tutmuşdur.

Budda ilə Sufilik arasında olan başqa oxşarlıq «Fənaya» doğru qət etdikləri mərhələlərin bir-biri ilə eyni olmasıdır. Bu iki ayindəki məqamların hər ikisi heç bir fərq olmadan eyni nəticəyə çatır. Yə՚ni, sufi ariflərin «Fəna fillah» adlandırdıqları son mərhələni, Buddalar «Niruvana» və «Mütləq fəna»ya çatmaq adlandırırlar.

## ٢. *YUNAN FƏLSƏFƏSİNİN SUFİLİYİN MEYDANA GƏLMƏSİNDƏ TƏSİRİ*

Cufiliyin kökünü Yunan fəlsəfəsində axtaranlar, əksər hallarda onun məhz Yunan fəlsəfəsindən mütəssir olduğunu güman edirlər. Əflatun idologiyasına mənsub olan Yunan fəlsəfəsi varlığın vəhdət nəzəriyyəsinə əsaslanır. O (Əflatun) bu fikirdə idi ki, həqiqət təkdir və varlığın mənşəyi vahid həqiqətin özüdür. Mütləq varlıq Odur, digər varlıqlar isə Onun təcəllisidir. Yə՚ni, O, bütün varlıqların mənşəyi olduğu bir halda, onların heç biri deyildir. Əflatunçular Allahı müxtəlif tə՚bir və ifadələrlə vəsf etsələr də, bu barədə söylənilən hər bir vəsf və ifadəni səhv hesab edirlər. Hətta Allahı vücud adlandırmağı belə düzgün saymırlar. Çünki O, bütün mövcud olan varlıqlardan daha üstündür. Onlar Allaha yalnız mə՚nəvi (ruhi) seyr ilə çatmağı, əql və hissin buna kifayət etmədiyini zənn edirlər. Bunun isə üç mərhələdən ibarət olduğunu bildirirlər:

a) Seyr məqamları;

b) Məhəbbət;

v) Mə՚rifət. (Agahlıq).

Seyr məqamları həqiqətə çatmaq və bu yolda göstərilən səy və cəhətlərdən ibarətdir. Bu məqam hasil olunası yə՚ni, insanın özünün əldə edə biləcəyi bir

dərəcədir. Məhəbbət, həqiqəti müşahidə etməklə insanda yaranmış hissə deyilir. Kamil mə`rifət isə, tam həqiqətə çatmaq deməkdir. Hər bir varlıq belə bir kamala çatmaq istər, yə`ni maddi aləmdən yaxa qurtarıb əsl vətənə qayıdış. Bu da hər şeyin mənşə və başlanğıcına qovuşmaq deməkdir. Dünyaya göz yumub Ona üz tutmaq və Onu öz vücudunda dərk etmək lazımdır.

Bunlar Əflatunçuların fəlsəfi ideologiyalarının bir nümunəsi idi. Tərcümə olunmuş Yunan fəlsəfəsi müsəlmanlar arasında geniş yayılmış, islamda zahidlik cərəyanı onun tə`siri altına düşmüş və sonralar yeni Əflatun ideoloji ünsürləri bu sadə cərəyanı sufiliyə çevirmişdir. Nəticədə, Sufi ədəbiyyatında vəhdəti-vücud, dərk edən və dərk olunan, vəhdət aləminin ilkin mənşədən vücuda gəlməsi, insan ruhunun cismdə həbs olunaraq maddi əşyalarla aludə olması, ruhun əsl vətənə qayıdış meyli, eşq, müşahidə və təfəkkür, nəfsin saflığı, ruhi məstlik və s. ifadələrin geniş istifadə olunduğunun şahidi oluruq.

## ٣. SUFİLİYİN İRANLA BAĞLILIĞI

Sufiliyin İranla bağlı olduğunu hesab edən şəxslər Zərdüşt və Mani ayinlərini onun mənşəyi olduğunu qeyd edirlər. «Dinlərlə tanışlıq» dərslərində Zərdüşt ayininin «Ahuraməzda» pərəstişinə əsaslandığı mə`lum oldu. Onların əqidəsinə əsasən, varlıqları vücuda gətirən nurdur və nur bütün yaxşılıqların mənşəyidir. Demək, Əhrimənin yaratdığı zülmətdən yaxa qurtarmaq üçün Ahurəməzdaya tərəf getmək və xeyirxah işlər görməklə işıqlığa qovuşmaq lazımdır.

Mani, Zərdüşt tə`limlərindən bəhrələnərək belə bir fikir irəli sürmüşdür ki, aləm iki şeydən - nur və zülmətdən ibarətdir. İnsan vücudunu təşkil edən ruh nur, cism isə zülmətdir. Bu iki ünsür bir-birinin müqabilində durur. Bir tərəfdən xeyirxahlıq nur və ruh, digər tərəfdən isə pislik, zülmət və cismdir. Ruh cism zindanında əsir olmuşdur və oradan nicat tapmalıdır. Maninin tərəfdarları iki hissəyə bölünmüşlər:

a) Kamillər;

b) Eşidənlər.

Birinci dəstəyə aid olanlar daha çox agahlığa malik olmuş və özlərini bə`zi cismani çətinliklərə vadar edərək nəfslə mübarizə etmişlər. Kamala çatmaq üçün «Aləmin xaliqinə eşq», «kamil insana pərəstiş» və «qardaşlıq birliyi» kimi üsul və qaydalara riayət etməyi lazım bilmişlər.

Sufiliyin əksər hissəsinin iranlı olduqlarını və onların Zərdüşt və Mani əqidələri ilə tanış olduqlarını nəzərə alaraq deyə bilərik ki, onlar insanilik, hökmlər, mə`nəvi seyr və nəfsi mübarizəni islam əxlaq və e`tiqadına əlavə edərək sufiliyi meydana gətirmişlər.

## ٤. SUFİLİYİN MƏSİHİ RAHİBLİYİNDƏKİ KÖKLƏRİ

İslam dini zühur etdiyi və müsəlman ümməti təşkil olunduğu ilk gündən müsəlmanlar məsihi ayini ilə tanış olmuş və məsihi ölkələri ilə ticarət əlaqələri bərqərar etmişlər. Bu səbəbdən də onların adət-ən᾽ənələri ilə, o cümlədən rahibliklə yaxından tanış idilər. Zahidanə həyat tərzi sürən və maddi varlıqlara göz yuman sadiq müsəlmanlar məsihi rahibliyini islam təqvası ilə əlaqələndirərək sufilik cərəyanını meydana gətirmişlər. Yun paltarlar geymək, xanəgah ibadətgahlarında zikr və münacatlarla məşğul olmaq rahiblərin Somiə adlandırdıqları ibadətgahlarda keçirdikləri həyat tərzi ilə çox oxşardır.

**Nəticə:**

Bu dərslərdə irəli sürülən nəzəriyyələri nəzərə alaraq deyə bilərik ki, əvvəla sufiliyin bir çox e᾽tiqadi üsulları, rəftar və davranışları islam dinindən götürülmüş və sufilik irfanının kökləri Peyğəmbər (s) və övliyaların tə᾽limlərindən qaynaqlanmışdır. (Bu haqda növbəti dərsimizdə söhbət açacağıq). Həmçinin təqva və pəhrizkarlıq, maddi aləmin e᾽tibarsızlığına olan e᾽tiqad, mə᾽nəvi saflıq üçün edilən səylər, Allahın razılığını qazanmaq məqsədilə ruhun ilahi dərgaha ucalması islam tə᾽limlərinin əsas hissəsini təşkil edir.

Digər tərəfdən də sufilərin istifadə etdikləri ifadələrin bir çoxu Qur᾽an ayələrindən, Peyğəmbərin (s) hədis və dualarından götürülmüşdür. Bunun üçün də qətiyyətlə sufiliyin xarici amillərdən meydana gəldiyini deyə bilmərik.

Eyni zamanda sufilərin etdikləri dua və münacatların, istifadə etdikləri ibadət və davranışların islam mənbələrindən, Qur᾽an ayələrindən, Peyğəmbər (s) və övliyaların həyat tərzindən götürüldüyünə şübhə edə bilmərik. Xanəgahlarda dini mərasimlərin keçirilməsi, yun paltarlar geyinib insanlardan uzaq düşərək bir guşədə ibadət və münacata qapılmaq, ailə və övlada qarşı e᾽tinasız olmaq islam tə᾽limləri və Peyğəmbər (s) sünnəsi ilə fərqli deyil, tamamilə müxalifdir. Bu səbəbdən də qətiyyətlə deyə bilərik ki, sufilik qeyri-islami rahiblik cərəyanından mütəssir olaraq islam zahidliyi ilə qeyri-islami nəfsi mübarizənin tərkibindən meydana gəlmişdir. (٥٨-ci dərdə sufilərin istifadə etdikləri bə᾽zi ibadət və əməllərdən danışacağıq.)

## SUALLAR VƏ TAPŞIRIQLAR

١. Sufiliyin Hind mənşəli dinlərdən mütəəssir olduğunu hesab edənlərin nəzəri nədən ibarətdir?

٢. Tədqiqatçıların bə᾽ziləri nə üçün Sufiliyin Əflatun fəlsəfəsindən meydana gəldiyini hesab edirlər?

٣. Sufiliklə Zərdüşt dini arasında nə kimi oxşarlıq vardır?

٤. Sufiliklə məsihi rahibliyi arasında müştərək cəhətlər vardırmı?

٥. Bu dərsdə araşdırılan dörd nəzəriyyə və əvvəlki dərsdə qeyd olunan nəzəriyyələrdən hansı nəticəyə gəlmək olar?

# ƏLLİ YEDDİNCİ DƏRS

İrfanla sufilik arasında nə kimi əlaqə vardır?

## *İRFAN VƏ SUFİLİK*

Sufilik barədə araşdırma apardıqda onun irfanla olan əlaqəsindən də danışmaq lazımdır. Çünki sufilər iddia edirlər ki, onların rəftar və davranışları irfan əsasında olmuşdur və nail olduqları hər bir şeyi irfan yolu ilə əldə etmişlər. Sufilər ٣-cü əsrdən sonra sufi və ariflərin istifadə etdikləri ifadələrin eyni mə`na daşıdığını hesab etmişlər. Bu səbəbdən də iddialarının nə dərəcədə doğru və düzgün olmasını bilmək üçün bir qədər araşdırma aparmalıyıq. İlk növbədə (٥٤-cü dərsdə haqqında söhbət açılan) «sufi» və «sufiliklə» müqayisə etmək üçün «irfan» və «arif» kəlmələrinin izahına diqqət yetirməliyik. Artıq bundan sonra «hər bir sufi həm də arifdirmi?» sualının cavabı mə`lum olacaqdır. Daha sonra irfanın sufiliyin əsasını təşkil etməsi və ya sufiliyin irfandan meydana gəlib-gəlməməsi haqda araşdırma aparacağıq. Başqa sözlə desək, irfana üz tutan hər bir şəxs mütləq sufi də olmalıdır, ya yox?

## *İRFAN VƏ ARİF HAQQINDA İZAH*

«Kəlam» və «fəlsəfə» elmi həqiqətə çatmaq üçün iki müxtəlif üsul hesab olunur. Filosof və mütəkəllimlər (kəlam alimləri) özlərinə məxsus vasitələrdən istifadə edərək qarşılaşdıqları mövzuların açıqlanmasında (həqiqi mahiyyətinə yol tapmaqda) bu iki vasitədən istifadə edirlər. İrfanın da həqiqətə çatmaq üçün özünəməxsus üsulu vardır. Lakin burada istifadə olunan vasitə fəlsəfə və kəlamda istifadə olunan vasitələrdən bir qədər fərqlidir. Belə ki, əgər fəlsəfə və kəlamda əql və istdidlaldan istifadə olunurdusa, irfanda həqiqətə çatmaq üçün işraq, zövq, vüsul və ittihad kimi daxili hisslərdən istifadə olunur. Bu səbəbdən də irfani bəhslər nəzəri deyildir. Burada həqiqətə çatmaq üçün ilk növbədə mə`nəvi və ruhi saflığa nail olmaq lazımdır. Çünki irfan ilahi əzəməti qəlbin gözü ilə müşahidə etməkdən ibarətdir.

Arif həqiqəti bilmək yox, onu dərk etmək və Allahın vücudunun əzəmətində fani olmaq istəyir. Bunun üçün də o, yüksək ruhiyyə və qəlbi saflığa yiyələnməli olur. İnsanın qəlb və ruhu maddi şeylərə aludə olmamalı, heyvani hisslərdən uzaqlaşaraq tədriclə yüksələrək ilahiləşməlidir ki, Haqq dərgahına yaxınlaşa

bilsin. Bütün bunlara sırf elmi yolla nail olmaq mümkün deyildir. Elm və agahlıqla yanaşı mə᾿nəvi seyr də tələb olunur. Bu səbəbdən də irfan iki hissəyə - «nəzəri» və «əməli » irfana bölünür. Verilən izahlardan belə bir nəticəyə gəlmək olar ki, arif o kəsə deyilir ki, ruhi və mə᾿nəvi saflıqla qarşısındakı maneələri kənara qoyub həqiqəti öz vücudu ilə dərk etmiş olsun.

## *İRFAN VƏ SUFİLİYİN FƏRQİ*

İrfan və arifə dair verilən izahlardan sonra, onları sufiliklə müqaiysə edib irfanla sufiliyin bir-birindən fərqli olduğunu müəyyənləşdirə bilərik.

**Sufilik – kamal və həqiqətə çatmaq üçün dünya və maddi şeylərdən uzaq düşüb nəfsi paklıq və zahidanə həyat tərzi keçirmək deməkdir. Belə bir izahla sufilik barədə ayrı-ayrılıqda söhbət açmaq olar. Sufilər haqqa çatmaq üçün əsirlər boyu dünyaya, maddi şeylərə və nəfsani istəklərə göz yumaraq bir guşəyə çəkilib zikr, ibadət və münacatlara qapılmışlar. Lakin nəzəri irfan və irfani təfəkkür tərzi meydana gəlməklə, sufilərin böyük bir əksəriyyəti ona üz tutmuş, nəzər və rəftarlarını onunla əsaslandıraraq özlərini arif kimi qələmə verməyə başlamışlar. Bir halda ki, irfan barədə də ayrı-ayrılıqda söhbət açmaq olar. Belə ki, islam irfanı Qur᾿an, Peyğəmbər (s) və müqəddəs övliyaların buyuruq və həyat tərzindən ibarətdir. Ən yüksək fəzilətə sahib olan arif isə Peyğəmbərin (s) özü olmuşdur. Deməк, arif sufilərə xas olan şeylərə əməl etməkdən də (yun paltarlar geyinmək, təklikdə ibadətə qapılmaq və s.) həqiqəti öz vücudunda dərk edə bilər. Sufi ilə arifi bir-birindən fərqləndirən xüsusiyyətlərə gəldikdə isə, deyə bilərik ki, Mövləvi və Hafiz kimi dahi ariflər sufiləri dayaz düşüncəli, yalnız zahiri görünüşə (yun paltarlar geyinməyə və s.) diqqət yetirən, sadəlövh, təəssübkeş insanlar, arifləri isə dərin düşüncəyə malik olan ziyalı və qəlbləri ilahi nurla alovlanan bir şəxsiyyət hesab etmişlər.**

**Əbu Əli İbni Sina zahid, abid və arif sözünü belə izah edir: Dünya malına göz yumanlar zahid, ibadətə hər şeydən çox diqqət yetirənlər abid, qəlbi daim ilahi nurla alovlanan, fikir və düşüncəsi yalnız Onun dərgahına ucalan şəxslər isə arif adlanır.**

**Verilən izahdan belə bir nəticəyə gəlmək olur ki, ariflər üçün verilən ad, yalnız zahidanə həyat tərzi keçirən və dünya malına göz yuman şəxslərə şamil olunmur.**

**Nəzərə çarpan ikinci əsaslı fərq bundan ibarətdir ki, ariflər bütün Qur᾿an ayələrini və şər᾿i hökmləri qəbul edir, bə᾿zi sufi təriqətlər isə şər᾿i hökmlərin zahirinə əməl etməyi lazım bilmirlər. Bə᾿ziləri isə, yüksək ruhani məqama çatdıqdan sonra əməli olaraq həyata keçirilməsini qəbul edir. Bu səbəbdən də «sufi arif» o şəxsə deyilir ki, sufiliyə e᾿tiqadı olmaqla yanaşı, bütün şər᾿i**

**hökmlərə də əməl etsin. Hərçənd ki, bu dəstəyə aid olan sufilər azlıq təşkil edir.**

**Yuxarıda qeyd olunanlardan belə bir qənaətə gəlmək olur ki, bə`zi ariflər sufidir, amma bütün sufilər arif deyildir. Tarixə nəzər saldıqda da biz bu həqiqətin şahidi oluruq. Belə ki, tarix boyu bir çox görkəmli ariflər heç vaxt sufi tərzi-təfəkkürü, rəftar və davranışları ilə müvafiq olmamışlar. Onlardan bə`ziləri hətta bu barədə kitablar da yazmışlar. Molla Sədra kimi məşhur olan Sədrul Mutəəllihin Şirazi, Molla Möhsin Feyz Kaşani, Qazi Əbu Səid Qumi, Şeyx Bəhai, Mir Findirski, Mirdamad, Mirzə Hüseynqulu Həmədani, Mirza Cavad Məliki Təbrizi, Mirzə Məhəmməd Şahabadi və irfani kamala nail olmuş bir çox dahi arifləri buna misal çəkmək olar. Onlar yazdıqları kitabların heç birində sufilərin yun paltarlar geymək, cəmiyyətdən və ailədən uzaq düşərək xanəgahlarda ibadətə qapılmaq kimi ən`ənələri haqda söhbət açmamışlar. Digər tərəfdən də tarixə nəzər saldıqda irfandan heç bir bəhrə əldə etməyən və yalnız yun paltarlar geyərək ömürlərini xanəgahlarda ibadətlə keçirən və bundan razı olan bir çox sufi təriqətləri ilə qarşılaşırıq. Onlar uzun illər boyu dar düşüncəyə malik olduqları üçün daim Mövləvi və Hafiz kimi böyük şəxsiyyətlər tərəfindən tənqid və istehza olunmuşlar.**

* * *

Deyilənlərdən belə mə`lum olur ki, hər bir arifin eyni zamanda sufi olmasına heç bir zərurət yoxdur. Sufi olmadan da arif olmaq tamamilə mümkündür. Lakin bə`ziləri nəzəri irfanla tanış olduqdan sonra sufiliyi qəbul etmişlər. Buradan belə bir sual meydana gəlir. Sufiliklə həqiqi irfana nail olmaq olarmı? Bu sual bid`ətin islam dinində haram və Allahın qəzəbinə səbəb olması üçün böyük əhəmiyyət kəsb edir. Sufilərin, meydana gətirdikləri bid`ətlərlə Allaha yaxınlaşması və şəriətdə olmayan bir çox rəftarlarla həqiqəti özlərində dərk etməsi mümkündürmü? Allahın qəzəbinə səbəb olmaqla, Ona yaxınlaşmaq olarmı? Bu suallara o zaman cavab tapmaq olar ki, sufilərin həyat tərzinə nəzər salıb, onların əməllərinin islam şəriəti ilə müvafiq olub-olmamasını yoxlayaq. Bu haqda növbəti dərsimizdə söhbət açacağıq.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. İrfanı izah edin.
٢. İrfanın fəlsəfə və kəlam elmi ilə fərqi nədən ibarətdir?
٣. İrfanla sufiliyin fərqi nədədir?
٤. İrfanla sufilik arasında nə kimi əlaqə vardır və nə üçün?
٥. Ariflərdən bə`ziləri sufilərə nə kimi nöqsanlar tutmuşlar?

# ƏLLİ SƏKKİZİNCİ DƏRS

Sufilik nəyə əsaslanır?
Sufiliyin qayda və məramları nədən ibarətdir?

## *SUFİLİK*

Sufiliyi müstəqil cərəyan kimi digər məzhəb və firqələrdən fərqləndirən xüsusiyyət varsa, o da onun özünəməxsus qayda və adət-ən῾ənələridir. Sufilik varlığın həqiqəti hesab etdiyi bəzi əqidə üsullarına əsaslanır ki, onlara çatmaq üçün bir sıra qayda-qanunlar müəyyənləşdirmişdir. Bu dərsimizdə Sufiliyin ideoloji əsasları və adət-ən῾ənələri haqda söhbət açacağıq.

## *١.SUFİLİYİN ƏQİDƏ ƏSASLARI*

**Sufiliyin ən mühüm əsasları aşağıdakılardır:**

**١. Tövhid və vəhdəti-vücud;**

Sufilər təkallahlığı vəhdəti-vücud kimi mə῾nalandırırlar. Yə῾ni, varlıq yeganə həqiqətdən ibarətdir və batində özünün kamil birliyi ilə hər növ təfriqə və çoxluqla tam ziddir. Varlıq, çoxluğu əks etdirən zahirdən ibarətdir və bu çoxluqlar zahiri olub varlığın həqiqəti deyil, görünüşü hesab olunurlar. Bu bəhs haqqında nəzəri irfanda geniş şəkildə söhbət açılmış, dəlil və sübutlar gətirilmişdir. Sufilər isə onu öz əqidə və dünyagörüşlərinin əsası kimi qəbul etmişlər.

**٢. Eşq;**

Sufiliyin əsaslarından birini də irfani üsullardan olan «eşq» təşkil edir. Ariflər Allaha qarşı olan sonsuz eşqi insanın Allaha yaxınlaşmağının və Onun razılığını qazanmağın ən başlıca amili hesab edirlər. Allaha olan eşq insanda Allahın sevdiyi şeylərə qarşı məhəbbət yaradır. İlahi yolun yolçusu Allaha qovuşmaq üçün ilk növbədə Onun razılığını qazanmalıdır. Bu səbəbdən də Allaha və Onun adının məzhəri olan hər bir varlığa qarşı öz sevgi və məhəbbətini biruzə verməlidir. Sevgi və istəyin bu şəkildə zahir edilməsi irfanda eşq adlanır və bu, məhəbbətin yüksək dərəcəsidir.

**٣. Fəna;**

Arif və sufilər belə bir əqidədədirlər ki, insan vəhdət məqamına çatmaq üçün sözün əsl mə῾nasında Allahın vücudunda fani olmalıdır. Fəna insanın

xudpəsəndliyi və Allaha xas olmayan bütün xüsusiyyətləri özündən uzaqlaşdırıb bütün ilahi xislətlərə yiyələnməsinə və tam mə᾽nada Allahın əmrinə tabe olmasına deyilir. Bu mərhələyə çatdıqdan sonra Allahdan başqa bir varlıq görməməli və Onun istək və iradəsindən başqa heç bir şey istəməməlidir.

**٤. Vilayət;**

Vilayət irfanda rəhbərlik, məhəbbət, yaxınlıq və Allahın zati xüsusiyyətlərindən birinə deyilir. Belə ki, bunun əsasında bütün məxluqat, o cümlədən insanlar Allah-taalanın mütləq ixtiyarı altındadır. Övliyaların (imamların) vilayəti [rəhbərliyi] ilahi vilayətdən irəli gəlir. Bunun üçün də vəli o şəxsə deyilir ki, Allahın müqəddəs zatında fani olaraq insanların hidayətini öz üzərinə götürmüş olsun.

Arif və Sufilər vilayətin fasiləsiz olaraq davam etməsini zəruri hesab edirlər. O, bütün dövrlərdə insanlar arasında olmalıdır və Allaha yaxınlaşmaq istəyən şəxslər onun hidayətindən bəhrələnməlidirlər.

**٥. Şəriət və təriqət.**

Sufilər şəriəti zahid və abidlərin kamala çatmaları üçün vasitə hesab edirlər. Kamala çataraq həqiqətə qovuşduqdan sonra şər᾽i vəzifələr onların üzərindən götürülür. Bunun üçün də şəriətin zahirinə əməl etməyi adi insanların vəzifəsi hesab edirlər. Lakin mə᾽nəvi seyrdə olanlar üçün yəqinə çatanadək şər᾽i hökmlərə əməl etməyi zəruri hesab edirlər. Bu səbəbdən bir çox sufi firqələri Sufiliyin ilkin mərhələsində olanlara vacib və müstəhəb şər᾽i hökmləri yerinə yetirmələrinə tə᾽kid etmişlər. Lakin özlərinin dedikləri kimi, fəna məqamına çatdıqdan sonra bütün şər᾽i hökmlər götürülmüş olur. Sufilərlə müxalif olanların əsas dəlillərindən biri onların şər᾽i hökmlərə diqqət yetirməmələridir. Müxaliflər Peyğəmbərin (s) həyatını misal gətirərək onlardan soruşurlar ki, o həzrət ömrünün axırına qədər şəri hökmlərə əməl etməmişdimi və ya bunların çatmaq istədiyi məqama çatmamışdımı?

Sufilərin şəriətlə yanaşı, təriqətə də e᾽tiqadları olmuşdur. Onlar belə bir əqidədə olmuşlar ki, şəriət dinin zahiri görünüşüdür, onun batini isə təriqətdir. Bunun üçün də ilahi yolun yolçusu dinin zahirindən keçərək onun batininə qovuşmalıdır. Və zahiri əməlləri yerinə yetirmək əvəzinə, batinə diqqət yetirməlidir. Bu isə tərkidünyalıq, daimi zikr, varlığın ilkin mənşəyinə diqqət yetirmək, sədaqət və ixlasa riayət etməkdən ibarətdir.

## ٢. *SUFİLİYİN QAYDA-QANUNLARI*

Mə᾽nəvi saflığa və fəna məqamına çatmaq üçün sufilər özlərinə xas olan qayda-qanunlar icad etmişlər:

**١. Riyazət (ruhi məşğələlər);**

Riyazət – insanın özünü haram şeylərdən çəkindirməyə və vacib olan şeylərə əməl etməyə adət etdirməsinə deyilir. İslam əxlaq və irfanı bu məsələyə xüsusi diqqət yetirmiş və bu barədə dini rəhbərlər tərəfindən çoxlu tövsiyələr olunmuşdur. Lakin sufi təriqətində müşahidə olunan riyazət şər˒i riyazətdən olduqca fərqlidir. Sufilər nəfsin riyazətini «nəfsi öldürmək» kimi qələmə verir, ruhun maddi və dünyəvi bağlılıqdan yaxa qurtararaq mə˒nəvi aləmə ucalması üçün bütün nəfsani istəklərinə mənfi cavab verirlər. Bütün nəfsani istəkləri, o cümlədən ailə qurmaq, ev-eşik sahibi olub asayişə yiyələnmək, münasib paltarlar geymək, dadlı yeməklər yeməmək və s. işlər Sufi riyazətlərindən hesab olunur.

**٢. Xanəgah;**

Xanəgah, sufilərin yaşayış və dini mərasimlər keçirdikləri yerlərə deyilir. Zikr, vəcdə gəlmək, çillə çıxarmaq və bu kimi mərasimlər xanəgahlarda keçirilir. Bütün xanəgahlarda mürşidlər üçün ibadət və mərasimləri keçirmək məqsədilə xüsusi yerlər nəzərdə tutulmuşdur. Xanəgahlara girmək və orada məskunlaşmağın özünəməxsus qayda-qanunları vardır.

**٣. Xirqə;**

Xirqə, pir və mürşid tərəfindən sınaqdan müvəffəqiyyətlə çıxmış ilahi yolun yolçusunun əyinlərinə geyindikləri kiçik parçalardan tikilmiş gen paltarlara deyilir. Xirqə iki növdən ibarətdir: İradət və təbərrük xirqəsi. Müriddə mə˒nəvi seyrə sədaqət və həqiqi istək müşahidə olunduqda, şeyx tərəfindən ona iradət xirqəsi geyindirilir. Beləliklə, bir növ ona Allah tərəfindən bəşarət və müjdə verilir. Təbərrük xirqəsi isə mürşidin şeyxdən təbərrük alması üçün geyinilir.

**٤. Şeyx və mürşid;**

Sufilər ilahi yolun yolçusunun ən yüksək məqamını xirqə geyinməkdə, pir və şeyxlik dərəcəsinə çatmaqda görürlər.

Pir, şeyx və ya mürşid o şəxsə deyilir ki, ilahi yolun yolçusuna keçdiyi bütün mərhələlərdə yol göstərib, onu düzgün istiqamətləndirmiş olsun. Mürid şeyxin qarşısında təslim olmalıdır və heç bir ixtiyara malik deyildir. Pir və mürşidə «qütb» də deyilir.

**٥. Sima;**

Sima, sufilərdən birinin avaz oxuyub başqalarının dinləməsinə, ya cəm halda ney və dəflə avaz oxumalarına və ya heç bir musiqi aləti olmadan rəqs edərək vəcdə gəlmələrinə deyilir. Sima məclisləri və avaz oxumaq sufilərin haldan-hala düşmələri üçün təşkil olunur.

**٦. Şəthiyyat.**

Şəthiyyat, sufilərin sima məclislərində vəcdə gəldikdən sonra ixtiyarsız olaraq dedikləri sözlərə deyilir. Şəthiyyat iki hissədən ibarətdir:

١. İlahi eşqin yüksək dərəcələrinə çatdıqlarına dair etdikləri iddialar; Belə bir yüksək məqama çatmaları onları dua və ibadətdən ehtiyacsız etmişdir. Onlardan

bə᾽ziləri iddia etmişlər ki, Allahla onlar arasında olan bütün maneələr götürülmüşdür və hətta Onun dediklərini də eşidirlər. «Ənəl həqq», «Sübhani, sübhani, ma əzəmə şə᾽ni» (Mənəm haqq) və (pakam mən, pakam mən, şə᾽nim nə qədər də böyükdür...) və s. ifadələr sufi şəthiyyatlarından hesab olunur.

٢. Kimsənin mə᾽na və məfhumunu başa düşə bilmədiyi cümlələr. Bunlar dinləyicini özünə cəlb edən gözəl və aldadıcı ibarətlərdən savayı bir şey deyildir.

Sufilərin istifadə etdikləri digər ifadələrə də «tamat» deyilir və bu onların şər᾽i ibadətləri özünün zahiri və həqiqi mə᾽nalarından, batini və fərz olunmayan mə᾽nalarda işlətmələridir.

* * *

Sufiliyin adət-ən᾽ənələri və qayda-qanunları haqda ətraflı söhbət açdıqdan sonra, onların əqidə və şəriət əsaslarını İslam dini ilə tətbiq etməyi oxucuların ixtiyarına buraxırıq. Bir qədər dərindən fikirləşdikdə, onların hansı birinin islam dininin əqidəvi və şər᾽i əsasları ilə müvafiq olub-olmadığı aşkara çıxır. Peyğəmbərin (s) buyuruq və həyat tərzi müsəlmanların haqq yoldan uzaq düşməmələri üçün ən gözəl örnək və əxlaq nümunəsidir. Ondan sonra da sadiq davamçılarının həyat tərzini onun sünnə və buyuruqları ilə müqayisə edərək bu təriqətin [sufiliyin] nə dərəcədə doğru-düzgün olmasını müəyyənləşdirmək olar.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Sufilərin tövhidə olan baxışı nədən ibarətdir?
٢. Eşq nə deməkdir və irfanda nə kimi rol oynayır?
٣. Fənanı izah edin.
٤. Sufilik vilayət barədə hansı əqidədədir?
٥. Şəriətlə təriqətin fərqi nədən ibarətdir?
٦. Sufilər riyazəti necə tə᾽rif edirlər?
٧. Sima nə deməkdir?
٨. Şəth nə mə᾽na daşıyır?

# ƏLLİ DOQQUZUNCU DƏRS

Sufilik neçə firqəyə bölünür?

## *SUFİ FİRQƏLƏRİ (١)*

**Sufi firqələrinin hər birinin müəyyən qütb və ya qütblərdən birinə aid olması, onların sayının həddindən artıq çox olmasına səbəb olmuşdur. Bunun üçün də sufi firqələrinin sayını dəqiq şəkildə göstərmək olduqca çətin bir işdir. Növbəti iki dərsimizdə bu firqələrin ən məşhurları haqda qısa şəkildə danışacağıq.**

**١. Üveysisiyyə;**

Bu firqəni Üveys Qərəniyə mənsub edirlər və onun üzvləri də özlərini onun davamçıları sayırlar. Üveys Qərəni tabeinlərdən* olmuş, öz təqvası ilə müsəlmanlar arasında şöhrət qazanmışdır. Əlbəttə o, bu firqəni təʾsis etməmişdir, sadəcə olaraq yüksək fəzilət və əxlaqi xüsusiyyətlərə malik olduğu üçün bəzi müsəlmanlar özlərini onun davamçıları hesab etmişlər. Bu firqə ardıcıllarının şeyx və müridləri olmamışdır.

**٢. Kumeyliyyə;**

Bu firqənin üzvləri özlərini Kumeyl ibni Ziyad Nəxəiyə mənsub etmişlər. Kumeyl də Üveys kimi tabeinlərdən olmuş və Əli ibni Əbu Talibin (ə) yüksək rəğbətini qazana bilmişdir. O, Əli əleyhissəlamdan islam maarifinin bir çox sirlərini öyrənmiş, hikmətamiz xütbə və duaları ondan təʾlim almışdır. Məşhur Kumeyl duası da məhz onun adı ilə bağlıdır. Kumeyl də bu firqəni təʾsis etməmişdir, lakin Kumeyliyyə firqəsinin tərəfdarları belə bir əqidədə olmuşlar ki, onların firqəsi Kumeyl qütbündən, o da bunu Əli ibni Əbu Talibdən almışdır.

**٣. Ədhəmiyyə.**

Bu firqənin üzvləri İbrahim ibni Ədhəm Bəlxinin tərəfdarlarıdır. İbni Ədhəm Sufi təriqətinin böyük şəxsiyyətlərindən olmuşdur və bütün Sufi firqələri ona xüsusi hörmət və ehtiramla yanaşmışlar. İbrahim Ədhəmin tərcümeyi-halında deyilir ki, o əvvəllər Bəlxin padşahı və bütün şahlar kimi böyük var-dövlət sahibi olmuşdur. Bir gün axşam çağı yatağında istirahət etdiyi zaman evin damından bir səs eşidir. Soruşur: Kimdir? Evin damından bir şəxs cavab verir ki, dəvəmi itirmişəm, onu axtarıram. İbrahim deyir: Ey nadan, dəvə damda nə gəzir? Şəxs cavab verir: Ey qafil insan, bəs sən niyə Allahı atlas paltarlarda və qızıllı taxtlarda

axtarırsan?! O bu sözlərdən heyrətə gələrək gecəni səhərədək yatmır. Həmin günün sabahı kədərli halda öz taxtında oturarkən hamının gözü qarşısında olduqca heybətli bir şəxs saraya daxil olur. Qulluqçular onun qorxusundan içəri girə bilmirlər. Həmin şəxs İbrahimə tərəf gəlib taxtın qarşısında dayanır.

İbrahim soruşur: Nə istəyirsən?

Şəxs deyir: İstəyirəm bu mehmanxanada bir qədər istirahət edim.

İbrahim deyir: Dəli olmusan? Bura mehmanxana deyil, mənim qəsrimdir.

O soruşur: Bura səndən əvvəl kimin olmuşdur?

Atamın - deyə, İbrahim cavab verir.

Şəxs soruşur: Bəs ondan əvvəl?

İbrahim deyir: Atamın atasının.

Həmin şəxs sualını təkrar edərək soruşur: Bəs ondan əvvəl kimin olmuşdur?

İbrahim deyir: Filan şəxsin.

Şəxs bir daha soruşur: Onların aqibəti necə olmuşdur?

İbrahim cavab verir: Hamısı ölmüşlər.

Həmin şəxs deyir: Əgər bura mehmanxana deyilsə, onda bəs nə üçün biri gəlib, digəri gedir?

İbrahim bu sözlərdən mütəəssir olaraq ov bəhanəsi ilə qəsrindən xaric olur və yolda öz adamlarından uzaqlaşaraq həqiqətə qovuşmaq üçün səhraya üz tutur.[١]

٤.Söhrəvərdiyyə;

Bu firqə Əbu Həfs Ömər ibni Əbdullah Söhrəvərdiyə mənsubdur. Onlar Mə`rufiyyə adlanan başqa bir sufi firqəsinin bir qolunu təşkil edirlər. Mə`rufiyyə firqəsi isə Mə`ruf Kərxiyə mənsubdur. Mə`ruf Kərxi ٨-ci imam Əli ibni Musa Riza ilə bir dövrdə yaşamışdır. Onun tərəfdarları belə bir əqidədə olmuşlar ki, Mə`ruf öz xirqəsini imam Rizadan (ə) almışdır. Lakin imamiyyə ardıcılları bu iddianı qətiyyətlə rədd edirlər. Söhrəvərdiyyə firqəsinin tərəfdarları Hindistan, Pakistan və Əfqanıstanda yaşayırlar. Onlar özlərini ١-ci xəlifə Əbu Bəkr Siddiqin tərəfdarları hesab etdikləri üçün Siddiqiyyə adı ilə də məşhur olmuşlar.

**٥. Mövləviyyə;**

Türkiyədə meydana gəlmiş sufi firqələrindən birini təşkil edir. Bu firqənin tərəfdarları özlərini, Mövləvi kimi şöhrət tapmış Cəlaləddin Məhəmməd Bəlxiyə mənsub edirlər. Mövləvi irfan və sufi təriqətinin görkəmli şəxsiyyətlərindən biri hesab olunur. Onun «Məsnəvi» və «Şəms Təbrizinin divanı» adlı iki kitabı sufi və ariflər arasında daha çox şöhrət tapmışdır. Mövləvi Hicrətin ٦٧٢-ci ilində vəfat etmiş və Türkiyənin Konya şəhərində dəfn olunmuşdur. Onun qəbri sufilərin ziyarətgahı hesab olunur.

٦. Ne`mətullahiyyə;

---

[١] Təzkirətul-övliya, Əttar Nişapuri

Bu firqə Şah Ne᾽mətullah Vəli Kermaniyə mənsub olan məşhur sufi təriqətidir. O, Hicrətin ٨-ci əsrinin məşhur sufilərindən olmuş, Seyyid və ya Şah ləqəbi ilə şöhrət qazanmışdır. Şah Ne᾽mətullah Vəli Hicrətin ٧٣٠-cu ilində Hələbdə dünyaya gəlmiş və ٨٤٣-cü ilində Kermanın tabeliyində olan Mahan şəhərində vəfat etmişdir. Qəbri sufilərin ziyarətgahına çevrilmişdir. Şah Ne᾽mətullah Vəli sufi təriqətinə mənsub olduğu üçün şöhrət tapmışdır və hal-hazırda bir çox tərəfdarları vardır. Şah Ne᾽mətullahın divanı müasir dövrə də gəlib çıxmışdır və bu şe᾽rlərin əksəriyyətini «vəhdəti-vücud» mövzusu təşkil edir.

**٧. Hürufiyyə;**

Hürufilər «Hürufi» ləqəbi ilə şöhrət tapmış Fəzlullah Nəimi Əstərabadinin tərəfdarlarıdırlar. Fəzlullah Əstərabadi Hicrətin ٧٤٠-cı ilində Əstərabadda dünyaya gəlmişdir və ٧٩٦-cı ildə Teymurləngin oğlu Miran şah tərəfindən qətlə yetirilmişdir. Əstərabadi belə bir əqidədə olmuşdur ki, bütün hərflər müqəddəsdir və hər bir hərfin öz sirri vardır. O Allahın nurdan ibarət olduğunu və bədən üzvlərinin əlifba hərflərinə oxşar olduğunu hesab etmişdir. Məsələn, əlifbanın ilk hərfi olan «Əlef» onun ayağı, «Ayn» hərfi onun gözü və s. Beləliklə, o bütün hərfləri müqəddəs hesab etmişdir.

**Hürufilər belə bir əqidədədirlər ki, hərflər gözəl simalarda təcəlli olunurlar. Bu səbəbdən də gözəl görünüşə malik olanlar müqəddəsdir və başqalarından daha çox sevilməyə layiqdirlər. Onların əqidəsinə görə, Allah-taala ərş* və sidrətul-muntəhanı* insanın surətində gizlətmişdir və Peyğəmbərin (s) me᾽racı öz surətinin cizgilərini başa düşmək və həmin cizgilərdə ilahi fəzli müşahidə etməklə baş vermişdir.**

Şiələrin ğulat və mürtəd hesab etdikləri hürufi təriqəti belə bir əqidədə olmuşdur ki, Allah insanın vücudunda təcəlli edir və bu təcəlli peyğəmbərlərin, müqəddəs övliyaların vücudunda baş verir. Bu silsilə Peyğəmbərdən (s) sonra Əli ibni Əbu Talibə və ondan sonrakı imamlara keçmiş, on birinci imam Həsən ibni Əli Əskəridən sonra Fəzlullah Əstərabadidə başa çatmışdır. Bunun üçün də o övliyaların sonuncusu hesab olunur. Əstərabadidən sonra vilayət silsiləsi ilahiləşmiş və o, bu mərhələnin də ilahi məzhərinə çevrilmişdir.

**٨. Nöqtəviyyə;**

Nöqtəviyyə firqəsinin Məhəmməd Pəsixani Gilaniyə mənsub olduğu göstərilir. Deyilənlərə görə o, əvvəllər Əstərabadinin tərəfdarlarından olmuş, lakin təkəbbür və xudpəsəndliyi üzündən Fəzlullah onu özündən uzaqlaşdırmışdır. Beləliklə, Məhəmməd müstəqil firqə təşkil edərək onu öz adı ilə yə᾽ni, «Pəsixaniyyə» adlandırmışdır. Onlar torpağı «nöqtə» adlandırdıqları və hər şeyin ondan yarandığına etiqad bəslədikləri üçün Nöqtəviyyə də adlandırılmışlar.

Onların əqidəsinə görə, peyğəmbərlik su, vilayət torpaq və onların hər ikisinin cövhəri isə duzdur. Bunun üçün də bu firqənin ardıcılları su, torpaq və duzu müqəddəs sanır və suyu həzrət Fatimənin (ə) mehriyyəsi* hesab edirlər.

Nöqtəviyyənin digər e᾽tiqadlarından biri də budur ki, Qur᾽an «Fatihə» (Həmd) surəsində xülasələnmişdir. Onların fikrincə, bu surənin özü Bismillah ayəsində, Bismillah ayəsi «be» hərfində və «be» hərfi isə onun nöqtəsində yerləşdirilmişdir. Əli ibni Əbu Talib (ə) da həmin nöqtə hesab olunur. Bu firqəyə görə, Əli ibni Əbu Talib (ə) ümumi vilayətə sahib olduğu üçün Əbu Turab (torpağın atası) sayılır.

**٩. Bektaşiyyə;**

Bu firqə Hacı Bektaş ləqəbi ilə məşhur olan Seyyid Məhəmməd Rəzəvi tərəfindən tə᾽sis olunmuşdur. Tərəfdarlarının əksəriyyəti Balkan yarımadasında və Türkiyədə məskunlaşmışlar.

Bektaşiyyə tərəfdarları Hürufi firqəsindən hesab olunur və Fəzlullah Əstərabadiyə böyük hörmət və ehtiramla yanaşırlar. Bektaşiyyənin Ğulatlarla bir çox oxşar cəhətləri olduğu üçün şiə və sünni məzhəbləri onların mürtəd və islamdan xaric olduqlarına dair fətva vermişlər. Çünki Bektaşiyyə məsihi dinindən mütəəssir olaraq üçlük əqidəsinə etiqad bəsləmişlər. Məsihilərin müqəddəs hesab etdikləri üçlüyü - Ata, Oğul, Ruhul-qudus»u «Allah», «Məhəmməd», «Əli» üçlüyü ilə əvəz etmişlər. Həmçinin şərabı haram hesab etmədikləri üçün təşkil etdikləri «Rəbbani gecələrində» süfrəyə çörək, şərab və pendir qoyur və məsihilər tək «e᾽tiraf» mərasimləri quraraq şeyxlərinin qarşısında günahlarını iqrar edirlər. Bektaşiyyədə hicab hökmü də ləğv edilmişdir.

**١٠. Səfəviyyə.**

**Səfəviyyə Söhrəvərdiyyə firqəsindən ayrılaraq müstəqil şəkildə fəaliyyət göstərməyə başlamışdır. Səfəviyyə firqəsinin tərəfdarları cənubi Azərbaycanda, xüsusilə Ərdəbildə məskunlaşmışlar. Firqəyə rəhbərliyi Şeyx Səfiyəddin Ərdəbili öz üzərinə götürmüşdür. Bu firqə Hicrətin ٩٠٧-ci ilində Şah İsmayılın rəhbərliyi ilə Səfəvilər hökumətini tə᾽sis etmişlər.**

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Üveysiyyə və Kumeyliyyə tərəfdarları özlərini kimə mənsub edirlər?

٢. İbrahim Ədhəm kim olmuş və nə kimi işlər görmüşdür?

٣. Söhrəvərdiyyə tərəfdarları hansı firqədən ayrılmış və hansı məntəqələrdə sakin olmuşlar?

٤. Hürufiyyə firqəsinin əqidə əsaslarını bəyan edin.

٥. Nöqtəviyyənin nə kimi e᾽tiqadı olmuşdur?

٦. Bektaşiyyə hansı əqidənin tə᾽siri altına düşmüşdür?

# ALTMIŞINCI DƏRS

Sufilik neçə firqəyə bölünmüşdür?
Sufi firqələrinin adları hansılardır?

## *SUFİ FİRQƏLƏRİ (٢)*

١١. Əhli həqq;

**Əhli həqq dərviş məsləkli sufi firqələrindən olmuşdur. Əli ibni Əbu Talibə qarşı məhəbbətdə ifrata vardıqları üçün «Əliyullah» kimi də məşhur olmuşlar. Onlar bu adı öz üzərlərindən götürmələrinə və Allahın Əli ibni Əbu Talibə hülul etməsinə dair onlara aid olunan e᾽tiqadı rədd etmələrinə baxmayaraq, bə᾽zi ifratçı əqidələrinə görə ğulatlardan hesab olunmuş, sünni və şiə alimləri tərəfindən küfr etməkdə ittiham edilmişlər.**

Əhli həqq tərəfdarlarının əksəriyyəti İranın qərb və İraqın kürdlər yaşadığı məntəqədə məskunlaşmışlar. Onları başqalarından fərqləndirən ən başlıca xüsusiyyətlərindən biri də, dodaqlarının üstünü örtən uzun və qalın bığ saxlamaları olmuşdur. Əhli həqq belə bir əqidədədir ki, Əli ibni Əbu Talib bığını azaltmamış və ömrünün sonunadək belə qalmışdır. Bunun üçün də Əhli həqq bığlarını qırxmağı günah və olduqca qəbahətli bir iş hesab etmişlər.

Onlar özlərinin dərin və tarixi köklərə yiyələndiklərini güman etmiş və belə bir əqidədə olmuşlar ki, onların firqələri Hicrətin ٢-ci əsrində meydana gəlmiş, ٧-ci əsrdə isə yeni mərhələyə başlamışdır. Bə᾽zilərinə görə bu firqə ٤-cü əsrdə Şah Xuvəysin ləqəbi ilə məşhur olan «Mübarək şah» tərəfindən tə᾽sis edilmişdir. Şah Xuvəysin İranın Loristan nahiyəsində sufi qütblərindən və sufi təriqətlərindən birinin rəhbəri olmuşdur. Ölüm ayağında öz tərəfdarlarına, vəfat etdikdən yüz il sonra Soltan Səhhak, ya İshaq adlı şəxsin cisminə hülul edərək onların rəhbərliyini öz üzərinə götürəcəyini və᾽də vermişdir. Beləliklə, Əhli həqq tərəfdarları illər boyu Səhhakın intizarında olmuş, nəhayət onu taparaq ətrafına toplaşmışlar. Onların tənasüx və hülul nəzəriyyəsinə olan e᾽tiqadları da məhz buradan nəş᾽ət tapmışdır. Çünki Əhli həqq belə bir əqidədə olmuşdur ki, ölüm, ruhun günahdan təmizlənməsi üçün cismin birindən digərinə keçmə vasitəsidir. Belə ki, ruh ikinci cismə keçməklə daha da ucalaraq ilahiləşir. Şah Xuvəysin öz tərəfdarlarına tə᾽lim verdiyi hülul məsələsi (öz ruhunun Soltan Səhhakın cisminə keçəcəyi) onlar üçün əqidəyə çevrilmişdir və bu etiqad hələ də qalmaqdadır.

Əhli həqqin islam, zərdüşt, yəhudi, məsihi, mani və hind dinlərindən meydana gəlmiş əqidə əsasları «Başlanğıc» adlı kitablarında ətraflı izah edilmişdir. Əhli həqq İslam dininin vacib etdiyi ibadi məsələləri qəbul etmir və özlərinə xas olan ibadətlər yerinə yetirirlər. Əlbəttə, ilk mərhələdə şəriət adlandırdıqları mə᾽nəvi seyri lazım bilirlər. Lakin bu mərhələni arxada qoyduqdan sonra, yə᾽ni təriqət, mə᾽rifət və həqiqət mərhələsinə qədəm qoyduqları zaman, artıq şər᾽i ibadətlərin yerinə yetirilməsində heç bir lüzum görmürlər. Əhli həqq sufiləri həftədə bir və ya bir neçə dəfə «Cəmxanə» adlandırdıqları ibadətgahlara toplanıb öz mərasimlərini «Yə Əli» zikri ilə başlayırlar. İbadət mərasimləri zərb, qaval və digər musiqi alətləri ilə davam etdirilir. Şe᾽r və digər zikirlər oxunduqdan sonra növbə sima və rəqs mərhələsinə çatır.

١٢. Məlamətiyyə;

Məlamətiyyə firqəsi Xorasan sufi təriqətlərindən olmuş və özlərini Əhli həqq hesab etmişlər. Bilmək lazımdır ki, sufi firqələrinin bir çoxu özlərini Əhli həqq kimi tanıtdırmaq istəmişlər və bu heç də onların əqidə və e᾽tiqadlarını davam etdirmək deyildir.

Məlamətiyyə, Həmdun Qəssarın davamçılarına deyilir. Onların Məlamətiyyə adlandırılmasının əsas səbəbi firqə üzvlərinin camaatın danlaq və tənqidlərini qəbul etmələri olmuşdur. (Məlamət - ərəb dilində danlamaq və tənqid etmək deməkdir). Onlar belə bir əqidədə olmuşlar ki, sufi özünün xeyirxah işlərini hamıdan gizli saxlamalı və zahirdə özünü elə göstərməlidir ki, başqaları onları danlayıb tənqid etsin. Yə᾽ni insanlar onlara təhqir gözü ilə baxıb e᾽tinasızlıqla yanaşsınlar.

**١٣. Əhli fütuvvət;**

Əhli fütuvvət və ya «cəsurların şahı» sufi tə᾽limlərinin tə᾽siri altına düşərək onların bir çox adət-ən᾽ənələrini qoruyub saxlaya bilmişdir. Onlar öz ayinlərinin (əqidə əsaslarını) azadlıq, mehribançılıq, səxavət, ehtiyacı olanlara yardım etməkdən ibarət olduğunu hesab edirlər. Belə ki, Əyyarlar adlanan bir qrup şəxs (Yə᾽qub Ləys Səffari də onlardan biri idi) yoxsullara kömək məqsədilə varlıların var-dövlətini qarət edər, oğurlanmış şeylərdən özlərinə bir şey götürmədən onu yoxsullar arasında bərabər şəkildə bölüşdürərdilər. Əlbəttə, oğurluq Əhli fütuvvət tərəfindən hamılıqla qəbul edilməmişdir.

Onlar Əli ibni Əbu Talibi özlərinə rəhbər hesab edərək Peyğəmbərin (s) Ühüd döyüşündə onun barəsində «Əlidən yaxşı bir insan və Zülfüqardan yaxşı bir qılınc yoxdur» buyurduğuna istinad edərək ona «cəsurların şahı» ləqəbini vermişdilər.

Cəsurlar ayinində xirqə «cəsur şalvarı» ilə əvəz olundu. Onlar şeyx və mürşidlərə fəxri şalvar alaraq kəmərlərini də onların əli ilə qurşayardılar.

**١٤. Qələndəriyyə;**

Qələndəriyyə sufi təriqətinin başqa bir qolunu təşkil edir və Məlamətiyyəyə yaxın hesab olunur. Onların mə᾽na və mənşəyi haqda bir çox ehtimal və fərziyyələr irəli sürülsə də, həqiqi mə᾽nası hələ də dəqiq mə᾽lum deyildir. Mə᾽lum olan bir şey varsa, o da qələndəriyyənin sufi təriqətlərinin bir qolunu təşkil etməsidir. Lakin onlardan fərqli olaraq xanəgah adət-ən᾽ənələrini və sufilik mə᾽qamını gizli saxlamağı qəbul etmirlər. Qələndəriyyənin özünəməxsus xüsusiyyətlərindən biri də baş və üz (hətta qaşlarının) tüklərini qırxıb əllərinə zənbil alaraq yolçuluq etməkdən ibarətdir. Baş və üz tükləri şeyx və mürşidlər tərəfindən qırxılar və onlara qayçı mürşid deyilərdi.

**١٥. Nəqşbəndiyyə;**

Nəqşbəndiyyə firqəsi Xacəqan kimi tanınan sufi təriqətlərinin davamını təşkil edir. Nəqşbəndiyyə Hicrətin ٦-cı əsrində Xacə Əbdülxaliq Ğuçdəvani tərəfindən tə᾽sis olunmuşdur. Hicrətin ١٠-cu əsrindən e᾽tibarən, bu firqə Xacə Bəhaüddin Məhəmməd Nəqşbəndi Buxarinin adı ilə bağlı olaraq «Nəqşbəndiyyə» kimi məşhurlaşmağa başladı və hal-hazırda Orta Asiyanın müxtəlif məntəqələrində, Hindistan və Xorasanın şimalında fəaliyyət göstərir.

**١٦. Qadiriyyə;**

Qadiriyyə firqəsi Abdul Qadir Gilani tərəfindən tə᾽sis olunmuşdur. O Hicrətin ٥٦١-ci ilində vəfat etmişdir. Bir çox xürafi əqidələrə malik olan Qadiriyyə firqəsi hal-hazırda Afrikanın şimal-qərb, Hindistan və Türkiyənin Antalya şəhərində fəaliyyət göstərir.

**١٧. Şazəliyyə;**

Şazəliyyə firqəsi Əli ibni Əbdullah Şazəli Məğribinin (٥٩١-٦٥٦ Hicri) tərəfdarları hesab olunurlar. O, şimali Afrika ölkələrinin məşhur sufi şeyxlərindən olmuşdur. Şazəliyyənin əqidə əsasları bunlardan ibarətdir:

١. İstər aşkarda, istərsə də gizlində ilahi təqvaya riayət etmək;

٢. Dil və əməldə Peyğəmbərin (s) sünnəsinə əməl etmək;

٣. Hər zaman insanlardan ehtiyacsız olmaq;

٤. Allahın bəxş etdiyi bütün ne᾽mətlərdən (istər az olsun, istərsə də çox) razı olmaq;

٥. Müsəlman, məsihi və yəhudiləri bərabər hesab etmək. Şazəliyyə firqəsinin davamçıları hal-hazırda Şimali Afrikada məskunlaşmışlar.

**١٨. Ticaniyyə;**

Bu firqə Əbu Abbas Əhməd ibni Məhəmməd Ticani (١١٥٠-١٢٣٠ Hicri) tərəfindən tə᾽sis olunmuşdur. O, Əlcəzairdə dünyaya gəlmiş və Mərakeşin Fas şəhərində vəfat edərək elə oradaca dəfn olunmuşdur. Qəbri, Ticaniyyə tərəfindən indinin özündə də ziyarət olunur. Həcc ziyarətinə getmək istəyən hər bir ticani ilk növbədə onun qəbrini ziyarət etməlidir. Hal-hazırda Afrikanın qərb və şərq ölkələrində Ticaniyyənin bir çox tərəfdarları vardır. Əmir Əbdül Qadir Cəzairi

Əlcəzairdə fransızların istismarına qarşı aparılan mübarizə hərəkatına rəhbərlik etmişdir. Çoxlu zikr demək Ticaniyyə ardıcıllarının əsas ayinlərindən hesab olunur. Firqəyə rəhbərlik edən mürşidlər öz davamçılarına müəyyən vaxtlarda zikr etməyi tövsiyə edib onlara, bunun yeni-yeni növlərini tə`lim etməlidirlər.

**١٩. Müridiyyə;**

Bu firqə ١٩-cu əsrdə Seneqalda Əhməd Vəbamba tərəfindən tə`sis olunmuşdur. Əhməd Vəbamba əvvəllər Afrikanın Qadiriyyə sufi təriqətinə mənsub olmuş, sonralar Müridiyyə kimi məşhur olan yeni sufi firqəsinin əsasını qoymuşdur. ١٨٨٧-ci ildə Seneqalda tə`sis etdiyi Tuba şəhəri Afrika sufilərinin müqəddəs dini mərkəzi olmuşdur. Müridiyyənin əqidə əsasları Ticaniyyə və Qadiriyyə firqələrinin əqidə və e`tiqadlarından ibarət olmuşdur.

**٢٠. Nurbəxşiyyə;**

Bu firqə Seyyid Məhəmməd Nurbəxşə mənsub edilir. O, Seyyid Əli Həmdaninin irfani baxışlarının tə`siri altına düşərək dinin təbliği üçün Kəşmirə getmiş və orada Həmdaninin əqidəsini geniş şəkildə yaya bilmişdir. İndinin özündə də Kəşmirlə yanaşı, Hindistan, Pakistan və İranın şərq nahiyəsində özünə bir çox tərəfdar yığa bilmişdir. Nurbəxşiyyənin əqidə əsasları İmamiyyəyə daha yaxındır, bid`ət və xurafatlardan çox az mütəəssir olmuşdur.

**٢١. Sənusiyyə.**

Sənusiyyə tərəfdarları hal-hazırda Şimali Afrikada məskunlaşmışlar. Bu firqə milliyətcə Əlcazairli olan Seyyid Məhəmməd ibni Əli Sənusi (١٢٠٢-١٢٧٦) tərəfindən tə`sis olunmuşdur. Sənusi bir tərəfdən şimali Afrika sufilərinin, digər tərəfdən də sələfiyyə əqidəsinin tə`siri altına düşərək, İslam e`tiqadlarını saflaşdırmaq məqsədilə, öz adı ilə bağlı olan bu firqəni tə`sis edir. O, belə bir əqidədə idi ki, müsəlmanların pərakəndə hala düşmələrinin və xarici dövlətlərin onların üzərində hakim olmalarının əsas səbəbi batil və yanlış ideologiyaların onların əqidəsinə tə`sir etməsidir. Bu səbəbdən də Sənusiyyənin sufi üslubu ١-ci əsrin təqva və pəhrizkarlığına qayıtmaqdan ibarət olmuşdur. Hərçənd Sələfilərə tutulan iradlar Sənusiyyəyə də şamil olunur. Lakin sufilərin sima, musiqi ilə vəcd və zikr, rəqs kimi qayda-qanunları Sənusiyyə firqəsində nəzərə çarpmır.

## *SUALLAR VƏ TAPŞIRIQLAR*

١. Əhli həqqin əqidə əsaslarını izah edin.
٢. Məlamətiyyə kimə deyilir?
٣. Əhli fütuvvət kimlərə verilən addır?
٤. Qələndərlər kimlər olmuşlar?
٥. Şazəliyyə və Ticaniyyənin əqidələrini bəyan edin.
٦. Müridiyyə və Nurbəxşiyyə kimlər tərəfindən tə`sis olunmuşdur?

٧. Sənusiyyə kimin tərəfindən tə᾽sis edilmiş və kimlərin əqidə və e᾽tiqadlarının tə᾽siri altında olmuşdur?

## *İSTİFADƏ OLUNAN MƏNBƏLƏR*

VəhHabi məzhəbi (Cə᾽fər Sübhani).

İsmailiyyə haqq və batil arasında (Haşim Osman).

Şiəliyin tarix boyu göstərdiyi səylər (Haşim Mə᾽ruf Hüseyni).

Bəhailikdə parçalanma (İsmail Rayin).

Məzhəblər və dinlər haqda bəhslər (Cə᾽fər Sübhani).

Əl-bidayə vən-nihayə (İbni Kəsir).

İrfan və sufiliyin meydana gəlməsinə dair aparılan araşdırmalar. (Əmid Zəncani).

İslamda sufiliyin yaranması (Əbdürrəhman Bədəvi).

Bəhailiyin tarixi (Bəhram Əfrasiyabi).

Şiə və islam firqələrinin tarixi (Doktor Məhəmməd Cavad Məşkur).

İslamda fəlsəfə tarixi (Miyan Məhəmməd Şərif).

İsmailiyyə əqidələrinin tarixi (Doktor Fərhad Dəftəri).

Dəruziyyə firqəsinin tarixində yeni araşdırmalar (Nəcla M. Əbu İzzuddin – mütərcim Əhməd Nəmai).

Şiəlik (Ğərifi).

İslam və İranın qarşılıqlı xidmətləri (Mürtəza Mütəhhəri).
Xəvaricin əqidələri (Həbib Tahir Şəmməri).
Zeydiyyə - tətbiq və nəzəriyyə (Əli ibni Əbdülkərim Füzeyl Şərəfuddin).
Şiə (Əllamə Təbatəbai).
İmamiyyə şiəliyi (Məhəmməd Sadiq Sədr).
Arif və sufilər nə deyirlər? (Cavad Tehrani).
Əbdullah ibni Səba (Mürtəza Əskəri).
İslam irfanı (١-ci cild) (Hüseyn Ənsariyan).
Nəzəri irfan (Yəhya Yəsribi).
İrfan və sufilik (Davud İlhami).
Ələvilər tarixdə - haqq və batil (Məhəmməd Əhməd Əli).
Ələvilər şüa dairəsində (Əli Əziz İbrahim).
Əl-fərqu bəynəl firəq (Bağdadi)
Şiə firqələri (Nobəxti).
Kəlami məzhəb və firqələr (Əli Rəbbani Gülpayiqani).
Vəhhabi firqəsi (Əllamə Qəzvini - Əli Dəvani).
Vilayət günəşi (Cə`fər Sübhani).
İrfani sözlər lüğəti (Cə`fər Sübhani).
İrfan fəlsəfəsi (Doktor Yəhya Yəsribi).
Bəhreyn Fatimiləri və Qərmətilər (Dəxəviyyə).
Kəşful İrtiyab (Seyyid Möhsin Əmin).
Seyyid Əli Məhəmməd Babın Təbriz alimləri ilə apardığı mübahisələr. (Mirzə Məhəmməd Təqi Mamaqani)
Ensiklopediya (lüğətnamə) – (Dehxoda).
Şiə ideologiyasının əsasları (İmamiyyə əqidələri – Məhəmməd Rza Muzəffər).
İrfan və sufiliyin əsasları (Doktor Məhəmməd Hüseyn Bəyat).
İrfan və sufiliyin əaslarının müqəddiməsi (Doktor Ziyauddin Səccad).
Mö`təzilə (Doktor Mahmud Fazil).
Əl-miləl vən-nihəl (Şəhristani).
Əl-muvəhhidun Əd-dəruz fil islam (Şeyx Mursəl Nəsr).
Mosuətul firəqul islamiyyə (Doktor Məhəmməd Cavad Məşkur).
Nəzəriyyətu ədalətis-səhabə (Əhməd Hüseyn Yə`qub).
Qəramətə qiyamı (Doktor Ajənd).
Vəhhabilər (Seyyid İbrahim, Seyyid Ələvi «Kəşful irtiyab»ın tərcüməsi).
Vəhhabiliyin iddiası və meydana gəlməsi (Nəcmuddin Təbəsi).
Vəhhabiliyin təhlili (Humayun Hümməti).
Şiəliyin mahiyyəti

Əl-həmdu lillahi rəbbil aləmin!

# Mündəricat


MÜQƏDDİMƏ ... ٣
BİRİNCİ FƏSİL ... ٥
KÜLLİYYAT ... ٥
DİNİ CƏMİYYƏTLƏRDƏ PARÇALANMANIN SƏBƏBLƏRİ ... ٦
MİLƏL VƏ NİHƏL ELMİ ... ٩
MİLƏL VƏ NİHƏL ELMİNİN MƏNBƏLƏRİNDƏN BƏ`ZİLƏRİ ... ٩
SUALLAR VƏ TAPŞIRIQLAR ... ١٠
İSLAM ÜMMƏTİNDƏ PARÇALANMANIN SƏBƏBLƏRİ (١) ... ١١
PEYĞƏMBƏRİN (S) DÖVRÜNDƏ İSLAM ÜMMƏTİ ARASINDA MÖVCUD OLAN İXTİLAF ... ١١
SUALLAR VƏ TAPŞIRIQLAR ... ١٤
İSLAM ÜMMƏTİNDƏ PARÇALANMANIN SƏBƏBLƏRİ (٢) ... ١٥
İSLAM ÜMMƏTİNİN İXTİLAFLARI ... ١٥
ƏQLİ BƏHSLƏRƏ VARİD OLMAQ ... ١٦
FÜRUİDİNDƏ İXTİLAF ... ١٦
İSLAM ÜMMƏTİNDƏ TƏFRİQƏNİN ƏSAS MEHVƏRİ ... ١٦
DÖRDLÜK TƏŞKİL EDƏN MƏZHƏBLƏRİN FİRQƏLƏRİ ... ١٧
SUALLAR VƏ TAPŞIRIQLAR ... ١٩
İKİNCİ FƏSİL ... ١٩
SÜNNÜ MƏZHƏBİNDƏN AYRILAN FİRQƏLƏR ... ٢٠
(ƏHLİ-SÜNNƏT) ... ٢٠
ƏHLİ-HƏDİS (١) ... ٢١
YARANMA TARİXİ ... ٢١
ƏHLİ-HƏDİSİN MƏNBƏLƏRİ ... ٢٢
SUALLAR VƏ TAPŞIRIQLAR ... ٢٤
ƏHLİ-HƏDİS (٢) ... ٢٥
E`TİQADİ ÜSULLARI (١) ... ٢٥
١. ƏHLİ-HƏDİS NÖQTEYİ-NƏZƏRİNDƏN QƏZA VƏ QƏDƏR MƏSƏLƏSİ ... ٢٥
TƏNQİD VƏ ARAŞDIRMALAR ... ٢٧
SUALLAR VƏ TAPŞIRIQLAR ... ٢٩
ƏHLİ-HƏDİS (٣) ... ٣٠
ƏQİDƏLƏR (٢) ... ٣٠
٢. ƏHLİ-HƏDİSİN İNANCLARINDA XƏBƏRİ SİFƏTLƏR ... ٣٠
XƏBƏRİ SİFƏTLƏRLƏ ƏLAQƏDAR DÖRD MƏZHƏBİN MÖVQEYİ ... ٣١
TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR ... ٣٣
SUALLAR VƏ TAPŞIRIQLAR ... ٣٤
ƏHLİ-HƏDİS (٤) ... ٣٥
ƏQİDƏLƏR (٣) ... ٣٥
٣. ƏHLİ-HƏDİSİN SƏHABƏLƏRİN ƏDALƏTİ BARƏSİNDƏKİ NƏZƏRİ ... ٣٥
TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR ... ٣٦
SUALLAR VƏ TAPŞIRIQLAR ... ٣٩
ƏHLİ-HƏDİS (٥) ... ٤٠
ƏQİDƏLƏR (٤) ... ٤٠
٤. XƏLİFƏLƏRİN XİLAFƏTİNƏ İMAN ... ٤٠
TƏNQİD VƏ ARAŞDIRMALAR ... ٤٠
٥. SULTANLARA VƏ PADŞAHLARA İTAƏT ETMƏK ... ٤٢
TƏNQİD VƏ ARAŞDIRMALAR ... ٤٢

SUALLAR VƏ TAPŞIRIQLAR........ ٤٣
MÖ`TƏZİLƏ (١)........ ٤٤
YARANMA TARİXİ........ ٤٤
MÖ`TƏZİLƏ DÜŞÜNCƏSİNİN BÜNÖVRƏ VƏ ƏSASLARI........ ٤٥
MÖ`TƏZİLƏ FİRQƏSİNİN TANINMIŞ ŞƏXSİYYƏTLƏRİ........ ٤٥
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٤٨
MÖ`TƏZİLƏ (٢)........ ٤٩
ƏQİDƏLƏR (١)........ ٤٩
TƏNQİD VƏ ARAŞDIRMALAR........ ٥٢
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٥٢
MÖ`TƏZİLƏ (٣)........ ٥٣
ƏQİDƏLƏR (٢)........ ٥٣
٤. MƏNZİLƏTUN BEYNƏL-MƏNZİLƏTEYN........ ٥٣
MÖ`TƏZİLƏ ARDICILLARININ «MƏNZİLƏTUN BEYNƏL MƏNZİLƏTEYN» HAQDA SÜBUTLARI ٥٤
TƏNQİD VƏ ARAŞDIRMALAR........ ٥٥
MÖ`TƏZİLƏ MƏZHƏBİNİN BAŞQA ƏQİDƏLƏRİ........ ٥٦
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٥٧
ƏŞ`ƏRİLƏR (١)........ ٥٨
YARANMA TARİXİ........ ٥٨
MƏZHƏBİN BANİSİ........ ٥٨
ƏŞ`ƏRİNİN MÖ`TƏZİLƏ FİRQƏSİNDƏN AYRILMASININ SƏBƏBLƏRİ........ ٥٩
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٦١
ƏŞ`ƏRİLƏR (٢)........ ٦٢
KƏLAMİ ÜSLUBLAR........ ٦٢
ƏŞ`ƏRİ MƏZHƏBİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ........ ٦٤
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٦٥
ƏŞ`ƏRİLƏR (٣)........ ٦٧
ƏQİDƏLƏR (١)........ ٦٧
ƏŞ`ƏRİNİN ALLAHIN GÖRÜNMƏSİNİN MÜMKÜNLÜYÜNƏ GƏTİRDİYİ DƏLİLLƏR........ ٦٩
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٧١
ƏŞ`ƏRİLƏR (٤)........ ٧٢
ƏQİDƏLƏR (٢)........ ٧٢
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٧٥
MATURİDİYYƏ MƏZHƏBİ (١)........ ٧٧
YARANMA TARİXİ........ ٧٧
MATURİDİ FİRQƏSİNİN BANİSİ........ ٧٧
MATURİDİNİN ELMİ ƏSƏRLƏRİ........ ٧٨
MATURİDİNİN ŞAGİRDLƏRİ........ ٧٨
MATURİDİ MƏZHƏBİNİN TANINMIŞ ŞƏXSİYYƏTLƏRİ........ ٧٩
MATURİDİNİN ƏQİDƏVİ ƏSASLARI........ ٧٩
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٨١
MATURİDİYYƏ MƏZHƏBİ (٢)........ ٨٢
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٨٥
SƏLƏFİLİK........ ٨٧
YARANMA TARİXİ........ ٨٧
CƏRƏYANIN BANİSİ........ ٨٨
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٩٠
VƏHHABİYYƏT (١)........ ٩٢
YARANMA TARİXİ........ ٩٢
FİRQƏNİN BANİSİ........ ٩٢
İDEOLOJİ ƏSASLAR........ ٩٣
MƏHƏMMƏD İBNİ ƏBDÜL VƏHHABIN MÜXALİFLƏRİ........ ٩٤
SUALLAR VƏ TAPŞIRIQLAR........ ٩٦

VƏHHABİLİK (٢) ..... ٩٧
ƏQİDƏLƏR (١) ..... ٩٧
١. ŞƏFAƏT ..... ٩٨
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ٩٩
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١٠١
VƏHHABİLİK (٣) ..... ١٠٣
ƏQİDƏLƏR(٢) ..... ١٠٣
٢. TƏVƏSSÜL ..... ١٠٣
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١٠٤
TƏVƏSSÜLÜN TƏ`RİFİ ..... ١٠٤
İBADƏTLƏR VƏ SALEH ƏMƏLLƏR ..... ١٠٥
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١٠٧
VƏHHABİLİK (٤) ..... ١٠٨
ƏQİDƏLƏR (٣) ..... ١٠٨
٣. AND İÇMƏK ..... ١٠٨
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١٠٨
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١١١
VƏHHABİLİK (٥) ..... ١١٢
ƏQİDƏLƏR(٤) ..... ١١٢
٤. NƏZR VƏ QURBANLIQ ..... ١١٢
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١١٤
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١١٦
VƏHHABİLİK (٦) ..... ١١٧
ƏQİDƏLƏR (٥) ..... ١١٧
٥. BÖYÜK ŞƏXSİYYƏTLƏRİN QƏBİRLƏRİNƏ EHTİRAM QOYMAQ ..... ١١٧
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١١٨
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١١٩
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١٢٠
VƏHHABİLİK (٧) ..... ١٢٢
ƏQİDƏLƏR(٦) ..... ١٢٢
v) CALEH BƏNDƏLƏRİN QƏBİRLƏRİ ÜZƏRİNDƏ MƏSCİD TİKMƏK ..... ١٢٢
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١٢٣
TƏNQİD VƏ ARAŞDIRMALAR ..... ١٢٦
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١٢٦
VƏHHABİLİK (٨) ..... ١٢٨
ƏMƏLLƏRİ ..... ١٢٨
İRAQA HƏMLƏ ..... ١٢٩
TAİF VƏ MƏKKƏYƏ HÜCUM ..... ١٢٩
MƏDİNƏYƏ HƏMLƏ ..... ١٣٠
SURİYAYA VƏ MƏSQƏTƏ HƏMLƏ ..... ١٣١
TƏNƏZZÜL VƏ YENİDƏN DİRÇƏLİŞ ..... ١٣١
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١٣٢
SAİR SÜNNÜ FİRQƏLƏRİ ..... ١٣٣
١. TƏHAVİYYƏ ..... ١٣٣
٢. ZAHİRİYYƏ ..... ١٣٤
٣. CÜHƏMİYYƏ ..... ١٣٥
٤. KİRAMİYYƏ ..... ١٣٦
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ١٣٦
ÜÇÜNCÜ FƏSİL ..... ١٣٧
XƏVARİC ..... ١٣٨
XƏVARİC (١) ..... ١٣٩
YARANMA TARİXİ ..... ١٣٩
HƏRURADA YIĞINCAQ ..... ١٤٠

SUALLAR VƏ TAPŞIRIQLAR ١٤٢
XƏVARİC (٢) ١٤٣
İLK XƏVARİCLƏRİN AQİBƏTİ ١٤٣
NƏHRAVANDA TOPLANTI ١٤٣
ƏLİNİN (Ə) XƏVARİCLƏ OLAN MÜNAZİRƏSİ ١٤٤
SUALLAR VƏ TAPŞIRIQLAR ١٤٦
XƏVARİC (٣) ١٤٧
FİRQƏLƏR ١٤٧
SUALLAR VƏ TAPŞIRIQLAR ١٥٠
DÖRDÜNCÜ FƏSİL ١٥١
ŞİƏLİK ١٥٢
OTUZ BİRİNCİ DƏRS ١٥٢
ŞİƏLİYİN TƏ᾽RİFİ ١٥٢
LEKSİK MƏ᾽NASI ١٥٣
İSTİLAHİ VƏ ELMİ MƏ᾽NASI ١٥٣
PEYĞƏMBƏRİN (S) HƏDİSLƏRİNDƏ ŞİƏ ANLAYIŞI ١٥٥
SUALLAR VƏ TAPŞIRIQLAR ١٥٦
OTUZ İKİNCİ DƏRS ١٥٧
ŞİƏLİYİN YARANMASI (١) ١٥٧
١. ŞİƏ MƏZHƏBİNİN PEYĞƏMBƏR (S) VƏFAT ETDİKDƏN SONRA YARANMASI ١٥٧
TƏNQİD VƏ MÜLAHİZƏLƏR ١٥٨
٢. ŞİƏ MƏZHƏBİNİN CƏMƏL VƏ YA SÜFFEYN DÖYÜŞÜNDƏ MEYDANA GƏLMƏSİ ١٥٩
TƏNQİD VƏ MÜLAHİZƏLƏR ١٦٠
SUALLAR VƏ TAPŞIRIQLAR ١٦١
OTUZ ÜÇÜNCÜ DƏRS ١٦٢
ŞİƏLİYİN YARANMASI (٢) ١٦٢
٣. ŞİƏ MƏZHƏBİNİN BÜNÖVRƏSİNİ ƏBDULLAH İBNİ SƏBA QOYMUŞDUR ١٦٢
ƏBDULLAH İBNİ SƏBANIN KİMLİYİ BARƏDƏ SÖYLƏNİLƏN FİKİRLƏR ١٦٢
ƏBDULLAH İBNİ SƏBA BARƏDƏ APARILAN İKİNCİ ARAŞDIRMA ١٦٤
٣. ALİMLƏRİN ƏBDULLAH İBNİ SƏBA BARƏDƏ İRƏLİ SÜRDÜKLƏRİ NƏZƏRLƏR ١٦٥
SUALLAR VƏ TAPŞIRIQLAR ١٦٧
OTUZ DÖRDÜNCÜ DƏRS ١٦٨
ŞİƏLİYİN YARANMASI (٣) ١٦٨
٤. ŞİƏLİK İRANLILARIN MƏZHƏBİDİR ١٦٨
A) ŞİƏLİK QOHUMLUQ ƏLAQƏLƏRİ NƏTİCƏSİNDƏ MEYDANA GƏLMİŞDİR ١٦٨
TƏNQİD VƏ MÜLAHİZƏLƏR ١٦٩
B). ŞİƏLİK ALİ-BƏVEYH TƏRƏFİNDƏN MEYDANA GƏLMİŞDİR ١٧٠
TƏNQİD VƏ MÜLAHİZƏLƏR ١٧٠
V) ŞİƏ MƏZHƏBİ SƏFƏVİLƏR TƏRƏFİNDƏN MEYDANA GƏLMİŞDİR ١٧١
TƏNQİD VƏ MÜLAHİZƏLƏR ١٧١
Suallar və tapşırıqlar ١٧٢
OTUZ BEŞİNCİ DƏRS ١٧٣
ZEYDİYYƏ MƏZHƏBİNİN YARANMASI ١٧٣
ZEYD İBNİ ƏLİNİN TƏRCÜMEYİ-HALI ١٧٣
ZEYD İBNİ ƏLİNİN MÜƏLLİM VƏ ŞAGİRDLƏRİ ١٧٤
ZEYD İBNİ ƏLİNİN ELMİ ƏSƏRLƏRİ ١٧٥
ZEYD İBNİ ƏLİNİN QİYAMI ١٧٥
Suallar və tapşırıqlar ١٧٦

OTUZ ALTINCI DƏRS ........ ١٧٧
ZEYDİYYƏ MƏZHƏBİNİN E`TİQADLARI ........ ١٧٧
١. TÖVHİD VƏ ALLAHTANIMA ........ ١٧٧
٢. ALLAHIN ƏDALƏTİ ........ ١٧٨
٣. VƏ`D VƏ VƏİD ........ ١٧٨
(CƏNNƏTƏ MÜJDƏ, CƏHƏNNƏM ƏZABINDAN QORXUTMAQ) ........ ١٧٨
٤. NÜBUVVƏT ........ ١٧٩
٥. YAXŞI İŞLƏRƏ DƏ`VƏT VƏ PİS İŞLƏRDƏN ÇƏKİNDİRMƏK ........ ١٧٩
(ƏMR BE MƏ`RUF VƏ NƏHY ƏNİL MUNKƏR) ........ ١٧٩
٦. İMAMƏT ........ ١٨٠
Suallar və tapşırıqlar ........ ١٨٠
OTUZ YEDDİNCİ DƏRS ........ ١٨١
ZEYDİYYƏ FİRQƏLƏRİ ........ ١٨١
ZEYDİYYƏ FİRQƏLƏRİ ........ ١٨١
ZEYDİYYƏ FİRQƏSİNİN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ ........ ١٨٤
Suallar və tapşırıqlar ........ ١٨٥
OTUZ SƏKKİZİNCİ DƏRS ........ ١٨٦
İSMAİLİYYƏ MƏZHƏBİ ........ ١٨٦
İSMAİLİYYƏ MƏZHƏBİNİN TƏ`SİSÇİLƏRİ ........ ١٨٧
Suallar və tapşırıqlar ........ ١٩٠
OTUZ DOQQUZUNCU DƏRS ........ ١٩١
İSMAİLİYYƏ FİRQƏSİNİN E`TİQADLARI ........ ١٩١
Suallar və tapşırıqlar ........ ١٩٤
QIRXINCI DƏRS ........ ١٩٥
İSMAİLİYYƏNİN İMAMƏTƏ OLAN BAXIŞI ........ ١٩٥
SUALLAR VƏ TAPŞIRIQLAR ........ ١٩٩
QIRX BİRİNCİ DƏRS ........ ٢٠٠
İSMAİLİYYƏ FİRQƏLƏRİ ........ ٢٠٠
SUALLAR VƏ TAPŞIRIQLAR ........ ٢٠٣
QIRX İKİNCİ DƏRS ........ ٢٠٤
DƏRUZİYYƏNİN YARANMASI ........ ٢٠٤
HAKİM Bİ-ƏMRİLLAHIN TƏRCÜMEYİ- HALI ........ ٢٠٤
DƏRUZİYYƏNİN ƏQİDƏLƏRİ ........ ٢٠٥
SUALLAR VƏ TAPŞIRIQLAR ........ ٢٠٧
QIRX ÜÇÜNCÜ DƏRS ........ ٢٠٨
AĞAXANİYYƏ FİRQƏSİNİN YARANMASI ........ ٢٠٨
AĞAXANİLƏR ........ ٢٠٩
DİNİ BAXIŞ ........ ٢١٠
SUALLAR VƏ TAPŞIRIQLAR ........ ٢١١
QIRX DÖRDÜNCÜ DƏRS ........ ٢١٢
İMAMİYYƏ ........ ٢١٢
İMAMİYYƏ MƏZHƏBİNİN YARANMASI ........ ٢١٢
١. ŞİƏ MƏZHƏBİNİN TƏ`SİS EDİLMƏSİ ........ ٢١٣
BİRİNCİ HƏDƏF ........ ٢١٣
İKİNCİ HƏDƏF ........ ٢١٤

٢. ZÜHURU VƏ AŞKAR EDİLMƏSİ ..... ٢١٤
٣. BƏYAN VƏ DAVAM ETDİRİLMƏSİ ..... ٢١٥
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢١٥
QIRX BEŞİNCİ DƏRS ..... ٢١٦
İMAMİYYƏ ƏQİDƏSİ (١) ..... ٢١٦
١. TÖVHİD ..... ٢١٦
٢. İLAHİ ƏDALƏT ..... ٢١٧
٣. NÜBUVVƏT (PEYĞƏMBƏRLİK) ..... ٢١٨
٤. İMAMƏT ..... ٢١٩
٥. MƏ`AD ..... ٢٢١
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٢١
QIRX ALTINCI DƏRS ..... ٢٢٢
İMAMİYYƏ ƏQİDƏSİ(٢) ..... ٢٢٢
١. BƏDA ..... ٢٢٢
٢. İMAMLARIN İSMƏTİ ..... ٢٢٣
٣. İLAHİLƏŞDİRMƏ (ĞÜLUVV) ..... ٢٢٤
٤. RƏC`ƏT ..... ٢٢٥
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٢٥
QIRX YEDDİNCİ DƏRS ..... ٢٢٦
İMAMİYYƏNİN MƏŞHUR KƏLAM ALİMLƏRİ ..... ٢٢٦
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٢٩
QIRX SƏKKİZİNCİ DƏRS ..... ٢٣٠
DİGƏR ŞİƏ FİRQƏLƏRİ ..... ٢٣٠
١. KİSANİYYƏ ..... ٢٣٠
٢. VAQİFİYYƏ ..... ٢٣٢
٣. ƏLƏVİLƏR ..... ٢٣٢
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٣٣
BEŞİNCİ FƏSİL ..... ٢٣٥
QIRX DOQQUZUNCU DƏRS ..... ٢٣٥
ŞEYXİYYƏ FİRQƏSİNİN YARANMASI ..... ٢٣٦
ŞEYXİYYƏ FİRQƏSİNİN ƏQİDƏLƏRİ ..... ٢٣٧
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٣٩
ƏLLİNCİ DƏRS ..... ٢٤٠
BƏHAİLİYİN YARANMASI ..... ٢٤٠
ƏLİ MƏHƏMMƏD BABIN TƏRCÜMEYİ-HALI ..... ٢٤٠
BUŞEHRƏ GƏLMƏSİ ..... ٢٤٠
BABİLİK İDDİASI ..... ٢٤١
PEYĞƏMBƏRLİK İDDİASI ..... ٢٤١
BABIN TÖVBƏSİ ..... ٢٤٢
BABIN AQİBƏTİ ..... ٢٤٣
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٤٣
ƏLLİ BİRİNCİ DƏRS ..... ٢٤٤
BƏHAİLİYİN YARANMASI ..... ٢٤٤
BƏHAULLAHDAN SONRAKI BƏHAİLİK ..... ٢٤٥
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٤٦
ƏLLİ İKİNCİ DƏRS ..... ٢٤٨

BƏHAİLƏRİN MƏRAM VƏ ƏQİDƏLƏRİ ........ ٢٤٨
١. İSLAM ŞƏRİƏTİNİN NƏSX (LƏĞV) OLUNMASI ........ ٢٤٩
٢. ALLAHIN HÜLUL VƏ TƏCƏLLİ ETMƏSİ ........ ٢٤٩
٣. NAMAZ VƏ QİBLƏ ........ ٢٤٩
٤. TƏQVİM VƏ ÖLÇÜ ........ ٢٤٩
٥. HƏCC ........ ٢٥٠
٦. TƏHARƏT VƏ NƏCASƏT ........ ٢٥٠
٧. SƏLƏMÇİLİYİN HALALLIĞI ........ ٢٥١
٨. HİCAB VƏ NAMƏHRƏMƏ BAXMAQ ........ ٢٥١
SUALLAR VƏ TAPŞIRIQLAR ........ ٢٥١
ƏLLİ ÜÇÜNCÜ DƏRS ........ ٢٥٢
ƏHMƏDİYYƏ ........ ٢٥٢
ƏHMƏDİYYƏ FİRQƏSİNİN ƏQİDƏLƏRİ ........ ٢٥٣
ƏHMƏDİYYƏ FİRQƏSİNİN QULAM ƏHMƏDDƏN SONRAKI FƏALİYYƏTİ ........ ٢٥٥
Suallar və tapşırıqlar ........ ٢٥٥
ALTINCI FƏSİL ........ ٢٥٧
SUFİLİK ........ ٢٥٧
ƏLLİ DÖRDÜNCÜ DƏRS ........ ٢٥٧
SUFİLİK ........ ٢٥٧
SUFİ SÖZÜNÜN LEKSİK MƏ`NASI ........ ٢٥٨
SUFİNİN TƏ`RİFİ ........ ٢٥٩
Suallar və tapşırıqlar ........ ٢٦٠
ƏLLİ BEŞİNCİ DƏRS ........ ٢٦١
SUFİLİYİN İSLAM ALƏMİNDƏ MEYDANA GƏLMƏ SƏBƏBLƏRİ ........ ٢٦١
DAXİLİ AMİLLƏR ........ ٢٦١
٢. İCTİMAİ-SİYASİ ŞƏRAİT ........ ٢٦٣
Suallar və tapşırıqlar ........ ٢٦٤
ƏLLİ ALTINCI DƏRS ........ ٢٦٦
SUFİLİYİN MEYDANA GƏLMƏSİNDƏ TƏSİRLİ OLAN AMİLLƏR ........ ٢٦٦
١. SUFİLİYİN MEYDANA GƏLMƏSİNDƏ HİND MƏNŞƏLİ DİNLƏRİN ROLU ........ ٢٦٦
٢. YUNAN FƏLSƏFƏSİNİN SUFİLİYİN MEYDANA GƏLMƏSİNDƏ TƏSİRİ ........ ٢٦٧
٣. SUFİLİYİN İRANLA BAĞLILIĞI ........ ٢٦٨
٤. SUFİLİYİN MƏSİHİ RAHİBLİYİNDƏKİ KÖKLƏRİ ........ ٢٦٩
Suallar və tapşırıqlar ........ ٢٦٩
ƏLLİ YEDDİNCİ DƏRS ........ ٢٧١
İRFAN VƏ SUFİLİK ........ ٢٧١
İRFAN VƏ ARİF HAQQINDA İZAH ........ ٢٧١
İRFAN VƏ SUFİLİYİN FƏRQİ ........ ٢٧٢
Suallar və tapşırıqlar ........ ٢٧٣
ƏLLİ SƏKKİZİNCİ DƏRS ........ ٢٧٤
SUFİLİK ........ ٢٧٤
١.SUFİLİYİN ƏQİDƏ ƏSASLARI ........ ٢٧٤
٢. SUFİLİYİN QAYDA-QANUNLARI ........ ٢٧٥
Suallar və tapşırıqlar ........ ٢٧٧
ƏLLİ DOQQUZUNCU DƏRS ........ ٢٧٨
SUFİ FİRQƏLƏRİ (١) ........ ٢٧٨
Suallar və tapşırıqlar ........ ٢٨١

ALTMIŞINCI DƏRS ..... ٢٨٢
SUFİ FİRQƏLƏRİ (٢) ..... ٢٨٢
SUALLAR VƏ TAPŞIRIQLAR ..... ٢٨٥
İSTİFADƏ OLUNAN MƏNBƏLƏR ..... ٢٨٦